Azərbaycan Universiteti

# GƏNC TƏDQİQATÇILARIN V RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ MATERİALLARI

**15 aprel 2022-ci il**

**Bakı | AZƏRBAYCAN**

**SƏDR**

**Səadət Əliyeva**

Rektor, Azərbaycan Universiteti

**Üzvlər**

Yusif Qasımov

Nüşabə Quliyeva

Lətifə Ağamalıyeva

Asif Paşayev

Səfər Məmmədov

Ülviyyə Rəhimova

Qabil Əliyev

Nəriman Böyükkişi

Samirə Məmmədova

Tünzalə Verdiyeva

**Katib**

Afiq Nadirov

# MÜNDƏRİCAT


**Abasova Reyhanə**........................................................ 12
QƏRBDƏ HUMANİZM İDEYALARI

**Abbaslı Solmaz**........................................................ 13
AZƏRBAYCANDA AİLƏ MODELİNİN SOSİAL İŞ KONTEKSTİNDƏN TƏHLİLİ

**Abbasov Rauf**........................................................ 15
DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRA TƏHSİL SAHƏSİNDƏ SOSİAL İŞİN TƏŞKİLİ PROBLEMLƏRİ

**Abdullayeva Aynur**........................................................ 17
İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BANK SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Abdurahmanlı Ülkər**........................................................ 19
MƏŞĞULLUQ VƏ GƏNCLƏRİN QARŞILAŞDIĞI DİGƏR PROBLEMLƏR

**Adıgözəlli Gözəl**........................................................ 21
İNVESTİSİYA VƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN
SOSİAL-İQTİSADİ MAHİYYƏTİ

**Ağabəyli Vüsalə**........................................................ 23
CEYN AUSTENİN "QÜRUR VƏ QƏRƏZ" ƏSƏRİNDƏ GENDER MƏSƏLƏLƏRİ

**Allahverdiyev Bağır**........................................................ 25
MÜHARİBƏ NƏTİCƏSİNDƏ YARANMIŞ ÇƏTİN PSİXOLOJİ
VƏZİYYƏT VƏ İNTİHAR

**Allahyarov Səfərəli**........................................................ 27
QİYMƏTLİ KAĞIZLARIN NƏZƏRİ ƏSASLARI VƏ ONLARIN ƏSAS NÖVLƏRİ

**Aşirova Aytac**........................................................ 28
MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA KOMMERSİYA BANKLARININ VERGİYƏ CƏLB OLUNMASININ AKTUAL PROBLEMLƏRİ

**Aslanova Jalə**........................................................ 30
STAGES OF DEVELOPMENT OF FINANCIAL MANAGEMENT IN THE
MODERN CONDITIONS

**Axundova Fidan**........................................................ 34
BAYANDURLU – OSMANLI MÜNASIBƏTLƏRİNDƏ TRABZON
MƏSƏLƏSİNİN HƏLLİ

**Ахундова Лейла**........................................................ 36
ТРАДИЦИОННАЯ ПИЩА И НАПИТКИ НАСЕЛЕНИЯ БАКУ
В КОНЦЕ 19-НАЧАЛЕ 20 ВЕКА

**Axundova Zərifə**........................................................ 38
BEYNƏLXALQ TƏŞKİLATLAR KONTEKSİNDƏ İRAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

**Babayev Xanoğlan**.......... 40
QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ: MİLLİ VƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN QARŞILIQLI SƏCİYYƏSİ

**Bağırov Mübariz, Aydınlı Aydan**.......... 42
KOMMERSİYA BANKLARINDA MALİYYƏ MENECEMENTİNİN NƏZƏRİ ƏSASLARI

**Baxşəliyev Məhəmmədəli**.......... 44
MALİYYƏ-KREDİT TƏŞKİLATLARININ VERGİYƏ CƏLB EDİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

**Baxşəliyeva Aynur**.......... 47
FEİL VƏ FEİLİN TƏSRİFLƏNMƏYƏN FORMALARINDAN BİRİ OLAN MƏSDƏR

**Bayramova Minayə, Kazımlı Leyla**.......... 49
İONLAŞDIRICI QAMMA RADİASİYANIN CANLILARIN HEMOTOLOJİ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

**Cəfərova Rəna**.......... 50
AZƏRBAYCANDA SOSİAL İŞİN TƏŞKİLİNDƏKİ GENDER ASPEKTLƏRİ

**Dadaşov Amil**.......... 52
EHTİYATLARIN İDARƏ EDİLMƏSİNİN SİMULYASİYA MODELLƏŞDİRMƏSİ MONTE – KARLO METODUNUN TƏTBİQİ

**Dilənova Lalə**.......... 56
RƏQƏMSAL DİPLOMATİYA XARİCİ SİYASƏTİN TAMAMLAYICI VASİTƏSİ KİMİ

**Əbişzadə Samirə**.......... 58
ƏLİLLİYİ OLAN ŞƏXSLƏRLƏ SOSİAL İŞ

**Əfəndiyeva Könül**.......... 60
XX ƏSR FƏLSƏFƏSİNDƏ TİBBİ ETİKA VƏ MÜASİR HƏYAT

**Əhədzadə Təbibi**.......... 63
AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

**Ahmadli Maya**.......... 65
VOICES OF VERBS IN THE LANGUAGES SYSTEM

**Əhmədli Pərvin**.......... 67
AVROPA TƏCRÜBƏSİNDƏ KƏND TURİZMİNİN İNKİŞAFINA DƏSTƏK

**Əhmədoğlu Abbasəli**.......... 69
MİSTİK ƏDƏBİYYATIMIZIN QAYNAĞI DƏDƏ QƏRQUD KİTABI

**Əhmədov Hüseyn**.......... 71
VERGİ YÜKÜ VƏ DÖVLƏTİN VERGİ SİYASƏTİ

**Əhmədova Kəbirə**.......... 73
OBLASTA NƏZƏRƏN BİR EKSTREMAL MƏSƏLƏNİN ƏDƏDİ HƏLLİ HAQQINDA

**Əhmədova Lətifə**.......... 77
KURT VONNEQUT ROMANLARININ ƏSAS MÖVZU İSTİQAMƏTLƏRİ

**Ələkbərova Xədicə**............................................................ 78
RESURS MƏHDUDLUĞU PROBLEMİNİN HƏLLİNİN DÜNYA MİQYASINDA ALTERNATİV YOLLARI

**Алекберзаде Риад**............................................................ 80
О МЕТОДАХ И РЕШЕНИЯХ АУТЕНТИФИКАЦИИ ЛИЧНОСТИ

**Əliyev Hümbət**............................................................ 81
ETİK FİKİR VƏ ONUN TARİXİ MAHİYYƏTİ

**Əliyeva Aytac**............................................................ 83
QARABAĞA İNVESTİSİYA QOYULUŞLARININ TƏHLİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Əliyeva Aytən**............................................................ 85
EKSPRESS MARŞRUT XƏTLƏRİNİN TƏŞKİLİ VƏ İQTİSADİ ƏSASLANDIRILMASI

**Aliyeva Shalala**............................................................ 87
MORPHO-SYNTACTICAL ASPECTS OF DETERMINATION IN RUSSIAN WITH AZERBAIJANI EQUIVALENTS

**Əlizadə Anar** ............................................................ 89
GƏLİRLƏRİN, XƏRCLƏRİN VƏ MƏNFƏƏTİN TƏHLİLİ METODIKASI

**Əlizadə İlkin**............................................................ 91
NARKOTİK ASILILIQDA RİSK QRUPLARI

**Əlizadə Şəhla**............................................................ 92
TİKİNTİ SEKTORUNA İNVESTİSİYA QOYULUŞLARININ İDARƏ EDİLMƏSİNİN İQTİSADİ MEXANİZMLƏRİ

**Ализаде Самед**............................................................ 94
КЛИЕНТООРИЕНТИРОВАННОСТЬ ПОСРЕДСТВОМ СЕРВИТИЗАЦИИ

**Əmirbəyova Raidə**............................................................ 96
VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN SOSİAL MÜDAFİƏSİ SAHƏSİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN ROLU (2004-2015-ci illər)

**Əsədzadə Zaur**............................................................ 98
LAYİHƏ MENECMENTİNDƏ HEYYƏTİN İDARƏ EDİLMƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Əsgərova Bənövşə**............................................................ 99
QƏDİM VƏ MÜASİR DÖVRLƏRDƏ İNGİLİS DİLİNDƏ SÖZ SIRASI

**Əsgərova Nigar**............................................................ 101
EMİ TAN YARADICILIĞI ƏDƏBİ TƏNQİDDƏ

**Əzizov Bəhram, Babayev Nail, İbrahimli Valeh**............................................................ 103
EHTİYYATLARIN LOGİSTİKA İDARƏETMƏ SİSTEMLƏRİNDƏ YARANAN TƏHLÜKƏSİZLİK RİSKİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Fərzəliyeva Adilə**............................................................ 106
KOQNİTİV DİLÇİLİKDƏ KONSEPTOSFER ANLAYIŞINA BAXIŞ

**Fərzəliyeva Zümrüd**............................................................ 107
REKLAM MƏTNLƏRİNİN TƏŞKİLİNDƏ İŞTİRAK EDƏN LEKSİK VASİTƏLƏR

**Hacıyeva Aliyə**........................................................................................................................................ 110
ŞAH I ABBASIN AVROPA İLƏ ƏLAQƏLƏRİ - BÖYÜK ELÇİLİK

**Hamza Nacer**.......................................................................................................................................... 112
REVIEW OF NORM DISTRIBUTION AND BEHAVIORS IN PRODUCED WATER
FROM OILFIELD INDUSTRIES

**Haxverdiyeva Bəyim**............................................................................................................................... 119
OTLUQBELİ SAVAŞİNDA BAYANDURİ QOŞUNLARININ
MƏĞLUB OLMA SƏBƏBLƏRİ

**Həsənova Naciyə**..................................................................................................................................... 121
ƏLİLLİYİ OLAN GƏNCLƏRİN SOSİAL PSİXOLOJİ PROBLEMLƏRİ

**Həsənova Nərmin**.................................................................................................................................... 122
TURİZM REKREASİYA ZONALARININ YARADILMASININ MƏQSƏDLƏRİ

**Heydərov Vüsal**....................................................................................................................................... 124
PANDEMİYA VƏ "VƏTƏN MÜHARİBƏSİ" ZAMANI YEYİNTİ SƏNAYESİNDƏ RƏQƏMSAL
MARKETİNQ

**Hüseynli Rəşid**......................................................................................................................................... 126
MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFININ RESURS TƏMİNATI

**Hüseynov Rəfael**..................................................................................................................................... 128
AQROBİZNESİN SƏMƏRƏLİ TƏŞKİLİNDƏ ELEKTRONLAŞMANIN
PRİORİTET İSTİQAMƏTLƏRİ

**Hüseynov Tayfun**.................................................................................................................................... 130
SIĞORTA BAZARININ MÖVCUD VƏZİYYƏTİ VƏ
İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Hüseynov Hidayət, Bağırzadə Türkan**...................................................................................................... 131
KƏSİLMƏ ŞƏRTİNƏ MALİK ŞTURM -LİUVİL TƏNLİYİ ÜÇÜN BÜTÜN OXDA SƏPİLMƏNİN DÜZ
MƏSƏLƏSİ

**Hüseynov Hidayət, Şamilova Rəsmiyyə**.................................................................................................. 133
YARIMOXDA KƏSİLƏN ƏMSALLI İKİNCİ TƏRTİB DİFERENSİAL
TƏNLİK ÜÇÜN SƏPİLMƏNİN DÜZ MƏSƏLƏSİ

**Hüseynova Aynurə**.................................................................................................................................. 134
İKİNCİ RUSİYA – QACARLAR İRANI MÜHARİBƏSİNİN
BAŞLANMASI SƏBƏBLƏRİ

**Hüseynova Könül**..................................................................................................................................... 136
TARİXİ – MƏDƏNİ İRSİN MUZEY VASİTƏLƏRİ İLƏ AKTUALLAŞDIRILMASI

**Hüseynova Nərmin**.................................................................................................................................. 137
ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞDIRILMASINDA VERGİ AMİLİ

**İbrahimova Türkanə**................................................................................................................................. 139
AZƏRBAYCAN ƏDƏBIYYATINDA MEMUAR JANRI VƏ ONUN ELMİ ARAŞDIRILMASINA DAİR

**İsayeva Gülanə**........................................................................................................................................ 141
TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN TƏHLİLİNİN
TƏKMİLLƏŞDİRİLMƏSİNİN ZƏRURULİYİ

**İsmayılova Ayşən**..................................................................................................................................... 143
ORTA MƏKTƏBDƏ SOSİAL-PSİXOLOJİ ATMOSFERİN ŞAGİRDLƏRƏ TƏSİRİ

**İsmayılova Nərmin**.......................................................................................................................... 145
DEPOZİT VƏ KREDİT BAZARLARININ QARŞILIQLI İNKİŞAF PERSPEKTİVLƏRİ

**İsmayılova Şahnaz**.......................................................................................................................... 147
MÜƏSSİSƏNİN MARKETİNQ FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**İsrafilova Könül**.......................................................................................................................... 149
DÜNYA ƏDƏBİ ESTETİK FİKRİNDƏ PSİXİ POZUNTU PROBLEMİ

**Kərimbəyli İntizar, Kərimova Nisaxanım**.......................................................................................... 152
İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏN GÖTÜRÜLMÜŞ TORPAQ NÜMUNƏLƏRİNDƏ PESTİSİDLƏRİN TƏDQİQİ

**Kərimova Nərmin**.......................................................................................................................... 153
CASTİN KRONİNİN "KEÇİD" TRİLOGİYASI DÜNYANIN SONU KONTEKSTİNDƏ

**Lətifova Əsmər**.......................................................................................................................... 155
BAHARLI TAYFA İTTİFAQININ HAKİMİYYƏT UĞRUNDA MÜBARİZƏSİ

**Mehdiyev Rəşid**.......................................................................................................................... 158
AZƏRBAYCAN VƏ TÜRKIYƏ ARASINDA HƏRBİ ƏMƏKDAŞLIĞIN REGİONAL VƏ BEYNƏLXALQ ASPEKTLƏRİ (1991-2000-ci illər)

**Məhərrəmova Günel**.......................................................................................................................... 160
BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ MİLLİ SOSİAL MÜDAFİƏ SİSTEMLƏRİ

**Меликов Амин**.......................................................................................................................... 162
ОПЕРАТОР КАК ХУДОЖНИК

**Məmmədli Abbas**.......................................................................................................................... 164
AZƏRBAYCANIN BANK SİSTEMİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN RİSKLƏRƏ TƏSİRİ

**Məmmədli Abdulla**.......................................................................................................................... 166
DÖVLƏTİN MALİYYƏ SİSTEMİNDƏ VERGİ NƏZARƏTİNİN ROLU

**Məmmədli Aynur**.......................................................................................................................... 167
BANK SEKTORUNDA DAYANIQLILIĞIN TƏMİN OLUNMASI

**Məmmədli Nərmin**.......................................................................................................................... 170
QİYMƏT PROQNOZLAŞDIRMA TEXNİKALARI VƏ ONLARA TƏSİR EDƏN AMİLLƏR

**Məmmədov Həbib**.......................................................................................................................... 172
MÜASİR ŞƏRAİTDƏ AİLƏ İNSTİTUTUNA EHTİYACIN TƏHLİLİ

**Məmmədov Məmməd**.......................................................................................................................... 174
1918-Cİ İLDƏ ŞAMAXIDA TÜRK MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMI MÜASİR AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

**Мамедова Камала**.......................................................................................................................... 176
ПОЛОВЫЕ РАЗЛИЧИЯ В ДОСТИЖЕНИИ УСПЕХА И СОЦИАЛЬНАЯ АКТИВНОСТЬ

**Məmmədova Vüsalə**.......................................................................................................................... 178
REKLAM MƏTNLƏRİNDƏ İSTİFADƏ EDİLƏN QRAMMATİK VASİTƏLƏR

**Məsimov Nicat**.......................................................................................................................... 180
MÜHARİBƏ VƏ MÜNAQİŞƏ QURBANLARI İLƏ SOSİAL İŞ

**Mirzəyev Emil**........................................................................................................................................ 182
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İQTİSADİYYAT QURUCULUĞUNDA DÖVLƏT – ÖZƏL ƏMƏKDAŞLIĞI

**Mirzəyeva Sevinc**..................................................................................................................................... 184
İNGİLİS XALQ NAĞILLARI MƏTNLƏRİNİN ÜSLUBİ FONOTAKT TƏRTİBLƏNMƏSİ HAQQINDA

**Mollayev Nurlan**...................................................................................................................................... 186
KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ÖLKƏ İQTİSADİYYATINDA ROLU VƏ ƏHƏMİYYƏTİ

**Murtuzayeva Günay**................................................................................................................................ 188
NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA SEVGİ MİNİATÜRLƏRİ

**Musazadə Təbriz**..................................................................................................................................... 191
MOBİLLİYİ SÜRƏTLƏNDİRƏN MÜƏSSİSƏDƏ MULTİSERVİS ŞƏBƏKƏNİN QURULUŞ MODELİ

**Mustafayeva Əsmər**................................................................................................................................. 194
II QARABAĞ MÜHARİBƏSİ GEDİŞİNDƏ XARİCİ DÖVLƏTLƏRİN MÖVQEYİ

**Müzəffərli Nərmin**.................................................................................................................................... 197
MÜƏSSİSƏNİN İNFORMASİYA İNFRASTRUKTURUNUN TƏRKİBİNDƏ İNFORMASİYANIN QORUNMASININ TƏŞKİLİ

**Nadirli Mələk**........................................................................................................................................... 200
TURİZM SEKTORUNDA VERGİ ÖDƏNİŞLƏRİNİN VƏZİYYƏTİ

**Nadirov Afiq**............................................................................................................................................ 201
ETNİK MÜXTƏLİFLİK ÇOXMƏDƏNİYYƏTLİLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

**Нуралиева Сабина**................................................................................................................................... 204
ИНФОРМАЦИОННО-УБЕЖДАЮЩАЯ ФУНКЦИЯ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ

**Nuri Alim**.................................................................................................................................................. 206
MONETAR SİYASƏTİN İQTİSADİ İNKİŞAFDA ROLU

**Nuriyeva Nuranə**...................................................................................................................................... 208
VAŞİNQTON İRVİNQİN "ƏLHƏMRA" HEKAYƏLƏR TOPLUSUNDA ŞƏRQLƏ QƏRBİN DİALOQU

**Osmanova Məlahət**.................................................................................................................................. 211
XX ƏSRİN 60-CI İLLƏRİNDƏ ALMAN VƏ AZƏRBAYCAN ROMANININ MÜQAYİSƏLİ-TİPOLOJİ TƏHLİLİ

**Garayeva Pari, Hajiyev Yashar**................................................................................................................ 213
MINING FEEDBACK FROM STUDENTS TO ENHANCE TEACHING METHODOLOGY

**Qasımov Elman**........................................................................................................................................ 216
BANK SİSTEMİNİN DAYANIQLIĞININ NƏZƏRİ-METEDOLOJİ MƏSƏLƏLƏRİ

**Qocayeva Əminə**...................................................................................................................................... 218
1905-1907-Cİ İLLƏRDƏ ERMƏNİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAQLARINDA SOYQIRIM SİYASƏTİ

**Qocayeva Səmayə, Xanməmmədov Aqil** ................................................................................................. 220
QEYRİ-XƏTTİ DİFERENSİAL TƏNLİKLƏR SİSTEMİ ÜÇÜN KOŞİ MƏSƏLƏSİ

**Quliyeva Salatın**........................................................................ 221
İNSANLARDA DAVRANIŞ POZUNTULARI

**Qurbanlı Səkinəxanım**........................................................................ 223
NİL QEYMANIN "XOŞ PROQNOZLAR" ROMANINDA DİNİ-MİFOLOJİ
MOTİVLƏRƏ İRONİYA

**Qurbanzadə Nurlan**........................................................................ 225
MİLLİ TURİZM SƏNAYESİNİN FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ-TƏCRÜBİ ƏSASLARI

**Рагимова Айдан**........................................................................ 227
ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ ПРИ МАКРОРЕГУЛИРОВАНИИ
ВАЛЮТНЫХ КУРСОВ

**Rəhimova Nigar**........................................................................ 232
MƏTNDƏ KOHEZİYA VƏ KOHERENTLİK

**Rəhimzadə Orxan**........................................................................ 234
YOL HƏRƏKƏTİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ NƏQLİYYAT
MODELLƏŞDİRİLMƏSİ

**Rüstəmzadə Aygün**........................................................................ 238
BƏDƏN DİLİNİN İFADƏSİNDƏ GENDER ASİMMETRİYASI

**Rzaxanov Rasim**........................................................................ 240
"BİR PƏNCƏRƏ PRİNSİPİ" - AZƏRBAYCAN RESPUBLİKASININ MİQRASİYA SİYASƏTİNİN
TƏRKİB HİSSƏSİ KİMİ

**Rzayev Məmmədtağı**........................................................................ 242
DİN VƏ MƏNƏVİ İDEAL BARƏDƏ BƏZİ MÜLAHİZƏLƏR

**Rzayeva Arzu**........................................................................ 244
INTERNATIONAL CULTURAL RELATIONS OF THE REPUBLIC OF AZERBAIJANAS A PRIORITY
OF STATE POLICY

**Rzayeva Nargilə**........................................................................ 246
ÖVLADLIĞA GÖTÜRÜLMÜŞ UŞAQLARIN RASTLAŞDIĞI ÇƏTİNLİKLƏR

**Sadıqov Əminağa, İmanov Mirsiyab**........................................................................ 248
FÖVQƏLADƏ HALLARIN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ METODLARI

**Sahibli Seyfəddin**........................................................................ 250
BANKLARIN KAPİTALLAŞMA SƏVİYYƏSİNİN ÜMUMİ İQTİSADİ
İNKİŞAFA TƏSİRİ

**Salmanova Aydan**........................................................................ 252
ECOTOURISM AND ECOTOURISM ENTREPRENEURSHIP AS THE
CONCEPT OF THE MODERN WORLD

**Sanıyeva Aytac**........................................................................ 254
ƏLİLLİYİ OLAN GƏNCLƏRİN REABİLİTASİYASI VƏ BU PROSESDƏ
SOSİAL İŞÇİLƏRİN ROLU

**Sayadova Elnaz**........................................................................ 256
MARKETİNQ STRATEGİYASI ÇƏRÇİVƏSİNDƏ REKLAM BİZNESİNİN
ROLU VƏ ƏHƏMİYYƏTİ

**Səfərəliyev Əliağa**........................................................................ 258
MƏNSUBİYYƏT ŞƏKİLÇİLƏRİNİN POETİKASI

**Səfərova Günel**........................................................................................................................................ 260
LİZİNQ XİDMƏTLƏRİ BAZARININ MALİYYƏLƏŞDİRİLMƏSİNİN
PRİORİTETLƏRİ VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

**Sefiyev Mirali**........................................................................................................................................ 262
ANTİBÖHRAN TƏDBİRLƏRİNİN BANK SİSTEMİNİN
DAYANIQLILIĞINA TƏSİRİ

**Seyidzadə Aytac**........................................................................................................................................ 264
TURİZM SAHƏSİNDƏ İNVESTSİYA FƏALİYYƏTİNİN
XÜSUSİYYƏTLƏRİ

**Şərifova Vüsalə**........................................................................................................................................ 266
TARİXİ ABİDƏ VƏ QORUQLARIN QORUNMASI VƏ TƏBLİĞİ SAHƏSİNDƏ AZƏRBAYCANIN
BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI

**Şirinova Ləman**........................................................................................................................................ 268
KAPİTALIN MAHİYYƏTİ VƏ İQTİSADIYYATDA ROLU

**Şirinov Rasim, Şükürova Xatirə**........................................................................................................................................ 269
TƏCRÜBƏLƏRİN PLANLAŞDIRILMASI ÜSULU İLƏ RİYAZİ
MODELLƏRİN QURULMASI

**Süleymani Ülvi**........................................................................................................................................ 273
TURİZMDƏ QİYMƏTLƏRİN TƏNZİMLƏNMƏ MEXANİZMLƏRİ

**Süleymanlı Əhliman**........................................................................................................................................ 276
VERGİTUMA MEXANİZMİNİN XARAKTERİSTIKASI

**Sultanova Lamiə**........................................................................................................................................ 278
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ
KƏNDLİ ÜSYANLARI

**Tağızadə Leyla**........................................................................................................................................ 279
ƏRDƏBİL HAKİMLİYİ

**Tahirli Tural**........................................................................................................................................ 282
RƏQƏMSAL MARKETİNQİN BEYNƏLXALQ BİZNESDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

**Tahirzadə Balabəyim**........................................................................................................................................ 284
ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNƏ OLAN TƏDBİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Umarova Günay**........................................................................................................................................ 286
GÜRCÜSTANDA ERMƏNİ SEPARATİZMİ: SAMTSXE-CAVAXETİYA

**Üzeyirli Aydan**........................................................................................................................................ 288
AİLƏDAXİLİ MÜNASİBƏTLƏR

**Vəliyeva Vəsilə**........................................................................................................................................ 290
ZAMANIN LİNQVİSTİK TƏHLİLİ

**Verdiyeva Tünzalə**........................................................................................................................................ 292
QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRLƏ SOSİAL İŞ

**Xanməmmədov Aqil, Səlimli Aytac**........................................................................................................................................ 295
TODA ZƏNCİRİNİN SÜRƏTLƏ AZALAN HƏLLİNİN VARLIĞI

**Khudaverdiyev Elvin**........................................................................................................................... 296
THE POLICY OF MULTICULTURALISMPRINCIPLES AND
AZERBAIJANI MODEL

**Zəkizadə Seyidmahir**......................................................................................................................... 298
AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİNDƏ TƏHSİLİN İNKİŞAFI ÜÇÜN
İNFRASTRUKTURUN YARADILMASI

# QƏRBDƏ HUMANİZM İDEYALARI

**Reyhanə Abasova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
reyhane064@gmail.com

"Humanizm" (insanlıq) terminınə ilk dəfə Siseronun əsərlərində rast gəlinmişdir. Lakin bu anlayış ondan çox geniş mənada təqdim olunur. Əslində, bu, insanı heyvandan fərqləndirən hər şeyi, daha dar mənada isə antik cəmiyyətin insan idealına uyğun olanı xarakterizə edir. Lakin antik dövrdə insan, ümumiyyətlə, kosmosun periferiyasında yerləşən insan kimi nəzərdən keçirilirdi. "Onun varlığının bütün əsas məqsədləri kosmik dünya nizamı tərəfindən verilmişdir. Bu onu göstərir ki, antikliyə tətbiq edilən "humanizm" termini yalnız şərti mənada istifadə edilə bilər" [1].

Əlbəttə, istənilən etik sistem artıq o qədər sadə faktdır ki, o, bəzi ümumi qaydaları özündə ehtiva edir, ayrı-ayrı şəxslərin özbaşınalığını məhdudlaşdırır. Lakin antik etika daha çox iki fikri nümayiş etdirir. Burada birinci ideya siyasətlə bağlı olub, dövlətin rifahı naminə prioritet istiqamət kimi təqdim olunur. Bu, fərdin öz maraqlarını qurban verməyə məcbur edir və qeyri-insani tələblərə çevrilə bilər. Digər fikir isə, əksinə, fərdilik tendensiyası ilə təmsil olunur. Bu xüsusiyyət əsasən ellinizm dövrünün etik konsepsiyaları (skeptisizm, epikurizm, stoisizm) üçün xarakterikdir. Onlarda ruhun əmin-amanlığına nail olmaq arzusu istənilən şəraitdə humanist görünə bilər. Lakin bu, insanların bir-birini dəstəkləməsinə yönəlmiş real praktikaya yer qoymur.

Romada ellinizm mədəniyyətində ən böyük təşəbbüs şücaət hesab olunurdu. Vətən naminə hərəkətlər orada prioritet vəzifələr kimi baxılırdı. Ancaq bu vəzifələrin yerinə yetirilməsi müasir dillə desək, böyük şəxsi məna daşıyırdı. Roma mifologiyası öz borcunu yerinə yetirərək, Tanrıların işini davam etdirərək, insanın özü də cəmiyyət, yaxınlar və tanrılar qarşısında xidmətlər nəticəsində Allaha çevrilə biləcəyi ideyasını ehtiva edirdi. Mənəvi fəlsəfənin bu növü motivasiya adlandırmaq olar. Daha sonra o, Giordano Bruno ideyalarında, hegelevskaya və marksist fəlsəfəsində İntibah dövründə təqdim olunmağa başlandı. Bütün bu konsepsiyalarda humanizm şəxsiyyətin özünü reallaşması haqqında təsəvvürlərlə bir və ya digər şəkildə əlaqələndirilir.

Yeni humanist ideyaların inkişafı ifadə olunduğu cərəyanlar fəlsəfi baxımdan metafizik düşüncə tərzindən imtina etməkdə ifadə olunur. XX əsrin məşhur alman filosofu Martin Haydegger hesab edir ki, "humanizm" sözü məhz metafizika ilə bağlı olduğuna görə əhəmiyyətini itirib.

M.Haydeggerin fəlsəfi fikirlərində onun müəllimi Edmund Gusserlin və fenomen fəlsəfəsinin nəticələri aydın görünür. Haydegger (1889-1976) ekzistensializm nəzəriyyəsinin banilərindən biri kimi sübut etməyə çalışırdı ki, insana tarixi varlıqtək baxmaq lazımdır. Haydeggerin bu mövzuda apardığı araşdırmalarını nəzərə alaraq onun "Varlıq və zaman" əsərinin aparıcı mövzularından biri olmuşdur. Müəllif bu əsərində yeni ontologiyanın – "varlıq fəlsəfəsi"nin yaradılması məsələsini qaldırmışdır. Haydeggerin fikrinə görə, "varlığın həlledici aspekti insanın mövcudluğudur" [2].

Ekzistensializm nöqteyi-nəzərincə başqa dünya yaratmaq qabiliyyəti, gələcək dünyanın surətini seçmək bacarığı insanın azadlığının nəticəsidir. Çünki insan azadlıq deməkdir. Ekzistensialistlər xüsusi qeyd edirlər ki, insan tamamilə onun məqsədlərinin real imkanlarından asılı olmayaraq

azaddır. İnsanın azadlığı istənilən şəraitdə qorunur və o da öz ifadəsini, seçmək imkanında tapır. Beləliklə, ekzistensializmdə azadlıq — ilk növbədə, şüur azadlığı, fərdin mənəvi-əxlaqi mövqe seçimi azadlığıdır.

Bəşəriyyətin mənəvi həyatında humanizmin formalaşması prosesi hazırda davam etməkdədir. Klassik humanizm və yeni dövrün humanizm ideyaları ilə zənginləşir, xüsusilə, qloballaşma müasir humanist dünyagörüşünə daha çox mədəni dəyərlər verir. Xüsusən də, son illərdə klassik humanizm və modern humanizm komponent olaraq, müasir qlobal siyasətin humanitar məzmununu təşkil edir. “Mövcud beynəlxalq hüququn bütün təməl sənədlərində humanizm, prinsip, ideya, məqsəd, akt, hüquqi prosedur anlamında və qoyuluşunda təsbit edilmişdir” [4].

**Açar sözlər:** humanizm, fəlsəfə, qlobal böhran, varlıq.

## Ədəbiyyat

1. Диоген Лаэртский. О жизни, учениях и изречениях знаменитых философов. М., 1979, с.306.
2. Хайдегер М. Время и бытие. М., 1993, с. 197.
3. Антология мировой философии. Возрождение. Минск: Харвест, М.: АСТ, 2001.
4. Kaczorowska A. Public International Law. London, New York: Routledge, 2010.

# AZƏRBAYCANDA AİLƏ MODELİNİN SOSİAL İŞ KONTEKSTİNDƏN TƏHLİLİ

**Solmaz Abbaslı**
Azərbaycan Universiteti
solmaz.abbasli.22.12.1998@gmail.com

Ailə - qohumluq münasibəti olan şəxslər arasında əlaqədir. Qərb ailə münasibətləri Şərq ailə münasibətlərindən fərqlənir. Belə ki, Qərbdə adətən nuklear (ata, ana və övladları) ailə modelinə rast gəlinirsə, Şərq ailələrində mürəkkəb (ata, ana, övladlar və digər ikinci dərəcəli qohumlar) ailə modeli daha geniş yayılmışdır.

Ailə anlayışına digər bir aspektdən tərif versək, "ailə dövlətin kiçik modeli kimidir". Ailə dəyərləri güclü olan ölkələrdə, dövlət də inkişaf etmişdir. Lakin ailə dəyərləri, mənəviyyatı zəif olan ölkələr qüdrətli bir dövlət ola bilməz.

Ailə nədir? Müasir ensiklopediyalarda və lüğətlərdə ailəyə müxtəlif təriflər verilir. Məsələn, “Fəlsəfə üzrə ensiklopedik lüğət”də deyilir: “Ailə nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Onun üzvləri bir – birilə məişət birliyi, qarşılıqlı mənəvi məsuliyyət və qarşılıqlı məsuliyyətlə bağlı olan adamların nikah və ya qan qohumluğuna əsaslanan birliyidir” [2, s.198].

Yuxarıda qeyd etdiyimiz tərifi izah etsək mahiyyət olaraq qeyd etməliyik ki, iki şəxs ailə qurarkən ilkin olaraq öz mənəvi və qarşılıqlı məsuliyyətlərini dərk etməlidir. Çünki ailə iki gəncin ortaq məqsədlər üçün ittifaq bağlamasıdır. Ailə qurarkən gənclər öz məsuliyyətlərini dərk etməsələr bu zaman həmin ailənin təməli zəif qurulduğundan ailədə boşluqlara səbəb olacaq. Bu boşluqlar zaman keçdikcə böyüyərək, ailələrin uğursuz olmasına zəmin yaradacaqdır.

Uğursuz ailə dedikdə, ilk başdan təməli zəif qurulmuş ailələr, onların yaşadığı problemlər nəticəsində ailə ittifaqının dağılması nəzərdə tutulur. Ölkəmizdə uğursuz ailələrə müasir dövrdə daha çox rast gəlirik. Bunun səbəbi kimi ailə münasibətlərinə xələl gətirən amilləri göstərmək olar. Məsələn, ailə daxili münaqişələr, kənar təsirlər, iqtisadi amillər, psixoloji amillər, pedoqoji amillər, tibbi amillər, asosial amillər və s. aid edilir [2, s.47].

Yuxarıda qeyd etdiyimiz nüanslara, yaxından nəzər salaq. İlk öncə belə bir şeyi qeyd etməliyik ki, müasir ailələrdə gənc xanım və bəylərin ailədə bir – birlərinin tələblərinə əhəmiyyət vermirlər, bir – birlərinə qarşı yerli – yersiz iradlar tuturlar. Bu da gənclər arasındakı səmimiyyəti, mehribanlığı azaldır. Səmimiyyət və mehribanlıq olmayan yerdə isə ailə dəyərləri zəifləyir və ailənin ömrü qısamüddətli olur.

Uğursuz ailələrin digər bir səbəbi kimi, yuxarıda ailə daxili münaqişləri qeyd etmişik. Həllindən asılı olaraq ailədaxili münaqişələr iki tipə bölünür:

• Yaradıcı – bir – birilərinə qarşı münasibətdə səbrli təmkinli davranırlar, münaqişlərin meydana gəlməsinin səbəblərini düşünüb həll etməyə çalışırlar. Nəticə etibarilə, bu tip münaqişlərdə ailələrin xeyirxah ünsiyyəti yaranır.

• Dağıdıcı – bir – birlərinə qarşı həddindən artıq aqresiya, təhqirlər, günahı qarşı tərəfdə axtarmaq və s. kimi xoşagəlməz davranışlar göstərirlər. Nəticə etibarilə, tərəflərdə qarşılıqlı hörmət yoxa çıxır və ailə ittifaqı dağılır.

Ölkəmizdə gənc ailələrə kənar təsirlərin olması ilə tez – tez rastlaşırıq. Bu hal mental dəyərlərimizə görə qaçınılmazdır. Kənar təsirlər xüsusilə valideynlər və yaşlı nəslin nümayəndələri tərəfindən olur. Gənc ailələrə olunan kənar təsirlər bir müddət sonar onlar arasında münaqişlərə və boşanmalara gətirib çıxarır.

Yuxarıda qeyd etdiyimiz kimi, ailədə qarşlıqlı münasibətlərə xələl gətirən digər amillər isə aşağıdakılardır :

• İqtisadi amil: işsizlik, həyat səviyyəsinin həddindən aşağı olması və s.

• Psixoloji amil: ailədaxili zorakılıq, tərəflərin sədaqətsizliyi, təlabat və maraqların toqquşması və s.

• Asosial amil: ailənin bir üzvünün qeyri sağlam həyat tərzi sürməsi ( alkoqlizm,narkomaniya və s.).

• Pedaqoji amilər: mənəvi dəyərlərə, dünyagörüşü məsələlərinə və uşaqların tərbiyəsinə münasibətdə əks mövqelər [1, s.47].

Uğursuz ailələrdə adətən emosional qərarsızlıq, başqa adamlarla yola gedə bilməmək, hökmranlıq iddiası və s. kimi xoşagəlməz keyfiyyətlərdə olur. Lakin onu da qeyd etməliyəm ki, heç də hər bir uğursuz ailənin sonu ayırlıq, boşanma ilə nəticələnmir. Tərəflər bütün narazılıqlarına baxmayaraq ömür boyu bu münaqişələrlə yaşayırlar. Lakin bu tip ailələrdə böyüyən uşaqlarda deviant davranış özünü əks etdirir.

Ailələrdə olan boşluqları aradan qaldırmaq üçün, vacibdir ki , gənclər evlənəcəyi şəxsi öz iradəsi ilə heç bir kənar təsirə məruz qalmadan seçsin. Zənnimcə, bu seçimi edərkən yaxşı olardı ki, gənclərimiz aşağıdakı nüanslara diqqət etsinlər:

• Gənc qarşısındakı insanla ünsiyyət qurmaqdan mənəvi cəhətdən nə qədər zövq alır. Birlikdə ünsiyyət qurmaq hər iki tərəfi məmnun edirmi? Zənnimcə, ilk öncə gənclər bu nüansa diqqət yetirməlidir.

• Gənclərin hədəfləri üst - üstə düşürmü? Yuxarıda da qeyd etdiyimiz kimi ailə ittifaqı ortaq bir hədəf, bir məqsəd üçün qurulmuşdur. Buna görə də gənclərimiz seçim edərkən bir - birlərinin məqsədlərinə və ortaq hədəflərinə diqqət yetirməlidirlər.

• Gənclər ailə həyatı qurmadan öncə bir - biri ilə mümkün olduğu qədər zaman keçirməli, hər iki tərəfin müsbət və mənfi cəhətlərini analiz etməlidirlər. Bu gənclərin bir - birini daha yaxından tanımasına zəmin yaradacaq.

**Açar sözlər:** Ailə, uğursuz ailə, uğursuz ailələrin mahiyyəti, ailə dəyərləri.

## Ədəbiyyat

1. Hüseyinzadə R., Allahverdiyeva L., Ailə Pedaqogikası, Bakı, 2015.
2. Abbasov A., Milli əxlaq və ailə etikası, Bakı, 2016.

# DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRA TƏHSİL SAHƏSİNDƏ SOSİAL İŞİN TƏŞKİLİ PROBLEMLƏRİ

**Rauf Abbasov**
Azərbaycan Universiteti
rauf.abbasov@student.au.edu.az

1991-ci ildə dövlət müstəqilliyini əldə etdiyi vaxt Azərbaycanın siyasi və iqtisadi vəziyyəti olduqca ağır idi. Bu daha çox erməni separatizmi nəticəsində ölkədə yaranmış vəziyyətlə əlaqədar idi. Qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarından didərgin düşməsinin nəticəsi olaraq onların zəruri ehtiyaclarının qarşılanması, ilk əvvəl həll olunması əsas olan məsələ idi. Bu, o dövrün tələbi idi və vəziyyətdən çıxmaq üçün başqa yol yox idi [1]. Həmçinin Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması nəticəsində təhsil sistemi də böyük zərbələr almışdır. Ermənilər tərəfindən işğal edilmiş ərazimizdə mövcud olan 616 ümümtəhsil orta məktəbi, 11 texniki peşə məktəbi, 243 məktəbəqədər müəssisə, 4 orta ixtisas təhsil müəssisəsi və 1 ali təhsil müəssisəsi dağıdılmışdır.

Dövlət müstəqilliyinin bərpasının ilk illərində təhsil sistemində mövcud olan problemlər hələ də gərgin olaraq qalırdı. Həmin müəssisələrdə təhsilin köhnəlmiş olan dərsliklərlə aparılması, təhsil infrastrukturunun zəif olması, təhsil obyektlərinin bir çoxunun acınacaqlı vəziyyətdə olması təhsil sisteminin inkişafına mane olan başlıca səbəblərdən idi.

Müstəqilliyin ilk illərində sosial iş sahəsində adi biliklərin olmaması şagird-müəllim, məktəb-müəllim münasibətlərinin düzgün nizama salınmasında çətinlik doğururdu. 1996-cı ildə məktəb problemi olan məktəblilərin sayı artmaqda idi. Belə uşaqların sayı 80%-ə çatırdı və onlar əsasən sosial

cəhətdən kasıb olan rayonlarda yaşayanlardan ibarət idi. Məktəb problemini mütəxəssislər əsasən 2 hissəyə ayırırlar:

1. Yetim uşaqların, çoxuşaqlı və imkansız ailələrin problemləri.
2. Zəif oxuyan uşaqların praktiki həlli mümkün olmayan sosial problemləri.

Təhsil idarələri bu işi təşkilati yolla həll etmək istədilər: belə uşaqları təcrid edib xüsusi siniflərə cəlb etdilər, amma burada istənilən nəticə əldə oluna bilmədi, əksinə olaraq cəmiyyətin parçalanmasına səbəb olurdu [2]. Sosial işin yaranması ilə bu problemin həllində müəyyən nailiyyətlər əldə edildi.

Keçmiş SSRİ dövlətlərində sosial iş olmadığı üçün Açıq Cəmiyyət Fondu 2000-ci ildə sosial iş mütəxəssislərinə təlim vermək üçün təhsil proqramını həyata keçirmişdir. Proqram 2012-ci ildə başa çatmışdır [3]. Həmçinin sosial işin tanınması üçün bir sıra konfranslar, təlimlər və seminarlar keçirilirdi. Müstəqillik illərinin əvvəllərində əsas problemlərdən biri də sosial işçi kadrlarının yoxluğu idi[4]. Əldə olunmuş təcrübələr vasitəsilə Bakı Dövlət Universitetinin "Sosial elmlər və psixologiya" fakültəsində 2005-ci ildə ilk əvvəl təhsilin magistratura səviyyəsində, 2008-ci ildə isə bakalavr üzrə ilk dəfə sosial işçi kadrlarının hazırlığına başlanılmışdır.

Dövlət müstəqilliyinin bərpasından sonra təhsil sahəsində sosial işin təşkilinin əsaslı problemlərindən biri də beynəlxalq təcrübənin olmaması idi. Bu sahədə də ilk addım təhsil ocaqları tərəfindən atılmışdır. 2004-cü ildə Bakı Dövlət Universitetinin bir sıra əməkdaşları peşəkar sosial işçi hazırlığı üçün Litva Respublikasına göndərildilər və Litva Respublikasının universitetlərində, eləcə də qeyri-hökumət təşkilatlarında müxtəlif bilik və bacarıqları əldə etdilər.

Məktəblərdə sosial iş getdikcə günün tələbinə çevrilməkdədir. Məktəblərdən başqa digər təhsil müəssisələrinin əsas diqqət mərkəzi təhsilə və təlimə istiqamətləndiyi halda, məktəblərdə təhsil və təlimlə birlikdə, həmçinin tərbiyəyə də eyni önəm verilir.

Nəticə olaraq qeyd etmək istəyirəm ki, təhsil müəssisələrində, xüsusilə də orta məktəblərdə sosial işçi anlayışı daha çox önəm daşıdığı üçün yüksək ixtisaslı kadrların hazırlığı və davamlı olaraq dünya təcrübəsindən istifadə sosial problemi olan şagirdlərin yetkin şəxsiyyət kimi inkişafında mühüm rol oynayacaqdır.

**Açar sözlər:** Dövlət müstəqilliyi, təhsil, sosial iş, problem.

## Ədəbiyyat

1. Dadaşov Y., Qənbərova G. İcma inkişafı üçün təlimat kitabı, Bakı, 2002.
2. Firsov M.V., Studenova E.Q. Sosial işin nəzəriyyəsi, Bakı, 2018.
3. Şəfiyev Ü. Azərbaycanda sosial iş və sosial siyasət, Bakı, 2018.
4. https://stm.az/az/news/405/sosial-isin-qisa-tarixi

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BANK SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Aynur Abdullayeva**
Azərbaycan Dövlət İqtisad Universiteti
anabdullayeva@xalqbank.az

Şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılan zəfər günümüz bütün azərbaycanlıların qürur mənbəyi oldu. Yeraltı və yerüstü sərvətləri ilə daim ölkələrin diqqət mərkəzində olan ölkəmizin 20% torpaqlarının geri qaytarılması ölkə iqtisadiyyatının daha da sürətlə inkişafı üçün önəmli bir hadisə sayılır. Hamımıza məlumdur ki, 20 ildən artıqdır ki, işğal altında olduğuna görə Dağlıq Qarabağın iqtisadi potensialından səmərəli istifadə olunmamışdır. Ölkəmizin qarşısında duran prioritet hədəflərdən biri işğaldan azad olunan əraziləri gizlədilmiş minalardan təmizləmək, həmin sahələrdə təmir-bərpa, yenidənqurma işləri aparmaq və iqtisadiyyatını dirçəltməkdir. İqtisadiyyat çoxşaxəli bir sahədir. Onun əsasında maliyyə sektoru durur və maliyyə sektoru da öz növbəsində sahələrarası hesablaşma və ödəniş funksiyasını həyata keçirir. Maliyyə sektorunun əsas maliyyə institutu banklar hesab olunurlar. İşğaldan azad olunmuş sahələrdə də iqtisadiyyatın inkişafından asılı olaraq da bank sektorunun dərin inkişaf perspektivlərinə nail olmaq mümkündür. Həmin sahələrdə bank filiallarının açılması oraya köçürüləcək əhalinin məşğuliyyətinə də müsbət təsir göstərəcəkdir.

Ümumiyyətə,  bankların işğaldan azad olunmuş sahələrdə əsas layihələri aşağıdakılar ola bilər.

**Birinci istiqamət** – “Özünə məşğulluq layihəsinin həyata keçirilməsi – Bildiyimiz kimi, aztəminatlı və gəliri az olan ailələrin yaşayışını maddi təmin etmək üçün banklar tərəfindən həyata keçirilən bu layihə hal-hazırda bir sıra rayonlarda öz müsbət nəticələrini göstərməkdədir. Elə bu proqram çərçivəsində işğaldan azad olunmuş torpaqlarda mikrobiznesi canlandırmaq məqsədilə həmin ərazilərdə yaşayan əhaliyə maliyyə vəsaiti ayrıla bilər. Əhalinin maddi vəziyyətinin yaxşılaşması nəticəsində də dolayısı ilə banklar da müsbət təsirlənəcəklər [1].

**İkinci istiqamət** – Güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsi – bu istiqamətin təmin olunması üçün biraz uzun müddətin keçməyinə ehtiyac vardır. Çünki ilk öncə əhalinin orada yaşaması üçün normal şərait yaradılmalı, infrastruktur qurulmalı, iş yerləri açılmalıdır. Daha sonra , əhali əlavə ehtiyaclarını ödəmək üçün güzəştli ipoteka kreditlərindən yararlana bilərlər. Bu istiqamətdə veriləcək kreditlərlə bağlı təklifim odur ki, həmin kreditləri uzunmüddətli ( cari verilən ipoteka kreditlərinə nisbətən) və daha az faizli (minimum 3.5%) olsun.

**Üçüncü istiqamət** – kənd təsərrüfatı kreditlərinin verilməsi – İşğaldan azad olunmuş ərazilərin bərəkətli olmasını nəzərə alaraq həmin ərazilərdə kənd təsərrüfatı kreditləri müxtəlif istiqamətli ola bilər. Onları ümumiləşdirərək kənd təsərrüfatı sahəsi üzrə kreditləri aşağıdakı seqmentlərdə qruplaşdırmaq olar: [2]

1. Heyvandarlığın inkişafı – buradaya iribuynuzlu,xırdabuynuzlu, arıçılıq və s. kimi sahələrini nümunə gətirmək olar.

2. Aqrotexniki xidmətlər, toxum, gübrə , baytarlıq və s. kimi təchizat bazasının yaradılması istiqamətində kreditlərin verilməsi.

3. İşğaldan azad olunmuş sahələrin münbit torpaqlarını nəzərə alaraq və həmin sahələrdə aqrobiomüxtəlifliyin bərpası və inkişaf etdirilməsi istiqamətində atılan addımları nəticəsi olaraq həmin sahələrdə pambıqçılıq, üzümçülük, buğdaçılıq və s. sahələrə kreditlərin verilməsi mümkündür.

**Dördüncü istiqamət** - "güzəştli şərtlərlə biznes kreditlərin verilməsi" – Biznes kreditlərinin verilməsi çox sadə səslənsə də hər sahəyə uyğun düşünülmüş mexanizm tətbiq olunmalıdır. Kəlbəcər rayonunun nümunəsində deyə bilərik ki, Kəlbəcər rayonu öz füsünkar təbiəti və mineral suları ilə, o cümlədən qızıl yataqları ilə məşhurdur. Məhz buna görə də hasilat sənayesinin , turizm sektorunun inkişafı istiqamətində biznes kreditlərin verilməsi alternativ bir istiqamət hesab oluna bilər. Ümumiləşdirsək, həmin ərazilərdə istehsal olunmuş məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması, aqro-emal , o ümlədən hasilat, ictimai-iaşə müəssisələrinin yaradılması və s. istiqamətdə kreditlərin verilməsi də öz müsbət nəticələrini göstərə bilər [3].

Dövlət tərəfindən həmin ərazilərdə ölkəmizin aparıcı universitetlərinin filialları açıldıqdan sonra tələbə, təhsil kreditlərinin verilməsi də bankların kredit portfelinin diversifikasiyası üçün alternativ bir alət ola bilər.

İşğaldan azad olunmuş regionlarda bank sektorunun inkişafı dövrünə həmin ərazilərdə Azərbaycan Respublikasının Mərkəzi Bankının Dağlıq Qarabağ regional mərkəzinin yaradılması nəticəsində Mərkəzi Bankın müvafiq qanunvericiliklə müəyyən edilmiş funksiyalarının, o cümlədən nağd pul tədavülünün təşkilinin effektiv həyata keçirilməsinə yardımçı ola bilər.

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin surətlə getdiyini nəzərə alaraq həmin sahədə bank sektorunun da qurulması və inkişaf etdirilməsi labüd hala çüvriləcəkdir. Çünki ən azından turizmin (aqro turizm, sanatoriya və s.) inkişafı həmin sahədə nağdsız hesablaşmaları və nağdsız ödənişləri labüd edəcəkdir.

**Açar sözlər:** bank, bank sektoru, II Qarabağ müharibəsi.

## Ədəbiyyat


1. https://www.sosial.gov.az/ozunumesgulluq
2. https://science.gov.az/ru/news/open/16136
3. https://ereforms.gov.az/files/article/pdf/az/928f9df13982b83325e7a69f720563df.pdf

# MƏŞĞULLUQ VƏ GƏNCLƏRİN QARŞILAŞDIĞI DİGƏR PROBLEMLƏR

**Ülkər Abdurahmanlı**
Azərbaycan Universiteti
ulkerabdurahman@gmail.com

Azərbaycanda gənclər siyasəti hal-hazırda dövlət siyasətinin əsas tərkib hissələrindən biridir. Son illərdə gənclərin ictimai fəaliyyətinin artırılması yolunda verilən sərəncamlar, qəbul olunmuş qanunlara əsasən gənclər dövlət siyasətinin aktiv aparıcı qüvvəsi hesab olunur. Yaradılan bu geniş imkanlar nəticəsində gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır.

Dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarının, potensialının səmərəli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir [1, s.1].

Dövlətdə gənclər siyasətinin tətbiqi Ulu öndərimizin zamanında daha da genişlənmişdir. 1969-cu ildə Heydər Əliyev tərəfindən bir çox tələbənin xarici ölkələrə təhsil almaq üçün göndərilməsi isə buna bariz nümunədir. Məqsədi isə həmin gənclərin xaricdə təhsil nəticəsində öyrənəcəkləri fərqli inkişaf strategiyası nəticəsində uzunmüddətli daxili siyasətimizə yeni ruh qatacağına olan inamı idi. Bundan əlavə, artıq müstəqilliyimiz dönəmindən başlayaraq 1993-cü ildən etibarən dövlət siyasətində gənc nəslə xüsusi diqqət olunmağa başlandı. Qarabağ müharibəsi nəticəsində gənclərdə olan vətən sevgisi ilə onlar artıq birbaşa siyasətə öz töhfələrini verə biləcək potensialda idilər. Daha sonra prezident İlham Əliyev də Ulu öndərin açdığı bu cığıra xüsusi önəm verərək gənclər siyasətini daha da inkişaf etdirmişdir. 2007-ci ilin "Gənclər ili" adlanması və bu yöndə silsilə tədbirlərin keçirilməsi ilə gənclərin cəmiyyətdə olan önəmi bir daha vurğulanmış oldu.

Bundan başqa dövlət başçısı İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) və "Azərbaycan Gəncliyi (2011-2015-ci illərdə) Dövlət Proqramı", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007- 2012-ci illər)", "2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı", "2007-2013- cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı" və bir sıra digər mühüm sənədlərin qəbul olunması və uğurla həyata keçirilməsi ölkəmizdə gənclərin potensialının inkişaf etdirilməsi, onların faydalı məşğulluğunun təmin edilməsi istiqamətində böyük əhəmiyyət kəsb edir [1, s.1]. Dövlət xətti ilə reallaşdırılan bu proqram və layihələrdən ilhamlanaraq gənclərin bölgələrdə də öz zamanlarını daha dəyərli keçirmək və ölkə inkişafı naminə mühüm qatqıları olması üçün xüsusi karyera mərkəzləri olan respublikanın 55 şəhər və rayonunda Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin qurulmasını nümunə olaraq göstərə bilərik. Yaradılmış

bu mərkəzlərin əsas fəaliyyət istiqaməti Azərbaycanda gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemini əks etdirir.

Bütün bu yöndə qurulan mərkəzlər, imzalanan sərəncamlar gənclərin məşğulluq və işsizlik probleminin aradan qaldırılmasını özündə əks etdirsə belə, məlum məsələdir ki, yenə də bir çox gənc yaradılan bütün bu şəraitdən yetərincə faydalana bilmir, hətta çox sayda gəncin ümumiyyətlə dövlətin gənclər siyasəti və inkişaf strategiyası haqqında məlumatı ya azdır, ya da ümumən bu haqda heç nə bilmirlər. Bütün bu məlumatsızlığın olmasının yaxud gənclərin hələ də öz karyerasının inkişaf istiqamətlərini, həyat məqsədlərini tapmamasının səbəbi hər nə qədər gənclərin psixologiyasından asılı olsa da, bu da bir real faktdır ki, qurulmuş təhsil sistemi daha çox nəzəriyyəyə əsaslandığından və bunun əksinə, iş yerlərinin gənclərdən praktika tələb etməsi bu problemi daha da artırır. Hətta, bu problem həll olunub işlə təmin olunsa belə, gənclər iş prosesinə çox dözümsüz yanaşır, atılacaq addımlarda qətiyyətli olmurlar.

Fransız yazıçısı Antonio de Saint-Exupery deyir ki, “İnsanı azad burax və o, yaratmaq istəyəcək”. Yəni insanın azadlığı onun yaradıclığı ilə ortaya çıxır və yaradıcılıq insanın yaşadığının göstəricisidir ki, insan yaşasa yaratmalıdır. “Bəs sən yaratmaq dedikdə nəyi nəzərdə tutursan? Axı, böyük bir şey yaratmağa hamı qadir deyil?! Sən yəqin az bir qismə müraciət edirsən.” sualının cavabında “Yaratmaq rəqsdə büdrəməkdir, kəskini daşa ehtiyatsız vurmaqdır. Məsələ sənin hərəkətinin keyfiyyətində deyil, sənin hərəkət etməyindədir...

...İstək olanda hər kəs oynayır, hətta pis rəqs edənlər də. Bəs arzu yoxa çıxanda geriyə nə qalır? – Ölü vərdiş, mənasız görüntü.” deyə verilir kitabda. Belə ümumiləşdirsək, bir çox gəncin hal-hazırda etdiyi kimi. Çünki işi etməkdə istək olmur. Hər hansı bir məişət məcburiyyətindən qoşulduqları işdə davamlı qalmayacaqlarını və tez bir zamanda buradan ayrılacaqlarını düşündüklərindən həmin işdə yeniliklərə can atmırlar, maddiyyat necə deyərlər mənəviyyatın önünü kəsdiyindən işə ruh qata bilmirlər. Beləliklə, həm gənclərin daxili dünyalarında, həm də onları əhatə edən dünyada fövqəl bir dəyişiklik olmur.

Əslində, yaranan bu problemlərin təməlində gənclərdə olan mənəvi dəyərlərin əskikliyi dayanır. Bunun qarşısının alınması üçün əsas hədəfimiz bölgələr üzrə gənclər mərkəzlərində müxtəlif mədəni motivasiya xarakterli görüşlər keçirmək, onları könüllülük işinin qəlbdən gələn iş olduğuna inandırmaq və ətrafa daha duyarlı yetişmələrinə vəsilə olmaqdır. Ölkənin dərdi ilə dərdlənməmək, ətrafda baş verən mühüm hadisələrə belə laqeyd yanaşmaq özlərinin belə xəbərləri olmadan ruh düşkünlüyünə gətirib çıxardır. Belə bir faktı da deyə bilərik ki, insan nə qədər ətrafında olan insanların problemləri ilə maraqlanırsa, onların həlli üçün can yandırırsa, onunla paralel olaraq öz problemləri özünün belə xəbəri olmadan həll olur. Məqsədimiz gəncləri yaşadığı mühitə daha duyarlı yetişdirməkdir. Ölkənin nəinki bir insanına, hətta daşına, suyuna, qısa desək təbiətin zərrələrinə dəyər verməyən biri üçün dövlətin yaratdığı hər bir şərait yenə də yetərsiz qalacaqdır. Bu daxilində xoşbəxtliyə çatmayan birisinin kənarda xoşbəxtlik axtarmasına bənzəyir.

Həmin gənclərlə mütəmadi olaraq görüşlər keçirilməli, birlikdə mütaliələrin aparılması, fərqli istiqamətli – küçədə sahibsiz heyvanların qorunması, ağacəkmə, həssas təbəqədən olan insanlar üçün

davamlı inkişaf xarakterli layihələrin keçirilməsi onlarda ruh yüksəkliyinə gətirib çıxardacaqdır. Xoşbəxt olmağın yolu, xoşbəxt etməkdən keçir.

**Açar sözlər:** Azərbaycan Respublikası, gənclər, gənclər siyasəti, istiqamətlər, həssas qruplar.

**Ədəbiyyat**


1. Hacıyev F. Azərbaycan dövlət gənclər siyasəti: məqsəd və nailiyyətlər.
2. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunda çıxış, 2 fevral 1996.
3. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002.
4. https://gikm.az
5. http://www.e-qanun.az


## İNVESTİSİYA VƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN SOSİAL-İQTİSADİ MAHİYYƏTİ

**Gözəl Adıgözəlli**
Bakı Avrasiya Universiteti
adigozelligozel.99@gmail.com

İnvestisiya dedikdə gəlir və ya sosial səmərə əldə etmək məqsədilə həyata keçirilən fəaliyyət başa düşülür. Başqa sözlə desək, investisiyalara sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitləri, habelə maddi və intelektual sərvətlər daxildir. İstehsal ehtiyatlarının yenilənməsi və artırılmasında, təkrar istehsal sistemində və iqtisadi artımın zəruri templərinin saxlanmasında investisiyalar böyük əhəmiyyət kəsb edir.

Aydındır ki, investisiyalar ilk növbədə istehsala aiddir, onun inkişafının maddi əsasını təşkil edir. İnvestisiya əmtəələrə ehtiyacları dolayı yolla, istehlak malları isə birbaşa təmin edirvə investisiyalar milli sərvətin artmasına töhfə verən kapitaldır. Burada “kapital” pul demək deyil. Real kapital iqtisadi resursdur və kapital dedikdə həm də binalar, avadanlıqlar, alətlər, maşınlar, istehsal müəssisələri başa düşülür.

İnvestisiyalar yeni binaların, avadanlıqların, nəqliyyat vasitələrinin alınması yolu ilə, mühəndis qurğularının (yolların, körpülərin və s.) tikintisi ilə istehsalın genişləndirilməsi və ya modernləşdirilməsinə yönəldilmiş iqtisadi resurslardır. Eyni zamanda, investisiyalara təlim, təkmilləşdirmə və elmi tədqiqatların ən vacib xərcləri nəzərə alınmayan maddi xərclər də daxildir.

İnvestisiyaların maliyyələşdirmə mənbəyi fərqlidir və buraya şəxsi, borc, kredit və s. maliyyələr daxildir. Şəxsi investisiya tamamilə mənfəət əldə etməyə yönəldilmişdir, ilk növbədə sürətli kapital dövriyyəsi olan yüksək marjalı sənaye sahələrinə yönəldilir. İqtisadiyyatın investisiyadan ləng gəlir əldə edən sektorlarına sərmayə qoyuluşu cəlbedici olmur. İnvestisiya qoyuluşunda əsas cəlbedici səbəb investisiyaların özünü ödəmə tezliyidir.

Bununla belə, nəzərə almaq zəruridir ki, həddindən artıq investisiya inflyasiyaya, az investisiya deflyasiyaya gətirib çıxarır. Bu proses dövlət xərcləri, vergilər, hökumətin fiskal və monetar tədbirləri sahəsində effektiv strategiya vasitəsilə idarə olunmalıdır.

İnvestisiyaların mahiyyətini anlamaq üçün inkişaf etməkdə olan bazar yanaşmasının xarakterik xüsusiyyətləri bunlardır:

- investisiya fəaliyyətinin motivi kimi investisiyaların özünüödəmə müddəti ilə əlaqəsi;
- investisiyaların iki tərəfin vəhdətində nəzərə alınması: resurslar (kapital dəyərlər) və investisiyalar (xərclər);
- investisiyaların statikdə deyil, dinamikada təhlili. Bu, "investisiya" kateqoriyası çərçivəsində resursları, investisiyaları və investisiya gəlirlərini birləşdirməyə imkan verir;
- iqtisadi (sosial) səmərə verən hər hansı investisiyaların investisiya obyektlərinin tərkibinə daxil edilməsi.

Ümumiyyətlə, investisiyaların təfsirinə bazar yanaşmasında investisiya fəaliyyəti investorların gəlir əldə etmək məqsədilə resursların xərclərə çevrilməsinin həyata keçirildiyi bir proses kimi müəyyən edilir.

Göründüyü kimi, investisiya fəaliyyəti gəlir (effekt) əldə etmək məqsədilə investisiya obyektlərinə vəsait qoyuluşu ilə bağlı fəaliyyətdir. İnvestisiya fəaliyyəti haqqında normatiuv sənədlərdə də oxşar təfsir verilir və buna görə də investisiya fəaliyyəti mənfəət əldə etmək üçün investisiya qoyuluşları və praktiki hərəkətlərin həyata keçirilməsi kimi başa düşülür.

Araşdırmalar göstərir ki, investisiyaların hərəkəti iki əsas mərhələni əhatə edir. "İnvestisiya resursları – vəsaitlərin qoyuluşu"nun birinci mərhələsinin məzmunu faktiki investisiya fəaliyyətidir. İkinci mərhələ isə "vəsaitlərin qoyuluşu - investisiyanın nəticəsi" investisiyaların istifadəsi nəticəsində çəkilmiş xərclərin ödənilməsini və gəlirlərin əldə olunmasını nəzərdə tutur. Bu isə həm də o deməkdir ki, investisiya fəaliyyəti istənilən iqtisadi fəaliyyət növünün iki zəruri elementinin əlaqəsini və qarşılıqlı asılılığını xarakterizə edir: məsrəflər və onlardan əldə edilən gəlirləri.

Bir tərəfdən iqtisadi fəaliyyət vəsaitlərin qoyuluşu ilə bağlıdır, digər tərəfdən bu investisiyaların məqsədəuyğunluğu onların gəlirliliyi ilə müəyyən edilir. Gəlir olmadan investisiya fəaliyyəti üçün motivasiya yoxdurvə vəsait qoyuluşu cəlbedici deyil. Buna görə də investisiya fəaliyyəti bütövlükdə gələcəkdə resursların qoyuluşu və gəlir əldə edilməsi proseslərinin vəhdəti kimi müəyyən edilə bilər.

**Açar sözlər:** İnvestisiya, investisiya fəaliyyəti, maliyyələşdirmə, şəxsi vəsaitlər.

## Ədəbiyyat

1. Allahverdiyev Ş.B., Məmmədov Z.T. İnvestisiya proseslərinin tənzimlənməsi. Bakı: ADİU, Nəşriyyatı, 2003.
2. Vəliyev D., Əsədov A. Beynəlxalq iqtisadiyyat. Ali məktəblər üçün dərslik. Bakı, Avropa nəşriyyatı, 2012, 400 səh.
3. İsayev S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi:, Dərs vəsaiti, Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2011.
4. İsayev S.Z. İnvestisiya qoyuluşunun iqtisadi səmərəliyinini yüksəldilməsinin bəzi məsələləri. İqtisad elmləri: Nəzəriyyə və praktika jurnalı, 2003, №1-2, s.151-153.

5. Kərimov V., Erdal A. İnvestisiya layihələrinin hazırlanması və qiymətləndirilməsi. Bakı: 2002.
6. Zeynalov F.D. İnvestisiyalar və Azərbaycanda onların mövcud durumu. Bakı, Elm 2001.

## CEYN AUSTENİN "QÜRUR VƏ QƏRƏZ" ƏSƏRİNDƏ GENDER MƏSƏLƏLƏRİ

**Vüsalə Ağabəyli**
Azərbaycan Dillər Universiteti,
vusale.agabeyli@gmail.com

Ceyn Austin XIX əsrin əvvəllərində yazıb-yaratsa da, onun əsərlərində Viktoriya ədəbiyyatına keçid və Viktoriya dövrü yazıçılarının fikirləri ilə bənzərlik duyulur [3]. Ceyn Austin gender məsələlərini qabarıq şəkildə sırf feminist nöqteyi-nəzərdən fərqləndirməsə də, onun əsərlərindəki qadın və kişi obrazlarının təqdimatı, dövrün problemləri, zəngin və kasıb təbəqə arasındakı fərq, cəmiyyətin düşüncə və cinslərə yanaşma tərzi, kişi cinsinə verilən üstünlüklər və imtiyazlar, qadın cinsi üçün qəbul edilmiş standartları müşahidə etməklə əsərlərini gender tədqiqatları baxımından təhlil etmək mümkündür. Austinin hər romanında qadın və kişi münasibətləri sərgilənir, lakin düşünürük ki, "Pride and Prejudice"əsərindəki Elizabeth obrazı digər qadınlardan xarakter etibarı ilə fərlənir. Austin əsərdə iki cür qadın tipini təqdim edir – sərbəst və itaətkar qadın. Elizabet sərbəst, Şarlotte isə itaətkar qadını təmsil edir. Elizabet Austinin yaratdığı ən möhkəm qadın surətidir. O dövrünün qadınlarından, öz anasından, bacılarından fərqlidir, gecə-gündüz evlilik haqqında düşünmür, öz duyğularını və potensialını heç bir kişi nəzarəti olmadan araşdırmaq istəyir, cəmiyyətin qəbul etmədiyi və ya tədricən çətinliklə qəbul edəcəyi şərtlər altında olsa belə, Elizabet özündən əmindir, qürurludur və kişi boyunduruğuna tabe deyil. Şarlotte obrazı isə XIX əsr İngiltərə cəmiyyətinin əksər orta səviyyəli qadınlarının prototipidir. Austin dövrün vəziyyətini, qadın düşüncələrini və cəmiyyətin qadına münasibətini oxuculara Şarlotte obrazı ilə çatdırır. Bu vəziyyət göstərir ki, XIX əsr ingilis qadını öz identikliyini və taleyini idarə etmək gücünə malik deyil. Evlənmiş qadın istənilən situasiyada evlənməmiş qadından üstündür, buna görə də, Şarlotte Kolinsin, Elizabetə evlilik təklif etməsini, Elizabetin onu rədd etməsini bilsə də, sırf gələciyini qurmaq üçün sevmədiyi Kolinslə evlənməyə razılaşır: *Without thinking highly either of men or matrimony, marriage had always been her object; it was the only honourable provision for well-educated young women of small fortune, and however uncertain of giving happiness, must be their pleasantest preservative from want* [1] Kolinz Elizabetə bir neçə dəfə evlilik təklif edəndə Elizabet deyir ki, məni sənin hisslərinlə oynayan, naz edən, sənə əziyyət verən zərif və incə bir məxluq kimi düşünmə. *"Do not consider me now as an elegant female intending to plague you, but as a rational creature speaking the truth from her heart"* [1] Elizabet istəyir ki, Kolinz onu cəmiyyətin qadınlar haqqında düşündüyü tipik düşüncələrdən kənarda görsün. Elizabet "rasional" sözünü ona görə işlədir ki, həmin dövrdə kişilər rasional, qadınlar irrasional (məntiqsiz, səmərəsiz) hesab olunur. O, "məni rasional bir varlıq kimi gör deyəndə" özünə bərabər, kişilərlə eyni sərbəst düşüncəyə malik ola bilən, ağıllı bir varlıq kimi gör demək istəyir. Yəni, sənin qədər rasional ola bilərəm, rasionallığın, ağıllı olmağın kişi və ya

qadın olmaqdan asılı olmadığını bildirmək istəyir, bütün insanlara məxsus olan xüsusiyyət kimi göstərmək istəyir. Elizabeti Darsiyə sevdirən də məhz bu cür sərbəst düşüncəsi və güclü xarakteridir. Öncə Darsinin sevgisini rədd edən Elizabet sevgi əzabı çəksə də qürurunu əzmir. Austin əsərdə müxtəlif situasiyalarda təbiət və böyük evlər iqamətgahlar təsvir edir. Böyük evlər, mülklər sanki dövrün maskulinliyin, kişi gücünün, əzəmətinin göstəricisidir [5]. Çünki bu cür böyük mülklərin sahibləri Darsi kimi zəngin, məğrur kişilərdir. Təbiət, bağça-bağ isə qadınlardır. Böyük mülklər o cür gözəl təbiət, bağ olmadan bütün görünüşünü itirər. Bununla da, Austin qadınların kişilərin həyatını tamamladığını düşünür. Məsələn, Austin, Darsinin Pemberleydəki mülkünü elə təsvir edir ki, bu təsviri, bu bədii ifadəliliyi elə sahibin özünə – Darsiyə, onun xarakterinə və görünüşünə də aid etmək olar, malikanənin təsviri həm onun sahibi Darsinin təsviri, həm də maskulin xarakterlərin ümumi təsviridir. Kişilər güclüdür və buna görə da daşla müqayisə olunurlar. Bundan başqa, "large" və "handsome" sifətləri çox vaxt maskulinliyi, kişi cinsini təsvir etmək üçün istifadə olunur [3]. Darsinin duruşu öz malikanəsi kimi möhkəmdir və ətrafdakı hündür, sıx ağaclı meşələr isə onu müdafiəçisi – cəmiyyətdir. Cəmiyyət hər zaman güclü, zəngin və nüfuzlu kişinin arxasındadır, hündür sıx meşəliklər malikanəni qoruduğu kimi. Çünki Darsinin xarakterindən başqa onun sərvəti də onun qoruyucusudur. Sərvət də cəmiyyətdə ən böyük gücdür. Austin güclü qadın kimi Elizabetin sərbəstliyini, cəmiyyətin çərçivələrindən çıxmağa çalışan azadlığını onun təbiətdə, meşələrdə tək gəzmək həvəsi ilə təqdim edir. Məsələn, Bingleyin evinə xəstə yatan bacısını görməyə gedəndə təsvir olunan hissəyə diqqət yetirək: *Elizabeth continued her walk alone, crossing field after field at a quick pace, jumping over stiles and springing over puddles with impatient activity and finding herself at last within view of the house, with weary ankles, dirty stockings, and a face glowing with warmth of exercise* [1]. Austin çirki, gölməçələri, maneələri cəmiyyətin problemləri, yaradılan əngəllər kimi təsvir edir. XIX əsr İngiltərədə yaşayan bir qadının təkbaşına, heç bir kişi və ya ailənin yaşlı qadın nümayəndəsinin müşaiyəti olmadan gəzməyi onun inanılmaz sərbəstlik arzularını ifadə edir [6]. Çünki həmin dövrdə müəyyən yolları qət etmək üçün arabalardan, faytonlardan istifadə edilirdi.Elizabetin yağışdan, palçıqdan, maneələrdən çəkinməməsi göstərir ki, o, cəmiyyətin qadınlar üçün formalaşdırdığı xurafatı, qəlibə salınmış tipik qadın obrazını qəbul etmir, müstəqil şəkildə, qorunmaya ehtiyacı olmadan özünü idarə edə biləcəyini düşünür. Elizabetə görə hər şeyin öhtəsindən rahatlıqla gələ bilərlər, onlar öz həyat yollarını özləri müəyyənləşdirib istədikləri formada da idarə edə bilərlər. Bunun üçün çatışmayan yeganə cəhət müstəqillikdir, qadınların ehtiyacı olan şey yalnız seçim azadlığıdır.

**Açar sözlər:** gender, ədəbiyyat, kişi, qadın, obraz, cəmiyyət.

## Ədəbiyyat

1. Austen J. Pride and Prejudice, Modern Library Classics, USA / CAN, 2000, 279 p.
2. Showalter E.A Literature of their Own : British Women Novelists from Bronte to Lessing, Princeton , 1977, 378 p.
3. Фромм Э. Иметь или быть? М.: Прогресс, 1986, 240 с.
4. Моэм У.С. Искусство слова: О себе и других: Литературные очерки и портреты, М.: Худож. лит., 1989, 399 с.

5. https://core.ac.uk/download/pdf/43028506.pdf
6. https://www.oxfordbibliographies.com/view/document/obo-9780199799558/obo-9780199799558-0139.xml

# MÜHARİBƏ NƏTİCƏSİNDƏ YARANMIŞ ÇƏTİN PSİXOLOJİ VƏZİYYƏT VƏ İNTİHAR

**Bağır Allahverdiyev**
Azərbaycan Universiteti
baghir.allahverdiyev@student.au.edu.az

Müharibə dolayı və ya birbaşa şəkildə iştirakçısı olan insanlarda həm fiziki, həm də emosional olaraq mənfi təsir göstərməklə yanaşı sağalmaz izlər qoya bilər. Ölüm, yaralanma, cinsi zorakılıq, düzgün qidalanma sisteminin pozulması, xəstəlik və əlillik müharibənin ən təhlükəli, gözlə görülə bilən, yəni fiziki nəticələrindən bəziləridir. Travma sonrası stress pozğunluğu, depressiya və narahatlıq isə emosional təsirlərdən bəziləridir. Müharibə zorakılığı ilə yayılan terror və dəhşət insanların sistemli həyat fəaliyyətlərini pozur, münasibətləri və ailələri dağıdır, fərdləri və icmaları emosional olaraq sıxıntıya salır.

Bu yazıda mənim diqqətim müharibədə iştirak etmiş şəxslərdə yaranan psixoloji və fiziki pozuntuların onların günlük yaşamına və intahara yol açan təsiridir. Müharibə ilə bağlı veteranlarda yaranan emosional problemlər təkcə həyat üçün təhlükə törədən situasiyalara və zorakılığa birbaşa məruz qalma səbəbindən deyil, həm də onların qohum-əqrəbasının xəsarət alması, ölkədəki iqtisadi böhranlı vəziyyət, məcburi şəkildə əhalinin öz yaşayış ərazilərini dəyişməsi və gündəlik həyatda davamlı fasilələr kimi dolayı stresslər nəticəsində də baş verə bilər [1].

Tədqiqatçılar tərəfindən Fort Carson, Colo-da əsgərlər arasında onların nə üçün özlərini öldürməyə cəhd etdiklərini soruşduqda seçə biləcəkləri 33 səbəb arasından əsgərlərin əksəriyyəti güclü emosional sıxıntıya son qoymaq səbəbini seçmişdir [2]. Çox sayda veteran üçün güclü emosional hallar ümumi təcrübələrdir – bunlar travma sonrası stress pozğunluğunun (TSSP) bariz davam edən simptomlarıdır. Müalicə olunmamış TSSP ilə yaşamaq çətindir, həmçinin tez-tez ruhdan düşmək halları da müşahidə edilir.

Bəzən müharibə böhranı (shell shock) və ya döyüş stressi kimi tanınan travma sonrası stress pozğunluğu ağır travma və ya həyat üçün təhlükə yaradan bir hadisə yaşadıqdan sonra baş verir. Müharibə zamanı bu kimi hallara, yaxınlıqda hər hansı bir partlayıcının istifadə olunması və ya partlama zonasında olma, yüksək təzyiqli silah səslərinə məruz qalma, əsir düşmə, fiziki-psixoloji şiddətə məruz qalma, dost-tanışın ölümünə şahid olma və.s aid edilir. Bu kimi halların məntiqi nəticəsi olaraq sinir sisteminin stresli hadisələrə cavab vermək üçün iki avtomatik və ya refleksiv yolu var:

1. Mobilizasiya və ya səfərbərlik. Bu refleks şəxsin özünü müdafiə və ya döyüş vəziyyətində təhlükədən sağ çıxmaq lazım olduqda baş verir. Ürəyin normaldan sürətli döyünməsi, qan təzyiqinin

yüksəlməsi və əsəb sisteminin gərginləşməsi, insanın güc və reaksiya sürətini artırır. Təhlükə aradan qalxdıqdan sonra sinir sistemi, bədən sakitləşir, ürək döyüntüsü və qan təzyiqi aşağı düşür və normal tarazlığına qayıdır [3].

2. İmmobilizasiya. Bu refleks çətin vəziyyətdə həddindən artıq stressin yaranması zaman baş verir və təhlükə keçsə də, insan özünü bəzən həmin zaman dilimində “ilişib qalmış” şəkildə tapır. Sinir sistemi normal tarazlıq vəziyyətinə qayıda bilmir və insan hadisədən uzaqlaşa bilmir. Bir digər halda, orqanizmin heç bir hərəkət əlaməti göstərmədiyi vəziyyətdir, məsələn ölümcül görünüş və ya donma davranışı. Bu, fərqli zaman və məkanlarda ilkin yaranma halı ilə əlaqəli ola biləcək qəfil stimullara cavab olaraq baş verə bilər və ya qorxudan şərtləndirilmiş bir siqnala öyrənilmiş cavab kimi qorxu-kondisioner tədqiqatında ortaya çıxa bilər [3].

Müharibədəki travmatik situasiyadan sonra saatlar və ya günlər ərzində TSSP simptomları inkişaf edə bilər. Hətta bəzi hallarda həmin travmatik hadisə yerini dəyişdikdən sonra da simptomlar aylar və hətta illər ərzində davamlı və ya fasiləli olaraq görünə bilər.

Tədqiqatlar göstərmişdir ki, veteranlar arasında döyüş travması intihara birbaşa səbəbdir. Bir neçə dəfə yaralanan və ya yaralandığı üçün xəstəxanaya yerləşdirilən döyüş travmasından sağ qalanların intihar riski çox yüksəkdir. Bu, veteranlarda intihar riskinin döyüş travması ilə intensiv bağlı olduğunu göstərir. Travma sonrası stress pozğunluğu olan veteranlarda intihar riski travmatik xatirələr, qəzəb və impulsların zəif idarə edilməsi ilə əlaqələndirilir. Bundan əlavə, hisslərini ifadə etməmək kimi müəyyən streslə mübarizə tərzinə malik olan TSSP olanlar üçün intihar riski daha yüksəkdir [4].

TSSP olan veteranlar üçün həm intihar cəhdləri, həm də intihar haqqında düşünmək üçün ən güclü əlaqə döyüşlə əlaqəli günahdır. Bir çox veteranların çox narahat düşüncələri var və müharibə zamanı görülən hərəkətlərə görə həddindən artıq günahkarlıq hissi var. Bu fikirlər tez-tez veteranı sıxışdıra bilər və onun sıx hissləri ilə məşğul olmasını çətinləşdirə bilər [4].

Əgər intihar düşüncələri ambulator şəraitdə idarə oluna bilirsə, bir şəxs TSSP üçün koqnitiv davranış müalicəsindən faydalana bilər. Məsələn, bu cür müalicə alan veteranlardan əldə olunan araşdırma nəticələri müəyyən etdi ki, müalicə zamanı TSSP simptomları azaldıqca, intihar düşüncələri də daha az olur. Bu təsir müalicə bitdikdən sonra 5-10 il davam etdir. Müharibələrin davam edəcəyi və emosional sıxıntıya səbəb olacağı ehtimalı var. Müharibənin gələcək qurbanlarına müvafiq və effektiv psixi sağlamlıq xidmətləri göstərmək üçün şəfa, dayanıqlığın təşviq edilməsi və mədəni potensial qurucularının daxil edilməsinə yönəlmiş əlavə empirik tədqiqatlara ehtiyac var.

**Açar sözlər**: Travma sonrası stress pozuntusu(TSSP), veteran, intihar, emosional sıxıntı.

## Ədəbiyyat

1. Jensen P.S., Shaw J. (1993). Children as victims of war: Current knowledge and future research needs. Journal of the American Academy of Child & Adolescent Psychiatry, 32(4), 697-708.
2. https://msrc.fsu.edu/news/study-reveals-top-reason-behind-soldiers-suicides
3. https://www.helpguide.org/articles/ptsd-trauma/ptsd-in-military-veterans.htm
4. https://www.ptsd.va.gov/understand/related/suicide_ptsd.asp#:~:text=Studies%20show%20that%20suicide%20risk,such%20as%20not%20expressing%20feelings.

# QİYMƏTLİ KAĞIZLARIN NƏZƏRİ ƏSASLARI VƏ ONLARIN ƏSAS NÖVLƏRİ

**Səfərəli Allahyarov**
Azərbaycan Universiteti
allaxyarov94@mail.ru

Müasir dövrdə makroiqtisadi sabitliyin əldə edilməsində qiymətli kağızlar bazarının və onun iştirakçılarının oynadığı rol xüsusidir. Hər bir cəmiyyətdə maliyyə münasibətlərinin əhatə dairəsinin genişləndirilməsində qiymətli kağızlar bazan böyük rol oynayır [1].

Qiymətli kağızlarla aparılan əməliyyatların təşkili mexanizmi onların növləri ilə sıx bağlıdır. Qiymətli kağızlar təqdimedici, adlı və orderli olur.

Bu qəbildən olan qiymətli kağızlara dövlət daxili uduşlu istiqraz vərəqələrini misal göstərmək olar. Nə qədər ki, təqdimedici qiymətli kağızın (və oradakı hüququn) başqasına verilməsi heç bir rəsmiyyətçiliklə bağlı deyil və sadəcə olaraq onu yeni sahibinə verilməsi ilə həyata keçirilir, demək olar ki, bu qiymətli kağızlar daha yüksək dövriyyə qabiliyyətinə malikdirlər.

Orderli qiymətli kağız müəyyən bir şəxsin adına yazılır, lakin eyni zamanda onda göstərilir ki, onu təqdim olunması və hüquqların həyata keçirilməsi, həmçinin onun ilk sahibinin göstərişi "əmri" (orderi) ilə istənilən şəxs tərəfindən həyata keçirilə bilər.

Veksel-veksel verənin (sadə veksel) və ya vekseldə göstərilən digər ödəyicinin (köçürmə veksel) vekseldə nəzərdə tutulmuş müddətdə veksel sahibinə müəyyən məbləği verəcəyi haqında heç bir şeylə şərtləşdirilməmiş öhdəliyini təsdiq edən qiymətli kağızdır [2].

Vekselin qüvvədə olduğu dövrdə (ödənişin vaxtı çatana kimi) veksel sahibinin nəğd pula ehtiyacı yarana bilər. "Veksellərin uçotu" adlanan bu əməliyyat üçün bank veksel sahibindən göstərilən xidmət müqabilində haqq kimi müəyyən faiz (qeydiyyat faizi) alır.

Bundan əlavə qiymətli kağızlar əmtəəli və pullu qiymətli kağızlarına bölünə bilər. Bunlara konosament, varrant, girov bileti və başqaları aid edilir.

Sahibinin, qiymətli kağızı buraxan şəxsdən göstərilən vaxtda öz nominal dəyərini (və ya onun digər əmlak ekvivalentini), həmçinin onda qeyd edilmiş nominal dəyərin müəyyən faizini (və ya digər əmlak hüququnu) almaq hüququnu təsdiqləyən qiymətli kağız istiqraz hesab edilir.

İstiqrazlar adlı və təqdimedici, faizli və faizsiz (məqsədli, yəni sahibinə gəlir əvəzinə müəyyən əmtəələr və ya xidmətlər əldə etmək hüququ verən, bu məqsədlə də məqsədli istiqraz vərəqələri buraxılır), azad dövr eləyən və məhdud dövriyyə dairəli ola bilirlər.

Onları buraxan emitentlərə görə istiqrazları dövlət və bələdiyyə (daxili və yerli) istiqrazları müəssisələrin və digər hüququ şəxslərin (kooperativ, təs. cəmiyyəti) istiqrazları kimi fərqləndirilər. Burada əsas xüsusiyyət ondan ibarətdir ki, ödəyici rolunda kredit təşkilatı çıxış edir, çek verən isə bu təşkilatda hesabı olan şəxslərdir.

Əhalinin və təşkilatların azad pul vəsaitləri, əmanətçilərə depozitə qoyulmuş vəsaitlərin və onlarla əlaqədar faizlərin vaxtı çatanda ödənilməsi hüququnu təsdiq edən yazılı bank şəhadətnamələri – əmanət və ya depozit sertifikatları almaqla banklarda depozitə qoyula (saxlanmaq üçün verilə) bilər.

Xəzinə öhdəlikləri. Vətəndaşlar arasında yayılmaq üçün dövlət tərəfindən dövlət qiymətli kağızlar - dövlət xəzinə öhdəlikləri buraxılır ki, onlar da vətəndaşlara məxsus olduqları dövr ərzində müəyyən edilmiş gəlir əldə etmək hüququ verirlər. Onlar həmişə təqdimedici qiymətli kağızlar olurlar [3].

Qiymətli kağızlar haqqında söhbət açarkən, Azərbaycanın Evroistiqraz Vərəqələri bazarına çıxışı barəsində mövzuya toxunmaq zəruridir. Hələ 1998-ci il avqust ayının 5-də "Merill Linç" bankının nümayəndələri AMB-da (Azərbaycan Mərkəzi Bankı) danışıqlar aparmışdı. Azərbaycana Beynəlxalq Kredit Reytinqinin verilməsi barədə müzakirələr gedirdi. Məhz Azərbaycana Beynəlxalq Kredit Reytinqinin verilməsi məsələsinin həlli, Azərbaycana beynəlxalq maliyyə bazarlarına dövlət istiqraz vərəqələrini buraxmağa imkan verəcək.Onlar içərisində ən geniş yayılanı avroistiqraz vərəqələridir. 300 mln-dan 500 mln-na kimi məbləğdə Azərbaycan (istiqraz vərəqələri) buraxılması planlaşdırılır. Ona görə də, bu məqsədə çəkilən 1,5-2 mln. xərclər özünü doğruldur. Bu ya səhmdarların özləri ya da şəxslərdir ki, həmin səhmdar cəmiyyətin onlarla etibarlı münasibətləri mövcuddur [4].

**Açar sözlər:** Qiymətli kağızlar, maliyyə münasibətləri, istiqrazlar, xəzinə öhdəlikləri, maliyyə bazarı, veksel.

**Ədəbiyyat**


1. Məmmədov Z.F., Zeynalov Z.H., Pul, kredit, banklar, qiymətli kağızlar və valyuta, Bakı, Nasir nəşriyyatı, 2005, 198 səh.
2. Kərimov A.E., Babayev A.A. Qiymətli kağızlar bazarı, Bakı, Elm, 2003, 376 səh.
3. Рубцов Б.Б., Современные фондовые рынки, М.: Альпина Бизнес Букс, 2007, с.926.
4. www.economy.gov.az


## MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA KOMMERSİYA BANKLARININ VERGİYƏ CƏLB OLUNMASININ AKTUAL PROBLEMLƏRİ


**Aytac Aşirova**

Azərbaycan Universiteti

aytacashirova@mail.ru


Dövlətin vergi siyasəti və eyni zamanda vergi sistemi istisna edilmədən demək mümkündür ki, bütün bazar subyektlərinin iqtisadi maraqlarına toxunur. Vergi dərəcəsi sistem olaraq dövlət tənzimləyicisi funksiyasını yerinə yetirməklə tədricən mürəkkəb forma alır.

Təhlükəsiz formalaşma üçün və iqtisadiyyatın tənzimlənməsi nöqteyi baxımından bank bazarının vergi tənzimlənməsi mühüm əhəmiyyətə malikdir. Bank və ictimai-siyasi sistemlərin stabillik və funksionallıq qabiliyyətləri arasındakı qarşılıqlı əlaqə tarixən dəfələrlə təsdiqlənmişdir.

Bank sisteminin sonrakı islahat vəzifələrindən biri kimi  kredit təşkilatlarının vergiyə cəlb edilməsində problemli olan məsələlərdən biri kimi bank və digər kredit təşkilatları üçün vergi

orqanları ilə qarşılıqlı münasibətlərini həmçinin, hər iki tərəf üçün optimal qərarların qəbul edilməsini tələb edilməsini qeyd etmək olar.

Qüvvədə olan vergi qanunvericiliyinə əsaslanaraq bildirmək labüddür ki, sahibkarlıq fəaliyyəti subyektləri kimi kommersiya bankları və kredit təşkilatları əksər aparıcı vergilərin ödəyicisi kimi büdcə qarşısında öhdəlik daşıyırlar. Aparıcı mövqedə çıxış edən vergilərə misal çəkmək olar : mənfəət vergisi, ƏDV, əmlak vergisi, qiymətli kağızlarla əməliyyatlar üzrə vergi, nəqliyyat vergisi, mədən vergisi və s. Kredit təşkilatları tərəfindən ödənilən vergilər arasında daha çox əhəmiyyət kəsb edən və hesablanma xüsusiyyətlərinə malik olan olanı ƏDV, mənfəət vergisi və əmlak vergisidir [1].

Mənfəət vergisi üzrə vergitutma bazası müəyyən edilərkən yaranan ən ciddi problemlərdən biri bank və kredit təşkilatlarının vergiyə görə tutulan mənfəəti ssudalar üzrə yarana biləcək itkilərə görə ehtiyatlara ayırmaların məbləği qədər azaltmaq hüququna malik olmasıdır.

Vergi orqanlarına vergi ödəyicilərinin bank məlumatlarına daxil olmasını qadağa qoymaq həm ölkə daxili, eyni zamanda beynəlxalq səviyyədə mənfi halların yaranmasına səbəb yarada bilər:

1. Ölkə daxilində belə hallar vergi orqanları tərəfindən vergilərin tam həcminin müəyyən edilməsinə və yığılmasına birbaşa olaraq maneə törədə bilər.

2. Bu hallar eyni zamanda vergi ödəyiciləri arasında qeyri-bərabər bir mövqe yaranır. Belə ki, bəzi vergi ödəyiciləri öz maliyyə və texnoloji resurslarını elə ölkələrdə və ya offşor zonalarda yerləşən maliyyə instututlarında istifadə edirlər. Həmçinin belə qeyri-bərabərlik vergi yükünün ölkənin bütün vətəndaşları arasında paylanmasını pozur və vergi sisteminin ədalət prinsipinin pozulmasına gətirib çıxarır.

Nəzərdən qaçırmaq olmaz ki, texnoloji səviyyədə olan tərəqqi dünyada maliyyə və paralel olaraq bank sistemində çox böyük və ciddi dəyişikliklər edib və bu proses indi də öz təsirini davam etdirməkdədir. Aşağıdakı məsələlərə xüsusi diqqət yetirmək lazımdır:

- Texnoloji səviyyədə olan irəliləyişlər ayrı-ayrı insanlara internet vasitəsilə bütün dünya miqyasında bank hesabları açılmasında, bank və digər maliyyə əməliyyatını elektron yol ilə aparmaq üçün geniş imkanlar yaradır. Nəticədə yeni “ Sərhədsiz bankçılıq “ dövrü yaranır.
- Hal hazırda cari dövrdə “ Müasir elektron bankçılıq dünyasında “ leqal olmayan maliyyə əməliyyatlarının aparılması və vergilərin yayınma halları vergi ödəyiciləri arasında artmaqdadır [3].

Göründüyü kimi, zəruri olan məsələlərdən biri də odur ki, vergi orqanlarını öz vəzifələrini lazımi səviyyədə yerinə yetirə bilmələri üçün bank məlumatlarına sərbəst daxilolmaları mümkün sürətdə davamlılığını təmin etməlidir. Bu məsələnin izahı zamanı onu bank sirrinin konfidensiallığına xələl gətirən hal kimi qiymətləndirmək isə yanlış addım olardı. Çünki, vergi orqanları tərəfindən əldə edilmiş bankdan əldə edilən məlumatlar kommersiya sirri kimi qəbul edilir və yalnız və yalnız o dövlət maraqları baxımından istifadə edilə bilər. Belə ki, deməli nəticə etibarı ilə vergi nəzarətinin həyata keçirilməsi üçün vergi orqanının əldə etdiyi bank məlumatlarının digər şəxslərə verilməsi qanunvericiliklə qadağan olunur [2].

Kredit təşkilatlarının və bankların vergiyə cəlb olunmasını sisteminin təkmilləşdirilməsi baxımından qarşıda duran məsələlər aşağıdakılardır:

• Verginin tutulması məqsədləri üçün nəzərə alınan gəlir və xərclərin tərkibindən kredit təşkilatlarının və ya bankların nizamnamə kapitalına ödəniş kimi daxil olmuş xarici valyuta vəsaitlərinin yenidən qiymətləndirilməsini istisna etmək lazımdır;

• düzgün əməliyyat və sazişlərdən irəli gələn risklərə görə normativ aktlara uyğun olaraq yaradılmış bütün ehtiyatlar, kredit təşkilatlarının mənfəət vergisinə görə vergitutma bazası hesablanarkən nəzərə alınan ehtiyatların tərkibinə aid edilməlidir;

Dövlətimizdə bank işinin inkişaf etməsi və vergi sisteminin təkmilləşdirilməsi paralel formada qarşılıqlı əlaqədə olan yollar hesab olunur. Belə ki, kredit təşkilatlarının və bankların dövlət vergi tənzimlənməsinin öz yerinə yetirdiyi köməkliyi və vergilərin stimullaşdırıcı funksiyası vasitəsi ilə maliyyə disbalans formada azalmasında və iqtisadiyyatın sabitləşməsində əhəmiyyətli nailiyyətlərini qeyd etmək labüd haldır.

**Açar sözlər:** kommersiya bankları, vergilər, kommersiya banklarının vergiyə cəlb edilməsi, mənfəət vergisi,elektron bankçılıq.

### Ədəbiyyat

1. Sadıqov T.Ə., Rzayev İ. Vergi uçotu və audit, Dərslik, 2014.
2. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev Z.H., Kəlbiyev Y.A. Vergilər və vergiqoyma, Ali məktəblər üçün dərs vəsaiti. B., 2006, 432 səh.
3. Суглобов А.Е. Налоги и налогообложение: Учебное пособие, под ред. А.Е. Суглобова, Н.М. Бобошко. М., ЮНИТИ- ДАНА, 2015, 543 стр.

## STAGES OF DEVELOPMENT OF FINANCIAL MANAGEMENT IN THE MODERN CONDITIONS

**Jalə Aslanova**
Azərbaycan Universiteti
zhalaaslanova@gmail.com

Finance is an economic category that includes a set of public relations. Translated from the Latin word "financia", this concept is the payment of money, which was first formed in the Middle Ages in large Italian cities such as Genia and Venice in connection with the formation of commodity-money relations. The main feature of finance is the formation of cash in various enterprises and the state through the formation of cash income and funds, ensuring control over the use of various financial resources.

The formation of finance as a historical category is based on a number of factors, for example:

1. Division of society into different social groups and social division of labor;
2. Formation of economic entities carrying out various entrepreneurial activities;
3. Development of commodity-money relations during the historical period

Financial management refers to the management of financial relations, in other words, the management of the process of movement of financial resources as a whole in the formation of the cash flow of companies, the formation and use of financial resources. Financial management is also a process of capital management, which includes the relationship between capital and production-oriented debt capital, bank lending and other issues, especially in relation to the firm's finances. Financial management allows an organization to have a framework on which to base its financial activities. It provides clarity to various business processes and links the daily activities to the financial profitability and sustenance of the Porganization. In the modern world, financial management is necessary for both businesses as well as individuals. As the world operates on money, it is critical to be on top of one's monetary requirements and plan for it in the long-term while planning for it in the short-term.

Theoretical and methodological bases and origins of financial management are based on a centuries-old history and include several sections. Referring to this, we can say that, first of all, financial management is universal, relating to the distribution of costs, resources, reorganization, the formation of financial income in financial management, as well as the activities of companies and firms.

Financial management is one of the most important responsibilities of owners and business managers. They must consider the potential consequences of their management decisions on profits, cash flow and on the financial condition of the company. The activities of every aspect of a business have an impact on the company's financial performance and must be evaluated and controlled by the business owner.

Financial management in the modern world means utilising integrative financial systems and controls which can enable an organization to monitor as well as regulate the way funds are consumed in their business. Financial success is defined by increasing the profits by increasing the earning and reducing the wastage of money through a well-crafted strategy and daily operational expertise. It is necessary to avoid debt and lead a stress-free life. Financial management also provides several other benefits. Some of those benefits are mentioned below.

**Increases the Efficiency of Modern Businesses**

All businesses aim to become more efficient in their processes. Financial efficiency is important to reduce unnecessary spends and improve the profitability of the organization. By using financial technology software like ERP solutions, a company can gain efficiency through automation and documentation of the financial process, reduction in turn around time and more evolved and transparent purchase decisions. It aligns various sales and business processes of the company with the financial management of the company, thereby increasing the overall efficiency of the organization.

**Provides A Business with Sufficient Liquidity**

Any business requires sufficient funds to run smoothly and to execute its daily operations. Without enough funds to float around, a company would not be able to pay its vendors and employees, start marketing campaigns or run its systems and processes, let alone manufacture goods and provide services. With financial management, a company can prepare its cash flow forecasts and budget planning. It can provision for all activities in advance and keep itself carry on smoothly. It can allocate

its financial resources effectively and also raise additional capital ahead of time in case it is short of funds.

**Aims at Maximization of Profitability**

The ultimate aim of any business is to maximize its profitability. It is what allows companies to sustain themselves and keep functioning normally. It has a commitment towards its stakeholders to increase its profitability and provide good financial returns to its investors. An investor can only stay interested in a business venture as long as it is giving profitable returns on his investment. Profitability also serves as a competitive advantage in the market as it gives the company the financial strength to carry on in front of the strongest of competition and penetrate new markets as well.

**Provides Monetary Security**

With proper financial management, a company is able to divert its funds to safe investments. A sound financial manager invests the company's funds in profitable assets and activities providing it with financial stability and security. Risky investments can derail the growth and development of an organization and put its existence in jeopardy. Financial management reduces risks and optimises the capital that a company has in hand. Capital budgeting techniques are employed by financial managers to evaluate the feasibility and the risk of undertaking any investment before a company puts their money in any big and long-term project. Financial managers regularly use analytics and financial tools to decide the volatility and risk associated with any investment.

**Provides Stability to an Organization's Capital Structure**

A company sources its capital funds from multiple sources. It takes loans from banks and raises capital from the market. Capital from different sources has different costs. Financial management ensures a healthy balance between different sources of capital in the company's capital structure.

The main purpose of these issues is to strengthen and develop the financial capacity of enterprises, which in a market economy they are trying to achieve by increasing their investment in various areas of activity. This situation forces firms to get the maximum profit by using their financial resources to the minimum and saving. As competition intensifies, enterprises strive to make production more dynamic and to meet new economic requirements, and in doing so, they strive to make their products more competitive and to meet the needs of consumers in the markets.

There are various roles that modern financial management systems must fulfill. The first one is book-keeping. This is the process of keeping track and records of all the financial daily activities of a company such as sales and expenditure. The system then compiles the information and prepares reports such as balance sheets and profits and loss statements. This helps you analyze the financial records easily and is important in decision making. This system also helps in financing especially those businesses which avail themselves in the form of business credit cards or business loans. Business financing can be important especially in low seasons and can help the business grow but one should be careful when making such a decision. The financial management system is also helpful when it comes to budgeting. It helps one to make sound decisions when budgeting for anything for the business since it offers you all the financial information that maybe required such as the current earnings and the expected returns in future. With all this information at your disposal, one can be able to know the financial effects of buying whatever that you are budgeting for.

The system also helps one to monitor the cash flow of the business. You keep track of the money that you have and the money that is required to run the business. This ensures that you are able to meet daily expenses as well as meet the other business expenses on time like paying rent for the premises, paying your staff and have capital ready for growth and other developments including expansion. The modern financial management systems have changed the role of a financial manager. Financial managers analysis the system and helps in making financial decisions which includes pointing out the areas that the company needs to improve on in order to maximize profits. The use of technology in financial management has helped to improve efficiency, performance, and effectiveness of businesses. It has also sophisticated transactions and subsequently improving modern day commercial activities both in quantity and quality. It has enhanced the security of company data and other information which could be used against it.

In general, we can say that the principles of financial management reflect the system of basic rules for the implementation of management, which varies depending on a number of factors. Examples include the principles of centralization and decentralization, the principles of continuity, collegiality, and purposeful adaptation and concentration. If we look at each of them separately, we must first note that the principle of centralization is intended for more small firms, and firms with relatively large volumes of activity also use the principle of decentralization The use of the principle of centralization in the management of financial activities, especially in small enterprises, is convenient because the management and implementation of problems is usually carried out by one person or a unit responsible for it, because the management is carried out through a single center. . However, in large enterprises, it is not possible to manage from a single center, and the principle of decentralization is used..

In the management of financial processes in enterprises in financial management, the organization of finance is aimed at providing enterprises with the latest technological equipment, construction of facilities suitable for new production areas and further expansion of production capacity. Enterprises that make investments with their own capital usually prefer the form of self-financing in modern times and try to implement the process of financial management in this way. In this case, the main purpose of the enterprise is to determine the funds to be used in the implementation of financing in enterprises. Businesses are always trying to have more money as a source of funding, because more money is more, and less money is less profit for them. Effective financial management includes setting goals and benchmarks an accounting department can analyze each month or quarter. These analyses can help determine specific areas where problems are occurring. For example, cost of production might be higher than budgeted. An investigation might reveal that a company's machinery needs to be repaired or replaced, or that new maintenance procedures need to be introduced.

Financial management seeks to ensure your funds are channeled towards safe and rewarding investments. Avoid committing your scarce financial resources to risky investments that may derail market growth and expansion. The financial management function comes in handy when seeking to minimize risks and optimize your financial capital.

For example, financial managers use capital budgeting techniques to evaluate the feasibility and risks of undertaking long-term investments.

Now days, there is necessity to give importance of financial management in modern business to achieve objective related to finance of a company. Finance is actually that soul out of business relationship. Importance of financial management is to meet each prerequisite of the business concern.

Financial management its importance is financial planning . It decides each financial necessity associated with business concern. Also financial planning associates need to take prompts and correct measures instead of worries in later stage of financial management life-cycle of a company.

Think of importance of financial management points as mentioned above will benefit you in many ways. It will provide you financial stability, improve your standard of living, give you peace of mind and keep you financially stress free. It is highly recommended that you should start thinking of financial management when you can see how many benefits you get from it.

**References**


1. Rafay A. Modern Financial Menegment in Focus.
2. Mihajlović M. B., Tadin D. B., Gordić B.M. (2020). The role of financial management in the company. Tehnika, *75*(4), 498-503.


## BAYANDURLU – OSMANLI MÜNASIBƏTLƏRİNDƏ TRABZON MƏSƏLƏSİNİN HƏLLİ


**Fidan Axundova**

Azərbaycan Universiteti

fidanakhundova99@mail.ru


Bayandurlu dövləti ilə Osmanlı imperiyası arasında münasibətlərin kəskinləşməsində Trabzonun rolu böyük idi.Bu şəhər Bayandurlular üçün Qara dənizə yeganə çıxış yolu idi.Bayandurlu tacirləri burada ipək və başqa şərq malları almağa gələn venesiyalılarla,genuyalılarla,habelə digər avropalı tacirlərlə görüşürdülər.Bayandurlu tacirləri Trabzon ticarətindən böyük gəlir götürür,bu şəhər vasitəsi ilə Krımdakı ticarət mərkəzləri ilə də əlaqə saxlayırdılar [2, s.25]. Trabzon yunan dövləti,həm də Osmanlılara qarşı Bayandurlu dövlətinin müttəfiqi idi.Öz müstəqilliyini qorumaq iqtidarında olmayan Trabzon imperatorları hələ xıv əsrin ortalarından Bayandurlularla dostluq etməyə başlamışdırlar.

1453-cü ildə ıı Mehmed Bizans imperiyasını aradan qaldırdıqda,Trabzon Türkiyəyə ildə 2000 dukat bac verməyə məcbur oldu.Bundan sonra Trabzon imperatorları Bayandurlarla daha da yaxınlaşmağa başladı. Bizans mənbələrinə görə David Həsən bəyə bir elçi göndərmiş və Osmanlıya veriləcək ödənişin aradan qaldırılması üçün Fateh Sultan Mehmedlə danışıqlar aparmasını xahiş etmişdir [6, s.298]. Həsən bəy bunun qarşısın almaq üçün 1459-cu ildə Bayandurlu diplomatı Murad bəyin başçılığı ilə İstanbula elçi heyəti göndərdi. Onlar Trabzonun Osmanlılara verdiyi bacın ləğv olunmasını tələb etsələr də, II Mehmed bu tələbi rədd etdi.Bundan sonra Həsən bəy Trazbon

yaxınlığında mühüm strateji məntəqə olan Qoyluhisarı geri almaq üçün dəfələrlə təşəbbüs etsə də,nəticəsiz qaldı [7, s.367].

Osmanlı imperiyasının hərbi qüvvələri Sultan II Mehmedin başçılığı ilə Kiçik Asiyada hərbi əməliyyata başladı. Mahmud paşanın başçılığı ilə Qara dənizlə şərqə doğru bir donanma onu müşayiət edirdi. Osmanlı sultanı bu donanmanın köməyi ilə Genuya ticarət məntəqəsi olan Amasranı,İsfəndiyaroğulları bəyliyinə məxsus Sinopu, Kastamonini tutdu.Sonra isə o, Qoyluhisarı Bayandurlulardan aldı. Qoyluhisardan sonra Osmanlı qoşunları Bayandurlu dövlətinin sərhədlərini keçib Ərzincan istiqamətində hücuma keçdilər.Həsən bəy II Memedin Trabzon üzərinə hücum edəcəyi xəbərini aldıqdan sonra anası Sara Xatun və Mövlana Əhmədi və digər alimlər öz aralarında "Şəriət baxımından onunla vuruşmaq düz deyil, çünki o müsəlmanların sultanıdı və onunla sülh İslamın xeyrinəvə xalqın əmin-amanlığına səbəb olar" [4, s.296]. Bu haqda Əbu Bəkr-i Tehrani belə deyir:"Rum padişahı Həsən Bəyə elçi göndərdi və əgər anası Sara Xatunu danışıqlar üçün yanına göndərərsə, onda sülh bağlamağa və Trabzon üzərindəki iddialarından əl çəkməyə hazır olduğunu bildirdi" [5, s.79]. Vəziyyəti düzgün qiymətləndirən Həsən bəy Yassıçəmənə-ıı Mehmedin hərbi düşərgəsinə göndərdiyi heyətə Sara Xatun başçılıq edirdi.

Bir diplomat kimi Sara Xatunun fəaliyyətində,onun Sultan II Mehmedlə bağladığı 1461-ci il sülhünün böyük əhəmiyyət kəsb edirdi [3]. Həsən bəy Sara Xatunu Sultan II Mehmedin hərbi düşərgəsinə göndərərkən,onun qarşısına iki çətin vəzifə qoymuşdu.İlk olaraq, o, Osmanlı sultanını Bayandurlular üzərinə hücum etmək fikrindən daşındırmalı,daha sonra onu Trabzonu fərh etmək fikrindən döndərməli idi.Mənbələrin məlumatına görə,Sara Xatun və II Mehmed bir-birinə "ana","oğul" deyə müraciət edirmşlər [2, s.30]. Sara Xatun II Mehmedi Bayandurlulara qarşı hərbi əməliyyatı davam etdirmək fikrindən daşındırdı.Sara Xatun etdiyi görüşmələr və Murad paşanın da köməyi ilə Osmanlı və Bayandurlular arasında imzalanmış müqavilə ilə Osmanlı sultanlığına və Bayandurlu dövlətinə qarşı gizli planlar cızan,Azərbaycana sahib çıxmaq istəyən Roma papası başda olmaqla Qərb dövlətlərinə,gürcü knyazlarına, Kiçik Asiya hakimlərinə, Avropa krallarına müdrikliyi ilə dərs vermişdi. Həsən bəylə Sultan Mehmeti,iki türk cahangirini üz-üzə qoymaqla onlara arxadan zərbə vurmaq istəyənlərin niyyətini gözündə qoyan Sara Xatun əldə etdiyi sülhlə iki türk dövlətini qırğından xilas etmişdi [1].

Bayandurlu dövlətini təcrid etdikdən sonra ıı Mehmed, artıq Qara dənizdən Osmanlı donanması tərəfindən mühasirə olunmuş Trabzon üzərinə yeridi. O, Həsən bəyin hücum təhlükəsinə qarşı Sara Xatun başda olmaqla Bayandurlu elçilərini öz ilə Trabzona apardı. Həsən bəyə yazdığı məktubda anası ilə elçilərin Trabzon alındıqdan sonra geri qaytarılacağını bildirmişdir. 1461-ci il oktyabrın 26-da 30 günlük mühasirədən sonra Trabzon süqut etdi.Trabzonun əldən getdiyini görən Sara Xatun gəlini Dəspinə Xatunun varsilik hüququndan istifadə edərək Trabzon xəzinəsini sultanla bölüşdürməyə müvəffəq oldu və Iı Mehmedin verdiyi hədiyyələrlə geri qayıtdı [2, s.31]. Trabzon yunan dövlətinin aradan qaldırılması, əslində, Bayandurlu dövlətinə qarşı atılmış ilk iri hərbi-siyasi addım idi. Trabzonun fəthi ilə Bayandurlu dövləti həm müttəfiqini,həm də Qara dənizə çıxış yolunu itirdi.

**Açar sözlər**: Trabzon, Osmanlı, Bayandurlu, Qara dəniz, Sara Xatun.

**Ədəbiyyat**

1. Həsənova M., Cəllili Ş. Azərbaycanın milli dövlətçilik tarixində görkəmli qadınlar. Bakı: 2008, 212s.
2. Mahmudov Y.M. Öyrənilməmiş səhifələr, Bakı: 1972.
3. Mahmudov Y.M. Görkəmli Azərbaycan diplomatı Sara xatun. Azərbaycan qadını jurnalı, Bakı: 1969, №12.
4. Arayancan Ayşe Atıcı, Akkoyunlu ve Karakoyunluda Kadının Devlet Yönetimi ve Diplomasideki Öneminde iki örnek: Hatun Can Begüm ve Sara Hatun".Selçuk Universitesi Türkiyyat Araşdırmalar Dergisi, 29(Aralık 2011), 285-301.
5. Baykal B.S. Fatih Sultan Mehmet-Uzun Hasan rekabetinde Trabzon meselesi. Tarih Araşdırmalar Dergisi, 2(1964), 67-81.
6. Yücel Y. Fatihin Trabzonu Fethi öncesinde Osmanlı-Trabzon-Akkoyunlu İlişkileri. Belleten 49(1985), 287-312.
7. Мюллер А. История ислама, т.Ш.-СПЬ, 1896.

## ТРАДИЦИОННАЯ ПИЩА И НАПИТКИ НАСЕЛЕНИЯ БАКУ В КОНЦЕ 19-НАЧАЛЕ 20 ВЕКА

**Лейла Ахундова**
Институт Археологии, Этнографии и
Антропологии НАНА
axundova0707@mail.ru

Пища и напитки относятся к важным элементам материальной культуры народа. Большинство этнографов-исследователей считают пищу и связанные с природными и хозяйственными условиями областями культуры, важнейшим дифференцирующим компонентом хозяйственно-культурных типов, как связанную в основном с производственными и жизнеобеспечивающими подсистемами культуры. При учёте дифференцирующих свойств пищи большое значение имеет в ней удельный вес, растительной и животной, злаковых, бахчевых, фруктовых и прочих культур. Изучение пищи, её состава, способов приготовления помогают выявить корни, пути сложения народов, их культурных связей. В целом характер пищи, её разнообразие, специфические элементы определяются природно-климатическими, географическими условиями и древними традициями. Поэтому при изучении пищи населения города Баку нужно иметь в виду, что эта кулинарная культура не представляет собой нечто абсолютно новое, неповторимое, чем в других зонах Азербайджана.

В зависимости от хозяйственной деятельности, от социального состава пища имеет своеобразные черты. Бедным слоям населения было тяжело прокормиться, тогда как богатые

и зажиточные люди в течение всей жизни особое внимание уделяли питанию. Поэтому в развитии традиционной пищи роль состоятельных слоёв населения неоценима.

Пища, их разнообразие, всевозможные напитки домашнего приготовления, в XIX – нач. XX вв. удивляли путешественников посещавших Баку. Эти люди с большим удовольствием пишут в своих исследованиях, воспоминаниях о гостеприимстве, о разновидностях пищи, об их названиях, а некоторые даже описывают способы их приготовления, основные ингредиенты, культуру подачи к столу и т.д. Но эти заметки не носят научный характер.

В наше время, в эпоху быстрого распространения более или менее унифицированной общемировой урбанистической культуры этническое своебразие народов в материально-бытовой сфере постепенно стирается. Однако показательно, что в области пищи этнографическая специфика сохраняется направленно более стойко и долго, нежели в других сферах материальной культуры.В этнографической науке пища условно разделяется на повседневную, ритуальную – праздничную, свадебную и поминальную.По составу продуктов при приготовлении блюд, пища бакинцев делится на 2 основные группы – растительного и мясомолочного характера. В Баку ритуальная пища отличается от повседневного тем, что в ней больше разнообразия, калоритности, также различные способы приготовления. Другая особенность пищи, приготовленная в Баку, заключается в совместном употреблении как растительных, так и мясомолочных продуктов.

**Пища растительного происхождения:** В этой условной группе основное место занимают зерновые, точнее мучные, которые на территории Азербайджана несомненно известны с появлением пшеницы.

Пшеницу в Баку употребляли в виде муки. В Баку и в её ближайших окрестностях пшеницу не выращивали, поэтому население в исследуемое нами время покупали муку в зонах Куринской низменности. С давних времён на богатых орошаемых районах вдоль этой реки местное население выращивало несколько сортов пшеницы, в том числе красную и белую. Выпечкой хлеба в Баку занимались в основном женщины. В процессе приготовления пользовались такими орудиями как «qolçak» – нарукавник, который шили из прочного материала, «dovaq» – специальная подушечка, которую наполняли саманом, «şiş» – металлический крюк небольшой длины, для вынимания готового хлеба из тендира, «arsin» – металлический нож без рукоятки для разрезывания теста. Со второй половины XIX века на базарах Баку особой популярностью пользовался «daqlı çörəyi» – (хлеб горцев – перевод дословный). Такой хлеб пекли в основном в махаллах Чемберекенда, Ясамалы, Комурчу. Сравнительно большой по диаметру, достаточно тонкий по центру, такой хлеб имел особый аромат и вкус. Популярностью, особенно среди пожилых женщин пользовались такие «xəmir xorəyi» (мучные блюда), как «xingal» (хингал), «düşbərə» (душбере), «gürzə» (кюрзе), «əriştə» (ериште), «xəşil» (хашил). «Xingal» в основном готовили двух видах – «qiymə xingal» и «sulu xingal». Излюбленной мучной пищей в Баку была «düşbərə» (пельмени). Бакинские пельмени, считались самыми лучшими пельменями во всём Кавказе [1]. Из пшеничной крупы в Баку готовили «tınc», который в западных зонах Азербайджана был известен под названием «qovut». Из зернобобовых растений в Баку в траурный день «Aşura» (Aşura) готовили специальную

пищу «hədiq». Быстро приготовляемой пищей в Баку был «quymağ». Основным блюдом из риса был «plov».По нашим исследованиям в Баку в это время умели готовить около 30 разновидносьтей плова. Со второй половины XIX века в Азербайджане стали повсеместно сажать картофель, а фасоль с конца XIX века. Поэтому эти виды растительности стали применяться в рацион питания азербайджанцев, в том числе население Баку с начала XX века. А до этого в Баку не было отдельных блюд из этих двух овощей. Зелень употребляли в пищу каждодневно. Население Баку в каждодневном рационе использовали различные супы – шорба с зеленью, «soğan şorbası» – (суп с луком), «şomu sıyığı» – (рисовая каша со шпинатом) и т.д. Таким образом , если внимательно рассмотреть основные виды пищы и различных напитков домашнего приготовления,становится ясно, что население города Баку в период нашего исследования особо относились к питанию, умели готовить разные блюда следить при этом за свое здоровье.

**Ключевые слова:** природа и культура питания, разновидности плова, мучные блюда, напитки.

**Литература**

1. Azərbaycan etnoqrafiyası: [3 cilddə]. – Bakı: Şərq-Qərb, c.2, 2007, 384 s.

**XIX əsrin sonu- XX əsrin əvvəllərində Baki əhalisinin ənənəvi qida və içkiləri**

Bakının yerli əhalisinin XIX əsrin sonu XX əsrin ilk onilliklərində əsas yemək və içki növləri əsasən klimata uyğun, təsərrüfat növlərinə görə hazırlanır və istifadə edilirdi. Elmi araşdırmalara görə, bir çox etnoqraflar ümumiyyətlə yemək mədəniyyətini təbii və təsərrüfat şəraitinə görə, insanların və etnosların həyat şəraitinin mühüm göstəricilərindən hesab edirdilər. Bakıda unlu, ətli, bitki və heyvan mənşəli ərzaqlardan düzgün istifadə etməyi bacaran köklü əhali bunların hər birini nə zaman, hansı temperaturda və hansı üsullarla bişirməyi çox yaxşı bacararaq, sağlamlıqlarını da müəyyən qədər bəslənmə sisteminə görə uzun müddət qoruya bilmişlər.

## BEYNƏLXALQ TƏŞKİLATLAR KONTEKSİNDƏ İRAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

**Zərifə Axundova**
Azərbaycan Turizm və Menecment Universiteti
zarifa.akh14@gmail.com

Müasir dövrdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ilk ikitərəfli əlaqələr Azərbaycan Respublikasının 1991-ci il 18 oktyabr müstəqillik aktının imzalanmasından sonra başlamışdır. Diplomatik əlaqələr 1992-ci il mart ayından yaranmışdır.

Strateji olaraq İrana Azərbaycan ilə münasibətlərin isti olması daima maraqlı olmuşdur. Orada milyonlarla Azərbaycan türkünün varlığı, Xəzər dənizinin ortaq dəniz olması, ölkəmizin strateji

mövqədə yerləşməsi daima İranın diqqət mərkəzində olmağımıza səbəb olmuşdur. İki tərəfli diplomatik münasibətlərdən əlavə olaraq Beynəlxalq təşkilatlar kontekstində də münasibətlər qurulmuşdur [1].

İran təkcə iki tərəfli diplomatik və digər münasibətlərdən əlavə olaraq, Beynəlxalq təşkilatlar çərçivəsində də ölkəmizlə sıx münasibətlər qurmuşdur. İstər İslam Əməkdaşlıq Təşkilatında, ATƏT-in Minsk qrupunda, Qoşulmama hərkatında, Birləşmiş Millətlər təşkilatında daima Azərbaycanın mənafeyini müdafiyə edən təkliflər vermiş, ölkəmizin mənafəyinə uyğun qərarları dəstəkləmişdir. İranın işğalçı Ermənistan Respublikası ilə də sıx münasibətləri olmasına baxmayaraq Beynəlxalq arenada daima Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. İki xalq arasındakı tarixi bağlarında rol oynadığı, münasibətlər daima inkişaf etmişdir [2].

İran İslam Respublikası daima Qoşulmama hərkatında da Azərbaycanın mövqeyini dəstəkləmişdir. 2012-ci il 30-31 avqust tarixlərində Qoşulmama Hərakatı dövlət və hökumət başçılarının 16-cı zirvə toplantısı İranın paytaxtı Tehran şəhərində keçirilmişdir. Azərbaycan bu toplantıda iştirak edərkən İranın rəhbərliyi altında keçən zirvə toplantısının yekun sənədinin 391-ci bəndində üzv dövlətlər Daglıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının "ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış dövlət sərhədləri daxilində" həllinə dəstəyi ifadə etmişlər. Bu bəndin Azərbaycanın mənəfeyinə uyğun ifadə edilməsində İranında töhfəsi olmuşdur [3].

Həmçinin Azərbaycan-İran münasibətlərinə Beynəlxalq təşkilatlar kontekstində nəzər yetirməyə davam etdikdə İqtisadi Əməkdaşlıq Təşkilatındakı münasibətlərə nəzər salmasaq olmaz. Azərbaycan təşkilata 1992-ci il 28 noyabr tarixində İran və Türkiyənin dəvəti ilə üzv olmuş, təşkilatın 9-cu və 12-ci zirvə topalantıları 2006 və 2012-ci illərdə Bakıda keçirilmişdir. Təşkilatın maliyyə nazirlərinin 6-cı iclasına 2022-ci ildə Azərbaycan Respublikası ev sahibliyi edəcəkdir [4].

Daha sonra İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanla, xüsusilə Qarabağ problemi ilə bağlı olan qərarlarına İranın təkidi əsas rol oynamışdır. Zirvə toplantılarında Azərbaycanın dövlət başçısı ilə təkbətək görüşlərin keçirilməsi İran-Azərbaycan münasibətlərinin hər tərəfli şəkildə yüksək səviyyədə olduğunun göstəricisidir.

Yekun olaraq belə qeyd etmək olar ki, beynəlxalq münasibətlər konteksində münasibətlərin belə geniş və isti olması Azərbaycanın Beynəlxalq arenada tək olmadığının göstəricisidir. Qonşu ölkə ilə hər tərəfli isti münasibətin olması Azərbaycanın xarici siyasətinin böyük uğurudur.

Bölgədə sabitliyin və sülhün açarı olan Azərbaycan Respublikası daima öz qonşu və digər dövlətlərlə hər konteksdə yüksək səviyyədə münasibət qurmağa hazırdır. Qurulan bütün müsbət yönümlü münasibətlər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına böyük töhfə vermiş və gələcəkdədə verəcəkdir.

**Açar sözlər:** Azərbaycan Respublikası, İran İslam Respublikası, beynəlxalq təşkilatlar, əlaqə, münasibətlər.

## Ədəbiyyat

1. Aslanlı A., Kasım K., Soğuk Savaş Sonrası Kafkasya, USAK yayınları, Ankara 2011.

2. Azərbaycan-İran münasibətləri-Tural Həmid. https://azlogos.eu/az%c9%99rbaycan-iran-munasib%c9%99tl%c9%99ri/
3. XİN Qoşulmama Hərəkatı (QH)- https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/qosulmama-herekati-qh
4. Azərbaycan Respublikasinin İqtisadiyyat Nazirliyi Yaninda Dövlət Vergi Xidmət-İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) https://www.taxes.gov.az/az/page/eco-iqtisadi-emekdasliq-teskilati

## QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ: MİLLİ VƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN QARŞILIQLI SƏCİYYƏSİ

**Xanoğlan Babayev**
Azərbaycan Universiteti
xanoglanbabayev01052000@gmail.com

İqtisadiyyata dövlət müdaxiləsinən əsas alətlərindən və ya metodlarından biri qiymətlərin dövlət tənzimlənməsidir. Qiymət tələb və təklifin nizamlanması aləti olaraq, istehlakçının (alıcının) imkanları və istehsalçının (satıcının) pula olan tələbinin, eyni zamanda çox vacib bir sosial funksiyanı sərvət və xidmətlərin istehlak strukturlarının və həcminin xərclərə,yaşayış minimumuna, həyat səviyyəsinə,ailə istehlak büdcələrinə uyğunlaşdırılması funksuyasını yerinə yetirir. Makroiqtisadi mövqedən qiymətlərin qaldırılması məqsədəuyğun olmadığı halda belə, qiymətlərin özünütənzimləmə sistemi mövcuddur. Dövlət bütün əmtəə növlərinin qiymət dəyişmələrini daim izləməli, həmin dəyişmələrin səbəblərini təhlil etməli, daxili qiymətəmələgəlmə proseslərinə birbaşa və yaxud dolayı yolla təsir göstərməlidir [1, s.480]. Bu zaman qiymətlərin səviyyəsinə və dinamikasına bütövlükdə iqtisadiyyatın vəziyyətini xarakterizə edən göstərici kimi baxılmalı, qiymətlərə təsir isə bütün iqtisadi şəraitin inikşafına təsirin tərkib hissəsi kimi götürülməlidir. Qiymətlərin ümumən dövlət tənzimlənməsi qanunvericilik, inzibati və büdcə-maliyyə tədbirləri vaistəsilə qiymətə təsir etmək cəhdidir. Belə olduqda dövlət iqtisadi sistemin sabit inkişafına, başqa sözlə, qiymətlər vasitəsilə təkrar istehsalın dövrü tərəddüdlərinin nizamlanmasını təmin etməyə çalışır. Mahiyyət etibarilə qiymətlərin tənzimlənməsi təsərrüfat konyunkturasından asılı olaraq böhrana qarşı (durğunluğa qarşı) və inflyasiyaya qarşı xarakterli ola bilər. Dövlətin mühüm funksiyası qiymətin ümumi səviyyəsini sabit saxlamaqdır.Belə olmadıqda qiymətlərin artım tempi, yəni inflyasiyanın tempinin yüksək olması istehsalın tənəzzülünü dərinləşdirir. Çünki, hiperinflyasiya şəraitində müəssisələr gələcək işləri planlaşdırmaq və düzgün qərarlar qəbul etmək də çətinlik çəkirlər. Dövlət mümkün qədər çalışmalıdır ki, ümumi qiymət səviyyəsi həddən artıq aşağı düşməsin və həddən artıq yüksəlməsin. Qiymətləri tənzimləməklə dövlət gəlirlərin yenidən bölgüsünə nail olur ki,bu əhalinin az təminatlı təbəqələrinin real gəlirlərini sabit saxlamaq üçün şərait yaradır. Beləliklə dövlət qiymət əmələ gəlməsi prosesinə müdaxilə etməklə sosial müdafiə üçün zəmin yaradır. Bununla yanaşı həm müəssisələrin xarici istehsalçılarla rəqabət aparmağa hazır olması həm də beynəlxalq iqtisadi əlaqələrdən tamamilə istifadə etmək üçün dövlətin qiymətin əmələgəlməsinə müdaxiləsi tələb

olunur. Qiymətləri tənzimləməkdə məqsəd gəlirləri ədalətli, resursları isə səmərəli bölüşdürməkdən ibarətdir.Qiymətlər dövlət tərəfindən tənzimlənməzsə tələblə təklif arasındakı uyğunsuzluqlar dərinləşə bilər [1, s.481].

Qiymətlərin dövlət tənzimlənməsi üzrə beynəlxalq təcrübəni əsasən inkişaf etmiş ölkələrin timsalında nəzərdən keçirmək olar.Əvvəlcədən, nisbi də olsa belə bir qanunauyğunluğu qeyd etmək olar ki, dövlətin iqtisadi inkişaf səvlyyəsi yüksəldikcə tənzimlənən qiymətlərin xüsusi çəkisi azalır.

Göstərilə bilər ki, Amerika Birləşmiş Ştatlarında tənzimlənən qiymətlərin xüsusi çəkiləri 5-10%-dir. Tənzimləmə sferasına nəzər salsaq, pambıq, buğda, süd, qarğıdalı məhsullarının üstünlük təşkil etdiyini görə bilərik. Amerika Birləşmiş Ştatlarında qiymətlərin tənzimlənməsi ilə bağlı vəzifələr səlahiyyətli dövlət orqanları, o cümlədən Kənd təsərrüfatı nazirliyi,Federal Ticarət şirkəti,Antiinhisar idarəsi tərəfindən həyata keçirilir.

Ardıcıl olaraq, tənzimlənən qiymətlərin Yaponiyada xüsusi çəkisinin orta hesabla 10% təşkil etməsi məlumdur. Tənzimlənmə sferasına əsasən düyü, buğda, süd, ət, süd, qaz və su təchizatı, elektrik enerjisi, təhsil və səhiyyə xidmətləri daxildir.Yaponiyada da qiymətlərin tənzimlənməsinin özünəməxsus təşkilati-idarəetmə struktutu vardır. Bu sahədə səlahiyyətli və məsul dövlət orqanları sırasına İqtisadiyyat, Kənd Təsərrüfatı və Səhiyyə nazirlikləri daxildir.

Tənzimlənən qiymətlərin İsveçrədə xüsusi çəkisi nəzərdə keçirilən ölkələrlə müqayisədə daha yüksəkdir və 50% təşkil edir. Qiymətləri tənzimlənən məhsulların siyahısına bilavasitə kartof, taxıl, ət, toxuculuq məhsullarının, çuğundur, musiqi alətləri və uşaq oyuncaqları aid edilir. Dövlət bəzi kənd təsərüfatı məhsullarına reqlamentləşdirilmiş alış qiyməti təyin edir. Bu, tədbir əsasən kənd təsərüfatı məhsullarını, xüsusən ət, taxıl və yumurtanı əhatə edir. Qiymətlər həmin məhsulların fərdi istehsalçılarının marağına uyğun şəkildə dövlət və kənd təsrüfatı istehsalçılarının birliyinin istehlakçılarının iştirakı ilə birgə hər il apardığı illik danışıqlar nəticəsində təyin edilir [2, s.431]. İsveçrədə qiymətlərin tənzimlənməsi Qiymətlər üzrə Federal İdarə və İstehlakçıların Hüquqlarının Müdafiəsi Fondu tərəfindən reallaşdırılır.

Milli təcrübədə qiymətlərin dövlət tənzimlənməsindən danışarkən, ilk növbədə onun qanunvericilik bazasını araşdırmaq lazımdır.Azərbaycanda qiymətlərin tənzimlənməsi qanunvericiliyi Azərbaycan Respublikasının Konistitusiyasından,"Qiymətlərin tənzimlənməsi haqqında" "Təbii inhisarlar haqqında", "Haqsız rəqabət haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunlardan və müvafiq normativ-hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfadar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir [3].

Azərbaycanda qiymətlərin tənzimlənməsi əsasən qiymətlərinin dəyişməsi dövlətin iqtisadi maraqlarına və əhalinin rifahına təsir göstərən məhsullara şamil edilir.Məhz elə buna görədir ki, son illərdə Tarif(qiymət) Şurası tərəfindən dövlət qeydiyyatına alınmış dərman vaistələrinin qiymətlərinin, elektrik enerjisinin və təbii qazın ölkədaxili tariflərin tənzimlənməsi barədə qərarlar vermişdir.Burada daha çox istehsalçıların, istehlakçıların və dövlətin maraqlarının uyğunlaşdırılması məqsədi ön plana çəkilmişdir. Bazar konyunkturasında baş veən dəyişikliklər nəzərə alınmaqla, zəruri hallarda Tarif şurası tərəfindən rabitə tariflərilərinə, neft məhsullarının topdan və pərakəndə satış qiymətlərinə də yenidən baxılır. Əhalinin istehlakında əsas yer tutan ərzaq məhsullarının, xüsusən çörəyin qiymətinin nisbi sabit saxlanılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu

baxımdan buğda istehsalının subsidiyalaşdırılması, buğda və un idxalında vergi güzəştlərinin tətbiqi kimi dolayı metodlar diqqət çəkir.

Düşünürük ki, zaman keçdikcə daxili tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac potensialının artması qiymətlərin dövlət tənzimlənməsi mexanizmində də əsaslı dəyişikliklərə səbəb olacaqdır.

**Açar sözlər:** iqtisadiyyat, milli təcrübə, beynəlxalq təcrübə, qiymət.

**Ədəbiyyat**

1. Kazzımlı X.H və digərləri, Qiymət və Qiymətin Əmələ Gəlməsi dərslik "Müəllim" nəşriyyatı Bakı, 2019, s.498.
2. Çudakov A.D. Qiymət və Qiymətin Əmələ Gəlməsi, Ali məktəblər üçün dərslik Bakı, 2009, s.447.
3. http://www.e-qanun.az/framework/2335

## KOMMERSİYA BANKLARINDA MALİYYƏ MENECEMENTİNİN NƏZƏRİ ƏSASLARI

**Mübariz Bağırov, Aydan Aydınlı**
Azərbaycan Universiteti
aaidann92@mail.ru

Dünyanın bütün ölkələrində bank sistemi mövcud iqtisadi sisteminin xüsusi hissəsidir və onun məqsədlərini, xüsusiyyətlərini, inkişaf prinsiplərini, iqtisadi münasibətlərin ideologiyasını özündə ifadə edir. Bank idarəçiliyinə bank sistemininin hər mərhələsində daima tələbat vardır. Bu, həm təsərrüfat fəaliyyətinin təşkilinin ümumi baxımdan qanunauyğunluqları və həmçinin də maliyyə axınlarının təşkili və sürətli dinamikası ilə əlaqəli olan faktiki bank fəaliyyətinin özünəməxsusluğu ilə bağlıdır [1]. Maliyyə menecmenti - müəssisələrin bazar dəyişikliklərinə qarşı effektiv maliyyə idarəçiliyi üçün lazımdır. Maliyyə idarəçiliyi müəssisələrin mühasibat uçotu, istehsal və marketinq sahələrində fəaliyyətlərini davam etdirmələri üçün zəruri faktordur [2]. Maliyyə menecmentinin 5 əsas funksiyası var. Bununlara:

- ✓ Biznes investisiyasının ediləcəyi aktivlərin seçilməsi
- ✓ Vəsaitlərin miqdarının tənzimlənməsi
- ✓ Vəsaitlərin hansı mənbələrdən və necə əldə ediləcəyi araşdırılır
- ✓ Maliyyə vəsaitlərinin təmin edilməsi
- ✓ Müəssisənin fəaliyyətindən sonra əldə edilən mənfəət nisbətinin bölüşdürülməsidir.

Effektiv maliyyə idarəçiliyi biznesin tərəqqi etməsi və onun sağlam çalışması üçün vacib nüansdır. Bu, fəaliyyətin vacib məqsədlərinə müvəffəq olması hədəfi ilə maliyyə ehtiyatlarının (resurslarının) planlaşdırılmasını, təşkil edilməsini, nəzarət və monitorinqini ehtiva edir. Düzgün maliyyə menecmenti biznesinizə ehtiyatlardan daha məqsədə uyğun formada istifadəyə, maraqlı

tərəflər qarşısında vəzifə öhdəliklərini gerçəkləşdirməyə, yüksək rəqabət qabiliyyətinin olmasına və maliyyə sabitliyinin saxlanılmasına yardım edəcək [1]. Müəssisənin maliyyə vəziyyətində olumsuz nəticələr biruzə verdikdə bəzi önəmli şərtlərə əməl etmək, nəzarəti ələ keçirməyə köməy edir. Bu şərtlərə göstərə bilərik: *1.Aydın biznes planın mövcudluğu.* Plan insanın gələcəkdə hara çatmaq istədiyini və ora necə çatacağını əvvəlcədən müəyyən etməkdir. O, müəssisənin və onun fəaliyyətinin necə maliyyələşəcəyi, hansı pula ehtiyac duyulacağı və onun haradan gələcəyini müəyyənləşdirir. *2. Maliyyə vəziyyətinə nəzarət edilməsi.* İşin gedişatını mütəmadi olaraq izləmək vacib məsələdir. Gündəlik olaraq bankda olan vəsaitin miqdar nəzərindən necə olacağını və eyni zamanda nə qədər satışın edildiyini və səhm səviyyələrini bilmək lazımdır. Həmçinin aylıq əsasda biznes planında konkretləşdirilmiş hədəflərlə müqayisədə mövqeyi nəzərdən keçirmək - pul sərvətlərinin hərəkətinin idarə edilməsinə baxmaq əsasdır. *3. Müştərilərin vaxtında ödəniş edilməsindən əmin olmaq.* Müştərilər gecikmiş, vaxtında yerinə yetirilməyən öhdəliklərə görə kəskin problemlərlə qarşılaşa bilər. Ödənişin zamanında keçirilməməsi və ya heç ödənilməməsi riskini minimum səviyyəyə endirmək məqsədilə kredit şərtləri əvvəldən aydın göstərməlidir. Həmçinin aydın və dəqiq hesab-fakturalar tez verilməlidir. Kompüterləşdirilmiş kredit idarəetmə sistemindən istifadə müştərilərin hesablarını izləməyə kömək edəcəkdir. *4. Gündəlik xərclərin aydınlaşdırılması.* Müəssisə sağlam şəkildə öz fəallığını təkmilləşdirmək niyyəti ilə lazım olan minimumdan xəbərdar olmalı və bundan aşağı düşməməyə özən göstərilməlidir. *5.Mühasibat uçotunu aktuallaşdırılması.* Yaxşı uçot sistemindən istifadə əlavə maliyyələşdirmə etməyə, xərcləri, borcları və kreditorları izləməyə və s. borclara qənaət etməyə şərait yaradacıqdır. *6. Vergi müddətini qarşılamaq.* Vergi bəyannamələrinin və ödənişlərin vaxtında təqdim edilməməsi faiz və cərimələrin yaranmasına gətirib çıxarır. *7. Düzgün maliyyə vəsaitinin əldə edilməsi.* Müəssisə üçün düzgün maliyyə çeşidini bəlirləmək önəmli xarakter daşıyır çünki, istənilən maliyyə çeşidi başqa-başqa tələbatları qarşılamaq məqsədini özündə daşıyır. Kiçik bizneslər adətən biznes overdraftlarına və şəxsi maliyyələşdirməyə daha çox arxalanır, ancaq bu, konsern üçün doğru maliyyə çeşidi olmaya bilər. *8. Yaranan problemlərdən çıxış yolunun tapılması.* Maliyyə problemləri ilə üzləşmək həmişə çox streslidir, lakin həmin problemi aradan qaldırmazdan əvvəl, ilkin olaraq onların həllinə köməklik göstərəcək bəzi məsləhətləri araşdırmaq vacibdir [3]. Təsiri mümkün qədər minimuma salmaq üçün ilkin olaraq prioritet borclarla mübarizə aparmaq və pul sərvətlərinin hərəkətinin menecmentini təkmilləşdirmək kimi faktorlardan istifadə məqsədə uyğundur haldır [4].

Dinamik tərzdə tərəqqi edən bankın və onun funksiyalarının (fəaliyyət dairəsinin) müvəffəqiyyətlə gerçəkləşdirilməsi üçün qeyd olunan fəaliyyət prioritetləri kredit təşkilatının rəhbərliyinin müşahidə obyektinə çevrilməlidir:

- kredit işinin keyfiyyətinin yüksəldilməsi;
- problemli aktivlərlə işin səmərəliliyi;
- bank əməliyyatlarının gəlirliliyinin artırılması;
- xərclərin optimallaşdırılması;
- müştəri bazasının artırılması və müştərilərin cəlb olunmuş resurslarının artırılması;
- risklərin idarə edilməsi;
- kadrlarla işin təkmilləşdirilməsi;

Bu tədbirlər bankın idarə oluna bilmə qabiliyyətinin və böhran vəziyyətində dayanıqlı fəaliyyət şəraitinin tam saxlanmasına gətirib çıxarmalıdır.

**Açar sözlər**: maliyyə menecmenti, idarəetmə, kommersiya bankı.

**Ədəbiyyat**


1. Финансовый менеджмент: Учебное пособие. М.: КНОРУС, 2011.
2. Şahbazov K.A., Məmmədov M.H. Menecment, 2007.
3. Saraç M. Finansal yönetim.
4. Abbasov S. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri, Bakı, 2009, Elm və Təhsil nəşriyyatı.


## MALİYYƏ-KREDİT TƏŞKİLATLARININ VERGİYƏ CƏLB EDİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

**Məhəmmədəli Baxşəliyev**
Azərbaycan Universiteti
baxseliyev.eli@gmail.com

Banklar, bank olmayan kredit təşkilatları (BOKT) , siğorta fəaliyyəti göstərən qurumlar, lizinq təşkilatları və s. Bu qurumların ortaq cəhəti maliyyə-kredit təşkilatları sözü altında birləşməsidir. Maliyyə-kredit təşkilatlarının vergiyə cəlb edilməsini nəzərə alaraq deyə bilərik ki, büdcənin formalaşmasında xüsusi əhəmiyyət kəsb edən hissələrdən biri də maliyyə-kredit təşkilatlarıdır. Həmçinin stiumullaşdırıcı təsirə malik olmaq xüsusiyyəti ilə iqtisadi fəaliyyətdə rol oynayır.

Qeyd edəməliyik ki, vergi orqanları ilə qarşılıqlı münasibətdə maliyyə-kredit təkilatları üç statusdan çıxış edirlər:

- müstəqil vergi ödəyicisi kimi;
- dövlət və vergi ödəyicisi arasında vasitəçi kimi. Burada vergi ödəyiciləri vergilərinin banklar üzərindən dövlətə ödənilməsi başa düşülür.
- vergi agenti kimi (ödəmə mənbəyində hesablanıb tutulmuş vergilərin dövlət büdcəsinə köçürülməsi və s.).

Müasir bazar iqtisadiyyatın təhlil etdikdə, maliyyə-kredit təşkilarının göstərdikləri xidmət nəticəsində iqtisadiyyatın bir çox fərqli sahələrinin maliyyələşdirilməsi prosesini görmək olar. Bu təhlil nəticəsində demək olar ki, maliyyə-kredit təşkilarlarının iqtisadiyyatın inkişafında rolu danılmazdır. Xüsusi ilə bank sektorun vurğulamaq olar. Nümunə olaraq, kənd təsərrüfatı sektoruna maliyyə-kredit təşkilatları tərəfindən göstərilən güzəştli xidmətlər həmin sahəyə birbaşa və ya dolayı yolla təsir edir. Bunu məşğulluğun artırılmasında, istehsal və ixracın artımında görmək olar. İqtisadiyyatın göstəricilərindən biri olan ÜDM-in artması məhz fərqli sektorlar üzrə məhsul istehsalı nəticəsində baş verir.

**Bankların vergiyə cəlb edilməsi problemləri.**

Maliyyə-kredit təşkilatları bir sıra vergi ödəyir .Ödənilən əsas vergi növü mənfəət vergisidir. Maliyyə-kredit təşkilatlarından mənfəət vergisi ödəyicisi kimi çıxıs edənlər:

- Kommersiya bankları;
- Qeyri-rezident xarici bankların filalları;
- Kredit təşkilatları.

Banklar üçün mənfəət vergisinin vergitutma obyekti real mənfəətdən ibarətdir.Digər vergi ödəyiciləri kimi hal-hazırda maliyyə-kredit təşkilatlarının mənfəəti 20% dərəcəsi ilə vergiyə cəlb olunur. Burada Vergi tutulan mənfəətin məbləğin öyrənmək üçün kassa metodu və ya hesablamalar metodu ilə gəlir və xərclərin uçotu aparılmalıdır.

Dünya təcrübəsi ilə müqayisə etdikdə Ölkəmizdə maliyyə-kredit təşkilatlarının vergiyə cəlb olunması sisteminin çox da fərqli olmadığını görərik.Misal olaraq, ABŞ-da Bankların mənfəət vergisi zamanı vergi tutma obyekti oxşar metodika ilə tutulur.

Bununla yanaşı Maliyyə-kredit təşkilatları əlavə dəyər vergisi (ƏDV), Torpaq vergisi kimi vergilərdə ödəyirlər.

Vergi orqanlarının bank məlumatlarına daxil olmasını çətinləşdirmək və ya qadağan etmək bir sıra problemlərin meydana çıxmasına yol aça bilər.Bu problemlər həm beynəlxalq miqyasda , həm də ölkə daxili ola bilər. Misal olaraq, belə olan halda ölkə daxilində vergilərin həcminin müəyyən edilməsinə, onun yığılmasına bilavasitə təsir edə bilər. Vergilərin eyni qaydada tutulmasında problemlər yaran bilər və bununla da vergi ödəyiciləri arasında qeyri-bərabərlik yarana bilər.

Texnologiyanın inkişafı dünyada bir çox sahələrdə ciddi dəyişikliklər edib. Eləcə də bank sistemində. İnternet vasitəsi ilə bir sıra bank əməliyyatlarının aparılmasında geniş imkanlar yaranır. Belə olan halda vergidən yayınma halları artım göstərir. Bu səbəbdən də vergi orqanlarının bank məlumatlarına daxil olması məqsədəmüvafiqdir.

**Vergiyə cəlb edilmə problemləri və təkminləşdirilməsi istiqamətləri.**

Maliyyə-kredit təşkilatlarının vergiyə cəlb edilməsi mütləq olaraq tənzimlənməlidir və nəzarətdə saxlanılmalıdır.

Bank məlumatları Vergi orqanları üçün əlçatan olması və vergi orqanlarının onları əldə etməsi istiqamətində təkmilləşdirilmələr aparılmalıdır. Bu fəaliyyətin aparılması vacib hala çevrilib. Bu təkmilləşdirmələri aparmaq üçün dünya təcrübəsindən istifadə olunmalıdır.

Dünya ölkələri ilə əməkdaşlığın artırılması bütün sahələrə müsbət təsir edir.Bank sistemində də bu əməkdaşlığın artırılması tədbirləri həyata keçirilməlidir. Bu halda çirkli pulların yuylmasının hallarına qarşı mübarizə aparmaq olar. Bu səbəbdən ölkələr arası bank və vergi məlumatlarının mübadiləsi prosesi həyata keçirilməlidir. Maliyyə-kredit təşkilatlarında elektron bank texnologiyaların inkişaf etdirilməsi prosesləri inkişaf etdirilməlidir.

Vergi yayınmaları, rüşvət və s. Kimi halların qarşısını almaq üçün İctimaiyyətin vergi orqanları ilə prosesə cəlb edilməsi tədbirləri həyata keçirilməlidir.

Ölkəmiz davamlı olaraq inkişaf edir. Ali Baş Komandanın başçılğı ilə müzəffər ordumuzun 30 illik həsrətə son qoyması ölkəmizin iqtisadi cəhətdən sürətli inkişafının qarşısında duran əngəlləri aradan qaldırmışdır. Bu iqtisadi inkişaf sürətin nəzərə alaraq vergi qanunvericiliyində də vaxtında

düzəlişlər edilməyə məcburdur.Məhz bu düzəlişlər sayəsində qarşıya çıxan problemlərin tez bir zamanda aradan qaldırılmasına və əvvəldə yaranan problemlərin maksimal dərəcədə azaldılmasına nail olunur.

Bunların təkminləşdirilməsi iqtisadiyatın artımına öz təsirini göstərəcək.

Belə bir nəticəyə gəlmək olar ki, maliyyə-kredit təşkilatları dövlətin iqtisadi inkişafında böyük rola malikdir. Ərazi bütövlüyünün bərpa edilməsi ilə əlaqədar iqtisadiyyatın inkişafın sürətləndiyi bu dövrdə maliyyə-kredit təşkilatlarının rolu daha da artır. Məhz bu halda maliyyə-kredit təşkilatlarının vergi öhdəlikəri əsas rol oyanyır. Rəqabət şəraitinin təmin edilməsi, vergi mükəlləfiyyətinin üzərinə düşür..Vergi nəzarətinin gücləndirilməsi, şəffaf və aydın formada olması vergidən yayınma hallarını qarşısının alınmasında fayda verəcəkdir.

**Təkliflər:** Cənab Prezdentimiz Müzəffər Ali Baş Komandanımızın başçılığı altında müzəffər ordumuzun sayəsində torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası iqtisadi inkişafın sürətlənməyinə təkan verdi. Yenidənquruculuq işlərində maliyyə-kredit təşkilatlarının üzərinə daha çox yük düşür.Bu səbədən bir çox vergi güzəştlərinin edilməsini təklif edirəm.Bunun üçün bir çox bankların ümumi vergi yükünü aşağı endirmək vacibdir ki, həmin bankların müflisləşməsinin vaxtında qabağı alınar və iqtisadiyyatın bank sektorunda ifrat inhisarın qarşısı alınar, eləcə də banklara formal yox, kəsərli vergi cüzəştləri verilər.Bundan əlavə texnologiyanın inkişafın nəzərər alaraq elektron sistemin bank sisteminə inteqrasiyası sürətləndirilməlidir.Eyni zamanda vergi orqanlarının şəfaf şəkildə audit yoxlamalarının aparılması lazımdır.İctimaiyyətin vergi nəzarəti proseslərinə cəlb olunması üzrə tədbirlər həyata keçirilməlidir.Yeni dövrə nə qədər tez inteqrasiya olunması iqtisadiyatın artım tempinədə öz təsirini göstərcək.

**Açar sözlər :** Vergiyə cəlb etmə, vergi tənzimlənməsi, vergi nəzarəti, problemlər.

## Ədəbiyyat


1. “Azərbaycan Respublikasında Banklar və bank fəaliyyəti haqqında” qanun.
2. Azərbaycan Respublikası vergi məcəlləsi, Bakı, 2020.
3. Dövlət vergi xidməti https://www.taxes.gov.az/az
4. F.Ə. Məmmədov, A. F. Musayev, M.M. Sadıqov, Z.H. Rzayev, Y. A. Kəlbiyev. Vergilər və vergiqoyma. Ali məktəblər üçün dərs vəsaiti. B.: 2006, 432 s.

# FEİL VƏ FEİLİN TƏSRİFLƏNMƏYƏN FORMALARINDAN BİRİ OLAN MƏSDƏR

**Aynur Baxşəliyeva**
Azərbaycan Universiteti
bakhshaliyevaaynur@gmail.com

"Quranın" Yasin surəsinin 38-ci ayəsində deyilir."Günəş də onlar üçün Allahın nişanələrindən biridir ki, özü üçün müəyyən olunmuş qərargahına yetişmək üçün daim hərəkətdədir."Dünya yaranandan həttda daha öncəsindən Yer kürəsi və ətrafında olan hər bir obyekt hərəkət halındadır.Hərəkətin müxtəlif cür variantları mövcuddur. Alman filosofu Fridrix 19-cu əsrin 70-ci illərində materiyanın 5 hərəkət formasını qeyd edir:mexaniki fiziki, kimyəvi, bioloji ,sosial.Hərəkətin hansı formasından söhbət gedirsə getsin hərəkət hərəkətdir. Onun varlığını kainatın mövcud olmasında əsas rol oynadığını qəbul etməliyik.Hərəkətin bütün elmlərlə əlaqəsi mövcuddur. Bu elmlərdən biri isə dilçilik elmdir. Bəs hərəkət dilçilikdə hansı nitq hissəsinin obyekti kimi qarşımıza çıxır? Təbii ki də feilin. Feil ərəb mənşəli Feil bir neçə məna ifadə bilmə xüsusiyyətinə də malikdir.

1) iş, hərəkət

2) həqiqət

3) fitnə-fəsad

4) əşyanın hal və hərəkətini bildirməsi.

Azərbaycan dili çox zəngin söz ehtiyatına malikdir.Qloballaşma şəraitində elmin,texnikanın inkişafı ilə əlaqədar olaraq başqa dillərdən də sözlər dilimizə keçmişdir.Bununla əlaqədar olaraq da bu sözlərin hər biri nitq hissələrinin lüğət fonduna daxil olmuşdur.Bunların içərisində isə istisnalıq təşkil edən yeganə nitq hissəsi feildir. Milli sözlərimizin kəmiyyət olaraq çoxluq təşkil etdiyi nitq hissəsidə feildir. Feili zənginləşdirən xüsusiyyətlərdən biridə məsdər, feili sifət, feili bağlamadır. Feildən yaranan və ikili xüsusiyyətə malik olan-məsdər [Feil, isim] , feili sifət [Feil, sifət] və feili bağlama [feil, zərf] feilin hibrid formalarıdır.Bu formada olan feillər şəxsə kəmiyyətə və zamana görə dəyişə bilmirlər.

Məsdər hərəkətin adını bildirən təsriflənməyən formalardan biridir. Bu cür feillər sözün sonuna – $maq^2$ şəkilçisi əlavə etməklə yaranır. Məsələn:

Baxmaq, oxumaq, yazmaq, gəlmək, getmək

-$maq^2$ şəkilçisinin tarixi barəsində isə müxtəlif mübahisəli fikirlər mövcuddur.Gəlin onlardan bir neçəsinə nəzər salaq:

1. -$man^2$ şəkilçisindən yaranması fikri vardır ki, bu fikrin sahibi isə N.A.Baskakov idi.

2. Digər bir fikir sahibi isə A.N.Kanarov idi. O isə belə hesab edirdi ki, - $maq^2$ şəkilçisi ilə tarixən yönlük hal şəkilçisi kimi çıxış etmiş –qa, -ğa şəkilçisindən əmələ gəmişdir.

3. Başqa bir alim Q.İ. Ramstedin fikrincə isə -$maq^2$ şəkilçisinin –m+$aq^2$ şəkilçilərinin birləşməsindən əmələ gəlmişdir [1].

Lakin mövcud olan bu fikirlərin heç biri aparılan tədqiqatlar nəticəsində özünü doğrulda bilməmişdir. -maq$^2$ şəkilçisinin tarixən mövcud olmuş qədim şəkilçi olduğunu qəbul etmək ən doğru fikir olar. Lakin Azərbaycan xalqının tarixi keçmişini adət-ənənələrini əks etdirən görkəmli əsərlərimizdən olan "Kitabi – Dədə Qorqud" dastanınında, Əlinin "Qisseyi- Yusif", əsərində Dastani –"Əhməd Hərami" də müxtəlif variantlara təsaddüf olunur.

Gərəyincə bulardan aldılardı,
Görün getməgə niyyət qıldılar.

[Dastani- Əhməd Hərami]

Gəzigindən öldigin yekta.

[Kitabi- Dədə Qorqud]

Sonuncu nümunədən –diğin$^4$ şəkilçisinin –maq$^2$ şəkilçisi kimi işlənməsinin şahidi oluruq.

Müasir dövrümüzün qrammatikasına nəzər salsaq –dığı$^4$ şəkilçisinin feili sifətə aid olduğunu müşahidə etmək olar.Lakin "Kitabi- Dədə Qorqud" dastanının qələmə alındığı dövürdə bu şəkilçinin funksiyasının tamam şəkildə sabitləşmədiyini görürük [1].

Burdan belə nəticəyə gəlmək olar ki,müxtəlif dövlərdə,müxtəlif dialektlərdə -maq$^2$ şəkilçisinin fərqli variantlarına təsadüf olunmuşdur.Lakin istər Dəmirçizadənin,istər Bulutxan Xəlilovun,istərsə də Muxtar Hüseyinzadənin və bir çox dilçilərin Müasir Azərbaycan dili dərsliklərinə nəzər salsaq –maq$^2$ şəkilçisinin indiki variantının ən düzgün variant olduğunun şahidi olarıq.

Məsdər ikili xüsusiyyətə malikdir.Yəni məsdər iki əsas nitq hissəsi olan feil və isimə aid xüsusiyyətləri daşıyır.

İsmə aid xüsusiyyətləri:

1. İsimlər kimi hallanır:yazmaq,yazmağı,yazmağın,yazmağa,yazmağda,yazmaqdan.

2. Mənsubiyyətə görə dəyişə bilir:oxumağım,oxumağın,oxumağa,oxumağınız,oxumağımız,oxumağı

3. Qoşmalarla istifadə oluna bilir: üzmək üçün, öyrənmək üçün.

4. Cümlə üzvü olaraq mübtəda, tamamlıq, zərflik və ismi xəbər ola bilirlər.

5. İkinci və üçüncü növ təyini söz birləşmələrinin tərəflərikimi çıxış edə bilir. Məsələn: məşğul olmaq qaydası,uşağın pis oxumağı.

Şəxs-xəbərlik kateqoriyasının şəkilçisini qəbul edir. Lakin məsdərlərdə isimlər kimi əhatə dairəsi o qədərdə geniş deyil.Məsdər yalnız III şəxsin təkinin xəbərlik şəkilçisi [-dır$^4$] qəbul edir.Məsələn: onun istəyi oxumaqdır,sizin istəyiniz oxumaqdır və.s.

Lakin bu cür şəkilçi qəbulu özünü başqa bir şəkildə də göstərir. Məsələn: mən yazmaqdayam, sən oxumaqdasan,o oxumaqdadır, biz oxumaqdayıq, siz oxumaqdasınız,onlar oxumaqdadırlar.

İndi isə feilə aid xüsusiyyətlərinə diqqət yetirək.

1. Feillər kimi təsirli və təsirsiz olur. Lakin burda –maq$^2$ şəkilçisinin bir önəmi yoxdur. Yəni feilin təsirli və yaxud təsirsiz olmağına –maq$^2$ şəkilçisi təsir etmir.

2. Feillər kimi təsdiq və inkarlıq olur: yazmaq-yazmamaq.

3. Tərkib əmələ gətirə bilirlər digər təsriflənməyən formalar kimi.Məsələn:xalqın şairini gülləyə tutmaq,bu xalqın özünü güllələməkdir.

4. Feillərə aid olan növ şəkilçisini qəbul edir: danışmaq-danışılmaq,danışmaq-danışdırmaq.

5. Feillər kimi idarə etmək xüsusiyyətinə malikdir.Lakin yalnız idarə etmirlər həm də idarə oluna bilirlər. Məsələn:

ismi idarə etməsinə: məktəbə getmək, evdən gəlmək.

özünü idarə etməsinə: öyrənməyə başlamaq.

idarə olunmasına: yaşamaqdan bezmişdi.

6. Feil kimi özündən əvvəl zərf gələ bilir. Bu zaman zamanın,tərzini,səbəbini və s bildirir. Məsələn: sabah gəlmək, yaxşı oxumaq, birlikdə hazırlaşmaq.

**Açar sözlər:** feil, feilin təsriflənməyən formaları, məsdər.

## Ədəbiyyat

1. Xəlilov B. Azərbaycan dilində feil, Bakı, 2018.
2. Hüseynzadə M. Müasir Azərmaycan dili [morfologiya] III nəşr, Bakı, 2007.
3. Abdullayeva G. Müasir Azərbaycan dili [morfologiya, sintaksis], II hissə, Bakı, 2013.

# İONLAŞDIRICI QAMMA RADİASİYANIN CANLILARIN HEMOTOLOJİ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

**Minayə Bayramova, Leyla Kazımlı**
AMEA Radiasiya Problemləri İnstitutu
minayabayramova04@gmail.com

Məlumdur ki, ionlaşdırıcı qamma radiasiya həm birbaşa DNT-nin tamlığının pozulmasına həm də dolayı yolla hüceyrədaxili sərbəst radikalların yaranması nəticəsində ciddi hüceyrə məhvinə və stresə səbəb olur [1, 4]. Qamma radiasiya sərbəst radikalların yaranmasına və bioloji sistemlərdə ciddi hüceyrə ziyanlarına gətirib çıxarır.Yetkin nüvəsiz eritrositlər, digər qan komponentləri ilə müqayisədə, radiasiya zərərinə nisbətən davamlı görünürlər [2, 3].

Bu tədqiqat işinin məqsədi heyvan orqanizmlərində stresə səbəb olan ionlaşdırıcı qamma radiasiyanın bəzi hemotoloji göstəricilərinə təsirini öyrənməkdir. Tədqiqat işində 4 aylıq 3 erkək laboratoriya siçovulu *(Wistar albino)* istifadə edilmişdir. Siçovullar $^{60}$Co mənbəli RHUND – 20000 qurğusunda müxtəlif dozalarda (3 Qr, 6 Qr) şüalandırılmışdır. 1 fərd kontrol siçovul, 1 fərd 3 Qr və 1 fərd 6 Qr şüalandırılmış və şüalanmadan 3 ay sonra bioetik qanunlara əsasən laboratoriya şəraitində yüngül efir anesteziyası altında siçovullardan retro-orbital venoz pleksusdan qan nümunələri götürülmüşdür. Qan nümunələrinin Pançinkov cihazında eritrositlərin çökmə sürəti, hemometrdə hemoqlobini, Qarayev kamerasında isə eritrosit və leykositlərin miqdarı təyin edilmişdir (Şəkil 1).

Alınan nəticələrə görə ionlaşdırıcı qamma radiasiya təsirindən leykositlərin və eritrositlərin miqdarı (Şəkil 1), hemoqlobinin göstəricisi azalmışdır. Eyni zamanda eritrositlərin çökmə sürəti 10mm/saat – dan 2mm/saat – a enmişdir. Bu nəticə özünü qanın ilkin vizualizasiyanda da göstərir.



**Şəkil 1**. Qanda eritrositlərin və leykositlərin görüntüsü

**Ədəbiyyat**


1. Borek C., Abraham S. K., Sarma, L. (1993). Molecular mechanisms in cancer induction and prevention protective effects of chlorogenic acid, curcumin and beta-carotene against gamma-radiation-induced in vivo chromosomal damage. Environmental Health Perspectives, 101, 237-245.
2. Button, L.N., De Wolf, W., Jacobson, M.S., Cohen, H., Kevy, S.V., Irradiation of blood components, Transfusion, 18(1978), 382.
3. Keith S., Murray H. E., Spoo W. (1999). Toxicological profile for ionizing radiation. Atlanta, Georgia, USA: Agency for Toxic Substances and Disease Registry. ATSDR.
4. Simone N. L., Soule B. P., Ly D., Saleh A. D., Savage J. E., DeGraff W., et al. (2009). Ionizing radiation-induced oxidativestress alters miRNA expression. PLoS One, 4, e6377.


## AZƏRBAYCANDA SOSİAL İŞİN TƏŞKİLİNDƏKİ GENDER ASPEKTLƏRİ


**Rəna Cəfərova**

Azərbaycan Universiteti

rana.jafarova@student.au.edu.az


Sosial işin məzmununda və təşkilində gender aspektlərinin nəzərə alınmasının vacibliyini göstərmək üçün əhalinin müxtəlif qrupları ilə praktiki sosial işin ən mühüm problemlərini nəzərdən keçirək. Bütün iqtisadi münasibətlər sistemi: rəsmi və qeyri-rəsmi - aydın şəkildə müəyyən edilmiş gender strukturuna malikdir və bu, ayrı-ayrı kişi və qadınların və ya əhalinin sosial-demoqrafik qruplarının işsizlik, artan yoxsulluq və genişlənmə kimi hadisələrə necə reaksiya verməsinə təsir göstərməyə bilməz.

Həyatları boyu kişilər və qadınlar müxtəlif çətinliklərlə üzləşir, fərqli rollar oynayır, fərqli mükafatlar alır və fərqli statuslar qazanırlar. Bir-biri ilə üst-üstə düşən bioloji və sosial amillər kişilər və qadınlar arasında gözlənilən ömür uzunluğunda, məşğulluğun strukturunda statistik əhəmiyyətli fərqlərə səbəb olur, ailə formalarının dəyişməsini və qadın və kişilərdə həyat mərhələlərinin qeyri-bərabər məzmununu müəyyən edir. Nəzərə almaq lazımdır ki, bütün bu fərqlər təkcə cinslə deyil,

həm də gəlir, təhsil, irq, etnik mənsubiyyət və yaşın qarşılıqlı təsir edən amilləri ilə kəskinləşir. Söhbət müəyyən şəraitdə sosial bərabərsizliyin əsasına çevrilən cəmiyyətin sosial diferensiasiya parametrlərindən gedir. Sosial siyasət və sosial iş sosial ədalətə nail olmaq və bərabərsizliyi azaltmaq məqsədi daşıyır, lakin bəzi hallarda, paradoksal olaraq, sosial iyerarxiyanın təkrar istehsalına və bəzi sosial qrupların digərləri tərəfindən əzilməsinə səbəb ola bilər.

Qadınlar kişilərə nisbətən sosial müdafiə sistemindən daha çox asılıdırlar: aşağı əmək haqqı daha kiçik pensiyalara çevrilir. Qadınlar iqtisadiyyatda kişilərə nisbətən daha az vaxt sərf edirlər, çünki onların bir çoxu ömür boyu və ya bir neçə il natamam işləyir, uşaqlara, xəstə və ya qocalara qulluq edir. Yaşlı subay qadınların gəlirləri əsasən pensiya ödənişlərindən ibarətdir, çünki əksər hallarda onlara dəstək verən yoxdur. Bəzi qadınlar ömür boyu evdar olub və ümumiyyətlə pensiya almırlar, yaxud pensiyaları minimum standartlara uyğun hesablanır, qocalıqda normal yaşamaq üçün kifayət etmir.

Öz növbəsində, kişilər ümumiyyətlə sosial xidmətin potensial müştərilərinin sayından kənarda qalırlar, baxmayaraq ki, onlar çox vaxt sadəcə sosial-psixoloji yardıma ehtiyac duyurlar. Bunlar boşanma nəticəsində dağılan kişilər və döyüş bölgələrindən qayıdan və posttravmatik stress sindromu keçirən kişilər, arvadına və ya sevgilisinə qarşı zorakılığa məruz qalan və ya aqressiv davranış nümayiş etdirən kişilərdir. Digər hallarda, sosial işçilər, tələbələr və sosial iş müəllimləri əksər ailələrdə qadınların xəstələrə, əlillərə, uşaqlara və qocalara qulluq etmək məsuliyyətini öz üzərinə götürməsini təbii qəbul edirlər.

Çox güman ki, sosial işdə gender yanaşmasını tətbiq etməyə çalışmaq lazımdır, yəni hər bir konkret halda bir insanın çətin həyat vəziyyətini təcrübəsinin xüsusiyyətlərinin onun cinsindən asılı olduğunu unutmamaq lazımdır.

Bu gün bir çoxları üçün gender-həssas sosial iş zorakılıqdan əziyyət çəkən qadınlara sosial-psixoloji və hüquqi dəstək ilə bağlıdır. Bu iş forması növbəti fəsildə ətraflı təsvir edilmişdir. Bu gün analoji vəziyyətə düşən qadınlara bələdiyyə ailə mərkəzləri, qeyri-dövlət böhran mərkəzləri, o cümlədən dövlət və ictimai təşkilatlar nəzdindəki qaynar xəttlər yardım göstərir.

Belə bir mərkəzin işi, bir qayda olaraq, feminist və ekosistem modelinə uyğun qurulur, çünki mütəxəssislər həm fərdi səviyyədə, həm də müştərinin mühiti ilə işləyirlər. Demək lazımdır ki, müasir sosial iş modellərinin əksəriyyəti feminizm nəzəriyyəsi və praktikasından təsirlənmişdir.

Bundan əlavə, qadının özünə hörmətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa, qorxunu aradan qaldırmağa və davam edən hadisələrin əhəmiyyətini çox qiymətləndirməyə imkan verən qrup işi formasıdır. Bu iş forması həm problemin diaqnozunu, həm də zərərçəkənlərə real yardımı birləşdirir. İnsanların birgə hərəkətləri nəticəsində yaranan ictimai hərəkatlar fərdin davranışına təsir göstərir. Bu prinsiplər həm sosial iş praktikasında, həm təhsil proqramlarında, həm də sosial xidmətlərin keyfiyyətinin öyrənilməsində istifadə olunur. Özünə yardım qruplarının təşkili belə bir təşkilatda sosial işçinin funksiyalarından biri ola bilər.

Qeyri-dövlət böhran mərkəzləri dövlət və bələdiyyə qurumları ilə, məsələn, qadınlara, ailələrə və uşaqlara yardım üzrə şəhər mərkəzi ilə əməkdaşlıq edir, onların vəzifələrinə digər məsələlərlə yanaşı, zorakılığa məruz qalmış qadınlara yardım göstərmək və onlara yardım göstərmək daxildir.

Eyni zamanda, məişət zorakılığı ilə bağlı dövlət və ictimai təşkilatların mövqeyində müəyyən fərqlər var.

Qadınlar üçün böhran mərkəzinin fəaliyyətinin xarici kontekstini cəmiyyətin özü, zorakılığı qidalandıran və ya ona qarşı mübarizə aparan sosial münasibətlər sistemi və mədəni mənalar formalaşdırır. Fiziki gücün sosial şəxsiyyətin ən mühüm amili rolunu oynadığı, güc və hakimiyyətin qeyri-zorakı formalarının marjinal olduğu müasir cəmiyyətdə sosial institutlar (ailə, dövlət, təhsil) davamlı olaraq sosial təcrübələri təkrarlayır. Mədəniyyətimizin bir hissəsinə çevrilmiş zorakılıq müxtəlif identifikasiya modellərindən - məşhur mədəniyyətdəki personajlardan, valideynlərdən, küçə şirkətlərinin kumirlərindən böyüyür.

Hiss və düşüncələrini fiziki zorakılıqla ifadə etmək vərdişləri qəddarlığın oyun, kişilik tərbiyəsi, zəruri ritual, bir çox səviyyələrdə başa düşülən və bəyənilən bir güc dili kimi qəbul oluna bildiyi şəraitdə formalaşır. Zorakılıq nümunələri ailə münasibətləri normalarında və tərbiyə üsullarında, gender sosiallaşması, qapalı qurumların və ordunun intizam təcrübələrində, küçə məişətində əks olunur. Patriarxal mədəniyyətin ayrılmaz xüsusiyyəti kimi məişət zorakılığı ənənəvi olaraq dəstəklənir və müasir cəmiyyətin sosial strukturu qadınların qərar qəbul etmə sahələrində iştirak etməsinə imkan versə də, bir çox ruslar hələ də şəxsi və ictimai məkanda keçmişdən miras qalmış davranış normalarına riayət edirlər.

**Açar sözlər:** gender aspektləri, sosial iş, yeniyetmələr və gənclər, zorakılıq, sosial təminat.

**Ədəbiyyat**

1. Abbasov A., Mirzazadə R. Gender və insan hüququ. Araşdırma birliyi. Bakı, 2004, 120s.
2. Zamanov A.D., Əliyeva H.I. Sosial işin əsasları. Bakı, 2015, 222s.
3. Ağayeva K. Azərbaycanda gender məsələləri. Bakı, 2014, 211s.
4. Ağayeva K. Qafqazda gender məsələləri, Bakı, 2017.

## EHTİYATLARIN İDARƏ EDİLMƏSİNİN SİMULYASİYA MODELLƏŞDİRMƏSİ MONTE – KARLO METODUNUN TƏTBİQİ

**Amil Dadaşov**
Azərbaycan Universiteti
amilodas@gmail.com

Müxtəlif iqtisadi sistemlərdə fəaliyyət göstərən icraçılar mütəmadi olaraq fərqli qərarlar qəbul etmək zərurəti ilə qarşılaşırlar. Belə qərarlara, iqtisadi sistemin tələbatından irəli gələn, əsasən strateji, taktiki və ayrı ayrı əməliyyat fəaliyyətləri aiddir. Eyni zamanda qəbul olunacaq zəruri qərarların intellektual səviyyəsinin aşağı olması, itkilər və əlavə xərclər kimi riskləri və cəhətləri vardır. Bu cür vəziyyətlərin qarşısının alınması və sabit dayanıqlı iqtisadi vəziyyəti təmin etmək məqsədi ilə fərqli qərar qəbuletmə sistemləri yaradılır. Yaradılmış qərar qəbuletmə sistemlərinin zamanla təkmilləşməsi ehtiyacı artan rəqabət şəraitində getdikcə daha da vacib və aktual bir vəzifəyə çevrilir.

Bu tərz qərar qəbuletmə mühitində yaradılmış sistem proqramlar üçün vacib olan şərt qəbul edilmiş qərarları simulyasiya etmək, müxtəlif amillər nəticəsində yaranan iqtisadi sistemdəki dəyişiklikləri yoxlamaq, yəni baş verə biləcək gələcək nəticələrin qabaqlayıcı həllərini simulyasiya etməklə cavab tapmaq bacarığıdır. Həmin sistemlər qərarların icrasından yaranan zərəri əhəmiyyətli dərəcədə azalda bilər və müəyyən bir məqsədə çatmaq üçün pula qənaət etməklə bərabər və həmçinin bu xüsusiyyətlər simulyasiya modellərindən istifadə etməklə həyata keçirilə bilər.

Elmi nəzəriyyələrdən məlumdur ki, “Modelləşdirmə” reallığın müəyyən bir parçası haqqında ehtimal olunan məlumatı verir. Modelləşdirmə müəyyən yoxlamalardan sonra doğru və ya yalan ola bilər və yeni modellərin yaradılmasını tələb edə bilər. Elmdə müşahidə, ölçmə, təcrübə və müqayisə ilə yanaşı bu prosedur ümumi elmi metodlardan biri kimi çıxış edir. “Model” anlayışı insan fəaliyyətinin müxtəlif sahələrində geniş istifadə olunur və onun müxtəlif ədəbiyyatlarda çox sayda bir-birindən fərqlənən tərifləri vardır. Bu baxımdan, “model” və “modelləşdirmə” anlayışları üçün aşağıdakı müvafiq tərifləri söyləmək nəzəri baxımdan daha məqsədəuyğundur.

-Model dedikdə obyekt-orijinalın öyrənilməsi prosesində onu maddi olaraq və yaxud fikrən əvəz edən elə bir digər obyekt təsəvvür edilir ki, bunun bilavasitə öyrənilməsi obyekt-orijinal haqqında yeni biliklər əldə etməyə imkan verir.

-Modelləşdirmə dedikdə obyekt–orijinalın tədqiqi, onun modelinin qurulması, model əsasında məsələ həlli və alınmış nəticələrin praktikada tətbiqi prosesinə deyilir. Modelləşdirmə obyektlərin, proseslərin və ya hadisələrin tədqiqi və öyrənilməsi üçün nəzərdə tutulmuş modellərin qurulmasıdır. Ehtiyatlar problemi ilə əlaqədar araşdırmaların əsas məqsədi istehsalın və ya tədarük həcminin, habelə sifariş vermə vaxtının müəyyənləşdirilməsidir.

Ehtiyatların idarəedilməsi məsələlərinin həlli müxtəlif növ əməliyyatların tədqiqinin çox saylı iqtisadi məsələlərin siniflərindən birini təşkil edir. Ehtiyatların optimal idarəetmə strategiyasının, habelə səhmlərin normativ səviyyəsinin düzgün və vaxtında müəyyənləşdirilməsi, ehtiyat fondları şəklində dondurulmuş əhəmiyyətli dövriyyə kapitalının buraxılmasına imkan verir və nəticədə istifadə olunan mənbələrin səmərəliliyi artır.

Ehtiyatlara ehtiyac aşağıdakı amillərdən ən az birinin olması ilə müəyyən edilir:

1. Mallara tələbin dəyişməsi;
2. Müəssisənin mallarının çatdırılma müddətinin dəyişməsi;
3. Dəstə halında məhsulların alınmasını tələb edən müəyyən şərtlər.

Qeyd etmək lazımdır ki, var olan ehtiyyatların idarəetmə yolları təsadüfi hallarda real bir sistemi göstərə bilir. Bir çox çətin vəziyyətlərdə ehtiyac olan qədər səmərəli və dayanıqlı bir həll əldə etmək üçün sistemin simulyasiya metodlarına müraciət etmək lazımdır.

Simulyasiya olunan obyektin təsviri ilə dairənin sahəsini hesablamaq üçün Monte Carlo metodunun tətbiqi ilə aşağıdakı nümunədə baxaq.

**Nümunə 1.** Radiusu verilmiş bir dairənin sahəsini hesablamaq üçün bu metodun tətbiqini nəzərdən keçirək. Bu çalışma metodun imkanlarını yaxşı göstərir. Dairənin bir radiusu $R = 1$ olsun. (şək. 1).

Müvafiq dairənin tənliyi aşağıdakı formada olur:

$$(x-1)+(y-1)=1. \quad (1)$$

Monte Karlo üsulu ilə məsələni həll etmək üçün dairənin daxilinə bir kvadrat çəkirik. Kvadratın uclarında koordinatlar (0,0), (2,0), (0,2), (2,2) olacaqdır.




Kvadratın daxilində və ya onun sərhədindəki hər hansı bir nöqtə $0 < x < 2$ və $0 < y < 2$ bərabərsizliyini təmin etməlidir. Təsadüfi nöqtələrlə kvadratı dolduranda, hansı nöqtələrin ki koordinatları bu intervalda bərabər paylanandır həmin nöqtələrin bir hissəsi dairənin daxilinə düşəcəkdir. Əgər seçim n müşahidədən ibarətdorsə və m nöqtələr dairənin daxilinə düşübsə, onda dairənin sahəsini aşaöıdakı əlaqədən tapmaq olar

$$S_{ok} = S_{kv}\frac{m}{n} \quad (2)$$

burada $S_{kv}$ - dairənin daxilindəki kvadratın sahəsidir.

**Misal 1.** Təsadüfi dəyərlərdən nümunələr istifadə edərək məlum diametrli bir dairənin sahəsini təyin etmək tələb olunur. Bir kvadratın daxilinə elə dairə çəkirik ki, kvadratın tərəfləri dairənin diametrinə bəarabər olsun.

Dairənin radiusu r= 5 sm və mərkəzi nöqtədə (0,0) olsun



Dairənin tənliyi aşağıdakı kimi olacaqdır:

$$x^2+y^2=25$$

Təsvir olunan kvadrat birbaşa fiqurun həndəsi xüsusiyyətlərindən əldə edilə bilən (-5, 5), (5, 5), (5, -5) və (-5, -5) nöqtələri ilə müəyyən edilir.

Hər hansı bir (x,y) nöqtələri mərkəzdə və ya onun sərhədindəki bərabərsizlikləri $-5 \le x \le 5$ və $-5 \le y \le 5$ ödəməlidir.

Monte Karlo metodundan istifadə edərkən nümunələrin istifadəsi kvadratın $-5 \le x \le 5$ və $-5 \le y \le 5$ bərabərsizliklərini ödəyən bütün nöqtələrin eyni ehtimal ilə görünə biləcəyi və ya ehtimal sıxlıqları ilə bərabər paylanması əsas götürülür.

dairə sahəsinin qiyməti = m/n (kvadratın sahəsi) = (m/n)*(10*10)

Hər hansı bir dairənin sahəsini hesablamanın başqa bir metodu isə nöqtələrin nümunədə göstərilən (x, y) oxlarındakı kvadratın istənilən yerinə bərabər paylanması ehtimalı ilə əsaslandırıla bilər.

Beləliklə elm, texnika və informasiya komunikasiya texnologiyalarının inkişafı riyaziyyatın bir çox bölmələrinə aid məsələlərin mürəkkəbliyinin və məhdud zaman çərçivəsində kompüter vasitəsilə həllinə gətirilir, bu baxımdan mümkün tədqiqat üsulu kimi son dövrlərdə kompüter modelləşdiriməsinin tətbiqinə dair geniş imkanlar yaradılmışdır. Müasir kompüter riyaziyyat sistemlərindən olan MatCAD və MatLAB riyazi paketlər, tətdqiqatçıya bu paketlər vasitəsi ilə riyazi hesablamaları, alqoritmlərin qurulması, verilənlərin emalı, təhlili və vizuallaşdırılması, elmi və mühəndis qrafikası və çoxsaylı başqa məsələləri uğurla həll etməyə imkan yaradır. Mövcud proqram paketlərinin (ms-exel, matlab, simulink və s.) imkanlarindan istifadə edərək iqtisadi, riyazi problemləri həll etmək, əldə edilmiş məlumatların işlənməsini həyata keçirmək, həmçinin müxtəlif qrafiklər şəklində ədədi məlumatları göstərmək mümkündür. Bu cür sistem proqramlar üçün vacib olan şərt qəbul edilmiş qərarları simulyasiya etmək, müxtəlif amillər nəticəsində yaranan iqtisadi sistemdəki dəyişiklikləri yoxlamaq imkanıdır. Həmin sistemlər qərarların icrasından yaranan riski əhəmiyyətli dərəcədə azalda bilər və müəyyən bir məqsədə çatmaq üçün pula qənaət edə və bu xüsusiyyətlər simulyasiya modellərindən istifadə etməklə həyata keçirilə bilməyidir. Nəticədə müxtəlif fiziki, iqtisadi və digər proseslərin modelləşdirilməsi üçün informasiya komunikasiya texnologiyaların geniş istifadəsinin zəruri imkanları və həllərin simulyasiya sistemlərinin köməyi ilə çox zaman və resurs sərf etmədən az bir müddətdə model yaratmaq, təhlil etmək və hər cür qarşılaşa biləcəyimiz hadisəni canlandırmaq mümkündür.

**Açar sözlər:** simulyasiya, Monte-Karlo, modelləşdirmə.

## Ədəbiyyat

1. Rüstəmov Q. Ə. Riyazi modelləşdirmə və Simulyasiya, Bakı, AzTU, 2015, 120 s.
2. Seyidov M.İ. Yusifov R.F. Modelləşdirmə və ədədi üsullar. Dərs vəsaiti, Bakı, Şirvannəşr, 2009, 216.
3. İsgəndərov A.D., Həsənli Y.H., Sadıqova A.T. Optimallaşdırma üsullarının iqtisadi məsələlərə tətbiqi. Bakı: Caşıoğlu, 2012, 248 səh.

4. Мичасова О.В. Имитационное моделирование экономических систем: Учебно-методическое пособие. – Нижний Новгород: Нижегородский госуниверситет, 2014, 186 с.
5. Мицель А. А., Грибанова Е. Б., Имитационное моделирование экономических процессов в Excel. Томск: Изд-во ТУСУР, 2014, 115с.
6. Goldsman D. A Simulation Course for High School Students, Proceedings of the 2007 Winter Simulation Conference, Washington, 3-5 December 2007, pp. 2353-2356.

## RƏQƏMSAL DİPLOMATİYA XARİCİ SİYASƏTİN TAMAMLAYICI VASİTƏSİ KİMİ

**Lalə Dilənova**
Azərbaycan Universiteti
lale.dilanova@au.edu.az

İnformasiya-kommunikasiya texnologiyalarının təsir dairəsinə düşən fəaliyyət sahələrindən biri də diplomatiyadır. Günümüzdə diplomatiyanın forma və metodları dəyişmiş, onun dövlətlər və diplomatlar xaricində yeni aktyorları meydana çıxmış, rəqəmsal texnologiyaların diplomatiya sahəsində tətbiqi ilə elmi dövriyyəyə rəqəmsal diplomatiya anlayışı da daxil olmuşdur. Tezisin məqsədi rəqəmsal diplomatiyanı ictimai diplomatiya kontekstində nəzərdən keçirməkdir.

İzlərinə XIX əsrdə rastlansa da, rəsmi politika olaraq ilk dəfə keçən əsrin 60-cı illərində ABŞ-da ortaya çıxan və sadə şəkildə "bir ölkənin başqa bir ölkənin xalqına yaxud ziyalılarına bu ölkənin həyata keçirəcəyi siyasəti özü üçün üstünlüyə çevirəcək şəkildə təsir göstərmək səyləri" [1] kimi izah edilən ictimai diplomatiya dövlətin xarici siyasətinin həyata keçirilməsində, beynəlxalq miqyasda yerinin və mövqeyinin formalaşdırılmasında mühüm rol oynayır. Onun xarici auditoriyanı məlumatlandırmaq, digər ölkələrin ictimai rəyinə təsir göstərmək, öz ölkəsinin müsbət obrazını formalaşdırmaq, mədəniyyətlərarası dialoqa xidmət etmək kimi vəzifələri vardır.

İctimai diplomatiya 1990-cı illərdə "yumşaq güc" ilə əlaqələndirilmiş və "yumşaq güc"dən istifadə edən fəaliyyət sahəsi olaraq görülmüşdür. ABŞ-ın Harvard Universitetinin professoru Joseph Nye, 2004-cü ildə nəşr olunan "Soft Power: The Means To Success In World Politics" kitabında "yumşaq güc"ə, "bir ölkənin dünya siyasətində istədiyi nəticələri onun dəyərlərinə rəğbət bəsləyən, onu özünə nümunə götürən, rifah səviyyəsinə və imkanlarına heyran olan ölkələrin onu izləməsi ilə əldə etməsidir" tərifini vermişdir [2, s.14].

Elmi ədəbiyyatda ictimai diplomatiyanın bir istiqaməti olaraq dəyərləndirilən rəqəmsal diplomatiya (ing. Digital diplomacy yaxud Ediplomacy) isə diplomatik məqsədlərə çatmaq üçün internet və informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsidir. İctimai diplomatiya kimi rəqəmsal diplomatiyanın da başlıca xüsusiyyəti qabaqlayıcı, dəstəkləyici və tamamlayıcı olmasıdır.

Rəqəmsal diplomatiyanın yeni istiqamət olaraq ortaya çıxması təkcə internetin yaranması ilə deyil, əsasən sosial mediadan geniş istifadə olunması ilə əlaqələndirilir. İnternet 1994-cü ildə, sosial

media platformaları isə 2000-ci illərdə həyatımıza girmiştir. Ən populyar sosial media platformalarından Linkedin 2003, Facebook 2004, YouTube 2005, Twitter 2006 ve WhatsApp 2010-cu ildə istifadəyə verilmişdir. Sosial media istifadəçilərinin sayının durmadan artması dövlətləri bu platformalardan siyasi məqsədlərlə istifadə etməyə təşviq etmişdir.

Rəqəmsal diplomatiya bir neçə istiqamətdə diqqəti cəlb edir və tədqiq olunur. Birinci istiqamətdə o, diplomatların beynəlxalq münasibətlər sahəsində rəqəmsal mediadan, vasitələrdən və metodlardan istifadə etməsi, dövlət qurumlarına və xarici işlər nazirliklərinə məxsus sosial media kanallarından mətin, fotoşəkil və videoların yayımlanması, konsulluq xidmətlərinin rəqəmsallaşdırılması, elektron viza, elektron qeydiyyat kimi xidmətlərin təqdim edilməsidir.

Sosial medianın həm öz vətəndaşlarına, həm də xarici ölkə vətəndaşlarına hər hansı vasitəçi olmadan səslənə bilmək üstünlüyündən istifadə edərək özünə Twitter səhifəsi yaradan ilk dövlət başçısı ABŞ-ın sabiq prezidenti Barack Obama hesab olunur. O, 5 mart 2007-ci il tarixində 2008-ci ildə keçiriləcək seçkilər üçün səhifə yaratmışdı. Obama eyni zamanda Twitter platformasında ən çox izlənən dövlət başçısı idi. O, seçki kampaniyası ərzində ənənəvi mediaya deyil, rəqəmsal məcralara üstünlük vermiş və uğurlu nəticələr əldə etmişdi [3]. 2007-ci ildə Twitter platformasında səhifə yaradaraq rəqəmsal diplomatiyanın başlamasına öncülük edən dövlət və hökumət başçıları arasında Meksikanın prezidenti Enrique Pena Nieto, Belçikanın baş naziri Elio Di Rupo ve Kanadanın baş naziri Stephen Harper də var idi.

Rusiyanın 2014-cü ildə Krımı ilhaq etməsindən sonra ABŞ Dövlət Departamenti ilə Rusiyanın Xarici İşlər Nazirliyi arasındakı gərginlik Twitter paltformasında da yaşanmış və tərəflər öz mövqelərini, fikirlərini yaymaq üçün #UnitedforUkraine heştəqindən istifadə etmişdilər. Mövzu ilə bağlı məqalə dərc edən Washington Post qəzeti heştəqin ABŞ Dövlət Departamenti tərəfindən mart ayında yaradıldığını və aprel ayında Rusiya tərəfindən də istifadə olunduğunu yazmışdı [4].

Digər tərəfdən, texnologiya şirkətləri də beynəlxalq münasibətlərin elementlərindən birinə çevrilməyə başlamış, bəzi ölkələr dünyanın texnologiya mərkəzi kimi tanınan, ABŞ-ın Kaliforniya ştatında yerləşən, yüksək texnologiya, innovasiya və sosial media şirkətlərinin cəmləşdiyi, qeyri-rəsmi adı Silikon Vadisi olan bölgəsində səfirlik açmaq təşəbbüsü göstərmişdir. 2017-ci ildə burada səfirlik açan Danimarka Casper Klynge adlı diplomatını dünyanın ilk “texno səfiri” olaraq ailəsi ilə birlikdə Kaliforniyaya göndərərək “TechPlomacy” konsepsiyasının öncüsü olmuşdur [5]. Danimarkanın xarici işlər naziri Anders Samuelsen bu vəzifəni elan edərkən belə demişdi: “İnformasiya texnologiyaları şirkətləri getdikcə daha çox inkişaf edir və onların əldə etdikləri gəlir dövlətlərin böyük iqtisadi göstəricilərinə yaxınlaşır. Bu şirkətlərin hazırkı iqtisadi gücü və təsiri ənənəvi səfirliklərimizin olduğu bəzi ölkələri üstələyir. Texno səfir Facebook, Apple, Google və Microsoft kimi şirkətlərdə Danimarkanın maraqlarını təmsil edəcək” [6].

Diplomatiya fəaliyyətinin rəqəmsallaşması həm də o deməkdir ki, diplomatlar vətəndaşlar, müttəfiqləri, həmkarları ilə birlikdə müxtəlif siyasi hadisələri onlayn müzakirə edirlər. Bu, tamamilə yeni bir fikir, yeni bir ənənədir.

Beləliklə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və müxtəlif sferalara, xarici siyasət və diplomatiya sahəsinə nüfuz etməsi, o cümlədən sosial media platformalarının yaranması ilə rəqəmsallaşmanın yeni istiqaməti ortaya çıkmış, diplomatla həmkarları, vətəndaşlar, müttəfiqlər

arasında yeni münasibətlər və ənənə formalaşmışdır. Yeni mühit diplomatlardan peşəkar biliklərlə yanaşı rəqəmsal bacarıqlar və xarici siyasətin həyata keçirilməsi və milli maraqların təmin olunmasına yeni yanaşma tələb edir.

**Açar sözlər:** dipomatiya, ictimai diplomatiya, rəqəmsal diplomatiya, sosial media.

### Ədəbiyyat


1. Potter E., Canada and the New Public Diplomacy, Netherlands Institute of International Relations, s.3 https://www.peacepalacelibrary.nl/ebooks/files/Clingendael_20020700_cli_paper_dip_issue81.pdf, 27.02.2021
2. Nye J. Yumuşak Güç, Ankara, Elips Kitap, 2005, 231 s.
3. Gürdal E. Dijital Diplomatlar: Dijital Diplomaside Yeni Nesil Diplomatlar https://dergipark.org.tr/en/download/article-file/1577801, 20.09.2021
4. Rusiya ile ABD arasında Twitter savaşları https://www.bbc.com/turkce/haberler/2014/04/140428_washingtonpost_ukrayna, 20.09.2021
5. Gürdal E. Dijital Diplomatlar: Dijital Diplomaside Yeni Nesil Diplomatlar https://dergipark.org.tr/en/download/article-file/1577801, 20.09.2021
6. Danimarka dünyanın ilk ‘teknoloji büyükelçisi’ni atıyor, https://medium.com/@kamileryazar/danimarka-d%C3%BCnyan%C4%B1n-ilk-teknoloji-b%C3%BCy%C3%BCkel%C3%A7isini-at%C4%B1yor-40a44191ea22, 20.03.2022


## ƏLİLLİYİ OLAN ŞƏXSLƏRLƏ SOSİAL İŞ


**Samirə Əbişzadə**
Azərbaycan Universiteti
samiraabishzada@mail.ru


Müasir dövrdə cəmiyyətin ən az müdafiə olunmuş təbəqəsi olan əlilliyi olan şəxslər bütünlüklə cəmiyyətin problemidir. Sosial həssas qrupa daxil olan müxtəlif qruplar kimi, əlilliyi olan şəxslər və onların ailələri də cəmiyyət tərəfindən daima qayğıya, sosial, tibbi yardıma ehtiyac duyduğunu qeyd etməliyik. Əlillik sözü latın sözü olub, “invalidus” sözündən yaranıb, “zəif”, “halsız” mənalarını ifadə edir. Müxtəlif funksional məhdudiyyətlərin məcmusu olan əlillik, insanların gündəlik həyat fəaliyyətlərini yerinə yetirmə qabiliyyətinə qismən və ya tamamilə maneə olur.

Yaranması səbəbinə görə ya anadangəlmə, ya da sonradan xəstəlik və ya qəza nəticəsində bədən, əqli, ruhi, sosial bacarıqlarını müxtəlif dərəcələrdə itirməsilə meydana gələn əlillik olaraq təsnif olunur. Hazırda da yüksəkixtisaslı müxtəlif mütəxəssislər sosial tədqiqatlar apararaq uşaq əlilliyinin yaranmasına səbəb olan halları araşdırırlar. Bura çoxlu uşaq xəstəlikləri, onların ağırlaşması, bununla da uşaqların fiziki və əqli inkişafının məhdudlaşdırılması, nəticə olaraq əlilliyə səbəb olmasını aid edə bilərik. Hamiləlik dövründə ananın yoluxucu xəstəliklərə tutulması, düzgün

qidalanmaması, tütün məmulatları, alkoqollu içkilər istifadə etməsi kimi səbəblər nəticəsində də anadangəlmə əlillik halı mümkündür [1]. Anadangəlmə xəstəliklərin böyük qismi nevroloji xəstəliklər, eləcə də, irsi xəstəliklər, ürək-damar, dayaq-hərəkət sistemi, qan xəstəlikləri və digərləri təşkil edir.

Sonradan qazanılan əlillik isə anadan olduqdan sonra kənar təsirlərin nəticəsində yaranan əlilliklərdir. Bunların ilkin qrupuna müxtəlif qəzaları aid edə bilərik. Yol qəzaları, iş yerində olan əmək qəzaları, idman qəzaları, yanğın və digər səbəblərdən yaranan qəzalar buna nümunədir. Həmçinin, uşağın düşməsi nəticəsində uşaqlıq dövründə yaranan zədələnmələr də bu sıradadır. İkinci qrupa xəstəlikləri, yəni tuberkuloz, vərəm, lepra, bədxassəli şişlər, həmçinin meningit kimi qızdırmalı xəstəliklər ilə beynin zədələnməsinə səbəb olan travmalar aiddir.

Əlilliyi olan şəxslər, əqli, psixoloji və bədən funksiyalarının təbiətcə daimi və ya müvəqqəti zədələnməsi və cəmiyyətdə özlərinə qarşı mövcud olan fərqli düşüncə tərzi səbəbilə çətinliklərlə qarşılaşırlar. Bu əlverişsiz mövqe də onları cəmiyyətdən təcrid olunmuş bir qrup halına gətirir. Əlilliyi olan şəxslər əlilliyi olmayan şəxslər üçün təşkil olunmuş cəmiyyət içində özlərinə yer tapmağa çalışırlar [1]. Əlilliyi olan şəxslər sosial, siyasi, mədəni, iqtisadi sahələrdə yetəri qədər aktiv ola bilmir. Bu birbaşa onların həm gündəlik həyat fəaliyyətlərini yerinə yetirmə qabiliyyətinə qismən və ya tamamilə malik olmaması, həm də ətrafdakı insanların ona qarşı olan münasibətinə əsaslanır. Qeyd olunan sahələrdə inteqrasiyanın və xidmət sahələrinin infrastrukturunun olmaması nəticəsində əlilliyi olan şəxslərin problemlərinin həlli istiqaməti sosial xidmət sahəsinin üzərinə düşür.

Qanunla bildirildiyi kimi, sosial xidmət dedikdə, çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər nəzərdə tutulur [3]. Sosial xidmətin əsas məqsədləri həssas qrupa aid olan vətəndaşların və onların ailələrinin sosial-psixoloji vəziyyətini çətinləşdirən, onu cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaq və sosial xidmətçi, yəni sosial-məişət xidmətləri göstərən şəxs tərəfindən qayğılarına qalmaqdan ibarətdir.

Bir çox formalara malik olan sosial xidmət vasitəsilə əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara dərman vasitələrinin, zəruri ərzaq və əsas tələbat mallarını almaq köməkliyi göstərilməsi, istirahət və asudə vaxtın səmərəli təşkil olunması, tibbi və psixoloji yardım göstərilməsi, yaşayış şəraitinin sanitariya-gigiyena tələblərinə uyğunlaşdırılması, münasib əmək fəaliyyətinə cəlb olunması və digər xidmətlər təmin olunacaq.

Əlillik yalnız yerli hadisə deyil, bütün dünya əhalisi maraqlandıran humanitar hadisə olduğundan beynəlxalq səviyyədə müzakirə edilib və buna görə də, əlilliyi olan insanlar üçün dünyanın fərqli ölkələrində müxtəlif təcrübə və müəssisələr mövcuddur. Dövlət statistika komitəsinin statistikasına görə, “Ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələri” 2021-ci il üçün sayı 8-dir və bu müəssisələrdə 1240 yerdə 754 nəfər xidmət görür.

Əlilliyi olan şəxslər üçün ixtisaslaşdırılmış sosial xidmət müəssisələri irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən və mənşəyindən asılı olmayaraq, psixi və yüngül formalı əqli pozuntuları ilə əlaqədar əlilliyi yaranan və əlilliklə əlaqədar özünəqulluq qabiliyyəti, habelə qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri

olmayan 18 yaşdan yuxarı şəxslərə (bundan sonra -şəxslər) sosial xidmətlərin göstərilməsi, onların sosial reabilitasiyasının və abilitasiyasının həyata keçirilməsi üçün nəzərdə tutulmuş stasionar sosial xidmət müəssisələridir [2].

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, məhsuldar fərdə çevrilməsi, ictimai həyatın bütün sahələrində iştirak edə bilməsi üçün fərqli layihələr həyata keçirilir, əlilliyi olan şəxslər barəsində ayrı-seçkiliyin yaranmaması qanunla da təqib edilir.

**Açar sözlər:** əlillik, sosial həssas qrup, sosial xidmət, sosial xidmət müəssisələri.

**Ədəbiyyat**

1. http://dost.gov.az/page/sosial-xidmet-muessiseleri
2. http://www.e-qanun.az/framework/23195
3. https://cdn-acikogretim.istanbul.edu.tr/auzefcontent/21_22_Guz/engelliler_ve_sosyal_hizmet/10/index.html#konu-1
4. Məmmədova R.O. Sosial işə giriş, Bakı, 2019.

## XX ƏSR FƏLSƏFƏSİNDƏ TİBBİ ETİKA VƏ MÜASİR HƏYAT

**Könül Əfəndiyeva**
Azərbaycan Universiteti
efend83@mail.ru

Fəlsəfə və tibb eyni dərəcədə qədim mənşəli mədəni hadisələrdir. Onlar insana həsr olunub və insanın ətrafındakı dünyaya uyğunlaşmasına kömək etmək üçün nəzərdə tutulub. Fəlsəfə və təbabət öz səylərini çoxdan birləşdirib. Bunun da səbəbi onların ayrı-ayrılıqda bütövlükdən, sistemlikdən məhrum olmasındadır: fəlsəfə empirizmdən uzaqlaşır, tibb isə orqanizmin öyrənilməsinə tam keçərək fərd haqqında unudur. Fəlsəfə dünya haqqında son dərəcə ümumiləşdirilmiş, nəzəri baxışdır. O, rasionallığı, elmə əsaslanması ilə seçilir və bütöv dünya və insanın dünyaya münasibəti haqqında ümumiləşdirilmiş anlayış kimi çıxış edir.

İnsan sağlamlığı qədim zamanlardan bu günə qədər və yaxın gələcəkdə, tarixdə və müasir dövrdə davamlı dəyər kimi mühüm bilik mövzusudur. Somatik, əqli, mənəvi və əxlaqi, sosial, ekoloji cəhətdən insan sağlamlığına nail olmaq üçün konseptual əsas bir çox elmlərlə yanaşı həm də fəlsəfədə araşdırılmışdır. Məqalədə fəlsəfi və etik aspektlərdə sağlamlığın dərk edilməsinin xüsusiyyətlərini müəyyən etməyə çalışırıq. Bu da, sosial həyatın müxtəlif sahələrində, o cümlədən bədən tərbiyəsi və idman sahəsində sağlamlığın və insan sağlamlığının formalaşmasının xüsusiyyətlərinin dərk edilməsinə inteqrativ yanaşmanı həyata keçirməyə imkan verəcəkdir.

XX əsrin əvvəllərində etikanın məşhur nümayəndələrindən biri görkəmli rus fiziki N.A.Umov idi. O, həyat etikasının həyatla, onun təbii-ruhi spesifikliyi ilə bağlılığı ideyasını inkişaf etdirirdi və ona görə də onun sirlərinin açıqlanması üçün fiziki anlayış və metodların kifayət olmadığını qeyd

edirdi. Umov isbat edirdi ki, həyatın spesifikliyi onun əks entropiyalılığındadır. O, yazırdı ki, qeyri-mütəşəkkil təbiətin «nizamsızlığı» insana xas deyil. Umov hesab edirdi ki, «... Bizim həqiqi nizamlılığımız etika elementlərini artıq özünə daxil edib. Əgər canlılar təbii nizamsızlıqlardan yaranmış olsaydı, əxlaqi prinsiplər onların hərəkətinə rəhbərlik edə bilməzdilər». O, təkid edir ki, etikanın əsas-məqsədi təbiətin həyatına, təbiətin xaotik qüvvələrinin mütəşəkkil «nızamlı» qüvvələrə çevrilməsinə təsirli müdaxilənin köməyi ilə insan həyatını fəlakətlərdən uzaqlaşdırmaqdır. O, yeni etikanın yeni vəzifələrini irəli sürür: «Elmi biliyin əsasında yarat və qur». Etik ideallar həyatdan, orqanik həyatda mövcud olan və yüksək formalara, yəni yaxşılığın və məhəbbətin etik ideallarına qədər inkişaf edən nizamlılığın ilkin formalarından çıxarılmalıdırlar. Bununla N.A. Umov etikada yeni istiqamət yaradır - həyatın təsdiqlənməsi naminə xaos və nizamsızlıq qüvvələri ilə mübarizə istiqaməti. «Bəşəriyyət dühasının əzəmətli vəzifəsi - yer üzündə həyatın qorunması və təsdiqidir» [6].

Qeyd etmək lazımdır ki, rus filosofları etika və tibbi etikanın münasibətləri problemləri ilə maraqlanır və düzgün olraq onların təkcə qarşılıqlı əlaqəsini deyil, həm də tibbi və elmi etikanın əsasının zəifliyini qabarıq göstərirdılər. V.Veresayev etika və elm problemləri müzakirə edərək yazırdı: «Nə qədər kədərli olsa da etiraf etməliyik ki, bizim elmimizin indiyə qədər etikası yoxdur. Həkimlərin cəmiyyətlə və öz aralarında olan səmimi münasibətlərinin normallaşdırılması ilə məşğul olan xüsusi-korporativ tibb etikasını etika kimi başa düşmək düzgün deyil. Etikanın geniş fəlsəfi mənada olması çox vacıbdir və bu etika hər şeydən əvvəl tibb elmi və canlı şəxsiyyət arasında olan qarşılıqlı münasibətləri hərtərəfli əhatə etməlidir. Amma, cüzi  də olsa, belə etikanın məsələləri, demək olar ki, bizdə heç qaldırılmır və müzakirə olunmur...» [9]. Veresayev etikanın əsas vəzifəsini «şəxsiyyətlə tibb elmi arasındakı münasibət məsələsinin hərtərəfli nəzəri araşdırılmasında görür və bu o sərhədlərdə üzə çıxarılır ki, onların arxasında hər bir kəsin maraqları elm maraqlarına qurban gedə bilər». O, qeyd edir: «... elə insan hüququ haqqında olan məsələlər onun hüququna qəsd edən tibb elminin qarşısında istər-istəməz tibbi etikanın əsas mərkəzinə çevrilir...» [10, s.71].

1952-ci ildə A.A.Lyubişev tərəfindən inkişaf edilən etika universal, elmi və sintetik kimi təsəvvür olunur [11, s.30]. Onun fikrincə, etikanın əsas postulatı – ruhun materiya üzərində qələbəsi uğrunda mübarizənin labüdlüyünün təsdiqlənməsindən ibarətdir. Rus və sovet fəlsəfə fikrində inkişaf etmiş etik konsepsiyaların təhlilinin nəticəsi olaraq, əxlaqla həyatın uyğunsuzluğunu aradan qaldırmaq, etikanı həyatda möhkəmləndirmək və əxlaqi mənbələrdən həm hüququ, həm anlayışı, hətta  dini də çıxartmaq istəyini müşahidə etmək olar.

Rus etik düşüncəsinin vacib xüsusiyyətlərindən biri - təkamül prosesləri və etik dəyərlərin faktorlarının vahidliyini dərk etmək, həyatı onun görüntülərində bütövlüklə anlamaqdır. Burada həyat antientropik proses kimi başa düşülmüşdür. Həyat-ölümlə və təbiətin qeyri-mütəşəkkilliyi ilə mübarizə, noosferanın təsdiqi, materiyanın üzərində ruhun qələbəsi naminə mübarizədir, bunlar etikanın ümumi çıxış prinsipinin müxtəlif xülasəsidir. Və etikanın bu ümumi prinsipi rus mütəfəkkirlərinin bütün əxlaqi axtarışlarından keçən bir əhval-ruhiyyə ilə, yəni həyat eşqi ilə işıqlanır.

Bu, hüquqi aspektdə əvvəllər təsbit olunmayan xüsusi hüquq ifadəsinin yaranması ilə nəticələndi: ölümə hüquq. Lakin belə hüquq qəbul olunsa da, bu vəsiyyətin kim tərəfindən icra olunması məsələsi hələ də açıq qalıb. Bununla bağlı olaraq P.D.Tişenko yazır ki, evtanaziya tərəfdarı

olmayan bir qrup amerikalı həkimlər evtanaziyanı keçirməyə razılıq verən həkimlərin (tibbi personal) tibb ixtisasından kənar olan xüsusi peşəkar şurada birləşmələrini tələb edirlər, çünki birincisi, öldürməyi qadağan edən içilən andı pozmağa həkimlərin ixtiyarı yoxdur, ikincisi, əgər onlar bu andı evtanaziya şəklində pozarlarsa, xəstələrin inamını itirəcəklər, bu da ki, tibb ixtisasının avtoritetinin düşməsinə səbəb olacaq [12].

Evtanaziyaya bir sıra ölkələrdə icazə verildiyindən, məsələn, Hollandiyada, onun icrasını müalicə edən həkim həyata keçirdiyi üçün, gəlin görək, bu vəziyyət hansı əxlaqi dilemmalara gətirib çıxarır. Bu məsələni araşdırarkən ilk qarşılaşdığımız problem budur: xəstənin mövcudluğunun keyfiyyətini həkim dəyərləndirə bilərmi, yəni xəstə üçün həyatın və ya ölümün yaxşı olmasını həll edə bilərmi? Aydındır ki, hətta xəstələr huşsuz vəziyyətdə olsa belə, həkim onun yerinə bu məsələni həll edə bilməz, çünki pasiyentin əsas hüququ-yaşamaq haqqı pozulur. Amma bəlkə bu məsələni həll etmək olar. Əgər pasiyentin vəsiyyəti və yaxud ərizəsi varsa.

Yüksək ixtisaslı həkim nəzərə almalıdır ki, xəstənin onun ölümünü tezləşdirmək xahişi ola bilər ki, vəziyyətini düzgün qiymətləndirməyə imkan verməyən depressiyadan irəli gəlir. Bir də ki, axır dəqiqəyə kimi azad seçim və qərarını dəyişmək hüququ olan hər bir şəxsin insani xüsusiyyətlərini də unutmaq olmaz.

Oksford Universitetində palliativ müalicə sahəsində (həyatı saxlayan müalicə) aparıcı avtoritet olan Robert Tuaykross xərçəng xəstəliyinə tutulmuş bir nəfəri yadına salır. Ağrılardan və ruhi narahatlıqdan canını qurtarmaq üçün o spirtli içkiyə qurşanmış və sonra isə öldürülməyini xahiş edib. İçdiyi dərmanların müsbət təsiri nəticəsində ağrılar keçdikdən sonra isə o, öz qərarını dəyişərək söyləyib: «Onu mən deməmişəm, onu alkoqol deyib». Tuaykross deyir ki, «depressiya çox vaxt müalicə olunmayan xəstəlikləri müşayiət edir və onun axınını çətinləşdirir. Xəstə depressiya vəziyyətindən çıxan kimi evtanaziyaya aid xahişlər yoxa çıxır» [13].

1984-cü ildə Hollandiyada bir neçə şərt ilə evtanaziyaya icazə verildi. Xəstə yüngülləşdirilməsi mümkün olmayan dözülməz iztirablar keçirirsə, o öz istəyi ilə özünün öldürülməsini xahiş etməlidir. Belə olan halda, həkim bu xahişi yerinə yetirə bilər, amma daha bir müstəqil həkimlə məsləhətindən sonra. Hər belə hadisə haqqında, yəni «qeyri – təbii ölüm» haqqında hökumət orqanlarına xəbər verilməli idi. Bu qanunları pozan həkimlər 12 il müddətinə qədər cəzalandırıla bilərdilər. Belə görünə bilər ki, bütün ehtiyat tədbirləri görülmüş və təxmin edilmişdir ki, bu qaydalar əlacsız xəstələri müdafiə edə bilər. Lakin statistik məlumatlar bunun tam əksini göstərir.

1995-ci ildə Hollandiyada 3600 nəfər həkimin köməkliyi ilə intihar nəticəsində dünyasını dəyişib. Bu rəqəm ancaq öz xahişləri ilə ölən pasiyentlərin miqdarıdır. Bəzi tədqiqat göstəricilərinə görə, 900 xəstə onların razılığı olmadan və 1900-ə yaxın xəstə isə ağrıkəsici dərmanların dozasının həkim tərəfindən bilərəkdən artırılması nəticəsində ölüb. 1981-ci ildən başlayaraq məhkəmə qarşısında yalnız 20 həkim mühakimə olunub. Onların 9 nəfəri cəzalandırılıb, onlardan yalnız 6 nəfəri şərti olaraq cəzalanıb, 3 nəfəri isə ümumiyyətlə cəzalanmayıb.

İndi isə konkret olaraq elə hadisələrə toxunacağıq ki, həkimin səhvi nəticəsində əlacsız olmayan xəstələr evtanaziyanın qurbanı olublar.

1997-ci ilin 26 noyabrında evtanaziyanın məşhur tərəfdarı 130 nəfərdən artıq əlacsız xəstəyə ölməklərində kömək etmiş və belə fəaliyyətinə görə «Doktor ölüm» ləqəbini alan Cek Kevorkyan əlacsız xəstə olmayan iki qadını öldürmüşdür.

1994-cü ildə Hollandiyanın Ali Məhkəməsində psixiatr Baudveyn Şabonun işinə baxılmışdır. O, əlacsız xəstə olmayan, fiziki ağrılardan əziyyət çəkməyən, sadəcə depressiya vəziyyətində olan əlli yaşında qadına ölməyə kömək etmişdir.

Biz bununla qeyd etmək istəyirik ki, evtanaziyaya verilən icazə səhv diaqnoz və həkimlərin hərisliyi nəticəsində əlacsız olmayan xəstələrin ölümünə gətirib çıxarır.

Beləliklə, biri üçün şəfqət olan o birisi üçün haqsızlığa, birinin iztirabdan qurtarması o birinin məcburi ölümünə çevrilir. Elə alınır ki, həkimlər «meşədə ağacları kəsirlər yan – yörəyə isə yonqar tökülür» prinsipi ilə hərəkət edirlər. Bəziləri etiraz edə bilərlər ki, səhv və sui-istifadələr nəticəsində itirilən həyat ölənlərin üzvlərinin transplantasiyası ilə digərlərinin həyatının xilası ilə əvəzlənirlər. Lakin belə mülahizə humanizm prinsiplərinə, yəni hər bir şəxsə hörmətlə münasibətə, onun təkrarlanmasının anlayışma, dəyərliyinə ziddir. Birinin xoşbəxtliyi üzərində qurmaq olmaz.

**Açar sözlər**: fəlsəfə tarixi, etika, estetika, təbabət, səhiyyə və əxlaq.

**Ədəbiyyat**

1. Морозова Н.В. и др. Этика и деонтология в медицине. М.: 1983, 234 с.
2. Киященко Л.П. Опыт философии трансдисциплинарности (казус «биоэтика»), Вопросы философии, 2005, №8, с. 105-117.
3. Тищенко П.Д. Биовласть в эпоху биотехнологий, М., 2001, 177 с.

## AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

**Təbibi Əhədzadə**
Azərbaycan Kooperasiya Universuteti
tabibiahadzade@gmail.com

Ölkənin iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsi ciddi qiymətləndirmər və kompleks təhlilə əsaslanır. Bu, fərqli dövrlərdə inkişaf prioritetlərinin müxtəlifliyindən irəli gəlir. Cari vəziyyəti nəzərə alaraq, qeyri-neft sektorunun inkişaf perspektivlərinin və imkanlarının müəyyən edilməsinin əhəmiyyətliyini qeyd etmək olar.

Ölkəmizdə sənaye istehsalının iki istiqamətdə inkişaf etdirilməsi məqsədəuyğundur.Bunlardan birincisi, mövcud sənaye müəssisələri modernləşdirilməsi, yeni müəssisələrin yaradılması, ikincisi isə yeni və daha məhsuldar istehsal texnologiyalarının mənimsənilməsindən ibarətdir [4, s.76]. Göstərilən istiqamətlərin seçilməsi hər şeydən əvvəl, fəaliyyətdə olan müəssisələrin artıq köhnəlməsi və müasir tələblərə cavab verməməsi nəticəsində rəqabət qabiliyyətinin aşağı olması ilə əlaqədardır. Qeyd etmək olar ki, toplanmış təcrübə və biliklər yeni yaradılacaq istehsal sisteminin yüksək

səviyyədə təşkilinə və istehsalın texniki-iqtisadi səviyyəsinin yüksəldilməsinə şərait yaradar. Ona görə də mövcud xammal və materiallardan istifadə olunmaqla emalı mürəkkəb olan məhsulların istehsalı elə təşkil olunmalıdır ki, məşğulluq səviyyəsinə də müsbət təsir göstərsin. Göstərilən istiqamətlərin əsasən dövlətin uzunmüddətli tədbirləri vasitəsilə reallaşdırılması uğurlu ola bilər.

Respublikamızda neft sektorunun inkişafı öz növbəsində qeyri-neft seftorunun inkişafına da əsaslı zəmin yaradır. Belə ki, neft hasilatının artması böyük elmi potensial və təcrübə mövcud olan kimya və neft-kimya sənayelərinin inkişafına təkan verir. Neft-kimya sənayesinin inkişafının əsas istiqamətlərdən biri son istehsal məhsullarının emal edilməsidir. Respublikamızda neft-kimya sənayesi məhsullarından maşınqayırma, tikinti və digər sahələri üçün lazım olan müxtəlif növ məmulatların istehsalında istifadə edilir.

Ölkəmizdə böyük istehsal miqyasına malik olan sahələrdən biri də metallurgiya sənayesidir. Bununla yanaşı aparılan araşdırmalara əsaslanaraq, demək olar ki, hazırda metallurgiya sənayesinin struktur yenidən qurulmasına ehtiyac vardır.

Neft-maşınqayırması sahəsi milli sənayenin perspektivli sahələrindən biridir. Bu sahədə iri həcmli investisiya qoyuluşlarının həyata keçirilməsi əhəmiyyətli rol oynayır. Bu baxımdan elə bir inkişaf planı qurulmalıdır ki,sahə müəssusələrinin bütün fəaliyyət istiqamətlərini əhatə etsin. Fikrimizcə, müəssisələrin təşkilati strukturunun təkmilləşdirilməsi, perspektivli məhsul çeşidlərinin və satış bazarlarının müəyyən edilməsi, ixtisaslı kadrların hazırlanması kimi məsələlər kompleks inkişaf planında öz əksini tapmalıdır. Neft sənayesində toplanmış təcrübə və neft hasil edən ölkələrlə qonşuluq neft-mədən avadanlıqları istehsalının da inkişaf etdirilməsinə zəmin yaradır. Bu sahə xarici şirkətlərlə birgə strateji əməkdaşlıq çərçovəsində də inkişaf etdirilə bilər. Mövcud vəziyyət xarici investisiyanın və müasir texnologiyaların cəlb edilməsinin səmərəlilyini təsdiq edir.

Ölkəmizdə avtomobil istehsalı, cihazqayırma və elektronika sahələrinin inkişaf potensialı mövcuddur. Lakin həmin sahələrin inkişafı əsasən xaricdən gətirilən məmulatlardan hazır məhsulun yığılması hesabına mümkündür. Maşınqayırma məhsullarının nisbətən differensial və mürəkkəb olması səbəbindən burada məhsul istehsalının mənimsənilməsi və artırılması sahəsində uğur qazanmaq üçün irihəcmli investisiya qoyuluşları və uzunmüddətli tədbirlər kompleksinin işlənib hazırlanması tələb edilir [2, s.18].

Kənd təsərrüfatı ölkəmizdə qeyri-neft iqtisadiyyatının əsas sahələrindən biridir. Bu sahənin inkişafı biavasitə onun maddi-texniki bazasının möhkəmləndirilməsindən asılıdır. Lakin, hazırda kənd təsərrüfatının maddi-texniki bazasının arzu ilunan səviyyədə olmasını söyləmək mümkün deyil. zəifdir. Hətta bəzi texniki vaitələrlə təmin olunması səviyyəsinin 1990-cı illə müqayisədə daha aşağı olması kaktı aşkar edilir. Son illərdə regional inkişafa dair ardıcıl dövlət proqramlarının həyata keçirilməsi kənd təsərrüfatının inkişafına maliyyə dəstəyinin artırılmasına şərait yaratmışdır. Təbii ki, sahə inkişaf etdikcə onun texnikaya olan tələbatı da artır. Ona görə də kənd təsərrüfatı texnikası istehsal edən müasir tipli yerli məssisələrnin yaradılması məqsədəuyğundur.

Müasir dövrdə sosial, iqtisadi və mədəni sahələrdə baş verən dəyişikliklər turizmin əhəmiyyətini artırmışdır.Azərbaycanın Şərq mədəniyyəti ilə Qərb sivilizasiyasının qovuşduğu məkanda yerləşməsi, müasir turizm komplekslərinin və təbii mənzərələrin olması turizmin inkişafına geniş imkanlar yaradır.

Qeyri-neft sənayesi ilə paralel olaraq, infrastruktur sahələri də inkişaf etdirilməlidir. Bu zərurət ondan irəli gəlir ki, istehsala xidmət sahələrinin yüksək inkişaf səviyyəsi öz növbəsində istehsal sahələrinin rəqabət qabiliyyətini də yüksəldir.

**Açar sözlər:** investisiya, maliyyə, turizm, inkişaf, istehsal, rəqabət.

### Ədəbiyyat


1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri, Bakı 2016.
2. Atakişiyev M.C. Azərbaycan 2020: Milli iqtisadi inkişaf və səmərəli yüksəlişin problemləri. Azərbaycan Vergi jurnalı, №4, 2012.
3. Əhmədov B.S. Milli iqtisadiyyatda investisiya qərarlarının qəbulu mexanizmi və ona təsir edən amillər. İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı, №2, Bakı: 2010.
4. İsmayıl Z., Mehtiyev A., Ağayev R., Aslannlı K. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. Azad iqtisadiyyata Yardım İctimai Birliyi, Bakı 2013.
5. http://www.stat.gov.az
6. http://www.economy.gov.az


## VOICES OF VERBS IN THE LANGUAGES SYSTEM

**Maya Ahmadli**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
maya-ahmadly@mail.ru

The verb is of great significance among the parts of speech. The verb has specific characteristics that make it different from other parts of speech. This difference, primarily, occurs in the types of verbs. The verb has the most grammatical categories in all languages. In the majority of languages, there are the following categories of verbs: 1) the category of tense; 2) the category of aspect; 3)the category of voice; 4) the category of mood; 5) the category of person and number; 6) the category of number.

Although a considerable amount of research has been done on verbs so far, the topic is still worth to be analyzed.

By and large, there is a variety of arguments in clarifying the following issues: 1) in which cases the combination *to be + PII* is action, and in which cases it is stative; 2) if the passive form of the verb is a converted form of the active form, or not; 3) to interpret the verbs that have active construction, but are passive semantically; 4) all types of passive voice construction.

It appears that the analytical expression of passive constructions in English and its synthetic expression in Azerbaijani reflects the grammatical structure of each of these languages.

*Speaking about the category of verbs, İ.İ Meshaninov also touches on a very important issue. He notes that a general idea can be given about the voices of verbs, but it is not possible to apply a single system of verb voices for all languages* [1].

The category of the verb is common to most languages as a universal category. However, there are important differences between the languages in clarifying a number of issues related to the voice category of the verb. They can be divided into two main groups: a) the number of verb voices in one language or another; b) the issue of the way to express verb voices.

C.S.Nesfield, one of the founders of classical grammar, describes two voices of verbs in modern English**: the active voice and the passive voicee.** The word **active** is derived from the Latin word **actum.** This word means **to do something**. For example:

*Tom threw a ball. Tom threw the ball.*

A **passive** principle is worked on by another person. The word passive is also derived from the Latin word ***pass-us***. This word means ***suffering.*** For example:

*A ball **was thrown** by Tom* [2]. *The ball was thrown by Tom.*

According to our research, we consider it expedient to use active voice instead of known voice and passive voice instead of unknown ones. In this regard, we are based on the opinion of Y. Seyidov. He notes that *in the system of grammatical voices of verbs, known and unknown terms seem inappropriate and even cause confusion. The meanings of the verbs are more appropriate to these voices of terms than to the **known and unknown** terms, but to the **active and passive** terms* [3].

Passiv voice (types of meaning in general) is not a logical category, but a grammatical category. That is, passiv voice is a grammatical expression of "the relation of action to the logical subject".

Passive is not the verb, but the subject is. As the subject is passive, the object plays its role. That is, the object replaces the subject.

We consider that in the development of the active or passive voice, it is necessary to approach the issue from the point of view of the background knowledge of the speaker and the listener about the objective reality. In a particular speech situation, one of two forms is chosen depending on the purpose of the speaker.

The most controversial aspect is that the compound *to be + PII* is a passive construction, or a compound noun.

İf the combination *to be + PII* can be normally transformed into the active voice, then the combination acts as a passive construction, if not, then the combination acts as a compound nominal predicate .

Eg He closes the door.

The door is closed by him.(passive voice)

The door is closed.( compound nominal predicate

Analysis of language patterns shows that *by* is used more than *tərəfindən*(in Azerbaijani).

*İ have written the letter. The letter has been written by me. .Mən məktubu yazdım. Məktub mənim tərəfimdən yazıldı.*

The means of expression of the passive voice seem to reflect the grammatical structure of the language: a) the passive form of the verb in English is analyzed analytically (*to be + PII*); b) All voices of verbs in the Azerbaijani language are formed synthetically.

It is clear from the information provided that modern English has a wide range of passive possibilities. It is impossible to systematize them on the basis of a single principle. That is why it is necessary to approach each case individually.

Typologically, there is a complete similarity in both languages.Because both languages have specific means of expression for both tense forms and passive voice .

**Keywords:** verb, voice, category, passive, active, subject, object.

## References

1. Мещанинов И.И. Члены предложения и части речи, Л.: Наука, 1978, с.309.
2. Nesfield J.C. Outline of English Grammar (Revised edition). London: New York, st.Martin's Press, 1955, p.56.
3. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, s.322.

## Dil sistemində feilin səsləri

Məqalədə ingilis və Azərbaycan dillərində növ kateqoriyasından danışılır. Hər iki dil arasında mövcud olan oxşar və fərqli cəhətləri müəyyənləşdirilir, onların oxşar və fərqli cəhətləri qeyd olunur. Dillərin qrammatik quruluşundakı fərqlər hər bir dilin özünəxas ifadə vasitələri ilə göstərilir, yəni ingilis dilində passiv növ analitik yolla, Azərbaycan dilində isə sintetik yolla düzəlir.

# AVROPA TƏCRÜBƏSİNDƏ KƏND TURİZMİNİN İNKİŞAFINA DƏSTƏK

**Pərvin Əhmədli**
Azərbaycan Universiteti
ehmedovp358@gmail.com

Kənd turizmi digər iqtisadi fəaliyyətlərlə tamamlayıcı olması, Ümumi Daxili Məhsula (ÜDM) və iş yerlərinin yaradılmasına töhfəsinə görə yerli iqtisadi artımı və sosial dəyişikliyi stimullaşdırmaq üçün yüksək potensiala malikdir. Kənd turizmi- turistləri kənd şəraitində yataq yerləri ilə təmin etməyə istiqamətləndirilmiş turizm fəaliyyətidir. Həmin turizm fəaliyyəti bu ərazidə yaşayan yerli əhali üçün ənənəvi kənd təsərrüfatından əlavə qazanılan gəlirdir. Ümumdünya Turizm Təşkilatı ( UNWTO ) kənd turizmini - ümumiyyətlə təbiətə əsaslanan fəaliyyətlər, kənd təsərrüfatı, kənd həyat tərzi, mədəniyyəti, balıqçılıq və görməli yerləri gəzməklə, geniş çeşidli məhsullarla əlaqəli turizm fəaliyyəti növü kimi başa düşür. Kənd turizmi fəaliyyəti aşağıdakı xüsusiyyətlərə malik olan kənd ərazilərində həyata keçirilir:

1) Əhalinin aşağı sıxlığı
2) Kənd təsərrüfatı və meşə təsərrüfatının üstünlük təşkil etdiyi landşaft və torpaqdan istifadə
3) Ənənəvi sosial quruluş və həyat tərzi

İyirminci əsrin sonundan bəri Avropada kəndlər sadə “istehsal landşaftından” “istehlak landşaftına” çevrilmişdir. Bunun səbəblərindən biri xidmət təsərrüfatının geniş yayılması ilə əlaqəlidir. Kənd ərazilərində xidmətin genişlənməsi və kəndin istirahət yerinə çevrilməsi onun cəlbediciliyini daha da artırdı və beləliklə, kəndi sosial həyatda daha geniş yeni rolla təmin etdi. Avropa ölkələrinin bir çox kənd əraziləri cəlbedici məşğulluq imkanlarının olmaması, infrastruktur və əsas xidmətlərə az sərmayə qoyulması, eləcə də gənclərin axını kimi struktur problemlərindən əziyyət çəkirdi. Buna görə də xüsusilə həmin ərazilərdə sosial-iqtisadi strukturun gücləndirilməsi məqsədi ilə Avropa ölkələri kənd turizmi ilə bağlı investisiyalar həyata keçirmişdir. Bu investisialar Avropada kənd turizminin inkişafına göstərilən dəstəklərdən biridir. Bu cür dəstək, kəndlərin yenilənməsi, turizm obyektlərinin tikintisi və modernləşdirilməsinə yönəlmiş tədbirləri əhatə edə bilər.

“Turizmi transformasiya, kənd yerlərinin inkişafı və cəmiyyətin rifahı üçün müsbət qüvvəyə çevirmək məqsədi ilə UNWTO " UNWTO tərəfindən ən yaxşı turizm kəndləri təşəbbüsünü başlatdı. O, kənd yerlərinin bioloji və mədəni müxtəlifliyi, yerli dəyərləri və fəaliyyətləri (kənd təsərrüfatı, meşə təsərrüfatı, heyvandarlıq və ya balıqçılıq), o cümlədən qastronomiyasını qiymətləndirmək və qorumaqda turizmin rolunu inkişaf etdirməyə çalışır [1].

ÜTT hesab edir ki, Avropada kənd turizmi üçün mühüm potensial bazar mövcuddur. Lakin bu seqmentin ölçüsü ilə bağlı bu günə qədər az tədqiqat aparılmışdır buna görə də onun dəqiq tərifini vermək çətindir. Statistikalara əsasən bütün beynəlxalq turistlərin üç faizi kənd turizmi məqsədləri üçün səyahət edir. Eyni zamanda kənd turizminin illik təxminən altı faiz artım tempi bütün turizm üzrə artım tempindən xeyli yüksəkdir. Kənd turizminin inkişafına dəstək üçün ÜTT-nin bu mövzuda bir çox seminarları keçirilmişdir. “Kənd turizmi: məşğulluq, yerli inkişaf və ətraf mühit üçün həll yolu” adlı seminar hələ 1996-cı ildə İsraildə təşkil edilmişdi və buna görə də kənd turizmi mövzusunda yeni düşüncə və müzakirə tədbirlərinin keçirilməsi məqsədəuyğun hesab edilmişdir. 2002-ci il 24-25 iyun tarixlərində Serbiyanın Belqrad şəhərində keçirilən “Avropada kənd turizmi: təcrübələr və perspektivlər” seminarı Avropa ölkələri arasında təcrübə mübadiləsi və kənd turizminin gələcək perspektivlərini qiymətləndirmək üçün forum kimi nəzərdə tutulmuşdur. Bu seminarın uğurunun göstəricisi digər ölkələrdə də analoji tədbirlərin təşkili təşəbbüsü yaratmışdır. 6-7 iyun 2003-cü il tarixlərində Polşanın Kielce şəhərində keçirilən seminarı buna misal göstərmək olar. Bu seminar “Avropada kənd turizmi: davamlı inkişafa aparan yol” mövzusunda idi. Qeyd edilən seminarın ardınca 2003-cü il 25-26 sentyabr tarixlərində “Avropada kənd turizmi: turizmin inkişafı üçün təlimatlar” seminarı təşkil edilmişdir. Bu seminar isə Ukraynanın gözəl Yaremça vadisində aparılmışdır. Seminarlarda Qərbi, Mərkəzi və Şərqi Avropadan 20-yə yaxın ölkə və bir sıra beynəlxalq təşkilatlar iştirak etmiş, geniş təcrübələr təqdim edilmiş və müzakirə aparılmışdır [2, s.81].

Kənd yerlərində turizmin davamlılığı yalnız hərtərəfli, əhatəli planlaşdırma strategiyası əsasında həyata keçirilərsə uğurlu olar. UNWTO Baş Assambleyasının 24-cü sessiyasında təsdiq edilmiş kənd turizminin İnkişafı üzrə tövsiyələri turizmin inkişafında müxtəlif səviyyələrdə hökumətlərə, həmçinin özəl sektora və beynəlxalq ictimaiyyətə dəstək olmaq məqsədi daşıyır [3].

Avropada kənd turizminin inkişafına dəstək üçün EuroGites yaradılmışdır. EuroGites Avropa Ferma və Kənd Turizmi Federasiyası deməkdir [4]. Avropa Kənd Turizmi Federasiyası coğrafi

Avropa və İsrail üzrə 29 ölkədən 36 birliyi təmsil edən peşəkar təşkilatdır. Ümumi sayı 100.000-dən çox olan müəssisə ilə ümumilikdə Avropa turizminin təxminən 15%-ni təşkil edir. Bu, kənd yataq yerləri, səhər yeməyi və şəxsi evlərdə və ya fermalarda yeməkdən tutmuş kiçik ailənin idarə etdiyi kənd mehmanxanalarına qonaq evlərinə qədər dəyişir. Peşəkar təşkilat olaraq EuroGites Avropa daxilində turizmlə bağlı bütün müzakirələrdə və strukturlarda fəal iştirak edir. O, həmçinin ilk dəfə 2003-cü ildə başlayan iki ildə bir dəfə keçirilən Kənd Turizmi üzrə Avropa Konqresinə cavabdehdir [5].

**Açar sözlər:** Kənd turizmi, UNWTO, Avropa, Beynəlxalq təşkilat.

**Ədəbiyyat**

1. https://www.unwto.org/rural-tourism Rural tourism-UNWTO.
2. https://www.e-unwto.org Rural Tourism in Europe: Experiences, Development and Perspectives
3. UNWTO Baş Assambleyasının iyirmi dördüncü sessiyası (Sənədlər ingilis dilində, Cild 2021, Buraxılış 1, Noyabr 2021).
4. https://www.eea.europa.eu Sustainable Tourism Acronyms – DestiNet (Davamlı Turizm Akronimləri).
5. www.ruraltour.eu

## MİSTİK ƏDƏBİYYATIMIZIN QAYNAĞI DƏDƏ QƏRQUD KİTABI

**Abbasəli Əhmədoğlu**
Azərbaycan Dillər Universiteti
arazahmadoghlu@gmail.com

Dünya mifologiyasının ən zəngin abidələrindən biri də Dədə Qorqud kitabıdır. Bu əzəmətli abidəni dərindən qavrayıb iç qatlarını aydınlada bilmək klasik ədəbiyyatımızı da anlatmaqda çox faydalı nəziriyyələr irəli sürə bilər.

Dədə Qorqud Kitabında belə bir sual irəli sürülür: “baş kəsib qan tökmək hünərmidir?” [2, s.145]. Bu suala cavab vermək üçün çağdaş ədəbiyyat nəzəriyyəsində söz sahibi olan alimlərin fikirlərini bir arada araşdırıb istənilən nəticəyə varmaq olar. Hər ədəbi-bədii və mifo-poetik bir əsərdə baş obraz bəzi vaxtlar o əsərin qəhrəmanı olaraq nəzərdə tutulur. Elə isə, “Qəhrəman kimdir?” sualı əslində “Ədəbiyyat nədir?” kimi vacib və dəyərli bir sual, verilən cavablar da ədəbi nəziriyyənin başqa variantıdır.

Bir çox alimlər fövqəltəbii zəka və fiziki güc sahibi olan hər bir insanı qəhrəman hesab edir. Amma K.Q.Yunqun analitik psixologiyası metodu ilə mifologiyanı araşdıran məşhur Amerikalı mifoloq, C.Kəmpbel isə “Qəhrəman kimdir?” sualına verdiyi cavab, əldəki tezisin yazarının fikricə, ən uyğun və ən anlaşılan bir cavab ola bilər. Bu metoda dayanaraq C.Kəmpbel qəhrəman semanteminə tam yeni bir tərif söyləyir: “*Qəhrəman özü özünə qazanılmış təslim olmağın adamıdır. Amma nəyə təslim olmaq?*” O bu sualın cavabını Pr. Toynbinin tədqiqatına istinad edərək ölümə zəfər

çalmaq üçün ölümə təslim olub yenidən doğulmaq və bu təkrarla, yəni ölüb tam yeniliklərdən doğulmaqla ölümün qarşısını almaq imkanından yazır [1, s.15-18].

Kəmpbelin qəhrəman semanteminə müəyyən etdiyi nəzəriyyəsinə görə qəhrəmanın mifoloji macərasının standart yolu keçiş ayinlərində təqdim olunan formulun böyüdülmüşüdür: ayrılma - ərginləmə - dönüş. Buna monomifin nüvə birimi demək olar. Bu kodlar özləri neçə başqa mərhələdən ibarət olur və qəhrəmanlığa seçilmiş bir insan o mərhələləri bir-bir keçməlidir. Amma hər halda bu üç kod ən əsasi kodlardır. Bu nəzəriyyənin əsasında qəhrəmanın ilk işi ölümə təslim olmaq yəni eqosunu öldürməkdir. Bu mərhələni başlamaq üçün insana rəmzli və yaxud simvolik bir çağırış gələr. Bu çağırışı qəbul edib macərasına başlayan qəhrəman kosmosdan ayrılmalı və xaosa varmalıdır. Xaos aləmində qəhrəman çox çətin sınaqlar yolunu keçib ərginləməlidir. Yəni qəhrəman ruhi baxımdan qəhrəmanlığa layiq olmasını sözdə yox, əməldə göstərməlidir. Bu çətin sınaqlar mərhələsini keçmiş qəhrəman son bərəkət və rəhmətə nail olan yeni doğulmuş bir insandır. Bu son bərəkət bütün bəşəriyyəti hərəkətə gətirə bilən hikmət və mərifətdir. Qəhrəman xaos aləmində bu gücləri əldə etdikdən sonra öz xalqına, kosmosuna qayıtmalı və öyrəndiklərini xalqa öyrətməklə toplumda böyük dəyişikliklər və yeniliklər yaratmalıdır.

Bu mərhələrə çata bilmək mistik yaxud ürfan ədəbiyyatında “seyr-ü süluk” deyilir. O mərtəbəyə çata bilən arif insan hər şeydən öncə öz “eqo”su yaxud “nəfs”ini öldürməli, həqiqəti kəşf etmək üçün adi insanların keçə bilmədiyi çətin imtahanlardan keçməli və həqiqətin yollarını öyrənməlidir. O həqiqəti kəşf edən arif insanlar Dədə Qorqud kitabında alp, qəhrəman, Nəsimi, Şəms, Şirvani kimi şairlərin yaradıcılığında isə arif adlanır. Göründüyü kimi hədəf birdir, fərq isə ancaq mifik ədəbiyyat ilə klasik ədəbiyyatın simvolikası və qrammatıkasındadır. Ona görə də hər iki ədəbiyyatı birlikdə dərin tədqiq etmək çağdaş oxucuya çox faydalı ip ucları verə bilər.

Dədə Qorqud kitabının bütün boylarında sözü gedən kodlar hər boyun qəhrəmanının mifik macərasında aydınca təhlil edilə bilir. Örnək üçün “Salur Qazanın tutsaq olub oğlu Uruz çıqardığı boyu bəyan edir” [2, s.104-108] bölümündə Trabzon Təkurunun Salur Qazana verdiyi Şahinin çağırışı yaxud işarəsi ilə Qazan kosmosdan ayrılıb xaosa yola düşür. Yolda Qazan içdiyi şərab (ürfan ədəbiyyatında “mey”) sayəsində Oğuzun “kiçik ölüm” adlandırdığı yuxuya gedir. Xaosun elçiləri Qazan yuxudaikən əl-ayağını bağlayıb xaosa aparırlar. Xaosda onu quyuya salırlar. Quyu yeraltı yaxud ölüm dünyasını təmsil edir. O dünyada Qazan Təkurun ölmüşləri arasında yeyib içib ölüm dünyasında yaşayır. Sonra Qazanı daha çətin imtahanlarla sınamağa çalışırlar. Salur Qazan bu dönəmi də igidlik və alnı açıqlıqla keçir. Qəhrəmanın xaosa dönüş mərhələsi bu macəranın ən çətin aşaması olur. Bu aşamada Qazan Kafır donunda onu qurtarmaq üçün ardıca gələn Oğuz qəhrəmanları və hətta öz oğlu Uruz ilə döyüşməli olur.

Salur Qazanın macərası mifik ədəbiyyatda monomif qəhanlarının standart yollarının fərqli mərhələlərini yaxud qəhrəmanlıq kodlarını simvollaşdırır. Qazan xaosdan gələn bir çağırışla ölümə təslim olur. Ölüm dünyasında ruhi-mənəvi ərginləmə yaşayır. Orada əldə etdiyi xeyir-bərəkət ilə Oğuza dönür. Bu dönüş yenidən doğulmaqdır. Ölümə təslim olub yenidən doğulan bir qəhrəman yalnız öz elinə yox, bütün bəşəriyyətə həqiqətin necə əldə edildiyini təlim edir. Bu təlimlərin ən başlıcası Salur Qazanın evinin yağmalatmasıdır. O evini hər il dəbdəbəli bir mərasim ilə

yağmalatmaqla insan oğluna dünya malının dəyərsiz olduğunu anlatmağa çalışır. Bu dərsi anlaya bilməyən Oğuz bəyləri İç Oğuzla Dış Oğuzun savaşı və o böyük tragediyanı yaradanlar olur.

Mistik ədəbiyyat həmin dərsləri anlatmağa çalışır. Eyni simvollar başqa imgələr və ədəbiyyat ilə klasik ədəbiyyatda da özünü göstərir. Bu imgələr, simvollar, təmsilləri tədqiq etmək gələcək elmi işlərin mövzusu ola bilər. O gələcək araşdırmalar da özləri yeni bir ədəbi nəzəriyyənin meydana gəlməsini sağlayacaq.

**Açar sözlər:** mistik ədəbiyyat, mifologiya, klasik ədəbiyyat, qəhrəman, monomif, simvol.

**Ədəbiyyat**

1. Campbell J. Hero with a Thousand Faces. New Jersey: Princeton University Press Distal Montiexllo, 2004, 377 s.
2. Dədə Qorqud Kitabı, Əsil və sadələşdirilmiş mətnlər, Bakı: Öndər nəşriyyat, 2004, 376 s.
3. “Kitabi-Dədəm Qorqud” əla-lisane-tafeyi-oğuzan (Drezden və Vatikan əlyazma nüsxələri və M.Erginin nəşri əsasında tərtib edib çapa hazırlayanı S.Əlizadə) “Dədə Qorqud Kitabı” ensiklopediyası. 2 cilddə, I cild. Bakı: YNE, 2000, 622 s.

## VERGİ YÜKÜ VƏ DÖVLƏTİN VERGİ SİYASƏTİ

**Hüseyn Əhmədov**
Azərbaycan Universiteti
huseyn.axmedov.00@bk.ru

Dövlət vergi sistemi dövlətin maliyyə resurslarına olan tələbatını ödəməklə yanaşı, vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə marağını artırmalı, eyni zamanda onları iqtisadi fəaliyyətin səmərəliliyinin artırılması yollarını daim axtarmağa sövq etməlidir. Təsərrüfat subyektlərinin vergi yükü dövlətin həyata keçirdiyi vergi siyasəti nəticəsində vergi sisteminin keyfiyyət xarakteristikasıdır [1].

Optimal vergi sistemi təkcə dövlətin maliyyə resurslarına olan tələbatını ödəməməli, həm də vergi ödəyicisinin sahibkarlığa marağını artırmalı, hətta onu daim iqtisadi səmərəliliyin artırılması yollarını axtarmağa sövq etməlidir. Ona görə də vergi yükü ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür [1].

- Beynəlxalq vergitutma təcrübəsi göstərir ki, vergi ödəyicilərindən tutulan vergilər onun ümumi gəlirinin 30-40 faizindən çox olduqda iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi azalır, ölkədə biznes mühiti cəlbediciliyini itirir. Bu baxımdan dövlətin vergi siyasəti vergi yükünün optimal səviyyəsinə nail olmağa yönəldilməlidir [1, 2].

- Vergi yükünün hesablanmasına müxtəlif yanaşmalar var. Praktikada ən çox yayılmış vergi yükü ümumi vergi daxilolmalarının ÜDM-ə nisbəti kimi müəyyən edilir. Başqa sözlə : K= V / ÜDM

Burada: K - vergi yükü; ÜDM - ümumi daxili məhsul; V- vergi daxilolmalarının həcmi.

Mikro səviyyədə vergi yükü vergi ödəyicisinin büdcəyə ödədiyi vergi məbləğinin onun ümumi gəlirlərində xüsusi çəkisi ilə ifadə edilir və aşağıdakı düsturla hesablanır: [4, 5].

k = (v / m) * 100%, burada k vergi ödəyicisinin vergi yükүdür, v vergi ödəyicisinin il ərzində ödədiyi verginin məbləğidir; m - vergi ödəyicisinin ümumi illik gəliri. Ümumi daxili məhsul milli mənsubiyyətindən asılı olmayaraq ölkədə yerləşən maddi istehsal və xidmət sahəsində müəssisələrin məhsullarının dəyərinin cəmidir. İqtisadiyyatda ən çox həll olunan, lakin hələ də həllini tapmayan əsas problem vergilərin səviyyəsi ilə dövlətin real gəlirləri arasındakı nisbət məsələsidir. Bu problemin həlli vergi dərəcələri ilə vergi gəlirlərinin məbləği arasında əlaqəni əks etdirən Laffer əyrisi adlanan əyridir. Qrafik olaraq bu əyri aşağıda göstərilmişdir [3].




**Şəkil 1.** Laffer əyrisi

burada, y - büdcə gəlirləri; x - vergi dərəcəsi; $y_1$ - büdcə gəlirlərinin maksimum mümkün həddi; x1 - büdcə gəlirlərinin maksimum dəyəri aldığı vergi dərəcəsi.

X oxu vergi dərəcələrini, Y oxu isə vergi daxilolmalarını göstərir. Vergi dərəcəsinin artırılması büdcə gəlirlərinin ləngimə tempi ilə artmasına gətirib çıxarır. Nə qədər ki, iqtisadi proses iştirakçılarının həvəsləndirici maraqlarına ciddi toxunulmayıb, istehsalın azalma sürəti vergi dərəcəsinin artım tempindən az olacaq. Lakin x1 həddinə çatır ki, verginin ödənilməsi nəticəsində istehsalçının xalis gəliri qalmasın. İnsanlar təkcə vergi ödəmək üçün işləmirlər. Nəticədə iqtisadi fəallıq azalır, vergidən yayınma halları daha geniş vüsət alır. Bütün bunlar vergi dərəcəsinin artırılmasına baxmayaraq, büdcə gəlirlərinin azalmasına səbəb olur [1].

Bazar iqtisadiyyatı o demək deyil ki, dövlət idarəçilik və tənzimləmə prosesindən kənarda qalmalıdır. Əsas məsələ budur ki, bu proseslərin özü təsərrüfat subyektlərinin istehsalı və maliyyə fəaliyyətinin nəticəsidir. Onların fəaliyyətinə birbaşa müdaxiləni ifadə etməməlidir. Dövlət bazarı Mexanizmlərin işləməsi üçün lazımi şərait yaratmalı, bu mexanizmlərin köməyi ilə iqtisadi prosesləri tənzimləməlidir. Hətta iqtisadi inkişaf səviyyəsinin demək olar ki, eyni olduğu müxtəlif ölkələrdə belə. Dövlətin iqtisadiyyata müdaxilə səviyyəsi müxtəlifdir eləcə də hər bir ölkənin vergi dərəcələri də bir o qədər müxtəlifdir [6].

İstənilən dövlətin ictimai həyatının müxtəlif sahələrində, cəmiyyətin iqtisadi, hərbi, sosial və digər sferalarında ifadə. siyasətləri hazırlayır və həyata keçirir. Dövlətin tənzimlənməsi prosesində bilavasitə dövlətin fiskal siyasətinə daxil olan maliyyə mexanizmlərindən istifadə edilir [8]. Vergi siyasəti dövlətin fiskal siyasətinin tərkib hissəsidir. Ölkənin vergi sistemini yaradanda dövlət onu müəyyən məbləğdən maliyyələşdirir. siyasi məqsədlər üçün istifadə etməyə çalışır. Vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementlərindən biridir. Dövlətin vergi siyasətinə

gəlincə, onu dövlət hazırlayıb. Vergitutma sahəsində cəmiyyətin qarşısında duran müəyyən vəzifələrin həyata keçirilməsinə yönəlmiş tədbirlər sistemini başa düşür [7].

**Açar sözlər**: vergi yükü,dövlət siyasəti,vergi dərəcələri, vergitutma.

### Ədəbiyyat


1. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. (2011). Xarici ölkələrin vergi sistemi. Bakı: İqtisad Universiteti, 554 s.
2. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma. Dərslik. Bakı, 2010, s. 512.
3. Musayev A.F., Məmmədov Ə.C. Ünvanlı vergi xidməti, Vergi ödəyicilərinin məlumat kitabı. Bakı, 2013, 288 s.
4. Musayev A.F., Qəhrəmanov A.Q. Vergi mədəniyyəri. İkinci nəşr. Bakı, 2010.
5. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. Bakı, 2002.
6. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemlər. Bakı 2005.
7. Bayırov D.Ə. Nəzarət vergiləri. Bakı 2006.
8. Kəlbiyev Y.A. Vergilər və Vergilər: Sxem və Cədvəllərdə. Bakı 2004.


## OBLASTA NƏZƏRƏN BİR EKSTREMAL MƏSƏLƏNİN ƏDƏDİ HƏLLİ HAQQINDA

**Kəbirə Əhmədova**
Azərbaycan Universiteti
kebire.ehmedova@gmail.com

Məqalədə Şredinger operatorunun məxsusi ədələri üçün qoyulmuş bir minimallaşdırma məsələsinə baxılır. Məqsəd bu operatorun birinci məxsusi ədədini operatorun verildiyi oblasta nəzərən minimallaşdırmaqdır. Alqoritm təklif olunur və onun addımlarının yerinə yetirilməsi illüstrasiyası verilir.

Aşağıdakı məxsusi ədəd məsələsinə baxaq

$$-\Delta u + q(x)u = \lambda u, \quad x \in D, \tag{1}$$

$$u(x) = 0, \quad x \in S_D, \tag{2}$$

$$\lambda_1(D) \to \min, \quad D \in K, \tag{3}$$

Burada $\Delta$ - Laplas oeratoru, $K$ - məhdud qabarıq oblastlar çoxluğudur, $D$ - onun elementi, $S_D$ isə sərhəddidir.

Birinci məxsusi ədədin oblasta nəzərən alınmış birinci variasiya düsturundan istifadə edərək, (1)-(3) məsələsinin həlli üçün aşağıdakı alqoritm təklif olunur:

**Alqoritm.**

**Addım 1.** İlkin $D_0 \in K$ oblastı seçilir. Hesab edəcəyik ki, $D_i \in K, \quad i = 1,2,...$ artıq məlumdur.

**Addım 2.** $D_i$ oblastında (1)-(2) məsələsi həll olunur və $u_i(x)$ məxsusi funksiyası tapılır.

**Addım 3.** $\Lambda_i \to \max$ variasiya məsələsi həll olunur**,** harada ki,

$$\Lambda_i = \int_{S_{D_i}} \left|\nabla u^{(i)}\right|^2 P(n(x))ds,$$

və qabarıq, müsbət bircins $\overline{P}_i(x)$ funksiyası tapılır.

**Addım 4.** Aralıq $\overline{D}_m$ oblastı $\overline{P}_i(x)$ funksiyasının 0 nöqtəsindəki subdiferensialı kimi tapılır.

**Addım 5.** Növbəti oblast

$$D_{i+1} = (1-\alpha_i)D_i + \alpha_i \overline{D}_i, \quad 0 < \alpha_i < 1. \tag{4}$$

münasibətindən tapılır.

**Addım 6.** Dəqiqlik şətri yoxlanılır. O ödənmədikdə $D_i = D_{i+1}$ götürürük və Addım 1-ə qayıdırıq. Əks halda iterasiya dayandırılır

**Misal 1.** Tutaq ki, $K$

$$K = \{D \subset M : B_1 \subset D \subset B_2\},$$

şəklindədir, harada ki, $B_r$ ilə mərkəzi kordinat başlanğıcında olan $r$ radiuslu şar işarə edilmişdir. Məlumdur ki, (1)-(3) məsələsinin belə təyin olunmuş $K$ -da həlli $B_2$-dir. Alqoritmi bu məsələyə tətbiq edək.

Başlanğıc oblast kimi $D(0) = B_{\frac{3}{2}}$ götürək. (1)-(2) məsələsini $D(0) = B_{\frac{3}{2}}$-də həll edək və $u(x)$ birinci məxsusi funksiyanı tapaq. Sonra

$$\int_{S_{D(0)}} \left|\nabla u^{(0)}\right|^2 P_D(n(x))ds \to \max \tag{5}$$

məsələsini $P_{B_1}(x) \le P_D(x) \le P_{B_2}(x)$ şərti daxilində həll edək və $\overline{P}(x)$ funksiyasını tapaq. $\left|\nabla u^{(0)}\right|^2 \ge 0$ olduğundan, dayaq funksiyasının xassəsinə əsasən və (5) funksionalının formasından aydındır ki, max $P_{B_2}(x)$ üzərində alınır, yəni

$$\overline{P}(x) = P_{B_2}(x) = 2\|x\|, \ x \in R^n.$$

Onda aralıq oblast $\overline{D}^{(0)}$ kimi tapılır

$$\overline{D}^{(0)} = \partial\overline{P}(x)\Big|_{x=0} = B_2.$$

$\alpha = \dfrac{1}{2}$ götürək və növbəti oblastı belə təyin edək

$$D^{(1)} = \overline{D}^{(0)} + \frac{1}{2}D^{(0)} = \frac{1}{2}B_2 + \frac{1}{2}B_{\frac{3}{2}} = B_{\frac{7}{4}}.$$

$B_{\frac{7}{4}}$ başlanğıc oblast kimi götürsək və bir iterasiya da aparsaq $\overline{D}^{(1)} = B_2$ alarıq. Buradan

$$D^{(2)} = \frac{1}{2}\overline{D}^{(1)} + \frac{1}{2}D^{(1)} = \frac{1}{2}B_2 + \frac{1}{2}B_{\frac{7}{4}} = B_{\frac{15}{8}}.$$

Prosesi davam etdirsək, əmin oluruq ki, alınan şarların radiusu 2-yə yaxınlaşır.

İndi isə bu alqoritmin «MATLAB» da yerinə yetirilməsinə baxaq .

PDETOOL funksiyasından istifadə edərək başlanğıc $D_0$ oblastı daxil edilir. Bu oblastda tənliyin tipi, əmsalları seçilir, sərhəd şərti verilir.

PDEEIG standart prosedurasının köməyi ilə $D_0$ oblastında (1)-(2) məsələsi həll olunur və onun birinci məxsusi ədədi və məxsusi funksiyası taılır.

PDEGRAD funksiyasından istifadə edərək

$$\left|\nabla u_j\right|^2 = \sum_{i=1}^{n}\left(\frac{\partial u_j}{\partial x_i}\right)^2$$

hesablanır.

Bu funksiyanın $D_0$ -də olan düyün nöqtələrindəki qiymətləri seçilir. Bu qiymətləri

$$I(D) = \int_{S_{D_m}} \left|\nabla u_j\right|^2 P(x)ds \to \min$$

ifadəsinə qoyuruq və alınan xətti-proqramlaşdırma məsələsini həll edərək qeyd edilən xassələri ödəyən $P_m(x)$ funksiyasını tapırıq. Aralıq oblast $P_m(x)$ funksiyasının 0 nöqtəsindəki subdiferensialı kimi

$$\overline{D}_m = \partial P_m(0) = \{l \in R^n : P_m(x) \geq (l, x),\ x \in R^n\}.$$

münasibətindən tapılır..

**Misal 2.** Təklif olunan alqoritmi realizasiya etmək üçün aşağıdakı məsələyə baxaq. Tutaq ki, elə $D^* \in K$ oblastı tapmaq tələb olunur ki,

$$-\Delta u = \lambda u\ , \quad x \in D,$$

$$u(x) = 0,\ x \in S_D.$$

məsələsinin birinci məxsusi ədədini $D' \subset D \subset D''$ oblastları üzərində minimallaşdırsınş Burada $D'$ - radiusu 1 olan dairə, $D''$ - isə radiusu 3 olan dairədir.

Ümumi nəzəriyyədən məlumdur ki, bu halda optimal oblast $D^* = D''$ oblastıdır. Alqitmin təqbiqi də bu nəticəyə gətirir və minimal məxsusi ədəd üçün alırıq $\lambda_1^{\min} = 0.65526$ (Şəkil 1).




**Şəkil1 1.**

Əgər $\lambda_1$ məxsusi ədədini maksimalladırmaq tələb olunursa, onda optimal oblast $D^* = D'$ olur və maksimal məxsusi ədəd üçün $\lambda_1^{\max} = 5.8979$ alırıq (Şəkil 2).




**Şəkil 2.**

**Açar sözlər:** məxsusi ədəd, oblast, minimalla.dırma, funksional.

**Əbəbiyyat**


1. Баничук Н.Б. Оптимизации форм упругих тел. М.: Наука, 1980, 256 с.
2. Белов С.А., Сизова Н.А. Необходимые и достаточные условия оптимальности в одной задаче оптимизации области. Вестник НГУ, Математическое моделирование и оптимальное управление, 2001, No.3, с.205-211.

3. Нифтиев А.А., Гасымов Ю.С. Управление границами и задачи на собственные значения с переменной областью. Типография БГУ, 2004, 185 с.
4. Bucur D., Buttazzo G. Variational Methods in Shape Optimization Problems. Series: Progress in Nonlinear Differential Equations and Their Applications, Vol.65, 2005, VIII, 216 p.

## KURT VONNEQUT ROMANLARININ ƏSAS MÖVZU İSTİQAMƏTLƏRİ

**Lətifə Əhmədova**
Gəncə Dövlət Universiteti
ahmedovalatifa22@gmail.com

XX əsr ABŞ ədəbiyyatının görkəmli nümayəndəsi Kurt Vonnequtun yaradıcılığında romanları xüsusi və əhəmiyyətli yer tutur. Yazıçının romanlarında sosial mövzular üstünlük təşkil edir. Çünki “realist metodun mahiyyəti, onun ruhu, özəyi sosial təhlil, insanın sosial təcrübəsinin öyrənilməsi və təsviri, insanlar arasında həm sosial münasibətlərin, həm fərdlə cəmiyyət arasındakı əlaqənin, həm də cəmiyyətin quruluşunun öyrənilməsi və təsviridir” [ 2, s.42]. K.Vonnequt qeyd edilən nəsr əsərlərində çoxşaxəlilik, müxtəlif yanaşmaların eyni müstəviyə gətirilməsi, cəmiyyətin sosial, ictimai, mənəvi-psixoloji problemlərinin iç-içə təqdimi kimi özünəməxsus bədii yollardan istifadə edərək məzmun və struktur baxımından orijinal romanlar yaratmışdır. “K.Vonnequtun romanlarında onların tənqidi oriyentasiyasının, sosial məzmununun bütün çılpaqlığına baxmayaraq, “bütövlüyün bərpası” və “hissələrin qarşılıqlı asılılığı” mexanizmini anlamaq və aşkar etmək asan deyil. Yazıçının əsərləri çox mövzuludur, onların hər birində çeşidli problemlər cəmləşir, romanın parçalanmış strukturundan və buna uyğun olaraq reallıqda sosial mexanizmlərin hərəkətlərini nümayiş etdirməyin yeni üsullarından istifadə olunur” [1, s.52].

V.Vonnequtun keçən əsrin 60-cı illərində yazdığı romanlarında, eyni zamanda, “Cat’s Cradle” – “Pişik üçün nənni” (1963), “God Bless You, Mr. Rosewater” – Allah canınızı sağ eləsin, Cənab Rozuoter” (1965), “Slaughterhouse-Five, or The Children’s Crusade” – “Sallaqxana nömrə beş və ya uşaqların xaç yürüşü” (1969) və digər əsərlərində sosial məzmun və tənqidi istiqamət, satira və kinayə daha geniş şəkildə işlənmişdir.

“Pişik üçün nənni” romanında yazıçı çox müxtəlif mövzuları qələmə alsa da, burada elm, texniki sivilizasiya və insan əxlaqı, mənəviyyatı kimi məsələlərin ziddiyyətli prizmaya gətirilməsi xüsusi diqqət çəkir. Romanda K.Vonnequt “komputer texnologiyası dövründə geniş yayılmış elmçiliyi şürün bir növü kimi xarakterizə etmişdir” [3, s.14].

Romanın ilk səhifələrindən “sizə bir azdan danışacağım bütün gerçəklər dilə gətirilməz yalanlardır” [4, s.21] deyən yazıçının sosial mövzuların və real hadisələrin fonunda baş verən, insanlara həqiqət kimi diqtə edilən yalanları kinayə və satiranın vasitələriylə ifadə etdiyi məlum olur. Əsərdə Amerikanın Hiroşimaya atdığı atom bombasını hazırlamasına görə Nobel mükafatı alan alimin simasında insanların elmin əli ilə törətdiyi siyasi cinayətlərin fəlakətləri kinayə şəkildə təsvir edilir. Əsərdə ədibin alimin dilindən “nədən yalançı oyunlarla uğraşım, bu qədər çox gerçək oyunlar

varkən" [4, s.27], "bir elm adamının hər zaman etdiyi, belə ya elə, necə olsa, sonunda silah olar" [4, s.42] söyləməsi də yazıçının kəskin kinayəsinin səciyyəvi nümunələrindəndir.

K.Vonnequt "Pişik üçün nənni" romanında təhlükəli elm, din və siyasətin sosial həyatda törətdiyi fəlakətləri qələmə almış, aktual mövzuları təhlil etmişdir.

**Açar sözlər:** Kurt Vonnequt, "Pişik üçün nənni", atom bombası, Amerika.

## Ədəbiyyat


1. Димитрук В.В. Тюрчество К. Воннегута: социально-критические тенденции, жанр, поэтика. Диссертация на соискание ученой степени кандидата филологических наук, Киев, 1984, 201 с.
2. Очков Б. Исторические судьбы реализма. Москва, Сов.писатель, 1977, 528 с.
3. Зверев А. Сигнал предостережения. В кн.: Воннегут К. Бойня номер пять, или Крестовый поход детей, и другие романы. Москва, Художественная литература, 1978, с. 3-19.
4. Vonnegut Kurt. Cat's Cradle. New York, Avon, 1973.


# RESURS MƏHDUDLUĞU PROBLEMİNİN HƏLLİNİN DÜNYA MİQYASINDA ALTERNATİV YOLLARI

**Xədicə Ələkbərova**
Azərbaycan Universiteti
khadija.alakbarova@au.edu.az

Dünyada demoqrafik artım, təbii ehtiyatların ifrat istismarı, qlobal iqlim dəyişikliyi kimi tendensiyaların baş verməsi resursların ən qısa zamanda əvəzlənməsi yollarının axtarılması problemini aktuallaşdırır. Belə ki, 2050-ci ilədək dünya əhalisinin 33 faiz artacağı, başqa sözlə, 10 milyarda çatacağı təxmin edilir. Bu o deməkdir ki, əhali artımı qidaya olan tələbatı da artıracaq, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə fermerlər 2050-ci ilə qədər artan tələbatı qarşılamaq üçün 70 faiz çox ərzaq istehsal etməli olacaqlar.

Digər tərəfdən də dünyanın əkin sahələri getdikcə istehsal üçün yararsız vəziyyətə düşmüş, belə ki, bütün əkinə yararlı sahələrinin 25%-i yüksək dərəcədə, digər 44% isə orta və ya kafi dərəcədə deqradasiyaya uğramış kimi qiymətləndirilir. Eyni zamanda su ehtiyatları da getdikcə tükənən vəziyyətə gəlmiş və hazırda dünya əhalisinin 40 faizindən çoxu məhz su qıtlığı ilə üzləşən ərazilərdə məskunlaşmış kənd əhalisinin payına düşür. 2050-ci ilədək təkcə inkişaf etməkdə olan ölkələrdə suvarma sisteminin reinvestisiyasına 1 trilyon dollar maliyyə vəsaiti tələb olunur.

Son 50 ildə kənd təsərrüfatı məqsədilə meşələrin qırılması, torpaqların səmərəsiz istifadəsi və tullantıların ifrat dərəcədə ekologiyaya atılması nəticəsində istixana qazlarının emissiyası iki dəfəyə yaxın artaraq qlobal istiləşməni sürətləndirmişdir. Qlobal istiləşmənin yol açdığı iqlim dəyişikliyi isə bəzi ərazilərdə yağıntıların miqdarını artıraraq daşqınlara,bəzi yerlərdə isə əksinə quraqlığı

intensivləşdirərək məhsuldarlığın azalmasına səbəb olmuşdur. Beləliklə də bütün bu tendensiyalar artan dünya əhalisinin tələbatını ödəməyə mane olan başlıca ünsürlərə çevrilmişdir.

Yuxarıda sadalanan problemlərin həlli üçün bütün dünya ölkələrində, xüsusilə də inkişaf etmiş ölkələrdə ən optimal yol kimi resursların əvəzlənməsini təmin edən yeni texnika və texnologiyalarının tətbiqi uyğun görülmüşdür. Ehtiyatların effektiv istifadəsinə yönəldilmiş bu cür yeni texnikalara nümunə olaraq hidroponiks, neft mənşəli plastikin üzvi mənşəli plastik materiallarla əvəz olunması, səhra təsərrüfatı, yosun təsərrüfatının qurulması, dəniz suyu ilə yetişdirilən kənd təsərrüfatının yaradılmasını misal göstərmək olar. Bu texnikaların tətbiqi ilə resurlar necə əvəzlənir, onların hər biri haqqında qısaca məlumat verək.

Məsələn; hidroponik üsulu 95% suya qənaət etməklə, torpaqdan ümumiyyətlə istifadə etmədən bitkilərin yetişdirilməsinə imkan verən yeni üsuludur. Belə ki, bu üsul cəmi 5% sudan istifadə edilərək, bitkilərin kökünü mineral qida maddələri ilə zənginləşdirilmiş məhlulda saxlayaraq onların qısa vaxt ərzində böyüməsinə şərait yaradır və ənənəvi təsərrüfatla müqayisədə 390 dəfə daha çox məhsuldarlığa nail olmağa imkan verir.

Hazırda dünyanın qabaqcıl ölkələrində yosun təsərrüfatının qurulmasına da xüsusilə əhəmiyyət verilir. Belə ki, yosun ekstarktından hazırlanan yağlar gələcəkdə ənənəvi yanacaq mənbələrini əvəz edə biləcək yaxın alternativ kimi qiymətləndirilir. Həmçinin yosunun çox miqdarda karbon qazını qəbul edib, atmosferə daha oksigen buraxması xüsusiyyətinə malik olması onun qlobal istiləşmənin qarşısını alacaq əsas mənbələrdən birinə çevrilməsi deməkdir.

Səhrada kənd təsərrüfatının qurulması ilə bağlı tədqiqatların aparılmasında lider olan KAUST tədqiqat mərkəzi isə səhra mühitinə uyğunlaşa bilən, kökü ilə xüsusi mikrob ifraz edərək susuzluğa və istiyə dözümlü olan geni dəyişdirilmiş bitki növlərini çoxaldaraq səhraların yaşıllaşması problemi üzərində ciddi işlər görür.

Dəniz suyu ilə yetişdirilən kənd təsərrüfatının qurulmasında isə əsas məqsəd duzlu su ilə suvarıldığı halda belə yüksək məhsuldarlıq əldə etməyə imkan verən, geni modifikasiya olunmuş bitkilərin inkişaf etdirilməsidir. Bu metodla qlobal istiləşmə nəticəsində qurumaqda olan qıt şirin su ehtiyatlarına kifayət qədər qənaət olunması gözlənilir.

Dünyanın inkişaf etmiş ölkələrində bügün kifayət qədər uğurla tətbiq olanan texnologiya kimi vertikal kənd təsərrüfatını da qeyd etmək lazımdır. Bu texnologiya Avropada bahalı və məhdud resurs sayılan torpaq sahələrinə qənaət etmək üçün yaradılmışdır. Belə ki, vertikal, çoxmərtəbəli laylarda hidroponiks üsulu üzərində qurulan bu cür kənd təsərrüfatı müəssisələri şəhərlərdə yaşayış binalarının altında belə rahatlıqla yerləşdirilməklə loqistika xərclərinə qənaət edir və tez xarab olan kənd təsərrüfatı məhsullarının birbaşa süfrəyə çatdırılmasını təmin edir. Həmçinin bu texnologiyada günəş şüalarını əvəzləyən ultrabənövşəyi led işıqların tətbiqi kənd təsərrüfatının təbiətdən asılılığını azatmaq üçün də çox effektivdir.

Beləliklə, dünya təcrübəsində ənənəvi resursları əvəzləyən bu cür yeni texnika və texnologiyaların tətbiqi kifayət qədər məhsuldarlıq əldə etməyə imkan verərək dünya əhalisinin durmadan artan tələbatını ödəyəcək və gələcəkdə yeni resurs mənbələrinin aşkarlanması üçün perspektivlər yaradacaq.

**Açar sözlər:** məhdud resurslar, qıt təbii resurslar, qlobal tendensiyalar, qlobal problemlər, bərpa olunan resurslar, yeni texnologiyalar, yeni texnikalar, iqlim dəyişikliyi.

**Ədəbiyyat**


1. The future of food and agriculture ,trends and challenges (Food and Agriculture Organization of the United Nations Rome, 2017).
2. Agriculture 4.0: The future of farming technology Matthieu De Clercq, Anshu Vats, Alvaro Biel February 2018.
3. The Future Challenges of Food and Agriculture: An Integrated Analysis of Trends and Solutions, Alessandro Flammini, Stefania Bracco 1, Lorenzo Bellù, January 2019.
4. A guide to substitution, an information note from the UK chemicals stakeholder forum, August 2010.
5. Global trends and future challanges for the work of the organization 2010.
6. The limits to substituion : Meta – resources depletion and new economic –ecological paradigm Ecological Economics. 9-16 Elsevier Science Publishers B.V., Amsterdam - Printed in The Netherlands 9.


## О МЕТОДАХ И РЕШЕНИЯХ АУТЕНТИФИКАЦИИ ЛИЧНОСТИ

**Риад Алекберзаде**
Азербайджанский Медицинский Университет
aiiamu@mail.ru

Рост интереса к биометрии связан с тем, что с её помощью возможно идентифицировать человека с помощью его же биологических данных. В последние годы необходимость в точной идентификации в местах скопления людей при контроле пропусков, при сверке документов стала очевидной. Всё это касается безопасности транспортных, а также паспортных, визовых, таможенных систем государственных служб и межгосударственных отношений. Ввиду недостаточности обычных методов контроля стало необходимым использование биометрических технологий, позволяет проверять и идентифицировать личности большого количества людей, проходящих через точку контроля [1].

Биометрические технологии используют автоматические или автоматизированные методы распознавания личности человека по его биологическим характеристикам или особенностям. Основные методы - распознавание по отпечатку пальца, по изображению лица (двухмерному 2D или трехмерному 3D) и по радужной оболочке глаза [2].

Качественными показателями функционирования алгоритмов биометрической идентификации служат 2 значения: FAR (False Acceptance Rate) и FRR (False Rejection Rate). FAR - достоверность ошибочного распознавания, то есть достоверность того, что система перепутает две личности, распознав “чужого” как “своего”, а FRR - достоверность ошибочного нераспознавания, т.е. того, что система не распознаёт “своего” субъекта. На

практике же наблюдается, что уменьшение FAR всегда приводит к увеличению FRR [3]. Эти показатели меняют значения в зависимости от погрешности тестирования.

**Ключевые слова:** Биометрические технологии**,** методы распознавания, идентификация, качественные показатели.

**Литература**


1. Вакуленко А., Юхин А. Биометрические методы идентификации личности: обыкновенный выбор, Сб. науч.трудов I Международной научно-практической конференции "Мировой опыт применения биометрических решений". К.: "Информация-Украина", 2006, с. 79–82.
2. Животовский Л.А. Популярная биометрия. М.: Наука, 2011, 287 с.
3. Чернявский Ю.А. Способы анализа качественных характеристик автоматизированных дактилоскопических идентификационных систем. М.: Политехник, 2004, 315 с.


**Şəxsin autentifikasiya üsulları və həlləri haqqında**

Biometrik texnologiyalar insanın şəxsiyyətini bioloji xüsusiyyətləri və ya əlamətləri ilə tanımaq üçün avtomatik və ya avtomatlaşdırılmış üsullar kimi başa düşülür. Biometrik texnologiyaların istifadəsi, nəzarət nöqtəsindən keçən çox sayda insanın şəxsiyyətini yoxlama imkanını verir. İşimizdə biometriyanın aktiv istifadə olunduğu sahələr və yeni istiqamətləri vurğulanır. Texnologiyanın dəqiqlik göstəriciləri nəzərdən keçirilir: biometrik identifikasiya alqoritmlərinin fəaliyyət keyfiyyət göstəriciləri.

## ETİK FİKİR VƏ ONUN TARİXİ MAHİYYƏTİ

**Hümbət Əliyev**
Azərbaycan Universiteti
humbat.aliyev@student.au.edu.az

Etika yunan sözü "Ethos" sözündən olub əxlaq haqqında elmdir. Etik fikirin inkişaf tarixi qədim dövrdən başlayaraq günümüz dövrünə kimi inkişaf etməkdə və formalaşmaqdadır. Çünki etik fikirlər tarix boyu yaşamış fəlsəfə şirlərinin, yəni filosoflarının yaşadığı dövr üçün mərhələlər adlamış və müxtəlif fikirlərin sintezində öz sözünü demişdir. İlk filosoflardan Aristotel etika anlayışından istifadə etmişdir. Təsadüfü deyildir ki, ondan sonra dünyaya göz açmış filosoflar, xüsusi ilə Şərq alimləri onu "İlk Müəllim Aristotales" adlandırmışdır. İlk dəfə mənəviyyat haqqında təlimi "etika" adı ilə Arsitotel adlandırıb. Adi əxlaqi şüurdan fərqli olaraq etika cəmiyyətin mənəvi-nəzəri fəaliyyətinin məhsuludur. Etikanın vəzifəsi insana praktik olaraq mənəvi məsələlərin həllində köməklik göstərmək idi (necə hərəkət etməli, xeyir nədir? şər nədir? və s.). Bu səbəbdən də hələ qədim dövrlərdən etikaya həm də "praktik fəlsəfə" deyirdilər. Etika, humanitar fənlərdən biri olaraq, borc, xeyir və şər, eləcə də digər kateqoriyaları ideal şəklində, davranışın əxlaqi prinsiplərini və

normalarını, insanın müqəddəratı haqqında təlimi, həyatın mənasını təhlil edir. Etikada iki qrup problem fərqləndirilir:

1. İnsan necə hərəkət etməlidir (normativ etika);
2. Əxlaqın mənşəyi və mahiyyəti ilə bağlı olan nəzəri məsələlər (nəzəri etika)

Yəni burada araşdırmalı 2 əsas məsələ var. Birinci məsələdə insanın etməli olduğu hərəkətlər, yəni "özünü aparmaq" qabiliyyəti müzakirə olur. Bu normativ etika adlanır. İkinci məsələ etikanın inkişafı üçün lazım olan biliklərin sistemləşdirilməsi və nəzəri hala salınması. Bu isə nəzəri etika adlanır. Onu da vurğulayaq ki, etika insanın digərləri ilə münasibətləri nəticəsində formalaşan, ya da formalaşdırmalar nəticəsində yaranan münasibətlərdə istifadə olunan alətlərə görə etika praktiki olur. Praktikadan yaranan etika sonradan nəzəriyyələşə və bu sırada yeni fikirlər irəli sürə bilər.

Etik fikrin inkişafında qərb sivilzasiyasının yetirmələrindən başqa şərqli alimlər də öz sözünü deyərək bu mühim sahədə rol oynamışlar. Bunlardan biri elm sahibi olan, Azərbaycanın yetirməsi, riyaziyyatçı, astronom, Hülaki xanın məsləhətçisi, Hülakü xanı rəsədxana tikmək üçün sövq edən, Qazan xanın vəziri olmuş Nəsrəddin Tusidir. Onun Azərbaycan elminə, xüsusilə astronomiya sahəsindəki araşdırmalara qatqısı böyük olmuşdur. Belə ki, o, Hülakü xanı razı salaraq Azərbaycanın Marağa şəhərində öz dövrünə qədər İslam coğrafiyasında tikiləcək ən böyük rəsədxananın inşası üçün maddi qaynaq təmin edə bilmişdi. Rəsədxananın çox xərc aparması Hülakü xanı təəccübləndirirdi. O, bu qədər xərclə ordunu və ya dövləti başqa cəhətdən gücləndirməyi daha məqsədəuyğun sayırdı. Tusi, Hülakü xanın: "Bu qədər xərc nəyə lazımdır?" sualına qaneedici cavab vermək üçün onu şəhərdən kənara gəzintiyə dəvət edir. Bu zaman o istəyir ki, dağın başından bir mis qazanı aşağı dığırlasınlar. Xanı da bundan xəbərdar edir. Bu mis qazan dağ aşağı yuvarlanarkən çox böyük gurultu salır və bu səsi eşidənlər vahimə içində qaçıb canlarını qurtarmağa çalışırlar. Tusi isə Hülakü xandan insanların qorxub qaçma səbəbini soruşur. Xan deyir ki, səbəb bizə bəllidir. İnsanların isə bundan xəbəri yoxdur. Ona görə də biz sakit və rahat dayanmışıq. Bundan sonra Nəsrəddin Tusi xana deyir: "Hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimiz üçün burada sakitcə əyləşmişik. Qoşun isə bunu bilmədiyi üçün həyəcan içindədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini əvvəlcədən bilsək, yer üzündə həmişə sakit yaşayarıq". Cavab hökmdarın xoşuna gəlir və rəsədxananın inşasına başlanılır. Hülakü xan rəsədxana inşası üçün 20 min dinardan çox pul ayırır. Rəsədxananın inşası 1259-cu ildə tamamlanmışdır. Marağa rəsədxanası 7 Elxanlı hökmdarının dövründə 53 il fəaliyyət göstərmişdir.

Onun əxlaq elminə öz yanaşması olmuşdur. Belə ki, qələmə aldığı "Əxlaqi-Nasiri", əxlaqı saflaşdırılması məsələləri xüsusi önəm kəsb edən əsas problemlərdən olmuşdur. Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" kitabında Nəsirəddin Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürləri, etik-fəlsəfi fikirləri yer alıb. Kitab müasir cəmiyyət həyatında aktuallığını itirməyən mövzulara diqqət çəkmək baxımından müstəsna əhəmiyyət daşıyır. O, öz əsərində əxlaq etikası, elmi etika, riyazi etika, idrak etikası kimi mövzulara toxunmuşdur. Yəni bu onun göstəricisidir ki, Tusi etika mövzusunu nəzəriyyələşdirməyə çalışmaqla bərabər həm də onu elmiləşdirmişdir. Ondan sonra xeyli müddət əxlaq, etika fikirlərinə toxunan "Əxlaqi-Nasiri" əsəri Şərq mədrəsələrində dərslik kimi istifadə olunmuşdur.

Etika və estetika kimi mühim dəyərlərdən bir çox peşə sahibləri xüsusilə faydalanmalıdırlar. Hər bir insan bir fərd kimi etik-əxlaqi fikirlərə sahiblənməli, digərlərinə də hörmətlə yanaşmalıdır. Bu dəyərlərə sahib olan müstəsna peşələrdən biri də sosial iş peşəsidir. Çünki empatiya dolu olan bu peşədə əsas məsələ əhalinin həssas qrupları ilə işləməli, özünü onların yerinə qoyaraq empatik münasibət sərgiləməlidir. Etik fikir də bunların başında gəlir ki, bu fəaliyyət qəbul edilmiş etika çərçivəsində olmalıdır ki, kimsə inciməsin. Bu dəyər və prinsiplərin bəziləri:

-Şəxsiyyətə hörmət

-Stiqmalardan uzaq durmaq

-Qınamama, mühakimə etməmə

-Öz müqəddaratını təyin etməyə icazə

-İnsan hüquq və azadlıqlarına hörmət

-Resursların bərabər bölüşdürməsi

-Ayrı-seçkiliyin edilməməsi və s.

**Açar sözlər:** etika, fəlsəfə, tarix, estetika.

## Ədəbiyyat

1. Məmmədbəyli H., Məhəmməd Nəsirəddin Tusi, Bakı, 1968, səh 92.
2. Hacıyeva N., Estetika, Peşə Etikası və Psixologiya, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2012, 128s.
3. Nəsirəddin Tusi, Əxlaqi-Nasiri, Bakı, Nəşr tarixi 2021, tərcümə edən: Rəhim Sultanov, "Dan Ulduzu" nəşriyyat, səh 400.
4. Ağayeva K.C. Etika və Gendet: Sosial-Əxlaqi Davranışın təhlili, Bakı, 2007, s.196.

# QARABAĞA İNVESTİSİYA QOYULUŞLARININ TƏHLİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Aytac Əliyeva**
Azərbyacan Universiteti
haciyeva.a.f@gmail.com

Hazırki şəraitdə işğaldan azad edilmiş ərazilərin, xüsusilə Qarabğın bərpası və quruculuq işləri daimi dövlətin diqqət mərkəzindədir. Bu işləri müvəffəqiyyətlə yerinə yetirmək üçün Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi,bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın,səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu” yaradılıb.Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yeindən qurulması,habelə dayanıqlı iqtisadiyyatın təmin edilməsi üçün bir vasitədir. Belə ki, 2021-ci ilin dövlət büdcəsindən ayrılan 2.2 milyard manat vəsait ilə yanaşı dövriyyəyə cəlb olunmaqla milli sərvət-torpaq, meşə, su, faydalı

qazıntılar, əmlak və mədəni sərvətlər kapitalının həcmini- əsas fondları artırır. Bütün bunlardan səmərəli istifadə Qarabağın davamlı inkişafını təmin edəcəkdir.

Davamlı sosial-iqtisadi inkişaf şəraitində Qarabağın bərpası ilə əlaqədar qarşıya mühüm vəzifələr oyulmuşdur. Hazırda İqtisadi İnkişaf Nazirliyi bu vəzifələrlə əlaqədar, Qarabağın bərpası və inkişaf istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də, qeyri-neft sektoruna yeni, yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradılacağını qeyd etmişdir.

Bu işlərin görülməsi zamanı dövlət vəsaitinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə yol-nəqliyyat, kommunal infrastrukturu, ənənəvi və alternativ enerji istehsalı, miqrasiya və melarasiya sisteminin çəkilməsi və sair sahələr üzrə investisiya sahələri həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlarından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiq olunması məqsədəuyğun hesab edilməsinə diqqət yetirilmiş və davamlı inkişaf xarakterizə edilmişdir.

Prezident İlham Əliyev erməni vandalizmindən danışarkən qeyd etmişdir ki, işğaldan azad edilmiş rayonlarda 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə-yaşayış evləri və inzibati binalarla yanaşı, 700 tarixi-mədəni abidə, 927 kitabxana, 800 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, ümumilikdə, 100 000 artefaktın saxlandığı 22 muzey, 4 rəsm qalereyası, 4 kinoteatr, 2 konsert zalı məhv edilmişdir. Bunların bərpası üçün tələb olunacaq milyardlarla investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir [10].

Hazırda günəş və külək enerjisi potensialının səmərəli istifadəsini təmin etmək üçün 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması mühüm vəzifə olaraq müəyyənləşdirilib. Həmçinin 2030-cu ilədək təqribən 1500 meqavat həcmində yeni gücün istifadə verilməsi nəzərdə tutulub. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşması planlaşdırılır.Bununla yanaşı,bu sahədə pilot layihələrin də həyata keçirilməsinə başlanıb.Ötən ilin dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığının “ACWA POWER” şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisi ilə bağlı müqavilə imzalanıb.Layihənin reallaşdırılmasının ümumilikdə 300 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu,il ərzində isə 1 milyard kilovat saata yaxın enerjisinin istehsalı nəzərdə tutulub [8].

Hazırda Kəlbəcər və Laçın rayonlarında külək enerjsinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox günəş enerjsiinin böyük potensialı mövcuddur.Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonunda dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovatlıq şəbəkənin yaradılacağı nəzərdə tutulub. Eyni zamanda “Xudafərin” və “Qız qalası” su elektrik stansiyalarının inşası da nəzərdə tutulmuşdur [8].

Ümumiyyətlə, Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlərin” təsdiq edilməsi haqqında sərəncamda qeyd edilir ki, əldə edilən iqtisadi üstünlük hər şeydən öncə, Qarabağın mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş şərait yaradacaqdır [2].

**Açar sözlər**: İnvestisiya qoyulaşları, investisiyanın maliyyələşmə mənbələri, investisiya siyasəti.

**Ədəbiyyat**


1. Abbasov İ.M. Audit. Dərslik. 2007 Bakı, s.530.
2. Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlər, 2021, Bakı.
3. Əliyev R., Məmmədov M., Novruzov N. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. 2005. Bakı, s.355.
4. Hacıyev F.Ş. Auditdə iqtisadi təhlil. Dərs vəsaiti. 2018 Bakı, s.410.
5. Hacıyev F. Ş. İdarəetmə təhlili, Dərslik. 2020, Bakı, s.320.
6. Hacıyev F. Ş. Audit. Dərslik. 2021 Bakı, s.350.
7. Xalq qəzeti, 06 Fevral 2021- ci il.
8. Xalq qəzeti, 12 Fevral 2022 –ci il.


## EKSPRESS MARŞRUT XƏTLƏRİNİN TƏŞKİLİ VƏ İQTİSADİ ƏSASLANDIRILMASI

**Aytən Əliyeva**
Azərbaycan Texniki Universiteti
ayten.ali@aztu.edu.az

Əhalinin əksəriyyəti tərəfindən istifadə üçün nəzərdə tutulan nəqliyyat vasitəsi şəhər sərnişin nəqliyyatı, başqa bir adla isə ictimai nəqliyyat adlanır. Şəhər sərnişin nəqliyyatı insanların kütləvi daşınması üçün nəzərdə tutulmuş, ödənişli əsaslarla işləyən bir nəqliyyat vasitəsidir [1]. Bir insanın həyatını şəhər nəqliyyatı olmadan təsəvvür etmək çətin, hətta qeyri-mümkündür. Gün boyunca, əsasən də günün pik saatlarında nəqliyyatın hərəkətində bir sıra sıxlıqlar yaranır. Bu isə avtobusların uzun müddət tıxacda qalmasına, avtobuslararası hərəkət intervalının pozulmasına səbəb olur. Bu zaman dayanacaq məntəqələrində gözləyən sərnişin sayı artır və avtobuslarda sərnişin sıxlığı yaranır. Belə bir halda, ekspress marşrutlarının təşkili məsələsi ortaya çıxır. Ekspress avtobuslar iki məntəqə arasında ekspress xidməti təşkil etməyin ən ucuz yoludur. Ekspress marşrut yaratmaq üçün infrastrukturu təkmilləşdirmək lazım deyil, sadəcə marşrut üçün ərazilər ayırmaq lazımdır. Lakin bəzən avtobusların sürətini artırmaq üçün yolun örtüyünü yaxşılaşdırmaq lazım gəlir. Bir qayda olaraq, böyük şəhərin iki rayonu arasındakı aralıq dayanacaqları keçərək sərnişin daşınması üçün iki qəsəbə irəli çəkilir. Pulsuz ekspress avtobuslar da vardır ki, onlar bəzən özəl şirkətlər tərəfindən təşkil edilir, misal olaraq, biznes mərkəzlərinin, hipermarketlərin, ticarət mərkəzlərinin işçilərini və qonaqlarını metroya və ya şəhərətrafı qatar stansiyasına çatdırmaqlarını qeyd etmək olar [4]. Başqa bir misal olaraq, şanlı ordumuz tərəfindən işğaldan azad olunan, 44 gün davam edən Qarabağ torpaqlarına jurnalistlərin, xarici səfirliklərin, nümayəndə heyətlərinin səfərlərinin təşkilini də

göstərmək olar. Bu avtobuslar ekoloji baxımdan əhəmiyyətlidir, çünki onlar sıxılmış təbii qazla işləyir.

Koronavirus (COVİD-19) pandemiyası dövründə bu tip marşrutlara metro stansiyalarının bağlanması ilə bağlı böyük ehtiyac hiss olunmuşdur. Ekspres marşrutları Bakı Nəqliyyat Agentliyi tərəfindən istifadəyə verilmişdir. Bu ekspress avtobus xətləri metro stansiyaları arasında müəyyən edilmiş marşrut əsasında təşkil olunmuşdur. Ekspress xətlərə M1, M2, M3, M4, M5, M6, M7, M8, M1A, M2A nömrəli marşrut xətlərini misal göstərmək olar [2]. Bu marşrut xətlərinin üstün cəhətlərinə misal olaraq, qarşısında heç bir maneə olmadan yolun xüsusi ayrılmış zolağı ilə hərəkət etməsini qeyd etmək olar. Avtobusların digər üstün cəhətlərindən biridə odur ki, onların pilləkənləri yoxdur. Bu da sərnişinlərin rahatlığı və təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyır. Ekspres marşrut xətlərinin təşkilində EURO 6 standartlarına uyğun “BakuBus” MMC-nin istismarında olan Fransa istehsalı 151 İveco Grealis və 151 İveco Urbanway markalı avtobuslardan istifadə olunur. Onların uzunluğu 12.3 metrdir [3]. Nəqliyyat vasitələrinin salonunda 5, xaricində isə 3 təhlükəsizlik kamerası quraşdırılıb. Həmçinin, avtobusda havalandırma sistemi və iqlim-nəzarət sistemi də mövcuddur. Bu nəqliyyat vasitələrində gediş haqqı vahid ödəmə kartı vasitəsi ilə aparılır.

Ümumiyyətlə, ekspress marşrutların təşkilinin təkmilləşdirilməsinə hələ də ehtiyac var.

Belə marşrutların tərtibində texniki istismar göstəriciləri hesablanmalı, sərnişin axını tədqiq olunmalı və həmin marşrutlarda uyğun hərəkət tərkibi seçilməli, həmçinin əhaliyə nəqliyyat xidmətinin keyfiyyəti yüksəldilməlidir.

Gələcəkdə yeni bir marşrut xətti kimi avtovağzaldan Ələt ərazisindəki dəniz limanına ekspress marşrut xəttini layihələndirmək olar.

**Açar sözlər**: yol, marşrut, iqtisadiyyat.

## Ədəbiyyat

1. https://scootforward.ru/az/sheriff/vidy-gorodskogo-nazemnogo-transporta-i-osobennosti-peredvizheniya/
2. https://bna.az/az/news/1104
3. https://mobility.tamu.edu/mip/strategies-pdfs/system-modification/technical-summary/Express-Bus-Service-4-Pg.pdf
4. https://ru.wikipedia.org/wiki/%D0%AD%D0%BA%D1%81%D0%BF%D1%80%D0%B5%D1%81%D1%81

# MORPHO-SYNTACTICAL ASPECTS OF DETERMINATION IN RUSSIAN WITH AZERBAIJANI EQUIVALENTS

**Shalala Aliyeva**
Azerbaijan University of Languages
shalalahaliyevah@gmail.com

It is evident that the Russian language lacks the part of speech called article, i.e., in Russian semantic antithesis (contrast) like definiteness and indefiniteness are not expressed by means of appropriate morphological categories. However, the means of expression of such conceptual categories is not a unique means.

In Russian the notion of determination has some aspects, such as situative, macrosyntactical, morphosyntactical, grammatical, logical-semantic, lexical, categorical-syntactical aspects. So, linguistic determination in Russian has 3 syntactical aspects: macro-syntactical, morphosyntactical and categorical-syntactical aspect.

The investigation of determination in this thesis is carried out by using language units of two languages belonging to two different language families: Russian to Slavic languages family and Azerbaijani to Turkic languages family. In this respect, language units analysed here are not and can not be the same, since the both languages have different language systems, grammatical categories, etc. So, determination is expressed by different language elements, which might not exist in the other language.

In Russian morpho-syntactical means of expression of determination are:

intonation; word order; government; agreement.

In S.Krilov's "Noun determination in Russian: theoretical problems" book the difference between the referential status of determination (definiteness and indefiniteness categories, actual division of the sentence (presumption / information, .... "prologue / culmination) and morpho-syntactical means (morpho-syntactical emphaticness / non-emphaticness, preposition / postposition) are analysed [1, s. 62].

In comparison with the Russian language, morpho-syntactical aspects of determination in the Azerbaijani language are expressed by the following means: agreement and government [3, s. 195]. Agreement includes the following cases.

1) In the second type of attributive expressions (ikinci növ təyini söz birləşmələri – Sh.A.) the first element is usually expressed by the noun in the third person, the second element agrees with the first one in person taking the flexion of that possession.

E.g. *gül toxumu (flower seed), uşaq geyimi (child dress)*.

2) In the third type of attributive expressions the first element may be expressed by all three persons *(mənim, sənin, onun, bizim, sizin, onların)*, the second element usually agrees with the first element in person and number.

*E.g. mənim kitabım (my book) sənin kitabın (your book), onun kitabı (his book) bizim kitabımız (our book), sizin kitabınız (your book), onların kitabları (their book).*

Morpho-syntactical aspects of determination in the Azerbaijani language can also be expressed by means of government, i.e. by case forms of the nouns.

E.g. *evin qapısı (the door of the house), kitabın səhifələri (the pages of the book), etc*.

In government the second element (the dependent one) usually takes the corres-ponding inflexions (genitive case inflexions, inflexions denoting possession) [2, s. 245].

Indirect participation of government relation in the expression of determination in the Russian finds its reflection in the case opposition.

E.g. *«выпил коньяк / выпил коньяку»* - *"konyak içdi / konyakdan içdi", «у нас гости не были / у нас гостей не было»* - *"qonaqlar bizdə olmadılar / bizdə qonaq ol-madı", «он не видел стулья / он не видел стулей»* - *"o stullar görmədi / o stulları görmədi".*

Non participation of the governed word demands the use of zero pronoun in the meanings of definiteness (*«накануне»* - *"ərəfəsində"*), indefiniteness (*«вам отрежут голову»* - *"başınızı kəsərlər"*), generic (*«Цыплят по осени считают»* - *"cücəni payızda sayarlar"*) [1, s. 83].

So, the morpho-syntactıcal aspects of determınatıon in the investigated languages are not the same, as these languages belong to different language families and have different language systems.

**Keywords:** determination, syntactical, definiteness, indefiniteness, referential status.

## References

1. Krylov S.A. Morpho-syntactical mechanisms of expression of the category of determination in modern Russian. Division and usage of linguistic processors. Novosibirsk, 1983, 128 p.
2. Kazimov Q.S. Modern Azerbaijan language: Syntax. Baku: Education publishing house, 2007, 496 p.
3. Seyidov Y. Grammar of the Azerbaijan language: Morphology. Baku, BSU press, 2000, 370 p.

## Rus dilində determinasiyanın morfo-sintaktik aspektləri və onların Azərbaycan dilindəki ekvivalentləri

Rus dilində determinasiya anlayışı bir sıra aspektləri özündə birləşdirir. Onlar situativ, makro-sintaktik, morfo-sintaktik, qrammatik, məntiqi-semnatik, leksik və s. əhatə edir. Rus dilində determinasiyanın morfo-sintaktik vasitələr aşağıdakılardan ibarətdir: intonasiya, söz sırası, idarə əlaqəsi və uzalaşma əlaqəsi. Rus dili ilə müqayisədə, Azərbaycan dilində determinasiyanın morfo-sintaktik vasitələri yalnız uzalaşma və idarə əlaqələrini özündə birləşdirir.

# GƏLİRLƏRİN, XƏRCLƏRİN VƏ MƏNFƏƏTİN TƏHLİLİ METODIKASI

**Anar Əlizadə**
Azərbaycan Universiteti
anaranarrr@gmail.com

Gəlirlər və xərclər mənfəətin ölçülməsi ilə bağlı olan elementlərdir. Gəlirlər və xərclərin müəyyən olunması əslində mənfəətin müəyyən olunması deməkdir.

Gəlir – hesabat dövrü ərzində aktivlərin gəlməsi və onların artması, yaxud öhdəliklərin azalmasıdır. Bütün bunlar da kapitalın artması ilə ifadə olunur.

Gəlirlərin tərkibinə aşağıdakılar maddələr daxildir:

1. Əsas əməliyyatlardan (satışdan) gələn gəlirlər
2. Sair gəlirlər (satışdan kənar)
3. Fəaliyyətin dayandırılmasından gələn gəlirlər
4. Maliyyə və fövqəladə gəlirlər

Kommersiya təşkilatlarında əsas əməliyyat gəlirləri satışdan gələn gəlirlərdir. Buna da əsasən aşağıdakılar daxildir:

1. Satışdan gəlirlər.
2. İşlərin görülməsindən gəlirlər
3. İcarədən gəlirlər və s

Satışdan gənar (sair əməliyyat) gəlirlərin tərkibinə isə aşağıdakılar daxildir:

1. Uzunmüddətli aktivlərin satışından gələn gəlirlər
2. Cərimələr üzrə gəlirlər
3. Yenidən qiymətləndirmədən gələn gəlirlər və s

Xərclər – hesabat dövrü ərzində aktivləri getməsi və ya öhdəliklərin azalmasıdır. Bu da kapitalın azalmasına səbəb olur. Xərcin əsas şərti istifadə və istehlak hesab olunmalıdır. Xərclənən pul digər bir aktivlə əvəz olunubsa o zaman bu məsrəf adlanır.

Kommersiya təşkilatlarında xərclərin tərkibinə aşağıdakı məsrəflər aiddir:

- Əmək haqqı xərci
- Amortizasiya xərci
- Material xərci və s

Xərclərin təyinatına görə təsnifatı aşağıdakı formadadır:

- Satışın maya dəyəri
- Satışa çəkilən xərclər
- İnzibati xərclər
- Sair xərclər

Şirkət fəaliyyətinin nəticələrinin müəyyən edilməsi və onun qiymətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Şirkət fəaliyyəti nəticələri mənfəət və ya zərərlə müəyyən olunur. Şirkət

fəaliyyətinin nəticələri şirkətin pul axınları yaratmaq qabiliyyətinin olub olmamasını proqnozlaşdırmaqdan ötrü mühüm əhəmiyyət kəsb edir.

Mənfəətin ölçülməsi ilə əlaqədar olan maliyyə hesabatı elemetləri – gəlir və xərclərdir.

Maliyyə nəticələrini təhlil etmək üçün tədqiqatçılar tərəfindən bir çox metodikalar müəyyənləşdirilmişdir. Maliyyə nəticələrinin təhlili metodikası onun həyata keçirilməsinin məqsədləri və vəzifələri ilə müəyyən edilir.

O.V. Efimovaya görə maliyyə nəticələrinin xarici təhlilinin aparılması iki mərhələni əhatə etməlidir. Birinci mərhələdə analitikin müəssisədə gəlir və xərclərin formalaşması prinsipləri haqqında dəqiq təsəvvürləri formalaşdırılmalı, ikinci mərhələdə isə mənfəət və zərər hesabatı təhlil olunmalıdır.

A.D. Şeremet ardıcıllıqla mənfəət və gəlirlilik təhlilinin aparılmasını təklif etmişdir. Həmən ardıcıllıqlar uyğun olaraq aşağıdakılardır:

1. Maliyyə nəticəsi göstəricilərinin ilkin təhlili.
2. Maliyyə nəticəsi göstəricilərinin dərin təhlili.
3. İnflyasiyanın maliyyə nəticələrinə təsirinin təhlili.
4. Mənfəətin keyfiyyətinin təhlili.
5. Müəssisənin aktivlərinin rentabelliyinin təhlili və mənfəətin marjinal təhlili aparılır.

Q.V. Savitskaya aşağıdakı metodikanı formalaşdırmışdır:

1. Mənfəətin dinamikasının təhlili
2. Müəssisənin rentabelliyinin təhlili.
3. Satışdan əldə olunan mənfəətin təhlili
4. Gəlir və xərclərin təhlili.
5. Mənfəətin tərkibinin, onun strukturunun həyata keçirilməsinin təhlili
6. Mənfəətdən istifadənin təhlili

Bu metodika mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən istifadə oluna biləcək universal xüsusiyyətlərə malikdir

**Açar sözlər**: gəlir, xərc, mənfəət.

## Ədəbiyyat


1. Beynəlxalq Mühasibat Uçotunun Əsasları 2020.
2. https://www.muhasib.az/article.php?cat=2&n=802
3. AR Maliyyə Nazirliyinin rəsmi veb saytında dərc edilmiş materiallar.
4. Ефимова О.В. (2010), Финансовый анализ: современный инструментарий для принятия экономических решений: учебник, Москва.
5. Шеремет А.Д., Негашев Е.В. (2014), Методика финансового анализа деятельности коммерческих организаций, Москва, Инфра-М, 208 с.
6. Савицкая Г.В. (2002), Анализ хозяйственной деятельности предприятия: Учеб. пособие, Мн.: Новое знание, 704 с.

# NARKOTİK ASILILIQDA RİSK QRUPLARI

**İlkin Əlizadə**
Azərbaycan Universiteti
alizadeilkin01@gmail.com

Hər bir şəxsin asılı olma potensialı mövcuddur, lakin aparılan tədqiqatlar bəzi durumlarda asılılığın daha asan inkişaf etdiyinə diqqəti çəkir. Bu hallardan məlumatlı olmaq yaxınlarımızı və özümüzü qorumaq baxımından önəmlidir. Risk faktorlarını bilmək və bu mövzuda preventiv tədbirlər görmək həm ailənin, həm də dövlətin önəmli bir məsuliyyəti olmalıdır [2].

İnsanların narkotik maddə istifadəsinə başlamalarının səbəbləri müxtəlifdir. Əsasən, güvəndə hiss etmək, aid olduqları qrup üzvləri ilə ayaqlaşmaq, süni həzz, dost təsiri, yaşadıqları mənfi hadisələri unutmaq kimi hallar narkotik maddə istifadəsinə sövq edən amillərdir [1]. Aparılan bəzi tədqiqatlar isə, maddə asılılığında genetik təsirin olduğunu və müdaxilə edilmədiyi hallarda nəsillərarası transferin olduğunu ortaya çıxarmışdır [4]. Ümumi şəkildə desək, narkotik maddə asılılığına təsir göstərən risk faktorları bir və ya bir neçə səbəbin meydana çıxması ilə yarana bilir. Bu faktorlar psixoloji, sosial, ailəvi, qrupdaxili və mədəni xüsusiyyətlər olaraq təsnif edilir:

- Maraq və kəşf etmə hissi
- Dost və həmyaşıd təsiri
- Qrupun təsiri
- Hadisələrlə ayaqlaşa bilməmək hissi
- Özünütəsdiq və fərqli görünmə istəyi
- Təhsil nailiyyətlərində mənfiyə doğru dəyişikliklər
- Əmək fəaliyyəti və ya təhsillə məşğul olmamaq nəticəsində yaranmış və düzgün sərf edilməyən asudə vaxt [5]

Məhz sonuncu risk faktoru üzərində dayanıb, düşünməliyik. Rəsmi statistik göstəricilərə görə, ölkəmizdə:

- 2018-ci ildə narkotiklə bağlı cinayətlərin 86.2%-i
- 2019-cu ildə 70.3%-i
- 2020-ci ildə 70.9%-i
- 2021-ci ildə 74.4%-i [3]

heç bir yerdə işləməyən və oxumayan şəxslər tərəfindən törədilmişdir. Bu rəqəmlər risk faktoru kimi əmək fəaliyyəti və ya təhsillə məşğul olmamaq nəticəsində yaranmış və düzgün sərf edilməyən asudə vaxt arqumentini gücləndirir. Belə ki, bu kateqoriyalı şəxslərin digər fəaliyyətlərə sərf edə biləcəyi vaxt yetərli olur və xüsusilə gənclər özlərindən asılı olmayaraq maraq və məşğuliyyət axtarışı səbəbilə narkotik maddələr ilə tanış olurlar. Təəssüf ki, bu tanışlıq sonralar güclü bağa çevrilir və insan həyatının bütün sferalarına mənfi təsir göstərir.

Belə önəmli risk faktorundan qurtulmaq üçün kompleks yanaşma tələb olunur. Belə ki, məsuliyyətli ümumi orta təhsilin əlçatanlığının təmini, təhsilini bu və ya digər səbəbdən davam etdirə bilməyən şəxslərin peşə hazırlıqlarına cəlb edilməsi, özünüməşğulluq və könüllülük kimi faydalı işlərin geniş kütlələrə xitab etməsi əsasən, gənclərin deviant qruplara qoşula bilməsini fiziki olaraq çətinləşdirdiyindən yuxarıda qeyd etdiyimiz asılılıq risk qruplarından birinin payını önəmli dərəcədə azaltmağa qabildir.

**Açar sözlər**: Narkotik, asılılıq, gənclər, risk faktoru, asudə vaxt.

**Ədəbiyyat**

1. Amodeo M.. Lopez L.M. (2011). Social work interventions with alcohol and other drug problems. California: SAGE Publications.
2. Can F.Y. (2012), Bağımlılık hastalığının yinelenmesi. İstanbul: Kaknüs Yayınları.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı. (www.stat.gov.az).
4. Galvani S., Forrester D. (2009). Social work and substance use: teaching the basics. Higher Education Academy, SWAP.
5. Zastrow C. (2010), Sosyal hizmete giriş. Ankara: Nika Yayın evi.

## TİKİNTİ SEKTORUNA İNVESTİSİYA QOYULUŞLARININ İDARƏ EDİLMƏSİNİN İQTİSADİ MEXANİZMLƏRİ

**Şəhla Əlizadə**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
shehla80@outlook.com

Milli təsərrüfatın inkişafı və təkmilləşdirilməsi istiqamətində həyata keçirilən bir sıra mühüm tədbirlərlə yanaşı ölkəyə xarici investisiyaların cəlb edilməsi də önəmli addımlardan biri hesab olunur. Respublikamızın millli iqtisadiyyatında əsas istiqamətlərdən biri də investorlarla qarşılıqlı səmərəli investisiya proseslərini həyata keçirmək və onların ölkə ərazisindəki fəaliyyətini yüksək səviyyədə təmin etməkdir. Məhz bu səbəbdəndir ki, respublikamızda xarici investorların səmərəli fəaliyyət göstərməsi, hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra qanunvericilik aktları və hüquqi-normativ sənədlər hazırlanmışdır.

İllər keçdikcə cəmiyyətin sosial-iqtisadi ehtiyaclarını qarşılamaq, artan tələbatları ödəmək qarşıya əsas məqsədlərdən biri hesab olunan ölkənin istehsal imkanlarından və potensialından səmərəli şəkildə istifadə edilməsi məsələsini bir vəzifə kimi təyin edir. Makroiqtisadi göstəricilərin yüksək artı tempi ümumi daxili məhsulun formalaşması və istehsalında strateji sahələrlə yanaşı aparıcı sahələrin də rolunun artmasına gətirib çıxarır. Bu səbəbdəndir ki, milli təsərrüfatın təkmilləşməsi üçün müxtəlif və lazımi proporsiyaların, xarici investorların cəlb edilməsinin, onların

fəaliyyətinin dövlət tərəfindən təyin edilən qanunvericilik bazası ilə tənzimlənməsinin mühüm elmi-praktiki əhəmiyyəti vardır [4].

Tikintidə investisiya qoyuluşlarının idarə edilməsi və tənzimlənməsi üçün dövlət tərəfindən bir sıra müxtəlif metodlar və iqtisadi mexanizmlər işlənib hazılanmışdır. Qeyd olunan iqtisadi mexanizmlər tikinti sektorunda investisiya layihələrinin və proseslərinin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Bu iqtisadi mexanizmlərə aid etmək olar [1, 2]:

- Bu istiqamətdə dövlət tərəfindən xüsusi standartların və hüquqi normaların formalaşdırılması;
- İnvestisiya proseslərinin tənzimlənməsi zamanı mövcud olan resurslardan və imkanlardan standart istifadə şərtlərinin təyin olunması və səmərəli şəkildə istifadə edilməsi;
- Tikinti şirkətlərində hazırlanan investisiya layihələrinin həyata keçirilməsi zamanı ekspertiza komissiyalarının yaradılması və onların fəaliyyəti üçün səmərəli şəraitin formalaşdırılması;
- Amortizasiya və kredit siyasətinin həyata keçirilməsi;
- Düzgün qiymətqoyma siyasəti və mexanizmlərinin hazırlanması və tədbiqi;
- Vergi sisteminin tədbiqi nəticəsində vergi məbləğlərinin, dərəcələrinin, mövcud vergi güzəştlərinin miqadarının, vergitutma zamanı obyekt və subyektlərin düzgün fəaliyyət göstərməsini təmin etmək;
- Antiinhisar tədbirləri vasitəsilə müxtəlif tikinti şikətlərində sağlam rəqabətqabiliyyətinin formalaşdırılması və sağlam rəqabət mühitinin yaradılması;
- Özəlləşdirmə və dövlətsizləşdirmə təbirlərinin həyata keçirilməsi və digər tədbirlər.

Əsaslı tikinti sektorunda invesisiya qoyuluşları zamanı müxtəlif ekspertiza qruplarının yaradılması və ekpertiza aparılması əsas tənzimləmə metodlarından biri hesab olunur. Bu sahədə investisiyaların tənzimlənməsi üçün dövlət tərəfindən xüsusi norma və standartların yaradılması zərurət halını almışdır.

**Açar sözlər:** investisiya, tikinti, resurs, dövlət tənzimlənməsi, investisiya layihələri, mexanizm.

## Ədəbiyyat

1. “Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 17 mart 2010-cu il, № 239.
2. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 13 yanvar 1995-ci il, № 952.
3. İsayev S.Z. “İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi”, Bakı, 2011.
4. Nurəliyeva R.N., Abbasova N.H. İnvestisiya fəaliyyətinin təşkili, 2012.
5. http://www.e-qanun.az/framework/9367

# КЛИЕНТООРИЕНТИРОВАННОСТЬ ПОСРЕДСТВОМ СЕРВИТИЗАЦИИ

**Самед Ализаде**
Западно-Каспийский Университет
samed_alizade@yahoo.com

Сервитизация - это осознанная стратегия объединения производства и интегрированных маштабных и гибких предложений услуг для обеспечения устойчивой прибыли [2]. Развитие технологий способствует к изменениям в поведении потребителей, приводя к значительному изменению моделей потребления в целом ряде секторов рынка. Переход от владения к пользованию до сих пор был наиболее заметным среди более молодой группы потребителей.

Однако, ввиду того что, мобильные и всегда подключенные цифровые технологии становятся стандартными каналами связи между потребителями и компаниями эта тенденция набирает силу. Фокус продаж начинает смещаться, стирается грань между продуктами и услугами и, в конечном итоге, происходит смещение к ожиданию клиента, а не к средствам достижения этой цели.

Переход к передовым услугам требует от организаций изучения новых бизнес-моделей что также важно для лизинговых компаний, производителей, банков и поставщиков программного обеспечения.

Основными вызовами для сервитизации являются разработка стратегии, внедрение правильной организационной культуры для предоставления оцифрованных преимуществ клиентам, изменение корпоративной структуры и поиск путей эффективного перераспределения активов для поддержания и повышения остаточной стоимости и удержание клиентов за счет продолжительного использования им актива, а не повторного приобретения (Рисунок 1) [1].




**Рисунок 1.** Уровни сервитизации

В процессе сервитизации выявляются пять ключевых моментов;

- Проявляется повышенный спрос на услуги и результаты по сравнению с покупкой актива.
- Это изменение дает возможность фирмам получить преимущество первопроходца, на пути внедрения новых бизнес-моделей, инноваций и гибкости.
- Способность к оценке и управлению новыми видами рисков будет ключевой возможностью в этой области.
- Сервитизация предоставляет предприятиям возможность продемонстрировать, что они уделяют больше внимания вопросам экологии, устойчивости и развитию цикличной экономики.
- Сотрудничество, а не конкуренция. Партнерские отношения с различными организациями, работающими в экосистеме, будет наиболее вероятной моделью успеха во многих секторах.

Ожидается что, внимание гарантов производителей будет полностью или частично смещено с предоставления финансовых средств на продажи, лояльность клиентов, новые модели использования активов и предоставление услуг, а производители будут стремиться уменьшить свою зависимость от требований к капиталу, постоянного финансирования и банковского регулирования.

Банки не захотят конкурировать в качестве операторов полного обслуживания и вместо этого сосредоточатся на своей основной деятельности - предоставлении финансирования и управления кредитным риском.

Благодаря детальному знанию рынка актива, специальным навыкам и опыту в сочетании с тесными взаимоотношениями с клиентами, сложившимися в течение длительного времени у гарантов есть явные преимущества для развития современных услуг.

Этот переход от бизнес-модели, основанной на продукте, к бизнес-модели, основанной на результатах, сопровождается усложненным процессом начиная с доставки продукта и запасных частей, затем с обслуживания и страховки продукта и заканчивая получением результата использования продукта, что в конечном счете приводит к увеличению возможностей самой платформы.

Например производитель инструментов Hilti. Компания предлагает своим заказчикам полный пакет услуг. Оплачивая ежемесячный тариф, заказчики получают все необходимые инструменты. Наряду со стоимостью инструментов, сервиса и ремонта в сумму тарифа включены страховка от хищения, инвентаризация и модернизация.[3]

**Ключевые слова:** сервитизация, активы, лизингодатель, прибыль, технологии, риски, рынок оборудования.

## Xidmət vasitələrində müştəriyönümlülük

Məqalədə texnologiyaların inkişafına görə istehlak modelində baş verən dəyişikliklər göstərilib. Daimi on-line cihazlar istehsalçı və istehlakçı arasında standart ünsiyyət kanalına çevirilir, xidmət və məhsul arasında olan sərhəd pozulur və bu potensial müştərinin axtardığı tam spektr xidmətləri əhatə edən bir məhsulun təqdim edilməsinə gətirib çıxarır. Servitizasiya prosesinə baxılıb.

Servitizasiyanın üstünlükləri və bazar iştirakçılarını gözləyən dəyişikliklər göstərilib. Müasir xidmət göstərməyin aktual elementləri və bazar iştirakçıları üçün servitizasiya faktorlarına baxılıb. Həmçinin servitizasiyadan istifadə zamanı yaranan yeni risk növləri nəzərdən keçirilib.

**Литература**


1. Brendan Gleeson. Focusing on Customer Outcomes Through Servitization.
2. Baines T., Bigdeli A.Z., Bustinza O. F., Shi V.G., Baldwin J., Ridgway K. (2017). Servitization: revisiting the state-of-the-art and research priorities. International Journal of Operations & Production Management.
3. Trend barometer: What is servitization? https://www.wintersteiger.com/en/Plant-Breeding-and-Research/News/Latest-News/63-Trend-barometer-What-is-servitization.


## VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN SOSİAL MÜDAFİƏSİ SAHƏSİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN ROLU (2004-2015-ci illər)


**Raidə Əmirbəyova**
Azərbaycan Universiteti
r.amirbayova@gmail.com


Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi sahəsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin qanundan, digər normativ hüquqi-aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir [1].

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir [2].

Heydər Əliyev Fondunun fəaliyyətində uşaqların müdafiəsinin başlıca yer tutur. 2004-cü ildən cəmiyyət həyatında fəal mövqe tutan Heydər Əliyev Fondunun reallaşdırdığı ilk layihə, təsadüfi deyil ki, "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" olmuşdur. Bu layihə ölkədəki uşaq evləri və internat məktəblərinin çoxunda mövcud vəziyyəti kökündən dəyişməyə, uşaqların sosial şəraitini yaxşılaşdırmağa, təlim-tərbiyənin səviyyəsini yüksəltməyə, ən başlıcası isə, ailə mühitinə yaxın olan şəraitdə böyümələrinə imkan yaratmışdır. İndiyədək Heydər Əliyev Fondu tərəfindən respublikada fəaliyyət göstərən uşaq evi və internat məktəbində təmir və yenidənqurma işləri aparılmışdır.

Ötən dövrdə uşaqların müdafiəsi mexanizminin müəyyən edilməsi və yeni alternativ qayğı formalarının yaradılması sahəsində yaxşı irəliləyişlər əldə edilmişdir. Ailə qayğısından məhrum olan uşaqların problemlərinə diqqəti artırmaq məqsədi ilə 2005-ci ildə qurumun təşəbbüsü ilə Azərbaycan hökuməti, beynəlxalq və qeyri-hökumət təşkilatları, uşaq evləri və internat məktəbləri

nümayəndələrinin iştirakı ilə "Uşaq evlərindən uşaqların ailələrə verilməsi və Azərbaycan Respublikasında alternativ qayğı" mövzusunda "dəyirmi masa" keçirilmiş, səmərəli diskussiyalar aparılmışdır.

Bu baxımdan Azərbaycan Prezidentinin 2006-cı il 29 mart tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər)" qəbul edilməsi böyük əhəmiyyətə malikdir. Bu proqramdan irəli gələn vəzifələrin icrası istiqamətində atılan mühüm addımlar xüsusi yer tutur. Prosesin uğurla həyata keçirilməsinə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Mehriban Əliyeva hərtərəfli dəstək vermişdir.

25 yanvar 2007-ci ildə Heydər Əliyev Fondu ilə ABŞ-ın "Uşaqların Xilası" (Save the Children) təşkilatı arasında Azərbaycanda uşaqlar üçün inkişafa doğru yönəlmiş səylərin birləşdirilməsini nəzərdə tutan "Anlaşma" memorandumu imzalanmışdır. Heydər Əliyev Fondu ilə imzalanmış "Anlaşma" memorandumu uşaqların fiziki və psixososial kömək vasitəsilə müdafiəsi, onlara zəruri qayğının göstərilməsi, təhsil almasının təmin edilməsi, sağlamlığı və keyfiyyətli qidalanması sahəsində birgə fəaliyyəti nəzərdə tuturdu.

Həmçinin fondun dəstəyi ilə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binaları tikilir və istifadəyə verilir. Həmin binalarda kafe və mətbəx, bərbərxana, ticarət salonu, stolüstü oyunlar və internet zalları, camaşırxana var. Mənzillərin hamısı mebel, inventar və avadanlıqla, o cümlədən mətbəx avadanlığı və yataq dəstləri ilə təchiz edilib. Binada fəaliyyət göstərən xidmət sahələrində də məzunların işlə təmin olunmasına dair işlər görülür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daim uşaq və gənclər üçün yaradılan imkanlar genişləndirilir. Bu imkanların reallaşması üçün müasir tipli məktəblər, tibb ocaqları, idman kompleksləri tikilir və ya təmir edilir. Dövlət tərəfindən mütəmadi olaraq böyüməkdə olan nəslin sağlamlığına, təhsilinin inkişafına, hüquqlarının müdafiəsinə, uşaq iştirakçılığına yönəlmiş genişmiqyaslı tədbirlər və bu istiqamətdə görülən işlər gücləndirilməkdədir. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olur. Mehriban xanımın təşəbbüsü ilə xüsusilə həssas təbəqədən olan uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması, kimsəsiz, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların gələcəkdə məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi istiqamətində önəmli layihələr həyata keçirilir [3]. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilmişdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramları, eləcə də "Məzun Evi Sosial" Müəssisəsi Fondun xidmətləri sırasında vurğulamaq olar.

Müstəqillik illərində valideyn himayəsindən məhrum olan uşaqların hüquqlarının müdafisəi istiqamətində aparılan siyasət, qəbul olunan normativ-hüquqi sənədlər, davamlı islahatlar müasir dövrünün uğurlu uşaq siyasətinin təməlini qoymuşdur. Həmin dövrdə qəbul olunan qanunlar,

reallaşan dövlət proqramları və həyata keçirilən maarifləndirici tədbirlər uşaq hüquqların müdafiəsi sahəsində yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan veribdir.

**Açar sözlər:** müstəqillik, uşaq siyasəti, valideyn himayəsindən məhrum olmuş, qanunvericilik, beynəlxalq konvensiyalar, dövlət proqramları, uşaq təsisatları, statistik məlumatlar

### Ədəbiyyat


1. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/3859, 22 iyun 1999.
2. https://heydar-aliyev-foundation.org/az/content/index/47/Heyd%C9%99r-%C6%8Fliyev-Fondu
3. Ailə, Qaın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin illik hesabatları, mənbə: http://scfwca.gov.az/page/illik-hesabatlar, 6 fevral 2016-cı il.


## LAYİHƏ MENECMENTİNDƏ HEYYƏTİN İDARƏ EDİLMƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Zaur Əsədzadə**
Polşa İqtisadiyyat və İnsan Elmləri Universiteti
zaur.esedzade.1130@gmail.com

Layihə spesifik vaxt ərzində, tələb olunan büdcə daxilində gözlənilən nəticəyə çatmaq üçün həyata keçirilən işlərin (fəaliyyətlərin) toplusudur. Layihəni həyata keçirən zaman vaxt, büdcə, insan və s. bu kimi amillərin idarə edilməsi layihə menecmenti adlanır. İstənilən xidmət və ya əmtəə istehsal edən müəssisələrin təşkilati məqsədlərinə çatması üçün istifadə etdikləri əsas resurs insan resursudur. Hansı ki, ayrı-ayrı insanlar fərqli psixologiyalara malikdir və bu fərqliliklərin vahid məqsəd ətrafında cəmləşdirilməsi olduqca vacibdir.

Heyyətin idarə edilməsi zamanı diqqət yetirilməsi mühüm olan amillərdən biri psixoloji amillərdir, çünki burada insan faktoru var. Psixoloji amilin nəzərə alınması da insan resursları menecmentini digər idarəetmə şəkillərindən fərqləndirən xüsusiyyətlərdən biridir. İnsan resurslarının idarə edilməsi təsərrüfat subyektinin bütün strukturundakı işçilərə şamil edilir. Eyni zamanda, heyyətin idarə edilməsi menecerdə bir sıra xüsusiyyətlərin olmasını zəruri edir. Buna misal olaraq idarəçilik xüsusiyyəti, təhliletmə bacarığı, stresli iş mühitində çalışa bilmə, hiss və emosiyalarını düzgün idarəetmə və s. bu kimi xüsusiyyətləri göstərmək olar. Bacarıqlı menecerlər keyfiyyətli kadr axtarışında olmaqla yanaşı, öz heyyətlərindəki çatışmazlıqları öncədən görərək, onları aradan qaldırmaq üçün müvafiq addımlar atır. Hər bir müəssisədə maddi-texniki baza və heyyət idarəçiliyi vəhdət təşkil etməlidir. Düşünün ki, şirkət bütün texnoloji yeniliklərə cavab verir, amma həmin avadanlıqları idarə edəcək işçi yoxdur. Buna görədə menecerlər maddi-texniki baza ilə yanaşı insan

resurslarının da inkişafına yönəlik addımlar atmalıdırlar. Yalnız, bu halda onlar məqsədlərinə daha qısa zamanda və münasib büdcə ilə çatacaqlar.

Heyyətin idarə edilməsi zamanı bir sıra mühim məqamları gözardı etməməliyik. Əks təqdirdə layihənin idarə edilməsində ləngimələr olacaq və sondakı mənzərə ürəkaçan olmayacaq. Bu məqamların nəzərə alınmaması il heyyəti düzgün idarə edə bilmərik və təşkilati məqsədlərimizə gec çatarıq və ya heç zaman çata bilmərik. Bunlara misal olaraq işçilərin məmnunluq səviyyəsi, iş mühitinin təhlükəsizliyi, işçilər arası qruplaşmalardan qaçılması və bir sıra mühim məqamlar mütləq halda diqqətdə saxlanılmalıdır. Bir sözlə insan resursları menecerləri məşhur 3R ( right time, right position, right person) prinsipinə uyğun olaraq vaxtında, düzgün mövqe və uyğun işçi seçimini əsas götürməlidirlər.

**Açar sözlər:** Layihə, idarəetmə, layihə meneceri, heyətin idarə edilməsi.

## Ədəbiyyat

1. Horine G. Project Management Absolute Beginner's Guide. 4th Edition, 2016, 432 p.
2. Kogon K., Blakemore S. Project Management for the Unofficial Project Manager, 2015, 623 p.
3. https://www.teamgantt.com/blog/project-management-books
4. https://project-management.com/top-10-best-project-management-books-to-keep-within-reach/

# QƏDİM VƏ MÜASİR DÖVRLƏRDƏ İNGİLİS DİLİNDƏ SÖZ SIRASI

**Bənövşə Əsgərova**
Azərbaycan Universiteti
tt.aaa.2014@mail.ru

“Sözlər arasındakı qrammatik əlaqəyə “konkord” və ya uzlaşma deyilir. Bu zaman bir söz forması müvafiq başqa söz formasını tələb edir” [1, s.95]. Düzdür, konkord termininə daha çox söz birləşmələrində rast gəlirik. Ancaq uzlaşma yalnız söz birləşmələrində deyil, söz və söz birləşmələrindən ibarət cümlə üzvləri arasında da mövcud olur. Burada söhbət xüsusilə cümlənin baş üzvləri olan mübtəda və xəbər arasındakı uzlaşmadan gedir. Azərbaycan dilindən fərqli olaraq müasir ingilis dilində xəbər, adətən, şəxsə və kəmiyyətə görə mübtəda ilə uzlaşır: I tried to make a break only this morning. (The White Monkey, s. 131) J.Qrinberq dilləri təsnif edərkən söz sırasını əsas götürmüş, dilləri cümlənin strukturuna müvafiq olaraq üç hissəyə ayırmışdı: 1) predicate + subject + object (PSO) – xəbər + mübtəda + tamamlıq; 2) subject + predicate + object (SPO) – mübtəda + xəbər + tamamlıq; 3) subject + object + predicate (SOP) – mübtəda + tamamlıq + xəbər. Həmin bu təsnifata əsasən demək olar ki, ingilis və rus dilləri ikinci qrup dillərə (SPO), Azərbaycan dili isə üçüncü qrup dillərə (SOP) aiddir. İngilis dilində cümlənin əmələ gəlməsində söz sırasının böyük rolu vardır. Qədim ingilis dilindən fərqli olaraq müasir ingilis dilində söz sırası sabitdir. İngilis dilində orta və erkən yeni dövrdə baş verən morfoloji dəyişikliklər cümlədə söz sırasına böyük təsir göstərmişdir. Orta ingilis dilində sonluqların neytrallaşması və ya düşməsi ilə əlaqədar olaraq cümlədəki söz

sırasının funksional yükü də dəyişmişdir. Sözlər arasındakı əlaqə məhz sözönüləri və söz sırasının köməyi ilə verilmişdir. Artıq orta ingilis dili dövründən hər bir cümlə üzvünün cümlədəki yeri sabitləşməyə başlayır. Məsələn, əgər isim feildən əvvəl və ya sonra işlənirsə, bu onun mübtəda, yaxud cümlənin tamamlığı olmasından xəbər vermişdir. Onu da qeyd edə bilərik ki, orta ingilis dili dövründəki söz sırası qədim dövrlə müasir dövr arasında sanki orta mövqe tutmuşdur. Belə ki, bu dövrdə qədim dövrdəki kimi sözlərin cümlədəki yeri elə də sərbəst deyildi. Digər tərəfdən isə, müasir ingilis dili ilə müqayisədə o, hələ o qədər də sabit olmamışdır. Bu da təbiidir, çünki ingilis dilində söz sırasının sabitləşməsi tədricən baş vermişdir. Yüz illər davam edən bu hadisə orta ingilis dilinin əvvəllərindən başlamış və XV-XVII əsrlərə qədər davam etmişdir. Bu ləngimənin səbəbi bir tərəfdən orta ingilis dili qrammatik sisteminin hələ də formalaşmasının davam etməsi ilə və digər tərəfdən isə, Norman işğalından sonra yazı ənənələrindəki qırılmalarla əlaqədar olmuşdur. Əgər qədim ingilis dilində düzgün söz sırası S + P qrupunda olmuşdursa, orta ingilis dilində bu S + P + O və Attr + N söz qruplarında üstünlük təşkil etmişdir. [4, s.242]. Xəbərdən öncə işlənmək tədricən mübtədanın xarakterik cəhətinə çevrilmişdir. Mübtəda ilə xəbərin yer dəyişdiyi söz sırasına çox az hallarda rast gəlinirdi. B.İliş qeyd etmişdir ki, "hətta XIII əsrin əvvəllərinə aid olan "King Horn" şeirində zərfliklə başlayan cümlələr istisna olmaqla digər cümlələrdə inversiya hadisəsini görmək olmur" [3, s.217]. Xəbərin xarakterik cəhəti isə söz sırasında onun mübtədadan sonra işlənməsi olmuşdur. Xəbərin cümlənin sonunda işləndiyi sintetik söz sırasına isə qədim dövrdən fərqli olaraq orta ingilis dilində nadir hallarda rast gəlmək olar. Nadir hallarda da olsa, bu söz sırasından orta ingilis dilinin sonuna qədər istifadə olunmuşdur, Məsələn: She hir love him graunted (She granted him her love); In his armes he hem alle up hente (He caught them all in his arms.Erkən yeni ingilis dilində söz sırası nəqli cümlələr üçün normaya çevrilməsinə baxmayaraq, inversiya hadisəsində də rast gəlmək mümkün idi. Nəqli cümlələrdə söz sırasının pozulması iki cür olur: 1) cümlənin baş üzvlərinin inversiyası; 2) söz birləşmələrində əsas və asılı tərəfin yerlərinin dəyişməsi. Baş üzvlərin inversiyası erkən yeni ingilis dili dövründə aşağıdakı hallarda ola bilərdi: a) qədim və orta ingilis dilində olduğu kimi, cümlə yer və ya zaman zərfləri ilə başlayanda, Məsələn: Here comes she to me; Now shalt thou be mooved. b) "that, this" işarə əvəzlikləri ilə ifadə olunmuş vasitəsiz tamamlıqdan sonra, Məsələn: That did my man, sir; This did I fear. c) bağlayıcı zərfdən sonra, Məsələn: Thus have I shunned the fire for fear of burning; Yet can I not but worthily admire. ç) məhdudlaşdırıcı və inkar zərf və zərf birləşmələrindən sonra, Məsələn: Never had lady more watchful officers. Yeni ingilis dilinin özündə də sadalanan bütün bu hallarda inversiya hadisəsi baş verir. Fərq yalnız ondan ibarətdir ki, erkən yeni ingilis dilində indiki və keçmiş zaman feillərinin tam inversiyası olmuşdur. Bildiyimiz kimi, köməkçi "to do" feilindən ancaq XVII əsrin sonlarından bu cür cümlələrdə istifadə olunmağa başlanmışdır.

**Açar sözlər**: konkord, sintetik, sabit soz sırası, inversiya.

## Ədəbiyyat

1. Chomsky N.A. Logical Structure in Language. New York: Plenum Press, American documentation, 1957, Vol. VIII, № 4, pp. 98-122.
2. Clarc J.W. Early English: A Study of Old and Middle English. 2 nd ed., Leningrad, 1967. 268 p.
3. Иванова И.П. История английского языка. М.: Высшая школа, 1976, 264 с.

4. Ilyish B.A. History of the English Language. Leningrad, 1973, 313 p.
5. Ishtla S.S. The History of English. Hodder Arnold. / S.S.Ishtla. – New York: Oxford University Press Inc, 2005, 216 p.

## EMİ TAN YARADICILIĞI ƏDƏBİ TƏNQİDDƏ

**Nigar Əsgərova**
Bakı Slavyan Universiteti
nigar1988sport@gmail.com

Asiya-Amerika ədəbiyyatı anlayışını humanitar fikrin ədəbiyyatşünaslıq, etnoqrafiya və sosiologiya sahələrində öyrənilməsi keçən əsrin altmışıncı illərinə təsadüf edir. Bu illər Amerikada yaşayan və bərabərlik uğrunda mübarizə aparan milli etnik qrupların fəallaşması ilə yadda qalıb. Amerika ədəbi prosesində milli-etnik qruplar deyəndə afrikalı, hindu, latın amerikalı və asiyalının ədəbi-bədii fəaliyyəti nəzərdə tutulur.

Məhz bu illər ədəbi prosesə bütün qüvvəsi ilə qoşulan "Amerikada doğulan Asiya mənşəli yazıçılar... Amerika həyat tərzinə reaksiya" [6, s.20] verməklə Asiya-Amerika bədii ədəbiyyatını yaratdılar. Burada bir vacib məqamı da qeyd etmək yerinə düşər ki, Asiya-Amerika anlayışında "asiyalı" irqi xüsusiyyət idisə, "amerikalı" milli göstərici kimi çıxış edirdi.

Devid Leyvey Li (David Leiwei Li) "Milləti xəyal etmək: Asiya-Amerika ədəbiyyatı və mədəni razılıq" (Imagining the Nation: Asian American Literature and Cultural Consent) əsərində Asiya-Amerika ədəbiyyatı ilə bağlı milli-etnik mərhələni keçən əsrin 60-90-cı illəri ilə bağlayır və qeyd edir ki, bu ədəbiyyatın 80-cı illərdə feminist mərhələsi daha aktiv olmuşdur. Daha sonra tədqiqatçı bu günə qədər davam edən "heteroglossia" (Baxtin) mərhələsindən söz açır və müxtəlif təfsirlərdən bəhs edir. Sonuncu mərhələ tədqiqatçının da qeyd etdiyi kimi Emi Tan yaradıcılığı ilə əlaqəlidir.

Asiya-Amerika ədəbiyyatının görünməmiş çiçəklənməsi Emi Tanın "Sevinc və uğur klubu" romanından sonra başladı və məhz bu əsərlə o "etnik və ədəbi gettodan qurtuldu" [7, s.38]. Emi Tanın gətirdiyi ədəbi təhkiyə üsulları amerikalı oxucuya o qədər maraqlı gəldi ki, yazıçının nədən yazması deyil, necə yazması, "təsvir etdiyi hadisələr" [7, s.41] önəmli oldu.

Emi Tan bir qayda olaraq Amerikada yaşayan çin əsilli qadınlardan yazır, onların iç dünyasını milli kimlik və özümlülük kontekstində təqdim edir. Çin mədəniyyəti onun romanlarının göstəricisi olsa da o, etnik çərçivələrdən çıxa bilir, hadisələri amerikalı çinlilərin həyat tərzində, həyata baxışlarında və öz müqəddəratının həlli yollarıyla bağlayırdı. Görünür bu səbəbdən müasir ədəbi tənqid, xüsusilə, Edelma Hantli öz tədqiqat işində Amerika-Çin ədəbiyyatının "etnik işarələrdən" [4, s.14] xilas olmasının yetişdiyini səsləndirmişdir.

Emi Tanın "roman dünyası ürək ağrıdan, cəlbedici və bəzən də acı-yumoristik hekayələrlə Tolsoysayağı hadisə və təfərrüatlar axınında cərəyan edir" deyən Robb Forman Dyu da haqlıdır [3].

Nensi Uillard isə yazıçının romanlarında Dikkensin təhkiyə üsulunu gördüyünü qeyd edərək yazır ki, "Emi Tan üçün yaddaş saxlanc yeri, anbardır. O (yaddaş-N.Ə.) gizlinləri sevir və Emi Tan

üçün yaddaş yeganə mənbədir ki, personajların baxış bucaqlarını işıqlandıra bilsin. O, bizə Dikkens qalereyasından gələn bədheybətlər, loğmanlar, alimlər və sevgililər kimi gözəl xarakterlər bəxş edib" [8].

Göründüyü kimi ədəbi tənqid onun yaradıcılığını etnik çərçivələrdən çıxan, "yeni ədəbi istiqamətin yaradıcısı" [1, s.19] kimi dəyərləndirir. "Ami Tanın romanlarında müəlliflik və yazılı söz" (Authorship and the Written Word in Amy Tans Novels) və "Tanın kontekstində Çin rəvayətlərinin semiotikası" (The Semiotics of China Narratives in the Context of Tan) tədqiqatında Harold Blum (Harold Bloom) Emi Tanın roman yaradıcılığını öyrənir və belə qənaətə gəlir ki, yazıçının romanları etnik problemlərdən kənarda öyrənilməlidir. Ədəbiyyatşünas alim yazır ki, Emi Tanın yaradıcılığında çinli-amerikalı əlamətlərinin süni şəkildə birləşdirilməsi ədəbiyyatda yeni transmədəni hadisələrin mahiyyətini aça bilməz [2, s.26].

"Onun yaradıcılığı mühacirlərlə məhdudlaşmır, Emi Tan universal problemlərdən yazır, bəşəri dəyərlərdən olan kimlik, soy-kökünün axtarışları, patriarxal cəmiyyətlərdə qadına münasibət, keçmişlə bu gün arasında mənəvi əlaqə və s. bəhs edir. Sevgi, nifrət, barış və hüzur da onun bədii dünyasına aiddir" deyir Tanfer Emin Tunc [5, 8].

Son illər Azərbaycan ədəbiyyatşünaslığında Asiya-Amerika ədəbiyyatı ilə bağlı az da olsa məqalə və müzakirə materialları dərc olunsa da Amerika ədəbiyyatının aparıcı istiqamətlərindən olan Amerika-Çin ədəbi nümunələrinin öyrənilməsi yox dərəcəsindədir. Təəssüflə qeyd etməliyik ki, dünyanın aparıcı filoloji universitetlərində bu sahə ilə bağlı dərsliklər və monoqrafiyalar dərc edildiyi, Asiya-Amerika ədəbiyyatı xüsusi bölmə kimi öyrənildiyi halda Emi Tan kimi maraqlı yazıçının ədəbi irsi araşdırma obyektinə çevrilməyib. Onun "Sevinc və uğur klubu" (The Joy Luck Club, 1989), "Mətbəx allahının arvadı" (The Kitchen God's Wife, 1991), "Min sirli hiss" (The Hundred Secret Senses, 1995), "Sınıqçının qızı" (The Bonesetter's Daughter, 2001) romanları müasir Amerika ədəbiyyatında milli kimlik və özümlülük, öz müqəddəratını müəyyən etmə problemləri ilə yanaşı multikulturalizmin birgəmövcudluq və tolerantlıq anlayışlarıyla oxucu rəğbətini qazanmışdır.

**Açar sözlər:** Asiya-Amerika ədəbiyyatı, Emi Tan, ədəbi tənqid, milli kimlik axtarışları.

## Ədəbiyyat


1. Bloom H. Asian American Women Writers. Chelsea House Pub. 1997. 142p.
2. Bloom H. Amy Tan. Infobase Publishing. 2014. 215p.
3. Dew R. F. Pangs of an Abandoned Child. The Kitchen God's Wife by Amy Tan // The New York Times Book Review. 1991. June 16. p.9 https://www.nytimes.com/1991/06/16/books/pangs-of-an-abandoned-child.html
4. Huntley E.D. Amy Tan. Pub: Greenwood. 1998. 184p.
5. 5. Positioning the New: Chinese American Literature and the Changing Image of the American Literary Canon. Ed. by Tunc T.E., Marino E. Cambridge Scholars Publishing. 2010. 235p.
6. Zheng D. From the Margin to the Mainstream. Asian American Literature Since the Late 1970s In Search of New Identities and Designs: American Literature in the 1980 – 90s. / Ed. by Stulov Y.V. Minsk, 2001. 150p.

7. Zia H. Asian American Dreams: The Emergence of an American People. Pub: Farrar, Straus and Giroux. 2001. 368p.
8. Willard N. Talking to Ghosts: In Amy Tan's New Novel, a Chinese-American Woman Searches for her Roots // The New York Times Book Review. 2001. Vol. 106, № 7. p.9. https://archive.nytimes.com/www.nytimes.com/books/01/02/18/reviews/010218.-18williat.html?0216bk

## EHTİYYATLARIN LOGİSTİKA İDARƏETMƏ SİSTEMLƏRİNDƏ YARANAN TƏHLÜKƏSİZLİK RİSKİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Bəhram Əzizov, Nail Babayev, Valeh İbrahimli**
Azərbaycan Universiteti
Bah-aziz@rambler.ru

Modelləşdirmə və simulyasiya elm və texnikanın demək olar ki, bütün sahələrini əhatə edir. Müasir dövrdə istənilən sistemi layihə edərkən imitasiya modelləşdirilməsindən geniş istifadə olunur. İmitasiya vasitələri proqram vasitələrindən və kompüterdə realizasiya olunmuş müxtəlif tətbiqi sistemlərdən ibarətdir.

Modelləşdirmə- öyrənilən sistemi model adlanan real sistemi daha sadə obyektlə əvəz edən problemlərin həlli üsuludur.

Simulyasiya real sistemdə eksperimentlərin aparılmasının qeyri-mümkün və ya məqsədə uyğun olmadığı hallarda, məsələn, real həyatda eksperimentin yüksək qiyməti və ya real vaxt şkalası çərçivəsində uzun müddətli olmasi səbəbindən istifadə olunur.

Simulyasiya modeli, real zaman çərçivəsində sistemin strukturunu və davranışını təsvir edən kompüter proqramıdır. Simulyasiya modeli daxil edilən məlumatlardan asılı olaraq sistemin işləməsinin müxtəlif aspektləri üzrə ətraflı statistik məlumatlar əldə etməyə imkan verir. Simulyasiya modelləşdirməsi kompüter modellərinin hazırlanması və onlar üzərində təcrübələrin qurulmasıdır.

Son nəticədə modelləşdirmənin məqsədi ağlabatan, məqsədəuyğun idarəetmə qərarlarını qəbul etməkdir.

Kompüter modelləşdirməsi indi insanın idarə etməli olduğu sistemlərin mürəkkəbləşməsi səbəbindən insan fəaliyyətinin bütün sahələrində məsuliyyətli qərarların qəbul edilməsində məcburi mərhələyə çevrilir.

Ehtiyatların idarə edilməsi problemləri əməliyyat tədqiqatında iqtisadi problemlərin ən çoxsaylı siniflərindən birini təşkil edir. Ehtiyatların optimal idarəetmə strategiyasının düzgün və vaxtında müəyyən edilməsi, eləcə də ehtiyatların standart səviyyəsi ehtiyatlar şəklində dondurulmuş əhəmiyyətli dövriyyə vəsaitlərini buraxmağa imkan verir ki, bu da son nəticədə istifadə olunan resursların səmərəliliyini artırır.

Ehtiyatların idarə edilməsi nəzəriyyəsində bəzi problemlərin analitik həlli verilir. Simulyasiya metodundan istifadə ehtiyacı ehtiyatların idarəetmə sistemlərində stokastik amillərin (təsadüfi tələb, çatdırılma müddəti və s.) olması ilə əlaqədardır.

Ehyiyyatların idarəetmə sistemlərində aşağıdakı xüsusiyyəti qeyd etmək vacibdir, ona görə də sistemin əsas xüsusiyyəti giriş qiymətlərinin dəyişməsidirsə, simulyasiya onu öyrənmək üçün ən yaxşı vasitədir.

Bundan əlavə, bu üsul müəssisənin maddi, məlumat və maliyyə axınları sistemindəki tərəqqini məhdudlaşdıran "darboğazları"  açkarlamaq üçün uyğundur.

Təqdim olunan elmi məqalədə ,sifarişlərin hədd strategiyasında yaranan təhlükəsizliy riskinin təqdimi ilə qurulan modelə baxılır.

Bu modeldə anbar səviyyəsi müəyyən minimum -$V_{min}$ dəyərdən aşağı düşərsə, mal partiyasının çatdırılması üçün sifariş verilir.

Aşağıdakı ilkin məlumatları götürək: $Ch$ =60 man.; $Cd$ =160 man ; $Cp$ =10 man.; $Part$ =100 ədəd .; $N$ =100 ədəd.; $MC$ =40 ədəd .; $SC$ =5 ədəd .; $V\min$ =10 ədəd .

Çatdırılmanın dövrün əvvəlindən həyata keçirildiyini fərz edərək, simulyasiyanı həyata keçirək. Anbarda ehtiyat səviyyəsi minimum icazə verilən həddən az olarsa, çatdırılma vaxtının başlanğıc göstəricisi birə bərabər olur.

**C15** =ЕСЛИ(G5>G10;0;1)

**C16**=ЕСЛИ(F15>$G$10;0;1).

Çatdırılma zamanı dövrün əvvəlindəki ehtiyat sifariş edilmiş partiyanın həcminin və anbardakı qalığın cəminə bərabərdir, əks halda - əvvəlki dövrün sonunda malların qalığı.

**D15**=ЕСЛИ(C15=0;G5;G5+G6)

**D16**=ЕСЛИ(C16=0;F15;F15+$G$6

Tələbin və qalan ehtiyatın hesablanması əvvəlki modellə uyqundur.  Xərclərə saxlama xərcləri, çatdırılma, çatışmazlıq cəzası(defisit) daxildir

**G15**=ЕСЛИ(C15=0;ЕСЛИ(E15<D15;$G$3*(D15-E15);$G$4*(E15-D15));ЕСЛИ(E15<D15;$G$3*(D15-E15)+$G$9*$G$6;$G$4*(E15-D15)+$G$9*$G$6)).

Saxlama dəyəri, Ch - man.

Kəsir üçün cərimə, Cd - man.

İlkin ehtiyat səviyyəsi, N, ədəd.

Çatdırılma partiyasının həcmi, Hissə, ədəd.

Orta tələb dəyəri, MC, əd.

Tələb OKM, SC, əd

Mal vahidinin çatdırılma dəyəri, Cp man.

Minimum ehtiyat səviyyəsi, ədəd, Vmin

| Исходные данные | |
|---|---|
| Стоимость хранения, Ch - руб. | 60 |
| Штраф за дефицита, Cd - руб. | 160 |
| Начальный уровень запаса,N,шт. | 100 |
| Объёь партии доставки, Part ,шт. | 90 |
| Среднее значение спроса, MC ,шт. | 40 |
| СКО спроса,SC ,шт. | 5 |
| Стоимость поставки единицы товара, Cp | 10 |
| Минимальный уровень запаса,шт,Vmin | 10 |

Моделирование

| Период | Индикатор | Запас на начало периода | Спрос.D | Остаток на складе | Издержки.C |
|---|---|---|---|---|---|
| 1 | 0 | 100 | 37 | 63 | 3780 |
| 2 | 0 | 63 | 36 | 27 | 1620 |
| 3 | 0 | 27 | 45 | 0 | 2880 |
| 4 | 1 | 90 | 38 | 52 | 4020 |
| 5 | 0 | 52 | 38 | 14 | 840 |
| 6 | 0 | 14 | 42 | 0 | 4480 |
| 7 | 1 | 90 | 36 | 54 | 4140 |
| 8 | 0 | 54 | 30 | 24 | 1440 |
| 9 | 0 | 24 | 45 | 0 | 3360 |
| 10 | 1 | 90 | 51 | 39 | 3240 |
| 11 | 0 | 39 | 45 | 0 | 960 |
| 12 | 1 | 90 | 38 | 52 | 4020 |
| 13 | 0 | 52 | 39 | 13 | 780 |
| 14 | 0 | 13 | 44 | 0 | 4960 |
| 15 | 1 | 90 | 32 | 58 | 4380 |
| Общее значение издержек | | | | | 44900,0 |

Sifarişlərin hədd strategiyas;n; təqdimi ilə qurulan model




Risk- gözlənilən bir seçim vəziyyətində qeyri - müəyyənliyi aradan qaldırmaqla əlaqəli bir fəaliyyətdir, bu fəaliyyət zamanı gözlənilən nəticəyə çatma ehtimalını, uğursuzluğu və hədəfdən kənara çıxma ehtimalını kəmiyyət və keyfiyyətcə qiymətləndirmək mümkündür.

Risk şəraitində alternativləri müqayisə edərkən, müəyyən bir qərar verən şəxsin (bundan sonra QVŞ) riskə münasibətini nəzərə almaq lazımdır. Risk nəzəriyyəsinin klassik yanaşması formatında, riskə münasibət, nəzərdən keçirilən alternativi müşayiət edən gəlir və zərərlər üçün mümkün təsadüfi dəyərlərin birləşməsində mövcud "balans" haqqında subyektiv konsepsiyadan ibarətdir. Hər bir alternative qərar verənlər üçün əhəmiyyətli olan iki göstərici ilə xarakterizə olunur: gözlənilən gəlir, mümkün risk. Risk nəzəriyyəsinə uyğun olaraq, qərar verənlər riskə münasibətlərini ehtiyatlı, riskdən uzaq və neytral olaraq ifadə edə bilərlər.

**Açar sözlər:** İmitasiya, modelləşdirmə, Monte-Karlo üsulu, təsadüfi kəmiyyət, statistik sınaqlar üsulu, ehtimal, ehtiyyatlar, risk, Excel.

## Ədəbiyyat

1. Əzizov B.B., Əzizov F.C., Qənbərova Z.N. Ehtiyyatlarin idarə etmə sistemlərinin imitasiya modelləşdirilməsində statistik sinaqlar üsulu (Monte-Karlo üsulu) Bakı Qızlar Universiteti. BQU-nin Elmi Əsərləri, 2020, No.1, s.219-225.

# KOQNİTİV DİLÇİLİKDƏ KONSEPTOSFER ANLAYIŞINA BAXIŞ

**Adilə Fərzəliyeva**
Azərbaycan Memarlıq və İnşaat Univeristeti
adelya05@hotmail.com

Dilçiliyin yeni növlərindən biri olan koqnitiv dilçiliyin vacib terminlərindən biri də konseptosferdir. Konseptosfer anlayışı ilə bağlı mütəxəssislər arasında bir sıra nəzər-nöqtələri mövcuddur və onlara müxtəlif yanaşmalar vardır. Bu isə onu göstərir ki, qeyd edilən mövzu çox aktual və gələcəkdə müxtəlif prizmalardan araşdırılmalı bir mövzudur.

Dilçiliyə konseptosfer termini bu sahə üzrə mütəxəssis D.S. Lixaçov tərəfindən gətirilmişdir. D.S.Lixaçovun konseptosferə verdiyi tərifə görə, bu termin millətin konseptlərinin məcmusu olub, dil daşıyıcılarının anlayışlarının bütün potensialları ilə formalaşır. Millətin mədəniyyəti, folkloru, ədəbiyyatı, elmi, təsviri incəsənəti, tarixi, etiqad etdiyi din nə qədər zəngindirsə, həmin xalqın konseptosferi bir o qədər zəngindir [3, s.3].

Konsept və konseptosfer mental (zehni) anlayışlardır. Z.D. Popova, İ.A. Sternin konseptosfer terminінə belə tərif vermişdir:

“Konseptosfer  insanların anlayışlarının, düşüncə məlumat bazalarının məcmu-sudur” [4, səh. 7]. Onların fikrincə, konseptlərin formalaşdırılma mənbəyini insan-ların idrak fəaiyyəti təşkil edir.

Bu iki əsas anlayış arasında əsas fərqlər var. Konseptosfer, xarici aləmin müxtəlif əlamətlərini ümumiləşdirərək ümumiləşdirilmiş təsvirlər, zehni obrazlar, sxemlər, anlayışlar, çərçivələr, ssenarilər, geştalt şəklində mövcud olan mütəşəkkil bir anlayış toplusudur [2, s.53-54]. Başqa bir izahata görə, konseptosfer görünməyən halo ilə (çənbər ilə) əhatə olunmuş hər hansı bir etnik qrupun müəyyən bir psixoloji nümayişidir.

Konseptosfer insanlara sistemli bilik verən zehni görüntülər sahəsidir. Bundan əlavə, konseptosfer olduqca nizamlıdır. Konseptosferi təşkil edən konseptlər fərdi xüsusiyyətlərinə görə, digər konseptlərlə oxşarlıq, fərqlilik və iyerarxiyanın digər sistemli əlaqələrinə girir.

S.A.Koşarnayanın fikrincə, konseptosfer konseptual sahələri formalaşdıran müxtəlif tipli konseptlərin birləşməsidir [1,  s. 54].

Konsept müxtəlif əlamətlərə görə təsnif edilə bilər. Müxtəlif tematikalara görə təsnif edilərkən konseptlərdən konseptosferlər yaranır. Bunlara fərdi, makro və mikro qruplar, milli konseptosferləri nümunə kimi göstərmək olar [5, s. 37]. Eyni zamanda konseptlər diskursun müxtəlif sahələrində - siyasi, tibbi və s. işlədilə bilər. Konseptlər fərdi, yaşa görə və ümummilli də ola bilər.

V.V.Krasnıx konseptosfer əvəzinə koqnitiv sahə terminini işlədir və onun iki növünün olduğunu qeyd edir:

1. Fərdi koqnitiv sahə;
2. Kollektiv koqnitiv sahə.

Onun fikrincə, fərdi  koqnitiv sahə istənilən hər bir şəxsin malik olduğu bilik və təsəvvür-lərin məcmusunu, kollektiv koqnitiv sahə isə bütün dil daşıyıcılarının malik olduqları bilik və təsəvvürlərin

məcmusunu əks etdirir. Lakin onun bu konsepsiyasında təzad yaradan bir məqam vardır: əgər fərdi koqnitiv sahə istənilən hər bir dil daşıyıcısının bildiyi, malik olduğu bir məfhum, kollektiv koqnitiv sahə isə hamının bildiyi və malik olduğu məfhumdursa, o zaman bu iki anlayış bir-birini tamamlayır: hər kəsin bildiyi eyni zamanda hamının bildiyi deməkdir.

Beləliklə, təqdim edilmiş məruzədə konsept və onu fərqləndirmək üçün mövcud əlamətlər aşkara çıxarılmışdır. Bundan savayı, konseptosfer terminine paralel tutulan koqnitiv sahə termini də öz əksini tapmişdir ki, bu da gələcək tədqiqatçılara köməkçi vasitə qismində çıxış edir. Koqnitiv diliçiliyin əsas anlayışları olan konsept və konseptosfer insan süurunun kompleks vahidi olmaqla yanaşı, eyni zamanda sosial termindir, çünki onlar birbaşa olaraq dil, milli obraz və mədəniyyətləri əks etdirirlər. Qeyd edilən terminlər və onlara xas olan bütün xü-susiyyətlərin tezis, məqalə və ya kitabça şəklində çapından bütün tədqiqatçılar və dilçi mütəxəssilər yararlana bilər.

**Açar sözlər*:*** konseptosfer, konsept, əqli fəaliyyət, fərdi koqnitiv sfera, kollektiv koqnitiv sfera.

**Ədəbiyyat**


1. Кошарная С.А. Миф и язык. Белгород, 2002, 287с.
2. Красных В.В. Строение языкового сознания: фрейм-структуры, Когнитивная семантика, Часть 1, Тамбов, 2000, с. 53-55.
3. Лихачев Д.С. Концептосфера русского языка, Изв. РАН - СЛЯ -1993, № 1, с.3-9.
4. Попова З.Д. Стернин И.А. Когнитивная лингвистика, М.: АСТ: «Восток –Запад», 2007, 314 стр.
5. Evans V., Green M. Cognitive Linguistics. An Introduction. Edinburgh: – Edinburgh University Press, 2006, 857 p.


## REKLAM MƏTNLƏRİNİN TƏŞKİLİNDƏ İŞTİRAK EDƏN LEKSİK VASİTƏLƏR


**Zümrüd Fərzəliyeva**
Bakı Dövlət Universiteti
zumrudf@hotmail.com


İngilisdilli reklam mətnlərinin tərtibində leksik vasitələrin yerli-yerində istifa- dəsi reklamın uğurunun bir hissəsi deməkdir. Mütəxəssislər arasında reklam mətnilə reklam imici (obrazı) arasında əlaqənin olması barədə fikir ayrılığı vardır. R.Bartes bildirir ki, bütün imiclər (obraz) "üzən ifadəedənlər zənciri ilə" polisemantikdir" [3, s.5-7]. Beləliklə, reklam mətnlərinin tərtibində aşağıdakı leksik vasitələr çıxış edir.

***1. Sözlər və frazeologizmlər.*** Sözlərsiz reklamları təsəvvür etmək mümkün deyildir. Reklamda durğu işarəsi, idiom, fraza və s. işlənməsə də reklam mətni tərtib etmək çümkündür, lakin söz olma dan reklam yaratmaq qeyri-mümükün bir məsə-lədir. Bu baxımdan konseptə

uyğun sözlərin seçilməsi, onlnardan yerli-yerində isti-fadə böyük məharət tələb edir. Misal üçün, *I'm PERFECTED (MaxFactor rekalmı)*

Eləcə də iPhone şirkətinin reklam şüarının tərtib olunmasında istifadə edilən sözlər də böyük təsir qüvvəsinə malikdir. *Brilliant. In every way (iPhone).*

Qeyd edək ki, bu cür şüarların yanında verilən şəkillər də yazı ilə harmoniya daşıdıqda, rekalmın effekti daha güclü olur [1].

***2. Alınma (xarici sözlər) sözlər.*** Bəzi reklam şirkətlərinin mətnlərində alınma sözlərə üstünlük verilir. Bu da həmin reklam üçün seçilmiş alınma sözün xarakterilə bağlı olur. Misal üçün, Porsche avtomobil şirkətinin reklamı insanda avtomobilin nə qədər sürətli olması barədə təsəvvür yaratmağa imkan verir ki, buna da səbəb onun reklam şüarinin tərtibində seçilmiş alman dilindən alınma sözdür. Misal üçün, *Faster than Schnell. (Porsche). Schnell*-in dilimizə tərcüməsi "iti, sürətli" deməkdir.

"Dior" ətir reklamlarında mütəmadi işlənən şüara baxaq. *J'adore Dior.*

***3. Neologizmlər (Coinage).*** Artıq reklam mətnlərində neologizmlərdən istifa- də də geniş yer almışdır. Son illər baş vermis Covid-19 pandemiyası ilə əlaqədar olaraq, bəzi yeni sözlər yaranmağa başlamışdır və onlardan reklamlarda da istifadə

edilməsi hallarına da rast gəlinir. Honda avtomobilini reklam şüarına nəzər yetirək.

*Until we drive again, #STAYHOME. (Honda).*

*TWOGETHER (*"insanların birlikdə istirahəti"ni nəzərdə tutan *Dənizkənarı Otelin reklamından).* Bu yeni yaranmış söz, və yaddaşlarda məhz iki nəfər üçün nəzərdə tutulduğu effektini yaradır. Qeyd edək ki, bu tip sözlər reklamı və ya mətni daha canlı və "gözəgəlimli" edir.

***4. Terminlər.*** Terminlərdən ingilisdilli reklam mətnlərində istifadə, məişət tipli reklam mətnlərinə nisbətən, texnika, texnologiya sahəsinə aid reklamlarda daha aktiv xarakter daşıyır. *Shell* neft şirkətinin reklamında da "energy" terminindən istifadə edilmişdir. *Let's provide the energy to generate more jobs. (Shell)*

***5. İdiomlar.*** İngilis dili idiomlarla zəngin bir dil olduğundan, istər rəsmi, istərsə də qeyri-rəsmi üslublarda, danışıq dilində və hətta reklamlarda belə onlardan istifadə halları çoxdur. Misal üçün, KFC restoranının reklam mətni daha mənalı və maraqlıdır. *When life gives you lemons, eat chicken.*

ABŞ-ın sonuncu prezidenti C.Baydenin seçkiqabağı kompaniyası zamanı da idiomdan istifadə edərək, şüar hazırlanmışdır. *America is back on track. (Amerika artıq düz istiqamətə dönmüşdür, düz yoldadır).*

***6. Sözlərin bilərəkdən səhv yazılması. (Qrammatik/orfoqrafik baxımdan).***

Qeyd edək ki, reklam şüarlarının müəllifləri diqqəti cəlb etmək üçün tez-tez qrammatik səhv edirlər [2, s. 90]. Misal üçün, "Chick-fil-A" restoranının reklam şü-arına nəzər salaq. *Eat Mor Chickin.* Bu ismarıcda 2-ci və 3-cü sözlər bilərəkdən səhv verilmişdir. Orfoqrafiya əvəzinə bu sözlərin tələffüz forması yazıda əks olunmuşdur. Eləcə də məşhur "Snikers" reklamında bir neçə qayda pozuntusuna rast gəlinir.

*If yoy keap making typing mistakes grab tourself a Snickers fast. SNIKKERS.(Snikers reklamından).*

***7. Sinonimlərdən istifadə.*** Akademik mətnlərin tərtib edilməsi zamanı prinsi-pial məsələlərdən biri kimi, həmin mətndə eyni sözlərin təkrarına yol verilməməsi prinsipidir. Reklam mətnlərində də effektivliyi, reklamın təsir gücünü artırmaq üçün

sinonimlərdən istifadə edilir. Misal üçün,

*In order to be irreplacible,*

*One must always be unique. ("Chanel" ətir firmasının reklamından)* .

***8. Antonimlərdən istifadə.*** İngilisdilli reklam mətnlərində antonimlərdən istifadə halları da maraq doğurandır. "Kit-kat" şokolad reklamındakı şüar diqqəti- çəkəndir. *Have a break, have a Kit-kat.*

Normalda bu iki söz sinonimlik təşkil etmir, lakin artıq neçə illərdir ki, bu məhsulun reklamındakı bu cümlə, bu iki sözü bir-birinə sinonim etmişdir.

***9. Omonimlərdən istifadə.*** Müasir inilis dilinin leksikologiyasında omonimlik hadisəsi reklamlardan da yan keçməmişdir və reklam mətnlərində omonimlik halla-rına tez-tez rast gəlinir [2, s. 93]. Misal üçün, *"Mum's taking us to Legoland. She's an absolute brick." ("Leqo" reklamından).* Bu mətndə *brick* sözü həm "kərpic", həm də "etibarlı, qayğıkeş insan" mənasında işlənir. Danışanın anaya olan münasibətin- dən, artıq bu sözün hansı mənada işlənməsini asanlıqla ayrıd etmək olar.

Beləliklə, reklam mətnlərinin rəngarəng və maraqlı olması üçün, müxtəlif üs-lublara xas elementlərdən istifadə etməklə, oxucuda diqqət yaratmaq olar. Lakin rek-lamların darıxdırıcı olmaması üçün, neytral üsluba üstünlük vermək yaxşı olardı.

**Açar sözlər:** reklam mətni, leksik vasitələr, neologizmlər, sinonimlər, idiomlar.

## Ədəbiyyat

1. Александров К. Почему реклама работает?: Электронный ресурс. -Режим доступа: http://ccr.ru/print.php?id=4898
2. Сердобинцева Е. Н. Структура и язык рекламных текстов: учебное пособие. М. : Флинта, Наука, 2010, 160 с.
3. Bartes R. The Rhetoric Of The Image – Roland Barthes (1964, 1984). Hill and Wang. New-York. December 21, 2009. 11 p.

# ŞAH I ABBASIN AVROPA İLƏ ƏLAQƏLƏRİ - BÖYÜK ELÇİLİK

**Aliyə Hacıyeva**
Azərbaycan Universiteti
haciyev.a.liya99@mail.ru

Azərbaycanda Bayandurlu və Səfəvi sülalələrinin bütün hakimiyyət tarixi ərzində Avropa dövlətləri ilə ən geniş əlaqələr Həsən padşahın hökmranlığı dövründə bir də şah I Abbas zamanında yaradılmışdı. Məhz I Abbasın hakimiyyətə gəlməsindən sonra Səfəvi – Avropa əlaqələri miqyas etibarı ilə də bütün əvvəlki dövrlərlə müqayisəyə gəlməyəcək şəkildə genişlənmişdi. Bir sıra Avropa mənbələrində şah I Abbasın elçilərinin Venesiya dövləti, Papalıq və digər İtaliya dövlətləri, o cümlədən Almaniya, İspaniya, İngiltərə , Hollandiya burjua respublikası, hətta İsveç, Norveç və digər Avropa dövlətlərinin hökmdarlarının sarayında diplomatik danışıqlar aparması barədə olduqca geniş və maraqlı məlumatlar var[5,6s]. Avropa dövlətlərinə diplomatik danışıqlar üçün göndərilən Səfəvi diplomatlarının qarşısına şah I Abbas tərəfindən iki mühüm vəzifə qoyulmuşdu: ilk olaraq, diplomatlar Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişləndirilməsinə çalışmalı, Səfəvi dövlətinin əsas sərvəti olan xam ipəyin əleverişli şərtlərlə Avropaya ixrac edilməsini təmin etməli idilər; ikincisi isə, Avropada Osmanlı dövlətinə qarşı vahid antitürkiyə koalisiyası yaradılmasına nail olmalı idilər [1, s.222-226].

XVI əsrin sonu – XVII əsrin əvvəllərində Səfəvi və Avropa əlaqələrinin daha da genişləndirilməsi, eyni zamanda Avropa dövlətlərinin də maraqlarına uyğun idi. Bu vaxt Avropada kapitalın ilkin yığımı prosesinin dərinləşməsi nəticəsində Şərqlə ticarətin genişlənməsinə maraq Avropa dövlətlərində daha da artmışdı. Bir sıra Avropa dövlətlərinin Səfəvi dövləti ilə geniş diplomatik əlaqələr yaratmağa can atması əslində həmin vaxt bilavasitə həmin dövlətlərinin yeritdiyi müstəmləkəçilik siyasəti ilə sıx bağlı idi. Lakin bütün bunlarla belə, Osmanlı dövlətinə qarşı birgə mübarizə aparmaq zərurəti, yəni xarici hərbi-siyasi amil, bəzi Avropa dövlətlərini Səfəvi dövləti ilə yaxınlaşdıran başlıca səbəb olaraq yenə də qalırdı.

Bu zaman Osmanlı dövləti ilə 1592-1606-cı illərdə müharibə vəziyyətində olan Habsburq monarxiyası Səfəvi dövlətini arxadan Osmanlı üzərinə qaldırmağa çalışırdı. Səfəvi və Osmanlı dövlətləri arasında yeni bir müharibənin başlanması Venesiya Respublikası və Papalığın da mənafelərinə uyğun idi, belə ki, hələ şah I Abbasın Osmanlı qüvvələrinə qarşı müharibəyə hazırlaşdığı vaxt Almaniya imperatoru olan II Rudolf (1552-1612) öz elçisi Stefan Kakaşı, həmin elçinin ölümündən sonra isə Tektanderi Səfəvi dövlət sarayına şahla danışıqlar aparmağa göndərmiş, Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılması barədə şah I Abbasa təklif vermişdi. Bu vaxt İspaniyanın kralı olan II Filip də Səfəvi hökmdarı şah I Abbası Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etməyə çalışır və əvəzində isə şah I Abbasa Osmanlı qüvvələrinə qarşı olan müharibədə İran körfəzi vasitəsilə ona yardım göstərəcəyini vəd edirdi [4, s.274].

1600-cü ildə İffət bəyin başçılığı ilə Səfəvi elçi heyəti Venesiyaya göndərildi. İyun ayının 8-də Venesiya doju elçiləri qəbul etdi. Danışıqlar zamanı ilk olaraq İffət bəy Səfəvi dövlətinin Venesiya

respublikası ilə ticarət əlaqələrinin genişləndirilməsi barədə şah I Abbasın təklifini Venesiya dojuna çatdırdı. Bundan sonra İffət bəy Venesiya dojundan xahiş etdi ki, həyata keçirəcəyi ticarət əməliyyatlarında və digər işlərdə ona lazımi köməklik göstərilsin. Görüşün sonunda Səfəvi diplomatı Venesiya dojuna şah I Abbasın məktubunu və hədiyyələri təqdim etdi. Həmin məktubda bildirilirdi ki, "Səfəvi dövlətinin başlıca məqsədi və arzusu xristian ölkələri ilə səmimi dostluğu və ittifaqı əbədi olaraq qoruyub saxlamaqdır. Biz istərdik ki, siz də bizim kimi bu dostluğu qiymətləndirə və qoruyub saxlayasız". Buradakı işlərini bitirən Səfəvi elçiləri Venesiya dojunun şah I Abbasa yazdığı məktubla vətənə geri döndülər. Həmin məktubda bildirildi ki, "Venesiya hökuməti Səfəvi dövləti ilə olan səmimi münasibət və dostluğu qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir" [4, s.278].

1603-cü ilin mart ayının əvvəllərində Səfəvi dövlətindən növbəti nümayəndələr Fəthi bəy rəhbərliyi ilə Venesiyaya yollandılar. Bu zaman yenə də əvvəlki səfərdə də olduğu kimi, şah I Abbas Venesiya dojuna məktub göndərmişdi. Bu məktubda şah I Abbas yenə Venesiya ilə Səfəvi dövləti arasında olan ticarət və dostluq məsələlərinə toxunmaqla yanaşı, əvvəlki məktubda üstüörtülü şəkildə yazdığı, lakin bu məktubda artıq açıq bir şəkildə Venesiya dojunundan xahiş edirdi ki, o öz nazirlərinə və yaxın adamlarına əmr versin ki, onlar Fəthi bəyə Səfəvi dövləti üçün odlu silah və sursat almaqdan ötürü ona hər cür köməkliyi göstərsinlər. Venesiya dojunun vermiş olduğu əmrə müvafiq olaraq, şah I Abbasın da məktubda qeyd etdiyi kimi tapşırılan malları almaq üçün Fəthi bəyə hər cür köməklik göstərildi. Əslində bu məktubdan da açıq olaraq anlaşıldığı kimi Səfəvi hökmdarı şah I Abbasın başlıca məqsədi Avropadan odlu silah alınmasını təmin etməklə bundan Osmanlı dövlətinə qarşı gələcək müharibədə istifadə etmək idi. Lakin qeyd etmək lazımdır ki, Fəthi bəyin Venesiyadan almış olduğu odlu silah və sursat Səfəvi sarayına vaxtında gəlib çatmadı [2, s.140]. Lakin şah I Abbas Osmanlı dövlətinə qarşı dura biləcək modern və güclü ordu yarada bildi. Belə ki, İngilitərədən olan Robert Şirli və Entonu Şirli qardaşları şah I Abbasın dəvəti ilə Səfəvi ordusunda keçirilən yenidənqurma tədbirlərində yaxından iştirak etdilər və bunun sayəsində də 1603-cü ildə Osmanlı dövlətinə qarşı baş verən müharibədə gücləndirilmiş Səfəvi ordusu qələbə qazandı.

Ümumiyyətlə, şah I Abbasın bütün səylərinə baxmayaraq Venesiyan Respublikasını Osmanlı dövlətinə qarşı açıq müharibəyə qaldırmaq mümkün olmadı. Bunun da başlıca səbəbi isə həmin dövrdə Portuqaliya, İspaniya, İngiltərə, Hollandiya və digər Avropa dövlətlərinin Hind okeanı hövzəsi və İran körfəzində möhkəmlənməsindən narazı olan, o cümlədən də yeni beynəlxalq ticarət yollarından kənarda qalan Venesiya Respublikasının özünün qüdrətli qonşusu olan Osmanlı dövləti ilə dinc ticarət münasibətlərini korlamaq istəməməsi və bu ölkənin ərazisindən keçməklə Səfəvi dövləti ilə ənənəvi ticarət əlaqələrini də bərpa etməyə səy göstərməsi idi. Şah I Abbas XVII əsrin başlanğıcında Səfəvi və Osmanlı dövləti arasında olacaq müharibə ərəfəsindəykən Osmanlı dövlətinə qarşı vahid hərbi ittifaq yaratmaq məqsədilə digər Avropa dövlətlərinə də müraciət etmişdi [4, s.269]. Şah I Abbas Hüseynəli bəy Bayatın rəhbərliyi altında Roma papası, Venesiya Respublikası, Almaniya, İngiltərə, Fransa, İspaniya, Polşa və Skandinaviya dövlətlərinə 1599-cu ilin may ayında böyük bir elçi heyəti göndərmişdi. Ümumiyyətlə keçdiyi səfər yolu və apardığı danışıqların miqdarına görə bu elçi heyətini "Böyük elçilik" də adlandırmaq olar. Şah I Abbasın Avropa dövlətlərinin rəhbərlərinə göndərmiş olduğu məktublarında əsasən qeyd olunurdu ki, Avropa dövlətləri öz aralarında olan narazılıqları bir kənara qoymalı, Səfəvi dövləti və Avropa dövlətləri arasında elə bir

müqavilə imzalanmalıdır ki, tərəflərdən birinin razılığı olmadan bir digər tərəf başqa bir dövlətlə əlaqəyə girməsin, Osmanlı dövlətinə qarşı birgə müharibə aparılsın və müharibənin gedişində də heç bir dövlət digərlərinin razılığı olmadan müharibədən çıxmasın və düşmən dövlətlə separat sülh imzalamasın. Bundan başqa şah I Abbas məktublarında həmçinin Avropa dövlətlərinə bir növ vəd edirdi ki, xristianlara öz dinlərini təbliğ etməyə, kilsə tikməyə və yaşamaq üçün Səfəvi dövlətinin istənilən ərazisinə getməyə icazə veriləcəkdi. Lakin bütün bunlara baxmayaraq Böyük Elçilik qarşısına qoyulan vəzifələri tam olaraq həll edə bilmədi və Səfəvi dövləti təkbaşına Osmanlı dövləti ilə müharibə aparmalı oldu [3; 4, s.270-281].

**Açar sözlər**: Səfəvi dövləti, Avropa, Venesiya Respublikası, Böyük Elçilik, şah I Abbas, diplomatik danışıqlar, birgə mübarizə.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı."Elm". 2007. 592 səh. + 56 səh. illüstrasiya.
2. Bayramlı Z., Şəbiyev B. Azərbaycan Səfəvi dövləti ( XVI-XVII əsrlər). Bakı, Elm və Təhsil. 2017, 360s.
3. Əliyarlı S. Azərbaycan tarixi. Bakı. Çıraq. 2009, 872 s.
4. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, Təhsil, 2006. 416 s.
5. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı: Təhsil, 2007.

# REVIEW OF NORM DISTRIBUTION AND BEHAVIORS IN PRODUCED WATER FROM OILFIELD INDUSTRIES

**Nacer Hamza**
Azerbaijan State Oil and Industry University,
Radiation Problems Institution
nacerhamza2019@gmail.com

Produced water that is considered a harmful waste resulting from the petroleum extraction process according to the significant concentration of naturally occurring radioactive material (NORM) is frequently disposed into nearby areas, leading to the contamination that increases the possibility of human exposure to NORM in various pathways. This paper aims to provide a comprehensive review of the NORM reported in produced water associated with oilfield activities from previous. The comparison of NORM values in oilfields around the world provides a better understanding of radionuclide behaviors along with oil extraction operations. The results indicate Ra isotopes as the most radionuclides present in produced water, especially Radium-226, U-238, and Th-232 were remarkable to present in low activity concentration in water. Oil extraction is increasing, which leads to more produced water being disposed of, which is a real concern for human health, so

a depth study is recommended focusing on minimization and other management methods of produced water instead of being disposed of. Furthermore, the NORM waste and its influence could be reduced by complying with the recommended standard set by IAEA and other environmental protection agencies.

**Introduction**

When the well has been drilled into the oil zone of the reservoir, where there is an aquifer underneath, and usually a layer of gas setting on the top, to get the flow from the reservoir and into the wellbore based on the pressure drawdown, taking into account the form of the reservoir either sandstone or carbonate, the oil that enter the well was inevitably mixed with a considerable amount of water in addition to the gas, this water that comes out with oil due to low velocity which leads to high flowrate in compare with oil that has a high velocity, this fact according to the Darcy Low, this water called the produced water, which then separated from oil using particular chemical and physical treatment technologies[1]-[2]. This water is generally comprised of the organic and inorganic compounds, NORM radionuclides, in addition to other chemical elements. So that its disposal process is one of the global concerns, consequently leading to human exposure in different pathways Fig. 1.

Naturally, radiation presents due to the cosmic ray or the naturally occurring radioactive materials (NORMs) that originated in the earth's crust and are present everywhere in the environment [3]. Produced water has been reported to Contain significant values of NORM [4]. Almost elements are constituents from stable nuclides; however, U, Th are unstable by nature [5] and will fade in time by disintegrations into other radioactive elements by emitting Alpha and Beta particles accompanied by gamma rays. A uranium-235 nucleus goes through 11 transformations to become stable lead-207. A thorium-232 nucleus goes through 10 transformations, counting $Ra^{228}$ and $Ra^{224}$ to become stable lead-208. Moreover, a uranium-238 nucleus goes through 14 transformations, including $Ra^{226}$and $Rn^{222}$, to become stable lead-206, in addition to $K^{40}$, one of the three isotopes of K, which is widely distributed identically with its isotopes, this implies that the presence of K will be accompanied with $K^{40}$ as well. $K^{40}$ disintegrates once into either $Ca^{40}$ or $Ar^{40}$ emitting β-particle (89%) or γ-photon (11%) respectively.




**Figure 1**. Terrestrial pathways of transfer of radionuclides and dose to humans [3]

**Produced water in oil companies**

The major challenge in the oil industry recently is the unwanted production of water and gas; every day, approximately 300 million barrels of water are brought up to the surface together with oil and gas [6]. Produced water represents an enormous waste stream because of several oilfields' operations. During the oil extraction process, a tremendous amount of water comes out of the wells to the surface with the crude oil, including both formation water and injected water into the wells to enhance the oil and gas recovery [7]. The first source of produced water follows the oil and gas extraction process, while formation water which exists below the oil layer then enter through the porous reservoir and comes out of the well mixing with the crude oil; this process leads to a reduction in reservoir pressure, resolve this problem by injected water again in the reservoir system to maintain the hydraulic pressure [8], this injected water present the second source of produced water based on the fact, the more oil extraction, the more produced water. Furthermore, the origin of that unwanted water involves Saline water that exists and resides in the layer below oil and gas due to its high density compared to those hydrocarbons. Generally, there are two sources of saline water, flow from the same hydrocarbon zone due to hydrocarbon production and flow from other hydrocarbon zones due to hydrocarbon migration [7]. This saline water is called then formation water and becomes produced water when it is brought up and oil to the surface as a mixture. In some other cases and due to the reduction of pressure in the reservoir, this water will be injected again to maintain the hydraulic pressure and enhance the oil recovery, injected water usually from injectors wells towards the formation which directed oil to another well-called producer well, while the formation water or the injected water arrives in the producer wells, these wells start extracting hydrocarbons as well as produced water, this mixture contains in addition of the water and oil, metals that have been reported in various studies including Cr, Ba, Ni, Zn, Mg, Fe, Ni, Pb and K [9], furthermore lead, nickel, zinc, cadmium, and copper usually exist as heavy metal in oil and gas field produced water heavy metals were transformed from a dissolved state to particles in water under oxygenated conditions[10], along with radium and radon, treating chemicals, salt and dissolved oxygen. The stream of the produced water is considered as the main waste in terms of size subsequent from the oil and gas facilities [11]

**NORM concentration in produced water**

The radioactivity concentration in a given volume of water represents the levels of radioactivity in produced water; the distribution of the reported levels in different areas are varied from one region to another due to the geological characteristics in each region. Table 1 resumes the values of radionuclides associated with produced water that has been reported in several regions in the world.

According to the results shown in table 1, we notice that Ra isotopes are the dominant radionuclides in produced water, especially $Ra^{226}$, $Ra^{228}$and $Ra^{224}$. $Ra^{226}$, which results from $U^{238}$, decays into $Rn^{222}$ by emitting alpha and beta particles, in addition to gamma radiation, to reach a stable state over 1600 years of half-life. $On\ the\ other\ hand, Ra^{228}$, $Ra^{224}$ are daughters products of the $Th^{232}$ decays chain, which decays into $Ac^{228}$, $Rn^{220}$ respectively; $Ra^{228}$ reach the ground state by emitting beta particles and gamma rays with an estimated half-life of 5.75 years, while $Ra^{224}$ end up in the stable state through decays by emitting alpha particles and gamma rays over 3.7 days of

half-life. The $Ra^{224}$ noticed as the lowest radium isotopes present in produced water because $Ra^{224}$ appears in produced water without its immediate parents $Th^{228}$, so that will die out within two weeks of secular equilibrium, the same period for $Ra^{226}$ to reach its secular equilibrium with $Rn^{222}$, $Po^{218}$, $Po^{214}$, $Bi^{214}$, and $Pb^{210}$, while $Ra^{228}$ considered as the quick radium isotopes that reach its equilibrium with $Ac^{228}$ withing two days.

**Table 1**. Activity concentrations ($Bq.L^{-1}$) of $U^{238}$, $Ra^{226}$, $Th^{232}$,, $K^{40}$, and $Ra^{228}$ , $Ra^{224}$ in produced water in different oilfields worldwide

| Radionuclides | $U^{238}$ | $Th^{232}$ | $K^{40}$ | $Ra^{226}$ | $Ra^{228}$ | $Ra^{224}$ | Ref |
|---|---|---|---|---|---|---|---|
| Congo($Bq.dm^{-3}$) | $<4.5\times10^{-3}c$ | $<4.5\times10^{-3}c$ | - | 5.1c | - | - | [12] |
| Egypt | - | 39.9c | 66c | 19c | - | - | [13] |
| Iraq | - | 9.4c | 66.4c | 20.3c | - | - | [14] |
| Romania | (0.043-1.1) | (0.21-8) | (221-899) | (23-45) | - | - | [15] |
| Syria | - | 19.2c | 1460c | 186.2c | - | - | [16] |
| Ghana | (0.11-1.03) | (0.21-0.56) | (1.65-11.99) | - | - | - | [17] |
| Ghana | - | - | (5.90-23.90) | (6.20-22.30) | (6.40-35.50) | (0.78-7) | [18] |
| Nigeria | - | - | 39.8c | 8.9c | 8.1c | - | [19] |
| Nigeria | - | - | (9.08-155.22) | (2.01-13.19) | (0.75-12.30) | - | [20] |
| US($pCi.L^{-1}$) | - | - | - | (56-1494) | (69-600) | - | [21] |
| US | - | - | - | (30-2690) | (35-763) | - | [22] |
| US | - | - | - | (<0.002-58) | (0.02-59) | - | [23] |
| Azerbaijan | - | (ND-13.71) | (26.1-194.5) | (ND-101.7) | - | - | [24] |
| Poland | <30 | - | 75c | <2 | <2 | - | [25] |
| Texas | - | - | - | $(0.1-5{,}150)$ | ND | - | [26] |
| Brazil | - | - | - | (0.012-6) | (<0.05-12) | - | [27] |
| Norway | - | - | - | 3.3c | 2.8c | - | [28] |
| Norway | - | - | - | (0.5-16) | (0.5-21) | - | [29] |
| Syria | - | - | - | 51.9c | 37.5c | (0.2-3.7) | [30] |
| Oman | - | - | (1522-1535) | (514-529) | - | - | [31] |
| Turkey | - | - | - | 6c | 3.17c | 2.83c | [32] |

(): the range of the concentration, c: the average concentration, ND: below the detectible limits

$Ra^{226}$ noticed as the most Ra isotopes present in produced water in different studies from different areas [12, 13-16, 26], one of the reasons can be due to its high solubility in water and its behavior preferring the aqueous state, furthermore, $Ra^{226}$ is chemically similar to Barium Ba, Strontium Sr, Calcium Ca. Magnesium Mg so that it becomes incorporated in group II sulfate or carbonate deposits and scale [9], high precipitation of $Ra^{226}$ reported with strontium and barium which are taken part in the metals present in produced water, this result is according to various previous experiments that aim to find the correlation between radium isotopes and metals.

$U^{238}$ and $Th^{232}$ concentrations are noticed from table 1 that were measured according to their progenies $Ra^{226}$and $Ra^{228}$ respectively [12],[15],The absent of $U^{238}$, $Th^{232}$ in produced water in some studies ,[18],[20]-[21]-[22]–[23]. according to their chemical characteristics, they prefer the

solid rock phase and do not dissolve in the aqueous or oily phase; as a result, both series remain with reservoir rock and may appear as a natural concentration just during drilling activities [5].

Results display a high value of $K^{40}$ activity concentration, of range (1.65-1460) $Bq.L^{-1}$ in produced water owning to the fact that K isotopes are widely distributed in nature (abundance in the Earth's crust 2.1%), including K40 (0.0117%). However, $K^{40}$ concentrations in produced water are lower than the values found in soil samples around the oilfield area [33].

**Conclusion**

Oil and gas companies generate a vast amount of produced water; the management process consists of one of the global challenges for several petroleum facilities, produced water must be either re-use or disposed of. Re-use operation of produced water requires some treatment to remove oil residue. However, some produced water does not meet the criteria required for it re-used, so almost all of the produced water has been disposed of. According to the disposal of waste from petroleum industries, a significant amount of NORM is released into the soil or the seawater, NORM in the form of different radionuclides including Ra isotopes primarily which decay into the $Rn^{222}$ gas and these progenies such as $Po^{218}$, $Po^{214}$, $Bi^{214}$, and $Pb^{210}$ is transferred to the environment, and then act and result in a dangerous effect to the human, according to several pathways either internal exposure from inhalation of radon gas present in the air, and digestion from food that comes from the contaminated soil, or external exposure. The values of radionuclides are almost above the recommended limits set by US EPA in different oilfield regions around the world, which lead to more concern about human health and environmental pollution, so a depth study is recommended focusing on minimization and other management methods of produced water instead of being disposed of. Furthermore, the NORM waste and its influence could be reduced by complying with the recommended standard set by IAEA and other environmental protection agencies.

**Keywords**: NORM, produced water, radium isotopes, radioactivity, oilfield activities.

**References**

1. Al-Ghouti M.A., Al-Kaabi M.A., Ashfaq M.Y., Da'na D.A. Produced water characteristics, treatment and reuse: A review. Vol. 28, Journal of Water Process Engineering. Elsevier Ltd; 2019, pp. 222–39.
2. Sathe S.M., Munavalli G.R. Domestic wastewater treatment by modified bio-rack wetland system. Journal of Water Process Engineering. 2019 Apr 1, 28, pp.240–9.
3. Nations Scientific Committee on the Effects of Atomic Radiation U. Sources And Effects Of Ionizing Radiation United Nations Scientific Committee on the Effects of Atomic Radiation UNSCEAR 2000 Report to the General Assembly, with Scientific Annexes Volume I: Sources United Nations.
4. Khodashenas A., Roayaei E., Abtahi S.M., Ardalani E. Evaluation of Naturally, Occurring Radioactive Materials (NORM) in the South Western Oil Wells of Iran. Journal of Environmental Radioactivity. 2012 Jul, 109, 71–5.
5. Managing Naturally, Occurring Radioactive Material (NORM) in the oil and gas industry manage protect. 2016.

6. Liang Y., Ning Y., Liao L., Yuan B. Special Focus on Produced Water in Oil and Gas Fields: Origin, Management, and Reinjection Practice. In: Formation Damage during Improved Oil Recovery: Fundamentals and Applications. Elsevier; 2018, pp. 515–86.
7. Altare C.R. Regeneration And Long-Term Stability Of Surfactant-Modified Zeolite For Removal Of Volatile Organic Compounds From Produced Water, 2006.
8. Elbrir F. The Effect of Produced Water from Heglig Oil Field on Chemical Additives for Fracturing Fluids. Journal of Environmental Analytical Chemistry, 2018, 05(02).
9. Johnson B.M., Kanagy L.E., Rodgers J.H., Castle J.W. Feasibility of a pilot-scale hybrid constructed wetland treatment system for simulated natural gas storage produced waters. Environmental Geosciences. 2008 Sep.,15(3 PART 2), 91–104.
10. Azetsu-Scott K., Yeats P., Wohlgeschaffen G., Dalziel J., Niven S., Lee K. Precipitation of heavy metals in produced water: Influence on contaminant transport and toxicity. Marine Environmental Research. 2007 Mar., 63(2), 146–67.
11. National Research Council. Evaluation of guidelines for exposures to technologically enhanced naturally occurring radioactive materials.19. Hamlat MS, Djeffal S, Kadi H. Assessment of radiation exposures from naturally occurring radioactive materials in the oil and gas industry. Vol. 55, Applied Radiation and Isotopes. 2001.
12. Testa C., Desideri D., Meli M.A., Roselli C., Bassignani A., Colombo G., Fantoni R.F. Radiation protection and radioactive scales in oil and gas production. Health Physics. 1994 Jul 1, 67(1), 34-8.
13. Zakaria K.M. Radiological impacts of norm and poly aromatic hydrocarbon in petroleum industry process on marine ecosystem at the Red Sea, Egypt. Environ. Anal. Ecol. Stud. 2018, 1(4).
14. Ali K.K., Shafik S.S., Husain H.A. Radiological assessment of NORM resulting from oil and gas production processing in South Rumaila oil field, Southern Iraq. Iraqi Journal of Science. 2017, 58(2C), 1037-50.
15. Botezatu E., Grecea C. Radiological impact assessment on behalf of oil/gas industry. J. Prev. Med. 2004, 12(1-2), 16-21.
16. Ghafar M., Marroshiah F., Dayoub R. Evaluation of radioactivity and potential radiation hazard of NORM waste due to produced water draining in crude oil tanks area in Banyas. Tishreen University Journal-Basic Sciences Series. 2017, 39(3).
17. Faanu A., Ephraim J.H., Darko E.O. Assessment of public exposure to naturally occurring radioactive materials from mining and mineral processing activities of Tarkwa Goldmine in Ghana. Environmental monitoring and assessment. 2011 Sep., 180(1), 15-29.
18. Kpeglo D.O. Radiation Exposure to Natural Radioactivity in Crude Oil and Petroleum Waste from Oil Fields in Ghana; Modelling, Risk Assessment and Regulatory Control (Doctoral dissertation, University of Ghana).
19. Agbalagba E.O., Avwiri G.O., Ononugbo C.P. Activity concentration and radiological impact assessment of 226Ra, 228Ra and 40K in drinking waters from (OML) 30, 58 and 61 oil fields

and host communities in Niger Delta region of Nigeria. Journal of environmental radioactivity. 2013 Feb 1, 116, 197-200.

20. Avwiri Gregory O., Emmanuel E., Agbalagba Ezekiel O. Gamma spectroscopy analysis of produced water from selected flow stations in delta state, Nigeria. Int. J. Environ. Monit. Anal. 2013, 1, 167-74.
21. Lagera L., Hart A., Graham B. Radionuclides in oil and gas operational discharges and environmental samples associated with offshore oil and gas production facilities. Radionuclides, Metals, and Hydrocarbons in Oil and Gas Operational Discharges and Environmental Samples Associated with Offshore Production Facilities on the Texas/Louisiana Continental Shelf with an Environmental Assessment of Metals and Hydrocarbons. 1999.
22. McDevitt B., McLaughlin M., Cravotta C.A., Ajemigbitse M.A., Van Sice K.J., Blotevogel J., Borch T., Warner N.R. Emerging investigator series: radium accumulation in carbonate river sediments at oil and gas produced water discharges: implications for beneficial use as disposal management. Environmental Science: Processes & Impacts. 2019, 21(2), 324-38.
23. Kraemer T.F., Reid D.F. The occurrence and behavior of radium in saline formation water of the US Gulf Coast region. Chemical geology. 1984 Jul 1, 46(2), 153-74.
24. Kh K.H. Research into the radionuclide pollution of ecosystem on the territory of oil fields of Absheron peninsula. Kimya Problemleri. 2016(3), 233-7.
25. Jodłowski P., Macuda J., Nowak J., Dinh C.N. Radioactivity in wastes generated from shale gas exploration and production–North-Eastern Poland. Journal of environmental radioactivity. 2017 Sep 1, 175, 34-8.
26. Spoonamore S. Produced water. In: Filtration and Separation in the New Energy Era - 2011 AFS Fall Topical Conference. American Filtration and Separations Society; 2011.
27. Vegueria S.J., Godoy J.M., Miekeley N. Environmental impact studies of barium and radium discharges by produced waters from the “Bacia de Campos” oil-field offshore platforms, Brazil. Journal of Environmental Radioactivity. 2002 Jan 1, 62(1), 29-38.
28. Gaefvert T., Færevik I. (2005). Natural radioactivity in produced water from the Norwegian oil and gas industry in 2003 (No. NRPA--2005: 2). Statens Straalevern.
29. Eriksen D.Ø., Sidhu R., Strålberg E., Iden K.I., Hylland K., Ruus A., Røyset O., Berntssen M.H., Rye H. Radionuclides in produced water from Norwegian oil and gas installations—concentrations and bioavailability. Czechoslovak Journal of Physics. 2006 Jan., 56(1), D43-8.
30. Othman I., Al-Masri M.S. Naturally occurring radioactive materials (NORM) wastes in oil fields are a radiological problem, but they are useful tools.
31. Pillay A.E., Salih F.M., Maleek M.I. Radioactivity in oily sludge and produced waste water from oil: environmental concerns and potential remedial measures. Sustainability. 2010 Apr., 2(4), 890-901.
32. Parmaksız A., Ağuş Y., Bulgurlu F., Bulur E., Öncü T., Özkök Y.Ö. Measurement of enhanced radium isotopes in oil production wastes in Turkey. Journal of environmental radioactivity. 2015 Mar 1, 141, 82-9.

33. Agbalagba E.O., Avwiri G.O., Chad-Umoreh Y.E. γ-Spectroscopy measurement of natural radioactivity and assessment of radiation hazard indices in soil samples from oil fields environment of Delta State, Nigeria. Journal of Environmental Radioactivity. 2012 Jul., 109, 64–70.

# OTLUQBELİ SAVAŞİNDA BAYANDURİ QOŞUNLARININ MƏĞLUB OLMA SƏBƏBLƏRİ

**Bəyim Haxverdiyeva**
Azərbaycan Universiteti
Bayim.Hakhverdiyeva@student.au.edu.az

Azərbaycan xalqının dövlətçilik tarixində önəmli yer tutan Bayanduri sülaləsinin Osmanlı dövləti ilə münasibətləri, xüsusilə XV əsrin 70-ci illərində baş vermiş Otluqbeli savaşında Bayanduri qoşunlarının məğlub olma səbəbləri mövzümuz baxımından mühüm əhəmiyyət kəsb edir. Bu dövrə həsr olunmuş milli ruhda yazılmış əsərlərin olmasına baxmayaraq, bəzi boşluqların izlənməsi mümkündür. Əsasən, müasir Türkiyə tarixşünaslıqına nəzər yetirdikdə birtərəfliliyin, səhv tendensiyaların şahidi oluruq.

Qeyd edək ki, Ağqoyunlu ilə Osmanlı arasında siyasi münasibətlər hələ Qara Yuluq Osman bəyin dövründə başlamış, Bayanduri sülaləsinin hakimiyyətə gəlişindən sonra, XV əsrin II yarısından etibarən daha da intensiv xarakter almışdır. Belə ki, Şərqi Anadoluda mövqeləri güclənən Uzun Həsənin Avropa ölkələri ilə iqtisadi-ticarət əlaqələrinə Osmanlılar ciddi maneə törədirdi. Eyni zamanda Osmanlı ilə, Qərb dövlətlərinin də, həm iqtisadi, həm də siyasi sahədə ziddiyyətləri vardı.

Uzun Həsən ilə, Sultan Məhəmməd arasında münaqişə Trabzonun Osmanlı tərəfindən tutulması ilə başladı. Qara dənizə yeganə çıxış yolu olan Trabzon, Qərb ilə Şərq ticarətində önəmli yer tuturdu.Eyni zamanda Ağqoyunluların Trabzon imperatorluqu ilə, qohumluq əlaqələri mövcud idi və Osmanlıya qarşı Ağqoyunluların müttəfiqi idi [1, s.22].

Trabzonu itirdikdən sonra Uzun Həsənin mühüm strateji-coğrafi ərazi sayılan Qaraman bəyliyini tutmaq istəməsi, Osmanlı -Ağqoyunlu münasibətlərini daha da kəskinləşdirdi.Əlverişli mövqedə yerləşən Qaraman vasitəsilə Ağqoyunlu Avropa dövlətləri ilə ticarət əlaqələri saxlayırdı.Qaraman bəyliyinin itirilməsi Uzun Həsənin gələcəkdə Osmanlı kimi qüdrətli dövlətə məğlub olmasına şərait yarada bilərdi [2, s.10,11].

Osmanlı-Bayanduri münasibətlərində ən mühüm hadisələrindən biri Otluqbeli (Üçağız) döyüşü olmuşdur.Həmin dövrün iki qüdrətli türk hökmdarı qarşılaşmış,hər iki tərəf döyüşə ciddi hazırlaşırdı.Uzun Həsən Osmanlı ordusunun hərbi gücünün fərqində idi və öz nümayəndələrini odlu silah almaq üçün Avropa ölkələrinə göndərirdi.Digər tərəfdən Osmanlı da, öz rəqibinə qarşı ciddi hazırlıq işləri görürdü. Nəhayət, 1473-cü il avqustun 1-də baş vermiş Malatya qələbəsindən sonra,Uzun Həsənin süvariləri Osmanlı qoşunu ilə Üçağızlı dərəsində toqquşur.1473-cü ilin avqustun

11-də şiddətli döyüş başlanır. 8 saata qədər davam edən vuruşmada sona qədər üstünlüyü qorumasına baxmayaraq,sonda Osmanlı qoşunu qalib gəlir [2, s.30].

XV yüzilliyin 70-ci illərində güclənmiş və ərazicə genişlənən,Malatya döyüşündə Osmanlı qoşunun fəaliyyətini pozan Ağqoyunlu dövlətinin Otluqbeli savaşında məğlub olma səbəbləri nə idi? Qeyd edək ki, Osmanlı müəllifləri öz əsərlərində savaşın gedişatını Osmanlı qoşunlarının mütləq qələbəsi kimi təqdim edirlər.Lakin Çarlz Qreyin məlumatına görə Sultan Məhmət ilk öncə güclü müqavimətə rast gəlir və geri dönür.Həsən padşah onu yenidən təqib edir, lakin məğlub olur [1, s.35].

İlk öncə onu qeyd etməliyik ki, bir tərəfdə siyasi cəhətdən kifayət qədər güclənmiş və dövrünün güclü hərbi texnikasına yiyələnmiş Osmanlı ordusu, digər tərəfdə isə Uzun Həsənin fəaliyyəti ilə nisbətən güclənməsinə baxmayaraq, hərbi cəhətdən Osmanlı ilə müqayisədə o qədər də möhkəm olmayan Ağqoyunlu süvariləri dayanırdı.Təchizat baxımından qarğı ,qılınc,şeşbər ,topuz kimi silahlarla təmin olunan Uzun Həsənin qoşunları odlu silaha,ağır toplara malik Osmanlı ordusuna qarşı vuruşurdu. Sultan Məhmətin Anadoluda ən güclü rəqiblərindən başlıcası Uzun Həsən idi və döyüşə ciddi hazırlaşmışdı.Coğrafi ərazi baxımından döyüşün baş verdiyi yer əlverişsiz idi. Qayalıqlardan ibarət olduğu üçün, atların hərəkəti çətinləşirdi. Malatya qələbəsindən sonra Uzun Həsənin Osmanlı üçün əlverişsiz mövqeni gözləmək istəməsinə baxmayaraq, sərkərdələrin təkidi ilə, Osmanlıları təqib etməyə başladı. Mənbələrdə Osmanlı əsgərlərinin say baxımından çox olduğu göstərilir. Sultan Məhmətin ordusu təkcə türklərdən ibarət deyildi. Bosniya, Trabzon, Alanya, Kastamonudan çoxlu sayda qoşun Mərmərə dənizindən Anadoluya yönəldilər [4, s.571].

Məğlubiyyətin ən başlıca səbəblərindən biri də Qərb dövlətlərinin Uzun Həsənlə bağladığı müqaviləyə əməl etməməsi idi. Venesiya ikili siyasət yeridərək Uzun Həsəni Osmanlıya qarşı vuruşdurmağa çalışırdı.Ağqoyunlu-Venesiya münasibətlərinin həm iqtisadi, həm də siyasi səbəbləri vardı.Müstəmləkəçilik siyasəti yürüdən Avropa dövlətləri üçün Osmanlı başlıca maneə sayılırdı.Venesiya Osmanlını məğlub etdikdən sonra, əlverişli ticarət məntəqələrini ələ keçirmək istəyirdi. İstanbulun fəthindən sonra boğazlarda möhkəmlənən Osmanlı Avropa ölkələri üçün, təhlükə törədirdi [2; 3].

1471-ci ildə İosafat Barbaronun rəhbərliyi ilə Venesiya elçisi Ağqoyunlu sarayına üz tutur. Lakin heyət üç il sonra yalnız, 1474-cü ildə Uzun Həsənin qərargahına gəlib çatır. Uzun Həsən Venesiya nümayəndəsini yaxşı qarşılamadı.Venesiya dövləti Katerino Zeno vasitəsilə bağlanmış müqaviləyə əməl etməmişdi, buna görə də Uzun Həsən İosafat Barbaro ilə yeni danışıqlara girişmədi [3, s.85-86].

Sonrakı illərdə danışıqlar sayəsində bir sira dövlətlərlə (Venesiya, Vatikan, Neapol krallığı, Macarıstan, Kipr ) krallığı ilə hərbi-siyasi birlik yaratmasına baxmayaraq tərəflərdən yalnız bir neçəsi hərbi danışıqlarda iştirak etmişdi .

Beləliklə, Otluqbeli savaşında Anadolunun iki qüdrətli türk hökmdarı qarşılaşdı.Bu savaşın qalibi qeyd etdiyimiz səbəblərdən ötrü Osmanlı qoşunu olmuşdur. Lakin Türk dünyası üçün Qərbdən gələn təhlükə son bulmadı.İki Türkmən dövləti arasında baş vermiş döyüşün nəticəsi sonrakı hadisələrə də, öz təsirini göstərmişdir.

**Açar sözlər**: Ərazi, müharibə, işğal, sərhədlər.

## Ədəbiyyat

1. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlər, Bakı, 1995.
2. Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri, Bakı, 2007.
3. Azərbaycan tarixi yeddi clddə 3-cü cild, Bakı, 2007.
4. Əbu-Bəkr-İ Tehrani, Kitabi Diyərbəkiriyyə.

# ƏLİLLİYİ OLAN GƏNCLƏRİN SOSİAL PSİXOLOJİ PROBLEMLƏRİ

**Naciyə Həsənova**
Azərbaycan Universiteti
hesenova.naciye@mail.ru

“Əlillik” sözünün ümumi bir tərifinə rast gəlinmir. Halbuki tərif verməklə bağlı bir sıra cəhdlər olmuşdur. Əlillik latın sözü olub “invalidus” sözündən götürülüb. “İn” – yox, “validus” – güclü deməkdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Fəaliyyət, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatında əlilliyi yalnız "tibbi" və "bioloji" funksiyasızlıq kimi görmür**.** ÜST tərəfindən iki əsas anlayış mövcuddur:

- Qüsur
- Əlillik

Qüsur dedikdə, psixoloji, fizioloji və ya bədən quruluşunun (funksiyasının) pozulması, eləcə də hər hansı bir çatışmazlıq nəzərdə tutulur. Məsələn, iflic, eşitmə, görmə və s. Əlillik dedikdə isə iş fəaliyyətinin yerinə yetirilməməsi, qabiliyyətlərin olmaması (qüsurlardan yaranmış) və ya hər hansı bir məhdudiyyətin olması aid edilir.[6]

Anadangəlmə, xəstəlik və ya xəsarət nəticəsində əlillik 2 yerə bölünür:

- Fiziki (görmə və ya eşitmənin; ətrafların itirilməsi və s.)
- Əqli (autizm, daun sinderomu və s.)

Azərbaycan qanunvericiliyinə əsasən əlilliyin 3 dərəcəsi(birinci, ikinci və üçüncü dərəcə) müəyyən edilmişdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əlilliyin müəyyən olunması meyarlarına dair Əsasnamə”sinə əsasən

- ✓ Birinci dərəcə əlliliyə qan dövranının üçüncü dərəcəli xroniki çatışmazlığı, xroniki böyrək çatışmazlığı, inkurabel onkoloji xəstəliklər, davranış pozulmaqla uzunmüddətli (iki ildən çox) təzahür edən psixotik hallar və s.;
- ✓ İkinci dərəcə əlilliyə ağır formalı bədxassəli qan xəstəlikləri, ikinci dərəcə tənəffüs çatışmazlıq, qabarıq yaddaş zəifliyi, epilepsiya, xroniki yayılmış dəri xəstəlikləri və s.;
- ✓ Üçüncü dərəcə əlilliyə əlin və ya pəncənin iflici, II mərhələ bədxassəli şişlər, epilepsiya seyrək tutmalarla və s aid edilir [1].

Dünya əhalisinin təxminən 15%-i (təxminən 1 milyard adama bərabərdir) əlilliyi olan şəxslərdir. Onlardan 2 – 4%-i fəaliyyətində əhəmiyyətli dərəcədə çətinlik yaşayırlar [5]. Azərbaycanda isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin

veridiyi məlumata görə, ölkədə 620 minə yaxın əlilliyi olan şəxs var [3]. Bunun 72 min nəfəri uşaqlardır [2]. 44 günlük Vətən müharibəsi nəticəsində 2021-ci ildə əlillik təyin olunanların sayı əvvəlki ilə nisbətən 2 dəfədən də çox olub [4].

Əlilliyi olan şəxslərə dövlət tərəfindən həm maddi, həm də mənəvi tərəfdən yardımlar göstərilir. Bura, əsasən, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Təhsil Nazirliyi, Sosial Xidmətlər Agentliyi, Azərbaycan Əlil Təşkilatlar İttifaqı, Əlilliyi olan şəxslər üçün Bərpa Müalicə müəssisələri və s. əlilliyi olan şəxslərlə bağlı qurumlardır.

Əlilliyi olan gənclər bir sıra problemlərlə, maneələrlə qarşılaşırlar. Bu problemlər onları cəmiyyətə inteqrasiya etməyə, hətta həyatın bəzi sahələrində, yəni təhsildə, istirahətin təşkil olunmasında, evlə təmin olunmada, müstəqil həyata atılmalarında və s. kimi maneələr yaradır. Ətraf mühitdə, cəmiyyətdə olan binaların, yolların, nəqliyyat vasitələrinin, kitabların əlilliyi olan şəxslər tərəfindən istifadəsi bəzən mümkünsüzdür. Çünki hər binada əlilliyi olan şəxslər üçün qaldırıcılar, bütün kitabların eşitmə və ya görmə əlilliyi olan şəxslər üçün xüsusi nəşrləri, bütün avtobuslarda pandusların olmaması onların həyat şəratini çətinləşdirir. Tək ideologiyaları deyil, ətraf aləmdəki çətinlikləri də aradan qaldırmaq lazımdır.

**Açar sözlər**: əlilliyi olan şəxslər, Əlil Təşkilatlar İttifaqı, Sosial Xidmətlər Agentliyi, əlilliyi olan gənclər, görmə və ya eşitmə əlilliyi olan şəxslər.

**Ədəbiyyat**

1. https://www.sosial.gov.az/elillikmeyarlariesasname
2. https://www.unicef.org/azerbaijan/sites/unicef.org.azerbaijan/files/2019-05/IC-BriefNote-AZE.pdf
3. https://report.az/sosial-mudafie/azerbaycanda-elilliyi-olan-sexslerin-sayi-aciqlanib-2018/
4. https://apa.az/az/sosial/azerbaycanda-elillik-teyin-olunanlarin-sayi-iki-defe-artib-680460
5. https://www.who.int/teams/noncommunicable-diseases/sensory-functions-disability-and-rehabilitation/world-report-on-disability
6. http://www.un.org/esa/socdev/enable/dis50y10.htm

## TURİZM REKREASİYA ZONALARININ YARADILMASININ MƏQSƏDLƏRİ

**Nərmin Həsənova**
Azərbaycan Universiteti
Hasanovan99@gmail.com

Turizm və rekreasiya zonaları turizm (TRZ) bazarında alıcılar kimi, hüquqi və fiziki şəxsləri daxil edə bilərik. Əsas alıcılardan asılı olaraq turizm xidmətləri bazarı fiziki-hüquqi şəxslər üçün turizm xidmətləri və maliyyə-kredit təşkilatları kimi bazar seqmentlərinə bölünə bilər [1, s.36].

Turizm rekreasiya zonasının əsas struktur elementləri müxtəlif səviyyəli turizm zonalarıdır. Üç növ turizm zonası var (sxem. 1).




**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur.

Turizm və rekreasiya sistemləri zonalarının təşkilinin müasir formaları arasında aşağıdakılar fərqləndirilməkdədir: turizm mərkəzi, turizm destinasiyası, turizm-rekreasiya klasteri, habelə turizm-rekreasiya tipli xüsusi iqtisadi zonalar.

Turizm mərkəzinin nəzdində turizm sektorunun elmi işçilər və mütəxəssislər müəyyən məkanı, turistləri cəlb edən turizm rekreasiya ehtiyatları olan zonanı, turizm sənayesinin və infrastrukturunun müvafiq səviyyəsini, bir qayda olaraq, əlverişli coğrafi mövqeni başa düşürlər [2, s.14-18].

Turizm mərkəzlərinin formalaşmasında üç qrup amili ayırmaq olar:

- yaradan (zərurətlə əlaqəli),
- həyata keçirən (resurslarla əlaqəli),
- lokalizasiya (ictimai məlumatlandırma ilə əlaqəli).

Zona təşkilinin növbəti forması turistə onun nəqliyyat, yerləşdirmə, yemək, əyləncə və s. ehtiyaclarını ödəyən müəyyən xidmətlər kompleksini təklif edən ərazi kimi başa düşülən və onun səyahət yeri olan turizm məkanıdır [5, s.100-104].

Turizm zonalarının bir neçə növü var. Birinci növə əhəmiyyətli turizm potensialı, zəngin mədəni-tarixi resursları və inkişaf etmiş turizm infrastrukturu olan paytaxt şəhərləri daxildir [4, s.127-134].

İkinci növ iki alt tipdən ibarətdir: yerli adət-ənənələrin, adətlərin və mədəniyyətin məqsədyönlü inkişafı mərkəzləri, inkişaf etmiş turizm müəssisələri şəbəkəsinə və müxtəlif tarixi-mədəni potensiala malik olan turların təşkili mərkəzləri.

Üçüncü növ turizm məqsədləri üçün xüsusi olaraq tikilmiş mərkəzlər (kurortlar, əyləncə parkları, etnik kəndlər, sanatoriyalar və s.) tərəfindən formalaşır.

Turizm-rekreasiya zonalarının yaradılmasında məqsəd sinergetik effekt vasitəsilə regionun turizm bazarında rəqabət qabiliyyətinin artırılması, o cümlədən innovativ turizm məhsullarının yaradılmasının stimullaşdırılması və klasterə daxil olan təşkilatların fəaliyyətinin səmərəliliyinin artırılmasıdır [2, s.34-38.].

Turizm rekreasiya zonalarının yaradılması bir sıra problemləri həll edir:

- rəqabətqabiliyyətli regional turizm məhsulunun və ya xidmətinin formalaşdırılması;
- turizm və əlaqəli sənaye sahələrində iş yerlərinin yaradılması;

- kadrların ixtisasının və turizm xidmətlərinin keyfiyyətinin davamlı olaraq təkmilləşdirilməsi;
- turizm məhsul və xidmətlərinin formalaşdırılması, təşviqi və satışı üçün yeni innovativ texnologiyaların yaradılması və tətbiqi.

Məqsəd və vəzifələrə uyğun olaraq turizm-rekreasiya zonalarının formalaşmasının dörd mərhələsini ayırd etmək olar:

- 1 ci mərhələ - mövcud turizm və rekreasiya resurslarının və turizm potensialının təhlili, ərazinin rəqabət üstünlüklərinin müəyyən edilməsi;
- 2 – ci mərhələ zonada spesifik üstünlüklərə malik turizm mərkəzlərinin, unikal turizm məhsulu və ya xidməti istehsal etmək imkanlarının müəyyən edilməsi;
- 3-cü mərhələ - turizm mərkəzləri əsasında, turizm sahəsində funksiyaları yerinə yetirmək imkanına malik olan turizm mərkəzlərinə bitişik zonalardan istifadə etməklə turizm istiqamətlərinin formalaşdırılması;
- 4-cü mərhələ - əsas turizm innovasiyalarının generatoru və turist axınlarının distribyutorunun müəyyənləşdirilməsini nəzərdə tutan turizm-rekreasiya zonalarının faktiki formalaşdırılması, əsas turistik yerlərin və marşrutların cəmləşdiyi ərazilərin dəstəklənməsi, regionun inzibati hüdudlarından kənara çıxa bilən, regionlararası turizm əməkdaşlığının ərazisini əhatə edən və qonşu oxşar sistemlərlə üst-üstə düşən ərazilərə qədər uzanan turizm biznesi perspektivləri sahəsidir.

**Açar sözlər:** Turizm, rekreasiya, zona, mahiyyət, yaradılma.

### Ədəbiyyat

1. Abadov M.K. Azərbaycanın turizmi və onun inkişaf problemləri, ŞərqQərb, Bakı, 2014, 248 s.
2. Əlirzayev Ə.Q. Turizm iqtisadiyyatı və idarə edilməsi, İqtisad Universiteti nəşriyyatı, Bakı, 2011, 494 s.
3. Əsgərova Ə.T, Bilalov B.Ə, Gülalıyev Ç.G. Ekoloji turizm, Adiloğlu, Bakı, 2011, 276 s.

## PANDEMİYA VƏ "VƏTƏN MÜHARİBƏSİ" ZAMANI YEYİNTİ SƏNAYESİNDƏ RƏQƏMSAL MARKETİNQ

**Vüsal Heydərov**
Azərbaycan Universiteti
vusalheydaroff@gmail.com

Bütün dünyanı sarsan pandemiya təəssüflər olsun ki, bizim ölkəmizdən də yan keçmədi və öz təsirini hər bir sahədə göstərdi. O cümlədən yeyinti sənayesinin də geriləməsinə səbəb oldu. Müəllif məqalədə iqtisadiyyatın rəqəmsallaşması və həmçinin rəqəmsal marketinqin pandemiya və "Vətən Müharibəsi" dövründə əldə olunan empirik nəticələrinin üstünlüklərindən və çatışmazlıqlarından bəhs edib.

2020-ci ilin əvvəlindən yayılan pandemiya dünya iqtisadiyyatının hər bir sahəsinə nəzərə çarpacaq dərəcədə təsir etdiyinə görə Azərbaycan Respublikasının da digər ölkələrlə ticari əlaqələri sayəsində bizim ölkəyədə öz təsirini göstərmişdi. Bu sahədə fəaliyyət göstərən yeyinti müəssisələri öz istehsallarını bir qədər azaltmış və analoji olaraq isə işçilərin ixtisar olunması ilə nəticələnmişdir. Artıq hamıya aydındır ki, işsizlik faizi artdıqca iqtisadiyyatın dövriyyəsi zamanla aşağı düşür. İstehlakın azalması məhsulların təklifini azaldır ki, bu da müəssisələrin mənfəət göstəricilərinə mənfi təsir edir. Əgər ölkə iqtisadiyyatında istehsalın payı azalırsa, eyni zamanda mənfəət aşağı düşürsə dövlət büdcəsinə praqnozlaşdırılmış vergi gəlirləri azalır ki, nəzərdə tutulan dövlət xərcləri məcburi götürülmüş xarici kreditlərin və həmçinin son mərhələdə Mərkəzi bankın emisiya etdiyi kağız pullar sayəsində ödənməli olur.

Bildiyimiz kimi son mərhələdə olsa belə kağız pulların emisiyası ölkədə inflyasiyaya səbəb olur. Mərkəzi bank monetar siyasəti həyata keçirdiyinə görə faiz uçot dərəcəsini qaldırır. Faiz uçot dərəcəsinin qalxması isə kommersiya banklarının, sahibkarların və həmçinin adi vətəndaşların kredit götürməsinə mane olur [1].

İngiltərədə məcburiyyət qarşısında yaranmış sənaye inqilabı kimi nəinki Azərbaycan Respublikasında hətta dünyanın bir çox ölkələrində insanların kütləvi şəkildə online biznesə keçmələrinə səbəb oldu. Gənc nəsil üçün nə qədər prioritet yanaşma olmasına baxmayaraq yaşlı nəsilin elektron cihazlardan və ya android tipli mobil vasitələrdən istifadəsi çətin olduğuna görə bunu rəqəmsallaşmanın çatışmazlığı kimi qiymətləndirmək olar. Çünki alqı-satqı zamanı istifadə olunan e-banking proqramlarının təkmil hala gəlməməsi bəzən funksional olaraq qeyd olunan beynəlmilər sözlərin çoxluğu bu proqramlardan istifadəni çətinləşdirir.

Rəqəmsal iqtisadiyyata keçidin digər çatışmamazlığı isə "Vətən Müharibəsi" zamanı internetin kəsilməyi iqtisadi tsiklin ləngiməyinə gətirib çixartdı. Hətta istifadə olunan VPN-lərin (Virtual Private Network) qısa müddətlərdə tez-tez şəbəkədən ayrılması prosessin gecikməyinə səbəb olurdu. Lakin bütün bu çatışmazlıqlara baxmayaraq rəqəmsallığın üstün cəhətləri də vardır ki, ilk növbədə reklam olunan məhsulların rəqəmsal marketinq kanalları sayəsində daha da ucuz qiymətə həyata keçməsidir. Çünki istənilən sahədə fəaliyyət göstərən sahibkar daha az xərc edib daha çox gəlir əldə etmək istəyir ki, bunu da reklama xərclədiyi az vəsait sayəsində qismən nail ola bilir. Ənənəvi marketinqdə isə reklama xərclənən vəsaitin çoxluğu artıq rəqəmsal marketinqin daha aktual olmasına səbəb oldu.

2020-ci ilin əvvəlində 29 ölkədə marketinq liderləri arasında aparılan sorğuda iştirak edənlərin 83 % -i sosial mediadan marketinq strategiyası üçün rəqəmsal kanal kimi istifadə etdiklərini bildiriblər [2].

Rəqəmsal marketinqin dünya üzrə statistikası:

Marketoloqların 63%-i deyir ki, onların ən böyük məzmun problemi trafiki idarə etmək və potensial müştərilər yaratmaqdır.

Marketoloqların 36%-i ənənəvi və rəqəmsal marketinq səylərini birləşdirməyə çalışır.

2020-ci ilə qədər müəssisələr rəqəmsal reklama 110 milyard dollar xərcləyib. (Mənbə: EMarketer)

Ənənəvi marketinq rəqəmsal marketinqlə müqayisədə müştərilərlə 50% daha az qarşılıqlı əlaqə yarada bilir.

Marketoloqların 70%-də inteqrasiya olunmuş strategiya məzmunu çatışmır.

İnternet üzərindən trafiki marketinq strategiyalarının məzmunu üçün ən çox rast gəlinən müvəfəqiyyətli iki ən yaxşı ölçü metodlarından biridir [3].

Qida sənayesi Rəqəmsal Marketinq tərəfindən inqilab edən sənayelərdən biridir. Yemək həvəskarları üçün mobil telefonları ilə internetə çıxışı olan istənilən restoran və kafelərin rəylərinə daxil olmaq çox asanlaşıb. Yeni rəqəmsal marketinq kanallarının tətbiqi ilə restoran sahibləri üçün yaxınlıqda öz potensial müştərilərini axtarmaq asanlaşmışdır. Rəqəmsal qida marketinq strategiyanız dad, sağlamlıq və əlverişlilik kimi amillərə diqqət yetirməlidir. Yeni rəqəmsal marketinq kanallarının tətbiqi ilə qida sənayesi də inqilab etdi.

**Açar sözlər:** rəqəmsal marketinq, yeyinti sənayesi, ənənəvi marketinq.

### Ədəbiyyat

1. Introduction to Banking 1st edn by Barbara Casu, Claudia Girardone, Philip Molyneux, 2006.
2. https://www.statista.com/statistics/1203256/digital-marketing-channels-worldwide/
3. https://www.digitalthirdcoast.com

## MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFININ RESURS TƏMİNATI

**Rəşid Hüseynli**
Azərbaycan Universiteti
Resid2000@icloud.com

Gündəlik həyatımızdakı iş şərtləri,gündəlik yaşamın verdiyi yorğunluq, insanların ruhsal və bədənsəl olaraq narahatlığına səbəb olur. Bir qrup insanlar bu narahatçılıqdan qurtulmaq üçün müalicə-sağlamlıq turizm mərkəzlərinə üz tuturlar.Bu mərkəzlərdə mineral su, palçıq, isti su və neft mənbələrindən faydalanırlar.

Azərbaycanın duz ehtiyatı, şəfalı bölgəsi, mineral suları ilə məşhur olan Naxçıvan ərazisidir. Təxminən 3-4min il öncə çıxarılması ehtimal olunan duz əsasən Pusyan Nehrəm, Duzdağ yataqlarından toplanmış və müxtəlif zamanlarda Şərq və Qərb istiqamətlərinə istehlak və ticarət məqsədi ilə daşınmışdır. Burada müalicəvi imkanlara malik olan Vayxır, Badamlı, Sirab, Tivi, Darıdağ kimi mineral sular da mövcuddur [3, s.319, 327].

1979-cu ildə Zəngin duz ehtiyatının yerləşdiyi Duzdağ mağarasında “Yeraltı Duzdağ Fizioterapiya Mərkəzi” yaradılmışdır. Mərkəzdə astma xəstəliyinin müalicəsi üçün profilaktik tədbirlər həyata keçirilir. Mərkəzə gələn turistlərin istirahəti və müalicəsi müasir standartlarla təmin edilir. Müasir standartlara cavab verən Duzdağ oteli fəaliyyət göstərir. Divarları duz qayalardan yaradılmış və yeraltı hissəsinin işıqlandırılması tam təşkil edilmişdir.

Ölkəmizdə Quba-Xaçmaz, Xəzərsahili və Naxçıvan zonaları sağlamlıq turizminin inkişafı üçün yüksək potensiala malikdir. Keçmiş dövrdə ölkəmizdə bir çox sanatoriyalar fəaliyyət göstərirdi. Yerli və xarici ölkədən istirahətə gələnlərin sayı çoxluq təşkil edirdi. Lakin 1990-cı ildən başlanaraq sanatoriyaların fəaliyyəti dayandırıldı. Təcavüzkar ermənilər tərəfindən evlərindən didərgin salınan insanlar sanatoriyalar və digər məkanlara yerləşdirildi. Kurortların inkişafına dair Dövlət Proqramında (2009-2018) həll yolları, bu kimi məsələlər, turizm fəaliyyətlərinin yenidən təşkili məsələləri öz əksini tapmışdır [1, s.15, 34].

2020-ci ildə Müzəffər orduzumuz qələbəsi ilə torpaqlarımız işğaldan azad olması,gələcək illərdə turizm sahəsinin inkişafına da təkan verir. Kəlbəcərdə olan İstisu mineral ehtiyatları Kəlbəcərin qərb hissəsində yerləşir. Qotursu,Aşağı İstisu, Yuxarı İstisu, və s. kimi mineral bulaqlarla zəngindir. 1138-ci ildə güclü zəlzələnin baş verməsi nəticəsində yaranmışdır. İsitisu mineral bulaqları zəngin xüsusiyyətlərinə görə dünyada seçilir. Azərbaycanın şimal-şərqində yerləşən Şabran ərazisində Xaltan müalicəvi istisu ehtiyatı mövcuddur. Gələn turistlər burada isti su vannaları qəbul edirlər. Suyun hərarəti 50 dərəcəyə qədər yüksəlir.

Palçıq vulkanları XX əsrin 60-cı illərində öyrənilmiş və müalicəvi xassələri sübut olunmuşdur. Professor Adil Əliyevin sözlərinə əsasən, ölkəmizin Xəzər akvatoriyasında 300-350 palçıq vulkanı aşkar edilmişdir.Mineral duz, mikroelementlər və üzvi birləşmələr olduğuna görə insan sağlamlığına müalicəvi təsir göstərmək xüsusiyyətinə malikdir. Vulkan palçığının yer üzərində olan palçıqdan fərqi tərkibində zəngin mineralların və digər maddələrin olmasıdır. Vulkan palçığından dermotoloji, əsəb, onurğa, oynaq, mədəbağırsaq, şəkərli diabet və s. xəstəliklərdə və kosmetologiyada istifadə olunur. Respublikamızda bir çox vulkan palçığı mənbələri vardır ki, böyük müalicəvi xüsusiyyətləri vardır. Ölkəmizdə mühüm təsirə malik vulkan palçığı bir çox ərazidə mövcuddur. Bu resurslardan əlverişli qaydada istifadə edilmir. Əsasən, bəzi fiziki şəxslər tərəfindən istifadə edilsə də, müalicəsinə tələbatı olan turistlərin ehtiyyaclarını təmin edə bilmir. Bir çox xətəliyə şəfa olduğu kimi, iflic xəstəliyi olan uşaqlar üçün mühüm bir müalicə üsulu olan vulkan palçığı istifadəyə cəlb edilərsə müalicə turizmin inkişafına böyük dəstək vermiş olar. Odessa və Krım kurortlarında bu palçıqla insanlara müalicə-sağlamlıq xidmətləri göstərilir. Ələt rayonunda yerləşən palçıq vulkanlarından, yay aylarında bəzi insanlar “Misir” metodu ilə istifadə edir. Qısaca olaraq, həmin insanlar dəniz sularından və “Bahar” vulkanlndan istifadə edərək proseduru həyata keçirirlər. Lakin bir çox ərazidə palçıq kurortlarının yaradılması və təşkilinə böyük ehtiyac vardır. Xəzərsahili zonada palçıq vulkanı mənbələri yerləşən ərazilərdə sanatoriyalar yaradaraq istifadəyə vermək mümkündür. Bu işdə dövlət dəstəyinə böyük ehtiyac vardır [2, s.7].

İqlim kurortlarına misal olaraq Kiçik Qafqazın Şuşa dağ-iqlim kurort zonasını,Böyük Qafqaz,Talış zonalarını göstərə bilərik.Naxçıvanın iqlim kurort zonası hündürlüyü 1700 m-dən başlayan Batabat zonasıdır.

**Açar sözlər:** Turizm, müalicə, sağlamlıq, resurs.

**Ədəbiyyat**

1. Azərbaycan turizmi: bu gün və sabah, IV Respublika elmi-praktiki konfransının materialları, Bakı-2013.
2. Əliyev A. Azərbaycan qəzeti, Bakı, 2016, 29 oktyabr.
3. Mustafayeva S. Turkiyədə inkişaf etmiş turizm növlərinin Azərbaycana tətbiqi formaları. Turizm və qonqapərvərlik tədqiqatları, Bakı, 2016.

# AQROBİZNESİN SƏMƏRƏLİ TƏŞKİLİNDƏ ELEKTRONLAŞMANIN PRİORİTET İSTİQAMƏTLƏRİ

**Rəfael Hüseynov**
Azərbaycan Kooperasiya Universiteti
i.quliyev68@mail.ru

Hazırda ölkəmizdə aqrobiznesin təşkilində İKT-nin və elektron kommersiyanın tətbiqi imkanlarından faydalanmaq zərurəti yaranmışdır. Beynəlxalq təcrübə göstərir ki, aqrar subyektlərin öz təsərrüfatlarını səmərəli şəkildə idarə etmələri üçün lazımi informasıya əldə etmək imkanlarına malik olmalıdırlar. BuM prinsip etibarilə dəqiq təsərrüfatçılığa zəmin yaradır.Dəqiq təsərrüfatçılıqda GPS, kompüter, internet şəbəkə, peyklər, sensorlar və s. istifadə olunur.

Simsiz Sensor Şəbəkələri (SSŞ) vasitəsilə əlaqə fermerlər üçün daha geniş sistemlərin yaranması ilə nəticələnir. Ona görə ki, onlar bir çox sensor məlumatlarının bir yerə yığılmasını təmin edən innovativ texnologiyadır. Onların bor üstünlüyü də ucuz qiymətləridir.Bundan əlavə elektrik enerjisi ilə təchizat problemi olan ərazilərdə batareya və alternativ enerji ilə çalışan SSŞ cihaz növləri vardır.

Məlumdur ki, məhsuldarlığın artması üçün bitkilər xəstəliklərdən və zərərvericilərdən qorunmalıdır. Lakin şox vaxt fermerlər bitkilərdə olan xəstəlikləri vaxtında aşkar edərək düzgün qiymətləndirə bilmirlər.Nəticədə zərərvericilərə qarşı həddindən artıq kimyəvi maddələrin istifadə olunur və onlara çəkilən xərclər artır. Aqrabiznesin inkişaf etdirilməsi üçün zərərvericilərə qarşı mabaruzədə İKT-dən müxtəlif istiqamətlərdə istifadə olunur. Niderland təcrübəsinə istinadən deyə bilərik ki, kartofda göbələk xəstəliklərinin yaranması iqlim şəraotindən asılı olduğuna görə fermerlər hava şəraitini bilərək, müvafiq kimyəvi maddələrdən istifadə edir və xəstəliyun qarşısını alırlar.

Məhsulların qorunmasına dair məlumatın yayılmasında İKT əhəmiyyətli rol oynayır.Xəstəliklərin yayılmasının qarşısını almaq üçün, aqroistehsalçılar xəstəliklər barədə məlumatlandırılmalıdır. Əgər onlar məhsullarda olan potensial xəstəliklər barədə məlumatları vaxtında tədqiqatçılara göndərə bilsələr, tədqiqatçılar da öz növbəsində xəstəlikləri izləməklə epidemiyaların qarşısını ala bilərlər. İstehsalçıların internetdən istifadə imkanları nə qədər geniş olarsa, onlar xəstəliklər haqqında məlumatı elektron məktublar şəklində bir o qədər qısa müddətə yaya bilərlər.

Aqrar sahənin təbii-iqlim şəraiti ilə bağlılığı hava haqqında məlumatların zərərvericilər və xəstəliklərlə əlaqələndirilməsi reallığını ortaya qoyur. 2000-ci ildən etibarən İKT aqroistehsalçılara iqlim risklərini idarə etmək üçün imkanlar yaradır. peyklərdən çəkilən şəkillər onlara məhsulun və əkin vaxtının seçilməsi, eləcə də gübrənin əlavə olunması ilə bağlı qərarların verilməsində yardımçı ola bilərlər [3, s.124].

Hazırda uzaqdan idarə olunan sensorlar iqlim haqqında informasiyaların əsas mənbəyi hesab edilir. Məhz bu vasitə ilə FAO qida haqqında qlobal informasiya və erkən xəbərdarlıq sistemləri,ərzaq təhlükəsizliyi, qiymət riski və təbii fəlakətlərlə bağlı məlumatları izləyir. Elektronik hava məlumatı sistemlərinin riski azaltmaq və məhsuldarlığı artırmaq potensialı vardır. Bu sistemlər əsasən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində sınaqdan keçirilir. Xüsusi qeyd etmək olar ki,e-Warning (e-xəbərdarlıq) sistemi fermerlərə real vaxta uyğun hava məlumatları verir. Bu sistem vasitəsilə verilən hava məlumatı yağıntı və temperatur daxil olmaqla, on kvadrat kilometrlik sahələri əhatə edir. e-xəbərdarlıq və digər sistemlərində "Push" və ya "Pull" növlü qısa mesaj məlumatları əldə edilə bilər. "Push" növlü mesajlar istifadəçinin abunəliyi və daimi avtomatik yeniləmələrlə əldə olunur. "Pull" növlü mesajlar isə yalnız istifadəçi istədiyi vaxtda göndərilir. Araşdırmalar göstərir ki, "Push" növlü mesajlar təsərrüfat subyektlərini gündə dörd dəfə hava məlumatı ilə təmin etdiyindən daha populyardır.

Aqrobiznes sferasında elektronlaşma həm də təsərrüfat subyektlrərinin maliyyə mənbələrinə və xidmətlərinə, satış şəbəkələrinə çıxışının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.Müasir dövrün reallıqları göstərir ki, dünyanın ərzaq məhsullarının böyük hissəsi kiçik təsəsrrüfat subyektlərindən asılıdır. Buna baxmayaraq, maliyyə vəsaitlərinin çatışmazlığı onların məhsul istehsalının genişləndirilməsi üçün investisiya cəlb etmək, həmçinin məhsil bolluğu və qıtlığı vaxlarında istehlakın tənzimlənməsi ilə bağlı cəhdlərinin səmərəlilyini azaldır. Ona görə də investisiya nəhdudiiyyəti ilə qarşılaşan istehsalçı gəlirin artırılması əvəzinə məcburən risklərin azaldılması məsələləri ilə məşğul olur [1, s.273].

Hazırda İKT fermerlərə maliyyə xidmətlərinin göstərilməsi, dövlət qurumlarına isə səmərəli maliyyə siyasətinin işlənilməsi və həyata keçirilməsi imkanı verir.Aqrar sahədə İKT-nin maliyyə xidmətləri baxımından istifadəsinin əsas şərtləri üclü maliyyə sisteminin, tərəflər arasında elektron maliyyə əməliyyatlarının aparılmasını təmin edən infrastrukturun mövcudluğudur.Binlardan birincisi,yüksək sürətli interneti və mobil telefonlara sərfəli qiymətləri özündə birləşdirən, elektron maliyyə əməliyyatlarının əsasını təşkil edən İKT infrastrukturu, ikincisi isə maliyyə infrastrukturudur. O, texniki baxımdan maliyyə sisteminin bütövlüyü üçün vacib olan təminatçıların bir biri ilə əlaqə qurmaq və əməliyyatlar aparmaq imkanları yaradır.Maliyyə infrastrukturu bir bankın müştərilərinə digər bankın ATM-lərindən istifadə etmək və ya başqa bankın müştəriləri ilə əməliyyatlar aparmaq imkanı verir.

İnformasiya texnologiyasının kənd təsərrüfatı məhsullarının ticarətindəki əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda da ənənəvi satışdan daha müasir və yaradıcı informasiya texnologiyalarına əsaslanan satış metodlarını tətbiqi istiqamətində tədbirlər görülməlidir. Bu, aqrobiznes fəaliyyətinin səmərəliliyini əhəmiyyətlu dərəcədə artıra bilər.

**Açar sözlər:** maliyyə, informasiya, infrastruktur, aqrobiznes, xidmət, qiymət.

**Ədəbiyyat**

1. Abbasov İ. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqmətləri. Bakı: Elm və təhsil, 2011, s.640.
2. Aqrar sahə modernləşmə dönəmində: (problemlər və onun həlli yolları)/ İ.H.Alıyevin redaktəsi ilə. Bakı: Bəxtiyar – 4, 2009, s.505.
3. Əhmədov G.İ. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri. Bakı: Elm, 2010, s.484.
4. Əkbərov M.Q. Elektron kommersiya. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2011, s.212.

## SIĞORTA BAZARININ MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Tayfun Hüseynov**
Azərbaycan Universiteti
tayfunhuseynov@yahoo.com

Sığorta xidmətləri inkişaf etmiş ölkələrin iqtisadiyyatında aparıcı sektorlar sırasında gəlir və ciddi şəkildə iqtisadiyyatda dəyər yaradan sahələrdən hesab olunur. Sığorta sahəsi bir xidmət sferası olaraq, cəmiyyəti daima əsasda xoşagəlməz və arzuolunmaz hadisələrdən baş verə biləcək zərərlərdən qoruyur. Azərbaycan Respublikasında sığorta sahəsində qərarlar “Sığorta haqqında”qanun əsasında qəbul edilən digər qanunvericilik aktlarına, habelə Dövlət Sığorta Nəzarətinin normativ aktlarına uyğun olaraq həyata keçirilir [3].

Hal-hazırda sığorta sahəsində geniş miqyasda tənzimləmələr aparılır və 2020-ci ildə dünya miqyasında baş verən “COVİD-19” pandemiyası ilə bağlı olaraq bir çox sahədə olduğu kimi sığorta sahəsindədə özünü göstərdi.Baş verən maliyyə ehtiyyatı çatışmazlığından yaranan səbəblərdən bəzi sığorta şirkətləri fəaliyyətini dayandırmalı oldu.Buna misal olaraq Mərkəzi Bankın qərarı ilə Standard Insurance Sığorta Şirkətinin sığorta fəaliyyəti üzrə lisenziyası ləğv edilmiş və məhkəmənin müflis olma ilə əlaqədar vermiş olduğu qərar 14 Sentyabr 2020-ci il tarixdə qüvvəyə minmişdir [1]. Hal-hazırda isə 20-ə yaxın sığorta və 1 (AzRe Təkrarsığorta) təkrarsığorta şirkətləri fəaliyyət göstərir [1]. Sığorta sisteminin inkişafının, sığorta bazarının peşəkar iştirakçılarının, o cümlədən sığortaçıların, təkrarsığortaçıların, sığorta vasitəçilərinin fəaliyyətinin əsas istiqamətlərini və prinsiplərini, habelə sığorta sahəsində tənzimləmə və nəzarətin hüquqi və iqtisadi əsaslarını “ Sığorta fəaliyyəti haqqında “qanun müəyyən edir və tənzimləyir [2].

Hazırda sığorta bazarının vəziyyəti inkişaf tempi olaraq pandemiyadan əvvəlki illərdən asılı olaraq daha yavaş gedirdi lakin buna baxmayaraq baş verən bəzi islahatlardan sonra yenidən artmağa başlamışdır.Sadəcə fiziki şəxslər üzrə hesablanmış sığorta (təkrarsığorta) haqlarına baxaq.Hesabat ilində (2021) sığorta sinifləri üzrə cəmi 196894,0 manat,2020-ci ildə 175663,9 manat olmuşdur. Könüllü sığorta üzrə hesabat ilində 111842,1 manat ,həyat sığortası üzrə 88070,9 manat, qeyri-həyat sığortası üzrə 23771,2 manat olmuşdur.Buna müvafiq olaraq 2020-ci ildə bu rəqəmlər 105429,6

manat könüllü sığorta, 79999,9 manat, həyat sığortası və 25429,8 manat qeyri həyat sığortası təşkil edir.(ədədlər min manat olaraq qeyd edilmişdir) [4].

Sığorta bazarının inkişaf etməsi üçün ən vacib şərrtlərdən birisi tarif siyasətinin formalaşmasıdır. Bunun üçün qarşıya qoyulan əsas məqsəd sığorta bazarında münasib tarif qiymətlərinin formalaşmasıdır.Bunun üçün sığorta şirkətləri risklərini örtməklə zəruri mənfəətini ele təşkil etməlidir ki,müştərilər üçündə bu qiymətlər əl çatan olsun. Bunun üçündə gündəmdə olan dempinq siyasətindən digər sığorta şirkətləri ilə qarşılıqlı razılaşmalar əsasında əl çəkərək daha formalaşdırılmış və uyğun tariflər təklif etməlidirlər. Sığorta biznesinin uzunmüddətli dövrdə dayanıqlı və davamlı inkişafı üçün şirkətlər qısamüddətli dövr üçün hesabladıqları "yüksək mənfəətlilik" fikirlərinin üstündən xətt çəkərək,daha əlverişli olan uzunmüddətli dövrə hesablanmış "kifayətedici mənfəətlilik" prinsipinə keçməlidirlər.

**Açar sözlər:** Sığorta, Sığorta haqları, COVİD-19 pandemiyası,Yüksəkmənfəətlilik.

## Ədəbiyyat

1. https://insure.az/companies/list
2. https://president.az/az/articles/view/10518
3. http://www.e-qanun.az/framework/8053
4. https://www.stat.gov.az/source/finance/az/bul/Sigorta_2020_illik.pdf

## KƏSİLMƏ ŞƏRTİNƏ MALİK ŞTURM -LİUVİL TƏNLİYİ ÜÇÜN BÜTÜN OXDA SƏPİLMƏNİN DÜZ MƏSƏLƏSİ

**Hidayət Hüseynov, Türkan Bağırzadə**
Azərbaycan Universiteti
bagirzadaturkan@gmail.com

Bütün oxda

$$-y'' + q(x)y = \lambda^2 y \tag{1}$$

tənliyinin və hər hansı $a \in (-\infty, +\infty)$ nöqtəsində

$$y(a-0) = \alpha y(a+0), \qquad y'(a-0) = \beta y'(a+0) \tag{2}$$

şərtlərinin yaratdığı məsələyə baxaq. Burada $q(x)$ –həqiqi qiymətli funksiyadır və

$$\int_{-\infty}^{\infty}(1+|x|)\,|q(x)|dx<+\infty \tag{3}$$

şərtini ödəyir. (1)-(2) məsələsinin $\lim_{x\to\pm\infty} e^{\pm i\lambda x}$ =1 şərtini ödəyən həllərinə Yost həlləri deyilir. Aydındır ki, $q(x)\equiv 0$ olduqda Yost həlləri

$$e_0^{\pm}(x,\lambda)=\begin{cases} e^{\pm i\lambda\lambda}, \pm x > \pm a \\ \frac{\alpha^{\pm}+\beta^{\pm 1}}{2}e^{\pm i\lambda\lambda} + \frac{\alpha^{\pm}-\beta^{\pm 1}}{2}e^{\pm i\lambda(2a-x)}, \pm x < \pm a \end{cases}$$

şəklindədir.

**Teorem.** (3) şərti ödənərsə, onda qapalı yuxarı yarımmüstəvidən olan istəlinən $\lambda$ üçün (1)-(2) məsələsinin Yost həlləri var və bu həllər aşağıdakı kimi göstərilə bilir.

$$e^{\pm}(x,\lambda)=e_0^{\pm}(x,\lambda)\pm\int_x^{\pm\infty} k^{\pm}(x,t)e^{\pm i\lambda t}dt.$$

Burada $K^{\pm}(x,t)$ həqiqi qiymətli funksiyalardır. $K^{+}(x,\cdot)\in L_1(x,+\infty)$, $K^{-}(x,\cdot)\in L_1(-\infty,x)$ . Qeyd edək ki, (1)-(2)məsələsi α və β -nın müəyyən qiymətlərində müəyyən Hilbert fəzasında öz-özünə qoşma məsələ olur. (məsələn, α=1=β; α $=\beta^{-1}$ hallarında $L_2(-\infty,+\infty)$ fəzasında; $\alpha=1$, β≠1 və ya α≠1, β=1 hallarında çəkili $L_2$ fəzasında və s.) Öz -özünə qoşmalıq halında məsələnin sonlu sayda həqiqiqi mənfi məxsusi ədədləri olur : $-\mu_1^2, -\mu_2^2, \ldots\ldots\ldots \mu_n^2$. Bu məxsusi ədədlər Yost həllərinin köməyi ilə tapılır. Sonra məsələnin sağ və sol məxsusi funksiyaları qurulur. $U^{\pm}(x,\lambda), U_k^{\pm}(x), k=1,n$ və nəhayət sağ sol normallaşdırıcı ədədləri

$$m_k^{\pm}=\|U_n^{\pm}(x)\|.$$

Məxsusi funksiyaların asimptotikaların $\{r^{\pm}(\lambda), \mu_{k,} m_k^{\pm}\}$ kəmiyyətləri müəyyən edir.

$\{r^{+}(\lambda), \mu_{k,} m_k^{\pm}\}$ kəmiyyətlərinə sağ səpilmə verilənləri, $\{r^{-}(\lambda), m_{\bar{k}}\}$ isə sol səpilmə məsələləri deyilir. $r^{\pm}(\lambda)$-sol, $r^{+}(\lambda)$ isə sağ əks etmə əmsalıdır. Göstərilir ki,

$$r^{\pm}(\lambda)-r_0^{\pm}(\lambda)=O(\tfrac{1}{\lambda}), \qquad |\lambda|\to\infty$$

Burada

$$r_0^{\pm}(\lambda)=\frac{\alpha-\beta}{\alpha+\beta}\cdot e^{\pm 2ia\lambda}$$

$q(x)=0$ olan halda əksetmə əmsallarıdır. (1) tənliyində əmsallar məlum olduqda səpilmə verilənlərin qurulması və onların xassələrinin öyrənilməsi səpilmənin düz məsələsi adlanır. $\alpha=\beta=1$ olduqda səpilmənin düz və tərs məsələləri həll olunmuşdur.

**Açar sözlər**: Yost həlləri, səpilmə məsələsi, tərs məsələ.

## Ədəbiyyat

1. Марченко В.А Операторы Штурма- Лиувилля и их приложения. Киев: Наукова думка, 1977, 332с.

# YARIMOXDA KƏSİLƏN ƏMSALLI İKİNCİ TƏRTİB DİFERENSİAL TƏNLİK ÜÇÜN SƏPİLMƏNİN DÜZ MƏSƏLƏSİ

**Hidayət Hüseynov, Rəsmiyyə Şamilova**
Azərbaycan Universiteti
resi.shamilova@mail.ru

İkinci tərtib kəsilən əmsallı diferensial tənlik üçün aşağıdakı məsələyə baxaq:

$$\begin{cases} -\frac{1}{\rho(x)}\ (\rho(x)y')' + q_{(x)}y=\lambda^2 y, \quad 0< x+\infty \\ y(0)=0 \end{cases} \tag{1}$$

Burada $g(x)$ həqiqi qiymətli funksiyadır və

$$\int_0^{+\infty} x|q(x)|dx < +\infty \tag{2}$$

şərti ödənir, ρ(x) funksiyası isə pilləvari funksiyadır: ρ(x)=1, əgər x<a olarsa və ρ(x)=α, əgər x>a olarsa. a∊(0,+∞) qeyd olunmuş nöqtədir. λ-spektral parametrdir, α >0 və α ≠ 1. Qeyd edək ki, α=1 olduqda (1) məsələsi üçün səpilmənin düz və tərs məsələləri [1]-də tam öyrədilmişdir.

(1) tənliyinin $\lim\limits_{x\to+\infty} y(x,\lambda)e^{-i\lambda x} = 1$ şərtini ödəyən həllinə Yost həlli deyilir. Onu e(x λ)ilə işarə edək.

**Teorem**. (2) şərti ödənərsə yuxarı yarımmüstəvidən olan istənilən λ üçün (1) tənliyinin e(x, λ) Yost həlli var və bu həll aşağıdakı göstərilişə malikdir.

$$e(x,\lambda) = e_0(x,\lambda) + \int_x^{+\infty} k(x,t)e^{i\lambda t}dt$$

Burada

$$e(x,\lambda) = \begin{cases} e^{i\lambda x} & , x > a \\ \frac{1+\alpha}{2}e^{i\lambda x} + \frac{1-\alpha}{2}\ e^{i\lambda x}, & 0 \le x \le a \end{cases}$$

funksiyası (1) tənliyinin q(x) ≡0 olduğu halda Yost həllidir, K(x,t) nüvəsi həqiqi qiymətli funksiyadır və $K(x,\cdot)\in L_1(x,\infty)$.

(1) məsələsi $L_{2,\rho}(0,\infty)$ fəzasında öz -özünə qoşma məsəlidir. e(0, λ) =0 tənliyinin yuxarı yarımmüstəvidə sonlu sayda sadə sıfırları ($i\mu_2$, $i\mu_2$ ……, $i\mu_n$ ) ola bilər. Bu sıfırların kvadratı, yəni $-\mu_1^2, -\mu_2^2, \ldots, -\mu_n^2$ (1) məsələsinin məxsusi ədədləridir.

$$m_k = \int_0^{+\infty} \rho(x)|e(x, i\mu_k)|^2 dx$$

işarə edək. (1) məsələsinin məxsusi funksiyalari

$$u(x,\lambda) = e(x,\lambda) - S(\lambda)e(x,\lambda)$$
$$u_k(x) = m_k e(x, i\mu_k), k = \overline{1,n}$$

şəklində olur. Burada S(λ)-səpilmə funksiyası, $m_k$ ədədləri isə normallaşdırıcı ədədlərdir. Beləliklə məxsusi funksiyaların x→ $+\infty$ olduqda asimptotikası $\{s(\lambda), \mu_k, m_k\}$ kəmiyyətləri ilə müəyyən edilir. Bu kəmiyyətlərə (1) məsələsinin səpilmə verilənləri deyilir. $q(x)$ məlum olduqda səpilmə verilənlərin qurulması səpilmənin düz məsələsi adlanır.

**Lemma.** $S(\lambda)$ funksiyası aşağıdakı şərtləri ödəyir.

$$S(\lambda) = \overline{S(-\lambda)} = [S(-\lambda)]^{-1}$$
$$S(\lambda) - S_0(\lambda) \epsilon L_1(-\infty,+\infty)$$

Burada

$$S_0(\lambda) = \frac{1+\alpha+(1-\alpha)e^{-i\lambda 2a}}{1+\alpha+(1-\alpha)e^{i\lambda 2a}}$$

**Açar sözlər**: Yost həlləri, səpilmə məsələsi, düz məsələ.

**Ədəbiyyat**


1. Марченко В.А Операторы Штурма- Лиувилля и их приложения. Киев: Наукова думка, 1977, с.332.


## İKİNCİ RUSİYA – QACARLAR İRANI MÜHARİBƏSİNİN BAŞLANMASI SƏBƏBLƏRİ


**Aynurə Hüseynova**
Azərbaycan Universiteti
huseynovaaynure1999@gmail.com


Birinci Rusiya - Qacarlar müharibəsi 1804-1813-cü illəri əhatə etmiş və Qacarlar İranının məğlubiyyətilə nəticələnmişdi. Hər iki tərəf arasında Gülüstan sülh müqaviləsi imzalanmışdı. Gülüstan sülh müqaviləsinə görə, Qacarlar dövləti Qarabağ, Gəncə, Şəki, Şirvan, Quba, Dərbənd, Bakı, Lənkaran xanlıqlarının, Şərqi Gürcüstan və Dağıstanın Rusiyaya keçməsini qəbul etdi. İrəvan və Naxçıvan xanlıqlarının əraziləri isə Qacarlar İranına verildi [1, s.39].

Cənubi Qafqazın böyük hissəsinin Rusiya tərəfindən işğalı Qacarlar dövlətinin və İngiltərənin ciddi narazılığına səbəb oldu. Gülüstan müqaviləsini özü üçün rüsvayçılıq hesab edən və Cənubi Qafqazı ələ keçirmək üçün yeni planlar hazırlayan Qacarlar dövlətinin şahı Rusiyanın Cənubi Qafaqazı işğal etməsi ilə barışa bilmirdi [1, s.39]. Artıq Rusiya ilə yeni müharibəyə hazırlıqlar başlamışdı. Bu hazırlıq müddətində İngiltərə Qacarlar dövlətinə bütün mümkün vasitələrlə kömək edirdi. İngiltərə Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsini özünün Şərq siyasəti üçün böyük

təhlükə sayır, Qacarlar dövlətini yeni müharibəyə təhrik edirdi. Bunun üçün Tehrana yeni Birtaniya səfiri göndərildi. O, şahı inandırmağa çalışırdı ki, Qacarlar dövləti Cənubi Qafqazı yenidən əldə edə bilər. Lakin bunun üçün ciddi hazırlıq görmək, xüsusilə güclü ordu yaratmaq lazımdır.

1814- cü ildə noyabrın 25-də Tehranda İngiltərə ilə Qacarlar İranı arasında Rusiyaya qarşı bağlanan müqaviləyə əsasən, İngiltərə höküməti Qacarlar dövlətinin qoşunlarına təlim keçmək, ciddi nizamlı ordu yaratmaq üçün ingilis zabitləri göndərməyi, bu qoşunları müasir silahlarla təhciz etməyi, Təbrizdə və başqa şəhərlərdə silah, hərbi sursat zavodları tikməyi öhdəsinə götürdü [1, s.39]. İngiltərə hökuməti həmçinin Qacarlar dövlətinə, Rusiya ilə müharibə edəcəyi təqdirdə, maliyyə yardımı edəcəyini bildirdi. Əvəzində isə Qacarlar İranı öz ərazisindən digər ölkələrin hərbi qüvvələrini Hindistanla sərhədboyuna buraxmamağı öhdəsinə götürdü.

General A.P.Yermolov 1817-ci ildə nümayəndə heyətinin başçısı kimi İranda olarkən ingilis zabitinin fəallığının şahidi olmuşdur.

Vəliəhd, Cənubi Azərbaycanın hakimi Abbas Mirzə Rusiyaya qarşı yeni müharibənin hazırlanmasında mühüm rol oynayırdı . Abbas Mirzə ingilis zabitlərinin köməyi ilə ordunu yenidən qururdu. Artıq İranın cəbhəxanaları İngilis döyüş sursatı ilə tamamilə dolmuşdu .

Beləliklə, İngiltərə ilə müqavilə bağlayan Qacarlar İranı ordunu yeni müharibəyə hazırlayırdı . Qacarlar belə hesab edirdi ki, Rusiyadan müəyyən güzəştlərə nail olmaq üçün şərait yaranmışdır. 1815-ci ildə Gülüstan müqaviləsinə yenidən baxmağa Rusiyanın razılığını almaq , Cənubi Qafqazın , əsasən Azərbaycan ərazisinin bir hissəsinin İrana verilməsinə nail olmaq üçün Mirzə Əbdül Həsən xanın başçılığı ilə Pederburqa nümayəndə heyəti göndərildi [1, s.40]. İngiltərə və Qacar İranı ilə vəziyyəti gərginləşməsini istəməyən çar hököməti sərhədlərin müəyyənləşdirilməsində güzəştlər etməyi qərara aldı və 1817 -ci ildə A.P. Yermolovun başçılığı ilə İrana nümayəndə göndərdi.

Lakin A.P. Yermolov İranda yaxşı qarşılanmamışıdır. A.P.Yermolov Rusiyaya qayıtdıqdan sonra Peterburqa yazırıdı: " İngilislər ehtiyat edirlər ki , İran bizim təsirimiz altına düşə bilər " sonra qeyd edirdi ki " Vəliəhdin sarayında İngilislərsiz heç bir iş görülmür " [1, s. 41].

XIX əsrin 20 - ci illərində Qacarlar İranın Rusiya qarşı hərbi hazırlıq tədbirləri yeni mərhələyə keçdi və daha çox fəallaşdı. İngiltərə Şərq məsələsinə görə Rusiyadan ehtiyat edirdi, bu səbəbdən hər vasitə ilə Qacar İranını yeni müharibəyə təhrik edirdi . İngilislər bu dövrdə şaha maddi , eləcə də silah və sursatla göstərdikləri kömək dahada gücləndirildi .Qacarlar isə ingilislərin yardımı ilə hərbi cəhətdən daha da güclənirdi. Rusiya hököməti Qacar İran ilə yeni müharibəyə başlamaq istəmirdi . Səbəb isə dağlı xalqları ilə vəziyyətin gərginliyi , Avropa ilə xüsusilə Türkiyə ilə münasibətlərin böyük diqqət tələb etdiyi zamanda, Qacar İranı ilə vəziyyəti gərginləşdirmək istəmirdi . Ona görə də Rusiya hököməti danışıqlar aparmaq üçün Tehrana nümayəndə heyəti göndərməyi qərara aldı .

1826- cı ildə general Menşikov başçılıq etdiyi nümayəndə heyəti Tehrana gəldi . Menşikov sərhəd məsələsini tənzimləməyə "Şahı razı salmaq üçün bütün gücünü sərf etməli idi" . Çarın sərəncamı ilə Menşikov Qarabağın və Talış xanlığının bir hissəni güzəştə getməyə razı idi [1, s.42].

Rusiyanın Qacar İranı ilə müharibəyə girməmək üçün göstərdiyi cəhd müvəffəqiyyətsizliyyə uğradı. Menşikov da İranda yaxşı qarşılanmamışdı. Menşikov Şimalı Azərbaycan sərhədinə soxulan çoxlu qoşunla qarşılaşdı, və Sultaniyyəyə gələn Menşikov anladı ki hərbi qarşıdurma labüddür.

1826-cı il mayın 26-da Qacar İran qoşunu sərhəd istiqamətində hücuma keçdilər , iyulun 19 da Abbas Mirzə 60 minlik qoşunu ilə Şimali Azərbaycana II istiqamətdə hücuma başlaması ilə II Rusiya-Qacarlar müharibəsi başladı . Bu zaman Qacar İran ordusun əsas hücum hədəfi Qarabağ və Gəncə seçilmişdi. Mübaribə başlayarkən Abbas Mirzənin planının məqsədi: Qəflətən Qarabağa daxil olub , Şuşanı sonra Gəncəni və Tiflisi tutmaq , Rusları Cənubi Qafqazdan çıxararaq Terek çayından şimala qovmaq idi.

Abbas Mirzənin ordusu ilə birgə təmsil olunurdular : Gəncəli Cavad xanın oğlu Uğurlu xan , Keçmiş Bakı xanı Hüseynqulu xan , Şirvanlı Mustafa xan və başqaları var idi.

**Açar sözlər:** Gülüstan müqaviləsi, sülh, mübahisəli şərtlər, sərhədlər, münaqişə tərəfləri.

**Ədəbiyyat**

1. Azərbaycan Tarixi, VII cilddə, IV cild, Bakı, 2007.
2. İsmayılov M. Azərbaycan Tarixi, Bakı, 1992.
3. Mirzə Yusif Qarabaği, Tarixi Safi, ikinci kitab, Bakı, 2006.
4. Abbas Mirzə Nəcmi Nasir, XIX əsr Rusiya İran Azərbaycan münasibətləri, Bakı, 1993.

## TARİXİ – MƏDƏNİ İRSİN MUZEY VASİTƏLƏRİ İLƏ AKTUALLAŞDIRILMASI

**Könül Hüseynova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
refiyeva95@list.ru

Çoxşaxəli "mədəni irs" termini bəşəriyyətin köklərinin mahiyyətinə yaxındır, baxmayaraq ki, onun tərifi yalnız Maarifçilik dövrünə gedib çıxır. Bununla belə, o, minilliklər boyu bütün mədəniyyətlərdə təbii olaraq ifadə edilmişdi, bu, təbii miras, bir çox nəsillərin mirası demək idi. Müasir dünyada rast gəlinən müxtəliflik mədəni zənginliyi ilə çoxşaxəli cəmiyyətlərə əsaslanır. Mədəni irsin bu cür şaxələndirilmiş icmalarda birləşmə amili kimi rolunu gücləndirmək üçün həll yollarını anlamaq və həyata keçirmək lazımdır. Hal-hazırda rəqəmsal inqilab, informasiya və kommunikasiya texnologiyaları, turizm və kütləvi nəqliyyat görünməmiş şəkildə sürətli ictimai dəyişikliklərə təkan verir. Mütəxəssislər həm tarix, həm də təbiətin mühafizəsi təcrübəsinin təkamülü baxımından çətinlikləri və məsuliyyəti dərk edirlər.

Mədəni irsinin qorunub saxlanılması və bəşəriyyətə çatdırılması da yeni inkişaflara gətirib çıxaracaq yığımın yeni nəsillərə ötürülməsini təmin edəcək. Bəşəriyyətin inkişafı, bilik və təcrübənin yeni nəsillərə ötürülməsi və mövcud biliklərdən yeni biliklərin alınması və onların üzərində qurulması ilə mümkün olmuşdur. Muzeylər bunu təmin etmək üçün mühüm vəzifələr götürmüşlər. Qərbin rəhbərlik etdiyi modernləşmə prosesində, insanlıq irsinin qorunması şüurunun yanında çox sıx bir yenilik meydana gəldi.. Muzey əşyaları bir ölkənin mədəni və təbii irsinin əhəmiyyətli bir hissəsidir.Onlar vacib iş vasitəsi kimi çıxış edir və işin əsasını, tədqiqat obyektini təmsil edirlər. Obyektlər bizə fərdlərin və cəmiyyətlərin işini başa düşmək üçün özünəməxsus töhfə verə bilər...

Populyar ictimai yerlər olaraq, muzeylər və digər mədəniyyət müəssisələri həm rəqəmsal, həm də fiziki olaraq gündəlik həyatın bütün sahələrində iştirak edərək, cəmiyyətlərinin mərkəzində rol oynaya bilir. Bu, gələcəyimizi formalaşdırmağa və sağlamlıq və rifahdan məşğulluq və təhlükəsizliyə qədər cəmiyyətdəki real problemləri həll etməyə imkan verir... Bu dövrdə dünyada istehsal olunan insan əsərlərinin qorunması və tanıdılması üçün "muzeyçilik" adlı bir anlayış inkişaf etdirildi və muzeylər qurulmağa başladı. Dünyada sivilizasiyalar qurmuş bütün cəmiyyətlər bunun fərqindədir. Hər bir yeni əsər, bir insan və ya bir mədəniyyət tərəfindən keçmişin zənginliyini yenidən inkişaf etdirərək daha yüksək bir səviyyəyə qaldırmaqdır. Bu zənginliklə qidalanmayan heç bir səy daha mükəmməl və qabaqcıl bir iş əldə edə bilməz. Roma sivilizasiyası özündən əvvəlki mədəni irslə qidalanmasaydı, yeni və mükəmməl əsərlər yarada və öz mirasını buraxa bilməzdi. Muzeylər yarandıqları ilk günlərlə müqayisədə əhəmiyyətli dəyişikliklərin şahidi oldular. Museologiya, qədim əsərlərin saxlandığı bir yer deyil, mədəni irsin çoxşaxəli şəkildə təbliğ olunduğu yerlərə çevrildi. Bu mənada, muzeyləri müraciət etdikləri kütlə üçün cazibədar etmək üçün müxtəlif fənlərin əməkdaşlığına ehtiyac var idi. Bizim səhv başa düşdüyümüz kimi arxeologiya ilə muzeologiyanın eyniləşdirilməsi bu inkişafların qarşısındakı çox əhəmiyyətli bir maneədir. Muzey insanlara mədəni irsi tanıtmaq, vaxtdan istifadə etməklə əylənmək, ilhamlandırmaq üçün sənət, məlumat vermək baxımından elm baxımından təhsilin bir hissəsidir. Son zamanlarda bu anlayışa əsaslanaraq muzeyşünaslıqda yeni anlayışlar tətbiq olunmağa başlandı. Bu baxımdan, muzeyləri interaktiv tətbiqləri və isti məkanları ilə yaşadan, təəccübləndirən və əyləncəli yerlərə çevirmək nümunə olaraq göstərilə bilər.

**Açar sözlər:** muzey, mədəni irs, cəmiyyət, müasirlik.

### Ədəbiyyat

1. Süleymanlı M. Mədəni İrs, Dərslik, Bakı, 2019.
2. Aslanova R.N. Qloballaşma və mədəni müxtəliflik. Bakı, Elm.
3. Məlikova-Qurbanova E. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası, Bakı-2017.
4. Əhmədova T. Tarixləşən dünənimiz : muzeylər haqqında, Mədəni həyat, 2012.

## ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞDIRILMASINDA VERGİ AMİLİ

**Nərmin Hüseynova**
Azərbaycan Universiteti
narminhuseynova19@gmail.com

Ölkəmizdə aparılan sosial-iqtisadi islahatların sürətləndirilməsi və səmərəliliyinin artırılması, eləcə də qeyri-neft iqtisadiyyatının inkişafı və sənayenin ixrac potensialının və valyuta gəlirlərinin artırılması milli tərəqqi konsepsiyasında əsas yer turur. Bu məsələlərin həlli ilk növbədə ölkə iqtisadiyyatının bütün sahələrinə daxili və xarici investisiyaların cəlb edilməsi əsasında

mümkündür. Məlumdur ki, investisyaların cəlb edilməsi mənbələrinin artırılması və müvafiq coğrafiyanın genişləndirilməsi bir çox amillərdən asılıdır.Həmin amillərin iqtisadi, sosial, siyasi və hüquqi xarakterli ola bilərlər.İlk növbədə qeyd edə bilərik ki, Azərbaycanda istənilən kateqoriyalı investirlar üçün heç bir siyasi maneə yoxdur və tam siyasi sabitlik mövcuddur. Qanunvericilik bazasına münasibətdə demək olar ki, qəbul edilmiş normativ-hüquqi aktlar ölkədə əlverişli investisiya mühitinin formalaşması, gəlirlərin kapitallaşdırılmasına görə vergi stimulları, qiymətli kağızlar və sığorta bazarlarının inkişafı, yerli kapitalın xaricdən qaytarılmasının stimullaşdırılması və xarici investisiyaların əlb olunması kimi mühüm vəzifələrin reallaşdırılmasını təsbit edir.İnvestisiya mühitinin yaxşılaşdırılması ilə bağlı müzakirələrdə daha çox səslənən fikirlərdən biri xarici investorlara vergi güzəştlərinin edilməsidir. Onlara vergi güzəştlərinin verilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi, vergi ödəyicilərinin şikayətlərinə baxılması qaydaları da qanunvericilik aktlarında öz əksini tapmalıdır.

Hazırda bəzən vergi orqanları tərəfindən verilən sanksiyalar mübahisələrə gətirib çıxarır. Ona görə də beynəlxalq investisiya əməkdaşlığını tənzomlənməsi ilə bağlı qanunlar, o cümlədən, Azərbaycan Respublikasının xarici investisiyalar və azad iqtisadi zonalar haqqında qanunları, xarici investorlarla bağlanılan müqavilələr və məhsulun bölgüsü haqqında sazişlər bir-biriilə uzlaşmalıdır.

İnvestisiya mühitinin qanunverisilik bazasının təkmilləşdirilməsi və koordinasiyası zamanı aşağıdakı prinsiplərə riayət edilməlidir:

- milli iqtisadiyyatın davamlı inkişafı amili kimi investisiya prosesinin aktivləşdirilməsi;
- ölkə iqtisadiyyatının investisiya əməkdaslığı çərçivəsində beynəlxalq təsərrüfat sisteminə inteqrasiyasının dəstəklənməsi;
- müsabiqə və hərracların nəticələri üzrə yerli və xarici investorlara konsesiyaların təqdim edilməsi;
- ölkə iqtisadiyyatına cəlb edilən xarici investisiyaların təhlükəsizliyinin təmin edilməsi [4].

Əlverişli vergi mühitinin yaradılması və davamlılığının təmin edilməsi xarici investorların maraq dairəsində olan başlıca məsələlərdəndir. Xarici investorları vergi güzəşti və imtiyazları ilə yanaşı onların öz fəaliyyətlərini uzun müddətə proqnozlaşdırmağa imkan verən vergi sisteminin sabitliyi daha çox maraqlandırır.

Bütün bunlar nəzərə alınmaqla Azərbaycan Respublikası bir sıra beynəlxalq müqavilələrə və konvensiyalara qoşulmuşdur.Həmin müqavilələr əsasən investisiyaların qorunmasını, gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılmasnı, nəqliyyat daşınmalarını və kredit sazişlərini əhatə edir.

Dinamik inkişaf edən investisiya mühitinin formalaşdırılmasında təkmil vergitutma mexanizmləri ilə yanaşı səmərəli idarəetmə, şəffaflıq və qtisadi açıqlıq kimi amillər də əhəmiyyətlidir.Bu baxımdan qeyd olunmalıdır ki, investisiya mühitinin formalaşdırılmasında mühüm rol vergi sisteminin və müvafiq tənzimləyici normaların təsərrüfat mexanizminin tələblərunə uyğun olaraq, daim yeniləşdirilməli və təkmilləşdirilməlidir [5].

Hesab edirik ki, vergi sisteminin bilik və innovasiya iqtisadiyyatının tələblərinə, vergi siyasətinin bu tələblərdən irəi gələn prinsiplərə uyğunlaşdırılması üzrə tədbirlər davam etdirilməlidir. Fikirimizcə, vergi mexanizmlərinin rolunu artırmaqla investisiyanın stimullaşdırılması məqsədilə

vergi güzəştləri tətbiq edilməlidir.Belə güzəştlərə vergi dərəcələrinin aşağı salınması, investisiya qoyuluşlarına və uzunmüddətli investisiyalaşdırmadan əldə edilən gəlirlərə vergi güzəştləri aid edilir.

Yerli investorlara münasibətdə "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında 20 aprel 2016-cı il tarixli fərmanla Azərbaycanda investisiya təşviqi sənədinin verilməsi üçün investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidlərinin regionlar üzrə qruplaşdırılmasına diqqət yetirmək kifayətdir.Burada sahibkarlara investisiya təşviqi sənədinin verilməsi üçün iqtisadi fəaliyyət sahələri üzrə tələb olunan investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğin differnsiallığı diqqət çəkir.Bu da regionların investisiya cəlbediciliyinin artırılması müstəvisində onların sosial-iqtisadi inkişaf səvyyələri arasındakı fərqlərin azaldılmasına xidmət edir.Düşünürük ki, bu tədbirlər ölkədə investisiya mühitinin səmərəliliyinin artmasına öz töhfəsini verəcəkdir.

**Açar sözlər:** investisiya, vergi, tənzimləmə, inkişaf, idarəetmə, innovasiya.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, 2019.
2. Xarici investisiyaların qorunması haqqında AR Qanunu, Bakı, 1992.
3. İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidlərinin təsdiq edilməsi haqqında fərman, Bakı 2016.
4. Rzayev P.Q. Biznes mühitinin formalaşmasında vergi mexanizmlərinin rolu http://webcityhost.net/vergiler/upload/File/2012-7.pdf
5. İnvestisiyanın vergi stimullaşdırılması http://www.vergiler.az/art-view/1567/


## AZƏRBAYCAN ƏDƏBIYYATINDA MEMUAR JANRI VƏ ONUN ELMİ ARAŞDIRILMASINA DAİR

**Türkanə İbrahimova**
Qərbi Kaspi Universiteti
ibrahimovaturkana.86@gmail.com

Memuar ədəbiyyatında realist təsvirin vacibliyini qeyd edən məşhur rus ədibi V. Q. Korolenko özünün xatirə ədəbiyyatının "giriş"ində yazırdı: *"Əsərimdə mümkün qədər bədii gerçəkliyin gözəl, parlaq cəhətlərini tarixi həqiqətin kamilliyinə qurban verməyə meyl göstərmişəm."* [2, s. 8].

Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixində xatirə, yaxud memuar ədəbiyyatının maraqlı nümunələri yazılmışdır. XI-XII əsrlərdə, Qətran Təbrizinin "Divan"ı və Əfzələddin Xaqaninin "Töhfətül-İraqeyn" əsəri klassik lirik nümunələr olsa da, bu əsərlərdə müəlliflərin səyahətləri zamanı gördükləri, yaxından tanıdıqları elm, sənət adamları, görkəmli alimlər və dövlət xadimləri ilə bağlı

xatirə səciyyəli qeydlərinə rast gəlmək mümkündür. Əslində xatirə janrının ilk nümunələri yuxarıda adı çəkilən müəlliflərin əsərlərində gündəlik yol qeydləri şəklində olduğu üçün müstəqil bədii əsər təsiri bağışlamamış, tədqiqatçılar tərəfindən memuar janrının ilk işartıları kimi səciyyələndirilmişdir. XVI əsr Azərbaycan poeziyasının mütəfəkkir şairi Məhəmməd Füzulinin "Şikayətnamə" adlı əsəri avtobioqrafik janrın mükəmməl nümunəsi kimi diqqəti cəlb edir. Lakin şair əsərində həyatının Osmanlı sarayı ilə bağlı təəssüf doğuran bir epizodu diqqətə çatdırmışdır. Ancaq etiraf edək ki, görkəmli ədəbiyyatşünas Mir Cəlalın haqlı olaraq qeyd etdiyi kimi: *"Azərbaycan ədəbiyyatında bu janrın tarixi və ənənəsi zəif olmuşdur"* [3, s. 164]. Xatirə və yaxud memuar ədəbiyyatının Azərbaycan ədəbiyyatında ilk mükəmməl nümunəsi XIX əsrdə Cənubi Azərbaycanda Mirzə Fətəli Axundzadənin ideyalarının davamçısı Hacı Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi, yaxud təəssübkeşliyin bəlası" adlı xatirə romanı olmuşdur. İbrahim bəyin şəxsində Yaxın Şərq ölkələrini gəzən müəllif müsəlman aləmindəki fanatizmi, cəhaləti, despotizmi kəskin tənqid atəşinə tutan real görüntülər tablosu yaratmışdır. Əsər birinci şəxsin dili ilə nəql olunur. Əsərdən gətirdiyimiz aşağıdakı parça onun memuar xarakterini ortaya qoyur: *"...Məscidin vəziyyətini soruşdum, məlum oldu ki, nə vaizi var, nə də azançısı, namaz qılanlardan, camaatdan da bir xəbər yox idi. Son dərəcə dilxor və naümid bir halda mənzilə qayıtdım"* [4, s. 61].

XIX əsrin sonu, XX əsrin əvvəllərində cəhalət və fanatizm dünyasının epik təsvirini verən xatirə (memuar) janrının maraqlı nümunələrindən biri görkəmli demokrat yazıçı Mirzə Cəlilin qələmindən çıxmışdır. Mirzə Cəlilin "Xatiratım" əsəri Azərbaycan ədəbiyyatında bu janrın bitkin nümunəsi kimi diqqəti cəlb edir. Əsərin realistik təsvirini oxucularına çatdıran müəllif yazır: *"...Çün bu sətirləri oxuyan möhtərəm oxucularım, şək yox ki, burada rəvayət olunan keyfiyyətlərə inanacaqlar, çünki allah şahiddir ki, burada bir zərrə qədər xilaf yoxdur. Elə də onlar görəcək ki, mənim haman qaranlıq əsrinin mömin müsəlmanları gecə və gündüz vaxtlarının çox hissəsini namaza həsr etmişlər."*

Cəlil Məmmədquluzadənin xatirələrində 1905-ci il birinci rus inqilabının təsiri ilə ölkədə maarifin və mətbuatın inkişafında dirçəliş, problem və çətinliklər, yazıçıların bu hal-qəziyyə ilə mübarizəsi konkret şəkildə bədii əksini tapmışdır.

Memuar xarakterli bu əsər Mirzə Cəlilin yaşadığı mühitin, uşaqlığının və gəncliyinin ən maraqlı lövhələrini öyrənmək üçün əvəzsiz mənbədir. Həmidə xanım Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim" memuarı Mirzə Cəlilin zəngin, məşəqqətli və maraqlı həyat yolunun uşaqlıq, gənclik və müdriklik lövhələrini, müasirləri ilə görüş və qarşılıqlı münasibətlərini özündə əks etdirən ədibin dünyagörüşü və xarakterini açan qiymətli nümunədir. Müəllif xatirəni rus dilində qələmə almışdır. Əsər həcm etibarilə 59 şagird dəftərində yazılmışdır.

XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinin aydınlarından biri Abdulla Şaiqin "Xatirələrim" əsəri milli ədəbiyyat tarixində memuar janrının maraqlı nümunələrindəndir. Ədib əsərində yaşadığı ictimai mühiti, uşaqlığını, işlədiyi şəraiti publisistik üslubda şərh etmişdir. Qaranlıq mühitin uşaqlığının xoş günlərinə, firavanlığına, xoşbəxtliyinə qənim kəsildiyinin göstərən müəllif əsərində azad və xoşbəxt həyat sürən müasir gəncliyə ithafən yazırdı: *"Doğulduğum, uşaqlıq illərinin çoxunu keçirdiyim Tiflis şəhəri, ətəkləri yaşıl otlar və əlvan çiçəklər bəzənmiş uca dağlarla qucaqlaşmışdır"*.

Azərbaycan ədəbiyyatında memuar janrı müxtəlif formalarda özünü göstərmişdir. Ədəbiyyatımızda bu formanın ən çox yayılanı avtobioqrafik povest və romanlardır. Ədəbiyyatımızda bu cür xatirə (memuar) əsərlər diqqətçəkicidir. XX əsrin görkəmli yazıçısı Y. V. Çəmənzəminlinin "Bir cavanın dəftəri" və "Günah". "Studentlər" əsərləri qeyd etdiyimiz formanın kamil nümunələri kimi diqqəti cəlb edir. Professor Tofiq Hüseynoğlu hər iki əsərin avtobioqrafik xüsusiyyətini diqqətə çatdıraraq yazır: *"Gündəlik formasında və lirik səpkidə işlənmiş "Bir cavanın dəftəri" məktəbli Muradın 1905-ci il yay tətili günlərini əhatə edir. Lakin müəllif süjeti, obrazın inkişafını dövrün tarixi hadisələri ilə də əlaqələndirməyə çalışmışdır. Ədib "Günah"ı yeni variantda "Studentlər" adlandırmışdır."* Bu roman iki kitabdan ibarətdir. Birinci kitabda 1911-1913-cü illərdə Kiyevdə oxuyan azərbaycanlı tələbələrin həyat və məişəti, mədəni-maarif tədbirləri, ikincidə birinci kitabdan tanış olduğumuz həyat və fəaliyyətlərinin yeni mərhələsi verilmişdir" [1, s. 11].

Əli Vəliyevin "Budağın xatirələri" əsəri xatirə şəklində yazılmış əsərdir. Azərbaycan ədəbiyyatında xatirə (memuar) ədəbiyyatının digər bir forması ayrı-ayrı görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə dair müasirlərinin yazmış olduğu xatirələridir. Bu səpkili əsərlər sırasında XX əsrin bədii söz korifeylərindən M.Ə. Sabir və Cəfər Cabbarlı haqqında nəşr olunmuş xatirələr ədəbiyyatında xüsusi, mühüm yer tutur.

**Açar sözlər:** memuar ədəbiyyatı, realist təsvir, çoxəsrlik tarix, ədəbi mühit.

**Ədəbiyyat**

1. Çəmənzəminli Y.V. Əsərləri, Üç dildə. I cild. Bakı: Avrasiya Press, 2005, 360 s.
2. Korolenko V.Q. Mənim müasirimin tarixi - Əsərləri, I cild, 1954, 220 s.
3. Cəlal M., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1988, 280 s.
4. Marağayi Z. İbrahim bəyin səyahətnaməsi. Bakı: Elm nəşriyyatı, 1982, 498 s.

## TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN TƏHLİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ZƏRURULİYİ

**Gülanə İsayeva**
Azərbaycan Universiteti
Gulana.isayeva@au.edu.az

Müəssisənin maliyyə vəziyyətinin, onun fəaliyyətinin nəticələrinin qiymətləndirilməsində, müəssisədaxili ehtiyatlarının aşkara çıxarılmasında, gələcək inkişafın iqtisadi imkanlarını müəyyən etmək üçün maliyyə təhlili xüsusi əhəmiyyətə malikdir. Maliyyə təhlili– müəssisənin maliyyə mexanizminin, onun operativ intensiv fəaliyyəti üçü maliyyə ehtiyatlarının aşkara çıxarılması və istifadəsi prosesinin dərk edilməsi metodu kimi şirkətin biznes proseslərin ümumi tədqiqinin mühüm bir bölməsidir [1].

Təsərrüfat subyektinin maliyyə vəziyyəti onun rəqabət qabiliyyətinin göstəricilərindən biri olmaqla, maliyyə resurslarından və kapitalından istifadə edilməsinin, dövlət və digər təsərrüfat subyektləri qarşısında öhdəliklərinin yerinə yetirilməsi vəziyyətini özündə əks etdirir. Müəssisənin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi prosesinə aşağıdakılar daxildir: rentabellik səviyyəsinin təhlili; ödəmə (kredit) qabiliyyətinin təhlili; likvidliyin təhlili; maliyyə sabitliyinin qiymətləndirilməsi; kapitalın yerləşdirilməsi və istifadəsinin təhlili.

Maliyyə vəziyyətinin təhlili üçün əsas məlumat mənbələri müəssisənin maliyyə hesabatları və ona əlavələr, statistik və operativ hesabatları, mühasibat uçotu məlumatlarıdır. Həmin informasiya mənbələrində müəssisənin fəaliyyəti haqqında ən mühüm və mötəbər məlumatlar əks olunur. Buna görə də bu məlumatlar onların kommersiya sirri heasb olunur.

Təhlil və qiymətləndirmə üçün bir qayda olaraq qüvvədə olan metodik sənədlərdən istifadə edilir. Bu zaman təhlil əsasən aşağıdakı üsullardan istifadə etməklə həyata keçirilir: müqayisələr, xülasələr, qruplaşdırmalar və zəncirvari əvəzetmələr.

Müqayisə üsulunda hesabat dövrünün maliyyə göstəriciləri əvvəlki dövrün maliyyə göstəriciləri ilə müqayisə olunur. Zəncirvari əvəzetmə metodunda isə ayrı-ayrı amillərin məcmu maliyyə göstəricisinin səviyyəsinə təsirinin təsir miqyasını hesablamaq üçün istifadə olunur. Bu metoddan göstəricilər arasındakı əlaqənin riyazi şəkildə funksional əlaqə şəklində ifadə oluna bildiyi zaman istifadə olunur. Zəncirvari əvəzetmələrin qəbulunun mahiyyəti ondan ibarətdir ki, hər bir hesabat göstəricisini ardıcıl olaraq əsas göstərici ilə əvəz etməklə bütün digər göstəricilər dəyişməz hesab olunur. Bu əvəzetmə zamanı hər bir amilin ümumi maliyyə göstəricisinə təsir dərəcəsini müəyyən etməyə imkan yaradılır.

Təsərrüfat subyektinin rentabelliyi mütləq və nisbi göstəricilərlə xarakterizə olunur. Mütləq gəlir dərəcəsi mənfəətin və ya gəlirin məbləğidir, nisbi göstərici isə gəlirlilik səviyyəsidir. Təsərrüfat subyektlərinin gəlirlilik səviyyəsi məhsulların satışından əldə edilən mənfəətin onun maya dəyərinə nisbəti ilə müəyyən edilir [2].

Təhlil prosesində xalis mənfəətin həcminin dəyişmə dinamikası, rentabellik səviyyəsi və onları müəyyən edən amillər öyrənilir. Xalis mənfəətə təsir edən əsas amillər məhsulun satışından əldə edilən gəlirlərin həcmi, maya dəyərinin səviyyəsi, rentabellik səviyyəsi, qeyri-əməliyyat əməliyyatlarından gəlir, qeyri-əməliyyat əməliyyatları üzrə xərclər, mənfəət vergisinin məbləği və mənfəətdən ödənilən digər vergilərdir.

Mühasibat balansına uyğun olaraq təhlil edilən dövr üzrə əsas vəsaitlərin, dövriyyə vəsaitlərinin və digər aktivlərin hərəkəti, habelə balansın passiv hissəsində göstərilən vəsaitlərin mənbələrinin hərəkəti müqayisə edilir. Maliyyə mənbələri özünün (xüsusi) və borc (cəlb edilmiş) mənbələrinə bölünür. Öz vəsaitlərinin payının artması təsərrüfat subyektinin işini müsbət səciyyələndirir.

Ödəmə qabiliyyəti qısa müddət ərzində (bir həftə, yarım ay) təhlil edildikdə ən aydın şəkildə ortaya çıxır. Kredit qabiliyyəti kredit almaq üçün ilkin şərtlərin mövcudluğu və təsərrüfat subyektinin krediti vaxtında ödəmək qabiliyyətidir.

İnvestisiya edilmiş kapitalın gəlirlilik dərəcəsi mənfəətin məbləğinin balansdakı öhdəliklərin ümumi məbləğinə nisbəti ilə müəyyən olunur.

Təsərrüfat subyektinin likvidliyi onun borclarını tez bir zamanda qaytarmaq qabiliyyətidir. Borc və likvid vəsaitlərin, yəni borcların ödənilməsi üçün istifadə edilə bilən vəsaitlərin (pul vəsaitləri, depozitlər, qiymətli kağızlar, dövriyyə kapitalının reallaşdırıla bilən elementləri və s.) nisbəti ilə müəyyən edilir.

Yuxarıda göstərilən istiqamətlərdə həyata keçirilən təhlil üçün istifadə edilən maliyyə hesabatlarının tərkibi və oradakı məlumatların istifadəyə yararlığı və istifadə imkanları araşdırılaraq, belə nəticəyə gəlirik ki, istifadə edilən maliyyə hesabatları beynəlxalq standartların tələblərinə tam cavab vermir və onların tərkibinin və əhatə dairəsinin müntəzəm olaraq təkmilləşdirilməsinə ehitiyac vardır.

Bu istiqamətdə analitik təhlil üsullarının genişləndirilməsini məqsədəuyğun hesab edirik. Mövcud təhlil metodlarına əlavə olaraq, təsərrüfat subyektinin maliyyə vəziyyətinin təhlilində aşağıdakı üsullarının tətbiqini təklif edirik:

1. Daxili struktur bölmələri çərçivəsində aktivlərin müqayisəli təhlilinin tətbiqi. Bunun üçün müəssisənin daxili audit xidmətinin fəaliyyət istiqamətləri daha da genişləndirilməlidir.

2. Maliyyə əmsallarının təhlili.

Bu metod maliyyə hesabatları məlumatlarının nisbətlərinin hesablanması və göstəricilərin əlaqəsinin müəyyən edilməsidir və maliyyə hesabatlarının etibarlılığını yüksəltməyə imkan verir [3].

**Açar sözlər:** maliyyə təhlili, maliyyə vəziyyəti, təhlil metodları, ödəmə qabiliyyəti, gəlirlilik səviyyəsi, maliyyə əmsalları.

### Ədəbiyyat

1. Müslümov S.Y. Kazımov R.N. Maliyyə təhlili, Bakı, 2011.
2. Cəfərli H.A. İdarəetmə təhlili. Dərs vəsaiti. Bakı. İqtisad Universiteti Nəşriyyatı, 2018.
3. http://genderi.org/magistratura-merkezi-elyazmas-huququnda-rzayev-murad-esger-ogl.html?page=6

## ORTA MƏKTƏBDƏ SOSİAL-PSİXOLOJİ ATMOSFERİN ŞAGİRDLƏRƏ TƏSİRİ

**Ayşən İsmayılova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
ayshan-ismayilova@mail.ru

Məktəb elə bir sosial mühitdir ki, şagirdlər formal təhsilə başladıqları andan təhsilini tamamlayana qədər günlərinin çox hissəsini burada keçirir. Məktəbdə mənfi və ya müsbət atmosfer şagirdlərin akademik göstəricilərinə, dərsə davamiyyətinə, müəllimlər və həmyaşıdları ilə münasibətlərinə təsir baxımından böyük rola malikdir. Həmin psixoloji iqlim mühiti şagirdlərin məktəb haqqında fikirlərinə birbaşa təsir göstərir.

Ada təhsil və təlimdə sinif atmosferi adlanan psixoloji mühitin bütün vəziyyətlərdən təsirlənən və eləcə də, təsir edən xüsusiyyətlərə malik olduğunu bildirir və vurğulayır ki, bu mühitin ilkin şərti münasibətlərin qarşılıqlı hörmət və sevgi üzərində qurulmasıdır [1, s.205]. Belə bir mühitdə fərdlərin cəzalandırılmasına, alçaldılmasına, ideyalarına qiymət verilməməsinə yer yoxdur. Xüsusilə məktəbə yeni başlayan şagirdlər üçün ailədən sonra ikinci əsas sosiallaşma prosesi məktəbdə baş verir. Məktəbdə şagirdlərin inkişafında müəllimlərin rolu danılmazdır. Şagirdin məktəbdə vaxtının böyük bir hissəsi müəllimlərlə şifahi və qeyri-verbal qarşılıqlı əlaqədə keçir. Hallinan araşdırmasında müəyyən etmişdir ki, müəllimin tələbələri dəstəkləməsi onların məktəbə cəlb edilməsinə güclü təsir göstərir [4]. Sosial və emosional dəstək göstərməklə müəllimlər şagirdlərə məktəbi daha çox sevdirə bilər ki, bu da onların akademik göstəricilərini və sosiallaşma nəticələrini yaxşılaşdırar [5, s.99]. Erik Erikson özünün "İnkişaf mərhələləri" konsepiyasında 7-11 yaş dövründə uşaqların müəllimlər tərəfindən qiymətləndirilməyə ehtiyac duyduğunu qeyd etmişdi. Müəllimlərin uşaqların uğurlarını qiymətləndirməsi, uşaqlara sevgisi, qayğılı münasibəti, ehtiyatlı danışıq tərzi, ədalətli davranışı, uşaqların mənfi hərəkətləri ilə rastlaşdığı zaman onunla yumşaq danışaraq cəzalandırmadan məsələni həll etməsi və s. kimi müsbət keyfiyyətlər uşaqlarda müəllimə sevgi və hörmət hissinin yaranmasına, məktəbə bağlılığına, dərslərə maraqla hazırlaşmasına səbəb olur. Əgər müəllimlər bunların əksinə olaraq mənfi davranışlar sərgiləsə, o zaman uşaq dərslərdən və məktəbdən uzaqlaşacaq və ya mənfi davranışları mənimsəyəcək. Unutmaq olmaz ki, müəllim uşaq üçün məktəbdə ən birinci növbədə nümunə olmalıdır. Müəllim uşağın şəxsiyyətini, vəziyyətini nəzərə almalı, sinifdə uşağa maksimum məhəbbət iqlimi yaratmalıdır [2, s.291]. Sinif atmosferi şagirdlərin rahat, xoşbəxt olmaqlarını, özlərini təhlükəsiz və dəyərli hiss etməklərini təmin etməlidir. Müsbət sinif iqlimi demokratiya başda olmaqla, fərdlər arasında qarılıqlı əlaqələrdən asılıdır [3, 2]. Nəzərə alsaq ki, hər bir şagird fərqli ailədən gəlir və fərqli tərbiyə ilə böyüdülüb, o zaman sinifdə hörmət prinsipi əsasında qarşılıqlı münasibətlərin qurulması və qorunması müəllimin öhdəliyinə çevrilir. Bir sıra tədqiqatçılar məktəb sosial iqliminin müxtəlif kontekstual xüsusiyyətlərinin zorakılığa təsirinin araşdırılmasına yönəlib. Məsələn, yüksək konfliktli və qeyri-mütəşəkkil məktəblər, məktəb mühitində nəzarətin aşağı səviyyəsi və ya sərt intizam, təhlükəsizlik problemləri, məktəbə zəif bağlılıq və həmyaşıların mənfi qarşılıqlı əlaqəsi zorakılığın daha yüksək nəticələri ilə əlaqələndirilmişdir. Üstəlik, müəllimlər və şagirdlər arasında qarşılıqlı müsbət münasibətlər məktəb dəyərlərinin şagirdlər tərəfindən qəbul edilməsi ehtimalını və onların davranış adaptasiyasını artırır [6, s.2353]. Belə halda, ideal məktəb mühiti necə olmalıdır? İdeal məktəb mühiti şagirdləri emosional, sosial və akademik cəhətdən uğura çatdırmalıdır [3, 3]. Şagird məktəbdən həm nümunəvi davranışlar öyrənməli, həm də dərslərində yüksəlməyə meyil etməlidir. Sinifdə iqlim elə qurulmalıdır ki, şagirdlər həmyaşıdlarına düşmən deyil, dost kimi yanaşsın, müəllimlərini müsbət nümunə olaraq görsün və məktəbi sevsinlər.

Belə bir nəticəyə gəlirik ki, məktəbin ümumi atmosferi sinifdə qurulan psixoloji iqlim mühitindən asılıdır. Bu iqlim isə şagirdin bütün məktəb həyatına və məktəbdən sonra gələcəyinə əhəmiyyətli təsir göstərir. Şagird məktəbdə gördüklərini kənarda tətbiq edir. Buna görə də hər bir müəllim həm dərslərinin səmərəli olması naminə, həm də gələcəyə sağlam gənclər bəxş etmək üçün müsbət məktəb mühitinin formalaşmasına töhfə verməlidir.

**Açar sözlər:** sinif mühiti, müsbət atmosfer, mənfi atmosfer, şagird nəaliyyətləri, qarşılıqlı münasibət.

### Ədəbiyyat


1. Ada Ş. Sınıf içi olası sorunlara karşı alınabilecek önlemler, 2002.
2. Həsənov A., Ağayev Ə. Pedaqogika, Bakı, 2007.
3. Gülbahar B. İdeal Sınıf Atmosferi Algı Ölçeğinin Geliştirilmesi: Geçerlik ve Güvenirlik Çalışması, 2017, LAMBERT Academic Publishing, Sosyal Bilimlerde Güncel Yaklaşımlar.
4. Hallinan T.M. Teacher influences on student's attachment to school, Sociology of Education, 81(3), 271-283.
5. Mediha S. Empatik Sınıf Atmosfero ve Arkadaşlara Bağlılık Düzeyinin Lise Öğrencilerinin Okul yaşam Kalitesine Etkisi, Education Administration: Theory and Practice, 2012, cild 18, 95-119.
6. Bayar Y., Uçak Z. School Social Climate and Generalized Peer Perception in Tranditional and Cyberbulling Status, Education Sciences, Theory & Practice, 12(4), 2012, 2352-2358.


## DEPOZİT VƏ KREDİT BAZARLARININ QARŞILIQLI İNKİŞAF PERSPEKTİVLƏRİ

**Nərmin İsmayılova**
Azərbaycan Universiteti
ismylva.narminn@gmail.com

Hər bir ölkənin kredit bazarı, sözügüdən ölkənin maliyyə bazarının seqmentlərindən olub, iqtisadiyyatın real sektoru ilə sıx əlaqədardır. Bu səbəbdəndirki, bank kreditləri üzrə dərəcələrin formalaşması mürəkkəb bir proses olub, Mərkəzi Bankın həyata keçirdiyi pul siyasəti ilə yanaşı, banklar tərəfindən vəsait cəlb etmək xərcləri, onların yayılmasına daxil etdikləri xərclər və risklərə və eləcə də depozit və kredit faizlərinə, borcalan və əmanətçilər üçün rəqabətə, həmçinin cari inflyasiya səviyyəsi və inflyasiya gözləntilərinə təsir göstərir.

Kredit bazarının başlıca xüsusiyyəti pulun alqı-satqı prosesinin həyata keçirilməsidir. Kredit bazarında ssudaya verilmiş pul əvvəlcə kreditordan borcalana keçir, müəyyən müddətdən sonra isə faizlə birlikdə borcalandan kreditora qayıdır. Kreditin təqdim edilməsinin müddəti çox olduqca, bir qayda olaraq alınmış faizlər də onunla birgə bir o qədər yüksək ola bilir.

Dünya təcrübəsinin göstərdiyi kimi, mikromaliyyə təşkilatları kredit bazarının dövlət seqmenti tərəfindən ən az tənzimlənən təşkilatları təmsil edir ki, bu da maliyyə vasitəçiliyinin kölgə sektorunu geri çəkmək zərurəti və bankların kiçik müştərilərə xidmətə marağının aşağı olması ilə əlaqədardır.

Müasir dövrdə ölkənin iqtisadi inkişafı əmtəə istehsalının parametrləri ilə müəyyən edilir. Sövdələşmə xərclərinin limitinə təsir göstərən bazar institutlarının yetkinliyi, mülkiyyət hüquqlarının müdafiəsinin təşkili institusional məkanı təyin edir. Kredit bazarı, müasir bazar iqtisadiyyatı çərçivəsində maliyyə bazarının ən böyük seqmentlərindən biri hesab edilir. Başqa sözlə kredit bazarı-

kredit vəsaitlərinin (təcili, geri ödənilən və şərtli ödəniş ilə kredit verilən.) hərəkətinin baş verdiyi iqtisadi məkandır. Kredit bazarının ilk gözəçarpan özəlliyi kredit kateqoriyası ilə sıx bağlı olmasıdır və hər iki anlayış eyni quruluşa malikdir: münasibətlərin subyektləri kimi kreditorlar və borcalanlar, obyekti kimi kredit dəyəri çıxış edir. Kredit bazarının yaranması üçün kredit məhsullarına effektiv tələb axını gərəklidir ki, bu da tələb olunan kredit məhsullarının axınına uyğun olmalıdır.

Araşdırmalardan aydın olur ki, kredit bazarının dünya miqyasında artan rolu üç başlıca istiqamətdə özünü göstərir:

- özəl sektora, dövlətə və əhaliyə, habelə xarici borcalanlara kredit kapitalının verilməsi;
- əhalidən sərbəst pul kapitalının və pul əmanətlərinin toplanması;
- saxta kapitalın konsentrasiyası.

Onu da qeyd etmək lazımdır ki, kommersiya bankları resurs bazasını formalaşdırmalıdır ki, müştərilərinə kredit xidməti həyata keçirəcək bazaya sahib olsunlar və bu resursların əsas mənbəyi isə depozit və əmanətlərdir. Depozit, bankın əsəs resurslarından biri olub, müəyyən olunmuş şərtlərlə və müəyyən edilmiş zamanda bununla yanaşı geri qaytarılmaq şərti olan banka saxlamaq üçün qoyulan maliyyə vəsaitidir.

Bazarda depozit əməliyyatları prosesində banklar və kreditorlar subyekt kimi, maliyyə vəsaitləri hansı ki banka vəsait şəklində qoyulur onlar isə obyekt olaraq çıxış edirlər. Edilən araşdırmalar da onu göstərir ki, subyekt kimi çıxış edən əmanətçilər banklara qoyduqları depozitləri vaxtından əvvəl tələb etsələr, bu vaxt banklar depoziti tələb olunanadək depozitlər şəklində geri subyektə təhvil verirlər.

Əmanətlər bankın başlıca və ən həcmli maliyyə mənbəyini təmsil edir, çünki o, banklara unikal şəkildə kreditlər yaratmağa imkan verir və bankın kredit imkanını təmin edir. Mənfəətlilik bankın qazandığı mənfəətlə bu mənfəətə gətirib çıxaran investisiyalar arasında əlaqə kimi qəbul edilir. Mənfəətlilik X bankının səmərəliliyini təyin etmək üçün olan bir ölçüdür bu, ayrıca bank və onun fondunun idarə edilməsində əsas rol oynayır.

Pul alqı-satqısı müvafiq bir kommersiya bankının fəaliyyətinin xarakterini müəyyən edərkən, bu ticarətin əsas məqsədi öz resurslarını ixtisaslaşmış sahələrə yatırmaqla mümkün olan ən yuxarı gəlirin əldə olunmasıdır. Bu sahələr kreditlər, xidmətlər və bank imkanları kimi əlverişli gəlir əldə etmək üçündür. İstənilən biznesdə, təkcə mənfəət deyil, gəlirlilik əsas və əvəzolunmaz məqsəddir. Mənfəət nə qədər yüksək olarsa, gəlirlər də bir o qədər yüksək olur və xərclər bir o qədər aşağı olur. Bank bazarında gəlirlilik bankın idarəetmə keyfiyyətinin və rəqabətli mövqeyinin göstəricisidir. Bu fəaliyyətlərin əksəriyyətini kommersiya bankları təşkil edir, lakin onlar daha çox bank əməliyyatlarından qaynaqlanır, əsas fəaliyyəti bankların kreditləşdirilməsidir. Fəaliyyət buna görə də bankların əmanətlərini depozit formasında yatıra bilən əmanətçilərə yüksək təminat vermək qabiliyyəti ilə bağlı vəsaitlərin olmasını tələb edir. Kommersiya bankları borc verən və alan maliyyə təşkilatı olduğundan onlara daha çox kredit əməliyyatlarının aktivliyinə gətirir. Bu səbəblə bankın gəlirliyini artıra bilən həmçinin limitləndirə bilən ən başlıca faktor olaraq dəyərləndirilir. Çünki bankların gəlirliliyi həm də onların işinin təməl daşıdır. Mümkün olan maksimum gəliri təmin etmək və müvafiq likvidlik/nağd nisbətini qorumaq üçün şöbələr bu bankların depozitlərindən likvidliyini ideal şəkildə təmin etməlidirlər.

**Açar sözlər:** Kredit Bazarı, Depozit Bazarı, Borcalan, Likvidlik.

**Ədəbiyyat**

1. Пусная О.П. Способы интеллектуальной поддержки принятия решения кредитования физических лиц. Белгород: Белгород. гос. ун-та, с. 1–6.
2. Кононова Т. В. Непрерывность движения ссуженной стоимости как основа формирования кредитного портфеля, ВЕСТНИК ОГУ, 2010, 1(107) (январь), с. 86–89.

## MÜƏSSİSƏNİN MARKETİNQ FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**Şahnaz İsmayılova**
Azərbaycan Universiteti
ismayilovashahnaz14@gmail.com

Marketinq xidməti müəssisənin mühüm struktur bölmələrindən biri olmaqla bərabər, digər struktur vahidləri ilə birlikdə bazarın tələblərinə uyğun fəaliyyətin təşkili və yüksək gəlirin alınması üçün tədbirlərin görülməsi proseslərinin idarə edilməsi funksiyalarını həyata keçirir. Müasir dövrdə marketinq fəaliyyəti hər bir müəssisə üçün vacib fəaliyyət sahələrindən biri kimi qiymətləndirilməlidir[1]. Marketinq fəaliyyəti müəssisədə hər hansı bir məhsulun istehsalının planlaşdırlması, layihələşdirilməsi proseslərindən başlayaraq, istehsal proseslərinin təşkili, hazır məhsulun bazara çıxarılması və əmtəə bazarında uğurlu hərəkətinin təmin edilməsi, həmçinin servis xidmətinin göstərilməsinə qədər olan proseslərdə tələb olunan fəaliyyət sahələrindən biri kimi xarakterizə olunur.

Son 3 il ərzində dünyada yayılan Covid-19 pandemiyası nəticəsində yaranmış iqtisadi böhran şəraitində müəssisələrin marketinq şöbəsinə diqqət mühüm şəkildə artmışdır. Hamıya bəllidir ki, şirkətlər ağır dövrlərdən keçərkən ilk növbədə reklam və marketinq büdcələri zərər çəkir. Lakin əks fikirlər də mövcuddur: məhz çətin vaxtlarda marketinq alətləri satışı lazımi səviyyədə saxlayır və müəssisəni batmağa qoymur.

Marketinq üsullarının tətbiqi, sosial, iqtisadi və siyasi xarakterli tədbirlərin həyata keçirilməsilə birlikdə böhrandan çıxışı tezləşdirir, ayrı-ayrı müəssisələrin inkişafına imkan verir, istehlakçıların təsəvvürlərini dəyişdirir, gələcəkdə baş verə biləcək böhranların qarşısını almağa bir növ kömək edir.

Bəllidir ki iqtisadi böhran qeyri-effektiv fəaliyyət göstərən bir sıra şirkətləri bazarı tərk etməyə məcbur edir. Yalnız o müəssisələr "ayaqda" qalıb fəaliyyət göstərir ki, həqiqətən keyfiyyətli işləyir və müştərilərin tələbatını maksimal dərəcədə qarşılayır.

Qeyd etmək lazımdır ki, istehlakçıların da marketinq alətlərinə reaksiyası dəyişib. Alıcıların əksəriyyəti seçim zamanı təkcə məhsulun satış qiymətini deyil, həm də onun real dəyərini bilmək istəyir. Bizim hər birimiz istəyirik ki, reklam materiallarındakı məlumatlar, yəni, məhsulun istehsalı, tərkibi, qiymətinin formalaşma qaydası doğru-dürüst olsun ki, bizə onun real dəyərini daha düzgün

təyin etməyə imkan versin. Təbii ki bu cür şəraitdə şirkətlər bazarın yeni tələblərinə uyğunlaşmalı olur.

Son zamanlar tez-tez sosial yönümlü marketinqdən danışılır. İqtisadi böhran dövründə ona diqqət daha da artıb.

Sosial yönümlü marketinq anlayışına bir çox prosedurlar kompleksi daxildir: ekoloji normalara əməl edilməsi, xeyriyyə tədbirlərində iştirak, kampaniyanın yerləşdiyi ərazidə sosial problemlərin həllində iştirak etmək və s. Son vaxtlar müəssisələrin əksəriyyəti reklam aksiyalarından təkcə öz məhsullarının satış həcmini artırmaq üçün deyil, həm də, xeyriyyə məqsədilə vəsaitlərin yığılması və ya ətraf mühitin qorunması məsələlərinə diqqəti yönəltmək üçün istifadə edir. Ekoloji təmiz məhsulların miqdarı artır, yeni iş yerləri açılır — bütün bunlar sosial yönümlü marketinqin tərkib hissələridir [2].

İqtisadi böhran və tələbatın azalması nəticəsində əksər istehsalçılar, əsas da zəncirin sonuncu həlqəsi olan pərakəndə satıcılar məhsulun qiymətini azaltmalı olur.

Böhran başlanandan bəri kampaniyaların əksəriyyətinin marketinq büdcəsi azalıb. Ən çox PR və geniş auditoriyaya yönəlmiş reklamlar (televiziya, radio, xarici reklam, parlaq jurnallar) öz əhəmiyyətini itirib.

Bununla belə, istehlakçıya yönəlmiş reklam xərci ya heç azalmayıb, ya da əksinə – artıb. Promo-tədbirlər və təqdimatlar, SMS-marketinq, SMM-marketinq, kontekst və banner reklamlarına çəkilən xərclər artmaqda davam edir. Bu cür reklamların ucuz olması, hədəf auditoriya ilə bilavasitə kontakt və istehlakçının tez reaksiyası onlara marketoloqların və müəssisə rəhbərlərinin marağını artırır — hazırda bu reklam üsullarına daha çox firmalar müraciət edir. Onların mənfi tərəflərinə həddən artıq nəzəri çarpması və keyfiyyətinin aşağı olmasını göstərmək olar [3].

2017-ci ildə internet şəbəkəsində reklama çəkilən xərc televiziya xərclərini ilk dəfə ötdü. Hazırda dünyanın demək olar ki, əksər ölkələrində internet-reklama çəkilən xərc telereklamı keçir.

Hazırki dövrdə ən çox populyarlıq "virus" marketinqi və sosial şəbəkələrin payına düşür. Bu üsullar kampaniyalara dolayı yolla, yəni, başqa istehlakçıların köməyilə müştəri tapmağa kömək edir. Onların da öz çatmamazlıqları var, amma, əsas üstünlükləri — ucuz olmaları və yüksək dərəcəli fərdilikdir. Belə ki, başqa istehlakçının məsləhəti brendə yüksək səviyyəli etibar qazandırır, hansı ki, başqa heç bir bahalı reklamlarla çatmaq olmaz.

Son dövrlərdə geniş tətbiq edilən marketinq üsullarından biri — krosmarketinqdir. Bu alət marketoloqların arsenalında əvvəllər də var idi, lakin, ondan geniş istifadə edilmirdi. İndiki dövrdə şirkətlər hər şeydə qənaət etdikləri üçün krosmarketinqə tələbat artıb: bu üsulun istifadəsi məhsulun bazara çıxarılmasında sinergetik effektə nail olmağa imkan verir.

Bazarın sürətli inkişafı zamanı şirkətlər bu xidmətə lazımi diqqəti vermirdilər. Hazırda ona maraq artıb, çünki, əksər müəssisələr marketinq büdcəsinin defisitini yaşayır, mövcud müştəriləri saxlamaq isə yenilərini cəlb etməkdən daha ucuz başa gəlir. CRM (müştərilərlə münasibətin idarə olunması) sistemlərin yayılması baş verir, lakin, əfsuslar olsun ki, personalın bu sistemlərlə yaxından tanış olmaması onlardan lazımi səviyyədə istifadəni məhdudlaşdırır.

Elektron ticarətin, sosial şəbəkələrin və müxtəlif internet layihələrin sürətli inkişafını da xatırlatmamaq olmaz. Nisbətən ucuz olması saysız-hesabsız layihələrin yaranmasına gətirir, hansı ki, effektiv və gəlirli yalnız tək-tük olur.

Marketinqin inkişafı elə həddə çatmışdır ki, özünə hörmət edən hər bir şirkət onun bu və ya digər alətlərindən mütləq istifadə edir, ali təhsil müəssisələri isə uğun kadrlar hazırlayır.

Beləliklə, marketinqin rolu müasir dövrdə əvəzedilməzdir. Yalnız marketinqin köməyilə istehsalı optimallaşdırmaq, yeni sahələri mənimsəmək və böyük investisiyalar cəlb etmək olar.

İstehlakçıların zövqü çox fərdiləşib və bunu marketinq strategiyalarında nəzərə almaq lazımdır. Təkcə seçim imkanı yaradan şirkətlər deyil, həm də, bazara unikal məhsul təklif edənlər qələbə qazanır.

**Açar sölər:** marketinq fəaliyyəti, səmərəlilik, marketinq üsulları.

**Ədəbiyyat**


1. Мартьянова Ю.И. Система управления маркетинговой деятельностью на предприятии (на примере ОАО «Самарский хлебозавод №9»). Вестник Самарского государственного экономического университета, №5(67), 2010, с.53-59.
2. Куликов Л.М. Основы экономической теории. М.: Финансы и статистика, 2005.
3. https://koloro.ua/blog/brending-i-marketing/trendy-marketinga-ibrendinga-2017.html
4. https://cyberleninka.ru/article/n/marketing-kompanii-v-krizisnyhusloviyah


## DÜNYA ƏDƏBİ ESTETİK FİKRİNDƏ PSİXİ POZUNTU PROBLEMİ

**Könül İsrafilova**
Azərbaycan Universiteti
konul.israfilova@student.au.edu.az

21-ci əsrdən boylanıb keçmiş dövrlərə baxdıqda hər şeyi dəqiqliklə görmək, anlamaq, əlbəttə ki, qəliz məsələdir. Çünki uzaqlaşdıqca hər şeyin silueti itir və biz nəinki dəqiq görmək, həmin dövr üçün real olan gerçəklikləri hətta başa düşməkdə belə maneələrlə üzləşirik. İnsan daima inkişaf edir və bu inkişaf onu hər zaman izləyir. Məhz bu inkişafın sayəsində biz bizdən çox da uzaq keçmişə aid olmayan böyüklərimizi belə anlamaqda əziyyət çəkirik. Hər dövr öz tələbini bizə hədiyyə edir. 21-ci əsrdə isə elm və texnikanın inkişafı tək adı çəkilən mövzuda deyil, həyatımızın hər anını belə daha da sürətləndirdi. Həyatımız beş il əvvəl olan dövrümüzdən köklü şəkildə fərqlənir. Belə olan halda daha qədim dövrlərdə baş verənləri təsəvvür etmək mümkünsüz kimi görünsə də, ilkin ədəbiyyat nümunələri danışdığımız dövrün ab-havasını bizə çatdırmaqda ən əvəzolunmaz vasitələrdəndir.

İlkin ədəbiyyat nümunələri ibtidai insanın ətrafında gördüklərinin əxz edilməsidir. Bu nümunələr hər millətdə, xalqda müxtəlif formalarda, mövzularda olur. Bəs görəsən hər dövrdə mütləq şəkildə mövcud olan psixi, ruhi hallar qədim nümunələrdə öz əksini necə tapıb? Biz amma bu gün

daha konkret davranaraq antik yunan və Roma nümunələrində həmin məqamları araşdırmağa cəhd edəcəyik.

Bəşər nəslinin ilk günündən digər xəstəliklərlə yanaşı ruhi-psixi xəstəliklər paralel şəkildə inkişaf etmişdir. Bəs görəsən bu xəstəliklərin qədimdə necə adlanması, insanların ona olan münasibəti, xəstəliyin müalicə üsulları necə olmuşdur. Qədim yunan mifologiyasına əsasən ruhi xəstəlik xüsusiyyətlərinə müncər olunmuş obrazları araşdırmağa başlayaq.

Yunan mifologiyasında Maniya adında qadın obrazı vardı. O, dözülməzlik və dəliliyi xarakterizə edirdi. O, insan ağlını şiddətli ehtiras və həddindən artıq özgüvənlə kor edir və onu ruhi xəstəlik səviyyəsinə çatdırırdı. Yunan dilində "aphrosyne" sözü istifadə olunurdu. Burada "a" prefiksi -sız[4] , "phronis" ağıl, "syne" şəkilçisi isə lıq[4] "ağılsızlıq" kimi tərcümə edilir. İnsanlar bunda ilahi qüvvə gördüklərinə görə onu allahlarla bağlayırdılar.

Babillər və Şumerlər dəliliyə cadugərliyin nəticəsi kimi baxırdılar. Onlara görə qadağan olunmuş şeylərə müraciətin nəticəsidir.

Qədim Yunanıstanda da dəlilik şeytanın daxilə girməyi ilə əlaqələndirilirdi və qətiyyən allahlar tərəfindən göndərilə bilməzdi. Somatik pozğunluqlar ruhi xəstəlik hesab edilirdi. Platon "Timey" əsərində qeyd edirdi ki, bu pislik daşıyır, ilahi dəlilik isə müsbət məna daşıyıcısı idi.

"Əhdi-ətiq"-də dəliliyə cəza kimi baxılır. Nümunə kimi Navuxdonosor özündən razı və lovğa olduğuna görə dəliliklə cəzalandırılmışdı. Ondan əvvəl Daniel peyğəmbər onun gördüyü yuxunu yozur və sonra o, Allah tərəfindən cəzalandırılır. O , 7 il ərzində vəhşi heyvan kimi yaşamağa məhkum olur. Bu təsvir orta əsrlərdə dəliliyi günahlara görə göndərilmiş cəza olduğuna inandırdı.

Homer eposuna görə dəliliyi şəxsin özünə nəzarətin itməsi kimi anlayırdılar. Antik faciələrdə dəlilik "mən"in itirilməsidir, bu ətraf üçün faciəli nəticələrə gətirib çıxarır.

Mifologiyada konkret obrazlardan danışdıqda Narsis haqqında mifi diqqətdən kənar qoymaq olmaz. Burada Narsis təkəbbürlüdür, soyuqdur və heç kimi sevməyən biridir. Və buna görə də Afrodita onu cəzalandırmaq üçün heç bir canlının yaxın getmədiyi, şəffaf suyu olan çaya aparır [4]. Və burada o cəzasını alır: Narsis özünə vurulur. Bu mifdə psixoloji element müasir psixologiyada "eqoizm" adlanır və bu onu məhvə aparır. İkinci tərəfdən bu mifə baxsaq bir insan daxilində ikiləşməni müşahidə etmiş oluruq. Biri sevir, biri sevilir. Dolayısı ilə daxildəki "mən" parçalanır.

Növbəti diqqət yetirəcəyimiz obraz Herakl obrazıdır. O, Heranın göndərdiyi xəstəliklə ağlını itirir və öz uşaqları ilə bərabər, qardaşı İfiklın da uşaqlarını öldürür. Amma xəstəlik keçdikdən sonra o etdiklərindən peşman olur və günahlarının bağışlanması üçün Delf adasına yollanır. Psixoloji durumlar araşdırıldığında məlum olur ki, Heraklın həyatı çətin olmuşdur və bu dövrdə o, mücərrəd dildə desək, PTSD travma sonrası stres pozğunluqlarından əziyyət çəkmişdir.

Digər obraza - Medeyaya nəzər salaq. Medeya və uşaqları əri Yason tərəfindən tərk edilir və o, öz uşaqlarının qatilinə çevrilir [4]. Qısacası, Medeya depressiyadan əziyyət çəkirdi.

Mifik obrazlardan biri olan Orest iddialara görə şizofreniyadan əziyyət çəkirdi. Belə ki, o səs halusinasiyalarına məhkumdur. Elə o səslərin əmri ilə də anasının qatilinə çevrilir. Matricide adlanan ana qatili dövrü bu cür öldürülmələr dəliliklə əlaqələndirilirdi.

Yunan ilahələrindən biri olan Artemidaya gəldikdə isə o, ovçuluq, ay ilahəsi hesab edilirdi. Əslində bu bir ilahənin və ya allahın bir neçə sahənin allahı olması normal idi. Eyni vəziyyəti

Dionisdə də müşahidə etmək olar. Dionis haqqında mifdə maraq çəkən cəhətlərdən biri Dionisin iki dəfə dünyaya gəlməsidir. Biz Dionisi necə taniyiriq? Dionis üzümçülük, şərabçılıq, məhsuldarlıq, teatr və adını çəkmədiyiklərimizin allahıdır. Əgər biz buna psixiatriya gözü ilə baxsaq burada bir insan daxilində bir neçə şəxsiyyət görərik. Bu isə 20-ci əsrdən başlayaraq psixiatriyada rast gəlinən və hələ də tam öyrənilməyən probləmlərdən biridir.

Digər cəlb edən obrazlardan biri adı elə də məşhur olmayan yunan ilahəsi Hekatadır. Onun adına ədəbiyyatda e. ə. VIII əsrdə Hesiodun "Teoqoniya"-sında rast gəlinib. Hekata ədəbiyyatda sərhəd, ay, yeraltı, magiya, cadugər allahı kimi qəbul edilir. Göründüyü kimi bu ilahənin özündə də müxtəlif sahələr birləşir. Yuxarıda da qeyd edilən kimi bu şəxsiyyətin parçalanması izləridir. Hətta Hekatanın heykəlinin üç siması var. Məlumdur ki, sima bir növ daxilimdəzi "mən"-lərin təzahür formasıdır. Heykəltəraşlıq daxildə baş verənlərin xarici vasitələrlə materiya dünyasında inikasıdır.

Antik dövrdə fiziki xəstəliklərdən fərqli olaraq mental xəstəliklər diqqətdən kənarda qalmışdır və ya fiziki xəstəliklə eyniləşdirilmişdir. Təsadüfi deyil ki, bəzən psixi normada olmayan nəsə daxildə axtarılmışdır. Ruhi xəstəliklərlə bağlı ilk elmi təsviri Platon vermişdir. "Fedr" dialoqunda o, üç cür dəlilik müəyyən edir: peyğəmbərlik, ibadət və poetik. Poetik dəlilik muzalar tərəfindən göndərilirdi və bu dəlilik sayəsində insanlar yaradıcılıqla məşğul ola bilirdilər. Məhz, bu dövrdə Platon fəlsəfəsinə əsaslanan "poetik dəlilik" termini yarandı. Əflatuna görə dəlilik ağılın insanı tərk etməsi deyil, ağılın əsarətindən qurtuluş və tanrıların insanlara verdiyi lütfdür [1].

Yunan təbabəti Hippokratın mətnlərindən istinad edərək "qara öd" baş beyində oturub onunla qidalanır, "sarı öd" isə ya əksinə aktivliyin artmasına, xolerik dəliliyə, epilepsiya və maniya gətirdi. Bu nəzəriyyəyə humanizm və renessans dövründə yenidən qayıdış oldu.

Sonradan Yunanıstanda hesab etməyə başladılar ki, xəstəliklər Allahlar tərəfindən göndərildiyinə görə xəstələr gecəni məbədlərdə keçirməlidirlər ki, sağalsınlar. Hippokrat dövrü təbabətində qalusinasiyalar insan sağlamlığına aid bir fenomendir, amma yenə də böyük əksəriyyət bunu allahların əməli ilə əlaqələndirirdi. Hippokrat məktəbinin davamçılarından biri V əsrin sonunda traktatda qeyd edirdi ki, müqəddəs xəstəlik olan epilepsiyanın kökü ilahi təbiətə malik deyil. Sonradan bütün həkimlər anladı ki, bu kimi xəstəliklər psixika ilə bağlıdır. Yunanlar həmişə əsəbi xəstəlik hesab edirdilər. Onlara görə insan bu xəstəliklə dövlət işləri ilə məşğul ola bilmədiyi kimi, ev işləri də üzərinə götürə bilməz. Onlara görə belə xəstəliklə insan sonda məhv olur. Məlumdur ki, bəzi tarixi şəxsiyyətlərdə də psixi pozğunluqlar vardır. İddialara görə Sokratın səs halusinasiyaları var idi. Təbii ki, hazırda bunu sübut etmək mümkün deyil.

Antik dövrdə xəstəliyin səbəblərini psixoloji səbəbdə axtarmaq cəhdi olmamışdır. Amma dövrlər dəyişdikcə məlum faktlardan çıxış edən görkəmli nümayəndələr vaxtaşırı bu suala cavab tapmağa cəhd ediblər. Orta əsrlərdə İohan Veyer belə xəstəliklərin şeytanların əməli olmadığını iddia etdi. Bundan sonra Paracels (1493-1521) və Feliks Plater (1536-1614) Veyerin nəzər nöqtəsini dəstəklədilər. Platon hesab edirdi ki, dəlilik həmişə şeytanlarla əlaqəli deyil, adi formada da dəlilik vardır. XVI əsrdə isə dəlilik konsepsiyası dəyişməyə başladı. XVII əsrdə dəlilik şeytan kontekstindən tam təcrid olundu və əxlaqsızlıqla əlaqələndirildi.

Maarifçilik dövrü dəliliyin yeni izahını gətirdi. İlkin normal olan ağlın sonradan pozulması hesab edildi. Ağıl olmadan dəliliyin olmamağı məsələsinə Artur Şopenhauer belə aydınlıq gətirdi ki, heyvanlar dəli olmurlar. Çünki onlarda ilkin ağıl da yoxdur.

Yuxarıda adı çəkilənlər və onlar haqqında yazılan hər şey yunan mifologiyasında tapılması mümkün olanların çox cüzi bir hissəsidir. Miflər insanların dünyanı anlamaq cəhdlərinin ilkin formasıdır. Mental xəstəliklərə də bəşəriyyətin elə bir dövrü olmamışdır ki, cəmiyyətdə rast gəlinməsin. Təbii ki, həmin dövrün insanları da qarşılaşdığı fövqəl vəziyyətləri başa düşdükləri kimi izah etməyə çalışırdılar. Məhz buna görə də miflərdə məlumatdan kənarda qalan heç bir elm sahəsi, heç bir fenomon yoxdur. Sadəcə tədqiqatçı hər bir detalı bir araya gətirib hissələri toplayaraq bütöv "şəkli" görməyə cəhd etməlidir. Tədqiqatçının yolunda olan ən böyük maneə isə elm nümayəndəsi olduğundan öyrəndiyi hər sahəni "parçalamaq" qabiliyyətidir.

**Açar sözlər:** antik ədəbiyyat, psixologiya, mif, faciələr.

**Ədəbiyyat**

1. Roccatagliata G. A history of ancient Psychiatry. New York: Greenwood Press; 1986.
2. Alexander F.G., Selesnick S.T. The history of Psychiatry. New York: Harper & Row; 1966.
3. Frazer G.J. The Golden Bough: A study in Magic and Religion. New York: Macmillan, 1922.
4. Кун Н.А. Легенды и мифы Древней Греции, 5-е изд.
5. Bolen Jean Shinoda, M.D. (1984), Goddesses In Everywoman, Powerful Archetypes in of Women's Lives Publisher Harper Collins, New York Chapter 4 Artemis, Goddess of the Hunt and Moon, Competitor and Sister.

## İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏN GÖTÜRÜLMÜŞ TORPAQ NÜMUNƏLƏRİNDƏ PESTİSİDLƏRİN TƏDQİQİ

**İntizar Kərimbəyli, Nisaxanım Kərimova**
AMEA Radiasiya Problemləri İnstitutu
intizar.kerimbeyli@yahoo.com

Ağdam rayonu Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında yerləşir. Cəbrayıl rayonu Kiçik Qafqaz dağlarının cənub –şərqində, Gəyən düzü və Qarabağ silsiləsində yerləşir. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir.

1993-cü ildən etibarən Ağdam və Cəbrayıl rayonu ərazisində ekoloji qiymətləndirmə aparmaq mümkün olmadığından bu ərazilərdə monitorinq və elmi tədqiqat işləri həyata keçirmək, uzun müddət tədqiq olunmayan bu ərazilərdəki torpaqların əkinə yararlı olub-olmamasının müəyyənləşdirilməsi və mütəmadi olaraq nəzarətdə saxlanılması olduqca böyük önəm kəsb edir.

Bu tədqiqat işində Ağdam və Cəbrayıl rayonları ərazisində yerləşən əkin sahələrindən pestisidlərin analizi üçün torpaq nümunələri götürülmüş,laboratoriya şəraitində nümunələr analiz üçün hazırlanmış və "Qaz Xromotoqraf" cihazında ölçmə işləri aparılmışdır.

Cəbrayıl rayonu ərazisindən götürdüyümüz torpaq nümunəsində pestisidlərin ümümi miqdarının nisbətən az olmasına baxmayaraq kiçik konsentrasiyada bütün modifikasiyaları müşahidə olunur. Ağdamdan götürülən torpaq nümunəsində isə 4,4 DDE və 4,4 DDT yüksək konsentrasiyada (uyğun olaraq 4,4 DDE-143,748 ηg/kg və 4,4 DDT-7,553 ηg/kg ) müşahidə olunur.Alınan nəticələr işğaldan azad olunmuş torpaqlarda pestisid qalıqlarının hələ də mövcud olduğunu və bu ərazilərdə mütəmadi olaraq monitorinq keçirlməsinə ehtiyac olduğunu göstərir.

## CASTİN KRONİNİN "KEÇİD" TRİLOGİYASI DÜNYANIN SONU KONTEKSTİNDƏ

**Nərmin Kərimova**
Azərbaycan Dillər Universiteti
narminbabazadeh@mail.ru

Sivilizasiyanın böyük zombi sürülərinin hücumu səbəbindən çökdüyünü göstərən apokaliptik əsərlərdə bir qayda olaraq, yalnız kiçik bir qrupun həyatda qalmağa nail olması təsvir edilir. Bu cür mövzuya malik əsərlərin bir qismində hücumun səbəbi məlum olmur, digər bir qismində isə hadisələrə müəyyən bir infeksiyanın səbəb olduğu göstərilir. Epidemiya böhrana gətirib çıxarır ki, bunun nəticəsində insanlar arasında çaxnaşma yaranır, həyati əhəmiyyətə malik vasitələr məhv olur. Sağ qalmağı bacaranlar "təhlükəsiz məkan" axtararaq yeni bir dövrə başlamağa can atırlar. Obrazların apokaliptik dünyada fəlakətlə üzləşən zaman reaksiyaları və böhranlı vəziyyətdə şəxsiyyətlərinin dəyişməsi bu tip əsərlər üçün xarakterikdir. Apokaliptik ədəbiyyat *"cəmiyyəti yenidən qurmaq üçün dünya ssenarisinin sonundan istifadə edir"* [1, s.23] fikri bu baxımdan əhəmiyyət kəsb edir.

Çağdaş Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən sayılan Castin Kroninin 2010-cu ildə nəşr olunan, tənqidçilərin və oxucuların Kormak Makkarti, Stiven Kinq, Marqaret Etvud romanları ilə müqayisə etdikləri kitaba çevrilərək dünya şöhrəti qazanan "Keçid" trilogiyası hökumətin apokaliptik nisbətdə bir fəlakətə səbəb olan təcrübələrinin ölümcül nəticələrini nəzərdə tutan roman kimi xarakterizə olunur. Amerikalı yazar Daniel Trussoni haqlı olaraq trilogiyanı *"böyük distopik epos"* [4] adlandırmışdır.

Trilogiya yaxın gələcəkdə baş verir ki, uzun ömürlü əsgərlər yaratmaq məqsədilə 12 məhkuma yarasa virusu tətbiq edilərək "Nuh layihəsi" adlandırılan gizli bir tədqiqat aparılır. C.Kronin sirli bir bəlanın insanları zorakı davranmağa məcbur etdiyi, şəhərlərin dağıldığı, ABŞ-ın böyük bir hissəsinin səhraya çevrildiyi və nəticədə yaranan xaosda milyonlarla insanın öldüyü faciəvi bir gələcək təqdim edir. Müəllif *"təkcə zəif təchiz olunmuş hökumətin böhranla necə mübarizə aparacağını deyil, həm də cəmiyyətin özünü necə yenidən yaradacağını"* [3] təsvir etməyə çalışır.

Lir adlı həkim virusun immun sistemi formalaşmaqda olan uşağa vurulması fikrini irəli sürərək fəlakətdən qurtulma yolu təklif edir. Qurtuluş yolu altı yaşındakı Emi Bellafont olur ki, onun bütün məsuliyyəti də agent Bred Volqasta tapşırılır.

Yoluxmuş insanların vəhşilikləri xaos yaratmağa başlayanda Volqast Emini qorumaq üçün dağlara çəkilir. Bir gün nüvə partlayışına şahid olan Volqast bunun hökumət tərəfindən yoluxmanın

qarşısı alına bilinməyən ərazilərdə bilərəkdən planlaşdırıldığı qənaətinə gəlir. Nüvə partlayışı Eminin qoruyucusu Volqastın ölümünə də gətirib çıxarır.

93 ildən sonrakı hadisələrin təsviri verilən ikinci hissədə oxucu Eminin sadəcə bir neçə il qocaldığının şahidi olur. Bu müddətdə sağ qalmağı bacaran insanlar üçün koloniya yaradılmışdır ki, Emi bu koloniyaya gəlib çıxır. Burada post-apokaliptik həyata uyğunlaşdırılmış distopik cəmiyyətin xarakterik xüsusiyyətlərini daşıyan qanunlar, idarəetmə üsulları mövcuddur. Volqastın bir zamanlar Emini qoruma səlahiyyətini koloniyada Piter Cekson öhdəsinə götürür.

Əsər boyunca Nuh tufanı və digər dini çalarlara yer verilməsi maraqlı vəhdət yaradaraq həyat uğrunda insanların savaşmasını simvolizə edir. Əsərin qəhrəmanlarından olan rahibə Leysi Pitерə Nuhun hekayəsini nəql edərək Tanrının Nuhu sınağa çəkdiyi fikrini irəli sürür. *"He wanted to see if Noah was up to the job. And in the end, he was. He built the ship, and the heavens opened, and the world was washed away. For a long time, Noah and his family floated on the waters. It seemed they had been forgotten, that a terrible joke had been played on them. But after many days, God remembered Noah, and sent him a dove to lead them to dry land, and the world was reborn"* [2, s. 710]. *– "O, Nuhun bu işin öhdəsindən gəlib-gəlməyəcəyini görmək istəyirdi. Və nəhayət, Nuh bacardı. Gəmini düzətdi, göy yarıldı və dünyanı su basdı. Nuhla ailəsi uzun müddət dənizdə qaldılar. Sanki unudulmuşdular, elə bil onlara dəhşətli bir zarafat edilmişdi. Amma uzun müddətdən sonra Tanrı Nuhu xatırladı və onları quruya götürmək üçün göyərçin göndərdi və beləcə, dünya yenidən doğuldu".*

Beləliklə, Leysi baş verən hadisələri Nuh dönəmi ilə əlaqələndirərək Nuhun Piterin simasında yenidən peyda olduğuna işarə verir. Emi isə məhz Nuhun gəmisini simvolizə edir ki, bəşəriyyətin qurtuluşuna xidmət edən Piterə hədəfinə çatmağa o yardım edir.

Kitabda nihilist düşüncələrə yer yoxdur. Əksinə, ümid, sevgi və fədakarlıq fonunda insanlığın mübarizəsi müəyyənləşdirilir. Romanda qəhrəmanlıq nümunəsi olan fədakarlıq əsas mövzulardan sayılır ki, bir çoxundan fərqli olaraq bəzi personajlar bəşəriyyətin rifahı və yaşaması üçün can qoyur, nəticədə, öz həyatlarını digər insanların qorunması naminə qurban verirlər. Bəşəriyyət həyat naminə zəruri olan insani münasibətlərin qurulması üçün başqaları ilə əlaqə yaratmaq arzusundadır. Beləliklə, dağılmış dünyanın qaranlığında cəmiyyət insan həyatını davam etdirmək üçün yeganə vasitədir. Əsərdə bəzi obrazlara görə ölüm hissi yaşam uğrunda mübarizə üçün təhlükəli olsa da, bəziləri ölümün qaçınılmazlığından ruhlanır və nəticədə həyatda qalmağı bacarırlar.

Sevilən bir insanın itkisi Castin Kroninin adı çəkilən trilogiyasında insan həyatının məhdudiyyətləri haqqında artan düşüncələri stimullaşdırmaq üçün təqdim olunur. İnsan ölümü və buna bağlı olaraq yaranan çətin emosional vəziyyətin təsviri bu trilogiyanın tənqidçilər və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanmasına gətirib çıxarmışdır.

**Açar sözlər:** Castin Kronin, "Keçid", apokalipsis, Nuh, yeni dünya.

## Ədəbiyyat


1. Bould M. The Routledge Concise History of Science Fiction, M. Bould, Sh. Vint – New York, 2011, 264 p.
2. Cronin J. The Passage. New York: Ballantine Books, 2010, 766 p.

3. Skurnick, L. Justin Cronin's The Passage: [Electronic resource] https://www.thedailybeast.com/justin-cronins-the-passage-reviewed-by-lizzie-skurnick
4. Trussoni, D. [Electronic resource] https://www.bookmovement.com/bookDetailView/13503/The-Passage-Justin-Cronin

## BAHARLI TAYFA İTTİFAQININ HAKİMİYYƏT UĞRUNDA MÜBARİZƏSİ

**Əsmər Lətifova**
Azərbaycan Universiteti
asmarr.latiff@mail.ru

Baharlılar Anadoluya köçlə gələn Türkmən boylarından biridir. Anadolu ərazisində özünə yer axtaran baharlılar qısa zaman kəsiyində Van-Ərçiş ətrafında məskunlaşaraq güclü bir dövlətə çevrilmişdir. Baharlı bəyliyi dövründə Bayram Xoca və Qara Məhəmməd ... ən önəmli şəxsiyyətlərdən olmuşdur.

Xalqımızın təşəkkülündə iştirak etmiş qədim tayfa birliklərindən biri də Baharlılardır. Mənbələrdə qeyd edildiyi kimi onlar "Türkmən" adlanan etnik qrupa mənsub idilər [1, s.10].

Baharlıları təşkil edən tayfa və boylar VIII-IX əsrlərdə Orta Asiyadan Qərbi İrana və Azərbaycana köç etmişlər. Çox güman ki, XIII əsrdən etibarən monqol yürüşlərinin təsiri ilə qərbə doğru hərəkət edərək, Kiçik Asiya, İraq və Suriyada məskunlaşmışdılar. Baharlılar Anadoluda yarımköçəri həyat tərzi sürürdülər [2, s.71].

Baharlı tayfasının adı ilə bağlı istər türk, istərsə də xarici tarixşünaslıqda müxtəlif fikir və mülahizələr irəli sürülmüşdür. Baharlı tayfasının totemlərinin qoyun olması ilə əlaqələndirsələr də, bu fikrin gerçəklik payı yoxdur. Əvvəla, totem qəbul edilən heyvanların ətini yemək qəbul olunmur, lakin qədim türklərdə qoyun əti tükənilən ərzaq növü idi [3, s.83]. O. Turan, E. Esin kimi tarixçilərdən fərqli olaraq Faruk Sümer bu fikri müdafiə edərək, bu adın heyvanların rənginə görə verdikləri qənaətinə gəlir [4, s.13].

XV əsr Osmanlı müəllifi Mövlana Şükrüllah Baharlı elinin Oğuz xanın oğlanlarından biri olan Dəniz xanın törəməsi olduğunu yazır [5, s.313]. Faruq Sümer yazır ki, Şükrüllahın bu qeydinə əsasən Baharlıları Dəniz xanın oğulları olan İğdır, Büğduz, Yivə və Kınık boylarından birinə mənsub olmuşdur. Bunlardan Yivə boyu ilə qohumluq əlaqələrinin ola biləcəyinə dair bəzi izlər tarix səhnəsində görünür. Bu fikri Ə. Çay da müdafiə edir. V.F Minorski də bu fikri müdafiə edərək Baharlı sikkələrində olan damğaların Yivə damğalarına bənzədiyi üçün, onların Yivə boyundan olduğu mülahizəsinə gəlir. Lakin F.Sümer isə, həmin sikkələrdəki damğaların sadəcə bir naxış olduğunu yazır [1]. Prof. Mahmut Ak Baharlıların hansı boydan gəlməsi haqqında dəqiq məlumatın olmadığını yazır [3]. C. Boyl da bu mövqeydən çıxış edir.

Bəzi tarixçilər Baharlıların Baranlu sülaləsindən olduğunu qeyd edirlər. " Belə ki, bu adın Anadoludakı yer adı ilə eyniləşdirsələrdə, sözü gedən tarixçilər isə "Baran" sözünün qoç mənasında işləndiyini qeyd edirlər [3].

F.Kırzıoğlu güman edir ki, Şərqi Anadoluda qeyd edilən Duru- Bayan əyaləti burada məhz Baharlıların məskunlaşmasından sonra yaranıb. F. Sümer isə Baranlu tayfası ilə bağlı etnonimin, yalnız Şərqi Anadoluda olması faktı ilə kifayətlənmişdir. Bu tayfa ilə bağlı olan etnonimlər Azərbaycanın şimal və cənub bölgələrində, İran ərazisində hələ öz varlığını yaşatmaqdadır.

Baharlı tayfaları: Baharlı tayfa birliyini təşkil edən tayfaların Azərbaycan ərazisində məskunlaşması daha erkən dövrlərə təsadüf edir [1, s.13]. Həmin tayfalar bunlardır: sədlu, baharlu, duharlu, qaramanlu, alpavut, çakirlu, ayınlu, hacılu, ağacəri, dügər və bayramlı [5].

Baharlı dövlətinin təməlini Baharlı tayfası təşkil edir. Onlar Həmədan bölgəsində məskunlaşmışdılar. Baharlıların qələbələrində mühüm rol oynayan və dövlətin süqutundan sonra Bayandurlu və Səfəvi dövlətində xidmət göstərən oymaqlardan biri isə Sədlu tayfası idi. Qeyd edim ki, Ayınlu, Hacılu, Ağacəri, Dügər, Bayramlu kimi tayfalar da Baharlı dövlətinin dağılmasından sonra yuxarıda sadaladığımız dövlətlərdə ordunun əsasını təşkil edirdilər [3, s.84].

Baharlı oymaqlarından olan Bayramlu tayfası öz adını Xoy hakimi Bayram bəydən almışdır [4]. Bayram Xoca Sultan Üveysin əmirlərindən biri idi [5]. O, 1351- ci ildə Hüseyn bəyi öldürdü, Mosulu ələ keçirərək, idarəsini qardaşı Bərdi bəyə tapşırdı. Beləliklə, XIV əsrin ikinci yarısında mərkəzi Van olan Baharlı bəyliyinin əsasını qoyuldu [4].

Bayram Xoca 1366-cı ildə Mardin hökmdarı Məlik Mənsuru məğlub edərək, Mardini ələ keçirdi. 1369-cu ildə Mosulu ələ keçirsə də, Sultan Üveysin yürüşü ilə əlaqədər Mosulu tərk etmək məcburiyyətində qalan Bayram Xoca yenidən 1371-ci ildə Mosulu işğal elədi. Sultan Üveysin ölümündən faydalanaraq, baharlılar Cəlairlərə vergi verməyi dayandırdı, lakin Cəlairlərin 1377- ci ildə hücumuna məruz qaldı. Belə ki, Hüseyn Cəlairi Ərçişə hücum edərək, oranı ələ keçirdi. Ona görə də Bayram Xoca yenidən vergi vermək məcburiyyətində qaldı [3, s.85].

Beləliklə, monqolların bir-biri ilə mübarizəsindən istifadə edən Bayram Xoca baharlıları tarix səhnəsinə çıxararaq Anadoluda Türkmən hakimiyyətini qurdu. Əsərlərdə onun 1380- ci ildə öldüyü haqqında məlumat verilir [3, 4, 5].

Bayram Xocadan sonra oğlu Qara Məhəmməd gəlmişdir. O, mərkəzi Van olan Baharlı feodal hakimliyini yaratmışdır [5, s.314]. Belə ki, Şeyx Üveys qardaşı Əhməd tərəfindən 1382- ci ildə öldürüldü [3]. Əhmədin taxta əyləşdiyini öyrənən Sultan Hüseyn və Şeyx Əli ordu toplayaraq Azərbaycana yola düşdülər. Sultan Əhməd mübarizə aparacaq gücdə olmadığını görüb, Qara Məhəmməddən kömək istədi və gecə ikən ona sığındı. Qara Məhəmmədlə birləşən Sultan Əhməd qələbə çalaraq, Cəlairi taxtına əyləşdi [6].

Bu hadisədən bir il sonra Qara Məhəmməd bəy Mardin hakimi İsaya elçi göndərərək, qızını istəsə də rədd cavabı aldı. Bundan sonra Məhəmməd Mosuldan Mardin üzərinə hərəkətə keçdi, lakin məğlub olacağını görən Mardin hakimi qızını Qara Məhəmmədə verməyə razı oldu və 1384- cu ildə Mardin Baharlılardan asılı vəziyyətə düşdü [3].

1387- ci ildə Teymurun yürüşü zamanı ona tabe olmayan Qara Məhəmmədi ticarət karvanlarına hücum etməkdə ittiham etmişdir. Teymur Misir Xocanın əlindən Avnik qalasını almağa çalışmış, lakin qala yaxşı müdafiə olunduğu üçün ələ keçirə bilməyərək, Ərzuruma yola düşmüşdü. Çapaqçur döyüşündə məğlub olan Teymur baharlıları tabe edə bilməyəcəyini başa düşərək Van yolu ilə İrana doğru gedir [4, s.51].

Bu qarışıqlıqdan istifadə edən Məhəmməd Təbrizə yürüşə başladı və şəhərdəki Cəlairi qarnizonu məğlub edərək Təbrizi ələ keçirib öz adına pul kəsdirdi [1, s.55]. Az sonra tarixi mənbələrdə qeyd edilməyən hansısa səbəbə görə Pir Həsən bəy Baysunqur 1389- cu ildə üsyan etdi və bu üsyan nəticəsində Qara Məhəmməd bəy öldürüldü. Pir Həsən bəy bəylikdə hakimiyyəti ələ keçirmək istəsə belə türkmənlər onun hakimiyyətini qəbul etməyib Misir Xocanın ətrafında toplaşdılar [3, s.87].

Baharlı bəyliyini 1389-1410-cu illərdə, yəni dövlət yaranana qədər Qara Yusif idarə etmişdir. Həsən bəy Rumlu Yusifin son dərəcə cəsur, mərd və güclü olması haqqında məlumat verir. O, qeyd edir ki, dəfələrlə Teymurla mübarizə aparmış və ona boyun əyməmişdir [1]. Teymurun 1400- cü il yürüşü zamanı Yusif və müttəfiqi Sultan Əhməd Osmanlı sultanı İldırım Bəyazidə sığınmışdır. Teymur elçi göndərərək İldırım Bəyaziddən onları təslim etməyi tələb etsə də, lakin Osmanlı sultanı bunu qəbul etməyərək rədd cavabı vermişdir. Hətta Bəyazid Ağsarayı Qara Yusifə vermiş, Yusif 8-9 ay Osmanlı imperiyasının tərkibində qalmışdır [3, s.101].

Qara Yusif 1406-cı ildə Naxçıvan yaxınlığında, 1408- ci il aprelin 21- də isə Sərdrud döyüşündə Teymuri Əbubəkr üzərində qələbə qazandı. Sonuncu döyüşdə xalqın nifrətlə "Maranşah" adlandırdığı Miranşah öldürüldü. Qələbədən sonra Azərbaycanın cənub torpaqlarında Teymurilərin hakimiyyətinə son qoyuldu [5, s.315]. İ.H Uzunçarşılı, Z. V Toğan və İsmayıl Aka kimi türk tədqiqatçıları Baharlı dövlətinin 1408-ci ildə yarandığını qeyd edirlər. Qaynaqların verdiyi məlumata görə Yusif Əbubəkr üzərində ikinci dəfə qələbə qazandıqdan sonra oğlu Pir Budağı padşahlıq taxtına oturtmuşdur. Lakin Azərbaycan tarixçiləri dövlətin 1410-cu ildə yarandığı fikrini müdafiə edirlər [1, s.24].

Beləliklə, 1410- cu il avqustun 30-da Baharlı Qara Yusif Sultan Əhmədi Şənbi Qazan ətrafında məğlub edərək rəsmi olaraq dövlətin əsasını qoymuşdur.

**Açar sözlər:** Baharlı, tayfa, bəylik, Bayram Xoca, Qara Məhəmməd.

### Ədəbiyyat

1. Azərbaycan tarixi yeddi cildə III cild (XIII-XVIIII əsrlər), Bakı. Elm. 2007, s 563.
2. Akkkoyunlu, Karakoyunlu ve Safeviler tarihi, M. Ak . İstanbul. 2010, s 250.
3. Azərbaycan tarixi, S.Əliyarlı. Bakı.2009, s 861.
4. Karakoyunlular. F. Sümer. Ankara. 1967, s 184.
5. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. T. Nəcəfli. Bakı. 2000, s 84.

# AZƏRBAYCAN VƏ TÜRKIYƏ ARASINDA HƏRBİ ƏMƏKDAŞLIĞIN REGİONAL VƏ BEYNƏLXALQ ASPEKTLƏRİ (1991-2000-ci illər)

**Rəşid Mehdiyev**
Azərbaycan Universiteti
mresid.1998@gmail.com

1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini yenidən bərpa etdikdən sonra əsas hədəfi müstəqilliyi möhkəmlətmək, ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi təcavüzün qarşısını almaq, regionda gerçəkləşdirilməkdə olan böyük nəqliyyat-rabitə və iqtisadi layihələrdə fəal iştirak etmək idi. Ölkəmizin iqtisadi-maliyyə imkaları artdıqca, onun diplomatik müstəvidə əldə etdiyi uğurları hərbi sahədə əsaslı dəyişikliklərə, ordunun müasir silah-sursatla, ən yeni texnologiyalara əsaslanan hərbi texnika ilə təhcizinə daha çox diqqət ayırmağa imkan verdi. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli təhlükəsizliyin daha etibarlı şəkildə təmin edilməsi və qorunması, ölkəmizin ərazi bütövlüyünün, vətəndaşlarımızın hüquq və azadlıqlarının müdafiə olunması beynəlxalq hərbi əməkdaşlıqlığı, xüsusən də qardaş Türkiyə ilə hərbi-texniki əlaqələri genişləndirməyi həyati zərurətə çevirmişdi.

Müstəqilliyin ilk illərində Ermənistanın Azərbaycanın suverenliyinə hərbi təcavüzü hərbi əməkdaşlığı daha da labüd hala gətirmişdi. Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionda və dünya dövlətlərin maraqlarının kəsişmə nöqtəsində yerləşən Azərbaycanın beynəlxalq hərbi əlaqələrinin inkişaf etdirilməsində əsas müttəfiqi qardaş Türkiyə Cumhuriyyətidir [7]. Azərbaycan və Türkiyə arasında hərbi sahədə müttəfiqlik regionda sülh və təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. 1991-ci ildən başlayaraq Türkiyə Cumhuriyyəti Azərbaycanın Avroatlantik məkana inteqrasiyasını fəal şəkildə dəstəkləməkdədir. İki dövlər arasında bu dövrdə olan hərbi əməkdaşlıq daha çox hərbçi kadrların hazırlanması sahəsində idi. Belə ki, 1992-ci ilin avqust ayının 11-də iki dövlət arasında imzalanmış “Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında” müqavilə və 1996-cı ilin iyun ayının 10-da imzalanmış “Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması” çərçivəsində azərbaycanlı gənclərin Türkiyə ali hərbi məktəblərində təhsil alması imkanları genişləndi [8]. Bu müqavilələrin reallaşması sayəsində Türkiyə Silahlı Qüvvələrinin müxtəlif təhsil müəsisələrində minlərlə azərbaycanlı hərbi yüksək döyüş hazırlığına malik zabit kimi hazırlanmışdır. Həmçinin müstəqilliyimizin bərpasından sonra ordumuzun yenidən təşkil olunmasında türkiyəli hərbiçilər böyük töhfələr vermişlər.

Azərbaycanın müdafiə sənayesi və hərbi geyim sahəsində ehtiyaclarının ödənilməsində Türkiyə şirkətlərinin böyük payı vardır. Bütün bu əlaqələrin inkişaf etdirilməsində Ümummilli lider Heydər Əliyevin danılmaz xidmətləri vardır. Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 1994-cü ilin fevralın 8-dən 11-nə kimi davam edən Türkiyəyə ilk səfəri iki ölkə arasındakı münasibətlərə yeni təkan verdi [6]. O, Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlığa böyük önəm verirdi. Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 2001-ci ilin mart ayının 12-dən 17-dək

Türkiyəyə rəsmi səfərinin əsas məqsədlərindən biri də hərbi sahədə əməkdaşlıq haqqında müqavilənin bağlanması idi [9].

NATO-nun üzvü olan Türkiyə həmişə Azərbaycanın Alyans ilə əməkdaşlığının inkişaf etdirilməsində maraqlı olmuş və təşkilatın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmasını dəstəkləmişdir. Azərbaycan və Türkiyə arasında beynəlxalq müqavilələr çərçivəsində müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm lahiyələr həyata keçirilmişdir. 1998-ci ildə Türkiyənin ASELSAN şirkəti tərəfindən ordumuzun müasir avadanlıqlar və texnika ilə təchiz edilməsi məqsədilə "ASELSAN-Bakı" şirkəti yaradılmışdır. Bu şirkətin hərbi məhsulların təmiri, texniki dəstək, mülki məhsulların satışı və. s kimi xidmət sahələri mövcutdur. 1990-cı illərdən bəri Azərbaycan ordusunda geniş şəkildə Türkiyə istehsalı olan müasir tipli rabitə sistemləri və silahlarından istifadə edilməsinə başlandı. 20 sentyabr 2000-ci ildə "Müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında" bağlanan müqavilə Azərbaycan və Türkiyə arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın hüquqi təməli olmuşdur [8].

Məhz Ümumilli lider Heydər Əliyevin yürütdüyü düzgün siyasət nəticəsində Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı çoxtərəfli olmuş, yüksələn xətlə inkişaf etmişdir. Onun layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlıq daha da dərinləşmiş və yeni məzmun almışdır.

**Açar sözlər:** Azərbaycan, Türkiyə, hərbi əməkdaşlıq.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015, 648 s.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu. Bakı: "Poliart" MMC, 2017, 904 s.
3. Azərbaycan respublikasının tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 s.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2007, 480 s.
5. Əliyev İ. İnkişaf-məqsədimizdir. B., Azərnəşr, 2008, 424 s.
6. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, 2005, 637 s.
7. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
8. "Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq inkişaf etdirilməlidir". http://anl.az/down/meqale/525/2011/mart/162438.htm İstifadə olunma tarixi: 07.03.2022
9. Azərbaycan və Türkiyə arasında hərbi sahədə əməkdaşlığın inkişaf dinamikası. https://geostrategiya.az/news.php?id=12 İstifadə olunma tarixi: 07.03.2022
10. Azerbaycan ve Türkiye arasında askeri alım ve savunma sanayi projeleri... - http://www.trsavunmasanayi.com/2018/07/azerbaycan-turkiye-silah-ticareti.html İstifadə olunma tarixi: 07.03.2022

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ MİLLİ SOSİAL MÜDAFİƏ SİSTEMLƏRİ

**Günel Məhərrəmova**
Azərbaycan Universiteti
maharramovagunel9@gmail.com

Sosial Müdafiə sistemi - vəsaitlərin yoxsulların xeyrinə yenidən bölüşdürülməsinə və əhalinin sosial xidmətə yönəldilən spesifik fəaliyyət növüdür. İnkişaf etmiş ölkələrdə əmək münasibətlərinin tənzimlənməsinin həyata keçirildiyi Sosial Müdafiə sistemi bazar cəmiyyətinin təşəkkülü və fəaliyyət müddəti ərzində formalaşmışdır.

Tarixin müxtəlif dövrlərində müxtəlif tənzimləmə formaları üstünlük təşkil etmişdir. Bu sistemlərin yaradılmasının səbəbi sosial və iqtisadi nizamın bir sıra amillərinin təsiri olmuşdur. Hər şeydən əvvəl, bu, həyat tərzinin urbanizasiyasıdır, sənayeləşmədir, iqtisadiyyatın inhisarlaşdırılmasıdır. Sonra sənaye proletariatının yaranması, sinif mübarizəsinin fəallaşdırılması, qarşılıqlı yardım məqsədlərinə xidmət edən həmkarlar ittifaqlarının yaradılmasıdır. Fəhlə hərəkatının təşəkkülü zəhmətkeşlərin və onların ailələrinin sosial müdafiəsinin yeni formalarına səbəb olur. İşçi qüvvəsinin əlverişli satış şərtləri, maddi vəziyyətinin yaxşılaşdırılması üçün işçilərlə kollektiv mübarizə, çünki müxtəlif peşələrdə əmək şəraiti çox müxtəlifdir.

Hazırda inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən sosial qanunvericilik onilliklər ərzində gərgin mübarizə nəticəsində əldə edilmiş zəhmətkeşlərin qazanılmasıdır. Xarici ölkələrin sosial müdafiə sistemini nəzərdən keçirərkən Almaniya, Yaponiya, ABŞ və İsveç kimi ən fərqli ölkələrdə xüsusi qeyd etmək lazımdır [1].

Almaniyada sosial müdafiə sistemi müharibədən sonrakı illərdən başlayaraq formalaşırdı. Almaniyanın ümumi daxili məhsulunda sosial xidmətlərin payı 30% - dən çoxdur. Onlardan təxminən üçdə biri xəstəlik halında pensiya sığortası və sığortanın payına düşür. Dövlət bu xidmətləri göstərməklə əsas qanun üzrə vəzifələri yerinə yetirir. Konstitusiyasının 20-ci maddəsinə görə, Almaniya, demokratik və sosial dövlətdir. Sosial dövlətin məqsədi hərtərəfli təmin olunmuş və xidmət göstərən insan deyil, əksinə, o (dövlət) müstəqil əldə edilmiş vətəndaşların hüquqları əsasında qurulur. Bu məqsədlə xəstəlik, qocalıq və bədbəxt hadisə ilə bağlı təminat, uşaqlara verilən müavinətlər, mənzil və işsizliyə görə ödənişin həyata keçirilməsini əhatə edən geniş sosial qanunlar qəbul edilmişdir [4].

Almaniyanın sosial müdafiə sistemi iqtisadi və sosial rifahın təmin edilməsi və müxtəlif əhali qruplarının bədbəxt hadisə, xəstəlik, əlillik, qocalıq, işsizlik və ailə başçısının ölümü kimi müxtəlif həyati təhlükələrə qarşı qorunmasını nəzərdə tutan tədbirlər toplusu kimi xarakterizə olunur.

Yaponiyanın sosial təminat sisteminə ictimai iaşə, sosial xidmət, sosial sığorta və ictimai səhiyyə daxildir. Bu da 1974-cü ildə təsis edilmiş qocalar üçün müstəqil səhiyyə xidmətidir [1].

Yaponiyanın dövlət sosial təminat sistemi çərçivəsində əhalinin sığortası prinsiplərinə əsaslanan bir neçə pensiya sistemi mövcuddur. Onların böyük hissəsi işçilərin özlərinin istisna

olmaqla, sığorta haqlarının işəgötürənlər tərəfindən ödənildiyi yerdə muzdlu işçilərin sığortalanmasını əhatə edir. İşəgötürən qismində çıxış etmədiyi zamanda dövlət pensiyalara müəyyən dotasiyalar ödəyir.

ABŞ-da sosial təminat həm sığorta, həm də büdcə vəsaitlərindən əsaslı və digər dəstəyə görə, ehtiyacı olan əlillərin digər dəstəyinə görə bir sıra proqramları əhatə edir.

Sosial təminatın təşkilinin ən səmərəli və perspektivli istiqamətlərindən biri dövlət büdcəsindən maliyyələşən sosial yardımın göstərilməsi üzrə özəl agentliklərlə müqavilələrin bağlanması olmuşdur. Xüsusi sistem tez-tez sosial xidmətlərin göstərilməsi sahəsində məhdud resursların ən optimal xərclənməsi vasitəsi kimi qəbul edilir, o cümlədən peşəkar təlimin təşkili, uşaqlara qulluq, yaşlılar üçün sosial-məişət və tibbi xidmətlərin göstərilməsi və psixi pozuntulardan əziyyət çəkən şəxslər üçün xidmətlərin göstərilməsidir [3].

İsveç sosial siyasətinin əsas elementi sosial sığortadır. Rəsmi sənədlərdə vurğulandığı kimi, İsveçdə sosial təminat sisteminin məqsədi xəstəlik, uşaq doğulduqda və qocaldıqda (ümumi sığorta), istehsalat səbəbinə görə bədbəxt hadisələr və xəstəliklərlə (İstehsalatda bədbəxt hadisələrdən sığorta) və işsizliklə (İşsizlikdən sığorta və əmək bazarından pul yardımı) insanı iqtisadi müdafiəni təmin etməkdir. Müraciətin səbəbindən asılı olmayaraq, yekun zəmanət sosial yardım kimi tanınan pul vəsaiti hesab edilir [2].

Beləliklə, Azərbaycanın bazar münasibətlərinə keçid şəraitində adekvat sosial təminat sisteminin formalaşdırılması sosial-əmək sahəsində bazarın məhdudlaşdırılmasını aradan qaldıran və bazar sisteminin inkişafının təminatçısı olan dövlətin fəal tənzimləyici rolu olmadan mümkün deyil. Dövlətin sosial funksiyasının həyata keçirilməsinin xarici təcrübəsi əsaslı və qanunvericiliklə tənzimlənən sosial normativlərin müəyyənləşdirilməsinin, əhalinin uzun müddətli perspektivinə hesablanmış kompleks sosial müdafiə sisteminin formalaşdırılmasının zəruriliyini göstərir.

**Açar sözlər:** inkişaf etmiş ölkələr, sosial müdafiə sistemi, sosial təminat.

## Ədəbiyyat

1. Гатауллин Р.Ф., Ишмуратова В.Г. Евразийский путь борьбы с российской региональной бедностью. Проблемы экономики и управления: Междунар. науч.-произв. жур., Белгород, 2006, №3, стр.8-28
2. Гатауллин Р.Ф., Ишмуратова В.Г., Сагатгареев Р. М. Социально-экономические проблемы сокращения бедности: монография, Академия ВЭГУ, Уфа, 2009, 136 стр.
3. Ишмуратова В.Г. Механизмы и инструменты борьбы с бедностью в новейшей истории США. Вестник Башкирского университета, 2010, Т.15, №4, стр.1272-1274
4. Можаев В. Человек на Западе, Пособие по безработице. Социальная защита, 1996, №2, стр.44-45.

# ОПЕРАТОР КАК ХУДОЖНИК

**Амин Меликов**
Азербайджанский Государственный Университет
Культуры и Искусства
refiyeva95@list.ru

Л.Н.Толстой говорил: «Художник собирает разбросанные куски жизни, затем в какую-то одну из минут глубокого волнения пред его взором встает единое целое: творческая идея: все предметы его наблюдения приобретают огромный смысл; волевым порывом он соеденяет эти предметы в единое тело, цементируя их живой влагой своих пристрастей, оживляя огнем своей личности.» [4]. Оператор тот же художник который своими творческими идеями создает шедевры. Особенно наглядно проявляется индивидуальность оператора - художника, когда разные мастера обращаются к одной и той же теме. О.Ф.Нечай в своей книги «Основы киноискусства» пишет: «В руках кинематографистов техника, которая, казалось бы, всегда дает подлинную картину окружающего: кинооператор нажал на кнопку, пленка передала все, что происходило перед камерой, и правда жизни воссоздана. Но на самом деле это не так. Результаты сеъмки могут быть самыми разными, в зависимости от замысла и способности автора. Объект съемок может быть показан серией кадров, из которых сложится ясная и правдивая киномодель жизненного факта.» [2]. «Кинооператор – кинематографист, снимающий фильм при помощи кинокамеры, один из ведущих мастеров кинопроцесса, соединяющий творческие и технические задачи при создании художественного образа фильма. Оператор – самая кинематографическая профессия, поскольку он единственный участвует в производстве картин всех видов и жанров, где могут отсутствовать те или иные кинопрофессии. Оператор – самая первая кинопрофессия, так как на заре кино для съемок картин достаточно было только одних операторов.» [3].

С.Эйзенштейн в портрете своего друга и соратниками Э.К.Тиссэ дал обобщенный образ оператора, обладающего идеальными качествами для этой профессии: «Невозмутимая флегма и дявольская быстрота. Молниеносный темперамент и кропотливость педанта. Быстрота хватки и безропотная долготерпеливость в поисках и достижении нужного эффекта». [5].

Старейший советский кинооператор А.Д.Головня, обращаясь в 1982 году к своим ученикам со своеобразным духовным завещанием, вдохновенно говорил: «Кинооператор – это человек, действующих в движении. Более благородного названия для человека, для героя, я придумать не могу, потому что движение - это то что характеризует вообще весь наш мир, а действие – это то, для чего люди созданы. Поэтому кинооператор – это великолепное название, точно характеризующее нашу профессию, которая требует оперативного мышления и энергичного, волевого и устойчивого действия.» [3].

А. Д. Головня особо подчеркивал важность для оператора таких качеств, как воля, выдержка, самообладание. Работая над фильмом кинооператор –кинемотографист,

снимающий фильм при помощи кинокамеры, один из важнейших мастеров кинопроцесса, соеденяющих творческие и технические задачи при создание художественного образа фильма.

Оператор-это тот, кто способен достичь высот Искусства, и он не должен называть «искусством» любую деятельность или так называемый креатив. Однака оператор есть тот же художник для которого вся понорама реальности доступна. Оператор - художник – это тот, кто рождает на свет произведение искусства при посредстве воображения. Для этого ему необходимы:

- активный ум, способный улавливать и воспроизводить идеи, трансформировать их в эстетические образы;
- дисциплинированное творческое воображение, не запутанное фантазией, но, напротив, связанное с интуицией;
- вдохновение, или интуитивная способность к воображению. Сейчас много говорят о том, что вдохновение приходит извне, но мало – о том, что его вызывает. Однако вдохновение – это связь с Идеями, к который способно именно сильное и деятельное воображение. Оператор как художник должен быть подлинным толкователем природы, чутким посредником между совершенным Идеалом и людьми. Пробуждать душу зрителей, а не только вызывать их восхищение – такова его миссия.

Современный оператор должен хорошо знать мировую художественную культуру, в совершенстве владеть сложной операторской техникой. Образное и аналитическое мышление равнозначены в искусстве оператора, для которого его кинокамера, пленка, оптика-орудия экранного творчества.

**Ключевые слова:** оператор, художник, культура, творчество, фильм.

**Литература**

1. Делия Стейнберг Гусман. Искусства и художник «Человек без границ» № 3 (40) март 2009.
2. Медынский С.Е. Компануем кинокадр. М.: Искусство, 1992, 239 с.
3. Нечай О.Ф. Основы киноискусства: Учеб. Пособие для студентов пед.ин-тов / Науч. Ред. И.В.Вайсвельд. М.: Просвещение,1989. 288 с.
4. Эренгросс Б.А. Удивительная наука эстетика!.. Научно-художественная литература. Оформ. Евг. Когана. М., «Дет. Лит.», 1974., 207 с.
5. Эйзенштейн С. Изобр. Произв. М. 1964. Т.5, с. 423.

**Operator rəssam kimi**

Operator-rəssamın fərdiliyi, yəni işinin xüsusiliyi yalnız və yalnız müxtəlif sənətkarların eyni mövzuya müraciət etdiyi zaman aydın görünür. Operatorun kinokamerası, filmi, optikası, ekran yaradıcılığında silahdır. Lakin, obrazlı və analitik təfəkkür də operator sənətinin ekvivolentdir. Operator həmdə öz yaradıcı, ideyaları ilə şedevrlər yaradan rəssamdır.

# AZƏRBAYCANIN BANK SİSTEMİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN RİSKLƏRƏ TƏSİRİ

**Abbas Məmmədli**
Azərbaycan Universiteti
abbas.mammadli@yahoo.com

Maliyyə sahəsində obyektiv qərarlar qəbul etmək üçün təcili ehtiyac iqtisadi hesablamalar üçün variantların proqnozlaşdırılan əsaslandırılmasıdır. Artıq bir çox bankların təşkilati strukturunda bu vəzifələrlə məşğul olan analitik bölmələr mövcuddur. Bu iş maliyyə bazarının vəziyyəti və inkişaf tendensiyaları haqqında reprezentativ və mümkün qədər dəqiq analitik məlumatı, habelə təhlil və proqnozlaşdırma vasitələrinin bütün arsenalından, xüsusən riyazi və statistik modellərdən düzgün istifadəni tələb edir.

Son illərdə neft gəlirlərinin artması nəticəsində Azərbaycanın qeyri-neft sektorunda uğurlu islahatlar aparılıb, maliyyə qloballaşması şəraitində sürətli iqtisadi artıma nail olunub. Lazımi iqtisadi artımın əldə edilməsi iqtisadiyyatın digər sahələri ilə yanaşı, maliyyə sistemində də müsbət dəyişikliklərə səbəb oldu.Borcalanların ödəmə qabiliyyətinin azalması kredit riskini artırır. Mövcud risklərin idarə edilməsi, xüsusən də borcalanların borc yükünün azaldılması məqsədilə bank kreditləri yenidən strukturlaşdırılıb. Bu tədbirlər konkret müsbət nəticələr versə də, davam edən makroiqtisadi qeyri-müəyyənlik bankların kredit riskinə məruz qalmasını artırıb. Nəticədə iqtisadi artım şəraitində formalaşan kapital yastıqlarının hissələri itirildi, məcmu kapitalın uyğunlaşma əmsalı müəyyən minimum standartlara yaxınlaşdırıldı.

1 yanvar 2019-cu il tarixinə Azərbaycan Respublikasında 30 kommersiya bankı fəaliyyət göstərir.Son illər əlverişli makroiqtisadi şəraitin davam etməsi fonunda ölkənin bank sektoru kifayət qədər dinamik inkişaf edərək Azərbaycanın maliyyə sisteminin dayanıqlı inkişafı üçün sabit zəmin yaradır. Son illər bank sisteminin möhkəmlənməsi və inkişafı özünü onun əsas göstəricilərinin - kapitalın, cəlb olunmuş vəsaitlərin, o cümlədən təsərrüfat vəsaitlərinin, iqtisadiyyatın real sektorunun kreditləşməsinin həcmində dinamikasında göstərmişdir.

Qlobal böhran da ölkənin bank sistemində kredit riskinin qiymətləndirilməsi modelinin (daxili skorinq) tətbiqinə ehtiyac olduğunu təsdiqlədi. Bununla bağlı Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA) daxili skorinq sahəsində problemi banklarla müzakirə etməyə hazırlaşır. Bu gün Azərbaycanın bank sektorunda vahid bal standartı olmadığından banklar problemlərlə üzləşdiyindən assosiasiya vahid model, standart yaratmaq üçün bütün bankların səylərinin birləşdirilməsini vacib sayır.

Bundan əlavə, qeyd etmək lazımdır ki, bankların depozit bazasının artmasına AMB tərəfindən ölkənin bank sektorunun inkişafına dəstək məqsədilə həyata keçirilən müvafiq tədbirlər kompleksi sayəsində əhalinin bank sisteminə etimadının artması şərait yaradıb. Belə mühüm addımlardan biri də bank əmanətlərinin sığortalanması haqqında qanunun qəbulu oldu.

Dünya təcrübəsində problemli kreditlərin payının 10%-ə çatması riskli hesab olunur. AMB-nin məlumatına görə, 2009-cu ilin mart ayından etibarən vaxtı keçmiş kreditlərin ölkə banklarının ümumi kredit portfelində xüsusi çəkisi cəmi 3,8% təşkil edib. Azərbaycan bankları 2018-ci ildə iqtisadiyyata kreditləşdirməni 11,4%, 2019-cu ilin 5 ayında isə 10,5% artırıb. 2018-ci ilin sonuna banklar 2017-ci ildəki 11 757,8 milyon manat və 2016-cı ildə 16 444,6 milyon manata qarşı 13 020,3 milyon manat kredit verib.

Maliyyə-sənaye qrupları (FIG) sistemində bankların rolunu qiymətləndirərkən belə bir faktı xarakterizə etmək vacibdir ki, Azərbaycanda bir müştərinin xeyrinə verilən kreditlərin, zəmanətlərin və təminatların həcmi 5%-dən artıqdır. bankın vəsaitləri əsas kredit riski hesab edilir. İri kredit risklərinin maksimum ölçüsünün limiti bankın öz vəsaitinin 25%-ni təşkil edir.

Vacib məsələ borcalanın təhlilidir. Bunun üçün maliyyə əmsalları hesablanır və pul vəsaitlərinin hərəkəti təhlil edilir. Bundan əlavə, müştərinin nüfuzunun, onun hüquq qabiliyyətinin və müəssisənin gəlirliliyinin qiymətləndirilməsi kimi göstəricilər nəzərə alınır. Borcalanın balans hesabatının təhlili əsasında maliyyə likvidliyi və əhatə əmsalları hesablanır. Likvidlik əmsalı borcalanın yaxın gələcəkdə öz öhdəliklərini ödəmək qabiliyyətini proqnozlaşdırmağa imkan verir və əhatə əmsalı kredit limitini müəyyən edir.

Bankların riskləri sahibkarların riskləri ilə, xüsusən də kiçik biznesin kreditləşdirilməsi zamanı sıx bağlıdır və xeyli dərəcədə məhsul qiymətlərinin dinamikasından, sənayedə bazar konyunkturasından və regional aspektlərdən asılıdır. Riskə təsir edən digər amillər: qiymətlərin dəyişkənliyi, tələb və təklif, satış qiymətini istehsalın maya dəyərinə uyğunlaşdırmaq imkanı. Kommersiya bankları investisiya layihələrinə kredit verərkən sadalanan bütün göstəriciləri, habelə verilmiş kreditlərin vaxtında qaytarılmasına təsir edən amilləri nəzərə almadıqda, həmin bankların müflisləşmə anı gələ bilər. Bu vəsaitlərin iqtisadiyyatın sektorları arasında yenidən bölüşdürülməsi mexanizminin nə dərəcədə effektiv olacağı önəmlidir.

**Açar sözlər:** bank sistemi, pul siyasəti, kredit riski, maliyyə və sənaye qrupları, layihə riski, kommersiya bankları.

## Ədəbiyyat

1. Biznesin əsasları. Ed. Prof. A.B.Abbasova. Bakı, Nurlan, 2005.
2. Boçarov V., Korobeynikova O., Biktimirova L. Müəssisələrin əsas kapitalına investisiyanın daxili mənbələrinin formalaşması və qiymətləndirilməsi. Rusiyaya investisiyalar. 2001. No 4, s.17.
3. Boş İ.A. Maliyyə risklərinin idarə edilməsi. K.: Nika-Mərkəz, 2005.
4. Vorobyev S.N., Baldin K.V. Biznesdə risklərin idarə edilməsi. M., Daşkov və K, 2007.

# DÖVLƏTİN MALİYYƏ SİSTEMİNDƏ VERGİ NƏZARƏTİNİN ROLU

**Abdulla Məmmədli**
Azərbaycan Universiteti
abdulla.mammadli@gmail.com

Nəzarət istənilən idarəetmə sferasında mühüm element hesab edilir . Vergi nəzarətinə gəldikdə, bu vergi ödəyiciləri tərəfindən qanunvericilikdən dogan tələblərin icrası, vergi hüquqpozmalarının aşkarlanması kimi məsələlər nəzərdə tutulur.

K.Belskinin düşüncəsinə görə, vergi sistemi vergitutma sferasında aydın prinsiplərə, rezidentlərin vergiləri ödəmək bacarıgına , qanunlarda əksin tapmış vergi və yığımlar sisteminə, vergi inzibatçılığına və vergitutma metodlarına söykənən bir-birilə əlaqəli elementlərin toplusudur [3, s. 55].

Vergi nəzarəti ifadəsini tədqiq etdikdə, M. Karaseva dövlətdə vergitutma sferasında mövcudlügü ilə seçilən siyasi, iqtisadi, təşkilati və hüquqi xarakter daşıyan bütöv ictimai münasibətlərin cəmi anlamına istinad edir [4, s.324].

Vergi siyasətinə təsərrüfat subyektinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasının və investisiya cəlbediciliyinin yüksəldilməsinin üsulu kimi diqqət dairəsinə almaq gərəkdir. Bununla baglı qüvvədə olan mövcud qanunveriçilik çərçivəsində verginin azaldılmasının yalnız o halda mənası vardır ki, o zaman bu mənfəət vergisindən azad oldugu durumda nəticə verirsə.

Kompaniyanın vergi siyasətində sadaladıgımız başlıca istiqamətləri ayırmaq zərurudir:

- vergi uçotu qrafikinə söykənməsi;
- vergitutmanın optimallaşdırılması vasitələrinin araşdırılması;
- vergi planlaşdırılması.

Bunlardan savayı, vergi nəzarəti sadaladıgımız funksiyalari özündə ehtiva edir:

- uçot-hesabat funksiyası - vergi ödəyiciləri, vergitutma subyektləri, dövlət büdcəsi və fondlara uygun ödənişlərin uçotunun təmini prosesi;
- önlədici funksiya - vergi hüquqpozmalarının məqamında qabagının alınması və bu səpkidə tədbirlərin görülməsi;
- informasiya-məlumat funksiyası, vergi nəzarəti idarəetmədə çevik qərar qəbulundan ötrü məlumat mənbəyi bazası şəklində yardımın səngiləyir ;
- vergilə baglı məsələrə nəzarət funksiyası dövlət büdcəsi və fondlarına mədaxillərin həcmini artıra bilər. Gəlidiyimiz qənaətə görə, vergi nəzarəti sadaladıgımız mərhələlərlə reallaşması tövsiyə olunur :
- nəzarətin planlaşdırılmasının birinci mərhələsində kompaniyanın fəaliyyəti gedişatında qanun pozuntularını üzə çıxartmq hədəfilə nəzarət göstərişlərinə uyğun tərzdə bəzi yoxlamalar gerçəkləşməlidir;
- ikinci etapda vergi ödəyicilərinin fəaliyyətlərində vergi risklərinə aydınlıq gətirmək məqsədilə analizlər yolu ilə səmərəyönlü nəzarət tədbirlərinə hazırlanmasını özündə cəmləşdirir;

- növbəti mərhələ biznes fəaliyyətinin nəzarəti və təftişilə əlaqədardır;
- son etapda nəzarətin yekun nəticələrinə istinad edərək yoxlama aktı tərtibi gerçəkləşir .

Eyni zamanda, vergitutma ilə əlaqədar kompleks məsələr özündə mürəkkəb, çoxamilli və çoxvariantlı prosesləri təcəssüm edir və onun effektliliyi daha çox vergi nəzarətinin prosedurlarının aparılmasının təşkili, planlaşdırılması və habelə keyfiyyətindən asılıdır. Vergi nəzarətinin reallaşmasına başlanılmasından ötrü gərəkli an informasiya bazasının tam əhatəliliyi, qiymətləndirilməsi və analizi sayılır ki, bu da vergi orqanlarının önündə duran vəzifələrin keyfiyyətli həllindən ötrü dayaq rolunda çıxış edir. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında mühüm rol səngiləyən əsas vergi yığımlarının stabilliyi əhəmiyyətli tərzdə intizamlı vergi ödəyicilərinin mövcudlugundan, qanunların aliyinə ciddi riayət edilməsi səviyyəsindən bilavasitə asılıdır.

Beləliklə, vergi nəzarəti dövlət nəzarətinin dürüst bəlli məqsədi olan və vergi ödəyicilərinin uçotu, informasiya-analitik təminat və təftiş üsulu ilə reallaşdırılan azad səmtidir . Vergitutmadan həddindən artıq istifadənin aşkarlanması və gələcəkdə bu problemlərin vaxtında çözülməsindən ötrü tədbirlər görülməsi kimi zəruri yekunların yiyələnməsinə yönəldilməlidir. Vergi xidməti orqanın hədəfə aldıgı məqsəd və vəzifələrindən asılı olaraq nəzarət formasının seçilməsi önəmlidir.

**Açar sözlər:** dövlət, maliyyə sistemi, vergi.

## Ədəbiyyat

1. Musayev A.F., Kəlbiyev Y.A., AR vergi xidməti: islahatlar və nəticələr. Bakı, «Təfəkkür», 2002. 324 s.
2. Vergi Məcəlləsində Edilmiş Dəyişikliklər Suallar və Cavablarda, Bakı, 20193.
3. Бельский К.С. Налоговая система: основные элементы, принципы Государства и права. 2006. №9. С. 55. Адамс Р. Основы аудита М.: Аудит, ЮНИТИ, 2015.
4. Карасева.М. Финансовое право Учебник - Москва, 2011. 617 с.

# BANK SEKTORUNDA DAYANIQLILIĞIN TƏMİN OLUNMASI

**Aynur Məmmədli**
Azərbaycan Dövlət İqtisad Universiteti
aynur.mammadli@sosial.gov.az

Məlumdur ki, banklar maliyyə sisteminin mühüm tərkib hissəsidir. Banklarda makroiqtisadi inkişaf trendlərinin təhlili bu sahədə nəzarət tədbirlərinin gücləndirilməsi, ölkədaxili və beynəlxalq şoklara qarşı dayanıqlılığın təmin edilməsi, tənzimlənmənin effektivliyinin artırılması, risklərin idarə edilməsi baxımından səmərəli olmuşdur. Dayanıqlı maliyyə-bank sisteminin formalaşdırılması məqsədilə infrastrukturun gücləndirilməsi və şəffaf şəkildə idarəetmə müşahidə olunmuşdur. Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi nəticəsində bank sistemində dayanıqlılıq artmış, makroiqtisadi sabitlik bərpa olunmuş, iqtisadi aktivlik yüksəlmişdir.

Bank sektorunun əsas göstəricilərindən biri də kredit sistemidir. Qeyri-işlək kreditlərin kredit portfelində xüsusi çəkisinin azaldılması əsas keyfiyyət göstəricilərindəndir. Bu göstərici sektorun sağlamlaşdırılmasının əsas göstəricilərindən olmaqla yanaşı, bank sisteminin kredit portfellərinin risk yükünün azalmasına müsbət təsir edir. Bu da öz növbəsində bank sisteminin kredit xərclərinin azaldılması və aşağı kredit faizlərinin formalaşması, daha sağlam maliyyə-kredit mədəniyyətinin yaradılmasına müsbət təsir edir.

Azərbaycan Respublikasında bank sektorunun davamlı fəaliyyəti üçün Hökumət Ödəniş Portalı, Milli Ödəniş Sistemi, Banklararası Kart Mərkəzinin fəaliyyəti, Mərkəzi Kredit reyestri təmin edilib. Həmçinin Rəqəmsal İdentifikasiya Sistemi istismara verilib. Bu layihənin inkişafı bank sektorunda inklüzivliyin təmin edilməsi, məlumatların tamlığının və məxfiliyinin qorunması, sektora inam mühitinin formalaşmasına səbəb olacaqdır.

Bank sektorunda dayanıqlılığın təmin olunması üçün mühüm islahatlar həyata keçirilir. Bu tədbirlərdən Ani Ödənişlər Sisteminin istismara verilməsini qeyd edə bilərik. Ani Ödənişlər Sisteminin istismara verilməsi nəticəsində QR (Quick Response) kod funksionallığının tətbiqi, mobil-bankçılıq xidmətlərinin gücləndirilməsi, əhali üçün ödəniş əməliyyatlarında inklüzivliyin artırılması, qeydiyyatdan keçmə, hesablararası köçürmə proseslərində təkmilləşmə müşahidə olunmuşdur. Ani Ödənişlər Sisteminin yaradılması nağdsız cəmiyyətin formalaşdırılmasına və iqtisadi subyektlər arasında rəqəmsal ödənişlərin sürətlənməsinə təkan verir.

Bank sektorunda tətbiq olunan yeniliklərdən biri kimi kreditləşmə proseslərinin avtomatlaşdırılmasını qeyd edə bilərik. Beynəlxalq metodologiyalara əsaslanaraq anderraytinq proseslərinin avtomatlaşdırılması, kreditləşmə əməliyyatlarının anında həyata keçirilməsi əsas hədəflərdəndir. Bu mexanizmlərin tətbiqi nəticəsində maliyyə xidmətlərinin inklüzivliyi artacaq və kredit sistemi təkmilləşəcəkdir.

Pandemiyanın bankların dayanıqlılığına mənfi təsirinin azaldılması üçün prudensial istiqamətdə tədbirlərin görülməsi, nəzarət proseslərinin gücləndirilməsi, kredit ekspansiyasına şərait yaradılması, rəqəmsallaşmanın stimullaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi zəruridir. Müasir dövrdə bank sistemində kreditlərin restrukturizasiyası edilərkən kreditlərin keyfiyyətinin pisləşdirilməsinə yol verilməməlidir. Kredit-hesablaşma sistemlərinin inkişafının dəstəklənməsi və rəqəmsallaşma istiqamətində geniş miqyaslı işlər görülüb.

2022-ci ildə bank sektorunda dayanıqlılığın təmin olunması üçün Mərkəzi Bankın həyata keçirdiyi maliyyə siyasəti maliyyə sabitliyinin qorunması, maliyyə vasitəçiliyinin genişləndirilməsi yolu ilə biznesin dəstəklənməsi, maliyyə-kapital bazarlarının dərinləşdirilməsi kimi istiqamətlərə yönəldiləcəkdir. Bütün bunlar maliyyə sektorunun iqtisadi artımda rolunun daha da yüksəlməsinə imkan yaradacaqdır. Rəqəmsallaşma və müasir ödəniş sistemi infrastrukturundan istifadə səviyyəsinin yüksəldilməsi istiqamətində də işlər davam etdiriləcəkdir.

Müasir dövrdə vətəndaşlar və biznes subyektləri üçün bank kreditlərinin əldə edilməsinin asanlaşdırılması istiqamətində işlər görülür. Respublikamızda maliyyə inklüzivliyinin artırılması istiqamətində tədbirlər planı hazırlanır, həmçinin kreditorların hüquqlarının müdafiəsi gücləndirilir, uzunmüddətli maliyyələşmə mənbələri təmin edilir, risklərin bölüşdürülməsi və ötürülməsi istiqamətində işlər davam etdirilir. Müasir dövrdə kreditlərə sağlam tələbin artırılması, şəffaflığın

formalaşdırılması, qeyri-formal iqtisadiyyatla mübarizə, banklarda korporativ idarəetmənin yaxşılaşdırılması, mühasibatlıq və audit institutlarının inkişaf etdirilməsi kimi şərtlərin reallaşdırılması tələb olunur.

Korporativ idarəetmə çərçivəsində normativ-hüquqi aktların qəbul edilməsi maliyyə xidmətlərinə əlçatanlığı artıracaq və maliyyə xidmətlərinin keyfiyyətini yüksəldəcəkdir. Əsas hədəflərdən biri cari ildə milli ödəniş sisteminin davamlı, fasiləsiz və təhlükəsiz fəaliyyətinin təmin edilməsidir.

Maliyyə infrastrukturunda məlumat mübadiləsinin səmərəliliyinin və effektivliyinin yüksəldilməsi, həmçinin ISO20022 beynəlxalq standartının tam tətbiqi nəzərdə tutulur. Nağdsız ödənişlərin inkişaf etdirilməsi üçün açıq bankçılıq modeli üzrə API standartlarının tətbiq olunması milli bankçılıq sistemində beynəlxalq standartların tətbiqini nəzərdə tutur.

Banklarda həyata keçirilən pul siyasəti və maliyyə vasitəçiliyinin təkmilləşdirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

1. Qanunvericilik bazasının təkmilləşdirilməsi;
2. Rəqəmsal valyutanın tətbiqinin təkmilləşdirilməsi;
3. Maraqlı tərəflərin cəlb olunması;
4. Yeni texnologiyalardan istifadənin genişləndirilməsi.

Cari ildə bank sektorunda dayanıqlılığın artırılması üçün inflyasiyanın yumşaldılması əsas hədəflərdəndir. Bu sahədə maliyyə sektorunda, əsasən monetar sahədə maliyyə sabitliyinin təmin olunması üçün islahatlar aparılır. Qarşıya qoyulan hədəflərə nail olmaq üçün həyata keçirilən makroiqtisadi siyasət çərçivəsində maliyyə institutları arasında düzgün koordinasiya aparılmalıdır.

Müasir dövrdə respublikamızda banklar üçün ATM və POS terminallarda əməliyyatlar, XÖHKS, AZIPS, SWIFT pul köçürmələri sistemlərindən istifadə adi hala çevrilmişdir. Bu sistemlərin əhatə dairəsinin genişləndirilməsi, əməliyyat tutumunun artırılması daha da təkmilləşdiriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatına pandemiyanın mənfi təsirləri azaldılmışdır. Peyvəndlənmə prosesinin artması, əhalinin tədricən mövcud vəziyyətə uyğunlaşması iqtisadi artıma səbəb olmuş, bu da ölkədə maliyyə dayanıqlılığına və maliyyə sabitliyinə müsbət təsir göstərmişdir.

**Açar sözlər:** bank sektoru, maliyyə sabitliyi, dayanıqlılıq, tənzimlənmə, nəzarət.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə Bəyanatı. 30 dekabr 2021.
2. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu.Bakı şəhəri, 16 yanvar 2004-cü il.
3. Sadıqov E. Bank əməliyyatları. Bakı, 2010.
4. Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları. Bakı, 2013.

# QİYMƏT PROQNOZLAŞDIRMA TEXNİKALARI VƏ ONLARA TƏSİR EDƏN AMİLLƏR

**Nərmin Məmmədli**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
nermin.memmedli.96@inbox.ru

Bu gün enerji qiymətlərinin proqnozlaşdırılması mühüm tədqiqat sahəsidir. Bu bazarın generatorlar, enerji təchizatçıları, investorlar və ticarətçilər kimi bazar iştirakçıları öz mənfəətlərini maksimuma çatdırmalıdırlar [1]. Yük proqnozu ilə müqayisədə elektrik enerjisinin qiymətinin proqnozlaşdırılması daha mürəkkəb prosesdir. Məhz elektrik enerjisini digər əmtəələrdən fərqləndirən xüsusiyyəti onun saxlanıla bilməməsi, tələbin qeyri-elastikliyi, elektrik enerjisinə tələb və təklif arasında daimi tarazlığın saxlanmasıdır [2].

I. Qiymət proqnozuna təsir edən amillər. Müxtəlif texniki, fiziki və iqtisadi amillərlə əlaqədar olaraq elektrik enerjisinin qiymətində dalğalanmalar tez-tez müşahidə olunur. Şəkil 1 qiymətə təsir edən müxtəlif amilləri əks etdirir. Tələb spot (yekun qiymət) qiymətə təsir edən ən mühüm amildir, çünki tələb temperatur və hava şəraiti ilə dəyişdiyindən spot qiymət də dəyişir. Sübut edilmişdir ki, tələb artarsa, spot qiymət də artır. Yanacaq xərcləri, istehsal ehtiyatları, elektrik stansiyasının tikintisi, texniki xidmət, istismar xərcləri və elektrik enerjisini çatdırmaq üçün ötürücü sistemin saxlanması elektrik enerjisinin dəyərinə töhfə verir [3, 4].




**Şəkil 1.** Qiymətlərin proqnozlaşdırılmasına təsir edən amillər

II. Qiymət proqnozlaşdırma texnikası. Zaman amili əsasında elektrik enerjisinin qiymətinin proqnozlaşdırılması qısa, orta və uzunmüddətli kimi bölünür. Bu da əyani olaraq 2-ci şəkildə göstərilmişdir. Tədqiqat zamanı müəyyən edildi ki, proqnozlaşdırma üçün müxtəlif üsullar mövcuddur.




**Şəkil 2**. Qiymət proqnozlaşdırılmasının növləri

Ümumiyyətlə, qiymət proqnozlaşdırma yanaşmalarını iki kateqoriyaya bölmək olar: 1) zaman seriyası və 2) simulyasiya yanaşması. Zaman seriyaları, əsasən, bazar qiymətlərinin tarixi məlumatlarından asılıdır. Simulyasiya yanaşmasında olduğu kimi, enerji sistemi avadanlıqlarının dəqiq modelləşdirilməsi və onların dəyəri haqqında məlumat tələb olunduqda, çoxlu məlumat cəlb edildiyi üçün simulyasiya metodu hesablama baxımından intensiv ola bilər. Data mining bu təsnifata yeni daxil edilmişdir. Araşdırmalara görə ANN (artificial neural networks) ən populyar metoddur. Hazırda tədqiqatçılar tərəfindən fərdi modellərin çatışmazlıqlarını aradan qaldıran hibrid modelləri araşdırılır [5, 6]. Qiymətin proqnozlaşdırılması üçün sadə təsnifat şəkil 3-də verilmişdir.




**Şəkil 3**. Qiymətlərin proqnozlaşdırılması prosesi

Bu məqalə elektrik enerjisi bazarında qiymətlərin proqnozlaşdırılması üsulları və onların müxtəlif bazarlarda tətbiqi haqqındadır. Mənfəətin maksimumlaşdırılması üçün proqnozlaşdırma qiymətin proqnozlaşdırılmasından fərqləndirici xüsusiyyətlərinə görə mürəkkəbdir. Hər bir elektrik enerjisi bazarı müxtəlif cür olur. Buna görə də qiymət proqnozlaşdırılması üçün ümumi metod yoxdur, seçilən metod bazar tələblərinə uyğun olaraq dəyişə bilər. Gələcək tendensiya, ayrı-ayrılıqda qurulmuş modellərin zəifliyini kompensasiya etmək üçün müxtəlif modelləri birləşdirən Hibrid metodlardan istifadə edərək, proqnoz səhvlərini azaltmaqla bu modellərin imkanlarını artırır.

**Açar sözlər:** investor, istehlakçı, proqnozlaşdırma, zaman seriyası, simulyasiya yanaşması.

## Ədəbiyyat

1. Aggarwal, S.K., Saini, L.M. and Kumar, A. (2009), Electricity Price Forecasting in Deregulated Markets: A Review and Evaluation. International Journal of Electrical Power & Energy Systems, 31, 13-22.
2. Bunn D.W. Forecasting loads and prices in competitive power markets. Proc. IEEE 2000, 88(2), 163–9.
3. Niimura, T. (2006), Forecasting Techniques for Deregulated Electricity Market Prices Extended Survey. 2006 IEEE PES Power Systems Conference and Exposition, Atlanta, 29 October-1 November 2006, 51-56.
4. Xian Zhang, Xifan Wang, Overview on Short-term Electricity Price Forecasting, Automation of Electric Power Systems, Vo1.30, No.3. Feb.10, 2006.
5. Nitin Singh, S.R. Mohanty (Sept 2015), A Review of Price Forecasting Problem and Techniques in Deregulate ElectricityMarkets, Journal of Power and Energy Engineering, 2015, 3, 1-19.
6. Hu, L., Taylor, G., Wan, H.-B. and Irving, M. (2009) A Review of Short-Term Electricity Price Forecasting Tech-niques in Deregulated Electricity Markets. Universities Power Engineering Conference (UPEC), 2009 Proc. of the 44th International, Glasgow, 1-4 September 2009, 1-5.

# MÜASİR ŞƏRAİTDƏ AİLƏ İNSTİTUTUNA EHTİYACIN TƏHLİLİ

**Həbib Məmmədov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
mammadov.habib5@gmail.com

Ailə anlayışına nəzər yetirsək, onun tarixən ən qədim və çox rast gəlinən sosial institutlardan birincisi olduğunu deyə bilərik. İnsanlar həmişə təbiətin mənfi təsirlərindən qorunmaq və öz qida ehtiyaclarını təmin etmək üçün qruplaşırdılar. Belə olmasa, insan nəsli uzun müddət təbii hadisələr qarşısında davam gətirə bilməz, tez bir zamanda aradan gedərdi. Bu qruplaşma formaları təkamül edərək ailə məfhumunu yaratmışdır. Belə məlum olur ki, qədim dövrdə ailə zəruri xarakter daşıyırdı və ona ehtiyac olub olmaması sualı verilsə, həmişə müsbət cavab alınardı.

Günümüzdə ailə instutuna nəzər salsaq görərik ki, körpələrə qulluq, evin dekorasiyası, günün planlanması və s. məsələlərlə bağlı mütəxəssislər və onların xüsusi metodları mövcuddur. Ailədaxili hüquqi məsələlərin həllində sosial işçi, hüquqşünas kimi peşə sahiblərinin və onların fəaliyyət göstərdiyi qurumların müdaxiləsi məlumdur. Bütün məsələlərdə bu cür ixtisaslaşmış yanaşmalar mövcuddursa, bu şəraitdə ailənin yerinə yetirdiyi funksiyaların da belə ixtisaslaşmış mərkəzlər və insanlar tərəfindən həyata keçirilməsi müzakirə oluna bilər. Odur ki, ailəyə olan ehtiyacın gözdən keçirilməsi günümüzdə aktualdır.

Bu ehtiyac ilkin olaraq yuxarıda da qeyd olunan iki məsələ maddi təminat və qorunmaqla bağlıdır. Abraham Maslounun ehtiyac piramidasında da göstərdiyi kimi bunlar insan üçün ibtidai ehtiyacdır. Həmin ehtiyacların ödənilməsi ilə bağlı insanların ittifaqı - ailə formalaşır. Tarixi inkişaf prosesində ailənin və cəmiyyətin forması dəyişsə də, məzmunda olan amillər yenə də qalmaqdadır. Bu gün də iqtisadi vəziyyətin tənzimlənməsi və mühafizə üçün ailədə yaşamağın faydası danılmazdır. Burada ailə üzvləri bir-birinə dəstək göstərərək problemləri birgə aşırlar. Ailə mühitində insanlar iqtisadi resursları daha rasional idarə edir, lazımsız xərclər etməkdə ehtiyat edirlər. Həmçinin ortaq büdcə mövcud olduğu üçün əmək fəaliyyəti ilə məşğul ola bilməyən fərdlərin də ehtiyacı ödənilir. Təsadüfi deyil ki, ailə institutunun son əsrlərdə zəifləməsi dövlətlərin sosial müdafiə ilə əlaqədar yükünün artmasına ciddi təsir etmişdir. Yaşlıların, uşaqların, təhsil alanların ailə üzvləri tərəfindən təminatı olmadığı üçün dövlət onları himayəsinə götürməyə məcbur olur. Məlum olur ki, sosial təminat ailənin həm də ictimai baxımdan əhəmiyyətini ifadə edən aspektlərdəndir.

İqtisadi yönlə yanaşı ailənin psixoloji və mənəvi tərəfi də əhəmiyyətlidir.İnsanlar rahatlıq, hüzur əldə etməsi üçün ailəyə ehtiyaclıdır. Ailədə gənc həyatında ən ciddi problemlərdən olan tənhalıq dərdinə əlac edir. Hansı ki, Erik Frommun da qeyd etdiyi kimi insanın ən dərin tələbatı özünün təcridolunmasını aradan qaldırmaq və tənhalıq əsarətindən azad olmaq niyyətidir. [1. səh 14] Həyat yoldaşı və övladlar sayəsində mənəvi bağlılıqlarının olduğunu hiss edir, onu evdə gözləyən, ona güvənib-etimad edən insanların olduğunu dərk edir. Subay insan isə bu bağlılıqlardan sərbəst olduğuna görə daha xaotik yaşayır və düşünür. Bu səbəbdən subay insanlar bəzən həm fərdi olaraq əziyyət çəkirlər, həm də cəmiyyətdə o qədər də faydalı ola bilmirlər. Subay insanlar, demək olar ki, heç bir cəmiyyətə aid deyillər və ucsuz-bucaqsız bir fəzada, planetlər arasında, çəkisiz vəziyyətdə sərgərdan qalmış varlıqlara bənzəyirlər! Onlar cüzi bir şeyə görə öz ata-baba yurdunu qoyub başqa bir yerə köçə, yaxud hər hansı bir narahatlıq zamanı həyatla vidalaşıb ondan üz çevirə bilərlər [2, s.22].

İkinci məsələ insanların öz cinsi istəklərini sağlam şəkildə təmin etməsidir. Bildiyimiz kimi, insanın tələbatları içərisində cinsi istəklərin özünəməxsus yeri vardır. Bu istək təmin olmadıqda insan fiziologiyasında və psixologiyasında müəyyən problemlər də yarana bilər. Bu ehtiyacın sağlam şəkildə ödənildiyi mühit ailədir.Ailədən kənarda baş tutan münasibətlər çox vaxt kövrək və davamsız olur. Ona görə də xırda hadisələr nəticəsində dağıla bilir və fərdlər mənəvi və maddi zərbələr ala bilirlər. Əgər bu cür münasibətlərdə uşaqlar dünyaya gəlirsə ən böyük problemi bu uşaq yaşayır. Əksər hallarda o ya atasının, ya da anasının qayğısından məhrum olur və bu məhrumiyyət səbəbindən şəxsiyyətində natamamlıq yaranır. Fərdlərlə yanaşı cəmiyyət və dövlət də belə münasibətlərdən

əziyyət çəkir. Çox vaxt belə münasibətlər nəticəsində həm özü, həm başqaları üçün heç bir faydaya malik olmayan insanlar formalaşır.

Ailənin növbəti funksiyalarından biri əsl-nəcabətin, yəni nəslin qorunmasıdır. İnsan növünün əlverişli şəkildə davam edib, inkişaf etməsi üçün ailə zəruridir. Ailə mühitində uşaqlar həm bioloji olaraq daha sağlam olur, həm də onların tərbiyə prosesi daha düzgün və effektiv aparıla bilir. Həmçinin onların uyğun şəkildə sosiallaşması üçün münbit şərait ən çox ailə mühitində vardır. Bununla bağlı Ogüst Kont belə deyir: “Ailənin rolu fərdlə nəsil arasında vasitəçi olmaqdan, gənc nəsli alturizm ruhunda tərbiyə etməkdən, onu anadangəlmə eqoizmi aradan qaldırmağa öyrətməkdən ibarətdir” [6]. Ailə böyüklər üçün də bir mənəviyyat məktəbidir. XX əsrin böyük İslam filosofu Mürtəza Mütəhhəri bu barədə belə yazırdı:”Bir növ yetkinlik vardır ki, insan, evlilik və ailə qurmanın xaricində başqa heç bir şeylə onu əldə edə bilməz.” [3, s.13].

**Açar sözlər**: ailə, cəmiyyət, insani ehtiyaclar, müasir dünya düzəni, evlilik mühiti, qarşılıqlı münasibət.

**Ədəbiyyat**


1. Fromm E. Sevmək sənəti. Qanun Nəçriyyatı. 2012, 144 s.
2. Şirazi M. Gənclərin cinsi problemləri. Parlayan günəş. 2011, 140 s.
3. Məzahiri Ə.Ə. Kimlə evlənməli. Kövsər. 2015, 223 s.
4. Hacıbəyli A. Səadət ocağı ailə. Nurlar. 2013, 200 s.
5. Həsənli Ş. Xoşbəxt ailə modeli. İrşad. 2022, 112 s.
6. http://www.anl.az/down/meqale/yeni_az/2011/aprel/170916.htm


## 1918-Cİ İLDƏ ŞAMAXIDA TÜRK MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMI MÜASİR AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

**Məmməd Məmmədov**
Azərbaycan Universiteti
memmed.memmedov523@gmail.com

1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın qəzalarında dinc türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirmişlər. Beş ay ərzində 50 mindən artıq insan erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında və Anadolu ərazisində türk-müsəlman əhaliyə qarşı soyqırım siyasəti həyata keçirilmişdir. Bu qırğınlar barədə tarixşünaslığımızda xeyli tədqiqat işləri vardır.

Türk müsəlman əhaliyə qarşı 20-ci əsr boyu davam edən soyqırımların tarixi tədqiqatı görkəmli Azərbaycan tarixçisi, tarix elmləri doktoru, professor Anar İsgəndərov tərəfindən daha ətraflı şəkildə aparılmışdır. 1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi haqqında, Bakı Soveti qüvvələrinə rəhbərlik edən S.Şaumyanın

erməni hərbi hissələrindən istifadə etməsi və bu qırğınları daha da dərinləşdirməsi, Bakı Soveti və onun yaratdığı əsas etibarı ilə ermənilərdən ibarət olan ordunun yerli türk müsəlman əhaliyə qarşı həyata keçirdiyi qırğınlar və s. barədə hərtərəfli elmi araşdırmalar aparan alim bu mövzuda 1997-ci ildə nəşr olunan "1918-ci il Mart qırğınının tarixşünaslığı" adlı monoqrafiya, 2011-ci ildə Azərbaycan, rus və ingilis dillərində "Azərbaycan ərazisində erməni quldur və terrorçu birləşmələrinin törətdikləri cinayətlərə dair faktlar" adlı yaddaş kitabçası ərsəyə gətirmişdir. Müəllif Osmanlı dövlətində və Azərbaycanda türk-müsəlman əhalisinə qarşı 1915-1920-ci illərdə həyata keçirilən soyqırımlara dair tədqiqat işini başa çatdırmış, 2011-ci ildə ABŞ-da ingilis dilində "Realites of Azerbaijan: 1917-1920" adı altında çap edilmişdir. Bundan başqa A. İsgəndərovun 2006-cı ildə "Azərbaycanda Türk-Müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920)" əsəri nəşr olunmuş və Mart soyqırımlarına həsr olunmuş çoxsaylı məqalələri işıq üzü görmüşdür. Həm monoqrafiyalar həm də məqalələrdə soyqırımlar , həmçinin Şamaxıda törədilən qırğınlar haqqında zəngin məlumatlar vardır.

Məhərrəm Zülfüqarlı "Şamaxı Soyqırımı (1918)" adlı monoqrafiyasında Şamaxıda həyata keçirilən qırğınlar barədə, həmin qırğınların başlanması, miqyası, gedişatı və s. barədə geniş məlumat vermişdir. Həmçinin burada Şamaxı və ətraf qəzalarda soyqırıma məruz qalan əhalinin sayı barədə məlumatlar öz əksini tapmışdır.

Vaqif Abışovun "Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)" adlı monoqrafiyasında erməni-daşnak və rus- bolşevik qüvvələrinin yerli türk müsəlman əhaliyə qarşı həyata keçirdiyi məqsədyönlü soyqırımlar təhlil olunmuşdur. Şamaxı soyqırımı,onun gedişatı, kəndlərdə törədilən əhali qətliamları, tarixi,mədəni abidələrin yerlə-yeksan edilməsi faktlarla geniş şəkildə öz əksini tapmışdır.Müəllif yazır: "St.Şaumyanın fitvası ilə erməni daşnak – rus bolşevik silahlı dəstələri, Şamaxıda Sovet hakimiyyəti qurmaq adı altında, Bakıda törədikləri dəhşətli qırğından sonra ikinci qırğını Şamaxı qəzasında törətmişdilər" [2, s.106]

Əsgər Abdullayev "Azərbaycanlıların Mart soyqrımı unudulmamalıdır" əsərində Ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım barədə geniş məlumat vermişdir. Erməni Daşnaksütyun partiyası və onun "Böyük Ermənistan" planları, Qafqazda müsəlman əhaliyə qarşı nümayiş etdirilən düşmənçilik siyasəti və s. haqqında ABŞ, Avropa, Rus, Türk tədqiqatçıların əsərlərindəki fikirlər burada ətraflı şəkildə qeyd edilmiş, ermənilərin yerli əhaliyə qarşı soyqırım cinayətləri təsvir edilmişdir.

1938-ci ildə Berlində "Qurtuluş" jurnalı mətbəəsində Mirzə Bala Məmmədzadənin "Milli Azərbaycan hərəkatı", "Milli Azərbaycan "Müsavat" xalq firqəsinin tarixi" adlı kitabları nəşr olunmuşdur. Bu əsərlərdə Mart soyqırımı, ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri qırğınlar, Şamaxı soyqırımı və onun detalları barədə əsərdə xeyli zəngin məlumatlar vardır.

Şamaxı şəhəri və Şamaxı qəzası üzrə azərbaycanlılar yaşayan kəndlərdə ermənilər tərəfindən törədilən vəhşiliklər barədə ətraflı məlumatlar Ataxan Paşayevin "Ermənilərin Azərbaycan xalqına qarşı torpaq iddiaları, soyqırımı və deportasiyalar (XIX-XX əsrlər)" adlı monoqrafiyasında da öz əksini tapmışdır. Müəllif yazır: "S.Şaumyanın göstərişi və S.Lalayanın rəhbərliyi ilə göndərilən silahlı daşnak dəstələrinin məqsədi guya Şamaxı qəzasını quldur dəstələrdən təmizləmək, qəzada anarxiyaya son qoyaraq ərazidə təhlükəsizliyi bərpa etmək idi" [6,s.40]. Monoqrafiyada Türkmənçay

müqaviləsindən sonra Qafqazda ermənilərin fəaliyyətləri, köçürülmə siyasəti, 1905-1906-cı illərdə Cənubi Qafqazda müsəlman əhaliyə qarşı həyata keçirilən qırğınlar, 1918-1920- ci illərdə törədilən soyqırımlar barədə ətraflı, dolğun məlumatlar sənədlərdən alınmış faktlar öz əksini tapmışdır. Həmçinin burada şahid ifadələrinə, tərtib olunmuş siyahılara geniş yer verilmişdir.

**Açar sözlər:** Mart soyqırımları, Şamaxı qəzası, Daşnaksütyun partiyası, etnik qırğınlar.

**Ədəbiyyat**


1. Abdullayev Ə. Azərbaycanlıların Mart soyqırımı unudulmamalıdır.Bakı, İqtisad Universiteti nəşriyyatı, 2008, 108 s.
2. Abışov V.Ş. Azərbaycanlıların Soyqırımı (1917-1918-ci illər), Bakı, Nurlan nəşriyyatı, 2007, 163 s.
3. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
4. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920, Bakı, Adiloğlu nəşriyyatı, 2006, 396 s.
5. Ermənilərin Azərbaycan xalqına qarşı torpaq iddiaları, soyqırımı və deportasiyalar (XIX-XX əsrlər). Bakı, Çaşıoğlu, 2011, 136 s.
6. Paşayev A.Ə. Ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər). Bakı, Çaşıoğlu, 2011, 148 s.
7. Zülfüqarlı M. Şamaxı Soyqırımı 1918. Bakı, Avciya nəşriyyatı, 2011, 112 s.


## ПОЛОВЫЕ РАЗЛИЧИЯ В ДОСТИЖЕНИИ УСПЕХА И СОЦИАЛЬНАЯ АКТИВНОСТЬ

**Камала Мамедова**
Институт образования Азербайджанской Республики
kama_madatova@mail.ru

Психологи показывают, что каждый человек старается достичь успеха в жизни, или, по крайней мере, надеется на это. Естественно, что здесь роль играют много факторов. Однако главное связано с их индивидуальными, половыми, возрастными и национальными особенностями. Ряд исследователей относятся к проблеме в аспекте половых особенностей. Самоутверждение, зрелость в каждом индивиде проявляются по-разному. Конечно, определить степень зрелости личности трудно. Настоящая зрелость проявляется после выхода из определенных испытаний жизни, после самопознания. В этом смысле юношеский возраст – самый актуальный период. Именно в юношеском возрасте у человека появляются возможности для самоутверждения.

Здесь важное значение представляют и половые различия. «Женщина отличается от мужчины не только полом, более хрупкой конституцией и тем, что ей самой природой предназначено рожать детей. Она не просто, как многие ошибочно полагают, слабое подобие

мужчины, а его антипод со своими особыми биологическими и психическими признаками и иной ролью в жизни.

….надеемся, нас не сочтут ретроградами, растущими за то, что женщина должна сидеть дома, воспитывать детей и не имеет право, как мужчина, реализовать себя в творческом труде» [1, с. 20].

Многие исследователи (Б.Г.Ананьев, И.С.Кон, А.А.Ализаде, А.Г.Хрипкова и др.) отмечают, что девушки свою активность проявляют даже с ранних возрастов. Если юношей больше привлекает техника, предметы, девушек интересует внешний вид и общение с людьми.

Как видно, в сфере потребности в нужде достижения успехов проявляются половые различия. Если юношей интересует сам процесс, то девушек – понравиться другим.

Наряду с отмеченными, известно и то, что, хотя потребность в нужде достижения успеха – проблема, интересующая психологов, однако она исследована недостаточно. Правда, психологи зарубежных стран (Э.Эриксон, А.Маслоу, Г.Олпорт, М.Мид) изучили проблему с разных аспектов. Естественно, что этого недостаточно. С точки зрения юношеского возраста и социальной активности, проблема изучена недостаточно.

Как видно, те или иные качества с точки зрения половых различий актуализируют исследование социальной активности студентов. Изучение этих особенностей имеет не только теоретическое, но и практическое значение.

«Половой диморфизм охватывает как самые ранние, так и самые поздние периоды человеческой жизни, не ограничиваясь периодами половой зрелости и полового созревания, т.е. относится к постоянным характеристикам онтогенетической эволюции человека, видоизменяющимся лишь по степени интенсивности (усиления или ослабления полового диморфизма)» [2, с. 135].

Такая обобщенность выделенных потребностей обусловлена тем, что для построения теорий мотивации человека большинство зарубежных исследователей по-прежнему пытаются использовать - одни - явно, другие – в скрытом виде – результаты изучения мотивации животных, пробуют создать некую «универсальную» теорию мотивации, в равной степени приложимую как к животным, так и к человеку, перенося проблематику, принципы и методы изучения мотивации животных на человека.

Такой подход к проблеме в определенной степени ограничивает механизм изучения сущности качественного различия людей друг от друга.

Подобная интерпретация потребности человека показывает, что потребности двух людей в достижении успеха по качеству должны быть идентичными. Хотя потребности некоторых людей в достижении успеха может вытекать из материальных потребностей, других – достижения творческих успехов, а третьих - желание быть социально активной.

Рассмотрим с точки зрения положения о предметности, как основной характеристике потребностей, одну из наиболее широко изученных за рубежом человеческих потребностей – «потребность достижения». Это потребность является, по нашему мнению, не единым, элементарным мотивом, а представляет собой такое мотивационное образование, за которым

лежит целый комплекс предметно различных и относительно самостоятельных мотивов достижения.

Не учитывая психологические особенности мужчин (юношей) и женщин (девушек) невозможно формировать настоящих мужчин и женщин. Следует учитывать, что, несмотря на противоречие, психологические особенности представителей противоположного пола дополняют друг друга.

Как видно из вышеизложенного, иерархия и развитие потребностей зависит от возрастных особенностей и непосредственно связана с мотивацией деятельности.

**Ключевые слова:** самоутверждение, личность, студенты, социальная активность, межличностные отношения.

### Литература

1. Энциклопедия молодой женщины. Перевод с чешского. Баку: АСЭ, 1990, 496 с
2. Ананьев Б.Г. Человек как предмет познания. Л.: ЛГУ, 1968, 341 с.
3. Əliyeva. K.R. Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji problemləri. Psixologiya elmləri doktorluq dissertasiya, avtoreferat. Bakı: 2008, 66s.
4. Артемова Т.И. Психология способностей и всестороннее развитие личности. М.: Наука, 1978, с. 142-155.
5. Афанасьев В.Г. Человек в управлении обществом. М.: Политиздат, 1977, 302 с.
6. Галам С., Московиш С. Теория принятия коллективных решений в иерархических и неиерархических группах. Психологический журнал, 1992, № 6, с.93-103.

### Müvəffəqiyyət qazanmağın cins fərqi və sosial fəallıq

Hər bir fərddə özünütəsdiq, yetkinlik müxtəlif formalarda özünü göstərir. Uğur əldə etmək zərurəti sahəsində gender fərqləri özünü göstərir. Ehtiyacların inkişafı yaş xüsusiyyətlərindən asılıdır və fəaliyyətin motivasiyası ilə birbaşa bağlıdır.

## REKLAM MƏTNLƏRİNDƏ İSTİFADƏ EDİLƏN QRAMMATİK VASİTƏLƏR

**Vüsalə Məmmədova**
Azərbaycan Dillər Universiteti
vusala.mamadova93@gmail.com

Reklam dövrümüzün ümummədəni və universal hadisəsidir. Reklamın ən mühüm məqsədlərindən biri çoxnövlü məhsul və xidmətlər bazarında məhsulu məşhurlaşdırmaqdan ibarətdir. Bir qayda olaraq, reklamın məzmunu AIDCA adlanan düstura uyğun gəlir (attention - diqqət, interest - maraq, desire - istək, confidence - inam, action - hərəkət), yəni reklam diqqəti cəlb etməli, marağı saxlamalı, istək oyatmalı, inam yaratmalı, hərəkət tələb etməlidir. Başqa sözlə, məhsul alıcı tərəfindən alınmalı, ya da təklif edilən xidmətdən istifadə edilməlidir [1]. Reklam səmərəliliyi

müxtəlif dil vasitələrindən istifadə etməklə əldə edilir. Bu vasitələrə üslubi, sintaktik və qrammatik vasitələr aiddir. Bu tezisdə reklam mətnlərində istifadə edilən qrammatik vasitələr işıqlandırılır [2].

1. Sifət və zərflərin müqayisə dərəcəsi, həmçinin təyin kimi işlənən və məhsulu keyfiyyət baxımından xarakterizə edən sifət və zərflərin üstünlük dərəcəsi. Məsələn,

*Persil washes whiter* “Persil daha təmiz yuyur”.

*Moulinex - Best friend for your family* “Moulinex” - Ailənizin ən yaxşı dostu”.

2.Feilin xəbər şəklində, indiki qeyri-müəyyən və sadə gələcək zamanda olan cümlələr, adətən, reklam edilən məhsulların alıcıya daha yaxın olmasını bildirir. Məsələn,

*You'll wonder where the yellow went when you brush your teeth with Pepsodent.* - “Pepsodent ilə dişlərinizi fırçalayanda dişlərinizdəki ərplərin hara getdiyinə təəccüblənəcəksiniz”.

3. Reklam mətnlərində feilin “-ing” şəkilçili şəxssiz formalarının (Gerund, Participle I) istifadəsi onları daha yığcam və konkret edir. Məsələn,

*The world is shrinking. Whereas your scope is constantly growing”* (Automatic fax service). - “Dünya daralır. sizin əhatə dairəniz isə daim böyüyür”.

*Nokia - Reliable. Comunicative. Competent. Looking for a business partner –*
“Nokia - Etibarlı. Ünsiyyətcil. Bacarıqlı. Biznes partnyoru axtarılır”.

4. Təyin və məqsəd zərfliyi funksiyasında işlədilən məsdər və məsdər birləşmələri reklam edilən məhsul və xidmətləri təsvir etməklə bərabər, onların digər brendlərdən fərqli xüsusiyyətlərini də göstərir. Məsələn,

*Your friends will want to look at it. You won't even want to take it off to shower”.*- (The Bradford Exchange jewelry) “Dostlarınız ona baxmaq istəyəcəklər. Onu çimərkən çıxarmaq belə istəməzsən”.

5. Reklam mətnlərində müəyyənlik artiklı:

a) hamıya məlum olan məhsul və ya xidmət reklam edilərkən işlədilir. Məsələn,

*The City never sleeps* - “Şəhər heç vaxt yatmır”. Burada söhbət bir bankdan gedir. Bankın daim və məhsuldar işlədiyini göstərmək üçün bu reklamdan istifadə edilir.

b) reklam edilən məhsul və ya xidmətin qarşısında üstünlük dərəcəsində olan sifət olduqda işlədilir. Məsələn,

*When you care enough to send the very best* - “Kifayət qədər çalışsan, daha uzağa göndərərsən”.

Qeyri-müəyyənlik artiklı aşağıdakı hallarda işlədilir:

a) hər hansı bir məhsul çeşidindən söhbət gedirsə. Məsələn,

*It's a Skoda. Honest – brand* - “Skodadır. Dürüst – brend”.

b) əgər bir məhsul digəri ilə müqayisə edilirsə:

*Have a break. Have a Kit-Kat.* - “Faislə et. Kit-Kat ye”.

6.Diqqəti məhsulun təklif etdiyi imkana yönəldən modal feillər və sözlər.Məsələn,

*“Discount” health plans can look legitimate but can leave you drained of cash and unprotected. (Health Care Services) - “*Güzəştli” sağlamlıq planları qanuni görünə bilər, lakin sizi nağd puldan məhrum edə və müdafiəsiz qoya bilər.”

7. Şəxs və yiyəlik əvəzlikləri (2-ci şəxs tək və I şəxs cəm) mətnin müəllifi ilə onu qəbul edən şəxs arasında ümumi baxış bucağı yaradır. Məsələn,

*Obey Your Thirst (*Sprite içkisinin reklamı) - "Susuzluğunuza itaət edin".

8. İstənilən mətn növündə ən güclü inandırma vasitələrindən biri olduğu üçün tez-tez istifadə olunan əmr cümlələri. Məsələn,

*"Savour the flavour of every color"* (Canon fotoaparatının reklamı) - "Hər rəngin ləzzətindən ləzzət alın".

9. İstifadəsi reklam mətnini yığcamlaşdıran və onu şüar kimi göstərməyə imkan verən nəqli cümlələr. Məsələn,

*Apple keeps us think creatively – and that helps keep us ahead.* - "Apple bizi yaradıcı düşünməyə vadar edir və bu, bizi irəlidə saxlamağa kömək edir." (Apple şirkətinin reklamı).

10. Reklam mətnindəki sual cümlələri cavab tələb etmir və ifadə və ya göstəriş kimi qəbul edilir. Məsələn,

*Take pictures at night? You need a FinePix"* (Fujifilm) - "Siz gecələr şəkil çəkdirmək istəyirsiniz?

11. Nida cümlələri vizual effekt yaratmaq üçün işlədilir. Məsələn,

*Stop wishing! Start living* ! (Meltin' Pot jeans). - "Arzulamağı dayandırın! Yaşamağa başlayın!

Beləliklə, reklam dilinin qrammatik xüsusiyyətləri sistemin bir hissəsini təşkil edir və reklam edilən məhsulun tez alınmasına xidmət edir.

**Açar sözlər**: reklam mətni, qrammatik vasitə, leksik vasitə, reklam effekti.

## Ədəbiyyat

1. Бернадская Ю.С.Текст в рекламе:учеб.пособие для студентов вузов, обу чающихся по специальности «Реклама». М.: ЮНИТИ-ДАНА, 2008, 288 с.
2. https://nauchkor.ru/pubs/lingvisticheskie-osobennosti-reklamnyh-tekstov-sovre-mennogo-angliyskogo-yazyka-5c1a5efe7966e104f6f85610 .

# MÜHARİBƏ VƏ MÜNAQİŞƏ QURBANLARI İLƏ SOSİAL İŞ

**Nicat Məsimov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Nicat.mesimov.1997@mail.ru

Müharibələri dağıntısız, itkisiz, ziyansız təsəvvür etmək mümkün deyil. Dünyanın bir çox ölkələrində illərlə baş vermiş müharibələrin fəsadları bugünə qədər görünür. Misal olaraq, Yaponiyanın Xirosimo, Naqasaki şəhərlərini, Viyetnam müharibəsini buna misal göstərə bilərik. Heç çox uzağa getməyək, 90-cı illərə nəzər salsaq, 1-ci Qarabağ müharibəsində necə ağır bir faciənin, dəhşətli bir qətliamın, soyqırımın törədildiyinə şahid olarıq. 1 milyondan çox insan öz evlərindən qaçqın və didərgin düşdü, təsərrüfatını, malını, mülkünü və sağlamlığını itirdi. Bu dövrdə Azərbaycanda sosial işin bu istiqaməti bir o qədər də inkişaf etməmişdi, baxmayaraq ki, dövlət öz dəstəyini, himayəsini müharibədən zərər çəkmiş insanlardan əsirgəməmişdir.

2020-ci il sentyabr ayının 27-sində başlayan və 44 gün davam edən 2-ci Qarabağ müharibəsi Azərbaycan xalqının qələbəsi ilə nəticələndi. Baxmayaraq ki, heç bir qələbə ziyansız, zərərsiz, itkisiz əldə olunmur. Bu dövrdə Gəncənin, Bərdənin, Tərtərin raket, artilleriya atəşinə tutulması, mülki obyektlərə, infrastrukturlara ciddi ziyan vurdu, o cümlədən bəzi mülki vətəndaşlar həyatını, bəziləri isə sağlamlığını itirdi. Əlbəttə, müharibədən söz açmışkən bizlərə bu sevinci yaşadan igidlərdən söz açmasaq olmaz. Hansı ki, bəziləri əmək qabiliyyətini, peşə qabiliyyətini itirdilər, əlilliyi yarandı və bəziləri şəhidlik zirvəsinə ucaldılar. Bizim mövzumuzu da, məhz müharibə və münaqişə qurbanları təşkil edir. Hansı ki, onların sosial, psixoloji, maddi və məişət şəraitinin yaxşılaşdırılması yönümündə görülmüş tədbirlərdir. Bu sferada dövlətin gördüyü bir sıra tədbirlər vardır: Postmüharibə dövründə şəhid ailəsi üzvləri, qazilər və erməni terrorundan əziyyət çəkənlər, müxtəlif peşə kurslarına, aktiv məşğulluq tədbirləri çərçivəsində fərdi məşğulluq planının tərtib olunmasına, özünüməşğulluğa cəlb olunmuşlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Vətən müharibəsindən sonrakı dövrdə həmin kateqoriyalara aid 5320 şəxsi özünüməşğulluq proqramına cəlb edib. Onlara proqram çərçivəsində mal və materiallar formasında aktivlər verilməklə kiçik ailə təsərrüfatları yaradılıb. 2000-dən çox şəxs isə aktiv məşğulluq proqramları çərçivəsində münasib işlərlə təmin edilib. Şəhid ailəsi üzvləri və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədilə bu ilin 10 iyunundan başlanan “Məşğulluq marafonu”na artıq 534 işəgötürən qoşularaq, 2833 vakansiya təqdim edib. Həmin vakansiyalar üzrə bu günədək 832 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub [3].

Müharibə iştirakçıları ən qısa zamanda (özünüməşğulluq, haqqı ödənilən ictimai işlər, sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramlarına növbədənkənar cəlb edilir, kiçik ailə təsərrüfat və müəssisələrini qurmaları üçün aktivlərlə təmin olunurlar. Dövlət başçısının tapşırığına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və qazilər, erməni terrorundan zərər çəkənlərlə bağlı genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilməkdə davam edir [2]. Bu tədbirlər çərçivəsində 44 günlük Vətən müharibəsi şəhidlərinin ailə üzvlərindən ibarət 7900 nəfərə 15700 sosial ödəniş təyinatı aparılıb. Vətən müharibəsi qazilərindən artıq 2000 qaziyə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik və müvafiq sosial ödənişlər təyin edilib [1].

Araşdırmalar göstərir ki, yuxarıda adı çəkilən kateqoriyadan olan şəxslərlə aparılan sosial iş çox böyük əhəmiyyətə malikdir. Nəinki həmin kateqoriyalar, hətta cəmiyyətimizdə sosial yadırğamadan, dezadaptasiyadan və sosial çətinliklərlə üzləşən şəxslərin problemlərinin həlli istiqamətində atılmamış addımlar, cəmiyyətin rifah halını kəskin şəkildə aşağı salır.

**Açar sözlər**: müharibə, müharibə iştirakçısı, sosial iş.

## Ədəbiyyat

1. https://sosial.gov.az/shehid_muharibe_istirak_destek
2. https://www.sosial.gov.az/post_487735
3. https://sosial.gov.az/post_482929

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İQTİSADİYYAT QURUCULUĞUNDA DÖVLƏT – ÖZƏL ƏMƏKDAŞLIĞI

**Emil Mirzəyev**
AMEA İqtisadiyyat İnstitutu
emil.mirzeyev.84@inbox.ru

Məlumdur ki, ölkəmizin Vətən müharibəsində möhtəşəm qələbəsindən sonra işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın dayanıqlı-artan inkişafının təmin edilməsi iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Eyni zamanda bu məsələ müvafiq istiqamətdə qəbul olunmuş dövlət proqramları və prioritetlərlə tənzimlənir. İlk öncə, onu xüsusi vurğulamaq lazımdır ki, mövcud ərazilərdə iqtisadiyyat quruculuğunda əsas məqsəd iqtisadi inkişafı təmin etməklə yanaşı, həm də əhalinin daimi məskunlaşmasının təmin edilməsi, məşğulluğun formalaşması və həmin ərazilərin iqtisadi potensialının ölkənin ümumi istehsal- təsərrüfat dövriyyəsinə cəlb edilməsidir. Təbii ki, mövcud ərazilərin iqtisadiyyat quruculuğunda müxtəlif iqtisadi modellərin tətbiq edilməsi və optimal variantın seçilməsi iqtisadçılar qarşısında duran əsas vəzifələrdəndir. Qeyd etmək lazımdır ki, post-konflikt zonalarında iqtisadiyyatın davamlı- artan inkişafının təmin edilməsi bu sahəyə ciddi investisiya axınını aktual edir. Dünya praktikasına əsaslansaq, görərik ki, işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafında əsas modellərdən biri kimi, dövlət- özəl əməkdaşlığı xüsusi əhəmiyyətə malikdir. Təklif edilən modelin ölkəmiz üçün yeni və bu sahədə müvafiq normativ-hüquqi bazanın olmamasına baxmayaraq, həyata keçirilən bərpa-quruculuq işlərinin surətlənməsində və iqtisadi səmərəliliyin artmasında müstəsna əhəmiyyəti vardır. Eləcə də, ölkəmizin iqtisadi qüdrətinin artması və dünya iqtisadiyyatına inteqrasiyasının sürətlənməsi məhz həmin modelin ölkəmizdə də tətbiqini zəruri edir. Xüsusi vurğulamaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərin iqtisadiyyat quruculuğunda dövlət-özəl partnyorluğu əsasən dövlət əhəmiyyətli obyektlərin tikintisinə və iri miqyaslı infrastruktur layihələrinin icrasına yönəldilir. Əslində, post-konflikt zonalarında iqtisadiyyat quruculuğunda dövlət-özəl əməkdaşlığı əsasən nəqliyyat sistemi, elektrik təsərrüfatı, su təchizatı və s. kimi təbii inhisar subyektlərinin fəaliyyətini əhatə etsə də, təhsil, səhiyyə və s kimi xidmət sahələrinin də fəaliyyətinin təşkili və idarə olunmasında əsas perspektivli modellərdən biri kimi qiymətləndirilməkdədir. İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyat quruculuğunda dövlət-özəl əməkdaşlığı həm də özündə qarşılıqlı maraqları əks etdirən və ictimai əhəmiyyət kəsb edən məsələlərin həlli məqsədilə formalaşdırılan istehsal-təsərrüfat əlaqələridir. Post-konflikt zonalarının iqtisadiyyat quruculuğunda dövlət-özəl əməkdaşlığı həm də bu ərazilərdə bərpa-quruculuq işlərinin alternativ maliyyələşdirmə mexanizmlərindən biridir. Çünki, müvafiq modelin tətbiqi mövcud ərazilərdə bərpa-quruculuq işlərinin effektivliyini artırmaqla yanaşı, dövlət büdcəsini də maliyyə yükündən müəyyən qədər azad etmiş olur. Qeyd etmək lazımdır ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işləri innovativ texnika və texnologiyalar , mövcud sahədə yenilikçi ideyalar və mütərəqqi istehsal üsullarına əsaslanacaqdır. Bu məqsədlə mövcud ərazilərin bərpa-quruculuq işlərində sahibkarlıq subyektlərinin tədqiqi və onların

stimullaşdırılması vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyat quruculuğunda dövlət-özəl əməkdaşlığı aşağıdakı mühüm prinsipləri özündə birləşdirməkdədir:

- İctimai və korporativ-sosial məsuliyyət prinsipi;
- Qarşılıqlı səmərəlilik prinsipi;
- Hesabatlılıq prinsipi;
- Müddətlilik prinsipi və.s.

Qeyd etdiyimiz kimi, işğaldan azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində dövlət-özəl partnyorluğu hər iki tərəfə qarşılıqlı fayda verməklə, bərpa-quruculuq işlərinin kreativlik meyillərə əsaslanmasına xüsusi rəvac verəcəkdir. Qeyd edək ki, dövlət orta və iri sahibkarlıq sturkurlarından çox kiçik biznesin inkişafına xüsusi diqqət yetirir. Bu da post-konflikt zonalarının bərpa-quruculuq işlərində kiçik biznes subyektlərinin fəaliyyətini gündəmə gətirir. Bu məqsədlə dövlət kiçik sahibkarlıq subyektləri ilə də bağlı innovasiya siyasətinə xüsüsi diqqət ayırır.Dövlətin kiçik bizneslə bağlı innovasiya siyasətinin başlıca məzmunu xırda firmaların etibarlı maliyyə mənbələrinə istiqamətlənməsi və maliyyə kütləsinin tənzimlənməsindən ibarətdir [1, s.117]. Mövcud vəziyyətin təhlilinə əsasən, deyə bilərik ki, hal- hazırda post-konfkilt zonalarının iqtisadiyyat quruculuğunda dövlət-özəl əməkdaşlığı əsasən yaşayış binalarının tikintisinə fokuslanır. Belə ki, Ağdamda 209 mənzilli 6 yaşayış binasının inşasına start verilmiş və bu proses 2023- cü ilin sonuna qədər yekunlaşacaqdır. Xüsusilə vurğulamaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyat quruculuğunda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün müxtəlif güzəştlərin tətbiqi və imtiyazların müəyyənləşdirilməsi mövcud ərazilərdə bərpa- quruculuq işlərinə xüsusi təkan verəcəkdir. Bu məqsədlə aşağıdakıların icrası məqsədəuyğundur:

- Biznes layihələrinin təhlili və qiymətləndirilməsi;
- Mövcud layihələrin perspektivlilik və effektivliliyinin müəyyənləşdirilməsi;
- Müəssisələrin maliyyə imkanlarının və ödəmə qabiliyyətinin incələnməsi;

**Açar sözlər**: Post-konflikt əraziləri, dövlət- özəl əməkdaşlığı, innovasiya, iqtisadiyyat quruculuğu.

## Ədəbiyyat

1. V.Niftullayev. Sahibkarlığın əsasları. Dərslik, Bakı, 2002.
2. https://smb.gov.az

# İNGİLİS XALQ NAĞILLARI MƏTNLƏRİNİN ÜSLUBİ FONOTAKT TƏRTİBLƏNMƏSİ HAQQINDA

**Sevinc Mirzəyeva**
Bakı Slavyan Universiteti
eminsevinc1@mail.ru

Məlumdur ki, fonoloji anlamda fonotakt və ya ritmoqrup tərtiblənməsi mətnin prososdik təşkilini ifadə edir (daha ətraflı bax: [2, s.67-83]). Üslubi baxımdan fonotakt hadisəsinin dəyərləndirilməsi isə müəyyən ritmoqrupun qabardılması sayəsində məntiqi vurğunun reallaşmasını əks etdirir: yəni müəyyən prosodik vasitələr sayəsində adresatın diqqətinin məhz, həmin ritmoqrup tərəfindən ifadə edilən anlama yönləndirilməsini əks edir. Bu mənada təsadüfi deyil ki, xalq nağıl mətnlərinin dilində ən asan sayıla biləcək vasitələrdən istifadə olunur. Xatırladaq ki, həm Azərbaycan, həm də ingilis dillərində xalq nağıl mətnlərinin təşkilində aktiv şəkildə istifadə olunan alliterasiya və assonas vasitələri öz mahiyyəti etibarı ilə ibtidai, primitiv qafiyəni ifadə etdirkləri kimi, nağıl mətnlərinin fonotaktik arxitektonikası da müəyyən ibtidailikdən xali deyil. Belə ki, təhillərimiz onu deməyə əsas verir ki, hər iki dildə ritmoqrupların təşkilində eyni və ya oxşar fonetik təkibli sözlərin təkrarından, özü də məhz, müəyyən intervalla icra olunan təkrarından istifadə edilir. Bu isə ilk növbədə öz başlanğıcında məhz şifahi mətnlər kimi formalaşan və akustik effektə köklənən həmin mətnlərin prosodik və akustik effektinin gücləndirilməsinə xidmət edirdi. Yəni vacib olan dinləyicinin diqqətinin cəmləndirilməsi; onun diqqətinin məhz, lazımı olan obraza, hadisəyə, hərəkətə yönləndirilməsi, yəni, bir sözlə desək, adresatın diqqətinin idarə edilməsi təşkil edirdi. Eyni zamanda həmin iterativ mahiyyətli fonotakt tərtiblənməsi ümumilikdə mətnin ahəngdarlığına, üzvi şəkildə təşkil olunamsına xidmət edirdi.

Məsələn, ritmik ahəngdarlığın əldə edilməsi üçün də heç bir əlavə anlam qazandırmadan (intensivlik, iterativlik semantikasının ifadəsinə yardım etmədən) sözlərin təkrarından da geniş istifadə olunur.

"*My daughter's spun* ***seven, seven, seven****,*
*My daughter's eaten* ***seven, seven, seven****,*
*And all before daylight.*" [1] .

Təqdim olunan mətndə eyni bir sözün iki dəfə deyil, hətta üç dəfə təkrar olunması, özü də bu təkrarın eyni banddə yer alan yekun misranın prosodik uzunluğuna uyğunsuz şəkildə (yəni, çox daha uzun şəkildə) icra edilməsi məhz, diqqətin idarə olunması faktorunun təsirindən xəbər verir. Belə ki, bu təkrarın heç bir əlavə semantik, konnotativ yüklənməsi olmadığı halda, ona yer verilməsi birmənalı şəkildə nağıl mətni dinləyicisinin, məhz. həmin fakta xüsusilə diqqət yetirməsinin vacibliyi ilə bağlıdır. Yəni, nağıl danışan şəxs uzun müddət diqqəti bir yerə cəmləməkdə çətinlik çəkən aşyaşlı dinləyicisinin məhz, lazımi olan məqamın, faktın (nağılçının nağıl mətninin düzgün dərki baxımından müstəsna əhəmiyyət kəsb etdiyini zənn etdiyi məqamın, faktın) yadda saxlaması üçün və ya həmin əhəmiyyətli fakta, məqama xüsusi diqqət ayrılması üçün, bir növ, ona (azyaşlı dinləyicisinə) "kömək

etmiş" olur. Məsələn, yuxarıda iqtibas gətirilən hissədə təkrar məhz, nağıl süjetinə görə qeyri-adi sayılan hadisənin, yəni gənc qızın sübhədək görünməmiş məhsuldarlıqla işləməsinin, eləcə də görünməmiş iştahla qidalanmasının vurğulanması, qabardılması məqsədilə edilmişdir.

*The mother was up first the next morning, and when she came into the kitchen and found her sausters all gone, and the seven hanks of yarn lying beautifully smooth and bright upon the table, **she ran out of the house wildly, crying out**—*

*"My daughter's spun **seven, seven, seven**,*
*My daughter's eaten **seven, seven, seven**,*
*And all before daylight.*" [1].

"Habetrot and Scantlie Mab" ingilis xalq nağıl mətnin təhlili burada **seven** "*yeddi*" sözünün mətnin ayrı-ayrı hissələrinin əlaqələndirilməsinə xidmət edən, yəni mətn formalaşdırıcı mahiyyət kəsb edən təkrar olmadığını əyani şəkildə nümyiş etdirir: bu təkrar mətndə yalnız iki dəfə və yalnız eyni personaj tərəfində, eyni kontekstdə ifadə edilmişdir.

*A laird who chanced to be riding by, heard the exclamation, but could not understand it; so he rode up and asked the gudewife what was the matter, on which she broke out again—"My daughter's spun seven, seven, seven,*
*My daughter's eaten seven, seven, seven* [1].

Nağıl mətnin digər hissələrində həmin "**seven, seven, seven**" təkrarına təsadüf olunmaması onu deməyə əsas verir ki, təkrarlardan icra olunan hər iki işin həcminin gənc qız üçün gözlənilməz hərəkət olduğunu vurğulamaq, oxucuya çatdırmaq məqsədilə istifadə olunmuşdur.

Xatırladaq ki, pedaqoq və psixoloqların təsbit etdikləri gerçəklik, aparılan çox saylı təcrübi araşdırmalar məktəbəqədərki yaş dövrünü əhatə edən uşaqların, habelə aşağı sinif yaş dövrünü əhatə edən məktəbli uşaqların diqqət dağınıqlığının yüksəkdə olmasına şübhə yeri qoymur (daha ətraflı bax: [2, s.1704-1706]). Bununla da nağılçı öz məqsədinə çatmış olur: 1) azyaşlı adresat ananın emossional reaksiyasını, yaşadığı şoku "hiss edir"; 2) icra olunan işin real iş yükü ilə, real iş, bacarıq imkanları ilə tərs mütənasib olması haqqında qənaətə gəlir; 3) bunun məntiqi davamı kimi, həmin qızla evlənən gənc lordun hansı səbəbdən öz xanımına bir daha heç vaxt cəhrə ilə işləməyə, hörgü ilə məşğul olmağa icazə verməyəcəyinin səbəbini anlayırlar.

Qeyd olunanlar onu deməyə imkan verir ki, ingilis nağıl mətnlərində heç də həmişə təkrarlar ayrı-ayrı mürəkkəb sintaktik bütövlərin əlaqələndirilməsi məqsədini daşımırlar. Bəzi hallarda onlardan müəyyən fonotaktikanın yaradılması və bununla da diqqətin idarə olunması məqsədilə istifadə də edilir.

**Açar sözlər**: ingilis dili, xalq nağılları, fonoüslubi özəlliklər, təkrarlar, fonotakt, ritmoqrup.

## Ədəbiyyat

1. Habetrot and Scantlie Mab, More English Fairy Tales https://www.gutenberg.org/files/14241/14241-h/14241-h.htm
2. Дорохова М.В. К вопросу о сложной ритмогруппе (на материале американского варианта английского языка). Вопросы языкознания, 1996. №3, 67-83.

3. Лебедева М.А., Иванова В.А Развитие внимания у детей дошкольного возраста. Международный журнал прикладных и фундаментальных исследований. 2015, № 12 (часть 9), с. 1704-1706 https://applied-research.ru/ru/article/view?id=8224

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ÖLKƏ İQTİSADİYYATINDA ROLU VƏ ƏHƏMİYYƏTİ

**Nurlan Mollayev**
Azərbaycan Universiteti
mollayevnurlan@gmail.com

Kiçik və orta sahibkarlıq (KOS) inkişaf etməkdə olan iqtisadiyyatlar üçün həyati əhəmiyyət kəsb etməklə yanaşı, həm də inkişaf etmiş iqtisadiyyatlardakı böyük payı ilə həlledici rol oynayır [20, s.45].

Hər bir əsas makroiqtisadi göstəricidə KOS sektorunun töhfəsi, xüsusən də bu müəssisələrin yeni iş yerlərinin yaradılmasında, ÜDM-in real artımında və sahibkarlığın inkişafında rolu ilə bağlı daha da aydınlaşdıqca, KOS sektoru inkişaf etmiş ölkələrdə sosial-iqtisadi siyasətin mərkəzinə çevrilmişdir.

KOS - ların xaotik və dəyişən mühitlərdə davamlılığı və çevikliyi onların ölkələrdə sosial və makroiqtisadi inkişaf siyasətlərinin əsas elementlərindən birinə çevrilməsinə səbəb olmuşdur.

Nəticədə, bu iqtisadi vahidlərin ümumi ÜDM-də onsuz da yüksək payı, yeni iş yerlərinin yaradılması və ixrac həcmləri daha da yüksələrək siyasətçilərin, tədqiqatçıların və praktiklərin artan diqqətini cəlb etmişdir.

KOS-lar motivasiya və çevikliyin daha yaxşı olduğu işçilər üçün iş yerləri yaradır. Həmçinin, KOS-lar istehlakçıların ehtiyaclarının daha yaxşı ödənilməsinə səbəb olan bazarın rəqabətli vəziyyətini yaradırlar.

KOS-lar həmçinin böyük müəssisələrə məhsul və xidmətlərin səmərəli şəkildə istehsalına kömək etmək üçün müəyyən fəaliyyətlərin təmin edilməsinə töhfə verirlər. KOS-ların bir ölkənin iqtisadi inkişafı üçün əsas rol oynadığı aşkar edilmişdir. Buna görə də heç bir ölkənin iqtisadi inkişafında KOS-ları nəzərdən qaçırmaq olmaz.

KOS-lar məşğulluq yaratmağa kömək edir və çox vaxt dinamik iqtisadiyyatların inkişafı və innovasiyası üçün çox vacib hesab olunurlar. Məsələn, Afrikada iqtisadi artım və inkişaf güclü KOS-ların meydana çıxması yolu ilə əldə edilə bilər ki, bu da sonradan inkişaf etməkdə olan iqtisadiyyatın əsas oyunçularına çevriləcəkdir.

KOS-lar idxal və ixraca əhəmiyyətli töhfələr verən iqtisadi fəaliyyətlərin şaxələndirilməsinə kömək edir. Beləliklə, KOS-lar dünyanın milli və beynəlxalq iqtisadiyyatlarına getdikcə daha çox töhfə verirlər.

KOS-lar daha çox əmək tutumludur və böyük müəssisələrə nisbətən gəlirin daha ədalətli bölüşdürülməsinə səbəb olur. Onlar məşğulluğun yaradılmasında və beləliklə də yoxsulluğun

azaldılmasında mühüm rol oynayır, yoxsul ev təsərrüfatlarından olan işçilərə və alternativ gəlir mənbələri az olan qadınlara tez-tez münasib əmək haqqı ilə məşğulluq imkanları verir.

KOS-lar sərmayə və marketinq imkanlarının məhdud olması, öz səyləri ilə ayaqda durması, bu səyləri ilə daxili və xarici bazarlarda mal və xidmətlərin istehsalı və satışının həyata keçirilməsi, böyük müəssisə və şirkətlər isə investisiyalarını siyasi və ya iqtisadi imkanları olmayan ölkələrə asanlıqla köçürmək imkanı əldə edirlər.

KOS-lar sistemli istehsal potensialının yaradılmasını dəstəkləyir. Onlar iqtisadiyyatın bütün səviyyələrində məhsuldar resursları mənimsəməyə kömək edir və kiçik və böyük firmaların bir-biri ilə əlaqəli olduğu dinamik və davamlı iqtisadi sistemlərin qurulmasına kömək edir.

KOS-lar investisiya, istehsal, məşğulluq, ixrac və ödədikləri vergilər baxımından ölkə iqtisadiyyatına töhfə verməklə yanaşı, coğrafi bölgüsünə görə də regional inkişafda son dərəcə mühüm rol oynayırlar.

Qısacası, qlobal bizneslər dünyada siyasət və strategiyaların müəyyən edilməsində ən böyük paya malik təşkilatlar olsalar da, KOS-ların onları qidalandıran, ölkələrin ümumi inkişafını əks etdirən, anlayışı gücləndirən ən böyük ünsürlərdən biri olduğunu söyləyə bilərik.

Dünya ölkələrindəki KOS - ların rəqabət qabiliyyətini artırmaq üçün ilk növbədə qarşılaşdıqları problemlər üçün daha təsirli həll yolları hazırlanmalı, problemlərin həlli üçün edilən tənzimləmələrin tətbiq sahələri asanlaşdırılmalı, kömək və dəstək proqramlarının effektivliyi təmin edilməlidir.

Nəticə olaraq, kiçik və orta sahibkarlıq missiyası baxımından bu gün olduğu kimi, KOS - lar gələcəkdə də sahib olduqları əhəmiyyəti qoruyacaqdır. Dünya ölklərinin bir çox bölgələrində KOS - lar məqsəd və idealları olan böyük təşəbbüskarlarla təchiz olunduğu üçün onlar ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir və bu sahibkarlar gələcəyə gedən yolda məsuliyyətlərini dərk edəniş adamlarıdır. Sahibkarlığın dəstəklənməsi ölkə iqtisadiyyatının sürətli inkişafı deməkdir.

**Açar sözlər:** kiçik və orta sahibkarlıq, iqtisadiyyat, inkişaf.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, 2025 - ci ilədək.
2. İmanov Ə.Ş. Kiçik sahibkarlıq, Bakı, Maarif, 2019, 564 səh.
3. Niftullayev V.M. Sahibkalığın əsasları, Bakı, Maarif, 2004, 343 səh.
4. Allen Y.O. The economics of small business finance: The roles of private equity and debt markets in the financial growth cycle (PDF), Journal of Banking & Finance. N.York, 2018, 643 p.
5. https://www.stat.gov.az/source/entrepreneurship/-enterpreneurship, 2022.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA SEVGİ MİNİATÜRLƏRİ

**Günay Murtuzayeva**
Sumqayıt Dövlət Universiteti
doctorant.amea@mail.ru

Çağdaş dövrdə dünya ədəbi-mədəni və ictimai fəlsəfi fikrində öz mövqeyi, qlobal əhəmiyyətli fenomenal hadisələrdən biri dünya şöhrətli Nizami Gəncəvi yaradıcılığıdır. Nizami Gəncəvi sənətinə olan maraq dünya ədəbi elmi fikrdə heç vaxt səngimir, əksinə zaman ötdükcə onun əsərləri Qərb və Şərq dillərinə tərcümə edilərək bəşəriyyətin mənəvi kamilləşməsi prosesində öz əhəmiyyətli rolunu oynayır.

Özündə Şərq poeziyasının ən yüksək nailiyyətlərini, zəngin şifahi xalq ədəbiyyatı ənənələrini cəmləşdirən, Nizami Gəncəvinin Xəmsəsinə daxil olan misilsiz poemalar Yaxın və Orta Şərq ədəbiyyatı və incəsənətinin inkişafına böyük təsir göstərmiş və bu gün də göstərməkdədir. Dünyada Nizami Gəncəvi beş poema Xəmsə müəllifi kimi tanınır. "Xəmsə" (beşlik), farsca isə "Pənc gənc" (beş xəzinə) adlanan bu poemalara dünyaca məşhurdular. Nizaminin külliyyatı isə əslində lirik şeirlər divanından və altı poemadan ibarətdir; belə ki, "İskəndərnamə" başlığı altında tanınan poema iki müstəqil hissədən – "Şərəfnamə" və "İqbalnamə"dən ibarətdir [1, s.11].

Nizami Gəncəvinin yaradıcılığından Türklüyə məhəbbət çox geniş şəkildə vurğulanır. Şairin əsərlərində Türk etnosuna məhəbbəti açıq-aşkar duyulmaqdadır. Mənbələr Nizaminin milli mənsubiyyətinə görə türk olduğu sübut olunmuşdur. Şairin türklərə məhəbbəti, şairin yaratdığı müsbət monumental obrazların əksəriyyətini ya türk kimi təsvir edir, ya da onların müsbət insani sifətlərini türklərlə müqayisə etməyindədir. "Xosrov və Şirin" poemasındakı Şirin obrazı da bu baxımdan zəngin materialdı [2, s.22].

Bəzi nizamişünaslar Şirini səhfən "erməni şahzadəsi" adlandırmışlar ki, bu da bibisinin Məhin Banunun Ərmən ölkəsində hökmdar olması ilə bağlıdır. Bəzi arqumentlər vardır ki, Şirinin və onun bibisi Məhin Banunun erməni etnosuna mənsub deyillər. Banun Ərmən ölkəsinin deyil, Azərbaycan Respublikasının ərazisinə daxil olan Arran, Muğan və Bərdə ölkələrinin də hökmdarı olmuşdur. Ərmən yaylaq kimi istifadə edilən ölkənin dağlıq bir hissəsidir. (Məhin Banu) hər fəsildə özü üçün müəyyən bir yer seçir.

*Gül fəslində yeri Muğandır ki,*
*Ayaq basdığı yerlər yaşıllıq olsun.*
*Yayda Ərmən dağlarına çıxar, Payız vaxtı Abxaza gələr.*
*Qışda Bərdəyə meyl göstərər. (Xosrov və Şirin. Bakı, 1981, s. 63.)*

Türklüyə məhəbbət "Yeddi gözəl" və "İskəndərnamə"də yüksək sevgi ilə təqdimi – əsərin qəhrəmanlarda Fitnə, Nüşabə, çin şahzadəsi (türk şahzadəsi) obrazlarında da özünü açıq şəkildə göstərir. Şair İskəndəri "Rum taclı türk" adlandırır. Firdovsinin "Şahnamə"sindəki Bəhram və Azadə

əhvalatı əsasında qələmə alınmış “Bəhram və Fitnə” süjeti kiçik bir sevgi dastanını xatırladır və Nizami burada türk qızı Fitnənin ağlı və cəsarəti qarşısında İran şahı Bəhram Guru məğlub edərək, onu kənizlikdən rəsmi nikaha qəbul edilən mələkəliyə qədər yüksəldir. Halbuki oxşar süjetdə “Şahnamə” Bəhramı ona afərin deməyən Azadəni sadəcə qətlə yetirir [3, s.42].

Nizami ksenofobiyanın nə olduğunu bilmədən, o eyni zamanda, doğma etnosu - türklərə olan məhəbbətini gizlətməmişdir. Beləliklə, bütün dünyada məşhur olan İlyas Yusif oğlu yəni Nizami Gəncəvi Azərbaycanda doğulmuş, anası kürd, atası isə türk oğlu olduğundan özünü “ikdiş” metis adlandırmışdır. O yaradıcılığında türklərə məhəbbəti ilə qürur duyduğunu qabarıq şəkildə əks etdirmişdir. Nizami Gəncəvi türk bədii-fəlsəfi təfəkkürünün, türkə məhəbbətin ifadəçisi, tərənnümçüsü olan Azərbaycan şairidir.

O ədəbiyyatda yeni üslub, yeni şivə yaratdığını çox gözəl bilirdi və bunun elmi-nəzəri əsaslarla isbat etmişdir. Nizami Gəncəvi - 35 yaşlı gənc, sevimli həyat yoldaşı Afaqın ailə bağçasını gözəl bir çiçək kimi bəzədiyi, 3 yaşlı Məhəmmədin isə bu bağçada günbəgün böyüdüyü bir zamanda qələmə aldığı “Sirlər xəzinəsi” poemasında şair öz şivəsini belə təqdim edir:

*Mən ki, bu təzə bağın təzə açmış gülüyəm,*
*Sənin söz gülşəninin xoş səsli bülbülüyəm.*

Nizami sənətinin dahiliyi və möhtəşəmliyi daha çox onun epik əsərlərində özünü qabarıq göstərir. Onun ilk poeması “Sirlər xəzinəsi”ndə Nizamini dərin inamlı, əqidəli dinşünas, eyni zamanda elmşünas və insanşünas kimi görürük. Giriş hissə iyirmi söhbət və hər söhbətin mövzusuna uyğun olan iyirmi hekayətdən ibarətdir, əsas hissədə Nizami fəlsəfi-didaktik bir formada onu düşündürən bəşəri problemləri ecazkar sənətinin qüdrəti ilə oxucusuna çatdıraraq, onun qəlbində ülvi duyğular oyatmağa nail olmuşdur. Poemanı yazarkən cəmi otuz beş yaşı olmasına baxmayaraq, Nizami, özü dediyi kimi, müdrik qocalar qədər ağıllı məsləhətləri, nəsihətləri ilə əsəri doğrudan da həyat sirlərinin zəngin xəzinəsinə çevirir. Sevgiyə, eşqə aşiq olan şair məhəbbətə böyük önəm vermiş, və hər şeydən uca tutmuşdur. Şair şeirlərində hər zaman dünyanın sevgi üzərində qurulduğunu vurğulamışdır. Nizaminin poeziyasında iki cür dünya var: zalımlar dünyası və nurlar, mələklər dünyası. O zalımlar dünyasını küdurəti ilə tənqid edirr, ikinci dünyaya sonsuz məhəbbət bəsləyirdi.

"Kərpickəsən qocanın dastanı", "Süleyman və əkinçi", hekayələrində Nizami alın təri ilə ruzi qazanan sadə adamların heyranedici surətini yaradır. Nizami əmək adamlarından həmişə dərin məhəbbət, yüksək hörmət hiss ilə danışır, onları hər cəhətdən başqa adamlara, xüsusən əməyə xor baxan tüfeyli hakim təbəqəyə qarşı qoyur [1, s.28].

Bəşəriyyətin bədii fikir salnaməsində qüdrətli söz ustasının yeni parlaq səhifəsi, ölməz əsərləri insanların bu gün də mənəvi-əxlaqi kamilləşməsində misilsiz rolu vardır. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbini yaratmışdır. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir.

Məlum olduğu kimi, təsviri incəsənətin inkişafına mane olan dini ideologiyanın hökm sürdüyü çox çətin bir şəraitdə şərq mədəniyyətin tərəqqipərvər nümayəndələri – böyük alimlər islamın

ikonoborcu meyillərinə qarşı çıxır, təsviri incəsənəti yaşatmaq üçün mübarizə aparırdılar. Incəsənətin təsviri olması onun ən mühüm məziyyəti hesab edilirdi. Antik mifologiya qədim yunan incəsənəti üçün cəbbəxana əsas olduğu kimi Şərq poeziyasında da şərq incəsənəti üçün cəbbəxanalar əsas rol oynamışdır. Lakin hər şeydən əvvəl Nizami "Xəmsə"si şərq poeziyasının ən əsas incisidir.

Kitab illüstrasiyası kimi formalaşan Azərbaycan miniatür sənətinin yaranma tarixi dəqiq müəyyən edilməmişdir. XIII əsrdə Məhəmməd əl-Xoyinin "Vərqa və Gülşa" əlyazmasının miniatürlərin bədii sənətkarlıq xüsusiyyətləri bu miniatürlərin müəyyən bir ənənəyə əsaslandığını və miniatür sənətinin qədimdən mövcud olduğunu göstərir. "Vərqa və Gülşa"ya çəkilmiş miniatürlər tək Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə də bu sənətin ən qədim nümunələri hesab edilir.

Marağa, Təbriz və Azərbaycanın başqa şəhərlərində XIII-XIV əsrlərdə xəttatlıq və miniatür sənəti sürətlə inkişaf etmiş, Təbriz Şərqdə bədii yaradıcılığın, kitab sənəti, kalliqrafiya və miniatür boyakarlığının ən qüdrətli mərkəzinə çevrilmişdi. Bu əsrlərdə Çin-Uyğur sənətindən faydalanan rəssamlar Uzaq Şərq xalqlarından gələn təsvir forması yerli ənənələrlə səthi-dekorativ forma ilə uyğunlaşdırmağa çalışırlar.

Azərbaycan miniatür sənətinin bədii üslub xüsusiyyətləri XV əsrin əvvəllərində daha da təkmilləşir. Nizaminin "Xosrov və Şirin" poeması (1405-10, Frir qalereyası, Vaşinqton), sonuncu Cəlair hakimi Sultan Əhmədin şeirlər "Divanı"na çəkilmiş dahi rəssam Əbd-əl-Xayyinin rəsmləri (1405-10, Frir qaleryası, Vaşinqton) və Əssar Təbrizinin "Mehr və Müştəri" əsərinə (1419) çəkilmiş illüstrasiyalardakı xəttat (Cəfər Təbrizi) üslub, bədii sənətkarlıq məziyyətləri Təbriz məktəbinin kamilləşməsini göstərir.

Deyilənləri ümumiləşdirərəkbelə nəticəyə gəlirik ki, ölməz şairin yaratdığı əsərlər tolerantlığı, multikulturallığı xalqımızda ta qədimdən indiyə kimi aşılayaraq bu günümüzdə bir həyat tərzinə çevrilməsində böyük bir dəstək olmuşdur. Bu fəlsəfi fikirləri qoruyub gələcək nəsillərə ötürülməsi multikulturalizmin daima bərqərar olmasında vacib şərtlərdən biridir.

**Açar sözlər:** şair, ölməz əsərlər, yaradıcılıq, xəzinə, ictimai-fəlsəfi fikir.

## Ədəbiyyat

1. Nizami Gəncəvi: biblioqrafiya /tərt. ed.: M.İbrahimova, G.Misirova; ixt. red. və burax. məsul K.Tahirov; red. M.Vəliyeva; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. Bakı, 2012, 632s.
2. Poeziya dünyasının dahisi: metodik vəsait /tərt. ed. M.Məmmədov; ixtis. red. və bur. məs. K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası, Bakı, 2012, 64 s.
3. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Lider nəşriyyat, Bakı, 2004, 264 səh.

# MOBİLLİYİ SÜRƏTLƏNDİRƏN MÜƏSSİSƏDƏ MULTİSERVİS ŞƏBƏKƏNİN QURULUŞ MODELİ

**Təbriz Musazadə**
Azərbaycan Universiteti
tebrizmusazade99@gmail.com

Dünyanın müxtəlif şirkətləri, IP əlaqələri və mobillik kimi güclü yeni texnologiyalardan istifadə etmək üçün iş proseslərini dəyişdirdilər. Lakin, işçilərə, cib telefonu, e-poçt, ani mesajlaşma və səsli mesajlara çatmağın yollarının partlaması ilə, tez-tez layihə işçiləri hələ də səmərəli şəkildə bir-birlərinə çata bilmirlər. Nəticə, iş proseslərində gecikmələrdir, çünki iştirakçılar davam etməzdən əvvəl geri qaytarılmış telefon zənglərini və ya e-poçtu gözləməlidirlər [10].

Şimali Amerika və Avropadakı 67 müəssisədə daxili ünsiyyət problemləri ilə əlaqədar bir araşdırma aparan Forrester araşdırma hesabatı (Mart 2005), qərar verənlərə tez bir zamanda çata bilməmək səbəbiylə layihə gecikmələrinin yüksək tezliklə meydana gəldiyini təsbit etdi. Sorğuda iştirak edən şirkətlərin 27 faizində, həftəlik və ya gündəlik olaraq müntəzəm gecikmələr meydana çıxdı, əlavə olaraq yüzdə 51 -də rübdə bir neçə dəfə ortaya çıxan layihə gecikmələri bildirildi. Ancaq ən diqqət çəkən məqam, kritik layihə üzərində işlərin real vaxtda kritik qərar verənlərə çata bilməməsi səbəbindən şirkətlərin yüzdə 25-də dayandığıdır. Şirkətlərin başqa 63 faizi üçün işin gedişi yavaşladı. Sorğu, respondentlərin yalnız 12 faizinin ümumiyyətlə problemi həll edə biləcəyini göstərdi.

FMC Appliance adlı bir tətbiq serveri müəssisənin IP şəbəkəsində yerləşir. Mobil işçilərə vahid səsli poçt qutusu, kataloq və tək nömrə xidməti kimi əsas ATS üstünlükləri verir. FMC Cihazı, ikili rejimli cihazların müəssisə daxilində səsli zənglər göndərməsinə və qəbul etməsinə imkan verən bir əlaqə “proxy”sidir. İkili rejim cihazı, mövcud olan ən yaxşı şəbəkəni seçmək üçün FMC Cihazı ilə əl-ələ işləyir. Xərcləri optimallaşdırarkən yüksək səviyyədə xidmət göstərmək üçün zənglər avtomatik olaraq şəbəkələr arasında köçürülür.

Zəng edən şəxsin yerləşdiyi yerə əsasən, gedən zənglər aşağı qiymətli müəssisə səs şəbəkəsindən və ya ümumi mobil şəbəkədən istifadə edə bilər (Şəkil 1):




**Şəkil 1.** Müəssisənin şəbəkə mobilliyi və gedən zənglər

1. Müəssisə ikili rejimli cihaz olan WLAN-a qoşulduqda, xidmətdən istifadə etmək üçün yalnız icazə verilən ikili rejimli cihazların qoşulmasına icazə verilməsini təmin etmək üçün SİP-dən istifadə edərək FMC Cihazına qeydiyyatdan keçir.

2. Müştəri cihazı identifikasiyadan keçdikdən sonra FMC Cihazına qeydiyyatdan keçir və bu da öz növbəsində bu istifadəçinin mövcud olduğu SIP ATS (və ya SIP şluzu) ilə qeydiyyatdan keçir. FMC Appliance, gələcəkdə əlaqələr qurmaq üçün müştəri cihazının IP ünvanını saxlayır.

3. İstifadəçi ofisdən kənarda olarsa, PSTN və ya hər hansı digər mobil şəbəkə alıcısına gedən zənglər standart genişzolaqlı mobil şəbəkə vasitəsi ilə qurulacaq. Tək nömrə xüsusiyyətindən istifadə edərkən, bir telefon nömrəsi (PBX nömrəsi) ilə istifadəçini müəyyən etmək üçün DTMF istifadə olunur.

4. İşçi müəssisənin içərisində olduqda, ikili rejimli müştəri cihazından olan əlaqə istəyi FMC Cihazına, sonra isə PSTN-ə zəng ötürmək üçün Media Gateway istifadə edən VoIP ATS-ə ötürülür.

Mobil cihaza gələn zənglər masa telefonuna və ya hər iki yerə eyni anda gedə bilər. Bunu aşağıdakı ardıcıllıqla sıralaya bilərik:

1. Müəssisə ikili rejimli cihaz olan WLAN-a qoşulduqda, cihaza yalnız icazə verilən ikili rejimli cihazların qoşulmasına icazə verilməsini təmin etmək üçün identifikasiya tələb edən FMC Cihazına qeydiyyatdan keçir. Müştəri cihazı identifikasiyadan keçdikdən sonra FMC Cihazına qeydiyyatdan keçir və bu da öz növbəsində SIP PBX və ya SIP Gateway -ə bu istifadəçinin mövcud olduğunu bildirir. FMC Appliance, gələcəkdə əlaqələr qurmaq üçün müştəri cihazının IP ünvanını saxlayır.

2. İstifadəçiyə gələn bütün zənglər, nəzərdə tutulan alıcının vəziyyətini bilən IP ATS -də qəbul edilir. Məsələn, PBX bir istifadəçinin cihazının nə vaxt işlədiyini bilir, "Məşğul" və başqa bir gələn zəng istifadəçinin səs poçtuna yönləndiriləcək.

3. SIP PBX -də "qeydiyyatdan keçən" və bilinən IP ünvanında müştəri cihazına göndərilən ikili rejimli cihazlar üçün gələn zənglər Dual rejimli cihaz WLAN-da qeydiyyata alındıqda və Məşğul deyilsə, onda ATS zəng etmək üçün cihazla SIP bağlantısı qurur.




**Şəkil 2.** Müəssisənin şəbəkə mobilliyi və gələn zənglər

4. WLAN -da qeydiyyatdan keçməyən cihazlara gələn zənglər, geniş ərazi simsiz şəbəkəsində olmayan mobil cihaza qoşulmaq üçün simsiz şəbəkəyə yönləndirilir. Cihaz mövcud deyilsə, yəni şəbəkədənkənar və ya Məşğul olarsa, zəng yenidən ATS-ə gedir və abunəçilərə səsli poçt qutusuna yönləndirilir.

5. SIP ATS gələn zəngə cavab olaraq "paralel zəng vurma" qabiliyyətinə malikdir. Həm qeydiyyatdan keçmiş ikili rejim cihazı, həm də standart ofis masası telefonu eyni vaxtda çala bilər.

WLAN-ın yüksək keyfiyyətli səs xidməti təmin etmək qabiliyyətinin yaxşılaşdırılması və həm mobil (GSM, UMTS və ya CDMA), həm də WLAN radiosunu dəstəkləyən ikili rejimli telefonların tətbiqi, müəssisələrə hərtərəfli xidməti dəstəkləmək üçün yeni imkanlar yaradır. Bu texnologiya səsdən başlayaraq mobil və sabit xətt infrastrukturlarını (məsələn, Şəkil 2) birləşdirir. Hal -hazırda, birləşdirilmiş problemsiz xidmətlərin təqdim edilməsində aşağıdakı yanaşmalar hazırlanır:

• Lisenziyasız Mobil Giriş (UMA) - WLAN və GSM arasında rouminq və təhvil vermə ilə WLAN radiosu üzərindən GSM xidmətləri təqdim edir. UMA GSM operatorlarına müraciət etsə də, bu yanaşmanın bir neçə çatışmazlığı var:

- yalnız GSM operatorlarına aiddir;
- heç bir yeni son istifadəçi xidməti vermir, yalnız köhnə xidmətlərə keçid;
- uzun müddətdə bütün WLAN-a uyğun terminallarda tətbiq oluna biləcək SIP-ə uyğun terminallardan istifadə etmir.

Səsli İnternet Protokolunun (VoIP) istifadəsinin artması və mobil simsiz texnologiyanın əsas ünsiyyət vasitəsi olaraq geniş qəbul edilməsi ilə yanaşı, müştərilər və xidmət təminatçıları fərdi bir problemsiz xidmət təqdim etmək üçün xidmətləri uyğunlaşdırmaq və şəbəkə memarlıqlarını genişləndirmək üçün getdikcə daha əlverişli hesab edirlər. Simsiz və genişzolaqlı tel xətti müəssisə infrastrukturu üzərində VoIP -in təklif etdiyi simsiz mobilliyi köçəri qabiliyyətlərlə birləşdirmək, fərdi müştərilərin müştərini izləyən və mobil rabitə təcrübələrini artıran bir fərdi telefon nömrəsinə və telefon xüsusiyyətlərinə malik olmasını təmin edir.

Beləliklə, məqalədə, daha sıx inteqrasiya olunmuş FMC və IP Multimedia Alt Sistemləri (IMS) həllinə keçmək qabiliyyəti ilə yanaşı, mobil simsiz operatorun müəssisə müştəri bazasına təkmilləşdirilmiş iş xidmətləri təqdim etmək üçün mükəmməl bir xidmət təqdim etmə modelini araşdırır.

Gələcək xidmətlərə keçid texnologiyası ilə yanaşı, potensial yaxınlaşan xidmətlər də daxil olmaqla bir şəbəkə infrastrukturunu, xidmətlərini və tətbiqlərini qiymətləndirdik. Bu quruluş üçün bir xidmət ssenarisi çərçivəsi qurmağa əlavə olaraq, təqdim olunan yeni xidmətlərə cavab olaraq şəbəkə davranışını təhlil etmək üçün çatdırılma çərçivəsinin riyazi modelini təklif etdik.

Multiservis şəbəkələrinin artan populyarlığı telekommunikasiya bazarında ən diqqət çəkən tendensiyalardan biridir. Son illər belə bir şəbəkənin xidmətləri ilk növbədə biznesin intensiv inkişafı, xərclərin optimallaşdırılması, iş prosesinin avtomatlaşdırılması, müasir idarəetmə üsulları və informasiya təhlükəsizliyinə yönəlmiş şirkətlərə yönəlib. Multiservis şəbəkələrin ən təsirli tətbiqi ənənəvi telekommunikasiya operatorlarında tapıla bilər ki, bu da göstərilən xidmətlərin çeşidini xeyli genişləndirir. Müəssisə bazarı üçün bütün uzaq şöbələrin vahid multiservis şəbəkəsinə birləşdirilməsi istənilən vaxt məlumatların mövcudluğunu təmin edərək məlumat mübadiləsinin səmərəliliyini xeyli

artırır. Ofislər arasında böyük miqdarda məlumat mübadiləsi imkanı ilə uzaq şöbələrlə video konfranslar keçirmək mükündür. Bütün bunlar şirkətdə baş verən dəyişikliklərlə reaksiyanı sürətləndirir və real vaxtda bütün proseslərə optimal nəzarət təmin edir.

**Açar sözlər:** Multiservis, şəbəkə, texnologiya, quruluş, sistem.

**Ədəbiyyat**


1. Bayramov H.M., Mənsimov H.İ., Məmmədov Ə.S. Kompyuter şəbəkələrinin əsasları. Dərs vəsaiti. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2019, 142 s.
2. Abbasov Ə.M., Hüseynov B.İ., Kişiyev X.F. Müasir rabitə şəbəkələri – NGN, Bakı, 2009, 419s.
3. Əliyev H Ə., Süleymanov X.S., Hənifəyev R.A. NGN şəbəkələri Dərslik Bakı, 2017, 445 s.
4. Şıxəliyev R.H. Şəbəkə texnologiyaları. Mühazirələr kursu, Dərslik. Bakı: İnformasiya Texnologiyaları nəşriyyatı, 2017, 143 s.
5. Application Note, "Using Cisco Business Mobility Solutions to Empower the Workforce with Insight, Collaboration and Awareness", Cisco Systems, C11-393311-00, 2/07, 2007.
6. A commissioned study conducted by Forrester Consulting on behalf of AT&T, "Unlocking The Value Of Fixed Mobile Convergence And Unified Communications", Forrester Research, July 2, 2007.
7. Abdou E., de Parades M., Maveddat P., Fixed-Mobile Convergence (FMC) Solution, Tekelec, September 2005.
8. Wiley Wireless Communications and Mobile Computing, vol. 5, issue 7, Oct 2005, pp. 805-823.
9. White paper, "Mobility Solutions Extend Cisco Unified Communications", Cisco Systems, C11-391792-00, 3/07, 2007.
10. Xiao Y., Leung K. K., Pan Y., and Du X., Architecture, mobility management, and quality of service for integrated 3G and WLAN networks, Wiley Wireless Communications and Mobile Computing, 5(7), Oct 2005, pp. 805-823.


## II QARABAĞ MÜHARİBƏSİ GEDİŞİNDƏ XARİCİ DÖVLƏTLƏRİN MÖVQEYİ

**Əsmər Mustafayeva**
Azərbaycan Universiteti
mustafayevae1999@mail.ru

2020-ci il 27 sentyabrında Ermənistan tərəfinin hücümünün qarşısını almaq məqsədi ilə başlanan və 44 gün ərzində Azərbaycanın qələbəsi ilə başa çatan Vətən müharibəsinə Xarici dövlətlərin münasibəti birmənalı olmamışdır. Vətən müharibəsində müharibəsində qələbəmiz eyni zamanda Azərbaycan diplomatiyasının da siyasi qələbəsi idi. Müharibənin ilk günündən Azərbaycana birbaşa dəstək verən dövlətlər Türkiyə və Pakistanla yanaşı, Ukrayna, İsrail də Azərbaycan yönlu mövqeyini bəyan etmişdilər [4]. Ermənistanın KTMT-na (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) üzv olmasına baxmayaraq, Rusiya Federasiyasının hakim dairələri və prezident V.Putin

Qarabağ və ətraf rayonların Azərbaycan Respublikasının suveren torpaqları olduğunu bəyan etdilər. Həmçinin Putin: "*Ermənistan KTMT çərçivəsində müttəfiqdir amma Dağlıq Qarabağ Ermənistana aid deyil, odur ki, Qarabağ ərazisindəki hərbi əməliyyatlarla bağlı Rusiya vasitəçilikdən savayı, hər hansı öhdəlik daşımır" deyə öz çıxışında bildirmişdi* [9]. Lakin buna baxmayaraq, müharibə gedişində Rusiyanın Ermənistana silah və humanitar yardımları Azərbaycan tərəfinə məlumdur. Rusiya tərəfinin müharibə sonlandıqdan sonrakı açıqlamasında bu yardımların dövlət tərəfindən deyil özəl şirkətlər tərəfindən edildiyi vurğulanmışdır. Müharibənin ilk günlərindən Türkiyənin siyasi hakimiyyəti, həmçinin qardaş türk xalqı Azərbaycana dəstəyini qəti şəkildə göstərmişdir. Türkiyə prezidenti R.T.Ərdoğan sentyabrın 27-dəki çıxışında "Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır," deyə mövqeyini bəyan etmişdir [5]. Eyni zamanda Türkiyə Müdafiə Naziri H.Akar, Xarici İşlər Naziri M.Çavuşoğlu müharibə gedişində dəfələrlə Azərbaycana səfər etmiş və öz çıxışlarında Azərbaycana dəstəyini bildirmişdilər. Bundan başqa, Böyük Britaniya, İtaliya, Gürcüstan, Əfqanıstan, Bosniya və Herseqovina kimi dövlətlər Azərbayanın ərazi bütövlüyünü dəstəklədiklərinin bəyan etmişdilər. Müharibənin ilk vaxtlarında öz narahatlığını bildirən Fransa hər iki tərəfi atəşkəs elan etməyə və əməliyyatları dayandırmağa çağırmışdır. Lakin müharibə gedişində Fransanın münaqişəyə münasibətində erməni diasporunun təsiri aydın görünür. Fransa prezidenti Emmanuel Makron 2020-ci il sentyabrın 30-da Latviyaya səfəri çərçivəsində baş tutan mətbuat konfransı zamanı çıxış edərək Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı son hadisələrə toxunaraq Azərbaycan tərəfini sərt şəkildə tənqid etmişdir [6]. Azərbaycan prezidenti İlham Əliyev çıxışlarında ATƏT-nin MİNSK Qrupu həmsədr dövlətlərindən olan Fransanın münaqişədə açıq-aşkar Ermənistan tərəfinin müdafiə etməsinə öz etirazını bildirmişdir. Müharibədən sonra erməni diasporunun fəaliyyəti nəticəsində bir sıra ölkələr Azərbaycan əlehinə parlament qərarları qəbul etmişdir. Üçtərəfli bəyanatın imzalanmasından sonra ABŞ Nümayəndələr Palatasında erməni qrupunun dörd üzvü – Frank Pallon, Qus Bilirakis, Ceki Speyer və Adam Şif – Türkiyənin Yaxın Şərq və Cənubi Qafqazdakı aktiv siyasətinə reaksiya verməsi üçün ABŞ hökumətinə müraciət etdilər. Bir neçə gün sonra qrup nümayəndələri Donald Tramp Administrasiyasını ATƏT -in Minsk qrupunun bölgədəki fəaliyyətini yenidən bərpa etməyə çağırdılar [1,]. Ermənilərin müraciətləri nəticəsində Hollandiya Parlamentinin Nümayəndələr Palatası (Tweede Kamer) Türkiyə və Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsini tələb edən üç təklif, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatı ilə bağlı isə iki təklif qəbul etdi. Həmçinin, Fransa Senatı və Milli Assambleyası, ermənilərin Azərbaycanın Qarabağ bölgəsində qurduğu rejimi müvafiq olaraq 1 səs əleyhinə olmaqla 305 səs çoxluğu ilə və 3 səs əleyhinə olmaqla 188 səs çoxluğu ilə tanıyır və Azərbaycan və Türkiyənin "təcavüzkar siyasətini" tənqid edirdi [7]. Eyni zamanda, Belçika Parlamenti və ABŞ-ın bir neçə ştatı, Cənubi Avstraliyanın Qanunverici Şurası Azərbaycan əlehinə qərarlar qəbul etmişdilər. İran

İslam Respublikasının müharibə gedişindəki mövqeyinə gəldikdə isə İran Xarici İşlər Nazirinin sözcüsü Səid Xətibzadə İranın hərbi toqquşmaları diqqətlə izlədiyini, tərəflər arasında atəşkəs elan olunmasında vasitəçiliyə hazır olduqlarını bildirmişdi [8]. Müharibə gedişində İran ərazisindən Ermənistan ərazisinə hərbi yüklərin daşınması ilə bağlı xəbərlər yayılmış, lakin İran rəsmiləri bu xəbərləri təkzib etmişdilər. Serbiyanın müharibədən əvvəl və müharibə dövründə Ermənistana silah satması Azərbaycan tərəfinin etirazına səbəb olmuşdu. Yunanıstanın isə Türkiyə ilə olan tarixi düşmənçiliyi müharibə dövründə Ermənistanın mövqeyini dəstəkləməsinə səbəb oldu. II Qarabağ müharibəsi gedişində Ermənistan hökümətinin, həmçinin erməni diasporun və kilsəsinin bütün səylərinə baxmayaraq, Azərbaycan 30 ilə yaxın davam edən iki dövlət arasındakı münaqişəyə son qoyaraq tarixi ədaləti bərpa etmişdir.

**Açar sözlər:** "Zəfər tarixi", Azərbaycan diasporu, Ermənistan diasporu, Azərbaycan-Türkiyə qardaşlığı.

## Ədəbiyyat

1. 44 günlük Qarabağ müharibəsi, Mülahizə və nəticələr, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. Bakı, 2021, 33 səh.
2. Şahinoğlu E. Dəmir Yumruq. Bakı, Qanun nəşriyyatı, 2021, 280 səh.
3. Zeynaloğlu C. Vətən müharibəsi və Vətəni yaşadanlar. Baki, 2021, 460 səh.
4. "İkinci Qarabağ müharibəsi və Azərbaycan-Türkiyə münasibətləti".
5. http://www.geostrategiya.az/news.php?id=130 İstifadə olunma tarixi: 14.03.2022
6. Ərdoğan: Türk milləti bütün imkanları ilə Azərbaycanın yanındadır. https://ordu.az/az/news/172169 İstifadə olunma tarixi: 14.03.2022
7. "Emmanuel Makronun ermənilərə dəstəyinin arxasında diasporun rolu". https://aircenter.az/uploads/files/roza%20tehlil.pdf İstifadə olunma tarixi:14.03.2022
8. "Fransa Milli Məclisi Artsaxı tanıyır", Asbarez, 3 dekabr 2021, https://asbarez.com/frances-national-assembly-recognizes-artsakh/ İstifadə olunma tarixi: 14.03.2022
9. İran cəbhədəki vəziyyətə münasibət bildirib. https://web.archive.org/web/20201004151800/https://ordu.az/az/news/172188/iran-cebhedeki-veziyyete-munasibet-bildirib İstifadə olunma tarixi: 14.03.2022
10. Beynəlxalq reaksiyalar. https://azerbaijan.az/related-information/307 İstifadə olunma tarixi: 14.03.2022.

# MÜƏSSİSƏNİN İNFORMASİYA İNFRASTRUKTURUNUN TƏRKİBİNDƏ İNFORMASİYANIN QORUNMASININ TƏŞKİLİ

**Nərmin Müzəfərli**
Azərbaycan Universiteti
nerminmuzaffarli@gmail.com

Sistemli qeyri-sabitlik şəraitində milli iqtisadiyyatların istifadə etdiyi informasiya texnologiyalarının təhlükəsizlik dərəcəsindən asılılığı artır, sənaye müəssisələrinin biznes sistemlərinə xarici və daxili məqsədyönlü hücumlarının artması ilə bağlı informasiya təhlükəsizliyi riskləri yaranır. Nəticədə sənaye müəssisələrinin əsas biznes proseslərinə aşağıdakılar mənfi təsir göstərir: Sistem ve servislərin dayandırılması və ya kəsilməsi; məlumatların zədələnməsi, itirilməsi və ya komprometasiyası; kibercinayətkarların qanunsuz hərəkətləri nəticəsində birbaşa maliyyə itkiləri [1].

Müəssisənin informasiya infrastrukturu informasiyanın təhlükəsiz emalını və sənaye müəssisəsi daxilində biznes proseslərinin informasiya təminatını, habelə biznesin davamlılığı məqsədinə uyğun gələn informasiya ehtiyatlarının xarici mühitlə mübadiləsini təmin etməlidir.

İnformasiya infrastrukturu dedikdə, bir tərəfdən həll olunan konkret tapşırıqdan asılı olmayan, digər tərəfdən isə asanlıqla bir-birinə uyğun gələn və mövcud inteqrasiya vasitələrinə malik olan tipik texnoloji elementlərin, alətlərin və texnikaların məcmusunun alt sistemləri başa düşülür. Sənaye müəssisəsinin informasiya infrastrukturu informasiya sisteminə daxil olan bütün funksional modulların və tətbiqi altsistemlərin etibarlı işləməsini və qarşılıqlı əlaqəsini təmin etməyə, sistemin idarə edilməsi, onun saxlanması və inkişafı üçün zəruri alətlər kompleksini təmin etməyə imkan verir.

Sənaye müəssisəsinin informasiya infrastrukturu çərçivəsində müəssisənin biznes proseslərinin fasiləsiz təminatı üçün dəqiq işləyən infrastruktur yaratmaq lazımdır. İnformasiya risklərinin idarə edilməsi sənaye müəssisəsinin informasiya təhlükəsizliyinin yaradılması, həyata keçirilməsi, istismarı, monitorinqi, təhlili, dəstəklənməsi və təkmilləşdirilməsinə proses yönümlü yanaşmaya əsaslanan ümumi idarəetmə sisteminin bir hissəsidir.

İnformasiya təhlükəsizliyinin idarə edilməsi sisteminin tətbiqi informasiya təhlükəsizliyi risklərinin, məlumat aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının pozulması ilə nəticələnən risklərin sistematik şəkildə müəyyən edilməsinə, təhlilinə və azaldılmasına yönəlib.
İnformasiya ehtiyatlarının mühafizəsi, ilk növbədə, müxtəlif növ təhlükələrə qarşı yönəldilir. İnformasiya resursları üçün aşağıdakılar təhlükəlidir [4]:

– məxfi məlumatların həm xaricdən, həm də struktur daxilindən icazəsiz əldə edilməsi, onların şəxsi maraqlar üçün istifadəsi və açıqlanması;

– ötürülmə prosesində məlumatın oğurlaanması, dəyişdirilməsi və təhrif edilməsi;

– icazəsiz giriş zamanı məlumatların məqsədyönlü şəkildə təhrif edilməsi, saxtalaşdırılması və ya dəyişdirilməsi;

– iş prosesinə informasiya müdaxiləsi. İnformasiya təhlükəsizliyi idarəetmə sistemində sənaye müəssisəsi kifayət qədər tədqiq edilməmiş və ayrıca nəzərdən keçirilməsini tələb edən risk idarəetmə sistemidir.

İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsi prosesi aşağıdakı addımları əhatə edir: aşağıdakı prosedurların planlaşdırılması, həyata keçirilməsi, yoxlanılması, təkmilləşdirilməsi və icrası:

– mühafizə obyektlərinin seçimi;

– risklərin qiymətləndirilməsi metodologiyasının seçilməsi;

– aktivlərin identifikasiyası;

– təhdidlərin və onların nəticələrinin təhlili;

– riskin emalı;

– qoruyucu tədbirlərin seçilməsi;

– qalıq risklərin qiymətləndirilməsi və yenidən qiymətlədirilməsi

İnformasiya təhlükəsizliyi risklərinin qiymətləndirmə kriteriyası meyarları informasiya aktivlərinin strateji dəyərini, məlumatın məxfilik, bütövlük və əlçatanlıq baxımından təhlükəsizliyini nəzərə almalıdır. Planlaşdırma mərhələsində kontekstin yaradılması informasiya təhlükəsizliyi riskinin idarə edilməsi məqsədinin formalaşdırılmasından, riskin qəbulu meyarlarının işlənib hazırlanmasından və məqbul risk səviyyələrinin müəyyən edilməsindən ibarətdir. Riskin qəbul edilməsi, mövcud risk səviyyəsinin məqbulluğu barədə qərar kimi başa düşülür, yəni sənaye müəssisəsi mümkün mənfi nəticələrin ehtimalını qəbul edir.

Bunu edərkən aşağıdakılar nəzərə alınmalıdır:

– riskin qəbulu meyarlarına müəyyən şərtlər altında yuxarı rəhbərliyin bu səviyyədən yuxarı olan riskləri qəbul etməsi şərti ilə arzulanan hədəf risk səviyyəsinin göstərildiyi bir sıra həddlər daxil ola bilər;
– riskin qəbulu meyarları kəmiyyətləşdirilmiş mənfəət (və ya digər biznes faydası) və kəmiyyətləşdirilmiş risk nisbəti kimi ifadə edilə bilər;
– fərqli risk siniflərinə fərqli risk qəbulu meyarları tətbiq oluna bilər. Məsələn, qanuni tələblə bağlı risklər qəbul edilə bilməz, eyni zamanda, müqavilə öhdəlikləri ilə müəyyən olunarsa, yüksək səviyyəli risklər qəbul edilə bilər;
– riskin qəbulu meyarlarına əlavə risk emalı üçün tələblər daxil ola bilər. Məsələn, müəyyən müddət ərzində risk səviyyəsinin azaldılması üçün tədbirlərin görülməsinə dair öhdəliklər götürülərsə, risk qəbul edilə bilər ;
– riskin qəbulu meyarları riskin mövcudluğunun nə qədər müddətə gözlənilməsindən asılı olaraq da fərqlənə bilər, məsələn, o, qısamüddətli və ya uzunmüddətli fəaliyyətlə bağlıdır;
– riskin qəbulu meyarları biznes meyarları, qanunvericiliyin xüsusiyyətləri, əməliyyatlar, texnologiya, maliyyə, sosial və humanitar amillər nəzərə alınmaqla müəyyən edilir.

Risk təhlili– risk mənbələrini müəyyən etmək və onun miqyasını təyin etmək üçün məlumatdan sistematik istifadədir. Risk təhlili aşağıdakı prosedurlardan ibarətdir:

– risklərin müəyyənləşdirilməsi, o cümlədən aktivlərin, bu aktivlərə olan təhdidlərin, təhdidlər tərəfindən istifadə edilə bilən aktiv zəifliklərinin, mövcud nəzarət tədbirlərinin və informasiya

təhlükəsizliyi təhdidlərinin həyata keçirilməsi nəticəsində aktivlərə təsirin mümkün nəticələrinin müəyyən edilməsi;

- risklərin miqyasının (səviyyəsinin) müəyyən edilməsi
- riskin ehtimalı və nəticələrinə dəyərlər təyin etməyi nəzərdə tutur.

Bu mərhələdə aşağıdakılar qiymətləndirilir:

- İT təhdidlərinin həyata keçirilməsi nəticəsində müəssisənin əsas fəaliyyətinə dəyən zərər (mənfi nəticələr);
- aktivlərin mövcud zəiflikləri və tətbiq edilən informasiyanın mühafizəsi tədbirləri nəzərə alınmaqla təhdidlərin həyata keçirilməsi ehtimalı;
- risk səviyyələri.

İnformasiya resurslarına aşağıdakılar təhlükə yarada bilər:

- məlumatın ötürülməsi sistemlərinin zərərli və ya ehtiyatsız hərəkətləri nəticəsində, məsələn, faydasız məlumatlarla həddən artıq yüklənməsi (“spam”) nəticəsində yararsız vəziyyətə gətirilməsi;
- məxfi məlumatların həm xaricdən, həm də struktur daxilindən icazəsiz əldə edilməsi,onların şəxsi maraqlar üçün istifadəsi və açıqlanması;
- icazəsiz giriş zamanı məlumatların məqsədyönlü şəkildə təhrif edilməsi, saxtalaşdırılması və ya dəyişdirilməsi;
- sərbəst istifadə üçün verilən məlumatların mübadiləsi və təhrif edilməsi.

Sənaye müəssisələrinin idarəetmə sisteminin sabitliyini qorumaq sənaye müəssisələrinin iş proseslərinin təhlükəsizliyini qiymətləndirmədən mümkün deyil.

Sənaye müəssisəsinin informasiya təhlükəsizliyi infrastrukturunun optimallaşdırılması vəzifəsi riyazi modellər toplusu kimi rəsmiləşdirilə bilər, o cümlədən:

- informasiya təhlükəsizliyi infrastrukturunun optimallaşdırılması üçün xərclərin minimuma endirilməsi modeli;
- informasiya təhlükəsizliyi infrastrukturunun keyfiyyət səviyyəsinin maksimuma çatdırılması modeli [3].

Bu modelləri birlikdə istifadə etmək məqsədəuygundur. Beləliklə, icazə verilən mühafizə xərclərinə məhdudiyyət qoyulmaqla, informasiyanın mühafizəsi infrastrukturunun keyfiyyətinin maksimum dəyərini tapmaq olar. Bəzi hallarda bu tapşırığın bir deyil, bir neçə həll yolu (mühafizə profilləri) ola bilər. Həll yolu seçmək üçün tapılmış optimal həllər arasından minimum mühafizə xərcləri tələb edən ikinci tapşırıq həll edilməlidir. Məhdudiyyət kimi o, birinci tapşırıqda tapılan informasiya təhlükəsizliyi infrastrukturunun keyfiyyətinin dəyərini ehtiva etməlidir.

**Açar sözlər:** informasiya, informasiya təhlükəsizliyi, informasiyanın qorunması.

## Ədəbiyyat

1. Стельмашонок Е.В., Еникеева Л.А. Управление информационными рисками как основа устойчивого развития компании. Научно-технические ведомости СПбГТУ, №1, 2006, с. 146-149.

2. Стельмашонок Е.В., Тарзанов В.В., Стельмашонок В.Л. Моделирование коррелированных угроз информационной безопасности предприятия. Вестник ИНЖЭКОНа, вып. №5(48) серия «Экономика», СПб.: СПбГИЭУ, 2011, с.175-181.
3. Безопасность современных информационных технологий: Монография / Е.В. Стельмашонок [и др.]; под общей редакцией Е.В. Стельмашонок. СПб.: СПбГИЭУ, 2012. 408 с.

## TURİZM SEKTORUNDA VERGİ ÖDƏNİŞLƏRİNİN VƏZİYYƏTİ

**Mələk Nadirli**
Azərbaycan Universiteti
nadirlimalak@gmail.com

COVİD-19 pandemiyası bütün sektorlar kimi turizm sektoruna da ciddi təsir edib. Azərbaycan COVİD-19 pandemiyasının yaratdığı böhranı ağır şəkildə yaşayır. Araşdırmaların nəticələri göstərir ki, dövlət dəstəyi olmadan Azərbaycan turizm sektorunun böhrandan çıxması asan olmayacaq.

Turizm bütün iqtisadiyyatların ən vacib sektorlarından biri sayılır. O, iş yerləri və gəlir yaradır, beynəlxalq ticarətə təsir edir, fəlakətlərin aradan qaldırılmasına və bərpasına kömək edir və dünya ölkələrində iqtisadi inkişafa töhfə verir. Müsbət iqtisadi mühit daxili xərclərə və ümumi daxili məhsulun artımına böyük töhfə verən birdəfəlik gəliri olan turistləri cəlb edir. Buna görə də turizm iqtisadiyyatlarının inkişafı və davamlı olması böyük əhəmiyyət kəsb edir. Turizm ölkədə iqtisadi artıma töhfə verdiyindən, dövlət xidmətlərini maliyyələşdirmək üçün vergilərə ehtiyac da yaradır [1]. İnkişaf etmiş bazar iqtisadiyyatına malik bir çox ölkələrdə vergilər maliyyə funksiyalarını yerinə yetirməklə yanaşı, dövlətin sosial və iqtisadi siyasətinin getdikcə daha da aktiv bir alətinə çevrilmişdir. Qiymətlərə, pul dövriyyəsinə, yığım fondlarının formalaşmasına, mənfəətin bölgüsünə, investisiya siyasətinin həyata keçirilməsinə və əhalinin sosial vəziyyətinə əhəmiyyətli təsir göstərir [3]

Azərbaycanda turizm sahəsinin inkişafında vergitutma əsas rol oynamaqdadır. Turizm sahələrində qoyulan vergilər və yığımların çeşidi ölkədə turizmin inkişafına böyük təsirlər göstərir. Turizm kurortlarına qoyulan vergi və ödənişlərə daxildir: idxal rüsumu, ƏDV, aksiz rüsumları, korporativ gəlir vergisi və fərdi gəlir vergisi. Pandemiya ilə mübarizə zamanı inkişafın vergi daxilolmalarına təsirlərini əvvəlki ilə nisbətən aylıq dəyişikliklərə əsasən müşahidə edə bilərik. Bu zaman 2020-ci ilin mart ayı ilə, 2021-ci ilin fevral aylarındakı dövr, ümumi vergi daxilolmaları, hüquqi şəxslər üçün vergilər, gəlir vergisi, əlavə dəyər vergisi, o cümlədən xüsusi istehlak vergisi üzrə dəyişikliklər baxımından qiymətləndirmişdir.

2014-2020-ci illər üzrə Azərbaycanın turizm sahəsi üzrə statistik göstəricilərə baxdıqda görə bilərik ki, ölkədə bu illər ərzində ən yüksək göstərici 2019-cu ildə olmuşdur. Ölkəyə səyahətlərin artmaqda olduğunu və pandemiyadan sonra bu göstərici 82% azalmışdır. Ən yüksək göstərici 2,863 milyon nəfər olmuşdur ki, həmin bu göstərici 2019-cu il üzrə qeydə alınıb [2]. Ölkəmizə ən çox

Rusiya və Gürcüstandan gəlmiş turistlər olmuşdur. Bu göstəricilər turizm firmalarına təsir etmişdir ki, onların da gəlirləri xeyli dərəcədə azalmışdır. Bu da öz növbəsində bu sahəyə marağın daha da azalmasına səbəb olmuşdur.

Azərbaycanda COVİD-19 pandemiyasının mənfi nəticələri qiymətləndirildikdə 2006-cı ildə Azərbaycanda yaşayış müəssisələrinin fəaliyyətindən əldə olunan gəlir 74,3 milyon manat olduğu halda, 2019-cu ildə bu rəqəm təxminən 7 dəfə artaraq 450 milyon manata çatmışdır. Mehmanxana təsərrüfatlarının büdcəyə ödədiyi ƏDV və digər vergilər ildən-ilə artmış, 2006-cı ildə dövlətə ödənilən 9,4 milyon manatın məbləği 2019-cu ildə 42,2 milyon manata çatmışdır. Bununla belə, turizm sahəsində mühüm inkişaflar COVİD-19 pandemiyası ilə geri çevrildi. 2019-cu ilin yanvar-iyun aylarında 841 min nəfər olan yerli turistlərin sayı 2020-ci ilin eyni dövründə 297 min nəfərə, turizm gəlirləri isə 2,7 dəfə azalaraq 532,8 milyon manat səviyyəsində qalıb.

Azərbaycanın turizm sektorunda bütün bu neqativ mənzərəni aradan qaldırmaq və pandemiyanın mənfi təsirlərini aradan qaldırmaq üçün həm sahibkarların, həm vətəndaşların, həm də dövlətin üzərinə mühüm vəzifələr düşür. Pandemiyanın yaratdığı gəlir itkilərinin azaldılması üçün dövlət tərəfindən veriləcək dəstəyin vergilərin azaldılması, vergi ödənişlərinin təxirə salınması, kompensasiya dəstək paketlərinin izahı şəklində olduğunu söyləmək olar. Lakin davam edən Azərbaycan-Ermənistan müharibəsinin əlavə xərci səbəbindən sözügedən dəstəyin asan olmayacağı göz qabağındadır. Pandemiya ilə əlaqədar turizm gəlirlərinin və müharibə səbəbindən ölkəyə gələn turistlərin sayının azalması sektorun problemlərinin dərinləşməsinə səbəb olduğu anlaşılır.

**Açar sözlər**: turizm, vergi dərəcələri, bazar iqtisadiyyatı, biznes, güzəştlər.

**Ədəbiyyat**

1. Abadov M.K. (2014), Azərbaycan turizmi və onun inkişaf problemləri, Bakı, 248 səh.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/tourism/
3. Baxşəliyev R. (2020), Qlobal böhran dünya turizmini də çökdürüb, Azərbaycan, səh.1-5.

## ETNİK MÜXTƏLİFLİK ÇOXMƏDƏNİYYƏTLİLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

**Afiq Nadirov**
Azərbaycan Universiteti
afig.nadirov@au.edu.az

“Müxtəliflik” müəyyən bir yerdə mövcud olan fərqli elementlərin çoxluğunu ifadə edən termindir. Multikulturalimdə müxtəliflik deyəndə etnik, mədəni, irqi və dini müxtəliflik məhfumları nəzərdə tutulur. Belə ki, etnik müxtəliflik məhfumu müxtəlif etnik qrupların birgə yaşadığı cəmiyyəti xarakterizə edir.

Etnik birlik və ya etnos - öz ərazisinə, adına, dilinə, mədəniyyətinə, özünüdərkə mənsub olan tayfa, xalq və millət kimi insan birlikləridir [5, s.229].

Söhbət etnik müxtəliflikdən gedirsə, mütləq mənada hər hansısa bir coğrafi məkan əsas götürülməklə orada yaşayan müxtəlif xalqların, millətlərin həyat tərzi və ictimai-siyasi həyatda oynadıqları rol haqqında danışılmalıdır.

Müasir dünya sistemində mövcud olan dövlətlər arasında monoetnik – yəni təkmillətli dövlət tapmaq. Buna görə də, etnik müxtəliflik hər bir cəmiyyətdə həssas və nəzər yetirilməsi vacib və aktual məsələlərdən biridir.

Dünyada təxminən 4-5 min etnos, milli azlıq vardır. Azərbaycan ərazisində 30 adda müxtəlif millət və etnik qruplar mövcuddur [3].

Çoxmədəniyyətliliyin əsaslarından biri olan etnik müxtəliflik mövzusunun obyekti yuxarıda qeyd edildiyi kimi, etnik qrup və birliklər, xalqlar, millətlərdir. Predmeti isə bu birliklərin tarixinin öyrənilməsi, həyat tərzinin öyrənilməsi, ictimai-siyasi və iqtisadi həyatda iştirakları, inteqrasiyalarının təşkili, belə cəmiyyətlərin mədəni etnik hərəkətinin düzgün proqnozlaşdırılması və ümumilikdə həyat hadisələrinin öyrənilməsidir.

Multikulturalizm ideyalarının təbliğində və tədrisində məqsəd təhsilalanları tolerantlıq və multikulturalizm ideyaları ruhunda tərbiyə etməkdirsə, etnik müxtəliflik mövzusu da bir o qədər həssas mövzudur. Bu baxımdan etnik müxtəliflik mövzusu düzgün öyrənilməli, təhsilalanlara da doğru şəkildə öyrədilməlidir. Belə olduğu təqdirdə təhsilalanlarda *"multikultural immunitet"* yaranacaq və cəmiyyətdə etnik, irqi, dini və ya mədəni zəmində bir problem yarandıqda *"multikultural immunitet"li* təhsilalanlar bu problemin həllində müsbət mənada iştirak edəcək, problemin həllinə yönəlik addımlar atacaqdır. Multikulturalizm sosial hadisə olduğu üçün sosial məkanda – cəmiyyətdə vətəndaşlar və xüsusən də təhsilalanlar arasında mədəni təbliğat böyük əhəmiyyət daşıyır. Məlum olduğu kimi Azərbaycan etnik baxımdan zəngin bir ölkədir. Etnik birlik formaları tarixin qədim dövlərindən burada cəmiyyətin ictimai-siyasi həyatında müsbət iştirak etmiş, "azərbaycan xalqı"nın formalaşmasına təkan vermişlər.

Yuxarıda qeyd etdiyimiz kimi, etnik müxtəliflikdən danışdıqda konkret bir məkan – coğrafiya üzərindən bu məsələyə yanaşmalı və konkret sərhədlər daxilində bu müxtəlifliyə nəzər yetirməliyik. Bunu hər bir dövlət üzərində müşahidə edə və tədqiqat apara bilərik. Biz isə Azərbaycanda multikulturalizm ideyalarının təbliği və tədrisindən danışırıqsa təbii ki etnik müxtəliflik mövzusunu məhz Azərbaycan Respublikası sərhədləri daxilində mövcud olan etnik birliklərdən bəhs edərək izah etməliyik.

Müstəqil Azərbaycan Respublikasının etnik tərkibinin təxminən 90%-ni azərbaycanlılar, digər 10%-ni isə bu etnosun formalaşmasında tarix boyu iştirak etmiş və hal-hazırda bizimlə birgə yaşayan azsaylı xalqlar, etnik və milli qruplardır. Azərbaycan ərazisində 30 adda müxtəlif millət və etnik qruplar mövcuddur. Azərbaycanda mövcud olan müxtəlifliyi belə xarakterizə etmək olar:

1. Altay ailəsinin türk qoluna məxsus;
   *azərbaycanlılar, tatarlar, ahısqa türkləri*
2. Hind-avropa;
   *tatlar, talışlar, dağ yəhudiləri, kürdlər*
3. Qafqaz;
   *udilər, ləzgilər, avarlar, saxurlar, buduqlular, ingiloylar, qrızlar, xınalıqlar*

4. Slavyan dil qruplarının təmsilçiləri vardır.
*ruslar, malakanlar, ukraynalılar*

Etnik müxtəlifliyin say tərkibinə baxsaq, Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu ildə aprel ayının 13-dən 22-dək Azərbaycanda əhali milli tərkibinə görə siyahıyaalınmasına nəzər yetirmək lazımdır. Bu siyahıyaalınmaya əsasən Azərbaycanda etnik müxtəlifliyin say göstəriciləri statistikası aşağıdakı kimidir: (Həmin tarixə əsasən əhalinin ümumi say tərkibi 8 milyon 922 min 400 nəfər civarında olub) [3, s.58].

1. Azərbaycanlı (yerli türk əhali) – 8 milyon
2. Ləzgilər – 180 min
3. Ermənilər – 120 min
4. Ruslar – 119 min
5. Talışlar – 112 min
6. Avarlar – 50 min
7. Tatarlar – 26 min
8. Tatlar – 25 min
9. Ukraynalılar – 21 min
10. Saxurlar – 12 min
11. Gürcülər – 10 min
12. Yəhudilər – 9 min
13. Kürdlər – 6 min
14. Qırızlar – 4 min
15. Udinlər – 4 min
16. Xınalıqlılar – 2 min
17. Digər millətlər – 9 min

Etnik müxtəliflikdən danışarkən bəzi tədqiqatçılar bu mövzunu gözardı edərək cəmiyyətdə etnik ayrıseçkiliyə qənətinə gəlir. Məsələyə elmi nöqteyi-nəzərdən yanaşsaq səbəb kimi Böyük Britaniyanın 75-ci baş naziri D. Kemeronun multikulturalizmin Avropada iflasa uğradığı ifadəsini əsas götürən bu tədqiqatçılar etnik müxtəlifliyin cəmiyyətdə ayrıseçkilik yaratdığını və milli identiklik ideyasının formalaşmasına mane olduğunu əsas gətirirlər. Azərbaycanda bu məsələ haqqında müzakirə aparmağa belə ehtiyac yoxdur. Çünki Azərbaycanda etnik müxtəlifliyin çox dərin tarixi kökləri var. Azərbaycan tarixinin bütün dövlərini göz önünə gətirsək etnik müxtəliflik zəminində milli azlıqlar arasında heç bir qarşıdurma və ya xaos yaşanmamışdır. Ən qədim dövlərdən bu günə qədər tariximizin heç bir səhifəsində belə bir problem olmamışdır. Bu da etnik müxtəlifliyin əsasını təşkil edən milli azlıqların və titul xalqın bir-birinə münasibətdə hermetik şəkildə təcrid olunmasına baxmayaraq daim qəlib içərisində - azərbaycan xalqı adı altında bir mədəni ocaq ətrafında birləşmişlər, yadellilərə qarşı bir mübarizə aparmışlar, milli müstəqilliyin əldə edilməsi, bərpası üçün daim can atmışlar və vahid milli identiklik yaratmışlar. Bu baxımdan Azərbaycanda etnik müxtəliflikdən danışarkən təhsilalanlara bu istiqamətdə multikulturalizm ideyalarından danışılmalıdır. Bütün bunlardan sonra Azərbaycanda etnik zəmində baş verən qarşıdurmalara bir örnək kimi 1918-ci il mart soyqırımları, mənfur ermənilərin dinc yerli türk-müsəlman əhalisinə qarşı

törətdiyi soyqırımı hadisələrini göstərmək olar. Azərbaycan tarixində etnik münaqişənin bundan başqa örnəyi yoxdur. Bu örnək də Azərbaycan xalqının deyil, mənfur ermənilərin millətimizə qarşı aqressiyasından irəli gəlmişdir və təxminən bir əsr davam etmişdir. 1990-cı illərdə yenidən Qarabağda etnik zəmində təmizləmələrə başlanmış və işğal altına alınmışdır. Bu işğal prosesi 30 ilə yaxın davam etmiş və sonda Cənab Ali Baş Komandan İlham Əliyevin başçılığı altında müzəffər ordumuzun səyi ilə işğaldan azad edilmişdir.

Sonda bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, Azərbaycan xalqının əsasını təşkil edən etnik birlik və qruplar, milli azlıqlar daim "azərbaycançılıq" ideyası altında birləşmiş və vahidlik – milli identiklik yarada bilmişdir. Bu baxımdan çoxmədəniyyətliliyin əsaslarından biri olan etnik müxtəliflik müstəqillik illərində aktual mövzudur.

**Açar sözlər:** multikulturalizm, çoxmədəniyyətlilik, etnik müxtəliflik.

## Ədəbiyyat

1. Azərbaycan multikulturalizmi (Ali məktəblər üçün dərslik). Bakı, 2017.
2. Azərbaycanda multikulturalizm (Biblioqrafiya). Bakı, 2016.
3. Azərbaycanın demoqrafik göstəriciləri (statistik məcmuə). Dövlət Statistika Komitəsi (rəsmi nəşr). Bakı, 2021.
4. Multikulturalizmə giriş (Dərs vəsaiti). Bakı, Mütərcim, 2018.
5. Multikulturalizmə giriş (Ali məktəblər üçün dərslik). Bakı, 2019.
6. Multikulturalizmin əsasları (dərs vəsaiti). Bakı, 2016.
7. Məmmədli N. Multikulturalizm. Panaseya yoxsa alternativ. Bakı, 2016.

# ИНФОРМАЦИОННО-УБЕЖДАЮЩАЯ ФУНКЦИЯ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ

**Сабина Нуралиева**
Азербайджанский Университет Языков
sabina.bagiyeva.sb@gmail.com

В политическом дискурсе информативно-убеждающая функция текстовой коммуникации реализуется через информацию, аргументацию и оценку [3]. Термин убеждающий относится к убеждению, передаче взглядов, независимо от того, делают ли политики это явно и/или неявно. Зоран Томич выделяет вербальный акт убеждения общественности и/или политиков (диссидентов) как одну из основных коммуникативных интенций в политическом дискурсе [6, с.109]. Йозеф Коппершмидт утверждает, что убеждение относится к более или менее убедительному обоснованию, рассуждениям и поддержке аргументов, которые передают взгляды эмитентов [5, с.97]. Хайко Грюнерт считает, что фундаментальной характеристикой информационно-убеждающей функции

является явное и/или неявное воздействие на сознание граждан [4, с. 36]. Политики объясняют, поощряют и мотивируют, анализируют ситуацию в обществе и отдельные решения и действия, критикуют и оправдывают те или иные политические действия. Модель синергетического убеждения подходит к политической коммуникации и дискурсу через когнитивную перспективу или возможность (не)сознательного влияния через синергию политических метафор, аргументации и невербальной коммуникации.

Выделяются следующие модули интенции реализации информационно-убеждающей функции: информирование с целью привлечения внимания к своей позиции; информирование с целью получения поддержки своей деятельности; положительная оценка *нас*; подчеркивание преимуществ личности/партии/политического решения и т.д.; негативная оценка *их*; критика лица/партии/политического решения и т.п.; подчеркивание вовлеченности в тему высказывания/свою силу; подчеркивание отдаленности от темы высказывания; подчеркивание общности/совместной вовлеченности в тему высказывания; подчеркивание определенного ракурса и/или концепции высказывания (проблемы, решения, вины и т.п.) [2].

Перед нами встают вопросы о том, какие социальные ценности, имплицитно или эксплицитно выражаемые эмоции и представления, политик коммуницирует себя, партию или институт и, в конечном счете, государство. Эти вопросы непосредственно связаны со способами выражения силы и бессилия, то есть с присоединением этих понятий к частям топиков посредством выражения модальности. Субъективность или модальность часто используется в политическом дискурсе для того, чтобы запечатлеть определенное восприятие в общественном сознании. Это восприятие, как правило, прямо не выражается через текст. Примером может служить поддержка одного вида деятельности или одной политической партии в заявлении, которое (не)сознательно воспринимается как отказ в поддержке другой партии.

Чартерис-Блэк считает, что политические лидеры могут наиболее успешно привлекать и мотивировать избирателей с помощью риторических навыков [1, с. 1]. Политические решения и деятельность становятся легитимными после того, как политик сообщает их общественности. Поэтому основной интенцией его общения является информирование о решении или действии при достижении согласия, а значит, решение или действие должно быть аргументировано так, чтобы были удовлетворены все три компонента установки – эмоциональный, когнитивный и поведенческий. Тогда мы говорим об опытном ораторе. Политик, владеющий убедительно-аргументативными риторическими навыками, будет воздействовать на реципиентов, чтобы они услышали его сообщение, а затем почувствовали себя в соответствии с желаемым сообщением (эмоциональный компонент), поняли и приняли аргументацию (когнитивный компонент) и поддержали отношение, решение и/или активность (поведенческий компонент).

Информативно-убеждающая функция политического дискурса реализуется посредством информирования, аргументации, доказывания, апелляции к (национальным) чувствам, апелляции к ценностям, самооценки, а аргументация, концептуальная метафора и

невербальная коммуникация являются одними из эффективных когнитивно-коммуникативных механизмов.

**Ключевые слова**: политический дискурс, информация, убеждение, аргументация, интенция, политическая партия.

**Литература**

1. Charteris-Black J., (2005), Politicians and Rhetoric, Basingstoke: Palgrave Macmillan, 256 p.
2. Charteris-Black J., (2014), Analysing Political Speeches. Rhetoris, Discourse and Metaphor, Basingstoke: Palgrave Macmillan, 274 p.
3. Girnth H., (2002), Sprache und Sprachverwendung in der Politik. Eine Einführung in die linguistische Analyse öffentlich-politischer Kommunikation, Tübingen: Max Niemeyer Verlag, 127 p.
4. Grünert H., (1984), Deutsche Sprachgeschichte und politische Geschichte in ihrer Verflechtung. U W. Besch, Sprachgeschichte. Ein Handbuch zur Geschichte der deutschen Sprache und ihrer Erforschung. 1. Halbband, Berlin, New York: Walter de Gruyter.
5. Kopperschmidt J., (1986), Allgemeine Rhetorik: Einführung in die Theorie der Persuasiven Kommunikation. Stuttgart: Kohlhammer, 216 p.
6. Tomić Z., (2013), Teorije i modeli odnosa s javnošću. Zagreb: Synopsis, 222 p.

**Siyasi diskursda informativ-inandırıcı funksiya**

Məqalə siyasi diskursda informativ-inandırıcı funksiyanın həyata keçirilməsindən bəhs edir. Bu funksiya informasiya, arqumentasiya və qiymətləndirmə vasitələri ilə həyata keçirilir. İnformativ-inandırıcı funksiyanın əsas xüsusiyyəti vətəndaşların şüuruna açıq və/və ya gizli təsir göstərməkdir. Siyasətçilər cəmiyyətdəki vəziyyəti və ayrı-ayrı qərar və hərəkətləri təhlil edir, müəyyən siyasi hərəkətləri tənqid edirlər və əsaslandırırlar.

## MONETAR SİYASƏTİN İQTİSADİ İNKİŞAFDA ROLU

**Alim Nuri**
Azərbaycan Universiteti
a.nuri@amalgroup.az

Makroiqtisadi siyasət 2 yolla iqtisadiyyatda tətbiq olunur. Bunlardan biri monetar siyasət, digəri isə fiskal siyasət adlanır. Bu siyasətin hər ikisi iqtisadi sabitliyin qorunması üçündür.

Təbiidir ki, Mərkəzi Bankın tətbiq etdiyi siyasət yəni monetar siyasət dövriyyədə olan pulun həcminin idarə olunması vəə tənzimlənməsi üçündür. Monetar siyasətin tətbiqi 2 cür təsnifləşdirilir.

- Uçot faiz dərəcəsini müəyyən edilməsi vasitəsilə
- Pul təklifinə təsir edilməsi

Monetar siyasətin mahiyyətinə nəzər salsaq görərik ki, siyasət vasitələri 2 yolla birbaşa və dolayı monetar siyasət tətbiq edilməklə həyata keçirilir. Başqa adla desək, sərt pul siyasəti və yumşaq pul siyasəti birbaşa monetar siyasət vasitələrindən biri kredit maksimumu alətidir. Bankların verəcəyi kreditə qoyulan məhdudiyyətə (limitə) kredit maksimumu deyilir. Mərkəzi Bankın birbaşa monetar siyasət addımına misal olaraq deyə bilərik ki, banklar üçün müəyyən etdiyi limitdən keçməmək şərti ilə kredit verə bilərlər. Yəni konkret olaraq banklara müəyyən məbləğdə limit qoyulur və bu limiti keçmək, müəyyən edilmiş məbləğdən yuxarı kredit vermək qadağan olunur. Və yaxudda bankların yığdığı əmanətlərin müəyyən nisbəti və yaxud faizi qədəri kredit vermək üçün icazə verilir. Məsələn Mərkəzi Bank bankların yığdığı vəsaitin 65% qədərini kredit verməyə imkan verirsə, deməli, 65% kredit maksimumu sayılır.

Danışa biləcəyimiz digər vasitə Faiz nəzarətidirr. Mərkəzi Bank banklara əmanət və kredit üzərindən faiz dərəcəsi tətbiq edə bilər. Bu bir məhdudlaşdırıcı siyasət adlanır. Müxtəlif müddət ərzində faizlər tətbiq oluna bilər. Müasir zamanımızda ölkələr tərəfindən birbaşa monetar siyasətin tətbiq olunması bəyənilmir. Tətbiq forması olaraq daha çox dolayı monetar siyasət istifadə olunur.

Dolayı monetar siyasət vasitələrinə - məcburi ehtiyat norması, açıq bazar əməliyyatları, uçot faiz dərəcəsi şamil olunur.

Məcburi ehtiyat norması - Bankların cəlb etdiyi vəsaitlərin Mərkəzi Bankın qəbul etdiyi normalara uyğun olaraq bir hissəsini Mərkəzi Bankda saxladığı vəsaitdir. Bu mexanizm isə dediyimiz kimi məcburi ehtiyat, miqdarı müəyyənləşdirən nisbətə isə məcburi ehtiyyat norması deyilir. Əlavə olaraq deyə bilərik ki, əgər bank fəaliyyəti dayandırılarsa bankın tələbinə əsasən, məcburi ehtiyat norması saxlanılması dayandırılır.

Açıq bazar əməliyyatları - Bu əməliyyatlar dövriyyədəki pulun həcminə geniş səviyyədə təsir göstərir. Mərkəzi Bankın infliyasiyanı nəzarətdə saxlaması üçün istiqraz və bu kimi digər qiymətli kağızları kommersiya banklarına satması və yaxud onlardan satın alması monetar siyasətin istifadə olunan ən vacib vasitələrindən biridir. İstiqraz satmaqla bankların kredit vermə qabiliyyəti dolayı yolla azaldılır. Hətta müştərisi az olub amma pul vəsaiti həddən artıq yüksək olan banklara həmən pul vəsaitlərini istiqrazlar satmaq yolu ilə bankdan alır və kredit vermə qabiliyyəti yüksək olan digər banka verir. Beləliklə kredit vermə qabiliyyəti yüksəlir. Ümumiyyətlə banklardan istiqraz alınması yolu ilə bankların kredit vermə qabiliyyəti dolayı yolla yüksəldilir. Bir sözlə desək Mərkəzi bankın pul bazarına müdaxiləsi qisa müddətli olaraq dövlət istiqrazlarını bazara verilməsi və geri çəkilməsi yəni alınıb satılmasıdır.

Digər bir vasitə uçot faiz dərəcəsinin müəyyənləşdirilməsidir.Ölkəmizdə uçot faiz dərəcəsi 7.5%-dir. [3].

Uçot faiz dərəcəsini müəyyənləşdirmək vasitəsi ilə Mərkəzi Bank banklara dolayı yolla təsir edir. Uçot faiz dərəcəsi ölkənin iqtisadi vəziyyətinin və inflasiya səviyyəsinin hesablanması vasitəsilə təyin olunur. İnfliyasiya yüksək olduğu halda düz mütənasib olaraq uçot faiz dərəcəsi artırılır və yaxud əksinə olaraq əgər infliyası aşağı olarsa uçot faiz dərəcəsidə eyni ilə aşağı salınır. Çünki, uçot faiz dərəcəsi aşağı olduqda kredit daha əlçatan olur Banklar Mərkəzi Bankdan aşağı faizlə kredit götürdüyü üçün verdikləri kreditidə aşağı faizlə təklif edirlər buda kreditə olan tələbi artırır və əhalini stimullaşdırır. İnfliyasiya yuxarı olduqda isə Mərkəzi Bank uçot faiz dərəcəsini qaldırır buda

bankların Mərkəzi Bankdan kredit götürmə istəyini azaldır əlavə olaraq uçot faiz dərəcəsi artığı üçün bankların təklif etdiyi kredit faizləridə yüksəlir bu isə öz növbəsində kredit götürmək üçün müraciətlərin azalmasına gətirib çıxarır.

**Açar sözlər:** açıq bazar əməliyyatları,monetar siyasət, kredit maksimumu, uçot faiz dərəcəsi.

**Ədəbiyyat**

1. Bağırov M.M. Banklar və bank əməliyyatları.
2. Məmmədov Z.F. Bank işi və Elektron bankçılıq.
3. https://www.cbar.az/infoblocks/corridor_percent

## VAŞİNQTON İRVİNQİN "ƏLHƏMRA" HEKAYƏLƏR TOPLUSUNDA ŞƏRQLƏ QƏRBİN DİALOQU

**Nuranə Nuriyeva**
Azərbaycan Dillər Universiteti
nurananuri@mail.ru

Şərq və Qərb mədəniyyətlərini bir-birindən fərqləndirən əsas cəhət kulturaloji anlamda birincinin ənənəçi, ikincinin isə nəzəriyyəçi olmasındadır. Belə ki, Qərb mədəniyyəti myəyyən mədəni - tarixi şəraitdə Şərq mədəniyyəti əsasında yaranan, bir dünyagörüşü sistemidir [4].

İbn Rüşdün fəlsəfəsi görüşlərinin oriyentalist mahiyyəti Amerika mədəni mühiti kontekstində izah olunarsa, onun yaradıcılığının təsir gücünün səviyyəsi ölçüyəgəlməzdir. Bu baxımdan da qeyd edək ki, İbn Rüşdlə başlayan ədəbi fəlsəfi görüşlər Avropadan sonra Amerika Birləşmiş Ştatları ədəbiyyatına keçmiş, adı keçən ədəbiyyatın öncüllərindən olan Vaşinqton İrvinq və Edgar Allan Ponun yaradıcılığında öz təzahürünü tapmışdır. Vaşinqton İrvinq və Edgar Allan Po averoizmə sadiq qalaraq Qərb və Şərq düşüncəsini birləşdirə bilmiş, Yeni Dünyanın – Amerikanın ədəbiyyatını yaratmış və inkişaf etdirmişlər. Bu ədəbiyyatın Avropa ədəbiyyatından fərqi isə Şərq mövzusuna fərqli baxış bucağından yanaşma idi.

Oriyentalistlərin qeyd etdiyi kimi Şərq və Qərb mədəniyyət sıstemləri biri - birinə qarşı duran və ya zidd olan fərqli sistemlər deyildir. Məlumdur ki, Qərb mədəniyyəti myəyyən mədəni - tarixi zərurət səbəbindən Şərq mədəniyyətindən yaranan mədəniyyət sistemidir. Bu baxımdan da Şərq və Qərb mədəniyyət sistemləri arasındakiı münasibətləri aydın təsəvvür etmək üçün Vaşinqton İrvinq "Əlhəmra" hekayələr toplusunda ərəb mədəniyyəti ilə ispan-qot mədəniyyətlərinin kəsişdiyi Əndəlüsün tarixi keçmişini ö dövr üçün müasir olan mədəniyyətlərin sintezi baxımından təqdim etmişdir [1; 3].

Şərq ilə Qərbin bir araya gətirdiyi ortaq Əndəlüs mədəniyyəti Vaşinqton İrvinqin diqqətini çəkmiş və İbn Rüşd fəlsəfəsinin qaynağı olan bu mədəniyyəti Amerika ədəbiyyatının formalaşmasında əsas amil olaraq görmüşdü. Amma bu ortaqlıq mexaniki sintez vasitəsi ilə deyil, Şərq və qərb mədəniyyətlərinin və fəlsəfi təfəkkürünün bir-birindən qaynaqlanması vasitəsilə baş

vermişdi. Vaşinqton İrvinq əfsanə, rəvayət və ümumiyyətlə mifoloji yaddaşla müasir dünyagörüşü birləşdirmiş və "Əlhəmra" kitabına daxil olan hekayələrdə mətnlər arası əlaqə yarada (intertekstuallıq) bilmişdir. İrvinqə görə ABŞ ədəbiyyatının formalaşması üçün həm şərqlinin həm də qərblinin bir-birlərindən qaynaqlanması, bir-birini tamamlaması və mədəni potensiallarını üzə çıxarması mühüm şərtdir. Şərq mədəniyyətinin strategiyaları və qərb mədəniyyətinin taktikası burada əsas amil rolunu oynayır.

Millətlərin dini endoqamiyası məsələsinə Vaşinqton İrvinq "Əlhəmra" hekayələr toplusunda tendensiyalı yanaşma da diqqəti çəkir. Belə ki, əsir götürülmüş ispan əsilzadələrinin məcburən din dəyişdirməsi və xilafətə tabe olması nəticəsində ərəb qızları ilə evlənən ispanlar və əksinə ispan qızları ilə evlənən ərəblərdən söz açan yazıçı məhz bu izdivacların nəticəsində dünyaya gələn uşaqların sonradan sonuncu ərəb əmirliyinin süqutunda böyük rolu olduğunu qeyd edir [2].

Vaşinqton İrvinq hələ XIX əsrin əvvəllərində ədəbi fəaliyyətə başlayarkən Şərq mədəniyyətinin, Şərq fəlsəfəsinin strategiyalarının daha düzgün olduğunu anlamışdı. Bu səbəbdən də o, Qərb mədəniyyətinin özünəxas ənənə və taktikasından istifadə edərək, şərq mədəniyyətinin, ənənələrinin və fəlsəfəsinin əsasında yeni mədəniyyət istiqamətini müəyyənləşdirərək Amerika Birləşmiş Ştatlarının ana ədəbiyyatını formalaşdıra bilmişdir. Belə ki, Vaşinqton İrvinqə qədər olan ədəbiyyat Avropa ədəbiyyatının eyni idi və Amerikanın nə təbiətini, nə də ənənələrə bağlı yerli xalqın mədəniyyətini əks etdirmirdi. Şərqin müdriklik və Qərbin təcrübi qabiliyyətinə əsaslanan yazıçı bu təzadı aradan qaldırmanın yeganə yolunun bu iki mədəniyyətin mütləq birləşməsində görürdü. Lakin indiki zamanda Şərqli öz mədəniyyətinin mahiyyətini sona qədər dərk edə bilməməsi və ya tarixi ənənələrini unutması səbəbindən, öz tərəqqisinin qərbi yamsılamaq kimi təhlükəli olan bir yolu seçmiş, ona inanmış və qəbul etmişdir. Qərb mədəniyyəti əsasən xristian mədəniyyətinin əsası üzərində köklənmişdir. Şərqlinin qərb mədəniyyətini olduğu kimi qəbul etməsi üçün hər şeydən əvvəl xristian dəyərlərini qəbul etməsi vacib şərtdir. Məhz bu dəyərlərin birbaşa qəbul olunmasının mümkünsüzlüyü Vaşinqton İrvinqin "Əlhəmra" hekayələr toplusunda öz əksini tapır [5].

Vaşinqton İrvinqin Şərqlə bağlı yaradıcılığının əsas mahiyyəti şərqlinin qərbliləşməsi, yaxud qərblinin şərqliləşməsi məsələsi deyildir. Yazıçı Yeni Dünyanın – Amerikanın gələcək inkişafını həm şərqlinin həm də qərblinin biri-birlərindən bəhrələnərək, öz kökləri üzərində daha da zənginləşərək, biri-birini mədəni anlamda tamamlaması mahiyyətini vurğulamağa çalışır.

"Əlhəmra" toplusuna daxil olan novellaları süjet materialına görə ərəb, ərəb-ispan-Rekonkista dövrü və ərəblərin keçmiş sirləri ilə bağlı gözəl macəralara və ispan hekayələrinə ayırmaq olar. Kitaba eyni zamanda yazıçının yol qeydləri, Əlhəmra saray kompleksi ilə bağlı ayrı-ayrı tarixi oçerklər və müəllif şərhləri də daxildir. Kitaba daxil olan novellalar içərisində "ərəb substratı" böyük yer tutur. Bunlar ərəb xalq hekayə və romanlarına məxsus nağılvari motivlər, situasiya və təsvirlərlə (sehirli talismanlar, Süleyman peyğəmbərin üzüyü, ovsunlu mağara, tilsimə salınmış xəzinə, münəccimlərin gələcəyi söyləməsi, cənnət bağları, saraylar və s.) doludur. V. İrvinqin hekayətlərində Şərqlə Qərbin birgə həyat və məişətinin bədii lövhələrlə əks olunması da maraq doğurur. Burada bir tərəfdən iki müxtəlif mənəvi-mədəni sistemi ayırıb fərqləndirən keyfiyyətlər, həm də birləşdirici, qovuşdurucu əlamət və amillər vahid bir müstəvi üzərinə çıxarılır.

İrvinq bir yumorist kimi bu əsərlərində də öz oxucusunun mənəvi dünyasına asanlıqla nüfuz edir, onun təxəyyül və intellektinin yeniləşməsinə çalışırdı. Ərəb materialı əsasında yazılmış "Ərəb münəccimi haqqında əfsanə" (*Legend of the Arabian Astrologer*), "Şahzadə əl Kamal haqqında əfsanə" (*Legend of Prince Ahmed al Kamel*) və digər novellalarda bu keyfiyyət olduqca qabarıqdır. İspan materialı əsasında yazılan hekayələr içərisində isə "Əlhəmranın qızılgülü" (*Legend of the Rose of Alhambra*) və "Qubernator və Notarius" (*The Governor and the Notary*) novellalarında sözü gedən bədii-estetik ahəngin və cazibədar tarixi koloritin güclü təsiri duyulmaqdadır [6].

Dini düşmənçilik probleminə demək olar ki, bütün novellalarda toxunulur və yazıçı bu fanatizmi açıqca mühakimə edir. Buna misal "Alkantara ordeninin böyük magistrinin səlib yürüşü" (*The Crusade of the Grand Master of Alcantara*) novellasıdır. Bunun əksini göstərən digər novellada Don Munyo Sanço de İnoxosa və Abadilin qarşılıqlı cəngavər mərdliyindən danışılır.

Ümumiyyətlə, isə müasirliklə tarixiliyin sintezini verən yazıçı oxucusunu rəngarəng Şərq-qotik çalarlı bir dünyaya səyahətə aparır. Burada ərəb münəccimi, sultanlar, döyüşçülər, ispan çinovnikləri, dəmirçilər, keşişlər və digər insanları görmək olar. Buna baxmayaraq İrvinq şərti nağılvari üslubda təsvir etdiyi müsəlman personajlarından fərqli olaraq, bir sıra hallarda ispanları canlı, hətta essentrik xarakterlər kimi təqdim edir.

**Açar sözlər:** Oriyentalizm, Vaşinqton İrvinq, "Əlhəmra", Şərq, Qərb.

## Ədəbiyyat

1. Killick T. British short fiction in the early nineteenth century: the rise of the tale. Ashgate Publishing, Ltd., 2008, 193 p.
2. IrvingWashington, Alhambra,NY; 1832, 280p.
3. http://www.pinkmonkey.com/dl/library1/irvng001.pdf
4. Jones, Brian Jay. Washington Irving: An American Original. (Arcade, 2008). 302p.
5. Said, Edward, Orientalism, New York: Vintage Books, 2003.
6. Аникин, Г.В. Романтизм в США и Англии: некоторые аспекты сравнительного анализа. Романтические традиции американской литературы XIX века и современность, М.: Наука, 1982, с.55 – 77.
7. Фильштинский И. М. Андалусия в изображении Вашингтона Ирвинга – В кн.: В. Ирвинг, Новеллы, М., «Наука», 1979, с.5-22.

# XX ƏSRİN 60-CI İLLƏRİNDƏ ALMAN VƏ AZƏRBAYCAN ROMANININ MÜQAYİSƏLİ-TİPOLOJİ TƏHLİLİ

**Məlahət Osmanova**
Dövlət İdarəçilik Akademiyası
malehat@inbox.ru

XXI əsrdə dünyada gedən qloballaşma prosesi ideoloji, sosial və mədəni problemlərə təsir etdi. Bu prosesin əsas inkişaf istiqamətlərindən biri də müxtəlif mədəniyyətlərin və ədəbiyyatların inteqrasiyası məsələsidir. Son dövrlər Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı müxtəlif xalqların ədəbiyyatı və ədəbi-fəlsəfi fikri ilə qarşılıqlı dialoq nümayiş etdirir. Görünən odur ki, Qərb ədəbiyyatının, eləcə də dünya ədəbiyyatının müxtəlif ədəbi-bədii xüsusiyyətlərinin, ayrı-ayrı xalqların ədəbiyyatındakı oxşar və fərqli problemlərin öyrənilməsi prosesi önə çıxır.

Azərbaycan və alman romanının konkret xronoloji dövrdə kəsb etdiyi inkişaf meyilləri, bədii təkamülü və müqayisəli tipoloji təhlili universal və milli miqyasları müəyyən etməyə kömək edən sahələrdəndir. Məlumdur ki, keçən əsrin 60-cı illəri dünya ədəbi prosesində yeni meyillərin və təmayüllərin yaranması ilə xarakterizə olunmuşdur və bu səbəbdən Azərbaycan və alman romanını dövrünün ədəbi, mədəni, ictimai mühiti kontekstində öyrənmək aktuallıq kəsb edir. Digər tərəfdən Azərbaycan və alman romanının müqayisəli-tipoloji təhlili 60-cı illər romanının yenilik axtarışlarına müəyyən aydınlıq gətirir. N. Paşayeva yazır ki,: “60-cıların nəsrində hər şeydən əvvəl insana baxış dəyişildi, daha sonra onun bədii ifadəsi formalaşdı. Bu baxış artıq ənənəvi sovet ideologiyasının ölçülərindən kənara çıxırdı. Bu kənaraçıxma eyni zamanda, milli ədəbiyyatın beynəlxalq əlaqələri və qloballaşan dünyaya doğru ilk addımları idi. Ədəbiyyat yavaş-yavaş süni realizm (sovet ideologiyasını formalaşdırdığı) tələblərindən üz çevirərək insanın mahiyyətinə doğru irəliləyirdi” [6, s.55]. N.Paşayevanın qeyd etdiyi vacib məqam Qərb ədəbiyyatında baş verən yeni meyillərin tərkib hissəsi idi və Azərbaycan ədəbiyyatı da bu prosesdə özünəməxsus şəkildə iştirak edirdi.

II Dünya müharibəsindən sonra ikiyə bölünmüş alman ədəbiyyatı sosialist realizminin təsirində olan Şərqi Almaniya ədəbiyyatı və müstəqil inkişaf edən Qərbi Almaniya ədəbiyyatlarına ayrıldı. Qərbi Almaniyada “Qrup 61”in (Maks fon der Grün, Günter Valraff) romançıları ilə yanaşı sonralar Nobel mükafatına layiq görülən Günter Qrass və Haynrix Böllün roman yaradıcılığı da bu dövrə təsadüf edir. G.Qrassın “İt illəri” (Hundejahre,1963) və H.Böllün “Bir təlxəyin düşüncələri” (Ansichten eines Clowns, 1963) romanlarında qaldırılan problemlər Qərb ədəbiyyatşünaslığında müharibədən sonra “aldadılmış ümidlər” kimi müəyyənləşdi və “qeyri-müəyyən keçmiş” problematikasıyla alman kimliyi, onun ekzistensial durumu, sosial gerçəkliyin dərin dərki və bədii fikirdə fərqli təzahürü ilə şərtləndi. “İt illəri” romanında yazıçı cəmiyyətdə hökm sürən absurdun və faciələrin mövcudluğundan söz açır, mahiyyətinə görə dərin faciəli hadisələri satirik qrotesk tərzdə verirdi. G.Qrass faşist diktaturası illərində almanların kimliyindən tamamilə məhrum edilməsi ilə müharibədən sonrakı dağıntılar arasında paralel aparır, “it metaforası”nın köməyi ilə faşist rejiminin yeritdiyi siyasət nəticəsində fərdin dəyərdən düşməsini və insani keyfiyyətlərinin itirilməsini

göstrərirdi: "İt mərkəzdə dayanır... iti saxla və sən həmişə mərkəzdə olacaqsan" [1, s.450]. İnsanlar üçün it bu dünyanın böyükləri ilə təmasda olmaq, onların həyatına qoşulmaq üçün yeganə fürsət kimi təsvir edilir. Əsərdə it obrazı təkcə real, tarixi hadisə ilə deyil, həm də mifoloji aspektlərdə verilir və bu səbəbdən faşist diktaturası illərində almanların mövcudluğu problemiylə canlı səslənir.

H.Böllün "Bir təlxəyin düşüncələri" romanında isə təlxək Hans Şnirin yaddaşı və fərdi keyfiyyətləri onu "hamı kimi" yaşamağa qoymur. Hansın ailəsi və başqaları ilə qarşıdurması insanın öz ləyaqətini və müstəqilliyini qorumaq, ondan yalnız bir şey tələb edən dünyanın bezdirici təqiblərinə müqavimət göstərmək cəhdidir. O, ümidsizcəsinə müqavimət göstərsə də, yaşadığı cəmiyyətdən faciəli şəkildə asılıdır. Elə bununla bağlı qəhrəman ümidsiz tənhalıqdan və mənəvi iztirablardan qurtula bilmir. H.Böllün qəhrəmanı sosial yalanların qurbanına çevrilir, yaşamaq uğrunda müqavimət göstərsə də hər dəfə cəhdləri boşa çıxır.

XX əsr Azərbaycan ədəbi-bədii fikri tarixində "60-cılar" adlanan ədəbi nəsil ictimai-siyasi atmosferin bir qədər ılıqlaşması, Sovetlər Birliyindəki ideoloji buxovların zəifləməsi nəticəsində az da olsa mövcud siyasi quruluşun tənqidini əks edən əsərlər yazmağa başladı. Onların sırasında İsa Hüseynov, Sabir Əhmədli, Əkrəm Əylisli kimi yazıçılar sovet rejimində önə çıxan sovet insanını deyil, sosial gerçəkliyi daha yaxşı əks etdirən romanları ilə seçildilər. İ.Hüseynovun "Yanar ürək" (1965) romanı əvvəlki illərin ölçülü, bəzən kanonik ənənələrə söykənən romanlarından fərqli olaraq həyat həqiqətlərinə yeni baxış bucağından, gerçək hadisələrin təsvirini əks edən əsər kimi gündəmə gəldi. Düzdür, 60-cılar nəsrində sosializm mövqeyi kəskin tənqid olunmurdu və amma sovet realizmi daxilində yaranmış realist və metaforik üslub, yeni nəsr kimi anlayışlar təsdiq olunur, təhkiyə yeni sərhədlər daxilində dəyişirdi. Bununla bağlı T.Əlişanoğlunun yanaşması da maraq doğurur: "60-cılar hərəkatında əsas hədəf "milli olan" yox, "müasirlik"dir. Milli varlıqda müasirliyi, XX əsr normalarını-tələblərini kəşf etmək və düşüncə hədəfi etmək"dir [3].

60-cı illər romanlarını fərqləndirən əlamətdar məziyyətlərin ən əsası qəhrəman tipi problemi ilə bağlıdır. İ.Hüseynovun "Yanar ürək" (1965), İ.Şıxlının "Dəli Kür" (1968), S.Əhmədlinin "Aran" (1961), "Pillələr" (1963) romanları qəhrəmanın düşüncələrinə yer verməsilə, onun daxili dünyasının təsviri ilə, insanı hərtərəfli təhlil etmək, xarakterin açılmasına nail olması ilə seçilir. T.Hüseynoğlu bu dövr Azərbaycan romanının keyfiyyət dəyişikliyindən yazırdı ki, belə romanlarda "insanın mənəvi-psixoloji planda əks etdirmə, obrazı daha çox bu planda canlandırma üstün idi. Bu xüsusiyyəti ilə o, sosialist realizmi prinsiplərinin normativliyi ilə uyuşmurdu" [4].

İ.Hüseynovun yaradıcılığında insan obrazları ilə yanaşı cəmiyyətin psixoloji durumu da əhəmiyyət kəsb edirdi. Bir qayda olaraq ədəbi tənqiddə onun yaradıcılığındakı psixologizmi əsərlərinin əsas xüsusiyyəti kimi qeyd edirlər. Yazıçı "Yanar ürək" romanında qaldırdığı problemlərə sonralar "İdeal" romanında yenidən qayıdır və özünün ictimai, vətəndaş konsepsiyası ilə sosial həqiqətlərin gerçək təsvirini verə bilir. Romandakı obrazların mənəvi-ruhi dünyası, psixoloji durumu yazıçının poetik diliylə yeni Azərbaycan roman mərhələsinin yaranmasına təkan verdi. İ.Hüseynov ictimai quruluşun nöqsanlarını, eybəcərliklərini açıq-aydın və reallığa uyğun şəkildə əks etdirirdi. O, cəmiyyətdəki eybəcərliyi bir insanla bağlamır, hakim dairələri sovet ədəbiyyatına xas qüsursuz, haqqın tərəfdarı kimi təsvir etmirdi. Səlahiyyətli şəxslərin xarakterindəki mənfi xüsusiyyətləri, riyakarlığı, məddahlığı adi kənd adamının saflığı mühitində göstərirdi.

S.Əhmədlinin şəxsiyyəti sındırılan, mənəvi təzyiqlərə məruz qalan insan obrazı Azərbaycan ədəbiyyatının baş qəhrəmanı oldu. O, insanı bir fərd kimi cəmiyyətin eybəcərliklərinə qarşı qoydu. Mövcud quruluşun əsil mahiyyətini, boşluğunu, mənasızlığını ifşa edən yazıçı kimi müharibə dövrü və müharibədən sonrakı Azərbaycan kəndinin mənəvi-əxlaqi mühitinin gerçək üzünü göstərə bildi.

Göründüyü kimi Azərbaycan və alma romanında keçən əsrin 60-cı illərində yeni keyfiyyət dəyişiklikləri baş vermiş, nasirlər insanın ekzistensial durumunu, onun ağrı və acılarını sosial-ictimai problemlərlə əlaqələndirmişlər. Yaşadıqları quruluşun və cəmiyyətin basqısında yaşayan fərdin nəzərə alınmamasını mənəvi problem kimi önə çəkmişlər.

**Açar sözlər:** Azərbaycan və alman romanı, 60-cı illər dövrü, müqayisəli-tipoloji təhlil.

### Ədəbiyyat


1. Der Deutsche Roman im 20. Jahrhundert. B: Buchner, 1996, 120p.
2. Grass G. Hundejahre. Verlagsgesellschaft. 1993, 752p.
3. Əlişanoğlu T. 60-cılar hərəkatını sol ədəbiyyatına aid etməliyik http://senet.az/60-cilar-h%C9%99r%C9%99katini-sol-%C9%99d%C9%99biyyatina-aid-etm%C9%99liyik/
4. Hüseynoğlu T. Müasir ədəbiyyat məsələləri. Roman janrının tarixi və poetikası, III, Bakı: Elm və təhsil, 2014, 250s.
5. Nağıyev C. Azərbaycan romanının əsas inkişaf təmayülləri. http://genderi.org/pars_docs/refs/81/80078/80078.pdf
6. Paşayeva N. Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (Elçinin yaradıcılığı əsasında) fil. elm. dok. al. dər. almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2004, 286 s.


## MINING FEEDBACK FROM STUDENTS TO ENHANCE TEACHING METHODOLOGY

**Pari Garayeva, Yashar Hajiyev**
National Aviation Academy
pgarayeva@naa.edu.az

This paper presents how useful students collected feedback to teachers/lecturers as well as students' development for example written instructional materials, course description, learning targets, reading materials, activities, assignments and examinations. This research concerned with EDM methods and algorithms for analyzing hidden trends and relations from students' target evaluation data to enable a better awareness of students' performance.

The teachers' aim is to inspire students' is to acquire knowledge and skills by study, but teachers can learn from students how to teach better. There are many approaches such as a) self-assessment, b) peer- review, c) classroom research methods, and d) faculty/course evaluations to get the feedback assessing the quality of teaching process. Teachers receive individualized reports based on evaluations which mentioned above, and administrators receive summary reviews arranging results

across teachers and subject areas. Self-evaluation is a process that gather, record, and survey data that happened in the lesson. Consequently, useful information makes improvements to his/her own action where necessary but differences between the teacher's probes and the students' ratings can be enlightening more.

**Researched international methods**: It is very important for the participants to measurement the quality of the lesson and the teacher's performance during the lesson. Although demand feedback is the most popular means of measuring the quality of education provided by each education center (universities and institutes), in this case it is based on the formation of the questions carefully. Following model describe this process depends on many aspects such as questions peculiarity, personal response evaluating the information about reactions to a teacher, or the making decision of development-oriented activities based on the feedback [1].




**Figure 2.** Model of student's feedback on education

Beginning of process students' perceptions which interpret learning in class are captured by their by means of students' feedback survey. Students' perception which show itself as reflection like quick response of cognition can make out teaching quality and be impacted by teacher teaching and professional development. Firstly, survey is responded by person with accuracy and intensity of the perception, then decision is made that intended response is tried to implement in practice which is called goal-setting actions. In our model teachers take place as recipients of students' feedback, because of that processing feedback is not only response of perception, but also a set of enforcement actions according to the answers. Decision making and critical thinking play important role in implementation of deep processing received survey data. Personal relationship influence student feedback regard as positive emotion such as respect, politeness and satisfaction or negatives such as discontentment, abuse and discrimination. The instructional effect involves the assessment of students' knowledge and skills in line with modern science and technology, which the teacher demonstrates in the classroom when teaching each topic. Then between students' perception and teaching standards is made comparison and lack angle of teaching methodology emerges and in some cases these discrepancies are accepted in order to teacher decides to change in his/her teaching,

otherwise, if particularly wide disparity comes into view in feedback data, results of survey are disclaimed. The model combines existing research in different areas of research and covers what is known about the teaching and teacher development process based on student feedback.

**Problem solution:** With growing number of raw data from educational institutions may act important role to predicting of students' performance and educational organizations future, so that by using of scattered data, analysts/designers to model a platform which will improve the all-inclusive teaching and learning process. However, there are possible many data mining tools for mining algorithms, filtering raw data and visualizing the result set such as R, Tableau, Python, DB Miner, Intelligent Miner, intended tools for educational purpose doesn't exist. So we put forward our system modeling categories with help of correlated two main data mining techniques like classical and next generation: [2]

- **Student learning modeling**: This finds out how many times students make mistakes, how fast make correct responses, how look for idea and hints while spending on practice etc. and helps determine special, conventional as well as technical understanding of the student.
- **Student attitude modeling**: Behavior of students predicts students' future knowledge and academic performance which set personal differentiation between students is vital aspect in educational data mining research.
- **Trends review**: This type of analysis helps to extract required pattern that identify the variations in teaching and acquiring knowledge, gaining skills on being study with time, as well as to show gap in the existing teaching methods which in the future can be strengthened to turn better the learning process.

This article explains how to organize surveys among students to evaluate a teacher and a lesson. Then, the data such as how the collected data is processed by EDM algorithms, how to find trends, and how the useful data obtained are applied to the learning / teaching process were discussed. Subsequently, the teacher perceives and interprets this feedback information, which is linked to cognitive and affective reactions and processes.

**Keywords**: Student survey, Process model, Student perceptions of teaching quality, Teacher development, Educational Data Mining.

## References

1. Khanna L., Singh S. N., Alam M. Educational data mining and its role in determining factors affecting students academic performance: A systematic review, 2016 1st India International Conference on Information Processing (IICIP), 2016, pp. 1-7, doi: 10.1109/IICIP.2016.7975354.
2. Alshareef A., Ahmida S., Bakar A. A., Hamdan A. R., Alweshah M. Mining survey data on university students to determine trends in the selection of majors, 2015 Science and Information Conference (SAI), 2015, pp. 586-590, doi: 10.1109/SAI.2015.7237202.

**Tədris metodikasını təkmilləşdirmək üçün tələbələrdən əks əlaqə**

Bu məqalədə müəllimləri və eləcə də yazılı təlimat materialları, dərsin təsviri, öyrənmə hədəfləri, oxu materialları, fəaliyyətlər, tapşırıqlar və imtahanlar kimi tələbələrin inkişafına dəstək olacaq parametrləri qiymətləndirmək üçün tələbələrdən rəylərin necə və hansı qaydalarla topladığı, email edildiyini təqdim edilir. Bu tədqiqatda tələbələrin performansı haqqında daha yaxşı məlumat əldə etmək üçün tələbələrin hədəf qiymətləndirmə məlumatlarından gizlədilmiş tendensiyaların və əlaqələrin təhlili üçün EDM metodları və alqoritmləri araşdırılıb.

## BANK SİSTEMİNİN DAYANIQLIĞININ NƏZƏRİ-METEDOLOJİ MƏSƏLƏLƏRİ

**Elman Qasımov**
Azərbaycan Universiteti
qasimovelman09@gmail.com

Müasir iqtisadi münasibətlər şəraitində hər bir ölkənin iqtisadi rifahı, onun həyat səviyyəsi, iqtisadi artım, müasir iqtisadi modelin aktuallığı,bütövlükdə ölkə iqtisadiyyatının səmərəliliyi o,ölkənin bank sistemindən bilavasitə asılıdır.Belə ki, bank sistemi istənilən iqtisadi sistemə xas olmasına baxmayaraq, yalnız bazar iqtisadiyyatı sistemində maliyyə idarəetməsi dövriyyəsində mərkəzi halqa rolunu oynayır. Bank sistemi təsərrüfat subyektləri arasında hesablaşmalarda mühüm rol oynayır, iqtisadiyyata kredit verir və bazar transformasiyalarına keçidin həyata keçirilməsinə töhfə verir.

Hal-hazırda bank sistemi özünün ənənəvi əməliyyatları ilə yanaşı,maliyyə bazarının bütün seqmentlərində konsaltinq, məxfi və digər xarakterli müxtəlif növ xidmətlər göstərməyə qadirdir.Bu xüsusiyyət bank sektorunun qeyri-bank qurumları tərəfindən artan rəqabət şəraitində təkcə bazardakı mövqelərini qorumaq deyil,həm də gəlirlərini maksimuma çatdırmaq istəyi ilə bağlıdır.

Azərbaycan iqtisadiyyatında bank sisteminin dayanıqlığı yalnız milli iqtisadiyyatın vəziyyətini sabitləşdirməyə deyil,həm də onun gələcək inkişafının istiqamətlərini müəyyən etməyə xidmət edir.Onu da qeyd etmək lazımdır ki, bank sisteminin dayanıqlığının müəyyən edilməsi məsələsi hələ də elmi tədqiqatlarda tamlığı ilə şərh edilməyib.Bu problemin mübahisəli mahiyyəti onunla müəyyən edilir ki, indiyədək iqtisadi obyektlərin dayanıqlığının dərk edilməsi üçün metodoloji əsaslar işlənib hazırlanmayıb. Müasir dövrdə bank sisteminin dayanıqlığı probleminə iqtisadi ədəbiyyatlarda böyük diqqət yetirilir. Ancaq bu konsepsiyanın geniş izahı ilə bağlı konsensus yoxdur.

Ümumiyyətlə,dayanıqlılıq hərəkatın seqmentlərindən biridir.İqtisadi ədəbiyyatda xarici və yerli alimlər davamlılıq problemini iqtisadi tarazlıq anlayışı ilə uyğunlaşdırırlar.Onun komponentlərindən biri kimi dayanıqlılıq sistemin balanslaşdırılmış vəziyyəti ilə xarakterizə olunur.Bu, özünü bir sıra iqtisadçı alimlərin əsərlərində bank sisteminin dayanıqlığının tərifində öz əksini tapmışdır. Belə ki, məsələn, bank strukturlarının sabitliyi onların müəyyən normal vəziyyətdə və ya tarazlıqda olmaq qabiliyyəti ilə bağlıdır

Ümumiyyətlə qəbul edilir ki, bank sisteminin inkişaf dərəcəsi iqtisadiyyatın vəziyyətindən asılıdır. Sənaye və ticarət əməliyyatlarının həcminin azalması ilə bank sektorundan keçən pul vəsaitlərinin hərəkətində müvafiq azalma müşahidə olunur, depozit, kredit, valyuta və digər əməliyyatların həcmi azalır.

Beləliklə, bank sisteminin dayanıqlığı anlayışının qorunmasını bank institutlarının prinsip və metodları, o cümlədən kreditlərin verilməsi, əmanətlərin cəlb edilməsi, ödənişlərin həyata keçirilməsi, kredit, faiz və digər risklərin idarə edilməsi ilə başa düşülür.

Mürəkkəb dinamik sistem kimi çıxış edən bank sistemi müxtəlif xarakter daşıyan bir çox amillərin təsiri altında fəaliyyət göstərir. Bu amillərin vaxtında uçotu və təhlili təkcə onun keyfiyyətini qiymətləndirməyə deyil, həm də böhranın baş verməsinin qarşısını almağa və bununla da dayanıqlı inkişafı təmin etməyə imkan verəcəkdir.

Mastepanova D.A. “Bank sisteminin dayanıqlılığının əsas amillərinin tədqiqi dedikdə, bank sisteminin digər təsərrüfat subyektləri və sektorları ilə birlikdə tədqiqi, bank sektoru ilə iqtisadiyyatın digər sektorları arasında qarşılıqlı əlaqə proseslərinin necə inkişaf etdiyini müəyyən etmək nəzərdə tutulur.

Bank sisteminin dayanıqlılığı və davamlı inkişafının əsasını onun fəaliyyətinin bütün aspektlərinin hərtərəfli tənzimlənməsini təmin edən bank qanunvericiliyinin mövcudluğu təşkil edir. Dövlət-hüquqi amillər qrupuna daxil olan bu amilin bank sisteminə münasibətdə əhəmiyyəti aşağıdakılarla müəyyən edilir:

1. Bank sistemi həll etdiyi vəzifələrə görə iqtisadi sistemin ən mühüm elementlərindən biridir;
2. Dövlətin dayanıqlığı bilavasitə bank sisteminin vəziyyətindən asılıdır.

Hazırda Azərbaycan Respublikasınının bank qanunvericiliyinin fundamental əsasını “Banklar haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” “Bank olmayan kredit təşkilatları haqqında”, “Əmanətlərin sığortalanması haqqında”, “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasinin Qanunları və s.təşkil edir. Şübhəsiz ki, bu qanunlar və eləcə də banklar haqqında digər hüquqi-normativ sənədlər ölkənin bank sisteminin inkişafı üçün hüquqi bazanın formalaşdırılmasında böyük əhəmiyyət kəsb edir. Əsası bu qanunlarla qoyulmuş səmərəli bank qanunvericiliyinin mövcudluğu bank sektorunun dayanıqlığını şərtləndirən müsbət amillərdən biridir.

Müasir dövrdə bank sisteminin dayanıqlığında ictimai-siyasi amillərin rolu əhəmiyyətli dərəcədə artmışır. Fəaliyyətin aydın ifadə edilmiş fidusiar (etibarlılıq) xarakteri daşıyan bank sistemi iqtisadiyyatda gedən sosial proseslərə olduqca ağrılı reaksiya verir. Cəmiyyətin sosial sabitliyin olması dayanıqlı resurs bazası formalaşdırmağa imkan verir ki, bunun da əsas hissəsini uzunmüddətli öhdəliklər təşkil edir. Eyni zamanda cəmiyyətin sosial sabitliyi onun aparıcı nümayəndələrinin siyasi baxışlarından, hakimiyyət başında duran partiyanın siyasi proqramından asılıdır. Bu amillərin düzgün qiymətləndirilməməsi isə həm ayrı-ayrı banklar, həm də bütövlükdə bank sistemi üçün mənfi nəticələr yaradır.

İnteqrasiya proseslərinin gücləndirilməsi ölkənin xarici siyasət reytinqi iqtisadiyyatının bütün sistemində (və ilk növbədə maliyyə-kredit sistemində) mühüm rol oynayır. Xarici investorların fəallığı və qarşılıqlı əməkdaşlığı məhz bundan asılıdır.

Bank sisteminin sabitliyinə təsir edən daxili amillərin strukturunda ən mühümü iqtisadi amillərə aiddir. Bank idarəçiliyinin səviyyəsi, bank sisteminin məcmu kapitalının həcmi, banklar arasında etimad dərəcəsi, bank sisteminin aktiv və passiv balansı, onun resurs bazası, gəlir əldə etmək strategiyası, o cümlədən likvidlik. müxtəlif rakurslar bank sektorunun fəaliyyətini xarakterizə edir, onun sabitliyinin göstəriciləri kimi çıxış edir.

Araşdırmalardan göründüyü kimi dayanıqlılıq- həm iqtisadi mühitin xarici amilləri, həm də bank fəaliyyətinin səmərəliliyini xarakterizə edən daxili amillərlə əlaqəli çoxşaxəli anlayışdır. Bank sisteminin dayanıqlığı onun sosial-iqtisadi inkişafının müəyyən səviyyəsində özünəməxsus funksiyalarını yerinə yetirmək qabiliyyətində özünü göstərir.Buna görə də bank sistemi böhran zamanı ilkin vəziyyətini bərpa etmək imkanına malik olmalıdır.

**Açar sözlər:**bank,sistem,bazar, maliyyə dayanıqlılığı.

**Ədəbiyyat**

1. Sadıqov E.M. Bank əməliyyatları. Bakı, 2010.
2. Bağırov M.M. Bank və bank əməliyyatları. (Ali məktəblər üçün dərslik). Bakı, 2003.
3. Əsgərova R. Pul, Kredit, Banklar. Bakı, 2007.
4. Abbasov Ə.M., Məmmədov Z.F. Bank işi və e-bankçılıq. Bakı, 2003.
5. Abdullayev Ş.Ə. Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması. Bakı 2001.
6. Həsənov E. Elektron hökümətin konseptual əsasları, Bakı, 2019.

## 1905-1907-Cİ İLLƏRDƏ ERMƏNİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAQLARINDA SOYQIRIM SİYASƏTİ

**Əminə Qocayeva**
Azərbaycan Universiteti
Qocayeva.emine@mail.ru

Osmanlı dövlətindən ermənilərin Qafqaza köçürülməsi təkcə Ədirnə müqaviləsi ilə məhdudlaşmadı. XIX əsrin sonlarında Osmanlı dövlətinin şərq vilayətlərində erməni qiyamlarının yatırılmasından sonra sultan Əbdülhəmidin qisasından qorxan erməni terrorçuları və iğtişaş iştirakçıları kütləvi şəkildə Qafqaza köç etmişdilər. Belə ki, təkcə bu iğtişaşlardan sonra Qafqaza 400 min erməni köçmüşdü [5, s.3]. Nəticədə, XIX əsrin sonu - XX əsrin əvvəllərində Qafqazda ermənilərin sayı kəskin şəkilədə artdı . Köçüb gələn ermənilər isə öz qanlı əməllərinə Azərbaycanda davam etdilər. Azərbaycanda anti-türk, anti-müsəlman təbliğatını genişləndirdilər, dinc əhaliyə qarşı qətl və qarətlərə başladılar.

Osmanlı ərazisində muxtariyət əldə edə bilməyəcəklərini və “Böyük Ermənistan”ı bu ərazidə qura bilməyəcəklərini anlayan ermənilər bu xülyalarını Qafqazda həyata keçirmək üçün hərəkətə keçdilər. Onların tarixi Azərbaycan torpaqlarında özlərinə yeni dövlət qurmaq xəyallarının qarşısındakı ilk əngəl isə, burada əsrlərdən bəri davamlı yaşayan müsəlman-türk əhali idi. XX əsrin

əvvəllərində Cənubi Qafqazda yerləşən 54 qəzadan sadəcə 5-də ermənilər sayca üstünlük təşkil edirdilər [2, s.81]. Ermənilər bu etno-demoqrafik mənzərəni dəyişmək üçün etnik təmizləmə tədbirləri həyata keçirməyə girişdilər. Bu yolda ilk cəhdlər 1905-ci ildə baş verdi. Rusiya imperiyasında baş verən inqilabi çıxışları ermənilər özləri üçün fürsət sayıb hərəkətə keçdilər. Çar Rusiyasının hakim dairələri əhalinin diqqətini inqilablardan yayındırmaq üçün millətlərarası gərginliyi artırmağa, Qafqazda hakimiyyətə qarşı olan narazılığın açıq üsyana çevrilməsinə yol verməmək üçün milli-etnik zəmində toqquşmalar törətməyə başladılar. C.Zeynaloğlunun kitabında verilən məlumata görə: “Rusiya hökuməti müsəlmanların qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə 130 xəfiyyə göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə birini digəri əleyhinə silah işlətməyə təşviq edir və əsrlərcə yaxşı keçinən iki milləti birini digərinə qırdırırdılar” [4, s.106]. Vəziyyətdən istifadə etməyi bacaran ermənilər azərbaycanlılara qarşı terror aktları həyata keçirməyə başladılar. Ermənilər azərbaycanlılar olan kəndlərə hücum edir, əhaliyə qarşı terror həyata keçirirdi, bu yolla say üstünlüyünü qazanmağa çalışırdılar.

İlk terrora neft səltənətini əllərinə keçirməyə çalışdıqları Bakıdan başladılar. Qafqazdakı varlı ermənilər Bakıda cəmləşmiş, buranın neftinə göz qoymuşdular. 1905-ci il fevralın 6-da bir nəfər azərbaycanlının ermənilər tərəfindən öldürülməsi ilə qırğınlara başlanıldı. Ermənilərin niyyəti Bakı neftini ələ keçirmək, Cənubi Qafqazdan müsəlman-türk əhalini qovub çıxarmaq və burada Ermənistan dövlətini qurmaq idi, lakin nail ola bilmədilər. Fevralın 6-dan 10-a qədər Bakıda şiddətli qırğınlar davam etmiş, hər iki tərəfdən tələfat min nəfərə çatsa da, ermənilər məğlub olmuşlar [3, s.7]. Lakin Bakını ələ keçirə bilməməkləri erməniləri terror əməllərindən çəkindirməmiş, əksinə Azərbaycanın digər bölgələrində bu əməllərini həyata keçirməyə başlamışlar. İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Qazax, Tiflisdə qırğınlar törətmişlər.

1905-ci ilin fevral-may aylarında ilk olaraq İrəvanda daha sonra isə Naxçıvanda iğtişaşlar törədilməyə başlandı. Belə ki, İrəvanda fevralın 21-23-də, Naxçıvanda mayın 5-də ilk qırğınlar törədilməyə başlanmışdır. Ermənilər Zəngəzura, Naxçıvana silahlı dəstələrlə hücüm edir, kəndləri dağıdır, günahsız insanları vəhşicəsinə qətlə yetirirdilər. Bu qırğınlar zamanı ermənilər yaxşı silahlandığı halda, azərbaycanlı dinc əhali belə bir qırğını gözləmədikləri üçün hazırlıqsız idi. Bu isə erməni quldurlarına qarşı mübarizəni çətinləşdirir, günahsız insanların qırğınına səbəb olurdu. Nəticədə, bir çox soydaşımız öz ata-baba yurdlarını tərk etməyə məcbur olurdu. Ermənilərin məkrli niyyəti də məhz, bundan ibarət idi, azərbaycanlıları öz torpaqlarından qovub çıxarmaq və bu torpaqları erməni torpağı kimi qələmə vermək idi. Hələ qırğınlar başlamazdan əvvəl “Daşnaksütyun” partiyasının liderləri “erməni məsələsi”ni həll etmək, “Böyük Ermənistan” xülyasını gerçəkləşdirmək üçün bütün yerli təşkilatlara göstəriş göndərərək tələb etmişdi ki, İrəvan, Gəncə və Qarabağ mahallarında olan bütün türk kəndlərini viran qoysunlar, bu kəndləri yerli əhalidən bir dəfəlik təmizləsinlər [2, s.81].

1906-cı ildə Qafqaz canişini Vorontsov-Daşkovun təşəbbüsü ilə Tiflisdə erməni-müsəlman qırğınına son qoymaq üçün sülh konfransı keçirilir. Bu konfransda Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov və iştirak edən digər müsəlman nümayəndələri Qafqazda baş vermiş qırğınların, terrorun təşkilatçısı və icraçısının Daşnaksütyun partiyası olduğunu və partiyanın gizli niyyətlərini ifşa etdilər. Eyni zamanda, rəsmi hökumət dairələrinin də bu təşkilatın əmməllərinə göz yumduğunu

isbat edə bildilər [1, s.42]. Amma bu konfransın heç bir xeyri olmadı, ermənilər öz çirkin terrorçu fəaliyyətlərini davam etdirdilər. Nəticədə, 1905-1907-ci illərdə tarixə erməni-müsəlman davası adı ilə daxil olan bu qanlı terrorda bir çox azərbaycanlı həyatını itirmiş, bir hissəsi köçmək məcburiyyətində qalmışdır. Ümumiyyətlə, bir çox müsəlman kəndi ermənilər tərəfindən dağıdılmış, viran edilmişdir.

**Açar sözlər:** Erməni-müsəlman davası, soyqırım, Daşnaksütyun partiyası, Cənubi Qafqaz.

### Ədəbiyyat

1. Arzumanlı V., Mustafa N., Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998, səh. 218.
2. Qazıyev Y., Erməni məsələsi yalanlar və gerçəklər, Qafqaz Araşdırmaları İnistitutu Nəşriyyatı, səh.175.
3. Ordubadi M.S. Qanlı illər, Bakı, 2007, səh. 182.
4. Zeynaloğlu C., Müxtəsər Azərbaycan tarixi, Bakı, 1992, səh.144.
5. Mustafa N. Ermenilerin 1905-1906 yıllarında Güney Kafkasyada yaptıkları katliamlar, Atatürk dergisi, 2014, cilt 3, say 1, səh.12.
6. Baykara H., Azerbaycan istiklal mücadelesi tarihi, İstanbul, 1975, səh.331.
7. Mustafa N., Azərbaycanlılara qarşı törədilən kütləvi qırğınlar barədə erməni etirafları, Xalq qəzeti, 2020, 26 aprel, N-80, S-7 https://www.elibrary.az/docs/qazet/qzt2020_14626.pdf
8. Mustafa N., Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında, Xalq qəzeti, 2009, 31 mart, S-4 http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_mart2009/73453.htm

## QEYRİ-XƏTTİ DİFERENSİAL TƏNLİKLƏR SİSTEMİ ÜÇÜN KOŞİ MƏSƏLƏSİ

**Səmayə Qocayeva, Aqil Xanməmmədov**
Azərbaycan Universiteti
qocayevasamaya@gmail.com

$a_n = a_n(t),\ a_n \in C^{(1)}[0,\infty)$ müsbət funksiyalar ardıcılığı üçün aşağıdakı tənliklər sisteminə baxaq:

$$\dot{a}_n = \frac{1}{2} a_n\left(a_{n-1}^2 - a_{n+1}^2\right),\ n = 0, \pm 1, \pm 2, \ldots \qquad \mathbf{(1)}$$

(2.1) tənliklər sistemi sonsuz sayda tənlikdən ibarət olan qeyri-xətti diferensial tənliklər sistemidir. Bu sistem üçün aşağıdakı Koşi məsələsinə baxaq:

$$a_n(0) = \overset{\circ}{a}_n,\ n = 0, \pm 1, \ldots, \qquad (2)$$

burada $a_n(0)$ başlanğıc şərti

$$\sum_{n=1}^{\infty} |n| \left\{ |a_{2n}(0) - A_1| + |a_{2n-1}(0) - A_2| \right\} + \sum_{n=-\infty}^{-1} |n| \left\{ |a_{2n}(0) - A_2| + |a_{2n-1}(0) - A_1| \right\} < \infty, \qquad (3)$$

bərabərsizliyini ödəyir, belə ki, $A_1 > 0,\ A_2 > 0$. Qeyd edək ki, $a_n(0)$ başlanğıc şərti asimptotik periodik ardıcıllıq kimi baxıla bilər, belə ki, period 2 olur (Bu periodun 1 olduğu halı da əhatə edir). (1)-(2) məsələsinin $a_n(t)$ həlli $a_{2n}(t)-A_j,\ a_{2n-1}(t)-A_j,\ j=1,2, n\to(-1)^{j-1}\infty$ funksiyaları sürətlə azaldıqda sürətlə azalan həll adlanır. Bu o deməkdir ki, hər bir $T>0$ üçün $\|Q_1(t)\|_{C[0,T]}<\infty$ şərti ödənilir, burada

$$Q_1(t)=\sum_{n=1}^{\infty}|n|\left\{|a_{2n}(t)-A_1|+|a_{2n-1}(t)-A_2|\right\}+\sum_{n=-\infty}^{-1}|n|\left\{|a_{2n}(t)-A_2|+|a_{2n-1}(t)-A_1|\right\}.$$

**Teorem.** (3) şərti ödənildikdə (1)-(2) məsələsinin sürətlə azalan həlli var və yeganədir.

### Ədəbiyyat


1. Bazargan J., Egorova I. Jacobi operator with step-like asymptotically periodic coefficients. Mat.fizika, analiz, geom., 2003, v.10, №3, pp.425-448.
2. Makhmudova M.G., Khanmammedov A.Kh. Asymptotic periodic solution of the Cauchy problem for the Langmuir lattice. Computational Mathematics and Mathematical Physics, 2015, Volume 55, Issue 12, pp. 2008-2013.
3. Teschl G. Jacobi operators and completely integrable nonlinear lattices. Math. surv.and monographs, AMS, Providence, 2000, v.72.


## İNSANLARDA DAVRANIŞ POZUNTULARI


**Salatın Quliyeva**

Azərbaycan Universiteti

Salatin.Guliyeva@student.au.edu.az


Cəmiyyətin əsasında insanlar arasında tarixən formalaşmış münasibətlər öz yerini tutur. Öz növbəsində isə bu münasibətlər fərdlərin sosial davranışlarına əsaslanır. Sosial davranış dedikdə insanların cəmiyyətə, digər insanlara münasibətdə sosial mühitdən cavab hərəkətlərini əhatə edən hərəkətlər nəzərdə tutulur.

Tarix inkişafın nəticəsində obyektiv olaraq insanlar arasında davranış, sosial əlaqələr və münasibətlərin tənzimləyiciləri yaranır. Bu tənzimləyicilərin yaranması isə öz növbəsində cəmiyyətin bir bütövlük kimi mövcud olmasına və inkişaf etməsinə yardımçı olur. Bu tənzimləyicilərə sosial dəyərlər və sosial normaları aid etmək olar.

Bütün cəmiyyətlərdə bəzi insanların davranışları bəzən qəbul edilmiş normalardan kənara çıxır. Hansı ki bu normlar yalnız insanın nə etməli və nə etməməli olduğunu göstərir; lakin onlar faktiki davranışın əksi deyil. Bəzi insanların faktiki hərəkətləri çox vaxt digər insanların məqbul sağlam deviant davranış kimi qəbul etdiyi davranışlardan kənara çıxırlar. Deviant sözü latın dilində "deviatio" sözündən tərcümədə "yayınma" deməkdir. Devaint davranış dedikdə aşağıdakı nəzərdə tutulur:

1. İnsanların müəyyən bir cəmiyyətdə rəsmi olaraq müəyyən edilmiş və ya faktiki müəyyən edilmiş normalara (standartlara, şablonlara) uyğun gəlməyən hərəkətləridir;

2. Hər hansı bir cəmiyyətdə rəsmi olaraq müəyyən edilmiş və ya faktiki müəyyən edilmiş normalara (standartlara, şablonlara) uyğun gəlməyən insan fəaliyyətinin kütləvi formalarında ifadə olunan sosial hadisələrdəndir.

Birinci halda deviant davranış əsasən psixologiya, pedaqogika və psixiatriyanın predmeti hesab olunur. İkinci halda isə sosiologiyanın və sosial psixologiyanın predmeti kimi dəyərləndirilir.

Sosial normaların pozulması kimi başa düşülən deviant davranış son illərdə kütləvi xarakter halını alıb və bu problemi sosioloqların, sosial psixoloqların, həkimlərin, sosial işçilərin və hüquq-mühafizə orqanlarının əməkdaşlarının diqqət mərkəzində saxlanılır.

Bu sosial hadisəni şərtləndirən cəhətləri, amilləri və səbəbləri izah etmək aktual vəzifəyə çevrilib. Bu vəzifənin araşdırması ondan ibarətdir ki, bir sıra fundamental suallara, o cümlədən "sosial norma" kateqoriyasının mahiyyəti və ondan kənara çıxmalara dair sualları cavablandırsın. Stabil işləyən və dayanıqlı cəmiyyətdə bu sualın cavabı demək olar ki, aydındır. Sosial norma, sosial tənzimləmə və nəzarət aləti kimi çıxış edən sosial praktikanın zəruri və nisbətən sabit elementidir.

Sosial norma öz dəstəyini qanunlarda, adət-ənənələrdə, yəni vərdişə çevrilmiş, məişətdə, əhalinin əksəriyyətinin həyat tərzinə çevrilmiş davranış və fəaliyyət istiqamətlərində öz əksini tapır.

İngilis mütəfəkkiri Klayv S. Lyuis əxlaq normalarında “insan maşınının düzgün işləməsini təmin etmək” üçün bir növ “təlimat”ı əsas götürür. Lakin bəzi normaların dağıdıldığı, bəzilərinin isə hətta nəzəriyyə səviyyəsində yaradılmadığı islah edilmiş cəmiyyətdə normanın formalaşması, şərhi və tətbiqi problemi son dərəcə çətin məsələyə çevrilir.

Yeniyetmənin tərbiyəsi üçün valideynlərin şəxsi nümunəsi vacibdir. L. N. Tolstoyun fikrinə insan əsas səhvi öz tərbiyəsi ilə məşğul olmaq əvəzinə uşağın tərbiyəsinə üstünlük verməsidir. İlk olaraq valideyn cəmiyyət üçün yararlı vətəndaş yetişdirmək üçün öz tərbiyəsindən başlamalıdır.

P.F. Lesqaft vurğulamışdır ki, ailə həyatının şərtləri uşağa bəşər övladı ilə bağlılığını dərk etməyə, xalqın mənəvi dəyərlərinə, dilinə, adət-ənənələrinə qoşulmağa kömək edir, onun bütün gələcək varlığında silinməz iz buraxır.

Qeyd etmək istərdim ki, ailə-dövlət münasibətlərini tənzimləyən bir çox hüquq formaları müasir həyat reallıqları ilə ziddiyyətə düşmüş, ailənin və cəmiyyətin tələbatını adekvat şəkildə ödəməyi dayandırmışdır. Çox vaxt ailə məsələlərinə təsir edən qanunlar səmərəsiz olur və ya heç işləmir.

**Açar sözlər:** davranış, cəmiyyət, deviant davranış, yayınma, tərbiyə.

## Ədəbiyyat

1. Гордеева М. Государство и дети. Социальная работа. 2005.
2. Дружинин В.Н. Психология семьи. М.: Изд-во ЦСП, 1996.
3. Как помочь ребенку войти в современный мир? / Под ред. Т.В. Анто- новой, московский департамент образования, центр «Дошкольное детство» им. А.В. Запорожца, М., 1995.
4. Ланцова Л.А., Шурупова М.Ф. Социологическая теория девиантного поведения, Социально-политический журнал. 1993.

# NİL QEYMANIN "XOŞ PROQNOZLAR" ROMANINDA DİNİ-MİFOLOJİ MOTİVLƏRƏ İRONİYA

**Səkinəxanım Qurbanlı**
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
squrbanlis@mail.ru

Çağdaş Britaniya ədəbiyyatında unikal yaradıcılığı ilə yeni bir mərhələ yaradan Nil Qeyman qədim mifləri müasir dövrə interpretasiya etməsi ilə məşhurdur. İlk romanı olan "Xoş proqnozlar: Cadı Aqnes Natterin xoş və dəqiq proqnozları" (*Good Omens: The Nice and Accurate Prophecies of Agnes Nutter, Witch*) Terri Pratçett (*Terry Pratchett*) ilə ortaq qələmə alınmış və 1990-cı ildə nəşr edilmişdir. Bu romanda Qeyman müqəddəs kitablardan bizlərə məlum olan "Yaradılış", "Adəm və Həvva", "Qiyamət" kimi dini-mifoloji motivləri yenidən işləyərək onlara yumoristik və müasir baxış bucağı təqdim etmişdir.

Əslində, bu roman Şeytanın oğlunun doğumu və dünyanın qiyamət öncəsi son günlərinin gəlişindən bəhs edən bir komediyadır. Cənnətin (*Eden*) qapılarının qoruyucusu olan mələk Azirafael (*Aziraphale*) və Həvvanı ilan cismində başdan çıxaran iblis Krouli (*Crowley*) dünya yaranandan bəri Yer üzündə yaşayırlar. Onlar minilliklər ərzində qəribə bir dostluq qurur və insanlardan xoşları gəlirdi. Bir gecə Cəhənnəm qüvvələri körpə Antixristi (*Antichrist*) İngiltərədə yaşayan amerikalı bir diplomatın oğlu ilə dəyişdirmək təlimatını yerinə yetirməsi məqsədilə Krouliyə çatdırırlar. Krouli bunun qiyamətin yaxınlaşdığı mənasına gəldiyini anlayır və Azirafaeli qiyaməti ləngitməkdə kömək etməsi üçün razı salır. İkisi birlikdə dayə və bağban qiyafəsinə girərək Antixristin böyüməsində təsirli rol oynayır və uşağın Tanrı və Şeytan arasında qərar verə bilməməsinə səbəb olmağı bacarırlar.

Lakin xəstəxanadakı bəzi yanlış anlamalar səbəbiylə əsl Antixristin əslində üç yaxın dostu ilə birlikdə Tedfild (*Tadfield*) qəsəbəsində gözdən iraq böyüyən Adam Yanq (*Adam Young*) adlı başqa bir oğlan olduğu məlum olur. Dünyanın proqnozlaşdırılan sonu yaxınlaşdıqca Adam bilmədən öz güclərindən istifadə etməyə başlayır. Belə ki, Adam bir jurnalda itmiş Atlantis qitəsi haqqındakı ehtimal nəzəriyyələrini oxuduqdan sonra onu yenidən üzə qaldıraraq, dostları ilə yadplanetlilər haqqında danışdıqdan sonra UFO-ları çağıraraq, Amazon yağış meşələrinin şəhərsalmanın inkişafı üçün itirdiyi torpaqlarını geri qaytararaq və.s dünyanı öz baxış bucağına uyacaq şəkildə dəyişdirir. Azirafael və Krouli səhvlərini başa düşürlər və əsl Antixristi axtarmağa başlayırlar. Lakin Adamı böyük nənəsi Aqnes Natter (*Agnes Nutter*) olan Anafema və Cadu ovçuları ordusunun geriyə qalmış tək üzvü Nyuton da axtarır. Əsərin adında da işlənilmiş Aqnesin proqnozları isə, əslində, tamamilə doğrudur, lakin işə yaramayacaq qədər sirli və şifrəlidir. Bu sırada isə qiyamətin dörd atlısı – Müharibə, Qıtlıq, Çirklənmə və Ölüm bir araya toplanır. Beləcə, hər kəs dünyanın sonunu gətirəcək nüvə müharibəsinin başlayacağı Tedfild hərbi bazasında toplaşır.

Artan xaosun içərisində Adam bu əzəmətli güclərə qalib gəlir və o, dünyanı öz dəstəsi arasında bölməyə çalışır. Dostları onun nə hala gəldiyinə dəhşət içərisində reaksiya verdikdə Adam özünə gəlir və Qiyaməti dayandırmağa qərar verir. Dörd Atlıdan üçünü məğlub edən Adam Ölümə də

məğlubiyyəti qəbul etdirir və o, yox olur. Antixristin əsl atası, qəzəblənmiş Şeytan isə Yer üzünə qalxmağa başlayır. Şeytanı atası kimi qəbul etməyən Adamın cavabı isə çox təsirli olur: "You're not my dad. Dads don't wait until you're eleven to say hello, and then turn up to tell you off. If I'm in trouble with my dad, then it won't be you; it's going to be the dad who was there." (*Sən mənim atam deyilsən. Atalar övladlarına salam vermək üçün on bir yaşına qədər gözləmirlər, sonra da sənə söz demək üçün gəlib çıxmırlar. Əgər atamla problemim varsa, o, sən olmayacaqsan; orada olan atamla olacaq*.) [1, p. 434].

Lakin "atasının gəlişi" xəbərini eşidən Adam həqiqətləri təhrif etmə gücündən istifadə edir. Beləcə, onun yerinə Adamın insan olan ögey atası gəlir. Sonrasında Adam hər kəsin son hadisələrlə bağlı xatirələrini silir.

Qiyamət savaşının qarşısı alındıqdan sonra Krouli və Azirafael bunun ən başından bəri Tanrının planı olduğunu və əsl apokaliptik münaqişənin insanlıq ilə Cənnət və Cəhənnəmin birləşmiş qüvvələri arasında olduğunu anlayırlar. Sonda Adəm öz gücü və səlahiyyətlərindən istifadə edərək atasının əhatəsindən uzaqlaşır və dostları ilə birlikdə sirkə gedir.

2003-cü ildə Britaniya Yayım Korporasiyasının (*British Broadcasting Corporation (abbr. BBC*) "Böyük oxu" (*The Big Read*) adlı sorğusunda 68-ci sırada yer alan bu roman dini miflərə ironik xüsusiyyəti ilə oxucularda böyük maraq doğurmuşdur [2]. Bizlərə həqiqət kimi təqdim edilən dini motivlərin əsərdə yumoristik ironiya ilə təsviri Qeymanın ustalığından xəbər verir və onun çağdaş dünya ədəbiyyatında novator yazıçı kimi tanınmasına gətirib çıxarmışdır.

**Açar sözlər:** Nil Qeyman, Xoş proqnozlar, apokalipsis, Antixrist, kəhanət.

**Ədəbiyyat**

1. Gaiman N. Good Omens: The Nice and Accurate Prophecies of Agnes Nutter, Witch. USA: Harper Collins, 2006, 512 p.
2. The Big Read Top 100. BBC. April 2003. Retrieved 19 October 2018.
3. Лозовик Е.В. Современная английская литературная сказка в творчестве Нила Геймана. Россия: Московский Педагогический Государственный Университет., 2015, 189.
4. https://www.theguardian.com/tv-and-radio/2019/may/31/good-omens-review-sheen-and-tennant-fight-the-devil-with-dill-sauce

# MİLLİ TURİZM SƏNAYESİNİN FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ-TƏCRÜBİ ƏSASLARI

**Nurlan Qurbanzadə**
Azərbaycan Universiteti
nurlanqurbanzadee95@gmail.com

Azərbaycan qədim zamanlardan hələ eramızdan əvvəl ilk ticarət karvanlarının səyahətlərin və bir sira strateji əhəmiyyətli yolların kəsişdiyi torpaqlara ev sahibliyi edib. Qədim dünyanın ən məşhur ticarət və siyasi-iqtisadi məqsədlər üçün istifadə olunan tarixi ipək yolunun ölkəmizdən keçməsi Azərbaycanın hələ erkən zamanlardan səyahətlər ölkəsinə çevirmişdi.

Azərbaycanda da ötən əsrin 90-cı illərinin sonundan başlayaraq bu sahə inkişaf etməyə başlayıb. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş, bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət, ölkə həyatının bütün sahələri kimi, turizm sektorunun da inkişafına əlverişli zəmin yaradıb. Dövlət turizm sahəsini iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Ölkəmiz inkişaf tempini yüksəldərək dünya miqyasında istərsədə postsovet məkanında özünəməxsus şöhrət qazanmışdır. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi. 27 iyul 1999-cu ildə Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladı. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi. Azərbaycan son dövrdə inkişaf tempini sürətləndirərək, dünyanın aparıcı və inkişafda olan ölkələri sırasında öz mövqeyi, eləcə də, mövcud potensialı ilə seçilir.

2001-ci ildə ilk dəfə olaraq Azərbaycanı tam genişliyi ilə təbliğ edən "Welcome to Azerbaijan" adlı xüsusi disk hazırlandı və ÜTT-nin Baş Assambleyasına təqdim olundu. Bununla yanaşı, diskin "Turizm in Azerbaijan" adlı veb səhifəsi yaradıldı. 2002-ci ildə ilk dəfə Bakıda xarici ölkələrin turizm şirkətlərinin iştirakı ilə Beynəlxalq Turizm Sərgisi təşkil olundu və ÜTT-nin dəstəyini qazandı. Birinci beynəlxalq sərginin açılışı zamanı ulu öndər Heydər Əliyevin sərgi iştirakçılarına təbrik məktubu oxunarkən necə fərəhləndiyimizi və qürur hissi duyduğumuzu izah etmək çətindir. Deməli, Azərbaycan adlı vətənimiz bütün dünyada turizm məkanı kimi qəbul olunmuş və tanınmağa başlamışdı Qısa bir dövr ərzində əldə olunan nailiyyətlər ölkənin milli maraqlarının zəminində formalaşmış, eləcə də, dövlət tərəfindən həyata keçirilən milli strategiya, yürüdülən ictimai, siyasi və mədəni mövqe məhz belə imicin Azərbaycan ətrafında yaranmasına gətirib çıxarmışdır. 2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv oldu. Bu isə, öz növbəsində, respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və praktiki kömək edilməsinə imkan yaratdı. Milli İtisadiyyatın tempinin davamlı olaraq müsbətə doğru dəyişməsi ölkənin qarşısında duran əsas prioritetlərdən biridir. Neft sektorunun ölkəyə daxil etdiyi

valyuta ilə bərabər digər sahələrində inkişafı mütləq idi. Bu sahələr arasında turizmin çiçəklənməsi milli iqtisadiyyatın inkişafında öz töhfəsini verəcəkdi. Dünyada aparılan tədqiqatlar onu deməyə əsas verir turizm qeyri-neft sahələri arasında prespektivliyinə və mənfəətliyinə görə ilk pillələrdə dayanır. İqtisadiyyatda ÜDM məcmusunda turizmin rolu əvəzsizdir. Bu sektor əməktutumlu olduğundan ölkədə işsizliyin faiz dərəcəsinin aşağı düşməsinə yeni iş yerlərinin yaranmasına və məşğulluğun artmasına təkan verir. Milli iqtisadiyyatın yüksəliş tempinin əsas həlqələrindən biri turizm sektorudur. Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002–2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu. Ölkəmiz təbii coğrafi şəraiti, füsunkar təbiəti, tükənməz sərvətləri ilə dünyada turizm məkanı kimi tanınır. Ölkəmizdə turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir.

Azərbaycanın beynəlxalq turizmə inteqrasiya etməsinin əsas səbəblərindən biri kimi, sonillər ölkəmizin böyükmiqyaslı dünyəvi tədbirlərə ev sahibliyi etməsini xüsusilə qeyd etməklazımdır. Bu baxımdan iyunun 12-dən 28-dək Bakıda keçirilən 1-ci Avropa Oyunları ölkəmizin turizm sektorunun gələcək inkişafına mühüm zəmin hazırladı. Turizm sənayesi ilə bağlı aparılan ilkin təhlillər onu göstərir ki, bu tədbir Azərbaycan turizminin ən yüksək səviyyədə təbliğatına xidmət etdi. Oyunların təkcə açılış mərasimi 93 ölkəyə yayımlandı və mərasimi 1 milyarddan çox insan izlədi. Respublikamızda turizmin inkişafını təmin etmək üçün, ilk növbədə, bu sahəyə investisiya qoymaq istəyən sahibkarlara lazımi şərait yaradılır. Bunun nəticəsidir ki, hər il ölkədə 25-30 mehmanxana tipli obyekt istifadəyə verilir. Hazırda Azərbaycanda 535-dən artıq hotel (332- si rəsmi lisenziya əsasında), 284 turizm şirkəti fəaliyyət göstərir [1].

Ölkəmizdə turizm infrastrukturunun müasir standartlara uyğunlaşdırılması, mövcud turizm məhsullarının təkmilləşdirilməsi, yeni məhsulun yaradılması turizmin perspektiv inkişafına imkan verir. Azərbaycanda ən mükəmməl turizm layihələrindən olan “Şahdağ” Qış-Yay Turizm Kompleksi respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün layiqli nümunədir. Bu örnək özəl sektor tərəfindən Qəbələdə analoji “Tufandağ” Turizm Mərkəzinin yaradılmasına təkan verib. Layihələrin həyata keçirilməsi müvafiq bölgələrdə iş yerlərinin artırılmasına səbəb olub. “Şahdağ” Qış-Yay Turizm Kompleksinin yalnız ilkin mərhələsinin istifadəyə verilməsinə baxmayaraq, vətəndaşların və xarici turistlərin regiona axını müşahidə edilir. 2015 il ölkəmizə gələn turistlərin sayı 2.3 milyon nəfər olub. İl ərzində xarici turistlərin ölkəmizdəki xərcləri 1,3 mlrd. manat, turizm və aidiyyəti sahələrdə çalışan işçilərin sayı 42 min, turizm sahəsinin ölkənin ümumi daxili məhsulundakı xüsusi çəkisi isə 4.1% olub [2].

**Açar sözlər:** Milli İqtisadiyyat, Turizm sənayesi, Turist, Qeyri-neft sektoru, ÜDM, Milli turizm, Beynəlxalq turizm.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2014-cü il üçün hesabatı.
2. www.mct.gov.az
3. www.azerbaijan.travel

# ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ ПРИ МАКРОРЕГУЛИРОВАНИИ ВАЛЮТНЫХ КУРСОВ

**Айдан Рагимова**
Западно-Каспийский университет
are1919@hotmail.com

Обеспечение стабильности валютных курсов представляет одну из важных проблем экономики. Причем это – проблема не только национальной экономики, она носит международный характер, по крайней мере по следующим двум причинам.

- Формирование валютных курсов обусловлена не только внутренними, а большей частью международными факторами.
- Валютно-курсовая политика одной страны отражается, как минимум на ее торговых партнерах.

Таким образом, стабилизация валютных курсов - это глобальная или, по крайней мере, региональная проблема. По этой причине имеются исследования, направленные на поиск путей стабилизации валютных курсов на мегауровне. Учитывая важность этих исследований, мы изучили и их, но в основном будем концентрироваться на макрорегулировании валютных курсов.

Итак, можно выделить следующие проблемы, возникающие при макрорегулировании валютных курсов.

**1. Трилемма Манделла-Флеминга.** Существуют многочисленные примеры, отражающие тот широко распространенный факт в экономике, что мероприятия, направленные на регулирование одного фактора, могут иметь отрицательное влияние на другие не менее важные социально-экономические индикаторы. Касательно валютных курсов один аспект такого парадокса отражен в трилемме Манделла-Флеминга, согласно которой невозможно одновременно обеспечить [1, с.2]: а) независимую денежную политику; б) фиксированный валютный курс и в) свободное движения капитала. Трилемму Манделла-Флеминга называют еще невозможной троицей (impossible trinity).

Рассмотрим сначала взаимоотношение валютного курса и независимой денежной политики. Под независимой денежной политикой подразумевается монетарная политика, направленная на регулирование инфляции и процентной ставки. Для этого центральный банк регулирует предложение денежной массы. Например, для обуздания инфляции он проводит политику на сокращение этого предложение. В свою очередь это приводит к укреплению

национальной валюты, что может противоречить экономической политике, направленной на повышение экспорта.

Наоборот, попытка предотвращения девальвации национальной валюты требует от центрального банка сокращения национальной денежной массы, что может приводить к дефляции.

Например, в конце прошлого века в Аргентине жестко встала проблема инфляции. Хотя государство попыталось разрешить эту проблему путем сокращения денежной массы, впоследствии оно отказалось от такой политики из-за опасений ревальвации национальной валюты, что привело бы к сокращению экспорта, последствие которого могли оказаться печальными: сокращение ВВП и увеличение безработицы [2].

С другой стороны, свободное движение капитала в конечном счете приводит к выравниванию внутренней процентной ставки с мировой, что, во-первых, влияет на курс национальной валюты, а, во-вторых, что может не соответствовать текущим целям денежно-кредитной политики.

А в том случае, если применяется политика стабилизации обменного курса, то становится очевидным процентный арбитраж с бесконечным притоком или оттоком иностранной валюты в зависимости от соотношения внутренних и мировых процентных ставок. В таком случае остается единственный выход – вмешательство центробанка, что не может продолжаться бесконечно ввиду истощения его золотовалютных запасов.

**2. Рост и волатильность финансовых рынков**

Другой трудно контролируемый фактор, который оказывает влияние на курс валют – финансовые рынки. Известно, что торговля ценными бумагами сильно отклонилась от ее первоначального назначения – огромный объем торговли на этих рынках носит спекулятивный характер. Известно, что по этой причине огромные денежные средства отвлекаются на эти рынки – ежедневные торги на мировых финансовых рынках достигает до полтриллиона долларов ежедневно. Частый перетек огромных объемов, так называемых, «горячих денег» из одной страны в другую в поисках высоких процентных ставок раскачивает валютные курсы.

**3. Шумы.** Не менее существенными для валютных курсов (следовательно, их стабильности) являются неэкономические факторы. Кроме политической ситуации, рассмотренной в предыдущих разделах, особо следует отметить слухи, которые в научной литературе также получили название «шума» [3, с. 529]. Влияние шумов создает ожидания у трейдеров и у других агентов, что, как известно, имеет огромную силу воздействия на экономическую активность. Это влияние усилилось с развитием интернета и цифровых технологий и их повсеместным внедрением, в том числе, и на финансовых рынках, что увеличило темпы распространения шумов. Так как огромная часть торговли товарами и услугами и операций на мировых финансовых рынках реализуется в долларах США, то эти слухи естественным образом влияют на их обменный курс.

Правда, вмешательство официальных органов может ослабить влияние шумов, но для большинства развивающихся стран (в том числе и для Азербайджана), не единожды

переживших обман полномочных органов, действие их заявлений ничтожно, и как известно из теории ожиданий, если ожидания овладевают определенной критической массой населения, то в большинстве случаев они осуществляются. Для валютных курсов это проявляется в том, что, если по какой-то причине ожидается рост курса доллара, то массовая покупка доллара на самом деле может приводить к его росту.

4. **Выбор стратегии.** Среди экономистов доминируют два мнения по поводу роли регулирования валютных курсов в обеспечении экономического роста.

*Содействие стабильности.* Сторонники первого направления считают, что рынки лучше правительства знают, как двигаться к равновесию и к росту и что роль государства должна быть ограничена содействием среде стабильности, включая стабильность обменного курса. Власти должны выявить приоритеты стабильной денежно-кредитной и фискальной политики. Они должны вмешиваться в валютный рынок по мере необходимости, чтобы предотвратить шероховатости, т.е. чрезмерную изменчивость по номиналу и, следовательно, по реальному обменному курсу, но они не должны пытаться влиять на его уровень.

*Содействие конкуренции.* Некоторые исследования показывают, что стабильность реального обменного курса недостаточен для экономического роста, важно его среднее значение (т.е. значение вокруг которого этот курс стабилизирован). Скажем, если обменный курс переоценен, то это отрицательно отражается на международной конкурентоспособности страны. Чтобы поправить ситуацию, можно использовать различные варианты политики:

- можно обесценить номинальное значение обменного курса национальной валюты;
- можно стараться сдерживать рост заработной платы, так как обычно это приводит к инфляции и, соответственно, к ещё большему росту реального курса национальной валюты.
- можно использовать другие инструменты фискальной и денежно-кредитной политики, а еще лучше – комбинацию этих рычагов.

5. **Определение рационального курса.** Имеется множество исследований, связывающих уровень реального обменного курса с выпуском и ростом занятости. В [4] на примере 9 латиноамериканских стран показывается, что переоценка реального курса замедляет рост промышленной занятости. Аналогичный результат получен в [5] при исследовании 18 стран в Латинской Америке и Карибском бассейне для более раннего периода. В [6] исследуются эпизоды, когда рост ускоряется по крайней мере на два процентных пункта, и это ускорение длится в течение по крайней мере восьми лет. Рассматривая 80 эпизодов, авторы установили, что обесценивание реального курса находится среди факторов, которые значительно связаны с уровнем роста. Похожее заключение выводится и в [7], где выявлено, что страны, страдающие от реальной переоценки, испытывают более медленный рост производительности. Величина этого эффекта сокращается в странах с более развитой финансовой системой, что согласуется с вышеописанными выводами других исследований.

6. **Смешение одновременности.** Этот термин исходит из эконометрики и касается проблемы идентификации переменных (параметров) по классификации экзогенности и эндогенности [8, с, 88]. Дело в том, что в эконометрических моделях (и, следовательно, в

суждениях, вытекающих из этих моделей) часть факторов берется экзогенными, т.е. заданными извне (т.е. фиксированными), а часть – эндогенными, вычисляемыми в рамках модели. Но когда между экзогенным и эндогенным факторами существует корреляция, то вычисленное значение последнего фактически меняет значение и экзогенного параметра, которое a priori принято фиксированным, те неизменным. То есть, получается парадокс, который в эконометрике выражается смещением оценки, а в реальной жизни неадекватностью принимаемых политических решений [9, с. 4].

Мы не будем углубляться в эконометрические детали данной проблемы и постараемся раскрыть ее смысл применительно к нашему предмету.

В описанных исследованиях реальный обменный курс рассматривается в качестве экзогенного фактора. На практике не ясно, как сократить смещение одновременности, проявляющиеся в подобных задачах.

Заметим, что при выявлении смещения одновременности необходимо быть внимательным, так как наличие или отсутствие этого явления зависит от конкретной ситуации. Например, часто наблюдается укрепление валют (и, следовательно, их реального курса) быстро растущих экономик, и это явление, находящееся в противоречии с вышеизложенными выводами может быть объяснено следующими факторами:

- С одной стороны, именно в этих странах благодаря высокому уровню научного и технологического развития создаются совершенно новые товары и услуги (продуктовая инновация), которая пользуется широким спросом, как внутри страны, так и за рубежом. В результате этого повышенного спроса, с одной стороны, растет спрос и на валюту этих стран, что приводит к повышению курса этих валют. С другой стороны, одновременно растет экспорт этих стран, что обуславливает их экономический рост. То есть налицо одновременное повышение курса валюты и ВВП страны.
- С другой стороны, в развитых странах как результат инноваций и более высокого уровня образования и профессиональности рабочей силы происходит быстрый рост производительности факторов производства, что приводит к сокращению себестоимости их продукции, т.е. к повышению их ценовой конкурентоспособности на мировых рынках. Результатом этого является повышение иностранного спроса на продукцию этих стран, которая и без того пользовалась высоким спросом.

В таких условиях отпадает актуальность использования макроэкономической политики поддержания конкурентоспособности экспортеров через обесценения национальной валюты.

С другой стороны, если превалирует мнение, что успех политики низких курсов подпитывает нежелание оставить ее, тогда быстрый экономический рост будет стимулировать поддержание конкурентоспособного реального обменного курса (как в случае с Китаем), что означает, что регрессионные модели, «объясняющие» рост с точки зрения реального обменного курса, будут иметь также обратную причинно-следственную обусловленность. Иными словами, будет иметь место смещение одновременности. Соответствующее обращение будет и с инструментальными переменными, т.е. применение инструмента, который коррелируется с реальным обменным курсом, также не поможет объяснить экономический

рост. Другими словами, необходимо помнить пресловутый тезис, что «корреляция – это не всегда причинно-следственная связь» (causation vs. correlation).

Невозможно решить одну проблему экономики, не пожертвовав какими-то другими важными целями. Примером такой альтернативы является «невозможная троица». Но это – не единственная проблема, с которой сталкиваются экономические политики. Обсуждаемые здесь проблемы приводят к заключению, что не существует универсального рецепта, как и на каком уровне стабилизировать валютный курс – для каждого конкретного случая необходимо учитывать множество факторов и целевых приоритетов.

**Ключевые слова:** обменный курс, номинальный курс, реальный курс, трилемма Манделла-Флеминга, шум, смешение одновременности.

### Литература

1. Boughton J.M. On the Origins of the Fleming-Mundell Model, IMF Staff Papers, 2003, Vol. 50, No. 1, pp. 1-9
2. Frazier L. Definition of Exchange Rate Stability https://www.theclassroom.com/the-history-of-interest-rates-on-cds-13654778.html
3. Black F. Noise, Journal of Finance, 1986, No. 41, pp. 529-543.
4. Galindo A., Izquierdo A., Montero J.M. Real Exchange Rates, Dollarization, and Industrial Employment in Latin America, Working Paper, 2006, No. 575, Washington, D.C.: Inter-American Development Bank
5. Marquez G., Pages C. Trade and Employment: Evidence from Latin America and the Caribbean, Inter-American Development Bank Working Paper, 1998, No. 336.
6. Hausmann R., Pritchett L., Rodrik D. Growth Accelerations, NBER, 2004, No. 10566
7. Aghion P., Bacchetta P., Ranciere R., Rogoff K. Exchange Rate Volatility and Productivity Growth: The Role of Financial Development, NBER Working Paper, 2006, No. 12117.
8. Wooldridge J.M. Introductory Econometrics: A Modern Approach (Fourth ed.). - Australia: South-Western, 2009, 816 p.
9. Antonakis J., Bendahan S., Jacquart P., Lalive R. On making causal claims: a review and recommendations. - University of Lausanne, The Leadership Quarterly Yearly Review Issue. 2010, 94 p.

### Mübadilə məzənnələrinin tənzimlənməsində meydana çıxan problemlər

Valyuta məzənnələri iqtisadi artıma əhəmiyyətli dərəcədə təsir edirlər. Lakin mübadilə məzənnələrinin dövlət tənzimlənməsi iqtisadi artımı təmin edən rasional məzənnənin bərqərar olunması və stabilləşdirilməsinə mane olan çoxlu sayda problemlə üzləşir. Məqalədə bu problemlər və onların aradan qaldırılması yolları müzakirə olunur.

# MƏTNDƏ KOHEZİYA VƏ KOHERENTLİK

**Nigar Rəhimova**
Azərbaycan Universiteti
1nigarrahimova@gmail.com

Dilçilər şifahi və yazılı mətnin bağlılığına istinad etmək üçün iki anlayışdan – koheziya və koherentlik anlayışından istifadə edirlər. Traugott və Pratt-a görə, ingilis dilində koheziyanın ən erkən tədqiqi ədəbi mətnlərdə sintaktik quruluşu və paralelliyi poeziyaya istinad edərək təhlil edən Jakobson tərəfindən aparılmışdır [3]. 1964-cü ildə koheziyanı ilk dəfə qrammatik və leksik koheziyaya ayıran M. Hallidey olmuşdur. Daha sonra R. Həsən qrammatik koheziya haqqında ətraflı araşdırmalar apardı. 1976-cı ildə isə M. Hallidey və R. Həsən ingilis dilində koheziya haqqında ətraflı araşdırma apardılar. Onların "Cohesion in English" (1976) kitabı nəşr edildikdən sonra müxtəlif sahələrdən və dünyanın hər yerindən olan alimlər diqqətlərini koheziyaya yönəltdilər və koheziyanı müxtəlif perspektiv və yanaşmalardan araşdırmağa başladılar. Qeyd etmək lazımdır ki, mövcud olan ən məşhur və ən təfərrüatlı koheziya modeli M. Hallidey və R. Həsən tərəfindən təsvir edilən modeldir.

Koheziya diskursdakı fikirlərin və mətndəki cümlələrin bir-biri ilə əlaqəsini və bununla da, vahid şəkildə məlumat axınının yaradılmasını ifadə edir. M.A.K.Hallidey və R.Həsən təsdiqləyirlər ki, "Diskursdakı bəzi elementin təfsiri digər elementdən asılı olduğu yerdə koheziya meydana gəlir." [2].

Koherentlik isə ilk növbədə koqnitiv hadisədir. Mətnə və oxucuya əsaslanan xüsusiyyətləri ehtiva ediyindən, mətndə bir-biri ilə əlaqəli mövzuların məntiqi axınına istinad ediyindən və bunlarla da mental mətn dünyası yaratdığından, onun anlaşılması kifayət qədər subyektivdir [1]. Koherentlik mətndəki mövzular arasındakı əlaqələrin açıq göstəricisi kimi qəbul edilə bilər.

Koheziya cümlələri və ifadələri tərtib edərkən fikirlərimizi və baxışlarımızı birlikdə necə birləşdirdiyimizdir. Koherentlik isə məzmunun ardıcıllığı və başa düşülməsi, ideyalarımızı ifadə edərkən və bir fikirdən digərinə keçid zamanı məntiqi əlaqəli cümlələrdən necə istifadə etdiyimiz kimi digər xüsusiyyətləri ilə yanaşı, birləşmiş cümlələri də əhatə edən koheziyanın üst çoxluğudur.

Təkrarlanan sözlər/fikirlər, istinadlar, əvəzetmə və ellipsis koheziyaya nail olmaq üçün istifadə edilə bilən üsullardan bəziləri ikən, tezis mövzusu, mövzunu izah edən cümlələr, xülasə isə koherentliyə nail olmaq üçün istifadə olunan üsullardır.

Koheziya və koherentlik arasındakı fərqlər:

1. Koheziya yalnız cümlələrin qrammatik və leksik quruluşuna diqqət yetirir, koherentlik isə semantika ilə bağlıdır.
2. Koherentlik əsasən mənalı və başa düşülən məzmun yaratmaq üçün cümlələrin məntiqi və uyğun təşkili ilə məşğul olur. Koheziya isə cümlənin qurulmasında daha çox sintaksis və qrammatikaya diqqət yetirir.
3. Koherentlik ölçülə bilən bir xüsusiyyət deyil və ona nail olmaq çox çətindir.

4. Koheziya isə sintaktik və qrammatik qaydaların yoxlanılması ilə ölçülə bilən xüsusiyyətdir.
5. Koherentlik keyfiyyəti, koheziya isə kəmiyyəti bildirir.

Koheziya müxtəlif cümlələrin, ifadələrin və paraqrafların bir-birinə birləşməsi deməkdir. Koheziya tamamilə yazıçının əlindədir və müxtəlif üsullardan istifadə etməklə təkmilləşdirilə bilər. Koherentlik oxucu tərəfindən müəyyən edilən, məqalənin başa düşülənliyini və fikrin oxucuya lazımi şəkildə çatdırılıb-çatdırılmadığını bildirən xüsusiyyətdir. O, məzmunun keyfiyyətini müəyyənləşdirir. Koheziya koherentliyin alt çoxluğudur deyə bilərik.

Gəlin binanın bənzətməsinin köməyi ilə baxaq. Bina koherentliyi, kərpic isə koheziyanı təmsil edir. Kərpiclər daxili olaraq möhkəmdir, çünki onların məzmunu bir-biri ilə bağlıdır. Cümlələr və abzaslar üçün də vəziyyət eynidir, qrammatik cəhətdən düzgündürlər və müəyyən bir fikri təmsil edirlər. Amma bu cümlələr və abzaslar bir yerə yığılaraq yazımızı formalaşdırdıqda, birləşən komponentlərin təşkili, ideyaların əlaqəsi və bütövlükdə məzmunun başa düşülməsi kimi parametrlərin köməyi ilə koheziya müəyyən edilir. Yuxarıdakı nümunəmizdə, kərpiclər (birləşən obyektlər) birlikdə təşkil edildikdə, bina (koherentlik) qurulur.

Deməli, nə vaxt koheziya əldə olunarsa, biz koherentliyin əldə edilib-edilmədiyini deyə bilmərik, amma koherentlik əldə edilirsə, deməli, məzmun da bütündür.

Koheziya və koherentlik arasındakı əlaqə son dövrdə bəlkə də ən çox müzakirə olunan məsələdir, çünki koheziya və koherentlik arasındakı fərq bir çox müasir diskurs anlayışları üçün əsas sayılır. Alimlər koheziya və koherentlik arasındakı əlaqəyə dair müxtəlif fikirlərə sahibdirlər, lakin onların əlaqələri ilə bağlı davam edən müzakirələr həm koheziya, həm də koherentlik sahəsində fikir birliyindən daha çox qarışıqlıq yaradıb. Təxmini desək, birlik və uyğunluq arasındakı münasibətlərə dair üç fərqli anlayış var. Birinci anlayışda alimlər iddia edirlər ki, koheziyanın mövcudluğu mütləq koherentliyə səbəb olmur. İkinci anlayışda alimlər iddia edirlər ki, əlaqəli mətnlərin bir-birinə bağlı olması lazım deyil. Əksər sistemli funksional dilçilər isə üçüncü anlayışın tərəfindədirlər; yəni koherentliyə nail olmaq üçün koheziya zəruri, lakin kafi şərt deyil.

Ümumilikdə, son otuzillikdə birləşmə konsepsiyasının işlənib hazırlanmasına və onun müxtəlif fənlərə geniş tətbiqinə şahidlik etməsinə baxmayaraq, hələ də həllini tapmamış bir çox məsələlər var. Hallidey və Həsənin koheziya nəzəriyyəsi dilin mətn səviyyəsində necə işlədiyinə yeni işıq salsa da, dillərimizi daha yaxşı başa düşmək və koheziya nəzəriyyəsini daha da inkişaf etdirmək üçün hələ də təkmilləşdirmələrə və araşdırmalara ehtiyacı olan bir çox sahələr var.

**Açar sözlər:** koheziya, koherentlik, mətn, diskurs.

## Ədəbiyyat


1. Katrin Menzel, Ekaterina Lapshinova-Koltunski & Kerstin Kunz. (2017). Cohesion and coherence in multilingual contexts . In New perspectives on cohesion and coherence. Berlin: Language Science Press.
2. Halliday M.A.K., Hasan R. (1976). Cohesion in English. London: Longman Group Limited.
3. Traugott E.C., Pratt M.L. (1980). Linguistics for students of literature. New York: Harcourt Brace Jovanovich.

# YOL HƏRƏKƏTİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ NƏQLİYYAT MODELLƏŞDİRİLMƏSİ

**Orxan Rəhimzadə**
Azərbaycan Texniki Universiteti
rehimzade.2019@mail.ru

Hazırda yol hərəkətinin təşkilinə (YHT) çox diqqət yetirilir və bu məsələləri tənzimləyən sənədlər qəbul edilir. Ərazilərə nəqliyyat xidmətlərinin göstərilməsi problemlərinin həllində yol və küçə-yol şəbəkəsinin səmərəliliyini artırmaq məqsədilə yol hərəkətinin təşkili və onun idarə edilməsinə dair sənədlərin hazırlanması həyata keçirilir.

Hərəkətin təşkili və idarə olunması üçün effektiv həllərin işlənib hazırlanması yalnız nəqliyyat modelləşdirməsinin tətbiqi əsasında mümkündür. Nəqliyyat modellərinin seçimi, həlli müvafiq YHT sənədinin bir hissəsi kimi həyata keçirilən vəzifələrdən və bu vəzifənin həll olunduğu obyektdən asılıdır ki, bu da belə obyektlərin təsnifatının işlənib hazırlanmasını və müxtəlif YHT sənədləri üçün tapşırıqların nomenklaturasının müəyyənləşdirilməsini tələb edir.

Qaydalara uyğun olaraq, YHT üzrə sənədlərin hazırlanmasının əsas məqsəd və vəzifələri:

1) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi;

2) nəqliyyat vasitələrinin və piyadaların hərəkət şəraitinin sadələşdirilməsi və yaxşılaşdırılması;

3) nəqliyyat vasitələrinin və piyadaların proqnozlaşdırılan axınının keçidinin təşkili;

4) yolların tutumunun və onlardan istifadənin səmərəliliyinin artırılması;

5) müxtəlif funksional təyinatlı əsaslı tikinti üçün yeni və ya yenidən qurulan obyektlər (ayrı-ayrı obyekt və ya obyektlər qrupu) üçün nəqliyyat xidmətlərinin təşkili;

6) nəqliyyat vasitələrinin və piyadaların yol hərəkətinin həyata keçirilməsində iqtisadi itkilərin azaldılması;

7) avtomobil nəqliyyatının ətraf mühitə mənfi təsirinin azaldılması.

Yol hərəkətinin təşkili problemlərinin həlli üçün istifadə olunan modellər bu məqsədləri nəzərə alınmaqla seçilməli və modelləşdirmənin nəticələri bu məqsədlərə nail olma dərəcəsini qiymətləndirməyə imkan verməlidir.

Modellərdə lazım olanlar:

- hərəkətin təşkili və nəzarəti üzrə qərarlar qəbul edilərkən layihələndirilən obyektdə potensial təhlükə səviyyəsini qiymətləndirmə;
- müxtəlif kateqoriyalı hərəkət iştirakçılarının hərəkət intensivliyini və yol şəbəkəsi elementlərinin yük səviyyələrini, hərəkət şəraitini xarakterizə edən parametrləri hesablama;
- ayrı-ayrı ərazilər və/və ya obyektlər üzrə nəqliyyat xidmətlərinin səviyyəsini xarakterizə edən parametrləri müəyyən etmə (ilk növbədə, baxılan ərazidən keçərkən və/və ya verilmiş məntəqələrdən obyektə keçərkən əlaqə vaxtı);
- nəqliyyat vasitələrinin və piyadaların yol hərəkətinin həyata keçirilməsində iqtisadi itkilərin hesablanması, habelə avtomobil nəqliyyatının ətraf mühitə təsirinin qiymətləndirilməsi üçün zəruri olan parametrləri müəyyən etmə.

Yol hərəkəti təşkilinin kompleks sxemlərində (YHTKS), qaydalara uyğun olaraq, yol hərəkəti iştirakçılarının bütün kateqoriyaları üçün yol hərəkətinin təşkili ilə bağlı fərdi həllər işlənib hazırlanır ki, bu da modelin bir hissəsi kimi təxmin edilən dövr üçün hərəkətin təşkili və işıqforun tənzimlənməsi üzrə tədbirlər üçün qəbul edilmiş variantlar nəzərə alınmaqla onun iştirakçılarının bütün kateqoriyalarının (avtomobillər, ictimai marşrut sərnişin nəqliyyatı, yük avtomobilləri, velosipedçilər, piyadalar) perspektiv hərəkət intensivliyinin proqnozlaşdırmasını tələb edir. Avtomobillərin müvəqqəti və daimi saxlanması, dayanacaq yerlərinin təşkili məsələlərinin həlli üçün layihələndirilən ərazidə hərəkətliliyin həcmi və növləri haqqında məlumat tələb olunacaq, həmçinin tranzit nəqliyyatı müəyyən etmək və onun hərəkətini təşkil etmək üçün hərəkətliliy haqqında məlumat tələb olunacaq.

Yol hərəkəti təşkilinin layihələrinin (YHTL) bir hissəsi kimi həllər hazırlamaq üçün mövcud nəqliyyatın təşkili ilə mövcud vəziyyəti simulyasiya etmək, bir model tələb edən nəqliyyatın təşkili üçün müxtəlif layihə həlləri üçün hərəkətin təşkili və işıqforun tənzimlənməsi üzrə tədbirlər üçün qəbul edilmiş variantları nəzərə almaqla, onun iştirakçılarının bütün kateqoriyalarının (sərnişin avtomobillərinin) perspektiv hərəkət intensivliyinin proqnozlaşdırılması üçün hazırkı an və təxmin edilən dövr üçün yol vəziyyətini proqnozlaşdırmaq lazımdır. YHTL-nın işlənib hazırlandığı model ərazinin (ümumi əhalisi 10 min sakin və (və ya) istismar müddəti ərzində bir və ya bir neçə bələdiyyənin ərazisində və ya onların ümumi sərhədi olan hissələrində və ya daha kiçik miqyaslı ərazi obyektlərində yolların və ya onların hissələrinin) miqyasında yol şəbəkəsində hərəkət şəraitinin modelləşdirilməsinə imkan verməlidir.

Sərnişin daşımalarının işinin təşkili problemlərinin həlli ümumi istifadədə olan sərnişin nəqliyyatının bütün növləri, o cümlədən küçədənkənar (metro, şəhərətrafı və şəhərdaxili sərnişindaşıma, sürətli tramvay) sərnişindaşımalarının proqnozlaşdırılması modelini tələb edəcəkdir. Planlaşdırma xüsusiyyətlərini, müxtəlif kateqoriyalı yol istifadəçilərinin hərəkət xüsusiyyətlərini nəzərə almağı tələb edən xüsusi layihə həlləri YHTL-nın bir hissəsi kimi hazırlandığından, yol şəraiti, hərəkətin tənzimlənməsi və bütün kateqoriyalardan olan hərəkət iştirakçılarının davranışı nəzərə alınmaqla yüksək dəqiqliklə simulyasiya modellərindən istifadə edilməsi tələb olunur. YHTL həllərinin variantlarını bir-biri ilə və baza ilə müqayisə edə bilmək üçün hərəkətin təşkili üçün müxtəlif həllər modellərin layihə parametrlərində dəyişikliklərin hesablanması və göstərilməsi variantı olmalıdır.

YHTL məlumatları, tapşırıqlar toplusu və tətbiq olunan modellərin növləri ərazilərin yol şəbəkəsi üçün hazırlanmış YHTL dəstlərə yaxın olacaqdır. Əsas fərq modelləşdirmə obyektinin miqyasındadır; küçələrin və yolların və ya onların hissələrinin istismar müddəti üçün YHTL üçün xətti obyektlər üçün modellərin olması kifayətdir ki, bu da istifadə olunan modelləşdirmə qrafının ölçüsünə tələbləri əhəmiyyətli dərəcədə azaldır. Beləliklə, küçələrin və yolların və ya onların hissələrinin istismar müddəti üçün YHTL-nin bir hissəsi kimi həllər hazırlamaq üçün nəqliyyatın təşkili üçün müxtəlif layihə həlləri üçün təxmin edilən dövr üçün, onun iştirakçılarının bütün kateqoriyalarının (avtomobillər, ictimai marşrut sərnişin nəqliyyatı, yük maşınları, velosipedçilər, piyadalar) gələcək hərəkət intensivliyini proqnozlaşdırmaq üçün bir model tələb edən, yol hərəkətinin təşkili və işıqforun tənzimlənməsi üçün tədbirlər üçün qəbul edilmiş variantları nəzərə alaraq,

simulyasiya modeli yol şəraiti, yol hərəkətinin tənzimlənməsi və bütün kateqoriyalı hərəkət iştirakçılarının davranışı nəzərə alınmaqla yüksək dəqiqliyə malik xətti obyektin, habelə verilmiş optimallaşdırma meyarına uyğun olaraq işıqfor obyektində tənzimləmə rejimlərini hesablamağa imkan verən modellər (gecikmələrin minimuma endirilməsi və s.), layihələndirilən ərazidə yol hərəkəti sistemində nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin imitasiya edilməsi, işıqfor obyektlərinin işinin əlaqələndirilməsi  xətti bir obyektdə nəqliyyat vəziyyətini proqnozlaşdırmaq lazımdır.

Küçələrdə və yollarda müvəqqəti məhdudiyyətlərin tətbiqi və ya nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin dayandırılması dövrü üçün YHTL hazırlayarkən həll edilməli olan əsas vəzifələrdən biri obyektin cəkicilik zonasını, yəni məhdudiyyətlər qoyulduqda yol hərəkəti vəziyyəti dəyişən (sürücülük şəraiti dəyişən) ərazisini müəyyən etməkdir. Bu yol hərəkətinin təşkili və işıqforun tənzimlənməsi üzrə tədbirlər üçün qəbul edilmiş variantlar nəzərə almaqla

(avtomobillər, marşrut ictimai sərnişin nəqliyyatı, yük avtomobilləri, velosipedçilər, piyadalar), mövcud yol hərəkətinin təşkili ilə mövcud vəziyyətin modelləşdirilməsini, mövcud yol hərəkətinin təşkilinə məhdudiyyətlər qoyulduqda yol hərəkətinin vəziyyətinin proqnozlaşdırılmasını və yol hərəkətinin idarə edilməsinə dair qəbul edilmiş layihə qərarlarını, yəni onun iştirakçılarının bütün kateqoriyalarının hərəkət intensivliyini proqnozlaşdırmaq üçün modelləri tələb edəcəkdir. Modeldə müxtəlif variantlarda (məhdudiyyətlər tətbiq edilməzdən əvvəl, mövcud hərəkət təşkilatı ilə tətbiq edildikdən sonra, nəqliyyatın hərəkəti ilə bağlı layihə qərarları üçün məhdudiyyətlər tətbiq edildikdən sonra) bütün kateqoriyalardakı yol hərəkəti iştirakçılarının hərəkət intensivliyində dəyişikliklərin hesablanması və göstərilməsi variantı daxil edilməlidir.. Küçələrin və yolların və / və ya onların kəsişmələrinin ayrı-ayrı hissələri üçün xüsusi layihə həlləri hazırlamaq üçün yol şəraiti, hərəkətin tənzimlənməsi və bütün kateqoriyalı hərəkət iştirakçılarının davranışı nəzərə alınmaqla yüksək dəqiqliklə simulyasiya modellərindən istifadə etmək lazımdır. Yol şəbəkəsində işıqfora nəzarət cazibə zonası varsa, bir qayda olaraq, işıqforun tənzimlənməsində dəyişiklik tələb olunur, bunun üçün işıqfor qurğusunda tənzimləmə rejimlərini hesablamağa, layihə zonasında yol hərəkətinə nəzarət sistemində piyadalar, işıqfor obyektlərinin işini əlaqələndirən, nəqliyyat vasitələrinin hərəkətini simulyasiya etməyə imkan verən modellər lazımdır..

Bu tədbirlərdə müxtəlif kateqoriyalı iştirakçıların çatdırılmasını tələb edən kütləvi tədbirlərin keçirilməsi ilə əlaqədar məhdudiyyətlər tətbiq olunduqda, tədbirlər iştirakçılarının onların imkanları nəzərə alınmaqla çatdırılmasını təmin etmək üçün sərnişin nəqliyyatının fəaliyyətinin xüsusi simulyasiya modellərinə ehtiyac duyulur.

Bir kəsişmədə, dayaqda və ya piyada keçidində işıqfora nəzarəti təşkil edərkən layihə problemlərini həll etmək üçün habelə obyektdə qəbul edilmiş hərəkətin təşkili və işıqforun tənzimlənməsi rejimləri (qəbul edilmiş mərhələ-mərhələ ayrılması, faza müddəti və s.) nəzərə alınmaqla nəqliyyat vasitələrinin hərəkətinin və piyadaların simulyasiya modeli müəyyən bir optimallaşdırma meyarına (gecikmələrin minimuma endirilməsi və s.) uyğun olaraq işıqfor obyektində tənzimləmə rejimlərini hesablamağa imkan verən bir modelə sahib olmaq lazımdır. Qəbul edilmiş layihə qərarları ilə obyektdə potensial təhlükə səviyyəsini qiymətləndirmək üçün yol hərəkəti

təhlükəsizliyinin qiymətləndirilməsi moduluna malik olmaq və ya bu problemi həll etmək üçün ayrıca modeldən istifadə etmək lazımdır.

Şəhər şəraitində xətti bir obyektdə YHAIS üçün layihə sənədlərini hazırlayarkən, yəni işıqforun tənzimlənməsi olduqda magistral yolda, işıqforun tənzimlənməsi və işıqfor obyektlərinin işinin koordinasiyası üçün ən təsirli həllərin hazırlanması üçün modelləşdirmə tələb olunacaq.. Bu problemlərin həlli müxtəlif idarəetmə texnologiyaları ilə müəyyən edilmiş optimallaşdırma meyarına uyğun olaraq işıqfor obyektində tənzimləmə rejimlərini hesablamağa imkan verən modellərin mövcudluğunu, işıqfor obyektlərinin əlaqələndirilməsini, işıqfor obyektlərinin simulyasiya modelini tələb edəcəkdir.

Bu vəzifələri iki yolla həll etmək olar:

Variant 1 - modelləşdirmə əsasında avtomobil yolunun istismarı zamanı sonradan dəqiqləşdirilməklə, magistral yoldakı vəziyyətdən (küçədə hərəkətin intensivliyindən) asılı olaraq işıqfor obyektləri üçün idarəetmə rejimləri bazası yaradmaqla situasiyalı nəqliyyat nəzarəti. Nəzarət ssenarisinin seçimi idarə olunan amillərin sərhəd dəyərlərindən keçərkən həyata keçirilir.

Variant 2 - real vaxt rejimində adaptiv idarəetmə, burada idarə olunan parametrlərin qiymətlərinin müəyyən edilməsi - işıqforların iş rejimləri real vaxt rejimində sensorlardan alınan, nəzarət edən (nəqliyyat detektorları) - sözügedən küçədə və onun kəsişdiyi küçələrdən yol ayrıclarına yaxınlaşmalarda nəqliyyat vasitələrinin hərəkət intensivliyi amillərin qiymətləri əsasında həyata keçirilir. Bu halda real vaxt rejimində işləyən dinamik modellərin seçilməsi tələb olunur.

Magistral yollarda və yüksək sürətli yollarda xətti obyektdə YHAIS üçün layihə sənədlərinin hazırlanması, yəni magistral YHAIS, yük səviyyəsini və nəzarətini nəzərə alaraq magistral yolda sürət rejiminə giriş nəzarət sisteminin mövcudluğu ilə yolun girişinə nəzarət etmək üçün ən effektiv həlləri hazırlamaq üçün modelləşdirmə lazımdır.. Girişə nəzarət etmək üçün yolun girişlərində işıqforların iş rejimlərinin hesablamalarını aparmaq lazımdır. Bu problemlərin həlli yolda avtonəqliyyat vasitələrinin hərəkətinin simulyasiya modelindən istifadəsini tələb edir ki, bu da nəqliyyat vasitələrinin hərəkət intensivliyini, nəqliyyat axınının tərkibini, girişləri və çıxışları nəzərətə alır, nəqliyyat vasitələrinin hərəkətinin intensivliyini və şəraitini təmin edir.

Şəhər mühitində bir ərazi obyektində YHAIS üçün layihə sənədləri hazırlanarkən, yəni işıqforun tənzimlənməsi mövcud olduqda, işıqforun tənzimlənməsi və işıqfor obyektlərinin işinin koordinasiyası üçün ən təsirli həllərin hazırlanması üçün modelləşdirmə tələb olunacaq. nəzarət zonasında küçə və yollar şəbəkəsi. Bu problemlərin həlli müxtəlif idarəetmə texnologiyaları ilə verilmiş optimallaşdırma meyarına (gecikmələrin minimuma endirilməsi və s.) uyğun olaraq işıqforlarda bir-birinə bağlı idarəetmə rejimlərinin hesablanmasına imkan verən modellərin mövcudluğunu tələb edəcəkdir. Bu problemlər real vaxt rejimində işləyən dinamik modellərdən istifadə etməklə ən effektiv şəkildə həll edilir. Potensial qəzaların səviyyəsini qiymətləndirmək üçün qəbul edilmiş yol hərəkətinin təşkili və işıqforun tənzimlənməsi ilə yol hərəkəti təhlükəsizliyini qiymətləndirmək üçün model (modeldə modul) tələb olunacaq.

**Açar sözlər:** yol hərəkəti, nəqliyyat, modelləşdirmə.

**Ədəbiyyat**

1. http://sdu-sdtk.edu.az/wp-content/uploads/2020/11/YHT-1.pdf
2. https://azstand.gov.az/upload/files/517-IQ%20Yol%20hərəkəti%20haqqında.pdf
3. https://avtosfer.az/az/yazarlar/yol-hereketinin-tehlukesizliyi-piyada-olumleri-movcud-risk-faktorlari-ve-cixis-yolu-91530
4. https://metbuat.az/news/1150536/bna-dan-yol-hereketinin-teskili-ile-bagli-novbeti-layihe-fot.html

## BƏDƏN DİLİNİN İFADƏSİNDƏ GENDER ASİMMETRİYASI
## (Britaniya elitar diskursunda "*curtsy*" ritual jesti ənənələri)

**Aygün Rüstəmzadə**
Azərbaycan Dillər Universiteti
r.aygun.h289@gmail.com

Britaniya elitar diskursunda qeyri-verbal dil işarələrinin ifadəsində gender asimmetriyası müşahidə olunur. Belə ki, zadəgan titullu şəxslə salamlaşma jestində kişilərdən fəqli olaraq, qadınların "daha dərin təzim" ifadə etməsi tələbi qoyulur. Əslində, "tələb" sözü müasir dünyanın multikultural dəyərlər sistemi çərçivəsində, liberal baxış bucağının əsas qiymətləndirici doktrin olması aspektində bir qədər qeyri-apelyasyon səslənir. Belə ki, müasir Britaniya top-elitası, yəni kraliyyət ailəsinin etiket qaydaları (*royal etiquette*) son bir neçə ildə daha siyasi korrektəli ifadəyə: "*arzu olunandır*" qeydinə daha çox üstünlük verməkdədirlər. Məsələn, *monarxla görüşdə onun yaxın qohumları da daxil olmaqla bütün əyanların reverans etməsi arzu olunandır*. Həmin qaydalar sisteminin "Greeting a Member of The Royal Family" bölümündə oxuyuruq: ***There are no obligatory codes of behaviour when meeting The Queen or a member of the Royal Family****, but many people wish to observe the traditional forms. For men this is a neck bow* ***(from the head only)*** *whilst* ***women do a small curtsy****. Other people prefer simply to shake hands in the usual way*. (kursiv bizimdir. – A.R.) [1].

Göründüyü kimi, "arzu olunandır" ifadəsindən istifadə etməyimiz onunla bağlıdır ki, müasir Britaniya toplumunda liberal və multikultural dəyərlər üstün tutulduğundan, əvvəlki dönəmlərdən fərqli olaraq, heç bir fərdə qarşı referans tələbi qoyulmur. Kraliyyət institutlarının rəsmi təlimatlarında da reverans – yalnız və yalnız tövsiyyə edilən ritual kimi qeyd edilir. Bununla belə, mühafizəkar Britaniya toplumunda, xüsusilə Britaniya elitasında reverans ritualı günümüzdə də ciddi şəkildə gözlənilməkdədir. Kraliçanın doğma nəvələrinin həyat yoldaşları və övladlarının onunla görüşlərdə reverans etməsi, habelə kral ailəsi nümayəndələrinin özlərinin də digər dövlətlərinin monarxları ilə görüşlərdə bu salamlaşma ritualından istifadə etməsi – reveransın Britaniya elitar diskursundakı önəmli mövqeyindən xəbər verir. *See* ***Kate Middleton's Perfect Curtsy to Queen Elizabeth*** *at Chelsea Garden Show. With one foot behind the other,* ***Kate quickly bent her knees*** *and smiled at the Queen as the trio continued their conversation.* [2]; *The* ***little royal*** *held out her coat as*

*she dipped into an adorable* ***curtsy****. Continuing to show off her* ***excellent royal etiquette****,* ***Charlotte then shook hands with the clergyman*** *before joining Kate in greeting members of the public*. [4]. Nümunələrdə bilvasitə Britaniya elitasının ən üst təbəqəsini təcəssüm etdirən kral ailəsinin üzvlərinin (Kembridc Hersoginyası və onun qızı şahzadə Şarlottanın) elitar diskursa aid qeyri-verbal dil mexanizmlərindən müvəffəqiyyətlə yararlanması faktları təsvir edilir. ***Princess Anne curtsies for King Abdullah II*** *as she welcomes Queen Rania and their son Crown Prince Hussein to Buckingham Palace on Thursday* [5]; *The* ***66-year-old Princess Royal*** *performed an elaborate* ***curtsy*** *as she welcomed* ***Queen Letizia and King Felipe*** *to a lavish dinner at the Guildhall in London on Thursday night*. [6].

**Gender assimmetriyasını** biz, eləcə də növbəti nümunə timsalında da izləmiş oluruq. Belə ki, qəliz iyerarxik münasibətlər sistemi, eləcə də 2005-ci ildə kraliça II Yelizavetanın verdiyi fərman kral ailəsi üzvlərinin bir-birini salamlayarkən etdikləri reveransın reqlamentini müəyyənləşdirir. Reverans sisteminin qəlizliyi ondan ibarətdir ki, kral ailəsi üzvü ilə nikaha daxil olmuş xanımlar öz ailələrini otaqda, tədbirdə həyat yoldaşları ilə deyil, tək təmsil etdikdə onlar tam fərqli reverans sistemini icra etməlidirlər. ***Yəni, onların statusu yalnız həyat yoldaşlarına nəzərən yüksək sayılır ki, bu da gender assimetriyası sayıla bilər***. Belə ki, kraliçanın 2005-ci ilə fərmanı ilə qandan gələn şahzadələr (blood princess) sonradan (şahzadələrlə nikahdan sonra) bu titulu əldə etmişlərdən üstün sayılırlar. Yəni, əgər nəvə şahzadə gəlin şahzadəni tək gördükdə sonuncu ona reverans etməli olduğu halda, nəvə şahzadə gəlin şahzadəni vəliəhd olan həyat yoldaşı ilə birgə gördükdə isə, tam əksinə nəvə şahzadə cütlüyə reverans etməlidir [6].

Başqa sözlə desək, məhz müəyyən tədbirdə, konkret situasiyada kimin kimə reverans etməsi aşkar şəkildə həm zadəganlıq iyerarxiyasında kimin daha üstün mövqedə olduğunu nümayiş etdirmiş olur, həm də implisit məlumat ötürücülüyü ilə kimin tək (həyat yoldaşı olmadan) tədbirə qatıldığını müəyyənləşdirməyə imkan verir. Yəni eyni bir ritual jest elitar diskurs üçün mühüm olan əlavə məna yükünü də əks etdirmiş olur.

"***Blood princesses***,*" or those females who are born into the* ***royal family*** *— like* ***Princess Beatrice, Princess Eugenie, and Princess Charlotte*** *— are considered to be a* ***higher rank*** *than someone who marries into the* ***royal family****. This is because of a* ***rule*** *change* ***Queen Elizabeth*** *enacted in 2005 after* ***Prince Charles*** *married Camilla Parker Bowles. The* ***queen's daughter, Princess Anne, and cousin, Princess Alexandra, no longer have to curtsy to Camilla when she is not accompanied by Charle****s, as they outrank her as "****blood princesses****." If Camilla and Charles are together, Anne and Alexandra have to curtsy to her because* ***Charles is of a higher rank than them****.* [6].

Təqdim olunan mətn iqtibasının timsalında reverans ritual salamlaşma jestinin Britaniya elitar diskursu ilə nə dərəcədə "iç-içə" olduğunu əyani şəkildə izləmək mümkündür. Eləcə də bu nümunələr Britaniya elitar diskursunda gender asimmetriyası "ənənələrinin", yəni kişi cinsindən olan zadəganlara daha çox imtiyaz tanınmasının, onların daha üstün tutulmasının hələ də implisit şəkildə davam etdiyini ortaya qoyur.

**Açar sözlər**: elitar diskurs, Britaniya linqvokulturoloji mühiti, "***curtsy***" ritual jesti, gender asimmetriyası.

**Ədəbiyyat**

1. Greeting a Member of The Royal Family https://www.royal.uk/greeting-member-royal-family
2. Hill E. A Kiss for Granny! // https://people.com/ May 20, 2019.
3. London B. Now THAT'S how you curtsy! // Daily Mail, 13 July 2017.
4. Petit S. Princess Charlotte Shows Off Her Picture-Perfect Curtsy to the Queen on Christmas. People.com, December 26, 2019 , https://people.com/
5. https://www.dailymail.co.uk/femail/article-6756481/Queen-Princess-Anne-host-Jordans-royal-family-Buckingham-Palace.html
6. https://www.womansworld.com/posts/entertainment/who-bows-to-who-in-the-royal-family-royal-curtsy-160603

## "BİR PƏNCƏRƏ PRİNSİPİ" - AZƏRBAYCAN RESPUBLİKASININ MİQRASİYA SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**Rasim Rzaxanov**
Bakı Dövlət Universiteti
rasimrzaxanov@mail.ru

Müasir qloballaşan dünyada miqrasiya mədəniyyətlər, etnik qruplar həmçinin dillər arasındakı sərhədləri aradan qaldıraraq mədəni və iqtisadi bir varlığa çevrilmişdir. Hazırda deyə bilərik ki, miqrasiya qaçılmaz bir vəziyyətə çevrilib. Miqrasiya prosesləri yeni imkanlara və müdafiə axtarışına əsaslanır [7].

Miqrasiya istənilən beynəlxalq sərhəddən və ya ölkə daxilində hər hansı səbəbdən istənilən insan hərəkətini əhatə edən bir prosesdir [9].

Miqrasiya prosesinin mahiyyətinin nədən ibarət olduğunu Ümummilli lider Heydər Əliyev öz müdrikliyi və uzaqgörənliyi ilə açmış və yüksək qiymətləndirmişdir: "Miqrasiya təbii bir prosesidir, qarşısı alına bilməz, alınmamalıdır və ümumilikdə müsbət haldır. Dünyada miqrasiya prosesləri bütün ölkələrə və xalqlara aiddir" [8].

Ölkəmizdə miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişafı, miqrasiya proseslərinin tənzim edilməsi və proqnozlaşdırılması, bu sahədə müəyyən dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 mart 2007-ci il tarixli Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında fərmanı xüsusi rol oynamışdır [2].

Qanunvericilik miqrasiyanın tənzimlənməsi üçün vacib şərtdir. Dövlət bütün sahələri tənzimləyən əsas orqandır və bu kontekstdə əlaqəli sahələrdə münasibətləri və əlaqələri tənzimləyir [5, s.77]. Buna görə də Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin eləcə də vətəndaşlığı olmayan şəxslərin ölkəyə gəlişi və getməsi, əcnəbilərin həmçinin vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olmaları, müvəqqəti və daimi yaşamaları məqsədi ilə icazələrin verilməsi,

qeydiyyata alınması ilə bağlı miqrasiya, qeyri-qanuni miqrasiya ilə mübarizə Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyin müddəaları ilə tənzim edilir [3].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi tədbirlər miqrasiya prosesinin vahid və aktiv prosedurlar əsasında təşkilinə, bu sahədə olan maneələrin tamamilə aradan qaldırılmasına eləcə də sənədləşmənin sadələşdirilməsinə xidmət göstərir. Bu baxımdan, ölkə başçısının Miqrasiya proseslərinin idarəsində “bir pəncərə” prinsipinin tətbiq edilməsi barədə 4 mart 2009-cu il tarixli sərəncamı ölkədə miqrasiya proseslərinin daha aktiv prinsiplər əsasında idarə olunması, bu sahədə effektivliyi təmin edən və problemləri aradan qaldıran prosedur və mexanizmlər baxımından mühüm əhəmiyyət kəsb edir [6].

1 iyul 2009-cu ildən miqrasiya sahəsində həyata keçirilən “bir pəncərə” prinsipinin mahiyyəti vaxt itkisinin və insanların bürokratik maneələrlə üzləşməsinin qarşısını almaqdan ibarətdir. Məlumatlar bir mərkəzdə cəmləşir, insanlar bir ünvana müraciət edərək cavabını onlardan alırlar [4, s.10-11].

Miqrasiya proseslərinin idarə edilməsində “bir pəncərə” prinsipinin tətbiq edilməsi çərçivəsində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə bəzi vəzifələrin yerinə yetirilməsi həvalə edilib. Əcnəbilərə və vətəndaşlığı olmayanlara Azərbaycan Respublikasının ərazisində müvəqqəti eləcə də daimi yaşamaq icazələrinin verilməsi məqsədi ilə Miqrasiya İdarəsi tərəfindən sənədlərin qəbulu; əcnəbilərə və vətəndaşlığı olmayanlara Azərbaycan Respublikasının ərazisində ödənişli işlərdə işləməyə icazə verilməsi üçün sənədlərin əldə edilməsi və rəyləri ilə birlikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilməsi; əcnəbilərə və vətəndaşlığı olmayanlara Azərbaycan Respublikasının ərazilərində müvəqqəti və daimi yaşamaları məqsədi ilə icazələrin verilməsi; Azərbaycan Respublikasının ərazilərində müvəqqəti və daimi yaşamaq məqsədi ilə icazə alan əcnəbilərin və vətəndaşlığı olmayanların olduğu yer üzrə qeydiyyata alınması; Azərbaycan Respublikasının ərazilərində müvəqqəti və daimi yaşamaq məqsədi ilə icazə alan əcnəbilərə və vətəndaşlığı olmayanlara müvafiq arayışların verilməsi; Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasında müvəqqəti yaşayan əcnəbilərin eləcə də vətəndaşlığı olmayanların uçota alınmasını və bununla bağlı digər məsələləri təmin etməlidir [1, s.286].

Azərbaycan Respublikasının ərazisində yaşayan əcnəbilərə və vətəndaşlığı olmayanlara müvəqqəti yaşamaları üçün icazələrin verilməsi ilə əlaqədar müraciətlərə Dövlət Miqrasiya Xidməti 20 gün ərzində baxır. Miqrasiya proseslərinin idarə edilməsində “bir pəncərə” prinsipi tətbiq edilən gündən Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaları məqsədi ilə icazə alan əcnəbilər və vətəndaşlığı olmayanlar Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş etibarlı şəxsiyyət sənədləri və bununla bağlı sənədlərlə Azərbaycan Respublikası ərazisindən gedə və Azərbaycan Respublikasına qayıda bilərlər.

Sonda qeyd edə bilərik ki, Dövlət Miqrasiya Xidməti “bir pəncərə” prinsipini səmərəli həyata keçirməklə yanaşı, üzərinə düşən vəzifələri layiqincə və vaxtında yerinə yetirir, qeyri-leqal miqrasiyaya qarşı daim mübarizə apararaq ölkəmizin təhlükəsizliyinə öz töhfəsini verir.

**Açar sözlər:** dövlət siyasəti, miqrasiyanın tənzimlənməsi, miqrasiya məlumat sistemi, müvəqqəti və daimi yaşamaq, vətəndaşlığı olmayan şəxslər.

**Ədəbiyyat**

1. Abdullayev F. Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı, Elm və Təhsil, 2009, 328 s.
2. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. 19 mart 2007-ci il. № 560.
3. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Maddə 4. Bakı-2013. Dövlət Miqrasiya Xidməti.
4. "Bir pəncərə prinsipi". "Miqrasiya". Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin jurnalı. № 3, mart 2013.
5. Nəsibov E.M. Miqrasiyanın Əsasları. I kitab. Bakı, Elm və Təhsil, 2014, 240 s.
6. Rəhimov A. Dövlət Miqrasiya Xidməti Azərbaycanın milli maraqlarının keşiyində etibarlı dayanır. Respublika qəz., 2011, 19 mart.
7. Миграция и права человека. Миграция в мире. http://www.ohchr.org/ru/
8. https://migration.gov.az/az/press_detail/292.
9. https://www.coe.int/az/web/compass/migration.


## DİN VƏ MƏNƏVİ İDEAL BARƏDƏ BƏZİ MÜLAHİZƏLƏR


**Məmmədtağı Rzayev**
Bakı Slavyan Universiteti
m.rzayev@hotmail.com


Müasir dövrümüzdə şəxsiyyətin özünütəsdiqinin nədə ifadə olunduğu, müqəddəsliyin mənəvi idealı etalonunun kim və ya nə olduğu haqqındakı suallar xeyli aktuallaşmışdır. Məlumdur ki, hər hansı dini təlim özünün kamillik idealını irəli sürür. Ancaq onlar arasında ümumi olan bir məqam vardır - bu, Allaha və ya dinin xüsusiyyətindən asılı olaraq digər Ali varlığa inamdır. Müxtəlif dinlərdə ideal insan haqqında fərqli müddəaların olması birbaşa insan-Allah münasibətlərinin xarakteristikası məsələsini ortaya çıxarır.

İnsanın mənəvi idealı məsələsində Allahın mövcudluğu konsepsiyası, şəxsiyyət üçün ideal olanın nə olduğunu aydınlaşdırmaq, həqiqəti dərk etməyin yolu, mənəvi özünüdərk və özünüdərkin nə olduğunu ifadə edən məsələlər ön planda gəlir.

Əksər dinlər başqalarına qarşı lazımi münasibətin olmasının ilkin şərti insanın özünə yaxşılıq istəməsindən ibarətdir prinsipini qəbul edir. İnsan başqalarının hörmət və sevgisinə layiq olduğunu dərk edənə qədər onun digərlərinə yaxşılıqlar arzu etməsinin yeri yoxdur. İnsan başqasını özü kimi sevirsə, bu o deməkdir ki, o, həmdə özünü sevir. Lakin yuxarıda deyilənlərin ifrata varılması insanda özünəvurğunluq hisslərini də yarada bilər.

Hər hansı yüksək keyfiyyətə malik olduğundan lovğalıqla danışanlar təkəbbürlü insan hesab edilir. Təkəbbür əksər dini təlimlərdə məhz bu cür izah edilir. Təkəbbürün insana xəstəliklər və şəxsi həyatda faciələr gətirdiyi barədə bir çox fikirlər vardır. İslam bu problemə çox ciddi yanaşır.

İslama görə insan öz varoluşundan razıdırsa, bu artıq özünəhörmət olduğu deməkdir. Digər insanlara yuxarıdan aşağı baxmaq, başqasının var olduğunu qəbul etməmək, onu heçə saymaqdır ki, bu da Allahın təqdir etmədiyi bir məqamdır. Bütün bəndələri Allah yaratmışdır və onun bu nemətinə kimsənin yuxarıdan aşağı baxmağa haqqı yoxdur. İnsanın özünü sevməsi ilə özü haqqında yüksək fikirdə olmasının sərhədləri barədə belə bir qənaətə gəlmək olar ki, insanın özünə sevgisi digərinə mütləq hörmət etmə ilə sıx bağlıdır. Yekəxanalıq isə özünə sevginin çatışmazlığından qaynaqlanan elə bir hissdir ki, başqasının varlığını qəbul etmir.

İudaizmdə insanla Allahın qarşılıqlı əlaqəsinin üç səviyyəsinin olduğu qeyd olunur. İslam və İudaizmdə Allahın təsvir edilməsi, həmçinin birbaşa Allahla assosiasiya oluna bilən obrazlar qəbuledilən deyil. Hər iki dinin fundamental xüsusiyyəti bütpərəstliyi qəbul etməməkdir.

Buddizmdə şəxsiyyətin mənəvi idealı hardasa Buddanın konkret həyatı əsasında formalaşır və həm də hər bir insan həmin yolu getməyə qadir olması təsəvvür edilir. Deməli, Buddizmdə insanın mənəvi idealı konkret şəxsin obrazına uyğun formalaşır. Buddizmdə şəxsiyyətin mənəvi idealı daha çox praktiki faktorlara bağlı olan həyat tərzindən qaynaqlanır.

Normativ İslamda ideal kamil insan anlayışı modeli yoxdur. İnsanın Allahla tam birləşməsi də yoxdur. İslam inanc sahibindən sonsuz kamilləşməni tələb etmir, Allaha şəkk etməməyi tələb edir. İslam həqiqi ruhani həyatı əsas götürür. İslam insanları Allah kimi mükəmməl olmağa səsləmir. O, Allahın buyruqlarına əməl etməyi, ilahi qadağalar çərçivəsində hərəkət etməyi rəva görür. İslamda mənəvi ideal tam Allaha bənzər insan obrazı deyil. Əksinə, İslam insanın Allahın qoyduğu qaydalara əməl etməyi və ona şəkk etməməyi önə çəkir. Bu baxımdan İslamda insanın mənəvi idealı sonsuz kamilliyə can atmaq ola bilməz. Müxtəlif keçməkeşlərə baxmayaraq, bütün mövcud dinlər insanın özünütəsdiqində ciddi rol oynadığı qənaətinə gəlmək mümkündür.

Aralarındakı müxtəlifliklərə rəğmən demək olar ki, bütün dinlər insanın özünütəsdiqini iradə azadlığı və xoşbəxt həyat bağlılığında təqdim edirlər. Təbiidir ki, ən ümumi səviyyədə müşahidə edilən bu oxşarlıq konkret məsələlər üzrə fərqliliklərin olduğunu da istisna etmir.

**Açar sözlər:** din, mənəvi ideal, təkəbbür, lovğalıq, buddizm, islam, özünütəsdiq.

## Ədəbiyyat

1. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. Bakı: Azərbaycan, 1997, 287 s.
2. Əliyev R.Y. İslam. Bakı: İrşad, 2000, 380 s.
3. Qurani-Kərim /ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev, Bakı: Çıraq, 2005, 636 s.
4. Васильев Л.П. Религии Востока. Конфуцианство, буддизм и даосизм. Москва: Либором, 2012, 194 с.
5. Всеобщая история религий мира, Москва: Эксмо, 2009, 736 с.
6. Джастин, У. История ислама. Пер. с англ. А. Г. Георгиева. Москва: Астрель, 2009, 304 с.
7. Эррикер, К. Буддизм. Пер. с англ. Л. Бесковой, Москва: ФАИР-ПРЕСС, 2002, 304 с.

# INTERNATIONAL CULTURAL RELATIONS OF THE REPUBLIC OF AZERBAIJANAS A PRIORITY OF STATE POLICY

**Arzu Rzayeva**
Azerbaijan Tourism and Management University
aliyeva.a91@bk.ru

International cultural cooperation, multilateral cultural relations are an important form of implementation of the foreign policy strategy of each state. As Azerbaijan is located at the crossroads of East and West, our national culture combines elements of culture from both sides. Therefore, the adoption of Azerbaijani culture in the world, especially the interest of Eastern and Western countries in our culture and art, is not accidental.

Today, Azerbaijani culture is rapidly integrating into the world. Influential international organizations of the world, as well as individual countries are closely interested in Azerbaijani culture and art. Azerbaijani art samples are demonstrated at international festivals, conferences and seminars, as well as artists take part in such events and introduce our country's cultural achievements to the world. USA, Canada, Russia, France, Austria, Germany, China, Japan, Egypt, Qatar, Italy, Spain, South Korea, Poland, Belgium, England, Ukraine, Turkey, Sweden, Belarus, Kazakhstan, Uzbekistan, Greece, Bulgaria, Finland , Days of Azerbaijani Culture held in Switzerland and other countries have become sustainable in recent years.

UNESCO's care for Azerbaijani culture, the celebration of the anniversaries of prominent Azerbaijani figures of literature and art through this organization, is a clear example of the growing ties. Of course, the awarding of the First Vice-President of Azerbaijan, President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva with the title of Goodwill Ambassador of this organization is also the result of great confidence. Also, thanks to many cultural events held on his initiative at the international level, the most influential figures of the modern world cultural system get acquainted with Azerbaijan and their role in increasing the prestige of our country increases over time [1].

With the initiative and support of President Ilham Aliyev, international music, theater festivals and competitions are regularly held in our country. These festivals are attended by world-famous artists - musicians, film and theater figures, artists. Among them are “International Music Festival named after U.Hajibeyli”, “D.Shostakovich Festival”, “Contemporary Music Festival named after G.Garayev”, “International Rostropovich Festival”, “Caravan International Music Festival”, “Baku International Jazz Festival”, “ Gabala International Music Festival ”,“ Bulbul Music Competition for Vocalists ”,“ Caravan International Music Project ”,“ International Theater Conference ”,“ Silk Road Stage of the International Theater Festival ”, The holding of the "World of Mugam" Mugam Festival and other art events had a positive impact on the development of international cultural relations in Azerbaijan and played an important role in expanding the dialogue between cultures [5].

International cultural relations are developing in the direction of bilateral and multilateral cooperation. In the continuation of bilateral cultural relations with many countries - Russia, China,

Great Britain, Poland, Turkey, Romania, Greece, Bulgaria, Italy, as well as with the republics of the post-Soviet space - Uzbekistan, Georgia, Belarus, Moldova, Kazakhstan, Kyrgyzstan, Ukraine intergovernmental agreements on cultural cooperation have been signed. The main priorities of this cooperation are the establishment of interaction in the fields of music, fine arts and architecture [2, s.101].

At present, our country, as an active subject of international cultural processes, is not only an active participant in many cultural programs and projects successfully implemented in the world, but also their initiator and organizer. By actively participating in world cultural processes, Azerbaijan not only enriches its national culture with progressive, universal ideas and values, but also makes a worthy contribution to the development of world culture.

Azerbaijan's national legislative system on culture defines the development of international cultural relations, the dissemination and promotion of national culture abroad, the development of international cooperation in the field of protection of cultural heritage, the establishment of relations with Azerbaijanis living abroad, meeting their cultural and spiritual needs [4].

International cultural cooperation includes relations in the fields of culture, art, science, education, media, youth exchange, sports, tourism, publishing, museums, libraries and others, as well as relations between various public organizations, creative organizations and individuals.

The multifaceted activity of the First Vice-President of Azerbaijan Mehriban Aliyeva is of special importance in the integration of Azerbaijani culture into world culture and its promotion in the international arena. Today, the foundation is closely involved in the dialogue between cultures at the international level, acting as an initiator and organizer of a number of programs to expand cultural cooperation. The holding of a number of international forums under the auspices of the Foundation both in Azerbaijan and abroad is a clear example of this. At the initiative of the Heydar Aliyev Foundation and its President Mehriban Aliyeva, our mugam, ashug art and other national treasures have been included in the UNESCO "Masterpieces" list. Within the framework of cooperation with UNESCO, with the support of the foundation, Azerbaijani theater, cinema, music, culture, organization of anniversaries of prominent representatives of science and literature, holding festivals, etc. The events are an expression of our country's support for the development of intercultural communication. Along with all this, other steps taken to promote Azerbaijan's rich cultural heritage at the international level, as well as its recognition by the peoples of the world, show that we are an integral part of the international community [4]. In recent years, important steps such as the development of tourism in Azerbaijan and the increase in tourist flows from abroad have created ample opportunities for the peoples of the world to get acquainted with the culture of Azerbaijan. For this purpose, in recent years, many books, albums,

**Açar sözlər**: siyasət, mədəni, qloballaşma, dövlət, dünya.

**References**


1. Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxışı http://president.az/articles/1845
2. "Mədəniyyət haqqında Azərbaycan Respublikasinin Qanunu" http://www.wtDo.int/edocs/lexdocs/laws/az/az/az070az.pdf
3. Quliyev. S, Tolerantlıq məsələsi, mövcud durum və Azərbaycan reallığı. Mədəniyyət. AZ / 2, 2017, 84-87 s. URL: http://www.elibrary.az/docs/JURNAL/ jrn2017_333.pdf
4. Armstrong, David. "Globalization and the social state" // Review of international Studies, Vol. 24, No. 4. October 2008.
5. Камалеева Х. Культурная глобализация и этнокультурная идентичность общества как факторы модернизации современного образования. – Известия Саратовского университета. Т. 2. Сер. Акмеология образования. Психология развития. Вып. 2. 2012, С. 203-206.


**Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələr dövlət siyasətinin prioriteti kimi**

Azərbaycan artıq dünyanın ən nüfuzlu beynəlxalq mədəni tədbirlərinə xüsusi olaraq dəvətlər alır. Faktiki olaraq, beynəlxalq miqyasda təşkil olunan rəsm sərgiləri, folklor festivalları, klassik və müasir musiqi festivalları, kitab sərgiləri, elmi-praktik konfranslar və s. Azərbaycan dünya birliyinin bir parçası olaraq təmsil olunur. Hər il İtaliya, Almaniya, Rusiya və Fransada keçirilən beynəlxalq vokal ifaçılarının festivalında Azərbaycanın təmsil olunması və burada gənc ifaçılarımızın öz istedadlarını nümayiş etdirməsi isə, xalqımızın kübarlığının böyük bir nişanəsidir. Belə bir qiymət Şərq dövlətləri və xalqları arasında xüsusi olaraq müstəsnalıq təşkil edir.

## ÖVLADLIĞA GÖTÜRÜLMÜŞ UŞAQLARIN RASTLAŞDIĞI ÇƏTİNLİKLƏR


**Nargilə Rzayeva**
Azərbaycan Universiteti
Nargila.Rzayeva@student.au.edu.az


Uşağın mənəvi, əxlaqi keyfiyyətlərə yiyələnməsi və şəxsiyyət kimi formalaşması ilk öncə ailə mühitindən başlayır. Övladlığa götürmə prosesi vasitəsilə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ailə mühiti ilə təmin olunur, digər tərəfdən isə uşaq sahibi ola bilməyən ailələr övlad sevinci yaşayır. Azərbaycan Respublikasında övladlığagötürmə prosesi uzunmüddətli olsa da, burada valideynə uyğun uşağın, uşağa uyğun valideynin tapılması əsas məsələlərdən biri hesab olunur. Sosial Xidmətlər Agentliyinin məhkəməyə verdiyi müsbət rəy nəticəsində proses uğurla tamamlanır. Lakin bununla belə uşağın götürüldüyü ilk ildə hər rübdə 1dəfə, uşağın 18 yaşına çatmasına kimi olan digər illərdə isə ildə 1 dəfədən az olmayaraq Agentliyin

sosial işçisi tərəfindən davamlı monitorinqlər həyata keçirilməklə uşağın rifah vəziyyəti nəzarətdə saxlanılmış olur.

Himayədən məhrum uşaqların ailə mühiti ilə təmin olunması hələ onların sağlam gələcəyə sahib olması demək deyil. Belə ki, bu uşaqlar yeni ailələrində də müəyyən çətinliklərlə üzləşə bilirlər. Övladlığa götürülmüş uşaqların rastlaşdığı çətinliklər yaş kateqoriyasına və prosesdən xəbərdarlıq dərəcəsinə uyğun olaraq dəyişə bilər.

Övladlığa uşaq götürən əksər valideynlər kiçik yaşlı uşaqların öz bioloji ailələrini tanımaması və ya xatırlamaması səbəbiylə kiçik yaşlı uşaqlara üstünlük verirlər və bu məsələnin gizli qalmasına çalışırlar. Uşaq böyüdükdə isə onların həqiqəti bilmələrindən qorxaraq onu qorumaq məqsədilə həmyaşıdlarıyla vaxt keçirməsinə imkan vermirlər. Bu isə uşağın sosiallaşmasına, şəxsiyyət kimi formalaşmasına mənfi təsir edir. Müəyyən müddət sonra uşaq kənar şəxslərdən övladlıq olduğunu öyrəndikdə qəzəb, kədər, günahkarlıq kimi hislər keçirməyə başlayırlar. “Bioloji valideynlərim kimlərdir və niyə məni tərk ediblər?”, “Bioloji valideynlərim kimi övladlığa götürən ailəm də məni tərk edərmi?” kimi suallara cavab tapmağa çalışarlar. Uşağa məhz valideynlər tərəfindən övladlıq olduğu doğru zaman dilimində və ən uyğun sözlərlə çatdırılarsa, uşağın bunu qəbul etməsi bir o qədər asan olar. Qərb mütəxəssisləri məktəbəqədər yaş dövrünü uşağa həqiqətin deyilməli olduğu ən doğru zaman hesab edirlər. Həqiqəti söylərkən ana və atanın hər ikisinin yekdil olması vacibdir və uşağı itirməmək naminə bioloji valideynləri ilə bağlı yalan demək yolverilməzdir [1].

Övladlığa götürülmüş uşaqların yaşadığı digər bir çətinlik ailənin bioloji uşağı dünyaya gələn zaman bu günə qədər övladlığa götürülmüş uşağa yönəlmiş sevgi və diqqətin öz yönünü yeni üzvə istiqamətləndirməsi ola bilər. Məhz buna görə ailə unutmamalıdır ki, övladlığa götürdükləri uşağa öz bioloji uşaqları olmadan əvvəl və sonra da fərqli münasibət göstərmək düzgün deyil. Uşaqlara eyni münasibət göstərilərsə, ailənin sevgi və diqqəti bütün uşaqlar arasında bərabər paylanmış olar və heç bir uşaq qayğıdan kənarda qalmaz.

Digər bir çətinlik kimi uşağa övladlıq olduğu deyildikdən sonra və ya övladlığa götürülərkən bunu dərk edəcək yaşda olub yeniyetməlik yaşına çatdıqda özünü cəmiyyət üçün yetərsiz, lazımsız hiss etməsini qeyd etmək olar. Buradakı əsas məqam uşağa övladlıq olduğu həqiqəti deyilən zaman uşağa uyğun sözlərlə övladlığagötürmənin, övladlıq olmanın pis bir hadisə olmadığını başa salmaqdır. Uşaq dərk etməlidir ki, övladlığa götürülmək, öz bioloji valideynlərinin vəfatı və ya onların himayəsindən məhrum olmaq cəmiyyət həyatında iştirak etməsinə mane olan əngəl deyil. Həmçinin yoldaşları tərəfindən ələ salınarkən övladlıq olduğu üçün utanmamalı olduğu, yaşadığı bütün problemləri valideynləri ilə bölüşə biləcəyi uşağa valideynlər tərəfindən mütəmadi olaraq başa salınmalıdır.

**Açar sözlər:** Övladlığa götürmə, övladlığa götürülmüş, övladlıq, bioloji valideyn, bioloji uşaq.

## Ədəbiyyat

1. https://www.ekipnormarazon.com/makalelerimiz/egitim/evlat-edinilmis-cocuk-ve-egitimi/

# FÖVQƏLADƏ HALLARIN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ METODLARI

**Əminağa Sadıqov, Mirsiyab İmanov**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
imanov_mirsiyab98@mail.ru

Fövqəladə hallarda təhlükəsizlik məsələsi prioritet məsələlərdən biridir. Hal-hazırda yanğın və sənaye təhlükəsizliyi ilə bağlı problemlərin həlli üçün çox sayda yanaşmalar var [2]. İnformasiya texnologiyalarının inkişafı, 3D modellərinin, xüsusi proqram təminatının, virtual reallıq simulyatorlarının yaranması ilə fövqəladə halın (FH) bilavasitə baş verməsi zamanı deyil, simulyatorla işləyərkən hazırlıq və bacarıqları məşq etmək imkanı yaranmışdır. Bu, FH-da poliqonlarda həmişə modelləşdirilməsi mümkün olmayan fəaliyyət bacarıqlarını inkişaf etdirməyə imkan verir. Həm fərdi bacarıqlar, həm də komandada işləmək bacarığı formalaşır. Kursantlar qüvvə və vasitələri düzgün bölüşdürməyi, qərar qəbul etməyi, komanda strategiyalarını inkişaf etdirməyi öyrənirlər.

Belə modellər insanların sağlamlığına birbaşa zərər vermədən müxtəlif fövqəladə hallarda necə hərəkət etməyi öyrənməyə imkan verir. Onlar FH-ın inkişafının mümkün variantlarını tez və minimal məsrəflərlə nəzərdən keçirməyə, onun gələcək inkişafını və nəticələrini proqnozlaşdırmağa imkan verir. Belə simulyatorlar həm də mümkün rəqiblərin qüvvə və vasitələrinin toqquşmasını modelləşdirməyə imkan verir [3].

Belə proqram vasitələrinin inkişafı informasiya texnologiyalarının müvafiq inkişafı olmadan mümkün deyil. Lakin real şərait yaratmaq üçün ətraf mühitin dəyişməsinin dinamikasını təsvir edən riyazi modelləşdirmə üsullarını tətbiq etmək lazımdır.

Riyazi modellər xarici amillərin müxtəlif təbiətini, o cümlədən onların qismən müəyyən edildiyi halları, bu amillərin təsadüfiliyini, ilkin məlumatın tamlığını və ya natamamlığını nəzərə almağa imkan verir.

Riyazi modelləşdirmə üsulları son dərəcə müxtəlifdir: diferensial tənliklər nəzəriyyəsi, riyazi fizikanın tənlikləri, ehtimal modelləri, oyunlar nəzəriyyəsi modelləri, riyazi statistika metodları, inteqral modellər və s.

Riyazi modelin növü FH-ın növündən asılı olaraq seçilir. Təbii fövqəladə hallar – yanğınlar, daşqınlar, zəlzələlər və s., bu modellərdə mütləq təsadüfi amil – təbiət var.  Oyunlar nəzəriyyəsi metodlarından istifadə edərək modelləşdirmə zamanı "təbiətlə oyunlar" adlanan üsullardan istifadə olunur [1].

Texnogen fövqəladə hallar əsasən sənaye və enerji obyektlərində qəzalar, nəqliyyat fəlakətləri və s. ilə əlaqədar olur. Bu vəziyyətdə, modelləşdirmə ən çox riyazi fizika üsulları ilə həyata keçirilir.

İctimai-siyasi fövqəladə hallar – bunlar sosial qruplar arasında müxtəlif münaqişələr, müharibələr, terror və s.

Çox vaxt fövqəladə halların bir növü digərinin meydana gəlməsinə səbəb olur. Yəni biz kombinə olunmuş (birləşmiş) fövqəladə hala baxırıq.

Riyazi modelləşdirmə metodunu seçərkən mövcud ilkin məlumatları, onların tamlığını müəyyən etmək lazımdır. İlk növbədə bənzər fövqəladə hallarda artıq mövcud təcrübəyə əsaslanan təsviri məzmunu yazmaq lazımdır. Sonra modelin məzmun təsvirini hazırlamaq, onu formallaşdırmaq və yalnız bundan sonra müvafiq riyazi aparatı seçmək lazımdır. Bundan sonra model və müxtəlif giriş parametrləri, sərhəd şərtləri, kənar faktorlar üçün onun davranışı öyrənilir.

Ümumi halda riyazi model hər hansı $F(X, Y, X, t)=0$ tənliyi ilə təsvir olunur, burada $X=(x_1, x_2,....,x_n)$ –modelin giriş parametrləri, $Y=(y_1, y_2,....,y_n)$ – modelin çıxış parametrləri, $Z=(z_1, z_2,....,z_3)$ – xarici təsirlərin vektoru, $t$ – zamandır. Ümumiyyətlə, $X=X(t)$, $Y=Y(t)$, $Z=Z(t)$. Yəni bunlar zamandan asılı olan funksiyalardır.

Biz iki tərəfin bəzi münaqişələrini nəzərdən keçiririk. Onların modelləşdirilməsində istifadə oluna bilən üsullardan biri nəzəri oyun üsullarıdır.

$G=<A, B, H>$ sistemi antaqonist oyun adlanır. Burada *A, B* müvafiq olaraq birinci və ikinci oyunçuların (rəqiblərin) boş olmayan strategiyalar çoxluğudur; *H(a,b) A* oyunçusunun uduş funksiyasıdır (yəni B oyunçusunun itki funksiyası), *a*□*A, b*□*B*. Beləliklə, oyun zamanı hər bir oyunçu öz strategiyasını seçir. Nəticədə birinci oyunçu üçün *H(a, b)* qazancına uyğun gələn *(a, b)* vəziyyəti formalaşır və bu vəziyyətə ikinci oyunçu üçün *H(a, b)* uduşu uyğun gəlir.

Ən sadə halda, oyun – iki tərəfin bir-birinə əks təsiri ödəmə matrisi ilə təsvir olunur.

Optimal strategiyaları tapmaq üçün minimax prinsipindən istifadə etmək olar. Praktikada təmiz strategiyalara olduqca nadir hallarda rast gəlinir. Qarışıq strategiyalar daha tez-tez baş verir və axtardığımız parametrlərə bir sıra məhdudiyyətlər qoyulur. Bu zaman məsələnin həlli üçün köməkçi metodların, məsələn, xətti və dinamik proqramlaşdırma üsullarının tətbiqi zəruri olur.

Bu üsullar həmçinin "təbiətlə oyunlar" adlanan oyunların modelləşdirilməsində tətbiq oluna bilər. İki tərəfin qarşılıqlı əks təsiri nəticəsində, nəticə etibarilə müxtəlif təbii və texnogen xarakterli fövqəladə hallar baş verə bilər. Onların modelləşdirilməsi üçün, məsələn, riyazi fizikanın üsullarından istifadə edilə bilər.

Belə bir məsələni nəzərdən keçiririk. Fərz edirik ki, mürəkkəb tipli müəyyən sistemə *f(x)* qüvvəsinin təsirinin nəticəsini hesablamaq lazımdır. Bunun üçün sərhəd şərtləri olan diferensial tənliyə baxırıq.

Obyekt mürəkkəb olduğundan onu hər hansı təbəqəli çoxluq hesab etmək olar.

Bu, bir-birinə bağlı olan çoxüzlülərdən ibarət Ω altçoxluğudur (biz onları "laylar" adlandırırıq və $Ϭ_{kj}$ ilə işarə edirik, burada *k* – təbəqənin ölçüsüdür, *j* – onun sıra nömrəsidir). Ω çoxluğunda Dirixle məsələsini nəzərdən keçiririk. Bu məsələnin həlli xarici qüvvənin təsiri altında mürəkkəb obyektlərin deformasiyasını təsvir edir.

Belə qənaətə gəlirik ki, fövqəladə halların riyazi modellərinin qurulması çox müxtəlif riyazi metodların və onların kombinasiyalarının cəlb edilməsini tələb edən kifayət qədər mürəkkəb bir prosesdir.

**Açar sözlər:** fövqəladə hallar, riyazi modelləşdirmə, oyunlar nəzəriyyəsi.

**Ədəbiyyat**


1. Писарук. Н. Н. Введение в теорию игр. Минск, 2015, 256 с.
2. Садыгов А.Б. Модели и технологии решения задач управления в чрезвычайных ситуациях. Баку, «Элм», 2017, 372 с.
3. Sadıqov Ə.B. Fövqəladə hallarda regionun müdafiəsi üçün riyazi model. "İşğaldan azad olunmuş ərazilərdə fövqəladə hal riskləri" respublika elmi-texniki konfransı. 21-22 may 2021-ci il, Bakı.


# BANKLARIN KAPİTALLAŞMA SƏVİYYƏSİNİN ÜMUMİ İQTİSADİ İNKİŞAFA TƏSİRİ


**Seyfəddin Sahibli**
Azərbaycan Universiteti
sahibli2020@gmail.com


Bank sisteminin yüksək kapitallaşması, iqtisadi inkişafı, makroiqtisadi şəraitin yaxşılaşdırılması, iqtisadi və kredit sistemlərinin formalaşması, pul köçürmələri, vergi ödəyicilərinin sığortası, maliyyə sistemlərinin sabitliyi iqtisadiyyatda prioritet olaraq qalır. Bir qayda olaraq, bank sektorunun tam inteqrasiya olunmuş iqtisadiyyata malik olması üçün bank sisteminin timsalında bütün iqtisadi mühitin sabitləşməsini qiymətləndirmək lazımdır. Başqa sözlə desək, iqtisadiyyatın inkişafına təsir (iqtisadiyyatın bank sektorunun sabitliyi) baxımından bank aktivlərinin səmərəliliyinin artırılması perspektivi, əsasən, makroiqtisadi sabitliyin təmin edilməsi və düzgün maliyyə-pul siyasətinin aparılması və bütün aktivlərin stimullaşdırılması ilə bankların kapitallaşma səviyyəsi ilə bağlıdır. Bank sektorunun sabitliyini daha çox bankların likvidlik,rəqabət qabiliyyətlilik, kredit qabiliyyətlilik,mənfəətlilik səviyyəsi ilə qiymətləndirmək olar.Onların yüksək səviyyəsinə nail olmaq üçün bankların zəruri kapitallaşma səviyyəsi təmin olunmalıdır.Bank sistemi iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadiyyatın dinamik inkişaf sahəsində dövlət siyasətinin həyata keçirilməsində fundamental element olmalıdır. Bank sisteminin səmərəli fəaliyyət göstərməsi hökumətin stimullaşdırıcı siyasəti ilə yanaşı, Azərbaycan iqtisadiyyatında digər zəruri problemlərin həllinin əsasını təşkil edir.Mərkəzi bankın dövlət və ya ictimai qurum kimi gəlirliliyi vaib şərtdir. Bank sisteminin davamlı inkişafının göstəriciləri iki növ bankın göstəricilərindən ibarətdir: emissiya və kommersiya. Bank sisteminin elementlərində bank növlərinin fəaliyyətinin müxtəlif xarakteri ilə əlaqədar olaraq, heterojen amillərin təsirinin intensivliyi də fərqli ola bilər. Beləliklə, Amerika araşdırmalarına görə, sabitliyin azalması və bank böhranlarının nəticələri: aktivlərin keyfiyyətsizliyi (97%); zəif planlaşdırma və idarəetmə (89%); kollektor işi (34%); əlverişsiz xarici iqtisadi vəziyyət (34%); daxili audit və nəzarətin olmaması (24%); saxtakarlıq, mühasibat məlumatlarının manipulyasiyası (11%); təminatsız xərclər (9%) [2, 3].

Bank sistemi səviyyəsində dayanıqlığın azalması və sonradan böhrana keçid çox fərqli ola bilər. Bunun ən tipik səbəbləri istehsalın azalması, inflyasiya, qeyri-işlək aktivlərin yüksək nisbəti və s. Kredit təşkilatlarının sabitliyi bilavasitə bank sisteminin sabitliyindən və mərkəzi bankın siyasətindən

asılıdır. Yenidən kapitallaşdırma, o cümlədən uçot dərəcəsinin aşağı salınması zamanı kredit təşkilatına əlavə vəsait cəlb etməklə öz resurs bazasını genişləndirmək imkanı verilir. Banklar tərəfindən ehtiyat fondlarından ödəniş edilmədikdə, onların itkiləri vətəndaşların əmanətlərinin təmin edilməsi hesabına ödənilə bilər, nəticədə vətəndaşların bütövlükdə bank sisteminə inamı qorunacaqdır. İqtisadi artıma təsir edən dolayı amillərdən biri kreditə çıxış imkanlarının genişlənməsidir. İnvestisiya məbləği də bu imkandan asılıdır. Bu baxımdan ölkədə bütün kredit təşkilatlarının diqqətini milli iqtisadiyyatın inkişafı üçün səmərəli fəaliyyətə yönəltməsini təmin edən makroiqtisadi şəraitin (tənzimləmə sistemi və qanunvericilik bazası) yaradılması Azərbaycan Respublikasının pul-maliyyə siyasətinin strateji istiqamətidir. Eyni zamanda, milli iqtisadiyyatın bank sektorunun potensialının artmasına baxmayaraq, bu aspekt vəsaitlərin yerləşdirilməsi problemlərini (bank aktivlərində struktur dəyişikliklərinin səmərəliliyi) kifayət qədər əhatə etmir. Bank probleminin bu hissəsində kredit təşkilatı və iqtisadi inkişaf prosesi (makro və mikro məqsədlər) və iqtisadi artım üçün resursların ayrılması (məqsədlərin birləşdirilməsi baxımından bank aktivlərinin strukturunun optimallaşdırılması) xüsusi maraq doğurur [3].

İqtisadi inkişaf mərhələsində bank məhsullarına və bank xidmətlərinə tələbat əhəmiyyətli dərəcədə artdığından bank sistemi xüsusilə müsbət nəticələr əldə edir. Bank əməliyyatlarının həcminin artması ilə yanaşı, bankların kredit təşkilatlarının inkişafına yönəldilmiş gəlirləri də artır. Əksinə, böhran baş verəndə banklar ümidsiz borclarla üzləşirlər ki, bu da faiz dərəcələrinin yüksəlməsinə gətirib çıxarır, itkilərin cari gəlirləri üstələyir. Mərkəzi Bank həm ayrı-ayrı bankların, həm də bütövlükdə bank sisteminin fəaliyyətini tənzimləyə bilən mühüm alətlərə malikdir. Mərkəzi Bank məcburi ehtiyat normasını dəyişdirərək, lisenziyanı ləğv etməklə iqtisadi artıma şərait yarada bilir [4].

Məsələn, Rusiya Mərkəzi Bankı bank sisteminin tənzimləyicisi kimi bankların ehtiyac duyduğu kapitalın artırılması mexanizmindən istifadə etmək qərarına gəlir. - iri banklar xırda bankları alırlar - onlar müflis olması və ya kiçik bankların Mərkəzi Bankın tələblərinə uyğun gəlməməsi səbəbindən bağlanır. Mərkəzi Bankın məcburi ehtiyat normalarının azaldılması qərarı kommersiya banklarının kredit aktivliyini artırmaqla iqtisadi artımı stimullaşdırmaq üçün pul kütləsinin artması ilə bağlıdır. Bankın iqtisadi vəziyyətini, onun rəqabət qabiliyyətini və bank əməliyyatlarının bütün iştirakçılarının iqtisadi maraqlarını səmərəli şəkildə həyata keçirmək qabiliyyətini qiymətləndirmək üçün ən mühüm meyar bankın etibarlılığıdır. Bu təsvirin müxtəlif şərhləri nəinki bankın etibarlılığını qiymətləndirməyi çətinləşdirir, həm də bu göstəricinin əsas anlayışını başa düşməyi çətinləşdirir. Etibarlı bank sistemi iqtisadi sistemin sabit işləməsi üçün ən mühüm şərtdir. Bununla belə, kredit təşkilatlarının qeyri-bərabər bölüşdürülməsi, aktivlərin mənfi dinamikasına səbəb olan borcların artımının ləngiməsi, müxtəlif bazar seqmentlərinin kreditləşməsinin azalması və s. kimi problemlər qaçılmazdır [5].

**Açar sözlər:** bank, kapital, iqtisadi, inkişaf.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu (1992) Maddə 1.
2. Bəşirov R.A. (2007), Bank işi, İqtisad Universiteti Bakı, səh.31.
3. Əliyev A., Şəkərəliyev A., Dadaşov I. (2003), Dünya İqtisadiyyatı: Müasir Dövrün Problemləri, Bakı Universiteti, İqtisad Universiteti, Bakı, səh.49-65.
4. Hacıyev A.K. (2013). Azərbaycanda dövlət büdcəsi xərclərinin iqtisadi artıma təsir məsələləri məqaləsi, AMEA İqtisadiyyat İnstitutu, Bakı.
5. Juravlyova Q.P. İqtisadi Nəzəriyyə dərsliyi, 2008, Daşkov və K nəşriyyat, Moskva, səh.18


## ECOTOURISM AND ECOTOURISM ENTREPRENEURSHIP AS THE CONCEPT OF THE MODERN WORLD


**Aydan Salmanova**
Azerbaijan State University of Culture and Arts
nadyasalman210@gmail.com


Ecotourism can be defined as a type of tourism that is carried out without harming the environment, ensures the sustainability of the natural environment, and contributes to the socio-economic development of the local people [1]. Nowadays, with the increase in transportation opportunities and the level of welfare around the world, the tourism sector has shown serious growth. At this point, nature tourism, which is a sub-field of tourism, has also become one of the fastest-growing types of tourism. Nevertheless, in this type of tourism made to untouched natural places, if the necessary care is not taken, it will be inevitable that the natural environment will be damaged. The reason is why the concept of ecotourism was introduced and it is possible to think of ecotourism as a kind of tourism ethics.

Today most of the nature tourism carried out around the world, unfortunately, does not comply with the definition of ecotourism because of giving harm to nature. Therefore it is not considered as sustainable tourism. The main features of ecotourism are: not harming the environment with the participation of conscious tourists; respecting local people and species in the area; supporting the efforts made for the protection of the nature tourism area [2]. With the rapid change in the world, the phenomenon of globalization, and technological changes, there has been a change in the concept and phenomenon of tourism. Tourism is not just about sea and sand; nature, animals, plants, and other cultural factors have also affected tourism. For this purpose, the interest in how to ensure sustainability in tourism has increased in order to diversify tourism and to have a long-term tourism phenomenon and not to lose this value. Ecotourism is also expressed with many different names such as ecological tourism, nature-based tourism, soft tourism, special interest tourism, green tourism, responsible tourism, alternative tourism, cultural tourism, exploration tourism, adventure tourism, and so forth. There are a number of basic principles that those involved in ecotourism. These can be

summarized as follows: to minimize the negative physical, social and behavioral effects of tourism on natural areas; to respect environmental awareness and local culture; to provide financial benefits and positive experiences for local individuals and businesses; to provide positive and memorable experiences for visitors traveling to places of natural beauty; to work in partnership with indigenous people and recognize their rights, customs and beliefs [3].

In the modern world, interest in rural entrepreneurship or ecotourism entrepreneurship, which is a similar expression, is increasing among tourism entrepreneurs to save the environment [4]. There are few studies on entrepreneurship and rural tourism development in the literature. A limited number of studies on this subject have examined entrepreneurs and their stakeholders and have included entrepreneurship activities as a subject. Factors such as the rural structure of ecotourism entrepreneurs and the respect for the environment, which is the main basis of ecotourism, cause this type of entrepreneurship to be different in terms of its characteristics. For instance, while an entrepreneur can expand his/her business physically without considering many other factors, especially environmental factors, with the aim of earning the main income by considering the economic progress of his business, this is not the case for ecotourism entrepreneurs. Because an ecological hotel or farm; separation and destruction of solid and liquid wastes, organic products of agricultural and animal origin and presenting them to the customer organically, the materials used in the enterprise (towels, sheets, linens, etc.) being ecological, the ratio of buildings to be less than one-third of the building architecturally, according to the land in which the enterprise is used, and it must contain elements such as natural materials such as stone, wood, adobe, and finally, the energy to be used must be from sustainable energy sources.

In a nutshell, emerging ecotourism entrepreneurship, which is different from the entrepreneurial structure carried out to generate classical income, faces different difficulties and needs to be examined more comprehensively.

**Keywords:** ecotourism, ecotourism entrepreneurship, nature tourism, ecological tourism.

## References

1. Achama F. (1995) Defining ecotourism. In L. Haysith and J. Harvey (eds) Nature Conservation and Ecotourism in Central America (pp. 18–32). Florida: Wildlife Conservation Society.
2. Drumm A., Moore A. Ecotourism Development - A Manual for Conservation Planners and Managers. Volume 1: An introduction to ecotourism planning. Copyright © 2002 by The Nature Conservancy, Arlington, Virginia, USA. (Pp. 11-25).
3. Megan Epler Wood. Ecotourism: principles, practices & policies for sustainability. United Nations Publication, 2002 UNEP, first edition (pp.8-10).
4. Tekin M., Kasalak A.M. Yeni Bir Girişimcilik Eğilimi: Ekoturizm Çiftlik Girişimciliği, Uluslararası Girişimcilik ve Kariyer Sempozyumu (pp. 378-390).
5. Ziolkowski H. Ecotourism: Loving nature on its own terms. Calypsl Log (pp. 10-18).

**Ekoturizm və ekoturizm sahibkarlığı müasir dünyanın konsepsiyası kimi**

Meydana gələn yeni turizm növləri arasında ekoloji turizm (ekoturizm) müasir dövrün əsas konsepsiyalarından biri kimi vurğulanır. Bu gün sahibkarlıq ölkələrin inkişafı və rifah səviyyəsinin yüksəldilməsinə kömək edən mühüm fəaliyyət növü kimi qiymətləndirilir. Sahibkarlığın sürətlə inkişaf edən sahələri arasında turizm sektoru  birinci yerdədir. Aparılan tədqiqat işinin əsas məqsədi ekoturizm anlayışını, onun cəmiyyətdəki rolunu, habelə prinsiplərini tədqiq etmək, ekoturizm sahibkarlığının mahiyyətini öyrənmək və gələcəkdə ekoloji sahibkarlığın inkişaf perspektivlərini müəyyən etməkdən ibarətdir.

## ƏLİLLİYİ OLAN GƏNCLƏRİN REABİLİTASİYASI VƏ BU PROSESDƏ SOSİAL İŞÇİLƏRİN ROLU

**Aytac Sanıyeva**
Azərbaycan Universiteti
aytacsanili@gmail.com

Əlilliyi olan şəxslərin cəmiyyətə yenidən qazandırılmasında əsas diqqət çəkən məsələlərdən biri də reabilitasiya ehtiyacının ödənilməsidir. Əlilliyi olan şəxslərin reabilitasiyasının təmin olunması bir çox fərqli aspektlərdən asılıdır ki, bunlara əlilliyi olan şəxslərin bu proseslə bağlı məlumatlılıq səviyyəsi, yaşadığı bölgədə reabilitasiyaya əlçatanlıq, əlillik dərəcəsi, sosial dəstək və s. hallar aiddir.

Reabilitasiya sağlamlığın möhkəmləndirilməsi, xəstəliklərin qarşısının alınması, müalicə və palliativ qayğı ilə yanaşı universal sağlamlıq təminatının vacib hissəsidir. Reabilitasiya uşağa, böyüklərə və ya yaşlı insanlara gündəlik fəaliyyətlərdə mümkün qədər müstəqil olmağa kömək edir, təhsildə, işdə, istirahətdə və ailənin qayğısına qalmaq kimi lazımlı həyat rollarında iştirak etməyə imkan verir.

Reabilitasiya “sağlamlıq problemi olan fərdlərin ətraf mühitlə qarşılıqlı əlaqədə fəaliyyətini optimallaşdırmaq və əlilliyin təsirini azaltmaq üçün nəzərdə tutulmuş tədbirlər kompleksi” kimi müəyyən edilir [2].

Hər kəsin həyatının hansısa nöqtəsində, zədə, əməliyyat, xəstəlik və ya xəstəlikdən sonra və yaşla əlaqədar zəiflədiyi üçün reabilitasiyaya ehtiyacı ola bilər. Reabilitasiya yüksək dərəcədə insan mərkəzlidir, yəni hər bir fərd üçün seçilən müdaxilələr və yanaşma onların məqsəd və üstünlüklərindən asılıdır. Reabilitasiya stasionar və ya ambulator xəstəxana şəraitindən, özəl klinikalara və ya fərdin evi kimi icma şəraitinə qədər bir çox fərqli şəraitdə təmin edilə bilər.

Reabilitasiya insanları özünüidarəetmə strategiyaları və onların tələb etdiyi köməkçi məhsullarla təchiz etməklə, ağrı və digər ağırlaşmaları aradan qaldırmaqla ürək-damar xəstəlikləri, xərçəng və diabet kimi xroniki sağlamlıq vəziyyətinin təsirini minimuma endirməyə və ya yavaşlatmağa kömək edir.

Reabilitasiya həm fərdlər, həm də cəmiyyət üçün fayda gətirən bir investisiyadır. Reabilitasiya həmçinin fərdlərə təhsildə və qazanclı işdə iştirak etməyə, evdə müstəqil qalmağa və maliyyə dəstəyinə ehtiyacı minimuma endirməyə imkan verir.

Hazırda qlobal miqyasda təxminən 2,4 milyard insan reabilitasiyadan faydalanan sağlamlıq vəziyyəti ilə yaşayır. Son illərdə reabilitasiya xidmətinə ehtiyacı olan insanların sayında artım müşahidə olunur [2]. Reabilitasiya xidmətlərinin genezisi qismən travma, xəstəlik və ya davamlı xroniki patologiyadan sonra fərdlərin həyat keyfiyyətinin və müstəqilliyinin artırılmasının bütövlükdə cəmiyyətə, eləcə də fərdlərə fayda verdiyinin sübutu olmuşdur. İnsanların şəxsi təcrübə ilə yanaşı psixoloji, sosial və mənəvi inanc və dəyər sistemləri də var ki, bu da hər bir unikal fərdi formalaşdırmaq üçün birləşir. Reabilitasiya müştərilərə və onların ailələrinə müvafiq psixoloji yardımın qiymətləndirilməsi və çatdırılmasında səriştə və inamı artırmaqdan ibarətdir.

Dünyanın bir çox yerlərində reabilitasiyaya artan ehtiyac, əsasən, qarşılanmır. Bəzi aşağı və orta gəlirli ölkələrdə yaşayan, reabilitasiya xidmətlərinə ehtiyacı olan insanların yarıdan çoxu onları almır.

Qlobal reabilitasiya ehtiyacları bir çox amillərə görə qarşılanmamaqda davam edir və buna aşağıdakı məsələlər təsir göstərir:

- Milli səviyyədə reabilitasiya üçün prioritetləşdirmə, maliyyələşdirmə, siyasət və planların olmaması.
- Şəhər yerlərindən kənarda mövcud reabilitasiya xidmətlərinin olmaması və uzun gözləmə müddətləri.
- Resursların, o cümlədən köməkçi texnologiyaların, avadanlıqların və istehlak materiallarının çatışmazlığı.
- Reabilitasiya ilə bağlı daha çox araşdırmaya və məlumatlara ehtiyac.
- Reabilitasiya üçün səmərəsiz və az istifadə edilən müraciət yolları.

Reabilitasiyanın tam potensialına çatması üçün səylər bütövlükdə səhiyyə sisteminin gücləndirilməsinə və reabilitasiyanın səhiyyə sisteminin bütün səviyyələrində səhiyyə xidmətinin bir hissəsinə çevrilməsinə və ümumi sağlamlıq təminatının bir hissəsinə yönəldilməlidir.

Reabilitasiya prosesinin təmin edilməsi ilə bağlı olaraq ÜST müəyyən edilmiş çağırışlara cavab verir və reabilitasiya üçün səhiyyə sisteminin gücləndirilməsini təşviq edir:

- Ölkə səviyyəsində texniki dəstək və potensialın yaradılması
- Liderliyin artırılması, prioritetləşdirmə və resursların səfərbər edilməsi
- Normaların, standartların və texniki təlimatların hazırlanması
- Tədqiqat gündəliyinin formalaşdırılması və tərəqqinin monitorinqi [2].

Reabilitasiya ixtisaslaşdırılmış xidmətlərin fənlərarası modelindən istifadə edən səhiyyə sahəsində kompleks, çoxölçülü bir yanaşmadır. Reabilitasiya əlillik növünə görə məsləhətləşmələri zəruri olan mütəxəssislər qrupu - reabilitasiya həkimləri, baxıcılar, fizioterapevtlər, psixoloqlar, sosial işçilər tərəfindən təmin edilir [1].

Sosial işçilər müalicə qrupunda, xüsusən də qayğıların koordinasiyasında, planlaşdırılmasında və icmanın reinteqrasiyasında əsas rol oynayırlar. Sosial işçilər reabilitasiya ehtiyacının

ödənməsində, xüsusilə də sosial reabilitasiyanın təmin edilməsində aktiv rol oynayırlar. Sosial reabilitasiya əlilliyi olan şəxslərin gündəlik həyat fəaliyyəti, o cümlədən məşğulluq, nəqliyyat və müvafiq mənzillə təmin edilməsi vasitəsilə onların müstəqil fəaliyyət göstərmələrinin və sosial iştirakının daha yüksək səviyyəsinə nail olunması prosesidir [3].

Sosial işçinin bir mütəxəssis kimi missiyası insanın ətrafmühitə uyğunlaşma bacarıqlarını gücləndirmək, insanın cəmiyyətlə münasibətlərini bərpa etmək, eyni zamanda onun cəmiyyətə inteqrasiyasına kömək etmək və onun sosial fəaliyyətini təşviq etməkdir. Sosial işçilər heç bir əsasda ayrı-seçkilik etmədən müştərilərinə xidmət göstərməyə söz verirlər və bu əlilliyi olan şəxslərin reabilitasiyası prosesində böyük önəm daşıyır və qəbul, öz müqəddəratını təyinetmə və fərdə hörmət dəyərləri sosial iş təcrübəsinin bütün formalarında olduğu kimi burada da əsasdır.

**Açar sözlər:** əlillik, reabilitasiya, sosial reabilitasiya, sosial iş.

## Ədəbiyyat

1. Social Rehabilitation and Independence of Individuals Following Trauma, Disease or Chronic Pathology, Asghar Dadkhah, PhD. Iranian Rehabilitation Journal, Vol. 12, No. 22, December 2014.
2. https://www.who.int/news-room/fact-sheets/detail/rehabilitation
3. https://dictionary.apa.org/social-rehabilitation

# MARKETİNQ STRATEGİYASI ÇƏRÇİVƏSİNDƏ REKLAM BİZNESİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**Elnaz Sayadova**
Azərbaycan Universiteti
sayadovaelnaz@gmail.com

Reklam insan fəaliyyətinin dinamik və transformasiya olunan bir sferasıdır. Artıq bir neçə yüzillərdir ki, reklamın xarakteri, onun mahiyyəti və forması istehsal qüvvələrinin inkişafı, sosial-iqtisadi formasiyaların dəyişməsi ilə bərabər dəyişikliyə uğrayır.

Reklam marketinq sisteminin bir hissəsidir. Marketinq müasir müəssisələrin idarəetmə sisteminin əsasını və firmanın məqsədlərini bazardakı davranış strategiyalarına çevirir. Müəssisənin marketinq strategiyalarının davamı və vizual ifadəsi kimi birbaşa istehlakçıya yönəlmiş reklam fəaliyyəti çıxış edir.

Reklam sosial-iqtisadi dəyərlərlə birlikdə cəmiyyətdə maddi rifahı, təhsili, xeyriyyəçiliyi, azadlığı, sahiibkarlığı, davamlı çalışmağı və daimi inkişafı təbliğ edir. Bütün bunları nəzərə alaraq bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərən respublikamızda reklam bazarının inkişaf etdirilməsinə, təkminləşdirilməsinə və bu sahədə kadr hazırlıgına diqqət artırılmışdır.

Ölkəmizdə 1990-cı illərin əvvəllərində yaranmağa başlayan reklam informasiya ilə bağlı qıtlıq yaşayan insanların maraqlarına toxunaraq onların həyatının ayrılmaz bir hissəsinə çevrildi. İlk

zamanlarda reklamların sayı az olsa da, yadda saxlanması daha asan idi. Lakin illər ötdükcə reklamların sayının artması insanların reklamlara daha az nəzər yetirməsinə səbəb oldu. Reklam marketinq kommunikasiya sistemində satışın stimullaşdırılması metodları içərisində ən əlverişlisidir. Məhz bu cəhət ölkəmizin onu daha tez mənimsəməsinə və istifadə etməsinə səbəb oldu. Ölkəmizdə reklamın formalaşdığı ilk zamanlarda bu sahə ilə bağlı uğur qazanmış dünya ölkələrinin reklamla bağlı təcrübə və metodlarından geniş istifadə olunurdu.

Dünyanın inkişaf etmiş ölkələrində reklam informasiya əldə etmək üçün bir mənbə, insanların seçim etməsini asanlaşdıran bir vasitə olduğundan müştərilərin maraq obyektinə çevrilmişdir. Azərbaycanda isə situasiya bir qədər fərqlidir. Reklama qarşı belə bir təsəvvür formalaşıb ki, reklam yalnız satılmayan malların satışını həyata keçirmək və ya artırmaq üçündür. Respublikamızdakı yerli müştərilərin fikrincə keyfiyyətli məhsulun reklam edilməsinə ehtiyac yoxdur.

Reklamın qanunauyğunluqlarını öyrənmək ölkə iqtisadiyyatının bütün investisiya mühitini dəqiq və qısa zamanda tənzimləyən indikator kimi dəyərləndirilməyə əsas verir. Belə olan halda firmalarda satış üzrə reklam fəaliyyətinin idarə edilməsi strategiyasının seçilməsi çox aktual olan bir məsələyə çevrilir. Rəqabətli biznes mühiti üçün hər bir işə görə qabaqcıl strategiya hazırlamaq önəmlidir. Ümumiyyətlə, reklam sektorunda düzgün seçilən və hazırlanan strategiya uğura gedən yollardan biri kimi qiymətləndirilir.

Kütləvi informasiya vasitələrində müştərilərə hərtərəfli, yüksək keyfiyyətli, kompleks xidmətlər göstərən ixtisaslaşdırılmış reklam mərkəzlərinə tələb getdikcə artmaqdadır. Xarici istehlakçıların reklam məlumatlarına olan tələbatını tam şəkildə təmin etmək üçün ölkə daxilində inkişaf etmiş reklam vasitələrinin və onların müxtəlif metodlarının geniş tətbiqinə ehtiyac yaranmışdır. Bu istiqamətdə xüsusilə aşağıdakılar tələb olunur:

- Məhsulun yaxşı qablaşdırılmasının vacibliyi;
- Məhsul haqqında informasiyanın artırılması,
- Birbaşa reklamların tətbiqi ilə əlaqədar olan xidmətlərin təkminləşdirilməsi, xüsusilə də reklam vasitələrinin fərdi şəkildə poçtla göndərilməsi,
- Zahiri reklamların və audiovizual vasitələrin effektivliyinin artırılması və miqyasının genişləndirilməsi.

Reklam sahəsində uğur qazanmaq, yüksək mənfəət əldə etmək, öz mövqeyini möhkəmləndirmək, müsbət imic yaratmaq məqsədi olan hər bir müəssisə reklam fəaliyyətini düzgün şəklildə təşkil edərək həyata keçirməlidir. Reklam sahəsində fəaliyyətin təşkilinin müəssisənin gələcək mövqeyinə olan təsirini nəzərə alaraq, təklif edə bilərik ki, əgər reklam sahəsində geniş tədqiqatlar, araşdırmalar aparılarsa, reklam fəaliyyətinin təşkil edilməsi daim nəzarətdə saxlanılarsa, bu prosesin hər bir mərhələsi diqqətlə izlənilərsə və problem olduğu zaman vaxtında müdaxilə edilərsə, reklam fəaliyyəti məhz işini bilən, peşəkar və təcrübəli şəxslər tərəfindən təşkil edilərsə, bu istiqamətdə işlərə yüksək texnologiyalar cəlb edilərsə və kifayət qədər pul vəsaiti ayrılarsa,arzu edilən uğur rahatlıqla qazanıla bilər.

**Açar sözlər:** Marketinq strategiyası, reklam biznesi, reklam bazarının effektiv təşkili.

**Ədəbiyyat**

1. Məmmədov A.T. Marketinqin əsasları. Dərs vəsaiti, Bakı, 2007, s.217
2. İmanov Ə.Ş. Biznes və Reklam, Bakı, 2014, s.296.
3. Əsgərov Ş.Ə. Reklam. Metodik vəsait, Bakı, 2012, s.167.

## MƏNSUBİYYƏT ŞƏKİLÇİLƏRİNİN POETİKASI

**Əliağa Səfərəliyev**
Gəncə Dövlət Universiteti
83-aytan@mail.ru

Mənsubiyyət şəkilçiləri digər qrammatik kateqoriya şəkilçiləri kimi təkcə xalis nominativ funksiya daşımır. Cümlədə və mətndə həmin şəkilçilər eyni zamanda üslubi, emosional çalarlıqları da bildirir. Eyni zamanda, mənsubiyyət şəkilçiləri mətndə işlədilmə məqsədindən asılıl olaraq ritm, ahəngdarlıq yaradır, pafosu və ritorizmi canlandırmaq vasitəçinə çevrilir. Azərbaycan dilçiliyində mənsubiyyət şəkilçilərinin mətni xüsusiyyətləri barədə müəyyən fikirlər irəli sürülmüşdür. Lakin etiraf etmək lazımdır ki, onların poetiklik yaratması barədə konkret, dəqiq, aydın təəssürat yaradan təhlil verilməmişdir. Təqdirəlayiq haldır ki, görkəmli dilçi alim Əbüləzəl Dəmirçizadə mənsubiyyət kateqoriyası şəkilçilərinin üslubi rəngarənglik yaratmaq xüsusiyyətlərindən bəhs edərkən onların cümlədaxili və mətndaxili poetiklik yaratma imkanlarına malik olmasına da işarə etmişdir. Ə.Dəmirçizadə bu münasibətlə yazır ki, «Mənsubiyyət kateqoriyası məqamdan asılı olaraq ixtisar və əvəzetmə kimi əlverişli üslubi imkana malikdir, həm də ekspressiv çalarlıqları, ritorik, poetik tələblər əsasında bu imkanlardan müxtəlif tərzdə istifadə mümkündür [3, s.106]. Ə.Dəmirçizadə mənsubiyyət kateqoriyası şəkilçilərinin cümlə və mətndə poetizm yaratma xüsusiyyəti barədə işarə vermiş olsa da burada poetizmin özü üslub kimi səciyyələndirilmir. Aydın məsələdir ki, poetiklik ilə bədii üslub problemləri həmhüdud olsa da onların əsas parametrləri daim bir-birinin üzərinə düşmür. Qrammatik vasitələrin poetizm yaratmasında təkrarlıq və paralelizmin aparıcılığı sinonim xarakterli ifadə tərzinin meydana çıxmasını şərtləndirir ki, Ə.Dəmirçizadə də məhz bu cəhəti əsas götürərək mənsubiyyət şəkilçilərinin təkrarı ilə baş verən ritorizmi və ahəndarlığı üslubi məqam kimi səciyyələndirir [3, s.188].

«Azərbaycan bədii dilinin üslubiyyatı» kitabında da Ə.Dəmirçizadənin irəli sürdüyü fikirlər bir növ təkrar edilərək morfoloji vasitələrin hesabına baş verən sinonimliyin üslubi məqam kimi səciyyələndirilməsi faktı müşahidə edilir. Burada göstərildiyinə görə «Sinonim formaların bir-birini əvəz etməsi morfoloji formaların ekspressivliyi, bu formalardan istifadə, müxtəlif qrammatik vasitələrin təsvir keyfiyyəti və s. morfoloji üslub vasitələri hesab olunur. Öz-özlüyündə morfoloji formalar üslubi xarakter daşımır. Lakin eyni fikri ifadə edən formalar bir-biri ilə tutuşdurulduqda onların üslubi keyfiyyətləri meydana çıxır [2, s.236].

Morfoloji poetikaya dair Azərbaycan dilçiliyində xüsusi tədqiqat işi olmasa da bu sahədə rus dilçiliyində müvafiq araşdırmalar aparılmışdır. Lakin bu araşdırmalarda mənsubiyyət şəkilçilərinin

xüsusi rolu o dərəcədə nəzərə alınmır. Azərbaycan dili ilə rus dili arasında struktura görə tipoloji fərq olduğundan və Azərbaycan dili ilə müqayisədə rus dilinin mənsubiyyət kateqoriyasında şəkilçi məhdudiyyəti mövcud olduğundan əlbəttə ki, bu iki dil arasında qrammatik poetiklik eyni səviyyədə deyildir. Bundan əlavə həmin tədqiqat əsərlərində də üslubiyyat və poetizm məsələləri vəhdətdə verilir, poetizmin isə konkret meyarı dəqiqliklə göstərilmir. Ona görə də rus dilinin qrammatik poetikliyinə dair aparılan tədqiqatlarda poetizm üslubiyyatın daxili tərkib variantı kimi təqdim edilir [9, s.15-45; 12, s.139-145].

Poetizm nəsr dilində təkrarlığı qafiyələndirməyə yönəldir, onu bir növ şeir dilinə çevirir. Nəzm dilinin isə daha təsirli, daha emosional, daha cazibədar olmasını təmin edir. İstər nəsr dilində və istərsə də nəzm dilində poetizm elementləri nə qədər çox işlənirsə, nə qədər intensivliklə səciyyələnirsə onların emosionallığı, ritmikliyi, ahəngdarlığı və ritorizm idə o qədər güclü və canlı şəkildə ifadə olunur. Cümlə və mətn daxilində mənsubiyyət şəkilçiləri həm həmcins üzvlərin və həm də sintaktik parlellərin tərkibində təkrarlanaraq işlənir. Həmcins üzvlər tərkibində təkrarlanan mənsubiyət şəkilçiləri vasitəsi ilə ritm, ahəngdarlıq, ritorizm və emosiya yaradılmasına dair aşağıdakı nümunələri misal göstərmək olar:

Qoy hər kəs nə deyir desin. Qoy Sadığa desinlər lağlağı, amma o kişi ölən günə kimi mənim *rəfiqim, müsahibim* və *həmdəmimdir*. (C. Məmmədquluzadə. Danabaş kəndinin əhvalatları, s. 114); Gözləri məni çəkdi apardı, *ev-eşiyim, arvad-uşağım, ağlım-hüşum, yaşım-yaddaşım*. Nəyim vprdısa hamısını bir yerdə çəkib apardı. (R. Rövşən, Daş, s. 623).

Mətndaxili ardıcıl cümlələrdə mənsubiyyət şəkilçili həmcins üzvlərin kəmiyyəti artdıqca poetizmin vüsəti də o qədər güclənir. Belə təkrarlıqlar xüsusilə, poeziya nümunələrində daha çox müşahidə olunur. Bu cəhətdən aşağıdakı kimi nümunələrin poetik yükü daha çox diqqəti cəlb edir:

*Sözüm, ixtilatım*, hər qilü *qalim*
*Mələyim, muradım, xatirim, meylim*
*Şəkərim, Şirinim, Gülşanım, Leylim*
*Züleyxam, Yusifim, Kənanım* mənim
(M.P. Vaqif, s. 66)
*Uruhum, cismanım, nəbzim, həyatım*
*Zinətim, zivərim, adım, isbatım*
Allahı sevərsən, bircə danış, gül
Dərdi, qəmi bu sevdadan dağıtsın.
(Aşıq Ələsgər, 2004, s. 35)

Təkrarlanan həmcins üzvlər epitetlərlə yanaşı işləndikdə poetik vüsət daha artıq canlanır, ritm və ahəngdarlıq daha da qabarıqlaşır, bədii informasiya qavranılmasında intensivlik bir daha güclənir.

Əliş anadan olanda *bir ağzı vardı, bir burnu, iki əli, iki ayağı, iki gözü*. Əliş davadan qayıdanda *iki əli vardı, iki ayağı, bir ağzı, bir burnu, bir gözü.* (R.Rövşən, Hamı gördüyünü görür, s. 499).

**Açar sözlər**: mətn, ritorizm, poetika, emosiya, ritm.

**Ədəbiyyat**

1. Azərbaycan bədii dilinin üslubiyyatı. (Oçerklər) redaktor: M.Ş. Şirəliyev, Z.M. Budaqova. Bakı, Elm, 1970, 355 s.
2. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. B, Azərtədrisnəşr, 1962, 270 s.
3. Пропп В.Я. Севернорусские сказки в записях А.И. Никифоров. Подготовка к издании и выступленые статьи В.Я.Проппа, Москва, Фонд поддерчки Экономического развития стран СНГ, 2008, с. 15-45.

# LİZİNQ XİDMƏTLƏRİ BAZARININ MALİYYƏLƏŞDİRİLMƏSİNİN PRİORİTETLƏRİ VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

**Günel Səfərova**
Azərbaycan Universiteti
gunel83@yahoo.com

Azərbaycan Respublikasında iqtisadi artım təkcə investisiya proseslərinin aktivləşdirilməsi ilə deyil, həmçinin onun səmərəliliyinin yüksəldilməsi ilə şərtlənən istehsalın modrnləşdirilməsi strategiyasının həyata keçirilməsinin nəticələrindən bilavasitə asılıdır. İqtisadi böhranların nəticələrinin təhlili göstərir ki, kapital yığımının qeyri-səmərəli alətlərindən istifadə edilməsi riski iqtisadi təhlükəsizliyə və nəinki milli isqtisadi sistemlərin həyat qabiliyyətinin itirilməsinə habelə bütövlükdə dünya iqtisadiyyatına təhlükə yaradır. Müasir şəraitdə inkişaf etmiş ölkələrdə avadanlıqlara və yeni texnologiyalara investisiyaların maliyyələşdirilməsinin ən səmərəli aləti lizinq hesab edilir. Mahiyyət etibarı ilə müasir lizinq sahibkarlıq subyektlərinin maraqları və bazarın tələblərinə uyğun olaraq istehsalın modernləşdirilməsi və real sektorun inkişafının strateji məqsədlərinə cavab verən investisiya sxemlərini həyata keçirməyə imkan verən lizinq münasibətlərinin mürəkkəb sistemidir. Lizinq maliyyələşdirilməsi zəruri əmlakın əldə edilməsi üçün kreditləşdirilmənin ənənəvi bank kreditləşməsinə alternativ olan lizinq münasibətləri sisteminin maliyyə tərəfini təşkil edir. Burada lizinq götürən əmlaka olan mülkiyyət hüququnun əldə edilməsini ödəyir və sonra isə onun dəyərini lizinq verənə dövri ödənişlərlə ödəyir. Lizinq münasibətlərinin maliyyələşdirilməsinin makroiqtisadi aspekti maliyyə resursları axınını əsas kapital şəklində iqtisadiyyatın real sektoruna istiqamətləndirməklə maliyyə bazarı subyektləri arasında davamlı iqtisadi əlaqələrin yaradılmasından ibarətdir. Lizinq maliyyələşdirilməsinin mikroiqtisadi tərəfi özünü investisiyaların idarə edilməsinin səmərəliliyini yüksəjdilməsi üçün lizinq sxemlərinin istifadəsində göstərir. Beləliklə, lizinqin maliyyələşdirilməsi aktivlərin mülkiyyətə alınması və sonradan onların uzunmüddətli icarəyə verilməsini nəzərdə tutan investisiya proseslərinin xüsusi forma çərçivəsində kreditləşdirmə prinsiplərindən istifadə edən lizinq münasibətləri sisteminin bir elementidir. Lizinq maliyyələşdirməsinin mahiyyəti və məzmunu müasir biznesin strukturunda lizinqin digər maliyyə alətləri arasında aparıcı mövqeyini müəyyən edir. Orta və kiçik biznes üçün investisiya alətlərinin vacibliyi reytinqində lizinq qiymətli kağızların təklifindən sonra gəlir. Uzun

illərdir ki, bazar iqtisadiyyatı mövcud olan ölkələrdə investisiyaların ümumi həcmində lizinq 20-30% təşkil edir və lizinq fəaliyyəti milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin strateji mühüm istiqaməti hesab edilir.

Müəyyən edilmiş tendensiyanın məzmunu Azərbaycan Respublikasında lizinq münasibətlərini tənzimləyən hüquqi qanunvericilik aktları ilə təmin edilmiş lizinq biznesinin formalaşması prosesində əks olunur. Bunlara 29 may 1998-ci il Ottava şəhərində qebul edilmiş "Beynəxalq maliyyə lizinqi haqqında"UNİDRUA-nın konvensiyası, 29 noyabr 1994-cü ildə 930№-li Lizinq xidməti haqqında Azərbaycan Respublikasının qanununu və sairələr aiddir.

2014-ci illərin əvvəlindən 2015-ci ilin ortalarına kimi manatın kəskin devalvasiyası ve dünya bazarında neftin qiymətlərinin kəskin azalması nəticəsində baş vermiş böhranın başlanmasına qədər olan dövrdə lizinq maliyyələşdirilməsi əsas fondların yenilənməsinə uzunmüddətli investisiyalar üçün ən dinamik inkişaf edən maliyyə alətlərindən biri olmuş və 2012-ci ildə lizinq əməliyyatlarının ümumi həcmi maksimum qiymətə çataraq 326,0 mln manat olmuşdur. 2001-ci ildən 2012-ci ilə kimi bu alətin iqtisadi mexanizmi yəni lizinq xidmətləri bazarı müsbət artım templəri nümayiş etdirmişdir (orta hesabla ildə təxminən 68%) və bu göstəriciyə görə, demək olar ki, iqtisadiyyatın bir sıra əsas maliyyə sektorlarını üstələmışdır. Milli iqtisadiyyatda lizinq əməliyyatlarının təkcə mütləq həcmi deyil, həm də rolu artmış oldu. Əgər 2007-ci illdə ÜDM-də lizinqin payı 0,65%, əsas kapitala qoyulan investisiyalarda isə 3%, sonra 2013-cü ildən başlayaraq lizinq əməliyyatlarının həcmi əhəmiyyətli dərəcədə azalaraq 2013-cü ildə 0,16%, 2016-cı ildə 0,17%, 2019-cu ildə isə 0,2% təşkil etmişdir. Bütövlükdə 2007-2020-ci illər ərzində cəmi lizinq əməliyyatlarının həcmi bu dövrdə ki, cəmi ümumi daxili məhsulun həcmində 0,27% təşkil etmişdir. Azərbaycan iqtisadiyyatının makroiqtisadi inkişafı üçün lizinq maliyyələşdirməsinin get-gedə artan əhəmiyyəti iqtisadi artım tempinə əhəmiyyətli dərəcədə təsir edən bir sıra kompleks fundamental amillərlə müəyyən edilir.

Birincisi, lizinq maliyyələşdirilməsi kapital qoyuluşlarınn Azərbaycan iqtisadiyyatının yaranmış mövcud şəraitində uzunmüddətli investisiyaların çatışmamazlığını nə bank sisteminin, nə də digər maliyyə institutlarının tam ödəyə bilməmədiyi vəziyyətində ümumi səviyyəsinin artmasına kömək edir.

İkincisi, lizinq maliyyələşdirilməsi dövlət-özəl tərəfdaşlığı formasının yeni perspektivlər açdığı milli iqtisadiyyatın kapital tutumlu infrastruktur kompleksinin (nəqliyyat, rabitə, enerji, kənd təsərrüfatı) inkişafını müəyyən edir.

Üçüncüsü, lizinq maliyyələşdirilməsi təkcə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinin deyil, həm də yeni iş yerlərinin yaradılması yolu ilə onun genişləndirilməsinin mühüm amili olan kiçik və orta biznesin inkişafı üçün investisiya fondlarının səfərbər edilməsinin alternativsiz mənbəyidir.

Dördüncüsü, lizinq maliyyələşdirməsindən istifadə edən şirkətlər istehsal güclərinin modernləşdirilməsi üzrə layihələrin həyata keçirilməsinə istiqamətləniblər ki, bu da innovativ iqtisadi artım trayektoriyasını qoruyub saxlamağa imkan verir.

Mikroiqtisadi səviyyədə lizinq vasitəsi ilə investisiyaların maliyyələşdirilməsi lizinq əməliyyatlarının əsas iştirakçılarının: lizinq verənin, lizinq alanın və avadanlıq satıcısının iqtisadi

maraqlarının qarşılıqlı fəaliyyəti hesabina bazar qeyri-müəyyənliyinin və maliyyə-iqtisadi risklərin azaldılmasını təmin edir.

Tərəfimizdən aparılan araşdırma və təhlillər göstərir ki, ölkəımizin lizinq bazarında bundan sonra həlli çox vacib olan məsələlərin sayı yetərincədir. Həmin məsələlər bir-biri ilə üzvi surətdə bağlı olduqları üçün kompleks şəkildə həll edilməlidirlər. Məsələn lizinq üzrə tətbiq edilən illik faiz dərəcələri ölkədə aparılan depozit, kredit, investisiya, gömrük, vergi və s. siyasətlərlə sıx əlaqədardır. Buna görə də faiz dərəcələrinin aşağı salınması primitiv qaydada birtərəfli deyil, kompleks şəkildə çoxtərəfli qaydada nizama qoyulmalıdır. Eləcə də lizinq bazarının inkişafına, lizinq bazarında əməliyyatların təkmilləşdirilməsinə və eləcə də bu bazarda səmərəliliyin artırılmasına yönələn inkişaf istiqamətlərinin həyata keçirilməsi məsələlərin kompleks həllini tələb edir.

**Açar sözlər**: lizinq, lizinq maliyyələşdirilməsi, lizinq münasibətləri, lizinq əməliyyatları, lizinq götürən, lizinq alan, aqrolizinq, sığorta sistemi, lizinq müqaviləsi.

### Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika komitesinin məlumatları 2020-ci il.
2. Qurbanov P.Ə. Aqrolizinq inkişafı şəraitində modul prinsipli sığorta proqramı AZETKTİ və Tİ –nin elmi əsərləri; 4 hissəli, II hissə 2010 s. 148-153.
3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair strateji yol xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı 2016, 60s.
4. Azərbaycan Respublikasının Mülkü Məcəlləsi. Bakı 2003 s.414.

## ANTİBÖHRAN TƏDBİRLƏRİNİN BANK SİSTEMİNİN DAYANIQLILIĞINA TƏSİRİ

**Mirali Sefiyev**
Azərbaycan Universiteti
miralisefiyev@gmail.com

Bank sisteminin və bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyəti sistemin kiçik və orta sahibkarlıqdan tutmuş kiçik sahibkarlara və fiziki şəxslərə qədər bütün iqtisadi subyektlər üçün yüksək keyfiyyətli və dəyərli adekvat maliyyə vasitəçiliyini təmin etmək qabiliyyətindən asılıdır [1].

Yaranan bank böhranları təkcə bank sektorunda deyil, həm də maliyyə bazarlarında əhəmiyyətli qeyri-sabitlik yaradıb. Bir çox ölkələrin mərkəzi bankları bank böhranından çıxmaq və bank strukturlarını modernləşdirmək üçün müxtəlif üsullardan istifadə ediblər. Bununla belə, təcrübə göstərir ki, bank sektorunda vəziyyəti normallaşdırmaq üçün ideal yol, yaxud bankların strukturunu dəyişmək, maliyyə sabitliyini qorumaq üçün universal strategiya yoxdur. Burada əsas məqsəd bankların maliyyə sabitliyini qorumaq deyil, nisbi sabitliyin qorunması və bankda neqativ halların

qarşısının alınması üçün tədbirlərin işlənib hazırlanması və təkmilləşdirilməsi olmalı, banklara ümumi etimadın təkmilləşdirilməsi və artırılması üçün tədbirlər planının hazırlanması zəruri idi [2].

Deyə bilərik ki, belə olan halda, bir qayda olaraq, dövlət büdcəsi dolayı və ya birbaşa olaraq böyük maliyyə yükü daşıyırdı. Bank sisteminin struktur restrukturizasiyası asan məsələ olmadığından dünyanın bir çox ölkələrində bu əməliyyatı həyata keçirmək üçün maliyyə resurslarını bu istiqamətə yönəldən, bununla da təşkilati rolunu nümayiş etdirən xüsusi qurumlar yaradılmışdır. Bu məqsədlər üçün həyata keçirilən tədbirlər, ilk növbədə, bank böhranlarının səbəblərindən və onların inkişaf etdiyi və baş verdiyi ümumi iqtisadi sahədən, oxşarlıqlardan: kreditləşmənin yenidən kapitallaşdırılması və sabitləşməsindən asılıdır. Bank sistemində baş verən struktur dəyişiklikləri zamanı üç mühüm istiqaməti qeyd etmək olar: [3]

1. Bankın likvidliyinin saxlanmasına yönəlmiş tədbirlər;
2. Bank sisteminin tənzimlənməsi və bank nəzarətinin gücləndirilməsi istiqamətində islahatlar;
3. Banklarda struktur yenilənməsinin həyata keçirilməsi. Banklarda struktur dəyişikliyi hansı formada həyata keçirilir? Struktur dəyişikliyi sadə görünsə də, mürəkkəb və çoxşaxəli prosesdir. Eyni zamanda onu da vurğulamaq yerinə düşər ki, bəzi hallarda problemli bankaköməklik göstərilərkən işçilər və səhmdarlar vəziyyətə və bankın üzləşdiyi problemlərə görə məsuliyyəti bölüşdürmək .Bank sisteminin antiböhran tədbirləri aşağıdakı nüansları əks etdirməlidir: qəbul və qiymətləndirmə, prioritetlər, məqsəd və vəzifələr, maliyyələşdirmə və tədbirlər. Eyni zamanda, bank sistemində böhrana qarşı idarəetmə tədbirlərini aşağıdakı müvafiq qruplara bölmək olar [4].

- Təcili xilasetmə tədbirləri.

1. yenidən maliyyələşdirmə, yəni. bankın yenidən kapitallaşdırılması;
2. sabit kredit xətti açmaq;
3. Əmanətlərin sığortalanması - fiziki şəxslərin banklardakı əmanətlərinin ödənilməsinin bəzi hallarda 100%-ə qədər artırılması.
4. Bankın balansının problemli aktivlərdən təmizlənməsi, zəruri hallarda problemli aktivlərə dövlət zəmanətinin verilməsi [4, 5].

Artıq qeyd etdiyimiz kimi, bank sektorunda maliyyə sabitliyi likvidlik və bank sabitliyi ilə sıx bağlıdır.Xüsusən də bank sabitliyi nədir?İlk növbədə dayanıqlığın nə olduğunu və maliyyə sabitliyinə necə təsir etdiyini izah edək.dövriyyə. Bank fəaliyyətinin sabitliyi və dayanıqlılığı dedikdə pul dövriyyəsinin və kreditin dayanıqlılığı, o cümlədən pul formasında təklif olunan bütün digər bank məhsullarının və bank xidmətlərinin inkişafı başa düşülür.Onu da qeyd etmək lazımdır ki, bəzən davamlılıq və sabitlik anlayışları da müəyyən edilir. sinonimdir.İnkişaf edilsə də, məzmunu fərqlidir.Sabitlik dedikdə verilmiş hadisə zamanı dəyişməz qalan vəziyyəti nəzərdə tuturuq. Davamlılıq bank işinin gedişatının dəyişməsinin nəticəsidir, davamlılıq sabitlikdən daha geniş anlayışdır. Banklar öz fəaliyyətlərində sabitliyə və sabitliyə nail olurlar Beləliklə, bankın fəaliyyətində mühüm məqsəd təkcə sabitliyi təmin etmək deyil, həm də bankı inkişaf etdirmək, yeni xidmət sahəsini genişləndirmək və fəaliyyət yaratmaqdır. Banklar yalnız sabit maliyyə vəziyyətinə nail olurlar. Müştərilərə daha çox bank məhsul və xidmətləri təklif etməyə və daha çox gəlir əldə etməyə çalışmamalıdır.

Sabitlik və davamlılıq bir sistem olaraq bir-birini tamamlayır. Bu anlayışlar birlikdə ayrı-ayrı pul institutlarının çatışmazlıqlarını və nailiyyətlərini ifadə edir [6, 7].

**Açar sözlər:** Bank, antiböhran, dayanıqlıq.

**Ədəbiyyat**


1. Məmmədov S. Bank işi. Bakı, 1997-ci il.
2. AR Bank fəaliyyəti və Banklar haqqında qanun. Bakı 1996-cı il.
3. Drobozinoy A.A. Finansı, denejnoe obrahenie, kredit, Moskva .
4. Sidoroviç A.F. Kurs ekonomiçskoe teoriy, Moskva 1997-ci il.
5. Aslanov A.M. Bank statistikasıvə Maliyyə. Bakı, 2002-ci il.
6. Məmmədov S.M. Bankerin Stolüstü kitabı. Bank işi, Bakı, 1997-ci il.
7. Bağırov M.M. Bank və Bank Əməliyyatları (Ali Məktəblər Üçün Dərslik), Bakı, 2003-cü il.


## TURİZM SAHƏSİNDƏ İNVESTSİYA FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**Aytac Seyidzadə**
Azərbaycan Universiteti
aytac.seyidzade0409@gmail.com

Turizm sektorunda investisiya fəaliyyəti qoyulmuş vəsaitlərdən gəlir əldə etmək üçün həm müəyyən bir ölkə daxilində, həm də xaricdə turizm sənayesinə uzunmüddətli kapital qoyuluşu şəklində maliyyə resurslarından istifadəni nəzərdə tutur [1]. Turizmə investisiya kapital hesabına müxtəlif turizm xidmətləri göstərməyə qadir olan turizm obyektlərinin yaradılması, müasirləşdirilməsi və ya yenidən qurulması prosesidir. Beləliklə, turistlərə xidmətin keyfiyyətini yüksəltməklə nisbətən daha böyük həcmdə xidmətlərin göstərilməsinə imkan verən yeni turizm obyektlərinin tikintisi ilə bağlı ideyaların həyata keçirilməsi prosesi davam edir.

İnvestisiya fəaliyyətinin səmərəliliyi, ilk növbədə, investisiya prosesinin bütün tərəflərinin - satıcıların, alıcıların və digər iştirakçıların maraqları və təklifləri üst-üstə düşərsə, artır. Maraqlar balansı investisiyaları həm turizm sənayesinin iştirakçıları, həm də turistlərin özləri üçün sərfəli etməyə imkan verir. Turizm sektoru çoxşaxəlidir və yalnız investisiya üsulu ilə məhdudlaşmır. Hal-hazırda, hələ də mənfəətin kommersiya göstəricilərinə endirilə bilməyən investisiya formaları var. Bu problemi həll etmək üçün investisiyaların mənbələrini, növlərini, üsullarını və nəticələrini özündə birləşdirən investisiya sisteminin ciddi təhlilini aparmaq lazımdır. İnvestisiya sərhədlərinin artırılması regionda investisiya mühitinin qiymətləndirilməsinə yenidən nəzər salmağa imkan verir ki, bu da öz növbəsində bu və ya digər regionu daha cəlbedici edəcək. Bu günə qədər turizm sektoruna investisiya qoymağın aşağıdakı yolları məlumdur:

- vətəndaşların və qeyri-dövlət qurumlarının investisiyaları;
- faktiki olaraq dövlət büdcəsi hesabına həyata keçirilən dövlət investisiyaları;

• xarici şirkətlər tərəfindən turizm biznesinə qoyulan investisiyalar;

• birgə maliyyələşdirmə;

• investisiya fondları və şirkətlər vasitəsilə (başqa sözlə, maliyyə vasitəçiləri vasitəsilə) investisiya qoyuluşu [2].

Turizm investisiyaları aşağıdakı meyarlara görə təsnif edilə bilər:

1. İnvestisiyaların həyata keçirilmə sahəsi. Məsələn, maliyyə qoyuluşları qiymətli kağızlara, real investisiyalar istehsal vasitələrinə və istehlak mallarına kapital qoyuluşudur;

2. İnvestisiya vaxtı. Beləliklə, onlar fərqləndirirlər: uzunmüddətli investisiyalar - on il və ya daha çox, ortamüddətli investisiyalar - beş ildən on ilədək, qısamüddətli investisiyalar - bir ilə qədər və ya daha az;

3. İnvestisiyaların növləri. Burada investor tərəfindən vəsaitlərin birbaşa qoyuluşu; dolayı investisiyalar; intellektual investisiyalar- nou-hau, patentlər, lisenziyaların alınması nəzərdə tutulur.

4. İnvestisiyaların istifadə sahəsi. İnvestisiyalar turizm müəssisəsinin yaradılması ilə bağlı ola bilər. Belə investisiyalar yeni müəssisənin aktivlərinin yaradılmasına xidmət edir. Onlar həmçinin cari və ya əsaslı təmir, eləcə də avadanlıqların dəyişdirilməsi ilə birbaşa əlaqəli olan cari investisiyaları fərqləndirirlər. Yüksək tələbdən irəli gələn və təklifin artmasını nəzərdə tutan əlavə investisiyalar qoyulur.

5. İnvestisiyaların həcmi. Hal-hazırda, nisbətən kiçik investisiyalar, orta investisiyalar və kifayət qədər böyük investisiyalar mövcuddur. Bir qayda olaraq, turizm sektoruna qoyulan investisiyaların həcmi konkret məhsulun istehsal prosesinin miqyasından və ya hər hansı xidmətin göstərilməsindən asılı olaraq formalaşır [3].

Bu sahədə rəqabətqabiliyyətliliyin formalaşdırılması probleminin kompleks, sistemli yanaşma nöqteyi-nəzərindən öyrənilməsi yeni təşkilati formaların yaradılması, inkişafı, təşviq və investisiyaların təhlili, proqnozlaşdırılması və diaqnostikasının əsas prinsiplərinin formalaşdırılması zərurətini ortaya qoyur. İnvestisiyaların təhlilinin əsas prinsiplərinə aşağıdakılar daxildir: elmi xarakter və mürəkkəblik, ardıcıllıq və obyektivlik, dəqiqlik və səmərəlilik, həmçinin diqqət və ardıcıllıq [2]. İqtisadiyyatın dövlət orqanlarının nəzarətində olan hissəsi özəl bizneslə münasibətlərin ödənişlilik, özünütəminat və rəqabətin ödənişli paylı maliyyələşdirilməsi prinsipləri əsasında qurulmasını təklif edir. İnvestisiya qoyuluşlarının təhlili obyektiv reallığı düzgün əks etdirən etibarlı məlumatlara əsaslanmalıdır. Nəticələr dəqiq analitik hesablamalarla təsdiqlənməlidir.

Təhlilin effektivliyi sərmayələrin investisiya prosesinə təsirində, habelə çatışmazlıqların və pozuntuların vaxtında aşkar edilməsi ilə onların nəticələrində özünü göstərir. Belə təhlil planlı şəkildə, sistemdə aparılmalıdır. Buradan investisiya əməliyyatlarının hazırlanması və aparılmasında analitik işlərin planlaşdırılması zərurəti, habelə investisiya prosesinin iştirakçıları arasında vəzifələrin yerinə yetirilməsi üçün məsuliyyətlərin bölüşdürülməsi zərurəti çıxır. Təhlilin effektivliyi analiz əməliyyatlarını tez və dəqiq yerinə yetirmək, qərarlar qəbul etmək və onları reallığa çevirmək qabiliyyətini nəzərdə tutur. İnvestisiya sərmayələrinin təhlilində demokratiya geniş spektrli maraqlı iştirakçıların fəaliyyətə cəlb edilməsini nəzərdə tutur ki, bu da öz növbəsində investisiya fəaliyyətinin açıqlığını təmin edir.

Turizm sahəsində investisiya fəaliyyətinin xüsusiyyətlərinin araşdırılması nəticəsində belə nəticəyə gəlmək olar ki, bu sahə həm biznes baxımından, həm də dövlətin maraqları baxımından əhəmiyyətlidir və bu sahəyə investisiyalar cəlb edilməsi zəruridir.

**Açar sözlər:** turizm, investsiya fəaliyyəti, xüsusiyyətlər, effektivlik.

**Ədəbiyyat**

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi, Bakı, Mütərcim, 2017, 280 səh.
2. Валинурова, Л.С. Организация инвестиционной деятельности в отраслях промышленности: монография. М.: Палеотип, 2015. 80 с.
3. Вякина И. В. Инвестиционный климат региона: сущность и составляющие системы. Российское предпринимательство. 2012. Том 13. № 16, с.98-103.

## TARİXİ ABİDƏ VƏ QORUQLARIN QORUNMASI VƏ TƏBLİĞİ SAHƏSİNDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI

**Vüsalə Şərifova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
vusala.asif@gmail.com

Xalqın zəngin mədəni irsini təsdiqləyən elementlərdən biri də abidələr və tarixi yerlərdir. Ölkəmizdə də yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bu abidə və qoruqların qorunması və təbliği sahəsində beynəlxalq əməkdaşlıq xüsusilə önəmlidir. Müstəqilliyin ilk illərində Azərbaycanda abidələrin bərpa və konservasiya işləri əsasən dövlət və beynəlxalq təşkilatların dotasiyaları hesabına aparılmışdır. Məsələn, Bakıdakı kiçik alman “Kirxa”sının (“Kapelhauz”) bərpası tamamilə Almaniya hökuməti tərəfindən maliyyələşdirilmişdir. 2000-ci ilin əvvəllərində Norveçin qeyri-hökumət təşkilatının ayırdığı maliyyə vəsaiti hesabına Şəki rayonunun Kiş kəndindəki V-VI əsrlərə aid alban xristian kilsəsində bərpa işləri aparılmışdır. [1, s.94] Görkəmli Norveç alimi Tur Heyerdalın təklifi ilə bu məbədin öyrənilməsi, bərpası və muzeyləşdirilməsinə həsr olunmuş Azərbaycan-Norveç layihəsinə başlanılmış və 2003-cü ildə tamamlanmışdır. Bütün mərhələlərdə Norveç Humanitar Təşkilatı fəal iştirak etmişdir. Həmin illərdə Dünya Bankının ayırdığı 7,5 mln ABŞ dolları vəsaiti hesabına Bakıdakı Şirvanşahlar Saray Kompleksi, Şəki xan sarayı, Naxçıvandakı Möminə xatun türbəsində təmir və yenidənqurma işləri İtaliya və Almaniya şirkətləri tərəfindən aparılmışdır.

2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi olan İçərişəhər memarlıq kompleksinin (Qız Qalası və Şirvanşahlar Sarayı ilə birgə), 2007-ci ildə Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun, 2019-cu ildə isə Şəki xan sarayının (Şəkinin tarixi mərkəzi ilə birlikdə) YUNESKO-nun Ümumdünya irs siyahısına salınması onların bəşəri dəyər kimi qəbul edilməsi ilə yanaşı, böyük şəbəkənin üzvü qismində Azərbaycana bu sahədə dünya təcrübəsinin öyrənilməsi və abidələrin qorunmasında

beynəlxalq təcrübədən yararlanmaq üçün əlavə imkanlar yaratmışdır. 2019-cu ildə Mərakeş Krallığının paytaxtı ər-Rabatda keçirilmiş İslam Dünyası İrs Komitəsinin növbədənkənar iclasının yekun sənədinə əsasən, İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri İSESKO-nun İslam İrsi Siyahısına salınmışdır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində 2010-cu ildə "Qobustan Dövlət Tarixi-Bədii Qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2007-ci il tarixli Sərəncamının icrası məqsədilə muzeyin yeni tikilmiş binasının interyer və ekspozisiya sahəsinin bədii tərtibat layihəsinin baş planının hazırlanması ilə əlaqadar nazirlik ilə Latviya Respublikasının "Dd Studio" şirkəti arasında müqavilə bağlanmışdır. [2, s.29] 2012-ci ildə isə ABŞ Dövlət Departamenti Qobustan Milli Tarix-Bədii Qoruğunu "Museum connect 2012" layihəsinə tərəfdaş seçmişdir. Azərbaycan tərəfindən Mədəniyyət Nazirliyi və Qobustan Milli Tarix-Bədii Qoruğunun, ABŞ tərəfindən isə Amerika Hindularının Milli Muzeyi və Smitsonian İnstitutunun dəstəyi ilə 21-27 oktyabr tarixlərində Azərbaycan və Rueblo Hindi İcmaları arasında "Qayalarda yazılanlar" layihəsi həyata keçirilmişdir. 2012-ci ildə Avropanın ən uğurlu 5 muzey layihəsi kimi qəbul olunan Qobustan Tarixi-Bədii Qoruğunun muzeyi dünyada Azərbaycan milli irsinin gözəl bir nümunəsi kimi tanınır. Elə həmin il mədəni əməkdaşlıq sahəsində daha bir uğurlu hadisə dekabrda Mədəniyyət Nazirliyi ilə İtaliyanın Romualdo del Bianko Fondu arasında gələcək əməkdaşlıqla bağlı anlaşma memorandumunun imzalanması olmuşdur. 2012-ci ilin 25-29 aprel tarixlərində YU*NESKO-nun Dünya İrs Mərkəzinin (WHC) məşvərətçi orqanları olan Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İCCROM), Abidələr və Yerlər üzrə Beynəlxalq Şuranın (İCOMOS), həmçinin Azərbaycan Memarlıq və İnşaat Universiteti, İtaliyanın Romualdo Del Bianko Fondunun birgə tərəfdaşlığı ilə "*Təzyiq altında irs - şəhərlərin tarixi landşaftlarının perspektivləri"adlı beynəlxalq Bakı konfransı keçirilmişdir. Dünyanın 30-dan çox ölkəsindən mədəni irsin mühafizəsi və inkişafı sahəsində nüfuzlu elm adamları və ekspertlərin qatıldığı konfrans çərçivəsində mövzuya dair seminar ("Mədəni irs - davamlı sosial inkişafın əsası") və bir sıra görüşlər də təşkil edilmişdir. 2013-cü ildən başlayaraq hər il 30-dək ölkədən arxeoloji irsin mühafizəsi və təbliği ilə bağlı ixtisaslaşmış təşkilatların iştirak etdiyi İtaliyanın Paestum şəhərində keçirilən "Arxeoloji Turizm üzrə Aralıq dənizi yarmarkası"nda Azərbaycan da təmsil olunmuşdur.

2014-cü ildə YUNESKO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuranın (İCOMOS) Azərbaycan Milli Komitəsinin yaradılması bu sahədə beynəlxalq əməkdaşlığın qurulmasında mühüm rol oynamışdır.

Ölkəmizin tarixi və mədəni dəyərlərinin qorunması və beynəlxalq arenada təbliğ edilməsinə xüsusi əhəmiyyət verən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (DTMQİ) İçərişəhərin zəngin maddi mədəni irsinin tanıdılması məqsədilə dünyanın ən qabaqcıl təşkilatları ilə əməkdaşlıq edir. 2018-ci ilin noyabrında İstanbulda "İçərişəhər" DTMQİ və IRCICA arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır. Bu razılaşmanın davamı olaraq əlaqələri daha da gücləndirmək, qarşıda duran vəzifələri aydınlaşdırmaq üçün 2 may, 2019-cu il tarixdə hər iki qurum arasında mədəni, tarixi sferalarda münasibətləri gücləndirəcək memorandum imzalanmışdır.

Tarixi abidə və qoruqların qorunması və təbliğində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığı ildən-ilə genişlənir və ölkənin dünyada yaranmış qlobal problemlərin həllinə köməklik göstərən təşəbbüslərlə çıxış etməsi onu mədəniyyətlərarası dialoqun fəal iştirakçısına çevirir.

**Açar sözlər:** tarixi abidə, qoruq, beynəlxalq əməkdaşlıq, təşkilat, layihə.

**Ədəbiyyat**

1. Azərbaycanda mədəniyyət siyasəti. Bakı: Nağıl evi, 2003, 232 s.
2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2010-cu ilin yekunlarına dair hesabatı. http://mct.gov.az/medias/media/other/280/hesabat-2010.pdf

## KAPİTALIN MAHİYYƏTİ VƏ İQTİSADIYYATDA ROLU

**Ləman Şirinova**
Azərbaycan Universiteti
sirinovaleman999@gmail.com

Kapital gəlir gətirən və aktivlərə qoyulan vəsaitlərdən təşkil olunur. Kapitalın idarə olunması dedikdə müəssisənin maliyyəsinin idarə olunması nəzərdə tutulur. Kapital maliyyələşdirmə sistemində təsərüfat subyektinin fəaliyyətinin əsas mahiyyətini təşkil edir. İqtisadi kateqoriya kimi kapitalın formalaşdırılmasında üç yanaşma xüsusilə qeyd edilir.

- İqtisadi
- Mühasibat
- Uçot analitik

Kapitalın fiziki konsepsiyası iqtisadi yanaşma əsasında realizə edilir. Bu mahiyyətcə resursların məcmusu kimi nəzərdə tutulur və cəmiyyətin əsaslı gəlirlərin universal mənbəyini təşkil edir. İqtisadi kapitalın xüsusi növləri mövcuddur: şəxsi, xüsusi və dövlət. Xüsusi və dövlət kapitalı özü-özlüyündə iki tərkib hissədən ibarətdir.

1- real kapital

2- maliyyə kapital

Real kapital əsasən istehsal faktoru olmaqla material, əşya formasında çıxış edir. Buna nümunə olaraq nəqliyyat vasitələri, xammal, material, bina, maşın və s. qeyd etmək olar. Maliyyə kapitalı dedikdə isə pul vəsaiti və qiymətli kağızları vurğulamaq vacibdir ,həmçinin kapitalın səviyyəsi bununla bağlı olaraq mühasibat balansının aktivinin yekunu formasın da hesablanır.

Kapital mühasibat yanaşmasına nəzərən müəssisənin mülkiyyətçilərinin onun aktivlərinə olan marağı səviyyəsində ifadə olunmaqdadır. Kapital termini mahiyyət olaraq xalis aktivlərin sinonimi kimi məna kəsb etməkdədir.

Xalis aktivlərin səviyyəsi hesablanarkən subyektin aktivlərinin müəyyən olunmuş məbləği ilə öhdəliklərinin səviyyəsi arasında olan fərq kimi hesablanmalıdır.

Kapital bir-birilə əlaqəli olan iki əsas hissədən təşkil edilir. Birincisi aktiv kapital, ikincisi isə passiv kapital. Aktiv kapital dedikdə , müəssisənin mühasibat balansında ikili blok şəklində təqdim edilən təsərrüfat subyektinin istehsal gücləri nəzərdə tutulur, bu isə əsas və dövriyyə kapitalında əks etdirilir.

Passiv kapitalda isə vəsaitin uzunmüddətli mənbəyi nəzərdə tutulur, bu mənbələr əsasında isə təsərrüfat subyektinin aktivləri formalaşdırılır. Passiv kapital iki hissədən ibarətdir.

- Xüsusi kapital
- Borc capital

İlk olaraq xüsusi kapital müəssisənin aktivlərinin dəyərinin tərkib hissəsi olaraq çıxış edir. Yəni, üçüncü şəxslərin müəyyən tələbləri qarşılandıqdan sonra təsərrüfatın mülkiyyətçisinə çatan həmin hissə xüsusi kapitaldır.

Uçot-analitik yanaşma nəzərdən baxıldıqda müəyyənləşdirilmiş kapitalın səviyyəsi mühasibat balansında təqdim edilən üçüncü yekunun məbləği dördüncü bölmənin cəminə bərabərdir. Mühasibat balansının dördüncü bölməsində "Uzunmüddətli öhdəliklər" çıxış edir.

Kapital müvafiq olaraq qoyuluş sahəsinə görə sənaye, ticarət və s.kapital kimi təsnifləşdirilir. Kapital istehsaldakı mövqeyinə görə nizamnamə, əlavə və ehtiyat kapitaldan təşkil edilməkdədir.

Kapital formalaşma mənbəyinə görə səhmdar, xüsusi, borc və s formalarda təzahür edir. Həmçinin kapital dövriyyə xarakterinə görə  əsas kapitala və dövriyyə kapitalına bölünür. Dövriyyədənkənar olan aktivlərə və dövriyyə aktivlərinə edilmiş  vəsaitlər kapital qoyuluşlarıdır.

**Açar sözlər:** kapital, aktivlər, maliyyə ,müəsissə, gəlir, likividlik.

**Ədəbiyyat**

1. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı, 2005.
2. Hüseynov T.Ə.  Müəssisənin iqtisadiyyatı. Bakı, 2005.
3. Abbasov Ə.H. Maliyyə sistemi və borc bazarı. Bakı, 2004.
4. Əliyev R., Novruzov M. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, 2003.
5. Maliyyə dərslik. Bakı, 2001.

## TƏCRÜBƏLƏRİN PLANLAŞDIRILMASI ÜSULU İLƏ RİYAZİ MODELLƏRİN QURULMASI

**Rasim Şirinov, Xatirə Şükürova**
Azərbaycan Universiteti
xatiresukurova7@gmail.com

Bir sıra mühəndis-iqtisadi məsələlərin həllində təcrübələrin qoyulması və onların idarə edilməsi tələb olunur. Məlum olduğu kimi eksperiment yolu ilə təsdiq olunan hər bir ideya həqiqət kimi qəbul edilir. Lakin elə sahələr var ki,orada eksperiment aparmaq mümkün  deyil (məsələn, astronomiyada, təbabətdə,  iqtisadiyyatda  və s.). Ona görə də obyektiv reallığı dərk etmək üçün başqa bir üsuldan –

modellərdən istifadə olunur. Bu məqsədlə qarşıya qoyulan məsələni riyazi şəkildə ifadə etmək lazımdır. Başqa sözlə onun iqtisadi-riyazi modeli tərtib olunmalıdır. Təqdiqatlar iqtisadi-riyazi model üzərində aparılır,əlavə informasiya əldə olunur və alınan nəticələr orjinala tətbiq edilir.

Tədqiqat obyekti kimi şəkər tozu istehsal edən zavodun məhsuldarlığının ona təsir edən amillərdən asılılığının müəyyən olunması məsələsi götürülmüşdür. Əvvəlcə iqtisadi-texnoloji prosesə təsir edən amillər müəyyən edilmiş,sonra onarın hüdud qiymətləri dəqiqləşdirilmişdir.Bu məqsədlə müəssisənin illik hesabatlarından istifadə olunmuşdur.

Təcrübələrin planlaşdırılması iki cür ola bilər: Passiv və aktiv

Passiv təcrübə - ənənəvi üsullara əsaslanır və hər bir amil (dəyişən,faktlar) növbə ilə ayrı-ayrılıqda dəyişdirilməklə çoxsaylı təcrübələr aparılır.Passiv sınağa hər hansı sənaye və ya kənd təsərrüfatı obyektinin normal iş rejimi zamanı toplanan ilkin,statistik materiallar da aid edilə bilər.

Aktiv təəcrübə - əvvəlcədən tərtib olunmuş plan üzrə aparılır.Aktiv təcrübədə öyrənilən obyektə təsir edən amillərin eyni vaxt da dəyişdirilməsi təmin edilir.Bu cür sınaqların köməyi ilə təcrübələrin sayını da azaltmaq olar.Əgər amillərin sayı **k** və hər bir amilin dəyişmə səviyyəsi **n** olarsa,onda sınaqların ümumi sayı **$N=n^k$** olar və bu sınaqlar tam faktorlu sınaqlar adlanır.

Tutaq ki,öyrənilən obyektə təsir edən amillər və onların hüdud qiymətləri məlumdur.

$$Z_j^{min} \le Z_j \le Z_j^{max}, (j=\overline{1,k}).$$

Koordinatları $Z^0 = (Z_1^0, Z_2^0 \dots Z_k^0)$ olan nöqtə planın mərkəzi və ya əsas səviyyəsi adlanır.

$$Z_j^0 = \frac{Z_j^{min}+Z_j^{max}}{2} \qquad \Delta Z_j^0 = \frac{Z_j^{max}-Z_j^{min}}{2}$$

burada $\Delta Z_j$- hər bir $Z_j$-faktorunun $Z_j^0$-dan olan dəyişmə intervalını göstərir.

Adətən təcrübələrin planlaşdırılması və aparılmasını sadələşdirməkdən ötrü $Z_1, Z_2, \dots, Z_k$ koordinant sistemindən ölçüsüz koordinant sisteminə keçilir.

$$x_j = \frac{Z_j - Z_j^0}{\Delta Z_j}, \ j=\overline{1,k}; -1 \le x_j \le 1$$

Təcrübələrin planlaşdırılması üsulunda təcrübələrin sayını azaltmaq üçün aşağıdakı alqoritmdən istifadə olunur.

1. Təcrübələrin planından əsas nüvəsi götürülür.Yəni k<5 olarsa $2^k$ – sayda , k≥5 olarsa, $2^{k-1}$ sayda plan əsas nüvə kimi planda iştirak edir.
2. Hər iki halda 2*k sayda təcrübə ulduzlu nöqtələrdə aparılır.Ulduzlar nöqtə aşağıdakı şərtdən tapılır.

K<5 olduqda $2^k+2*\alpha^4=3*2^k \Rightarrow \alpha^* = 2^{\frac{k}{4}}$

K≥5 olduqda $2^{k-1}+2\times\alpha^4=3\times2^{k-1} \Rightarrow \alpha^* = 2^{\frac{k-1}{4}}$

Hər bir amil üçün ( $\alpha^*$,0,..,0),(-$\alpha^*$,0,….,0) nöqtələrdə təcrübəni qoymalı və beləliklədə 2*k sayda təcrübə nüvəyə əlavə olunur.

3. Təcrübənin əsas səviyyəsində $n_0$ – sayda təcrübəni təkrar qoymalı

Nəticədə təcrübələrin sayı

$$N = \begin{cases} 2^k + 2 \cdot k + n_0 \quad , \ k < 5 \ olduqda \\ 2^{k-1} + 2 \cdot k + n_0 \, , \ k \geq 5 \, olduqda \end{cases}$$

$n_0$- planın mərkəzində qoyulan təcrübələrin sayıdır. $n_0$ – qiyməti faktorların sayından asılı olaraq müxtəlif qiymətlərə malik olur.

Tədqiqat və araşdırma nəticəsində məhsuldarlığa təsir edən amillər müəyyən olunmuş və onların hüdud qiymətləri dəqiqləşdirilmişdir.Beləliklə beş amil əsas götürülmüşdür.Yəni k=5 olarsa planın mərkəzində qoyulan təcrübələrin sayı $n_0=6$ olmalıdır. Onda təcrübələrin ümumi sayı $N=2^{5-1}+2 \cdot 5+6=32$ olar.

Ancaq tam faktorlu təcrübəyə əsaslansaq onda təcrübələrin ümumi sayı $N=3^5=243$ təcrübə olardı.Deməli təcrübələrin planlaşdırılması üsulunu tətbiq etməklə effektliliyi saxlamaq şərti ilə təcrübələrin sayının 243-dən,32-ə salmaq mümkün olmuşdur.Bu isə həm vaxta,həm çətinlik dərəcəsinə və əmək sərfinə görə həm də maliyyə vəsaitinə qənaət etdiyinə görə çox böyük nəticədir.

Müəssisənin illik hesabatlarından 32-sayda təcrübəni uyğunlaşdıraraq götürülmüş və onlar üzərində tədqiqat işi aparılmışdır.

Əsas amillər:

$z_1$- Xammalda şəkərliliyin faizlə ifadəsi (%); $98 \leq Z_1 \leq 99,6$

$z_3$ - Dayanmalar (dəqiqə); $8,2 \leq z_3 \leq 45$

$z_4$ - Qurutma zamanı temperatur ($C^0$ - dərəcə); $40^\circ \leq Z_4 \leq 48^\circ$

$z_5$ – Sentrafuqada emal müddəti (dəqiqə); $52 \leq Z_5 \leq 82$

y – məhsuldarlıq (tonla).Əgər $z_1$, $z_{2,\ldots,}z_5$ koordinant sistemindən,ölçüsüz $x_{1,}x_{2,\ldots,}x_5$ koordinant sisteminə keçsək,onda təcrübələrin planlaşdırlması üsulu ilə alınan 32 sayda təcrübənin planı cədvəl 1-də öz əksini tapmışdır.

Cədvəl 1.

| № | $X_1$ | $X_2$ | $X_3$ | $X_4$ | $X_5$ | Y |
|---|---|---|---|---|---|---|
| **1** | 1 | 1 | 1 | 1 | 1 | 1202.53 |
| **2** | -1 | 1 | 1 | 1 | 1 | 1218.29 |
| **3** | 1 | -1 | 1 | 1 | -1 | 1172.43 |
| **4** | -1 | -1 | 1 | 1 | 1 | 1313.77 |
| **5** | 1 | 1 | -1 | 1 | -1 | 1309.29 |
| **6** | -1 | 1 | -1 | 1 | 1 | 1248.57 |
| **7** | 1 | -1 | -1 | 1 | 1 | 1232.43 |
| **8** | -1 | -1 | -1 | 1 | -1 | 1394.57 |
| **9** | 1 | 1 | 1 | -1 | -1 | 1193.66 |
| **10** | -1 | 1 | 1 | -1 | 1 | 1208.33 |
| **11** | 1 | -1 | 1 | -1 | -1 | 1291.32 |
| **12** | -1 | -1 | 1 | -1 | -1 | 1203.77 |
| **13** | 1 | 1 | -1 | -1 | 1 | 1225.75 |
| **14** | -1 | 1 | -1 | -1 | -1 | 1461.66 |
| **15** | 1 | -1 | -1 | -1 | -1 | 1136.19 |
| **16** | -1 | -1 | -1 | -1 | 1 | 1354.84 |

| № | X1 | X2 | X3 | X4 | X5 | Y |
|---|---|---|---|---|---|---|
| **17** | -2 | 0 | 0 | 0 | 0 | 1078.27 |
| **18** | 2 | 0 | 0 | 0 | 0 | 1228.34 |
| **19** | 0 | -2 | 0 | 0 | 0 | 1161.11 |
| **20** | 0 | 2 | 0 | 0 | 0 | 1292.55 |
| **21** | 0 | 0 | -2 | 0 | 0 | 1098.08 |
| **22** | 0 | 0 | 2 | 0 | 0 | 1190.47 |
| **23** | 0 | 0 | 0 | -2 | 0 | 1200.52 |
| **24** | 0 | 0 | 0 | 2 | 0 | 1298.92 |
| **25** | 0 | 0 | 0 | 0 | -2 | 1151.06 |
| **26** | 0 | 0 | 0 | 0 | 2 | 1209.88 |
| **27** | 0 | 0 | 0 | 0 | 0 | 1265.56 |
| **28** | 0 | 0 | 0 | 0 | 0 | 1380.52 |
| **29** | 0 | 0 | 0 | 0 | 0 | 1125.32 |
| **30** | 0 | 0 | 0 | 0 | 0 | 1285.175 |
| **31** | 0 | 0 | 0 | 0 | 0 | 1185.27 |
| **32** | 0 | 0 | 0 | 0 | 0 | 1197.68 |

Məhsuldarlığın amillərdən asılılığı ikinci tərtib çoxhədli şəklində axtarılır.Onun ümumi şəkli aşağıdakı kimidir.

$$\tilde{y} = b_0+b_1x_1+...+b_kx_k+b_{12}x_1x_2+b_{13}x_1x_3+...+b_{k-1}x_{k-1}x_k+b_{11}x_1^2+ b_{22}x_2^2+...+b_{kk}x_k^2 \qquad (1)$$

Çoxhədlidə əmsalların sayı aşağıdakı kimi hesablanır.

$$l = k+1+k+ {}_kC_2 = 2k + 1+ \frac{k!}{2!(k-2)!} = \frac{(k+1)(k+2)}{2}$$

k = 5 olduqda,əmsalların sayı $l = \frac{(5+1)(5+2)}{2}$ = 21 ədəd oldu.

Nəzərə almaq lazımdır ki, təcrübələrin planlaşdırılması üsulundan istifadə edərkən təcrübələrin sayının əmsallarının sayından çox olması tələb olunur. Yəni $N>l$ olmalıdır. Çoxhədlidə istifadə edən əmsallar hesablamaq üçün əvvəlcə bəzi sabitləri hesablamaq lazımdır. Sabitlərin hesablanması ardıcıllığı aşağıdakı alqoritm əsasında yerinə yetirilir.

1. k=5; n=3; $n_0$=6; N=32
2. $\lambda_4 = \frac{k(n+n_0)}{(k+2)n}$ ;$C_j=N/\sum_{i=1}^{N} x_{ji}^2$ ;
3. $A=1/(2\lambda_4[(k+2)\lambda_4-k])$ ;

1. $a_1=2A\lambda_4^2(k+2)/N$;
2. $a_2=2A\lambda_4 C_j/N$ ; $a_3= C_j/N$;
3. $a_4= C_j^2/(N \cdot \lambda_4)$;
4. $a_5= A[C_j^2(k+2)\lambda_4 - k]/N$;
5. $a_6=AC_j^2(1-\lambda_4)/N$; $a_7=2A \cdot C_j\lambda_4/N$;

$a_1$, $a_2$... $a_7$ sabit ədədləri hesablanır.Alınan nəticələr aşağıdakı kimidir.

$a_1$=0,1591 ; $a_2$=0,0341 ; $a_3$=0,0417 ;

$a_4$=0,0625 ; $a_5$=0,0312 ; $a_6$=0,0028 ; $a_7$=0,0341

Bu qiymətlər çoxhədlinin əmsallarının hesablanmasında iştirak edir.Əmsallar aşağıdakı düsturlar vasitəsilə hesablanır.

$$b_0=a_1\sum_{i=1}^{N} y_i - a_2\sum_{j=1}^{k}\sum_{i=1}^{N} x_{ji}^2 \cdot y_i;$$
$$b_j=a_3\sum_{i=1}^{N} x_{ji}\, y_i$$
$$b_{uj}=a_4\sum_{i=1}^{N} x_{4i}\, x_{ji} y_i, \; u\neq j;\; u=\overline{1,k} \qquad (2)$$
$$b_{jj}=a_4\sum_{i=1}^{N} x_{ji}^2\, y_i + a_6\sum_{j=1}^{k}\sum_{i=1}^{N} x_{ji}^2 \cdot y_i - a_7\sum_{i=1}^{N} y_i$$

Məhsuldarlığın amillərdən aslılığı yuxarıda göstərilən (1) çoxhədlisi şəklində axtarılır. (2) ifadələri ilə verilən çxhədlinin əmsalları C++ alqoritmik dilində proqramı tərtib olunmuş və komputerdə realizə olunaraq müəyyən nəticələr alınmışdır.Əmsalların əhəmiyyətlilik dərəcəsi Styudent meyyarı ilə yoxlanılır və məsələnin İRM-i aşağıdakı şəkildə alınmışdır.

$y = 1243.04 + 2.49\, x_1 + 9.67\, x_2 – 20.8\, x_3 – 2.737\, x_4 – 3.96\, x_5 + 1.75\, x_1x_2 - 1.2783\, x_1x_3 + 0.1834\, x_1x_5 – 2.34\, x_2x_4$

Beləliklə, məsələnin riyazi modeli tərtib olunmuşdur və alınan riyazi məsələ kvadratik proqramlaşdırma məsələsinə gətirilmişdir.

**Açar sözlər:** planın mərkəzi, aktiv təcrübə, tam faktorlu təcrübə, təcrübələrin planlaşdırılması.

**Ədəbiyyat**


1. Хартман К. и др. Планирование эксперимента в исследовании технологических процессов. Москва, 1977.
2. Ахназарова С.Л., Кафаров В.В. Методы оптимизации эксперимента в химической технологии. Москва, 1985.


## TURİZMDƏ QİYMƏTLƏRİN TƏNZİMLƏNMƏ MEXANİZMLƏRİ


**Ülvi Süleymani**

Azərbaycan Universiteti

ulvi.suleymani@student.au.edu.az


Turizm XX əsrin elə bir fenomenal sahəsidir  ki, o, təkcə ölkə iqtisadiyyatına deyil, həm də onun sosial siyasətinə, mədəniyyətinə, adət-ənənələrinə, həyat tərzinə, millətin sağlamlığına və s. birbaşa və dolayı yolla təsir göstərir.

Araşdırmalardan göründüyü kimi, müasir rəqabətli bazar iqtisadiyyatı şəraitində turizmdə qiymət tələb və təklif amilləri  tərəfindən müəyyən edilir. Turizm müəssisələrinin istehsal etdiyi məhsulun qiymətini ödəmək, xərcləri ödəmək, rəqabət aparmaq, tələbatı ödəmək, mənfəət əldə etmək, tanıtım fəaliyyətlərini dəstəkləmək, yaxşı imic, müştəri loyallığı yaratmaq və turizm bazarında

hökmranlıq etməkdir. Hal-hazırda turizm xidmətləri bazarında əsasən sərbəst və müqavilə qiymətlərindən istifadə olunur.

Müasir dövrdə iqtisadiyyatın bir çox sahələrində dövlətlə bazarın qarşılıqlı əlaqəsi, dövlətin iqtisadiyyata müdaxiləsinin vacibliyini şərtləndirir. Dövlət tənzimlənməsinin beynəlxalq təctübələri aşağıdakı tendensiyaların vacibliyini şərtləndirir:

- dövlətin effektiv müdaxiləsi olmadan davamlı sosial və iqtisadi inkişaf mümkün deyil;
- iqtisadi və sosial inkişafın mərkəzində duran dövlət daha çox artım mənbəyi deyil, tərəfdaş və ya köməkçidir;
- dövlət müdaxiləsinin effektivlik dərəcəsi ölkənin inkişaf mərhələsindən və ölçüsündən, onun etnik tərkibindən, mədəniyyətindən, rifah səviyyəsindən, siyasi sistemindən asılıdır [4].

Bu məsələni nəzərdən keçirərkən bir daha vurğulamaq lazımdır ki, bazar müflisləşməsinə gəldikdə tənzimləmə özünü doğruldur. Turizm bazarının ardıcıllığını müəyyən edən əsas kateqoriyalar tələb və təklif meylləridir. Xarici araşdırmalara görə, aşağıdakı üç qrup amil turist tələbinə iqtisadi təsirin əsas mənbəyidir:

- göndərən tərəfin tələb amilləri (şəxsi gəlirin səviyyəsi; gəlirin bölgüsü; məzuniyyət müddəti; vergi siyasəti və turist xərclərinə nəzarət);
- təyinat üzrə tələb amilləri (ümumi qiymət səviyyəsi; bazar rəqabəti; turizm məhsulunun keyfiyyəti; turizmin iqtisadi tənzimlənməsi);
- birləşdirici amillər (göndərən tərəflə təyinat arasında müqayisəli qiymət səviyyəsi; göndərən tərəfdə təyinatı təşviq etmək səyləri; valyuta məzənnələri; səyahət vaxtı / dəyəri) [3].

Turizm qiymətlərin dövlət tənzimlənməsi turizmin inkişafı üçün əlverişli şəraitin təmin edilməsi, dövlət prioritetlərinin həyata keçirilməsi üçün təsərrüfat subyektlərinin - bu biznes növünün iştirakçılarının və bazar şəraitinin fəaliyyətinə dövlətin məqsədyönlü təsiridir. Bu sahədə dövlət siyasətinin işlənib hazırlanması və onun həyata keçirilməsi mexanizmlərinin seçilməsi daxildir.

Dövlətin turizm məhsullarının qiymətlərini tənzimləməsi üçün müxtəlif vasitələr var . Birincisi, ölkənin bir çox attraksionları dövlət sektorunun təsiri altındadır, əksər aviaşirkətlər hökumətin nəzarətindədir və bir çox inkişaf etməkdə olan ölkələrdə hətta otellər dövlətə məxsusdur. Bir qayda olaraq, sosial infrastruktur və nəqliyyat şəbəkələri təbii inhisar sayılır və dövlətin mülkiyyətində deyilsə, heç olmasa onlara nəzarət edilməlidir. Dolayı yolla, dövlət iqtisadi rıçaqların köməyi ilə qiymətə təsir göstərə bilər (məsələn, valyuta nəzarətindən istifadə etməklə, bu valyuta mübadiləsinə məhdudiyyətlərə səbəb ola bilər, nəticədə turistlər valyutanı şişirdilmiş qiymətə dəyişmək məcburiyyətində qalacaqlar və bununla da səyahətin real qiymətini artıracaqlar); satış vergiləri, gömrük zonalarında mağaza açılması və s. dolayı yolla dövlət iqtisadi rıçaqların köməyi ilə qiymətə təsir edə bilər.

Onu da qeyd etmək lazımdır ki, turist seçiminə və qiymətlərin tənzimlənməsinə yönəlmiş tələbin idarə edilməsindən fərqli olaraq, təklifin dövlət tənzimlənməsi turizm xidmətlərinin satıcılarına təsirlə əlaqələndirilir. Dövlət təklifi idarə etmək üçün aşağıdakı üsullardan istifadə edir:

- bazar araşdırması və planlaşdırma;
- bazar tənzimlənməsi;

- torpaqdan istifadənin planlaşdırılması və nəzarəti;
- ümumi tənzimləmə, vergilər, investisiyalar.

Ümumiyyətlə, bir çox ölkələrdə (ABŞ , Almaniya, Fransa, Türkiyə və s.) isə tarix və memarlıq abidələrinin mühafizəsi və istifadəsi haqqında qanunlar qəbul edilmişdir. 27 dekabr 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə” Dövlət Proqramının qəbul edilməsində əsas məqsəd Azərbaycanın daşınmaz mədəni irsinin ölkə daxilində və beynəlxalq miqyasda təbliği, təşviqi və ölkədə mədəni turizmin inkişafını sürətləndirməkdən ibarətdir [1]. Bildiyimiz kimi, yerli əhalinin üzərinə düşən turizm xərclərinin yenidən bölüşdürülməsi, turistlərə rahat şəraitin yaradılması, yüksək xidmətin təmin edilməsi, habelə büdcənin gəlir hissəsində turizmin payının artırılması məqsədilə turistlərin vergiyə cəlb edilməsi dövlətin turizmə təsirinin əsas üsullarından biridir. Buna otellərdə, hava limanlarında, bilet alarkən, kazinoda xarici turistlərdən alınan vergiləri misal göstərmək olar.

Dünyanın bir çox ölkələrində də turistlərə bu tip vergilər tətbiq olunur. Bir turpaketin və ya xidmətin maya dəyəri hesablanan zaman qiymətlərdəki artım sadəcə turistin üzərinə deyil, eyni zamanda kompromis variant kimi sahibkarların da üzərinə qoyulur. Və nəticədə qiymət artımı deyil, köhnə qiymətlərin müəyyən qədər stabil qalması baş verir. Bu cür vergi Azərbaycanda da tətbiq olunur. Belə ki, "Yerli (bələdiyyə) vergilər və ödənişlər" haqqında Azərbaycan Respublikasının Qanununun 9.1.4-cü maddəsinə əsasən bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslər xidmət göstərdikləri hər bir şəxs üçün sutkada 1,1 manatdan çox olmamaqla bələdiyyənin hesabına ödəniş etməldir [2]. Bəzi ölkələrdə isə turistlərin ekologiyaya, ətraf mühitə vurduğu zərərləri aradan qaldırmaq üçün turistlərdən eko-vergi tutulur. Bu bir çox dünya ölkələrində yayılmış təcrübə olub, əsasən bələdiyyələrin hesabına toplanır.

Lakin vergilərin tətbiqi bəzən dövlət üçün əlverişli olmaya da bilər. Çünki vergilərin yığılması öz növbəsində turizm xidmətlərinə olan tələbi azalda bilər ki, bu da turizmdən gələn gəlirlərin azalmasına səbəb olacaq. Məsələn, yerləşdirmə vergisi otel sahiblərini xidmətlərin qiymətlərini qaldırmağa məcbur edir ki, bu da otel xidmətlərinə tələbin azalmasına səbəb ola bilər və beləliklə, eyni otelin gəlirlərinin azalması ilə nəticələnər.

**Açar sözlər:** tələb, təklif, turpaket, satış vergiləri, tənzimləmə, eko-vergi.

## Ədəbiyyat

1. 27 dekabr 2013-cü il,“Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə” Dövlət Proqramı).
2. Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunu 27 dekabr 2001.
3. Bull A. The Economics of Travel and Tourism. 2th ed. Longman. 1999, 267 p.
4. Экономическая теория. Микроэкономика – 1,2: Учебник / Под общ. ред. Заслуженного деятеля науки РФ, проф., д-ра экон. наук Г.П. Журавлевой. М.: Дашков и Ко, 2004, 934 с.

# VERGİTUMA MEXANİZMİNİN XARAKTERİSTIKASI

**Əhliman Süleymanlı**
Azərbaycan Universiteti
ahliman.suleymanli@student.au.edu.az

Vergitutma mexanizminin prinsiplərinə diqqət yetirdiyimiz zaman görürük ki, iqtisadçılar tərəfindən bu mövzu haqqında keçmişdən günümüzə qədər ətraflı müzakirələr olmuşdur. Vergi yığımının və vergi dərəcələrinin optimal şəkildə qurularaq tətbiq edilməsi üçün vergitutma mexanizmi prinsiplərinə diqqət yetirməmiz zəruridir.İqtisadiyyatçıların bu prinsiplər ətrafında apardığı müzakirələr, dövlətlərin həmçinin Azərbaycan Respublikasının da vergi mexanizmlərində və vergi siyasətlərində müxtəlif formalarda əksini tapmışdır. Vergitutma mexanizminin prinsipləri vergilərin (vergi dərəcələri və s) tənzimlənməsində və tətbiqində riayət edilməli olan məsələləri özündə əks etdirir. Vergi mexanizminin prinsipləri müxtəlifcür təsnifləşdirilir. Bir çox iqtisadçıların bu mövzudə şərhləri olsa belə, klassik iqtisadiyyatçılardan olan Adam Smitin təsnif etdiyi vergitutma prinsipləri müasir dövrümüzdə də aktualdır. 18-ci əsrin filosoflarından biri olan Adam Smit "Millətlərin sərvəti" adlı kitabında vergi sisteminin rasional işləməsi üçün riayət edilməli olan qaydaları aşağıdakı prinsiplərlə əlaqələndirir:

- **Ədalət (Bərabərlik) prinsipi**: Bu prinsipin əsas məğzi ondan ibarətdir ki, vətəndaşlar mümkün qədər öz gücləri ilə, yəni dövlətin himayəsi altında əldə etdikləri gəlirlə mütənasib olaraq dövlət xərclərində iştirak etməlidirlər. Ümumi olaraq ədalət prinsipi adlandırılan bu qayda əslində vergi yükünün bölüşdürülməsi mənasında "ədalətlilik" deyil, iqtisadi mənadə "bərabərlik"-i özündə ehtiva edir.Araşdırmamıza əsasən qeyd edə bilərik ki, bir neçə üsul vasitəsiylə vergi mexanizminin tərkibində ədalətlilik prinsipini tətbiq etməklə, vergi ödəyicilərinin ödəmə qabiliyyətini artırmaq mümkündür. Bunlara misal olaraq, insanların həyat fəaliyyətini təmin etmək üçün lazımi olan gəlirdən (yaşayış minimumu) vergi tutulmamasını göstərə bilərik,ancaq bunu da qeyd etməliyik bu üsul yanlız gəliri müyyən bir məbləğə qədər olan vergi ödəyicilərinə şamil edilməkdədir. Həmçinin başqa bir misal olaraq, bəzi dövlətlərin vergi mexanizmlərində vergi ödəyiclərinin fərdi və ailəvi vəziyyəti nəzərə alınaraq gəlir vergisi tutularkən müəyyən güzəştlər olunmasını göstərə bilərik. Azərbaycan Respublikasının vergi mexanizmindədə bu üsullar tətbiq edilir. Lakin əsas sual səmərəliliyin hansı dərəcədə olduğu olmalıdır. Milli vergi sistemimizə nəzər yetirdiyimiz zaman görürik ki vergi dərəcələrinin stabilləşdirilməsində yaranan problemlər, vergi ödəyicilərini qeyri-rəsmililiyə təşfiq edən səbəblər, vergidən yayınma halları, bəzi sahələrdə inhisarçılığın və monopoliyaların mövcudluğu həmçinin vergi məcəlləsinin mürəkkəbliliyi,vergitutma mexanizmində ədalət prinsipin tətbiq edilməsində kəskin problemlər yaradır. Fikrimizcə bu probləmlərin qarşısını almaq və ədalətlilik prinsipinin vergi mexanizmində daha düzgün tətbiq edilməsi üçün; vergi ödəycilərinin toplu şəkildə maarifləndirilməsi istiqamətində müasir tədbirlərin həyata keçirilməsi, müxtəlif dərəcədə kapital və gəlir səviyyəsinə görə daha optimallaşdırılmış vergi dərəcələrinin tətbiqi vacibdir.

**-Dəqiqlik (Müəyyənlik) prinsipi**

Bu prinsipin əsas məğzi onda ibarətdir ki,hər bir fərdin ödəməli olduğu vergi müəyyən edilməlidir və özbaşınalıqla olmamalıdır. Vergilərin, ödəniş vaxtı, məbləği, ödəniş forması həm vergi ödəyicisi, həm də digər şəxslər üçün aydın olmalıdır.Azərbaycan Respublikasının vergi mexanizminə nəzarət yetirdiyimiz zaman, bu prinsipin düzgün şəkildə tətbiq edildiyini deyə bilərik. Vergi məcəlləsində bütün bu məsələlər, hər bir vergi üçün maddələrdə əks olunmuşdur. Vergi ödəyicisinin, ödəməli olduğu verginin məbləğini və formasını əvvəlcədən bilməsi nəticəsində, vergitutmada yarana biləcək özbaşınalıqların qarşısını alır.

**- İqtisadilik prinsipi**

Adam Smith iqtisadilik prinsipini aşağıdakı formada ifadə edirdi: "Hər bir vergi elə tənzimlənməlidir ki, xalqın cibindən çıxan pulla, dövlət xəzinəsinə daxil olan pullar arasındakı fərq mümkün qədər az olmalı və pulun xalqın cibindən kənarda qaldığı müddət mümkün qədər qısa olmalıdır. Adam Smithin bu şəkildə ifadə etdiyi iqtisadilik prinsipinə iki aspektdən nəzər yetirə bilərik. Belə ki,bu prinsip bir tərəfdən vergitutmanın səbəb olduğu qiymətləndirmə və toplama xərclərinin mümkün qədər aşağı səviyyədə saxlanılmalı olduğunu ifadə etməklə yanaşı,digər tərəfdən vergitutmanın təsirlərinin iqtisadi fəaliyyətə mümkün qədər az ziyan vurması lazımdır deyə şərh olunur. Bu prinsipin əsas məğzi onda ibarətdir ki,vergi mexanizmləri mövcud iqtisadi şəraitə və tələblərə uyğun şəkildə formalaşmalı,həmçinin iqtisadi artım və məşğulluq artımına təsir göstərməlidir. Azərbaycan respublikasında bu prinsip daxilində, vergi ilə bağlı elmi-tədqiqat işlərinə ayrılan xərclər və konstruktor tədbirlər,müsbət nəticə verməlidir. Həmçinin respublikamızda müxtəlif korporativ vergi dərəcləri tətbiq oluna bilər.Əgər ki,bucür tədbirlər həyata keçirilərsə və nəzarət mexanizmi düzgün şəkildə həyata keçirilərsə ölkə iqtisadiyyatının inkşafına müsbət şəkildə təsir göstərə bilər.

**Açar sözlər**: vergi, vergitutma, mexanizm.

### Ədəbiyyat

1. Ələkbərov Ə.Ə. 2005, Azərbaycan Dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu. Bakı, 316 səh.
2. Kəlbiyev Y.A., Məhərrəmov R.B. (2011), Xarici ölkələrin vergi sistemi. İqtisad Universiteti, Bakı, 434 s.
3. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov Y.A., Rzayev Z.H. (2010), Vergilər və vergitutma. Dərslik. Bakı, 345 s.
4. Saez E., Stantcheva S.. Optimal taxation of top labor incomes. No. w17616. National Bureau of Economic Research, 2011.
5. Кучеров И.И., Судаков О.Ю. (2011), Налоговый контроль и ответственность за нарушение налогового законодательства. М.: НОРМА, 321 с.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ KƏNDLİ ÜSYANLARI

**Lamiə Sultanova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix1650@yandex.com

Azərbaycan xalqının tarixinə əlamətdar hadisə kimi əbədi daxil olmuş hadisələrdən biri də 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasıdır. Yeni yaradılmış Cühmuriyyəti həlli çətin olan məsələlər gözləyirdi ki, bunlardan biri də aqrar ( torpaq) məsələsi idi. Bu dövrdə əhalinin əsas hissəsini aztorpaqlı və ya torpaqsız kəndlilər təşkil edirdi. Dözülməz şərtlər altında bu kəndlilər torpağı icarəyə götürüb muzdur kimi işləmək məcburiyyətində qalırdılar. Mövcud belə vəziyyət kəndli üsyanlarını şərtləndirirdi.

Kəndli üsyanları zamanı kəndlilər nəinki mülkədar torpaqlarını tutur, ödədikləri icarə haqqlarını geri alır, hətta mülkədarların özlərindən amansız intiqam alırdılar. Bəhs edilən dövrdəki kəndli üsyanlarını əvvəlkilərindən fərqləndirən xüsusiyyətlərindən biri də daha çox kütləvi olması idi. Mübarizə arealı Gəncə, Qazax, Nuxa, Ərəş və s.qəzalara kimi uzanmışdı.

1917-ci ilin sonlarında yeni qüvvə ilə yüksələn kəndli hərəkatı 1918-ci ilin yanvar – fevral aylarında ən yüksək nöqtəyə qalxdı. 1918-ci ilin əvvəllərində Goranboy-Əhmədli və Borsunlu kəndliləri Qatır Məmmədin rəhbərliyi altında mülkədarlara qarşı geniş mübarizəyə başladılar. Yanvarın 6-sı Qazax qəzası kəndlilərinin də üsyanı qalxdı. Mülkədar Sultanovlara sarsıdıcı zərbələr vuruldu. Gəncə qəzası Morul kəndində “Buzxana” adlı yerdə “Limited səhmdar cəmiyyəti”nə aid barıt mədəni, Alabaşlı kəndliləri knyagina Qalisinanın” Qalisino” adlı malikanəsini dağıtdılar. Gəncə, Qazax qəzalarını kəndli üsyanının alovları bürüdüyü bir zamanda Lənkəran, Cavad, Quba, Şuşa, Ərəş və başqa qəzaların da kəndliləri də torpaq uğrunda mübarizəyə başladılar. Məsələn Şuşa qəzasının kəndliləri qəddar mülkədar Fərrux bəy Vəzirovun malikanəsini dağıtdılar [3, s.35].

1918-1919-ci il hərc-mərcliyi zamanı Öysüzlü, Vayışlı, Azaplı, Bayramlı, Ağdam, Qazax qəzasının başqa kəndlərin kəndliləri tərəfindən Sultanovlar adlı bəylərin əmlakı talan və qarət edilmişdir. Bu faktlar ixtişaşların xarakterini və onların şiddətini aydın bir surətdə göstərir. Həyəcan son dərəcə böyük idi və bu həyəcan intiqamın yalnız bu şəklinə çevrilə bilərdi [1, s.25].

Aqrar müstəvidə baş verən belə üsyanlar zaman keçdikcə daha da artmaqda idi. Vəziyyətin bu həddə qədər gəlib çatmasından təşvişə düşən bəylər bəzən Hökumətdən kömək istəyirdilər. Belə kəndli ixtişaşlarının aradan qaldırılması məqsədilə Hökumətin bu sahədə atdığı addımlar da oldu.

Daxili İşlər Nazirliyi Gəncə Quberniyasının Qazax qəzasında baş verən hadisələrin araşdırılması, zəruri tədbirlərin görülməsi üçün parlament üzvü Rza bəy Qaraşarovu xüsusi səlahiyyətli şəxs elan edərək ona bütün qəza hakimiyyət orqanları üzərində sərəncam hüququ vermişdi. R.S. Qaraşarovun sərəncamında 600 nəfərlik xüsusi təlim görmüş dəstə var idi. Gəncə quberniyasındakı silahlı dəstələr hökumət qüvvələrinə gərgin günlər yaşadırdı. 1919–cu il mart ayının

20-də 800 nəfərlik dəstəyə başçılıq edən Qatır Məmməd və Müseyib Əliyev Gəncəyə daxil olaraq qubernator Vəkilovu Bakıya qaçmağa məcbur etmişdilər [4, s.49].

Bəhs edilən dövrdə qüvvətlənən kəndli üsyanlarının əsas mərkəzlərindən biri məhz Gəncə quberniyası idi. Quberniyada torpağın ən çox hissəsinin mülkədarların əlində olması, kəndlilərin isə torpaqsızlıqdan çox korluq çəkməsi, torpağın bəylər və xanlar tərəfindən ağır şərtlərlə icarəyə verilməsi, kəndlilərin amansız istismar olunması, bunların hamısı mülkədarla yoxsul kəndlilər arasında sinfi ziddiyyət və sinfi mübarizəni son dərəcə kəskinləşdirib qüvvətləndirmişdi. Gəncə quberniyasında inqilabi kəndli hərəkatının inkişafına və onun böyüyüb üsyana çevrilməsinə yardım edən səbəblərdən biri də quberniyanın bir sıra rayonlarının –Gəncə, Qazax,Şamxor, Tovuz rayonlarının dəmiryol xəttinə yaxınlığı və bu rayonların kəndlilərinin quberniyada olan sənaye müəssisələri və dəmiryol fəhlələri ilə sıx əlaqə saxlaması idi [2, s.268].

1917-1919 -cu illərdə qüvvətlənən kəndli hərəkatının spesifik xüsusiyyətlərinə daxil olan bir neçə məqama diqqət edək. Kəndli çıxışları özündən əvvəlki çıxışlardan fərqli olaraq daha planlı təşkil edilmişdi. Eyni zamanda bu kəndli çıxışları müxtəlif yerlərdə eyni zamanda başlayır, tez bir zamanda strateji əhəmiyyət kəsb edən ərazilər tutulurdu.

Bildiyimiz kimi, Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu illər ərzində aqrar məsələ ilə bağlı qəti qərar qəbul edə bilməsə də, bu işdə cəhdləri danılmazdır. Hətta parlament iclaslarında belə dəfələrlə aqrar məsələ gündəlik məsələ kimi qarşıya qoyulurdu.

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, üsyan, kəndli, torpaq.

**Ədəbiyyat**

1. Ağayev M. Müsavatın aqrar siyasəti, Bakı, 1930.
2. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918), Bakı, 1957.
3. Rəhimov Ə. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi, Bakı, 1962.
4. Səməndərov S. 1917-1920-ci illərdə Azərbaycanda aqrar məsələ, Bakı, 2009.

## ƏRDƏBİL HAKİMLİYİ

**Leyla Tağızadə**
**Azərbaycan Universiteti**
leila.taghizade98@gmail.com

Səfəvi dövlətinin yaranıb inkişaf etməsi və məşhurlaşması Ərdəbil dövrü ilə bağlı olmuşdur. Buna görə də həmin dövrün öyrənilməsinin mühüm əhəmiyyəti vardır. Tarixçilərin vermiş olduğu məlumatlara əsasən, XV əsrdə səfəvilərin Şamlı, Ustaclı, Rumlu, Əfşar, Təkəli, Zülqədər və Qacar tayfaları hesabına Azərbaycanın iqtisadi və siyasi gücü artmışdı. Onlar bu dövrdə daha aktiv fəaliyyət göstərərək Azərbaycan torpaqlarının vahid şəkildə birləşdirilməsi uğrunda gərgin mübarizə aparırdılar.

Səfəvilərin həm Azərbaycanın içərisində, həm də qonşu dövlətlər arasında nüfuzunun güclənməsinin daha bir səbəbi vardır. Onlar müvəffəqiyyətli basqınlar təşkil etmiş, çoxlu qənimət ələ keçirərək, Ərdəbildə möhkəmlənməyə nail olmuşlar.

Rus şərqşünası Petruşevski Səfəvi dövrünü 4 dövrə bölərək, qeyd etmişdir ki, birinci dövr Səfəvi şeyxliyinin yaranması və inkişafı ilə bağlıdır. Həmin vaxt Səfəvilərin hərbi gücü zəif olduğundan var qüvvəsini şiəliyin yayılıb çoxalmasına sərf edirdi. Səfəvi icmasının və nəslinin banisi Şeyx Səfiəddin Musəvi olmuşdur (1252-1334). Sufi tədqiqatçısı Massion "Səfəviyyə" dini icmasının "Söhrəverdiyə"nin Azərbaycan şöbəsi olduğunu bildirmişdi. Səfəvilərin səlcuqların vaxtında yaşayan ulu babası "şah" adlanan Firuz Zərringulah olmuşdur [1].

Təxminən iki əsr boyunca, daha doğrusu, Şah İsmayılın Təbrizdə dövləti yaratmasına kimi Cənubi Azərbaycanın elm beşiyi hesab edilən Ərdəbil kimi bir şəhərdə 1300-cü ildən sonra bir çox binalar tikilib istifadəyə verilir, dünyanın hər tərəfindən buraya elm, savad almaq üçün axışırlar. Nəticədə Şeyx Səfiəddinin oğulları 200 ildən sonra taxta çıxaraq, bu qüdrətli dövləti Nadir şahın zamanına kimi ayaqda tutmağı bacarırlar. 1334-cü ildə Şeyx Səfiəddinin ölümündən dərhal sonra Şeyx Sədrəddin onun yerinə keçərək, təriqəti bir xeyli gücləndirmiş və çoxlu tərəfdar toplamışdı. Layihəsini atasının ölümündən sonra təriqətə başçılıq edən Şeyx Sədrəddinin çəkdiyi Şeyx Səfi türbəsi on ilə tikilib istifadəyə verilmişdir.

Dini bir icma kimi Səfəvilərin genişlənməsinə gətirib çıxaran səbəblərdən biri də Əmir Teymurun Ərdəbildəki Səfəvi şeyxliyinə göstərdiyi diqqətcilliyi idi. Şeyx Səfinin xahişini nəzərə alan Teymur Anadoluda əsir götürdüyü türkləri buraxdırmaqla yanaşı, təriqətin başçısına müəyyən miqdar pul və əraziləri ənam verdi [2]. Səfəvilərin qazandığı uğurlar Cahanşahı təşvişə salmışdı və buna görə də Şeyx Cüneydi Ərdəbildən çıxmağa vadar etdi. Tərəfdarları ilə birlikdə 1449-cu ildə Cüneyd Suriyaya yola düşdü. Yeddi ildən sonra isə yenidən Diyarbəkrə qayıdıb, Həsən Padşahın yanında məskən saldı. Burada o, Həsən Padşahın bacısı Xədicə Bəyimlə evləndi. 1459-cu ildə yenidən Şeyx Cüneyd Ərdəbilə qayıtmaq istəsə belə, Şeyx İbrahimin oğlu olan Şeyx Cəfər buna imkan yaratmadı.

Dini yaymaq adı altında Azərbaycanın şimal bölgəsinə və Dağıstana hücuma keçən Şeyx Cüneydin əsas planı Şirvanı zəbt etmək idi. Bunu eşidən II Xəlilullah Cüneydin ordusuna hücum etdi, 1460-cı ildə Samur çayı kənarında baş tutmuş toqquşmada Səfəvilər məğlub oldu və Cüneyd həlak oldu.

Şeyx Cüneyd öldürüldükdən sonra onun yerinə oğlu Şeyx Heydər keçdi. Şeyx Heydər də atasının yolunu gedərək, Cahan şah və Əbu Səidlə mübarizədə Həsən Padşaha silah-sursat köməkliyi edirdi [3]. Ərdəbildə Həsən Padşahın qızı Həlimə Bəyimlə ailə həyatı quran Şeyx Heydərin hörməti daha da artdı və bu evlilikdən 3 oğlan uşağı oldu: Əli, İbrahim, İsmayıl. Şeyx Heydər hakimiyyətinin ilkin çağlarında başqa-başqa əyalətlərdən ordu toplamış və onları silahlandırmışdı.

Şeyx Heydərin güclənməsi Bayandurluları narahat etməyə başladı. 1488-ci il 9 iyulda Süleyman bəy Bicanoğlunun başçılıq etdiyi 4 min nəfərlik ordusu ilə Şeyx Heydərin qoşunu arasında baş verən döyüşdə Şeyx Heydər məğlub edilərək, başı kəsildi, başını əvvəlcə Sultan Yaquba, sonra isə Xədicə bəyimə göndərdilər. Bu olaylardan sonra Sultan Yaqub Ərdəbili ələ keçirərək, özünə tabe etmişdi. Şeyx Heydərin övladları olan Sultanəli, İbrahim və İsmayılı İstəxr qalasına məhkum etmişdi. 1490-cı ildə Sultan Yaqubdan sonra hakimiyyətə gələn Baysunqur da qızılbaşlara qarşı amansız

davranmağa başladı. 1492-ci ildə Rüstəm Mirzə Baysunquru devirdi və yerinə keçdi. O, təriqət üzvlərini azad edərək, Baysunqura qarşı mübarizə aparmaq niyyətində idi. Rüstəm Mirzə Ərdəbili qızılbaşlara verməklə bərabər, Sultanəliyə "padşah" ləqəbini verdi.

1493-cü ildə Əhər-Meşkin ətrafında baş verən döyüşdə Baysunqur uduzaraq, öldürüldü. Rüstəm Mirzə Sultanəlinin uğurlarından narahat olaraq, ona qarşı çıxmağa başladı. Şəmasi adlanan döyüşdə Sultanəli Rüstəm Mirzəyə məğlub oldu və öldürüldü. Bundan sonra vəfalı təriqət nümayəndələri Şeyx Heydərin digər 2 oğlunu Ərdəbildə gizlətməyə cəhd göstərdilər [4]. Rüstəm Mirzə Eybə Sultana İbrahimi və İsmayılı tapması barədə əmrlər yağdırırdı. Lakin Eybə Sultan onları heç yerdə tapa bilmirdi [5]. İsmayıl bir müddət Ərdəbilin Cümə məscidində gizlənə bildi. Lakin daha sonra buranın təhlükəli olduğu nəzərə alınaraq, Ərdəbildən çıxıb Baqrov dağı istiqamətində hərəkət etdilər. Uzun yoldan sonra Kərkən kəndindəki bir xadimin evində İsmayılı gizlətdilər. Buranı da tərk etməli oldular, onlar Rəşt, Kəsgəri və digər yerləri gəzdikdən sonra Lahicana, Gilan hakiminin yanına gəldilər. İsmayıl Gilana qaçdıqdan sonra Eybə Sultan onun yerini öyrəndi və Mirzə Əlidən onun təslim edilməsini əmr etdi. Mirzə Əli isə buna məhəl qoymayaraq, hər dəfə cürbəcür bəhanələr gətirirdi. İsmayıl Lahicanda təxminən 6 il qalmış və bu müddət ərzində şöhrət və qüdrətini artırmaq məqsədilə ehtiyat tədbirləri görmüşdü. O, öz ətrafına Rum. Qaracadağ və başqa yerlərdən sadiq tərəfdarlar toplamışdı.

**Açar sözlər:** Qızılbaşlar**,** Səfəvi, Ərdəbil hakimliyi, Şeyx Səfiəddin, təriqət, Şeyx Heydər, Şeyx Cüneyd, tərəfdarlar, Sultanəli.

## Ədəbiyyat

1. Musalı N. Azərbaycan Səfəvilər dövləti I Şah İsmayılın hakimiyyəti dövründə ("Aləmara-yi Şah İsmayıl" əsəri əsasında), 2002.
2. Bayramlı Z., Sabiyev B. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). Bakı. Elm və Təhsil. 2017, 360 s.
3. Azərbaycan tarixi. Yeddi cilddə. III cild. (XIII-XVIII əsrlər). Bakı. Elm. 2007, 592s.
4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı. Şərq-Qərb. 2007, 407 s.
5. Əliyarlı S. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı. "Azərbaycan". 1996, 866 s.

# RƏQƏMSAL MARKETİNQİN BEYNƏLXALQ BİZNESDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

**Tural Tahirli**
Azərbaycan Universiteti
Tural.Tahirly@student.au.edu.az

Marketinq nədir? Marketinqin atası sayılan Filip Kotlerə görə: "Marketinq mənfəət qazanmaqla hədəf kütlənin ehtiyaclarını ödəməyə yönəlmiş dəyərin araşdırılması, yaradılması və ötürülməsi elmi və sənətidir". Amerika Marketinq Assosiyasının rəsmi tərifinə görə isə, "Marketinq – müştəri, partnyor və bütövlüklə cəmiyyət üçün dəyərə sahib təklifin yaradılması, kommunikasiya olunması, çatdırılması və dəyişdirilməsi fəaliyyəti, prosesi və institutlar məcmusudur".

Təriflərdən də aydın olduğu kimi marketinq demək olar ki, həyatda baş verən bir çox prosesin tərkib hissəsidir. Sadəcə burada önəmli nüans marketinqin tək bir növünün olmamasıdır. Marketinq hər sahəyə uyğun olaraq fərqli növlərə malikdir.

Marketinqin növləri dedikdə isə, onların bəzilərini bir neçə başlıq altında toplaya bilərik:

1. Satınalma marketinqi (Acquisition Marketing) - axtarış optimizasiyası, ödənişli reklam, dönüşüm nisbətinin optimallaşdırılması, müştərilərin ayrışması kampaniyası vasitəsilə saytınıza yeni ziyarətçiləri gətirir.

2. Tərəfdaşlıq marketinqi (Affiliate Marketing) - bir satıcı bir internet saytına öz reklamını göndərir və bu reklam ilə yönləndirən hər müştəri üçün müəyyən komisyon ödənişi edir. Veb sayt yalnız bu reklam, satışa çevrildiyi zaman ödəniş ala bilir.

3. Brend marketinq (Brand-Marketing) - brendin ictimaiyyətin gözündə daha yaxşı görünməsi üçün çalışır və hekayələrin, yaradıcılığın, yumorun köməyi ilə hədəf kütlə ilə emosional əlaqə yaradır.

4. Məzmun marketinqi (Content Marketing) - auditoriyaya məzmun yaratmaq, dərc etmək və yaymaq kimi hədəflərə sahib olan bir marketinq növüdür. Məzmun marketinqinin ümumi hissələri sosial şəbəkələr, bloglar, vizual məzmun və alətlər, elektron kitablar, vebinarlar kimi eksklüziv məzmunlardır.

5. E-Poçt marketinq (Email Marketing) – e-poçt yolu ilə məhsul və ya xidmətlərin tanıdılmasıdır. Ən geniş mənası ilə, potensial və ya mövcud bir müştəriyə göndərilən hər e-poçt, bu marketinq növünün nümunəsi olaraq düşünülə bilər [4].

6. Kontekst marketinq (Contextual Marketing) - veb saytlar və ya sosial şəbəkələr vasitəsilə insanların onlayn olmalarına uyğun olaraq müxtəlif reklamları onların önünə çıxarmaq üçün hədəfləyir.

7. Rəqəmsal marketinq (Digital Marketing) – elekronik şəraitdə və internetdən istifadə edərək məhsul və xidmətinizi tanıda və eyni zamanda sata biləcəyiniz, son dövrlərdə ən çox istifadə edilən marketinq növüdür.

Rəqəmsal marketinq xüsusilə son dövrlərdə marketinqin növləri arasında demək olar ki, artıq ilk sıralara yerləşməkdədir. Gün keçdikcə bu marketinq növünə istər istehlakçı, istərsə də istehsalçı

tərəfindən olan maraq daha da artmaqdadır. Burada ən önəmli olan nüans isə təbii ki, istehsal olunan və ya satılan məhsulun məhz rəqəmsal marketiqn alətləri vasitəsilə birbaşa hədəf kütlənin önünə çıxarılmasıdır. Bu məqamda təbii ki, bir çox sahibkara və ya biznesmenə ən çox maraqlı gələn qisim məhsul və xidmətlərin doğru müştərilərə çatdırılmasıdır. Məhz buna görə də həm ölkəmizdə, həm də beynəlxalq biznesdə rəqəmsal marketinqin əhəmiyyəti gedərək artmaqdadır.

Rəqəmsal marketinq dedikdə, ağlımıza ilk olaraq aktiv şəkildə istifadə edilən Facebook, İnstagram, Twitter, Linkedin, TikTok kimi sosial şəbəkələr gəlsə də, bunlarla yanaşı olaraq Youtube platforması, Yandex, Google, Yahoo kimi axtarış sistemləri də gəlməlidir. Məhz bu axtarış sistemləri vasitəsilə insanlar almağa və ya satmağa maraq göstərdiyi məhsul və ya xidmət barədə məlumat əldə edə bilirlər.

Beynəlxalq biznesdə rəqəmsal marketinqin əhəmiyyətinə gəldikdə bununla bağlı olaraq son dövrlərdə ölkəmizdə də böyük maraqla qarşılanan və yetəri qədər onlayn alış-veriş edilən Türkiyənin onlayn satış platformalarını misal göstərmək olar. Məhz rəqəmsal marketinq sayəsində hər keçən gün dayanmadan artan müştəri sayı ilə Türkiyənin və demək olar ki, yerləşdiyi coğrafi ərazinin lider platforması olan Trendyol onlayn alış-veriş saytının hazırda dəyəri 16,5 milyard dollardan çoxdur. İstər Google reklamları, istər mobil tətbiqlər vasitəsilə, istərsə sosial şəbəkələrdə verilən və alıcıların önünə hər məqamda çıxarılan onlayn reklamlar sayəsində gedərək böyüyən Trendyol platforması 2019-cu ilin ilk yarısında açıqlanan statistiklarına görə 12 milyon aktiv üzvü ilə 200 milyon məhsul satışı həyata keçirməklə yanaşı, həm də 20 milyon insan tərəfindən mobil tətbiq endiriminə çata bilmişdir [3]. Sadəcə bu nümunə rəqəmsal marketinqin beynəlxalq biznesdə hansı dərəcədə əhəmiyyətə sahib olduğunu göstərməkdədir.

**Açar sözlər:** marketinq, rəqəmsal marketinq, dijital marketinq, beynəlxalq biznes, onlayn alış-veriş.

## Ədəbiyyat

1. https://www.businessmanagementideas.com/marketing/marketing-definition/20516
2. https://www.marketing-schools.org/types-of-marketing/contextual-marketing/
3. https://www.pazarlamasyon.com/dijital-pazarlama-nedir/
4. Yasemin Gedik, Beykent Üniversitesi, Uluslararası Yönetim Akademisi Dergisi, E-Posta Pazarlama: Teorik Bir Bakış, İstanbul, 2020.

# ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNƏ OLAN TƏDBİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Balabəyim Tahirzadə**
Azərbaycan Universiteti
beyimtahirzade89@gmail.com

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi dövlətin mühüm vəzifələrindən biridir. Ona görə də iqtisadi təhlükəsizliyin təmin edilməsinin cari vəziyyəti təhlil edilməli və ona qarşı olan təhdidlər vaxtında aşkar edilərək, aradan qaldırılmalıdır. İqtisadi təhlükəsizliyə olan təhdidlər dövlətin istehsala və dövriyyəyə nəzarət edilməsi ilə bağlı əsas iqtisadi və hüquqi vasitələri özündə əks etdirir. Bəzən iqtisadi təhlükəsizlik təhdidləri müəyyən dövrdə ölkənin iqtisadi potensialının azalması dərəcəsini ifadə edirlər. Bir qrup iqtisadçılara görə onlar dövlətin milli iqtisadiyyatın və beynəlxalq iqtisadi sistemin dayanıqlı inkişafına mənfi təsir göstərən amil və şərtlərin məcmusudur. [1, s.431].

İqtisadi təhlükəsizlik təhdidlərinin bəzən iqtisadi xarakter daşıyan milli təhlükəsizlik təhdidləri və iqtisadi sistemin sabitliyinə təsir göstərən təhdidlər kimi qruplaşdırırlar.Nəzərə almaq lazımdır ki, iqtisadi sistemdə baş verən istənilən dəyişiklik təhdid kimi qəbul edilə bilməz.Təhdidlər iqtisadi təhlükəsizliyin məzmununu ifadə edir və iqtisadi təhlükəsizlik indikatorları baxımından xarakterizə edilir.Sonuncilar isə indikatorlar iqtisadi sistemin davamlılığını təmin edən kəmiyyətləri əks etdirir, təhlükə yaradan amilləri aşkar etmək və müvafiq tədbirlər görmək imkanları yaradır.

İqtisadiyyatın sahələrində iqtisadi təhlükəsizlik təhdidlərini aşkar edən və planlaşdıran indikatorlardan istifadə edilməsi əlverişlidir.Rus iqtisadçısı A.N.İlliarionov “ölkənin iqtisadi və sosial göstəricilərini nəzərəçarpan səviyyədə öncədən təyin edən, iqtisadi inkişaf tempini müəyyənləşdirən bir nəfərə düşən ümumi daxili məhsuldur” ideyasını söyləmişdir[2,s.49].O, haqlı olaraq, hesab edir ki, iqtisadi təhlükəsizlik amilləri bir nəfərə düşən iqtisadi artım səviyyəsini müyyən edən amil və meyarlarlaofadə oluna bilər.

İqtisadi təhlükəsizlik amilləri onun məzmununu ifadə edən əsas proseslər baxımından iqtisadiyyatın vəziyyətini əks etdirir. Bu əsas əlamətlərə aiddir:

- təkrar istehsal prasesinin texnoloji inkişaf səviyyəsi;
- maliyyə-kredit sektorunun ehtiyatlardan istifadənin səmərəliliyinə təsiri;
- əmək fəaliyyətinin səmərəliliyi və beynəlxalq normalara uyğunlaşması;
- elmin istehsal sahələrinə təsiri və cəmiyyətin məhsuldar qüvvəsinə çevrilməsi;
- kapital qoyuluşu və innovasiya fəaliyyətinin səmərəlliyi;
- cəmiyyətin hər bir üzvünün şəxsiyyət kimi formalaşması.

İqtisadi təhlükəsizliyin səviyyəsi iqtisadi amillər indikatorlar vasitəsi ilə müəyyənləşdirilir.İndikator cari iqtisadi hadisələrin əlamətləri üçün tələb edilən göstəricilərdir.İqtisadi təhlükəsizlik məsələlərinin təhlilində təhlükəsiz inkişaf sərhədlərinin aşkar

olunması əsas məsələlərdən biridir.Bu baxımdan monitorinqlərin keçirilməsi ilə indikatorların əsaslı təhlili və proqnozlaşdırılması çox vacibdir.

İqtisadi təhlükəsizlik indikatorlarının astana kəmiyyətləri iqtisadiyyatın sahələrinin "təhlükəli" və "təhlükəsiz" olanları arasında həddi müəyyən edir. Onlar istehsal sferasının dinamik inkişafını ləngidən amillərə diqqət yetirilməməsi nəticəsində iqtisadi təhlükəsizliklə bağlı mənfi fikirlərin yaranmasınazəminyaradırlar.

İqtisadi təhlükəsizliyin indikatorları sistemi təhdidlər barədə əvvəlcədən xəbərdarlıq edir və onun qarşısının alınması üçün müəyyən tədbirlərin görülməsini şərtləndirir. Bu baxımdan iqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə iqtisadi göstəriciləri və astana parametrləri müəyyən olunmalıdır. Onların sayının çox olmasına ehtiyac yoxdur. Əsas məsələ dövlətin iqtisadi təhlükəsizliyinin astana kəmiyyətləri göstəricilərinin iqtisadi durumdan asılı olaraq, əsaslı olmasıdır. İqtisadi təhlükəsizliklə bağlı problemleri araşdıran iqtisadçılar milli iqtisadiyyatın davamlı inkişaf və təhlükəsizlik səviyyəsinin müəyyən olunmasında astana kəmiyyətlərindən daha çox istifadə edilir.

**Cədvəl 1.** Azərbaycan iqtisadiyyatında təhlükəsizlik indikatorlarının dinamikası

| **İllər** | **ÜDM, mln. man** | **O cümlədən adam başına, man** | **İstehlak qiymətləri indeksi, %** | **Əhaliyə göstərilən pullu xidmətlərin həcminin ÜDM-də payı,min. man** | **Sənaye məhsulunun dəyəri, mln. man** | **Sənaye məhsulunun artımı, %** | **Sənayedə yaradılan əlavə dəyərin ÜDM-də payı** | **Kənd təsərrüfatında yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, %** |
|---|---|---|---|---|---|---|---|---|
| **2010** | 42465,0 | 4753,0 | 105,7 | 4729490,0 | 27978,2 | 102,6 | 51,7 | 5,5 |
| **2015** | 54380,0 | 5706,6 | 105,0 | 7462765,2 | 26369,4 | 102,4 | 33 | 6,2 |
| **2016** | 60425,0 | 6269,6 | 112,4 | 7809755,9 | 32300,2 | 99,5 | 37,1 | 5,6 |
| **2017** | 70337,8 | 7226,0 | 112,9 | 8636035,8 | 39892,5 | 96,6 | 40,1 | 5,6 |
| **2018** | 80092,0 | 8156,2 | 102,3 | 9131758,6 | 47677,0 | 101,5 | 44,5 | 5,2 |
| **2019** | 81896,2 | 8268,8 | 102,6 | 9607258,7 | 46999,2 | 101,8 | 41,4 | 5,7 |
| **2020** | 72578,1 | 7277,4 | 102,8 | 6998374,3 | 37269,9 | 96,0 | 33,8 | 6,7 |

Cədvəldən göründüyü kimi, araşdırılan göstəricilər üzrə 2010-cu ildən sonra baş verən artım prosesi 2020-ci ildə nisbi azalma ilə əvəzlənmişdir. Bu da daha çox pandemiya vəziyyətinin iqtisadi təsirləri ilə bağlı olmuşdur. Lakin, ölkəmizdə aparılan geniş miqyaslı layihə və proqramlar çərçivəsində görülən tədbirlər nəticəsində artıq bu geriləmə aradan qaldırılmışdır.Ölkəmizin milli, o cümlədən ərzaq, enerji, valyuta təhlükəsizliyinə heç bir ciddi təhdidlər yoxdur. Düşünürük ki, hazırki şəraitdə əsas məsələ qonşu dövlətlərdə baş verən siyasi və hərbi proseslərin gözlənilən mənfi təsirlərinin qarşısının alınmasıdır.

**Açar sözlər:** sistem, təhdid, kapital, əmək, indikator, böhran.

**Ədəbiyyat**

1. Сенчагов В. Экономическая безопасность как основа обеспечения национальной безопасности России. Вопросы экономики 2000, №8, с. 64-79.
2. Илларионов А. Критерии экономической безопасности. Вопросы экономики. 1998, №10. с. 35-57
3. www.azstat.org. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
4. www.economy.gov.az. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

## GÜRCÜSTANDA ERMƏNİ SEPARATİZMİ: SAMTSXE-CAVAXETİYA

**Günay Umarova**
Azərbaycan Turizm və Menecmen Universiteti
gnay.umarova@mail.ru

Gürcüstanın cənub-qərb hissəsində ,Ermənistan və Türkiyə ilə sərhəddə yerləşən ,iki rayondan-Ninotsminda və Axalkalakidən ibarət olan Cavaxetiya Samtsxe-Cavaxetiya inzibati bölgəsinə daxildir .Ermənilər Gürcüstanın ümumi əhalisinin təxminən altı faizini təşkil edir ki, bunun da 150 minə yaxını Samtsxe-Cavaxetiyada yaşayır [3, s.6]. Uzun illər burada yaşayan erməni əhalisinin mədəniyyət, din, dil baxımından eyni olduğu Ermənistanla münasibətləri, ərazisində yaşadıqları Gürcüstan dövləti ilə olan münasibətlərindən daha yaxındır. Mərkəzi hökümətin iqtisadi çətinlikləri əsas gətirərək bölgəyə qarşı olan laqeyd münasibəti, regionun onsuzda inkişaf etməmiş infrastrukturunun məhvinə səbəb olmuş və Cavaxetiyanı Gürcüstandan təcrid etmişdi [8, s.1]. Mövcud vəziyyət 1991- ci ildə Gürcüstan müstəqillik əldə etdikdən sonra daha da gərginləşmiş, Cavaxetiya bölgəsi potensial alov nöqtəsinə çevrilmişdir.

Gürcüstan ərazilərinin erməniləşdirilməsi prossesi mərhələli və sistemli şəkildə həyata keçirilirdi.Osmanlı İmperiyası ilə müharibə (1828-1829) nəticəsində Rusiya Qara dəniz sahillərini Kubandan Potiyə qədər,həmçinin Mesxeti və Cavaxetiya ərazilərinin böyük hissəsini işğal etdi. Sonra isə Rusiya Osmanlı imperiyasından erməniləri kütləvi şəkildə köçürərək bu ərazilərdə məskunlaşdırdı və çox keçmədən onların sayı yerli gürcü əhalini üstələdi [3, s.36]. İlkin hesablamalara görə, Qars, Ərzrum və Bazaletidən 8000 ailə köçürülməli idi. Amma köçürüləndən sonra ailələrin sayı 14 minə çatdı. Təkcə Samtsxe-Cavaxetiyaya Türkiyədən 25 mindən çox erməni köçürüldü. Köçürülən ermənilərin əksəriyyəti Axalkalaki, Axaltsixe rayonlarında məskunlaşmışdılar. Nəticədə, Cavaxişvilinin qeyd etdiyi kimi,Samtsxe-Cavaxetiya əhalisinin etnik tərkibi əhəmiyyətli dərəcədə dəyişdi, əhalinin əksəriyyətini ermənilər təşkil edirdi [7, s.56]. XIX əsrdə Gürcüstanda məskunlaşan ermənilər nəinki Cavaxetiya torpağına sahib çıxmaq, həm də buradakı qədim gürcü abidələrini saxtalaşdırmaq və onların izlərini bu torpaqlardan silməyə çalışıblar.Bununla bağlı Cavaxişvili yazırdı: "Şübhəsiz ki,bu, bağışlanmaz bir hərəkət idi, ermənilər Gürcüstanın müstəqilliyi sayəsində məhv olmaqdan qaçaraq burada sığınacaq tapdılar, minnətdarlıq əvəzinə, Gürcüstanın daxili işlərinə kənar qüvvələr tərəfindən qarışmağa cəhd etdilər və bizdən torpaq almaq istədilər” [7, s.59].

1918-ci ilin noyabrında Osmanlı İmperiyasının kapitulyasiyası Ermənistan tarixində yeni bir dövrün müjdəçisi kimi görünürdü. Ermənistanın əzəli düşməni olan Türkiyə çətin vəziyyətdə idi.Bundan ruhlanan Ermənistan rəhbərləri Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinə qədər uzanan “Böyük Ermənistan” yaratmaq xəyalı qururdular [6, s.203]. Məhz həmin ildə İstanbulda Ermənistanın Aralıq dənizdən başlayıb Xəzər dənizinə qədər uzanan əraziləri əhatə edən “fantastik xəritəsi” çap olunmuşdu. Batumi, Axaltsixe,Mtsxeta və hətta Tbilisi bu xəritədə Ermənistanın sərhədləri çərçivəsində təqdim olunmuşdu.

Müasir dövrdə də erməni ideoloji kadrları Gürcüstandakı erməni diasporunu Gürcüstanda deyil,tarixi Ermənistanda yaşadıqlarına inandırırlar.İrəvan siyasətçiləri və alimləri qarşıya qoyulan məqsədə nail olaraq Gürcüstan regionlarına iddialarını elmi əsaslandırmağa çalışırlar.Bununla bağlı Gürcüstanın tarix elmləri doktoru Quram Marxuliya özünün “Armyane v poiskax Armenii” kitabında qeyd edirdi: “Gürcü tarix elmi Gürcüstanın bu regionunun tarixi inkişaf yolunu aydın şəkildə izləyir və tapılan arxeoloji materiallar sübut edir ki, Samtsxe-Cavaxetiya,şübhəsiz ki,Gürcüstan bölgəsidir.Gürcü əhalisi ermənilər öz “tarixi vətənlərini” axtararkən belə,ölkənin bu hissəsində mədəniyyət abidələri yaradıblar. Cənubi Gürcüstandakı müasir ermənilər Gürcüstanın əsl sakinləri deyil,Türkiyədən qaçanların nəslindən gələnlərdir. Məhz ermənilərin türk xalqına qarşı məlum məkrliliyindən sonra Türkiyə hökuməti bu gərəksiz, xain əhalini öz ölkəsindən qovdu. Bu illər ərzində 300 mindən çox erməni Gürcüstanda sığınacaq tapmış,Sovet hakimiyyəti qurulduqdan sonra bu qaçqınlar qanunsuz olaraq Sovet Gürcüstanında vətəndaşlıq almışdılar” [2, s.138,143].

Dağlıq Qarabağda baş verən hadisələr Cavaxetiyada erməni milli hərəkatının yaradılmasını sürətləndirən katalizator rolunu oynamışdı.1988-ci ildə Qarabağda ilk silahlı toqquşmalar başlayanda Axalkalaki və ətraf kəndlərdən çoxlu erməni könüllüləri Qarabağ ermənilərinin köməyinə gəlmişdilər [1]. 1992-1993-cü illərdə baş vermiş Gürcü-Abxaz müharibəsi Cavaxetiyada vəziyyəti daha da gərginləşdirdi.Abxaz ermənilərinin gürcülərin deyil,abxazların tərəfinə keçməsi Gürcüstanda anti-erməni əhval-ruhiyyəsinin daha da alovlanmasına səbəb oldu.Abxaziya və Cənubi Osetiya separatizmini qızışdıran xarici qüvvələr hər an Cavaxetiyada da analoji münaqişə yarada bilərdilər. [4, s.38].

Ermənistanın geostrateji məqsədi Gürcüstanın Qara dəniz sahillərinə çatmağa çalışmaqdır, bu yol isə Gürcüstanın tarixi Samtsxe-Cavaxetiya bölgəsindən keçir. Ermənilər Rusiya-Gürcüstan münasibətlərindəki gərginliyə və Ermənistanla Rusiya arasında mövcud olan geosiyasi müttəfiqliyə əsaslanaraq qədim erməni arzusunu həyata keçirməyə çalışırlar [2, s.146]. Gürcüstan hökuməti Moskvanın bölgədə həyata keçirdiyi siyasətindən narahat idi. Bəzi siyasi şərhçilər proqnozlaşdırırdılar ki,Kreml Cavaxetiyadakı erməni əhalisi arasındakı nüfuzundan istifadə edərək Gürcüstanı NATO-ya üzvlük istəklərindən çəkindirə bilər [8, s.2]. Amerikanın “AXIS” analitik mərkəzi yazırdı:“Rusiya Gürcüstanın Samsxe-Cavaxetiya bölgəsinin erməniləri arasında millətçilik əhval-ruhiyyəsini qızışdırmaqda davam edir. Moskvanın məqsədi Gürcüstanı sarsıtmaq və zəiflətməkdir və bu məqsədə çatmaq üçün Kreml Qafqazdakı yeganə müttəfiqini - Ermənistanı qurban verməyə hazırdır” [5, s.468].

Cavaxetiya Gürcüstanın ərazi bütövlüyü üçün real təhlükə yaratmasa da,regionda sabitliyi qorumaq və yerli əhali arasında dövlətə sədaqət hissi aşılamaq üçün ,Gürcü höküməti bu bölgəyə daha çox diqqət atırmalı və mövcud problemlərin həllinə konstruktiv yanaşmalıdır.

**Açar sözlər:** Gürcüstan, Ermənistan, sosial-siyasi vəziyyət, Cavaxetiya, separatizm.

## Ədəbiyyat


1. Гурецкий В. Джавахетский вопрос. Международная Ассоциация Кавказских Региональных Исследований ,Том 3, No 1, 1997.
2. Мархулия Г. Армяне в поисках Армении. Тбилиси 2010.
3. Джавахети вызовы и перспективы. ред. Ачелашвили Наталия, Тбилиси, 2013.
4. Гусейнзаде Р. Кавказ и Армяне, Баку, 2014.
5. Гусейнзаде Р. Армянские притязания на Джавахети:второй Карабах? Истина, №2 (26), 2007.
6. Каземзаде Ф. Борьба за Закавказье (1917–1921), Ca&Cc Press, Стокгольм, 2010.
7. Тетвадзе Ш., Тетвадзе О. Армяне в Грузии (с древних времён до сегодняшнего дня). Тбилиси, 20088.
8. Young D. Javakheti: Georgia's contagious separatism. Georgian Foundation of Strategic and International Studies, 11 may 2006.


# AİLƏDAXİLİ MÜNASİBƏTLƏR

**Aydan Üzeyirli**
Azərbaycan Universiteti
uzeyrli.aydan@gmail.com

Ailə dedikdə insanın şəxsiyyət kimi formalaşmasının ilkin təməlinin qoyulduğu sosial institut başa düşülür. Uşağın tərbiyəsində ailə birinci və əsas rola malikdir. Beləki, ailəni fərdin daxil olduğu ilk sosial mühit kimi qiymətləndirə bilərik ki, bu baxımdan da ailə həm psixoloji, həm də sosial xüsusiyyətlərin formalaşmasında mühüm mövqe tutur. Sadaladığımız proseslərdə ailənin üzvləri subyekt şəklində çıxış edir. Bu subyektlərin arasında olan münasibətlər ailədaxili münasibətləri formalaşdırır. Bu münasibətlər əsasən ata və ananın, yəni valideynlərin ailə daxilindəki münasibət və rolu ilə şərtlənir. Ailədaxili münasibətlərin həm sağlam psixoloji və pedaqoji faktorlar, həm də qarşılıqlı hörmət və sevgi əsasında qurulması cəmiyyətin formalaşmasını şərtləndirən əsas amillərdən biridir. Çünki bu münasibətlər uşaqların tərbiyəsinə, həmçinin ailənin möhkəmliyinə mühüm təsir göstərir [2].

Ailədaxili münasibətlər sistemində valideynlər və uşaqlar arasında olan münasibətlər mühüm əhəmiyyət kəsb edir. Bu münasibətlər uşaqların şəxsiyyət kimi formalaşmasında, psixoloji inkişafında, ətrafdakılara olan rəftar və davranışda, həmçinin idraki fəallığının inkişafında vacib rola

malikdir. Ailədaxili münasibətlər həmçinin uşağın öz mövqeyini, ailədəki rolunu müəyyən etmək, eyni zamanda özünü dərk etməsində bacarıq və qabiliyyətlərini inkişaf etdirməsində önəmlidir [1].

Uşaqların psixi inkişafında və şəxsiyyətinin formalaşmasında əsas rol oynayan ünsiyyət tələbatı da məhz ailədaxili münasibətlər sistemində bu və ya digər səviyyədə ödənilir [3]. Təəssüflə vurğulamaq lazımdır ki, müəyyən zamanlarda ailə daxilində olan münasibətlərin nizamsızlığı uşaqların həyatında xoş olmayan izlər buraxır. Məsələn, bəzən valideynlər uşaqlar arasında fərqlilik edirlər, birinə digərindən daha çox diqqət göstərirlər. Bu daha çox cinsi cəhətdən ayrıseçkilik kimi özünü göstərir, əksər ailələrdə oğlan uşağı daha ön planda saxlanılır. Ailədə valideynlər tərəfindən yetərincə sevgi, qayğı görməyən uşaqlarda bu hisslər əksiklik təşkil edir. Onlar daima ətrafda, başqa insanlarda bu sevgi və diqqəti axtarıb tapmağa çalışırlar. Lakin bu heçdə hər zaman müsbət halla nəticələnmir. Buna görədə ailədəki münasibətlərdə valideynlər övladları ilə münasibətdə olarkən onların psixologiyasına, iradəsinə, özgüvəninə, ümumən desək mənəviyyatlarına zərər gətirəcək bir davranış göstərməməlidirlər. Çünki sağlam, düzgün münasibət sağlam və formalaşmış gələcəyə yol açır [4].

Bəzən valideynlər tərəfindən "hələ uşaqsan", "bura uşağın yeri deyil" və s. kimi ifadələr işlədilir. Lakin bu heç də düzgün yanaşma deyildir. Belə münasibət uşaq şəxsiyyətinin alçaldılması deməkdir. 1989-cu ildə qəbul edilmiş Uşaq Hüquqları Konvensiyasının başlıca ideyası uşaq şəxsiyyətidir. Bu konsepsiyanın ən mühüm prinsipi uşaqlara hörmət etmək və onların hüquqlarının qorunmasıdır. Eyni zamanda qeyd edilir ki, uşaqlar irqindən, cinsindən, dərisinin rəngindən, mənşəyindən və s. xüsusiyyətlərdən asılı olmayaraq dünyanın hər bir nöqtəsində öz hüquqlarından istifadə etməlidirlər. Təbii ki, bu hüquqların qorunması ilkin növbədə ailədən başlayır. Ailə uşaqların həm mənəvi, həm də əxlaq tərbiyəsinə böyük təsir göstərir, onlarda sevgi, dostluq, yoldaşlıq, böyüklərə hörmət və s. kimi müsbət insani keyfiyyətlər formalaşdırır [1].

Beləliklə, qeyd edə bilərik ki, vurğuladığımız bu fikirlərin təməlində valideyn sevgisi, valideyn davranışı və valideynlərin şəxsiyyətlərarası münasibətləri necə təşkil etmələri dayanır. Buna görə də uşaqların tərbiyəsində valideynlər maksimum dərəcədə diqqətli olmalıdırlar, bu məsələdə onlarda fikir ayrılığı olmamalıdır. Əgər valideynlər eyni fikrə gələ bilmirlərsə, bu zaman onlar öz məsələlərini uşaqların yanında müzakirə etməməlidirlər [1].

**Açar sözlər:** ailə, valideyn, övlad, ailədaxili münasibətlər, valideyn-övlad münasibətləri.

## Ədəbiyyat

1. https://nuhcixan.az/news/cemiyyet/20402-usaq-sexsiyyetinin-formalasmasinda-ailedaxili-munasibetlerin-rolu
2. http://pcc.az/blog/?p=7563
3. https://kafkazh.com/aile-daxili-munasibetler-ailede-psixoloji-iqlim/
4. https://www.meneviyyat.az/ailedaxili-unsiyyet/

# ZAMANIN LİNQVİSTİK TƏHLİLİ

**Vəsilə Vəliyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
valiyeva.vasila@gmail.com

Zaman probleminin insan həyatında xüsusi yeri var və əksər elmlər üçün ortaq anlayış kimi çıxış edir. Artıq tam mənada dərk edilir ki, hər bir obyektin, hər bir sistemin özünəməxsus zaman forması var. Yalnız xüsusi fəlsəfi zaman deyil, həm də fiziki, astronomik, bioloji, statik, sosial, psixoloji və s. zaman formaları mövcuddur. Hər bir elm öz obyektinin zaman formasının spesifikasını müəyyənləşdirməyə cəhd edir. Hələ bir vaxtlar A.Avqustin yazırdı ki, o, "zamanın nə olduğunu dərk edir, lakin onun təbiətini izah etmək iqtidarında deyil" [1, s.183]. Məhz bunun məntiqi nəticəsi kimi, aparılan müasir linqvokoqnitiv tədqiqatlarda ayrı-ayrı elm sahələrin nailiyyətlərinin sintezinə, ümumiləşdirməsinə cəhd edilir.

Zamanın linqvistik aspektinin özünəməxsusluğu ondan ibarətdir ki, dil "dünyada varlığın müxtəlif aspektlərinə uyğunlaşmanın yüksək səmərəli alətidir və onun bir çox xüsusiyyətləri birbaşa və ya dolayısı ilə möcvud realiləri əks etdirir" [2, s.140]. Zaman insanın hissi qavrayışı və intellekti tərəfindən əks olunur və dildə leksik və qrammatik dil vahidlərin semantikasında öz ifadəsini tapır. Məsələn, Y.V.Tarasova "insan şüuru ilə bu münasibətlərin qavranılması xarakterinin və onların dil vasitələri ilə tərtiblənməsini nəzərə almadan, ümumi zaman anlayışını açmaq mümkün deyil" fikrini irəli sürür [6, s.74]. Dildə zamanı o kateqoriyalara aid etmək olar ki, onların köməyi ilə insanın linqvistik və qeyri-linqvistik fəaliyyətləri arasındakı nisbət müəyyən edilir.

Linqvistikanın müasir inkişaf mərhələsində dil şüurunun strukturu məsələsinin öyrənilməsi sistem-struktur müstəvisindən konseptual-kateqorial müstəviyə keçməsilə səciyyələnir. Bununla da dilçilərin diqqəti, hər şeydən əvvəl, ünsiyyət aktının koqnitiv-praqmatik şərhinə yönəlmiş oldu. Psixi, sosial, entomədəni və s. səciyyələri nəzərə alan ünsiyyət aktının öyrənilməsi dili sırf abstraksiya kimi deyil, bu və ya digər linqvososiomədəni cəmiyyətin dil sisteminin konkret təzahürü kimi nəzərdən keçirməyə zəmin yaradır. Koqnitiv praqmatika məcrasında dil şüurunun və insan tərəfindən dünyanın dərkinin xüsusi növü kimi danışıq fəaliyyəti adresantın (danışanın) maraqları prizmasından, yəni, başqa sözlə desək, ayrı-ayrı fərdlərin kommunikativ gedişləri konkret situasiyada onun dil davranışını müəyyən edir ki, bu da öz növbəsində dünyanın milli koqnitiv modelini yaratmağa imkan verir. Zamanın varlığın fundamental kateqoriyası olmasına baxmayaraq, təbiət və humanitar elmlərdə zaman kateqoriyasının öyrənilməsinə münasibətlər fərqlidir. Humanitar elmlərə dair biliklərdə zaman materiyanın varlıq forması kimi ərtaf dünya hadisələri ilə müəyyənləşdirilir və insanın mövqeyindən asılıdır. Dildə zaman kateqoriyası ümum-elmi zaman kateqoriyasının birbaşa inikası deyil. Dil materialının təhlili dildə əks olunan gerçəkliyin kateqoriyalaşmasının özəlliklərini görməyə, habelə dünyanın dil mənzərəsinin milli xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. O.Q.Melnikin qeyd etdiyi kimi, "bu münasibətlər dil strukturunun leksik və qrammatik səviyyələrini əhatə edir" [5, s.22].

Dünyanın dərk olunmasının gedişində əldə olunmuş biliklər, habelə zamanın xüsusiyyətlərinin dərk olunmasının nəticələri dil sistemində optimal şəkildə kodlaşmışdır. Buna görə də temporal dil strukturlarının mental formaları obyektivləşdirməyə və insanın şüuru və psixikası tərəfindən dünyanın konseptləşdirilməsinə imkan verir. Dildə həm xalqın mədəni-idraki təcrübəsi, həm də danışıqda fəaliyyət göstərən dilin özünün xüsusiyyətləri ilə müəyyənləşdirilən bəzi koqnitiv modellər reallaşır. “Dil, danışıq kimi, zaman daxilində mövcud olan real gerçəkliyi təsvir edir. Buna görə də dil gerçəkliyin temporal aspektlərini işarə etmək üçün qrammatik və leksik vasitələrin zəngin arsenalına malikdir” [3, s.9]. Dildə zaman ideyasının şərhində zaman daxilində mövcud olan hadisələr dünyasını ifadə edən feillər xüsusi rol oynayırlar. E.S.Kubryakovaya görə, “dilin dinamizmi əsas etibarı ilə dil vasitələrinin seçimində və onların təşkili, mətnlərin yaranmasına xidmət edən kombinatorikasında təzahür edir” [4, s.230].

Məlum olduğu kimi, zamanın linqvistik kateqoriya kimi tədqiqi fəlsəfi kateqoriya kimi tədqiqi ilə müqayisədə xeyli qısadır. Zaman kateqoriyasının linqvistik aspekti altında, adətən, real zamanın müəyyən modellərinin dildə əks oluması başa düşülür. Obyektiv reallıqda baş verən hadisələrin arasındakı zaman münasibətlərinin insan şüuru ilə qavranması və onun ümumi qrammatik tərtibatda dil vasitəsilə ifadə edilməsini nəzərə almadan zaman anlayışını dərk etmək mümkün deyildir. Başqa sözlə, obyektiv zamanla linqvistik zaman bir-birilə sıx bağlı olub, mahiyyətcə ayrılmazdır.

**Açar sözlər**: linqvistik zaman, perseptual zaman, konseptual zaman, konseptual-kateqoriyal, system-struktur, koqnitiv- praqmatik.

**Ədəbiyyat**

1. Августин А. Исповедь. Пер. М.Е.Сергеенко. С. Петербург: Наука, 2013, 379 с.
2. Анисимов А.М. Темпоральный универсум и его познание. М.: 2000, 208 с.
3. Арутюнова Н.Д. От редактора, Язык и время. Логический анализ языка. Индрик, 1997, 351с.
4. Кубрякова Е.С. Динамическое представление синхронной системы языка. Гипотеза в современной лингвистике. М.: Наука, 1980, с. 217-261.
5. Мелешкова Н.И. Future-in-the Past в английском языке. автореф. дис. …канд. филол. наук. Донецк: 1960, 24 с
6. Тарасова Е.В. Диахронический анализ категории времени в английском языке методом полевого моделирования. Язык. Человек. Время. Харьков: ХГУ, 1997, с. 77-90.

# QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRLƏ SOSİAL İŞ

**Tünzalə Verdiyeva**
Azərbaycan Universiteti
tunzala.verdiyeva@au.edu.az

Milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalması, həyatına, ailəsinə, əmlakına real təhlükə yaranması ilə əlaqədar daimi yaşadığı ölkədən başqa ölkəyə köç etmək qaçqınlıq, öz ölkəsində müharibə və digər səbələrə görə yaşadığı regiondan digər əraziyə köç etməsi isə məcburi köçkünlük adlanır. Bir yerdən başqa yerə köçmək ictimai nizama təsir edən və insanları sosial, iqtisadi, psixoloji və başqa istiqamətlərdən müxtəlif problemlərlə qarşı-qarşıya qoyan tarixi bir faktdır. Tarixin hər dövründə yaşanan köçmək və məcburi yerdəyişmək oxşar xüsusiyyətlər ilə təzahür edir. İnsanlar bəzən daha yaxşı həyat standartları üçün, bəzən isə qarşılaşdığı təzyiq, zülm, ayrı-seçkilikçilik kimi səbəblərdən yaşadıqları yerdən başqa yerə köçmüşdülər.

Yaşadığı yeri tərk etməyin 2 səbəbi ola bilər:

1. Öz istəyi ilə
2. Məcburi şəkildə

Öz istəyə bağlı olan köç iqtisadi, sosial və ya başqa bir səbəblə öz cəmiyyətini tərk edib digər bir yerə daha yaxşı bir həyat sürmək üçün getmək deməkdir. Bu kateqoriyaya beynəlxalq miqrasiya, qanuni olmayan miqrasiya, beynəlxalq iş miqrasiyası daxildir.

Məcburi şəkildə olanlar isə döyüş, vətəndaş qarşıdurmaları, inqilablar, ayrı-seçkilikçilik, dini rəqabət, təbii fəlakətlər üzündən ölkəsini tərk etmək deməkdir.

Köçkünlərin bioloji ehtiyaclardan (yemək və sığınacaq) başlayaraq, iqtisadi, hüquqi, psixoloji və sosial (dil, məktəb, mədəni uyğunlaşma və s.) ehtiyacları vardır. Qaçqın və məcburi köçkünlərin sosial problemlərini aşağıdakı cür qruplaşdırmaq olar:

1. Sığınma
2. Psixo-sosial dəstəyin məhdudluğu
3. Təhsil
4. Sağlamlıq
5. Iqtisadi problemlər

Həyatını, təhlükəsizliyini qurtarmaq üçün bir yerdən qaçmaq məcburiyyətində qalan insan həm buna gətirib çıxaran təhdidlərin və əziyyətlərin yaratdığı zədəylə, həm də birdən birə tamamilə hazırlıqsız bir şəkildə sevdiklərini, yaxın ətrafı, dili, mədəniyyəti, işi və ya məktəbi, gəliri, həyat standartı, dost olduğu, içində yaşamağa alışdığı kəndi, şəhəri, vətəni tərk etməyin gətirdiyi sarsıntı ilə yaşamaq məcburiyyətindədir. İnsana dəstək verən, onu qoruyan gücləndirən nə qədər çox şey geridə buraxılırsa, köçün psixoloji təsiri də o qədər mənfi olacaq [1].

Öz doğma yurd-yuvalarından qovulan, ağır və dözülməz vəziyyətə düşən qaçqın və məcburi köçkünlərin sosial psixoloji reabilitasiyası, müharibə zamanı keçirdikləri stressin posttravmatik

nəticələri, yaşadıqları psixoloji gərginliyin korreksiyası təxirəsalınmaz və vacib məsələlərdən biridir. Tədqiqatlar və təhlillər göstərir ki, posttravmatik stress insanın psixoloji və fizioloji sağlamlığına ciddi zərbə vurmaqla yanaşı, onun şəxsiyyətinin deqradasiyasına şərait yaradır, insan psixikasında dərin və silinməz izlər buraxır. Nəticə olaraq yeni gəlinən yerdə iqtisadi və mədəni inteqrasiya nə qədər tez və yaxşı ola bilsə, köçün yaratdığı psixoloji risk faktorlarının təsiri azalacaq [2].

Qaçqınlıq və ya məcburi köçkünlük insanların fərqli reaksiyalar göstərdiyi bir müddətdir. İnsanların bu hadisəyə reaksiyası çox sevdiyi bir insanı itirən bir adamın hiss etdikləri ilə oxşar reaksiya ola bilər. Bu hisslərə şok, rədd etmə, inanmamaq, depressiya, intihar cəhdi, keylik və s. daxildir.

Qaçqınlıq və məcburi köçkünlərlə sosial işin məqsədi onların yeni gəldikləri mühitə adaptasiya olmağa, yerləşdikləri icmaya uyğunlaşma qabiliyyətlərini artırmaq, insanlarla əlaqə yarada bilməklərinə, yaşadıqları travmaları aradan qaldırmaqlarına köməkçi olmaq, qarşılaşdıqları təcili problemləri həll edə bilməyə və eyni zamanda, təhlükəsizlik hissini özlərində aşılama bacarıqlarının inkişaf etdirməyə fokuslanmaqdır.

Levienə görə, sosial işçi qaçqın və məcburi köçkünlərlə, miqrantlarla üç fərqli səviyyədə çalışa bilər. Bu sahələri mikro, mezzo və makro səviyyələr olaraq təyin edən Levine, mikro səviyyədə sosial iş müdaxiləsinin həmin insanların davranışlarının artırılması, müraciətçilərin bacarıq qazanmaları və öz problemlərini həll etmə bacarıqlarını inkişaf etdirmək olduğuna qeyd etmişdir. Mezzo səviyyədə, qrup işlərinin istifadə edilməsiylə, kollektiv problemin həll etmə bacarıqlarının inkişaf etdirilməsi, emosional reaksiyalarının normal hala gətirilməsi, fəaliyyət və yoxlama mexanizmlərinin qazanılması məqsədiylə, sosial iş müdaxiləsinin istifadə edilə biləcəyinə toxunulmuşdur. Makro səviyyədə isə, sosial iş peşəsinə qaçqınların, məcburi köçkünlərin iqtisadi, psixo-ictimai, təhsil və sağlamlıq kimi sahələrdə qarşılana bilməyən ehtiyaclarının təyin olunması üçün araşdırma etmək, ehtiyacların həllini tələb edən siyasətlərin yaradılmasında iştirak etmək və bu kəslərin faydlanması üçün cəmiyyətdə maariflənmə və təşkilatlanmaya sövq etmək kimi rollar düşdüyü ifadə edilmişdir [3].

Bu sahədə sosial işçilərin bir çox rolları vardır. Bunlar;

1. Məsləhətçilik: Qaçqınlara və məcburi köçkünlərə ehtiyac duyduqları hər mövzuda məsləhət verilir.
2. Müdafiəçilik: Lazım olduğunda onların haqqlarını müdafiə edə bilir.
3. Məlumat vermə: Qaçqınlara və məcburi köçkünlərə ehtiyac duyduğu hər mövzuda məlumat verə və istiqamətləndirə bilir.
4. Dövlət və qeyri-dövlət orqanları ilə əlaqələndirmə: Müraciətçiləri cəmiyyətdəki dövlət və qeyri-dövlət orqanları ilə əlaqələndirə bilər.
5. Gücləndirmə: Pul, iş, sığınacaq, sağlamlıq baxımı və təhsil kimi qaynaqlara haradan əldə edə biləcəyi ilə əlaqədar məlumatlandırmalı və onları bu sahədə gücləndirməlidir.
6. Cəmiyyətə inteqrasiya olunmasına köməklik etməlidir.

Qaçqınların haqqları ilə əlaqədar bir çox beynəlxalq və regional müqavilə və sənədlər var. Bütün insanların sahib olması lazım olan hüquqlarla yanaşı, xüsusi olaraq qaçqınlar lehinə də şərh olunacaq bir sıra haqqları ehtiva edən bu sənədlərdən ən fundamental olanları aşağıdakılardır:

1. Ümumdünya İnsan Hüquqları Bəyənnaməsi (1948)
2. Qaçqınlarin Hüquqi Statusuna Dair Konvensiya (1951)
3. Qaçqınlarin Hüquqi Statusuna Dair Protokol (1967)
4. Beynəlxalq Vətəndaş və Siyasi Haqqlar Müqaviləsi (1966)
5. Beynəlxalq İqtisadi Sosial və Mədəni Haqqlar Müqaviləsi (1966)
6. Hər Növ İrq Ayrı-seçkilikçiliyə Son Verilməsinə Dair Müqavilə (1965)
7. Cartagena Bəyannaməsi (1984) [4]

Azərbaycanda qaçqın və məcburi köçkünlərlə iş aparan sosial işçilər beynəlxalq sənədləri və ölkə qanunvericiliyini əldə rəhbər tutaraq əsasən aşağıda göstərilən ehtiyacların ödənilməsini diqqət mərkəzində saxlayırlar.

1. Qaçqınlar və məcburi köçkünlərin birinci növbədə sığınacaqla (normal şəraiti olan mənzillə) təmin olunması.
2. Qaçqınlara və məcburi köçkünlərə dövlət tərəfindən maddi yardım göstərilməsi.
3. Qaçqın və məcburi köçkün uşaqlarının təhsilə cəlb olunması. Qaçqın və məcburi köçkün olan müəllimlərin həmin təhsil müəssisələrində işlə təmin olunması.
4. Qaçqın və məcburi köçkünlərin tibbi xidmətlə təmin olunması.
5. Qaçqınların və məcburi köçkünlərin yerləşdiyi ərazidə, rayon, şəhər, qəsəbə, kənd rəhbərlərinin nəzarəti altında olması.
6. Qaçqınların və məcburi köçkünlərin yerləşdiyi ərazidə həmin rayonun Sosial Müdafiə Mərkəzi tərəfindən onların təqaüdlərinin vaxtında verilməsinin təmin olunması.
7. Qaçqınların və məcburi köçkünlərin məşğulluq vəziyyətinin yaxşılaşdırılması, onların peşə kurslarına cəlb olunması və işlə təmin olunmasına kömək etmək.

Sosial işçilər digər əhali qrupları ilə aparılan sosial iş təcrübəsində olduğu kimi, qaçqın və məcburi köçkünlərlə işləyərkən də bu həssas əhali qrupunun problemlərinin həll olunması zamanı sosial işçilər üçün standartlara əməl edirlər.

Beynəlxalq Sosial İşçilər Federasiyası aşağıdakıları insan haqqlarını bütün sosial işçilər üçün standart olaraq ortaya qoymuşdur (IFSW 1999).

• Yaşam – Yaşam haqqı insanın ən əsas haqqlarından biridir. Sosial iş yalnız insanın yaşam haqqını pozan səbəblərlə mübarizə aparmaz, eyni zamanda yaşam şərtlərinin zənginləşdirilməsinə çalışır.

• Azadlıq – Bütün insanlar azad doğulurlar. Sosial işin tətbiqi zamanı sosial işçilər insanın azadlığını məhdudlaşdıran şərtləri aradan qaldırmağa çalışmalıdır.

• Bərabərlik və ayrı-seçkilikçi etməmək – Bütün insanlar üçün bərabərlik Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin birinci maddəsində qeyd olunub. Sosial iş sosial ədalətə inanan bir peşədir. Sosial iş ayrı-seçkilik olmadan bütün qrupların sosial rifah xidmətlərindən faydalanmasına çalışır.

• Ədalət – Sosial ədalət risk altında olan qruplar və fərdlər üçün sağlamlıq, təhsil və s. bərabərliyi qorumağa çalışmalıdır. Sosial işçi daim klient üçün ədalətin bərqərar olunmasına çalışmalıdır.

• Həmrəylik – sosial iş gündəlik tətbiqlərində yoxsullar və risk altında olan qruplar ilə həmrəylik içərisindədir. Yoxsulluq, aclıq və evsizlik insan haqları pozuntusudur. Sosial işçilər sosial ədaləti təmin etmək üçün haqları tapdalanan qrupların haqlarını müdafiə etməyə çalışmalıdır.

• Sosial məsuliyyət – Sosial məsuliyyət həmrəylik qanununun həyata keçirilməsi olaraq düşünülə bilər. Sosial iş hər zaman ağır həyat şəraitində yaşayan və üstünlüyü olmayan fərd, qrup və cəmiyyətlərin yanında olan və onların haqlarını müdafiə edən bir peşədir. Bu baxımdan sosial iş cəmiyyətin ictimai funksionallığını tam olaraq təmin etməyənlərə istiqamətli məsuliyyətinin nəticəsi olaraq düşünülə bilər.

• Zorakılığın olmaması – Tarix boyu insan həyatında qarşıdurma daim mövcud olub. Sosial işin məqsədi fərdin özü və digərləri ilə uyğunlaşma içərisində yaşamasını təmin etməkdir.

Insan hüquqları məhfumu tarix boyu baş vermiş bir sıra əsas dünya hadisələri və ləyaqət, azadlıq, bərabərlik üzrə aparılan mübarizənin təsiri altında formalaşmışdır.

**Açar sözlər**: Sosial işçi, qaçqınlıq, məcburi köçkünlük, iqtisadi problemlər, sosial məsuliyyət.

**Ədəbiyyat**

1. Abdiyev F. Əhalinin miqrasiyası: anlayışı və mahiyyəti // Hüquqi dövlət və qanun. 2009, № 12, s.40-43.
2. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007.
3. Sərdarov M. Azərbaycanda miqrasiya prosesləri, Bakı, 2004.
4. http://idp.gov.az/az/law/120/parent/15

## TODA ZƏNCİRİNİN SÜRƏTLƏ AZALAN HƏLLİNİN VARLIĞI

**Aqil Xanməmmədov, Aytac Səlimli**
Azərbaycan Universiteti
aytac.selimli.98@mail.ru

$a_n = a_n(t) > 0, b_n = b_n(t),\ \ a_n, b_n \in C^{(1)}[0,\infty)$ həqiqi qiymətli funksiyalar ardıcıllığı üçün aşağıdakı tənliklər sisteminə baxaq:

$$\dot{a}_n = \frac{1}{2}a_n\left(a_{n-1}^2 - a_{n+1}^2\right),\ n = 0,\pm1,\pm2,...$$

$$\begin{cases} \dot{a}_n = \dfrac{1}{2}a_n\left(b_{n+1} - b_n\right), \\ \dot{b}_n = a_{n-1}^2 - a_n^2, n = 0,\pm1,\pm2,... \end{cases} \tag{1}$$

(1) tənliklər sistemi sonsuz sayda tənlikdən ibarət olan qeyri-xətti diferensial tənliklər sistemidir. Bu sistem üçün aşağıdakı Koşi məsələsinə baxaq:

$$a_n(0) = a_n^\circ, b_n(0) = b_n^\circ\ n = 0,\pm1,..., \tag{2}$$

burada $a_n(0), b_n(0)$ başlanğıc verilənləri

$$\sum_{n=-\infty}^{\infty} |1+n| \left\{ |a_n(0)-1| + |b_n(0)| \right\} < \infty, \quad (3)$$

bərabərsizliyini ödəyir. (1)-(2) məsələsinin sürətlə azalan həlli dedikdə elə $a_n(t), b_n(t)$ funksiyaları başa düşülür ki, hər bir $T > 0$ üçün

$$\max_{0 \le t \le T} \|Q_1(t)\| < \infty$$

şərti ödənilir, burada

$$Q_1(t) = \sum_{n=1}^{\infty} |1+n| \left\{ |a_n(t)-1| + |b_n(t)| \right\}.$$

**Teorem**. (3) şərti ödənildikdə (1)-(2) məsələsinin sürətlə azalan həlli var və yeganədir.

**Açar sözlər:** Qeyri-xətti diferensial tənlik, Koşi məsələsi, Koşi məsələsinin yeganə həlli.

**Ədəbiyyat**

1. Abraham R., Marsden J.E., Ratiu T., Manifolds, Tensor Analysis, and Applications, 2nd edition, Springer, New York, 1983.
2. Adler M., On the B¨acklund transformation for the Gel'fand-Dickey equations, Commun. Math. Phys., 80, 1981, 517–527.
3. Agarwal R.P., Difference Equations and Inequalities, Marcel Dekker, New York, 1992.

## THE POLICY OF MULTICULTURALISMPRINCIPLES AND AZERBAIJANI MODEL

**Elvin Khudaverdiyev**
Azerbaijan Tourism and Management University
elvinxudaverdiyev87@gmail.com

The international significance of multiculturalism as a way of life is extremely vital in our modern world.Today, more and more countries, peoples, various international organizations, religious institutions and people realize that the only way to survive, develop and ensure social welfare in the face of the ever-increasing number of weapons of mass destruction and the periodic economic and financial crisis is cooperation. , is an intercultural dialogue. The foundation of these factors is laid by achieving multiculturalism and turning it into a way of life.

The socio-economic, cultural and legal reforms implemented in Azerbaijan in recent years, the achievements made under the leadership of President Ilham Aliyev both in the region and internationally have had a positive impact on the ethnocultural sphere [1]. At the same time, the state's full support for the preservation and development of the languages, tangible and intangible heritage of the Azerbaijani peoples, the imposition of no restrictions on their religious beliefs, and the

construction and restoration of churches and synagogues in the Muslim world countries as an example [2].

Can a multicultural society exist without the state's policy of multiculturalism? Without the 7 important principles on which the philosophy of multiculturalism is based, ethnic diversity alone cannot be called multiculturalism. These principles are as follows: [4]

1. The principle of ethno-cultural diversity: This principle means the existence of national minorities within a state, which are carriers of different cultures, as well as different religious denominations. States pursuing a policy of multiculturalism do not see such diversity as a threat to themselves. On the contrary, by accepting it as the wealth of society, it supports those peoples to preserve their culture.

2. The right to cultural identity: This principle states that everyone or group has the right to preserve their cultural identity or character. But we must not forget that this is not a duty, but a right. No one may be forcibly included in a group or discriminated against on the basis of membership in any cultural group.

3. The principle of cultural equality and mutual tolerance: The essence of this principle is that all ethno-cultural groups are equal and can exist only in conditions of mutual respect and tolerance. Ethnic identity must come after citizenship. Thus, a hierarchical dual identity exists. The best example of this is Azerbaijan or Canada. All national minorities are first Azerbaijani, then Lezgi, Avar, Tat and so on.

4. The principle of communication between ethno-cultural groups: Every ethno-cultural and religious group or each of its representatives must be able to communicate safely and freely with other groups or their representatives. Everyone in the same society must be open to other groups.

5. The right to equal opportunities: One of the most important features of Azerbaijani multiculturalism is that it combines dual fundamental rights with a social-liberal dual nature. The establishment of the liberal right to cultural diversity, the right to equal opportunities, which is a social right, is aimed at preserving diversity in Azerbaijani society and eliminating inter-communal social injustice.

6. The existence of the principle of political governance: Multiculturalism or a multicultural society cannot develop on its own. For this, the existence of political governance and state support is essential.

7. The principle of loneliness in diversity: Each national minority or ethnic group can preserve only the part of its culture that does not harm the general culture. This principle is sometimes called selective protection of culture.

As a result, multiculturalism is a way of life for the Azerbaijani people. For many years, our people have made significant contributions to this process by tolerance, tolerance, respect for other religions and cultures, and turning multiculturalism into a way of life. Multiculturalism is an integral part of the democratic process in Azerbaijan today. Improper implementation of multiculturalism policy leads to conflicts, misunderstandings, clashes and other dangerous tendencies between social groups, which in turn becomes a major problem for countries. Of course, we must try to make our proposals in this area as well, to set an example that if the concepts of Islamic solidarity and

multiculturalism are united and the state policy is carried out correctly, it will be accepted by the people. then there will be no problem in the countries. Modern Azerbaijan is a clear proof of this.

**Keywords:** politics, multiculturalism, culture, state, world.

**References**


1. Law of the Republic of Azerbaijan on Culture http://www.wtDo.int/edocs/lexdocs/laws/en/en/az070az.pdf
2. Speech by President of the Republic of Azerbaijan Ilham Aliyev at the opening ceremony of the World Forum on Intercultural Dialogue http: //presiderıt.az/articles/1845
3. Preliminary analytical report on the cultural sector and cultural policy of the Republic of Azerbaijan. Research and diagnoses on the cultural policies of the Eastern Partnership countries. Baku, August 2020
4. Golyshev A.I., Globalization: culturological approach. - Bulletin of Pskov State University. Sir. Socio-humanitarian sciences, No 6, 2016, pp.70-81.


**Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələri dövlət siyasətinin prioriteti kimi**

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Multikultural dəyərlərin inkişaf etməsi sayəsində insanlar arasında mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklər tənzimlənir.

## AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİNDƏ TƏHSİLİN İNKİŞAFI ÜÇÜN İNFRASTRUKTURUN YARADILMASI

**Seyidmahir Zəkizadə**
Bakı Biznes Universiteti
Seyidmahir.1996@gmail.com

Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə zəfər qazanmış Milli Ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbə ilə yeni milli tariximizə şanlı səhifə yazmışdır. Bu misilsiz qələbə həm də məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası və davamlı inkişaf məqsədlərinin bütün ölkə ərazisində həyata keçirilməsi üçün əlverişli zəmin yaratdı.

Dünyada baş verən qlobal proseslər və dəyişikliklər ölkəmizdə və o cümlədən Azərbaycanın dilbər güşələrindən biri olan Qarabağda ardıcıl və radikal tədbirlər həyata keçirilməsini tələb edir. Bununla əlaqədar yeni iqtisadi münasibətlər şəraitində mövcud təbii ehtiyatlardan səmərəli istifadə

etmək, sahibkarlığın inkişafına hərtərəfli şərait yaratmaq, investisiya mühitini yaxşılaşdırmaq, istehsalın şaxələndirilməsi və rəqabət qabiliyyətini yüksəltmək məqsədi ilə insan kapitalının formalaşdırılması çox böyük sosial-iqtisadi mahiyyət daşıyır. Çünki milli iqtisadiyyatın bütün sahələrində spesifik istehsal- təsərrüfat fəaliyyəti və mürəkkəb sosial-iqtisadi münasibətlərdə insanlar aparıcı rola malikdirlər. Bu baxımdan insan resursları hər bir ölkənin milli sərvəti və sosial-iqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab edilir [1, s.151].

Bu baxımdan Azərbaycanda işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ən mühüm vəzifələrdən biridir. İlk növbədə işğaldan azad edilmiş ərazilərin təhsil ehtiyaclarını müəyyən etmək, mövcud təhsil infrastrukturunun vəziyyətini qiymətləndirmək və fəaliyyət planlarını hazırlamaq lazımdır.

Rayon iqtisadiyyatının əsasını təşkil edən məhsuldar qüvvələrin işğaldan azad edilmiş ərazilərdə düzgün və səmərəli yerləşdirilməsinə, optimal regional təhsil və sosial infrastrukturun formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Müasir bazar iqtisadiyyatı şəraitində bununla əlaqədar olaraq azad edilmiş hər bir iqtisadi rayonun bazar münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Hər bir regionda infrastrukturun inkişaf potensialının diqqətlə və dərindən öyrənilməsi lazımdır. Burada bir-biri ilə sıx bağlı olan bir sıra prioritetləri - təhsil, elm və elmlə istehsalat münasibətlərini ciddi şəkildə təmin etmək lazımdır.

Tədqiqatçı N.Noskov regionlarda yerli orqanların sosial-iqtisadi inkişafının idarəedilməsi üzrə araşdırmalarında bildirmişdir ki, bu qurumların əsas vəzifələrindən bir də təhsilin sosial infrastrukturunun kompleks inkişafı üçün regional xüsusiyyətləri nəzərə alınmaqla, təkliflərin və tədbirlərin əsaslandırılması, bu istiqamətdə məsələlərin reallaşdırılması, strategiyanın işlənib-hazırlanması, mövcud problemlərin yerli orqanlarla bərabər dövlət tənzimlənməsi mexanzimlərinin əhatəsinə cəlb olunmasıdır [3, s.236].

Qeyd edilən elmi yanaşmalara və təhlillərə əsaslansaq, regionlarda təhsilin bazasının formalaşdırılmasında sosial infrastrukturun kompleksliliyi mühüm əhəmiyyət daşımaqla bərabər, bu sahədə qarşıda duran mürəkkəb vəzifələrin həyata keçirilməsində real mexanzimlər kimi xarakterizə olunurlar. Ölkəmizdə bu sahəyə dövlət dəstəyi və tənzimlənmə mexanizmləri daim diqqət mərkəzində olmuşdur.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə heç bir təhsil müəssisəsi salamat deyil. İşğaldan əvvəl Ağdamda, Şuşada, Kəlbəcərdə, Qubadlıda, Cəbrayılda və Laçında demək olar ki, hər kənddə məktəblər var idi. Bu məktəblərdən bu gün əsər-əlamət qalmayıb.

2016-cı ilin aprelində Azərbaycan ordusunun qələbəsindən sonra işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddət ərzində yenidən qurulmuş, burada müasir infrastruktura malik yeni qəsəbə salınmışdır. Qeyd edilən regionda məktəb və uşaq bağçası tikilib, bütün müasir avadanlıqlarla təchiz edilmişdir. Cocuq Mərcanlıda olduğu kimi, işğaldan azad etdiyimiz bütün kənd, qəsəbə və şəhərlərdə də təhsil müəssisələrinin bərpası və istifadəyə verilməsi vacib məsələdir.

İşğaldan azad edilmiş ərazilərdə çox sayda qabaqcıl məktəblərimiz olub. Məsələn, yüz ildən çox yaşı olan Cəbrayıl rayonunun Soltanlı kənd orta məktəbi də darmadağın edilib. O kəndin tarixdə qalan xeyli nümayəndəsi elə həmin məktəbdə təhsil alıb. 1912-ci ildə rus-tatar məktəbi kimi

fəaliyyətə başlayan bu təhsil ocağı Birinci Dünya müharibəsi başlanana qədər fəaliyyət göstərib. Müharibədən sonra yenidən dərslər bərpa edilib. O məktəbin təkcə Soltanlıdan olan məzunları sırasından 1993-cü ilə qədər 40-dan çox alim yetişib. Xələfli, Veysəlli, Sarıcallı kəndlərinin uşaqları elə o məktəbin yataqxanasında qalırdılar. Amma indi o təhsil ocağının izi-tozu da yoxdur [5].

Zəngəzurda ilk dünyəvi məktəb (rus-tatar məktəbi) 1882-ci ildə Qubadlıda yaradılıb. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə həmin məktəbin əsasında fəaliyyət göstərən Qara İlyasov adına Qubadlı şəhər 1 saylı tam orta məktəbin 125 illik yubileyi Sumqayıt şəhərində qeyd olunmuşdur [6].

Qubadlı rayonu işğal edilməzdən əvvəl rayonda 61 ümumtəhsil məktəbi, o cümlədən 33 tam orta, 16 ümumi orta (əsas), 12 ibtidai məktəb var idi. Bunlardan əlavə, 1 texniki-peşə məktəbi, əyani-qiyabi məktəb və 5 məktəbdənkənar müəssisə də fəaliyyət göstərirdi. Bu gün onlardan əsər-əlamət qalmayıb [4].

Kəlbəcər rayonunda da işğaldan əvvəl mükəmməl təhsil sistemi formalaşmışdı. Rayonda 96 ümumtəhsil məktəbi, o cümlədən 46 tam orta, 42 ümumi orta, 8 ibtidai məktəb var idi. Bunlardan əlavə, 1 texniki-peşə məktəbı, 8 məktəbdənkənar və 4 məktəbəqədər təhsil müəssisəsi də fəaliyyət göstərirdi. Bu məktəblər də tezliklə bərpa ediləcək [5].

İşğaldan azad edilmiş ərazilərdə işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərmişdir [2].

Ölkəmizdə insan hüquq və azadlıqları, o cümlədən gender bərabərliyi təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi müəyyən edilir. Təhsil Qanununda "bərabərlik" təhsilin əsas prinsiplərindən biri kimi müəyyən edilib və hər bir vətəndaşın təhsil almaq imkanının olması, ayrı-seçkiliyə yol verilməməsi təmin edilib.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə yeni tipli müasir təhsil ocaqlarının tikiləcəyini dəfələrlə bəyan edib. Tezliklə işğaldan azad edilmiş şəhər və kəndlərimizdə böyük quruculuq işləri başa çatacaq. Artıq 30 ilə yaxındır ki, ölkənin digər bölgələrində fəaliyyət göstərən qaçqınlar üçün məktəblər də öz doğma torpaqlarında fəaliyyətini bərpa edəcəklər.

Ölkənin sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınaraq hazırda təhsil prioritet sahələrdən biri kimi qiymətləndirilir. Bütün təhsil müəssisələrində beynəlxalq təcrübə əsasında monitorinqlər aparılır və səmərələşdirmə tədbirləri həyata keçirilir. "Təhsil və təlimin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə növbəti illərdə də bu istiqamətdə işlər davam etdiriləcək.

Təhsilin inkişafı ilə bağlı işğaldan azad edilmiş ərazilərdə tədbirlər xüsusi əhəmiyyətə malikdir. Fikrimizcə, bu istiqamətdə ilk növbədə qeyd edilən tədbirlər həyata keçirilməlidir:

1. Təhsil ehtiyaclarının müəyyənləşdirilməsi, mövcud təhsil infrastrukturunun fəaliyyətinin təşkili və vəziyyətinin qiymətləndirilməsi ilə bağlı işğaldan azad olunmuş ərazilərdə planların hazırlanması;
2. Təhsil müəssisələrinin işğaldan azad olunmuş ərazilərdə tikilməsi və bərpası;
3. Məskunlaşacaq əhaliyə təhsil, səhiyyə, sosial və digər xidmətlərin göstərilməsi üzrə mütəxəssislərin işğaldan azad olunmuş ərazilərdə fəaliyyətlərinin stimullaşdırılması;

4. Prioritet sahələr üzrə məşğulluğun strukturu baxımından mövcud təhsil müəssisələrində mütəxəssislərin hazırlanması;
5. Xüsusi profilli təhsil müəssisələrinin işğaldan azad edilmiş ərazilərdə ənənəvi, coğrafi və s. xüsusiyyətlərinə uyğun (ali, orta ixtisas, məktəbdənkənar, peşə) və əlavə kursların yaradılması.

Növbəti illərdə Azərbaycanda təhsilin inkişafı üzrə dövlət strategiyasına uyğun olaraq dayanıqlı inkişaf məqsədlərinə nail olunması istiqamətində işlər davam etdirilməlidir. Ölkəmizin müasirləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla da Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini artırmaq ölkənin əsas hədəflərindən biri kimi ön planda olmalıdır.

**Açar sözlər:** infrastruktur, qarabağ, təhsil, inkişaf, Azərbaycan, sosial, iqtisadi, məktəb.

**Ədəbiyyat**

1. İbrahimov İ. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri, 151 səh.
2. Qurbanov F. Təhsil nazirinin müavini - "İşğaldan azad edilmiş ərazilərdə gənclərin dayanıqlı və fərdi inkişafı" mövzusunda videokonfrans, 08 Yanvar, 2021 https://www.muallim.edu.az/news.php?id=14125
3. Носкова Н.А. Управление социально-экономическим развитием муниципальных образований. Дисс. канд. экон. наук. Орел, 2003, 236 s.
4. https://gubadli.edu.gov.az/az/page/6926
5. https://xalqqazeti.com/mobile/az/news/86382
6. https://tehsil.biz/news/az/1364/Qubadlnn-thsil-tarixi